**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**
**AĞCABƏDİ FİLİALI**




***Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş***

# *"GƏLƏCƏYƏ BAXIŞ – 2030"*

***mövzusunda***

***Tələbə Elmi Cəmiyyətininin XVI konfransının***

# *MATERİALLARI*

**AĞCABƏDİ 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**
**AĞCABƏDİ FİLİALI**




**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 99-CU İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ**

# “GƏLƏCƏYƏ BAXIŞ-2030”

**mövzusunda**

**TƏLƏBƏ ELMİ CƏMİYYƏTİNİN XVI KONFRANSININ**

# MATERİALLARI

*Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Gələcəyə baxiş – 2030” mövzusunda Tələbə Elmi Cəmiyyətininin XVI konfransının materialları ADPU-nun Ağcabədi filialının Elmi Şurasının 14 iyul 2022-ci il tarixli 02/43-s saylı iclasının (Protokol №09) qərarı ilə çap olunur.*

**AĞCABƏDİ-12 MAY 2022**

# KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

**Sədr:**

| | |
|---|---|
| Mobil Məcidov | ADPU-nun Ağcabədi filialının direktoru, dosent |

**Sədr müavini:**

| | |
|---|---|
| Qərənfil Rzayeva | ADPU-nun Ağcabədi filialının "Keyfiyyətin təminatı" şöbəsinin müdiri, "Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi, TEC-in sədri |

**Üzvlər:**

| | |
|---|---|
| Seymur Süleymanov | ADPU-nun Ağcabədi filialının tədris və elmi işlər üzrə direktor müavini, dosent |
| Mahir Səlimov | ADPU-nun Ağcabədi filialının tərbiyə işləri üzrə direktor müavini, dosent |
| Vaqif Allahverdiyev | ADPU-nun Ağcabədi filialının "Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının müdiri, dosent |
| Baxış Ələsgərov | ADPU-nun Ağcabədi filialının "İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının müdiri, dosent |
| Sahib Zeynalov | ADPU-nun Ağcabədi filialının "Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müdiri, dosent |
| Tahir Kərimli | ADPU-nun Ağcabədi filialının "Pedaqoqika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının müdiri, baş müəllim |
| Xəyyam Bədəlov | ADPU-nun Ağcabədi filialının "Pedaqoji" fakültənin dekan müavini, baş müəllim |
| Sahibə Nəsirova | ADPU-nun Ağcabədi filialının "Kompüter mərkəzi"nin müdiri |
| Fatma Əliyeva | ADPU-nun Ağcabədi filialının "Kompüter mərkəzi"nin mütəxəssisi |

**MÜNDƏRİCAT**

***Mobil Məcidov***
*Giriş sözü*........................................................................................................................ 8

***PLENAR İCLAS***

***Seymur Süleymanov***
*Heydər Əliyevin Azərbaycan təhsili və elminin inkişafında rolu*............................................... 10

***Qərənfil Rzayeva***
*Tələbə elmi-tədqiqat işlərinin perspektivləri* .............................................................................. 11

***I BÖLMƏ***
***DƏQİQ ELMLƏR BÖLMƏSİ***

***Bağırlı Ərturqut Muxtar oğlu*** *(RİN1801B). XX əsrin görkəmli riyaziyyatçıları*
*Elmi rəhbər: dos. Zeynalov Sahib Adıgözəl oğlu*........................................................................ 14

***Əsədova Təhminə Sərdar qızı*** *(RİN1901B). Triqonometrik eyniliklərin üstlü tənliklərin həllinə tətbiqi*
*Elmi rəhbər: dos. Zeynalov Sahib Adıgözəl oğlu*........................................................................ 16

***Qasımova Lalə Eldəniz qızı*** *(RİN1801B). Qüvvət sırası və onun müntəzəm yığılması*
*Elmi rəhbər: dos. Süleymanov Seymur Elman oğlu*.................................................................... 20

***Həsənli Nəzrin Niyaz qızı*** *(RİN1801B). Funksiyaların Teylor sırasına ayrılması*
*Elmi rəhbər: dos. Süleymanov Seymur Elman oğlu*.................................................................... 22

***Əsədova Həmidə Xalqıverdi qızı*** *(FM2101B). Barometrik düstur*
*Elmi rəhbər: dos. Hümmətov Əliqulu Mədət oğlu*...................................................................... 25

***Piriyeva Aytəkin Novruz qızı*** *(FM2101B). Səs sürətli və ondan yüksək sürətli axın*
*Elmi rəhbər: dos. Hümmətov Əliqulu Mədət oğlu*...................................................................... 27

***Şahverənova Səbinə Bədrəddin qızı*** *(Rİ-501). Metrik fəzalar.*
*Elmi rəhbər: b/m. Bədəlov Xəyyam Əli oğlu*.............................................................................. 29

***Şahverənova Səbinə Bədrəddin qızı*** *(Rİ-501). Robottexnikaların hazırlanma texnologiyaları.*
*Elmi rəhbər: b/m. Zeynalova Səbinə Cəfər qızı*......................................................................... 33

***Namazlı İlkanə Elişad qızı*** *(Rİ-501). İnformasiya təhlükəsizliyinin aktual problemləri.*
*Elmi rəhbər: b/m. Zeynalova Səbinə Cəfər qızı*......................................................................... 37

***Təhməzova Nurcan Nazim qızı** (İBT1901B). İnkişafetdirici çalışmalarda şagirdlərin təhlil etmə və mühakimə yürütmə qabiliyyətlərini inkişaf etdirən vasitə kimi*
*Elmi rəhbər: b/m. Həziyev Əzizağa Əkbər oğlu.......................................................................... 41*

***Şirinova Salatın Elxan qızı** (RİN-1901B). Orta məktəbdə standart məsələlərin həlli texnologiyası*
*Elmi rəhbər: m. Orucov Zakir Şükür oğlu..................................................................................... 43*

***Həsənova Gülşən Raqif qızı** (RİN-1901B). Olimpiada məsələlərinin həlli texnologiyaları.*
*Elmi rəhbər: m. Orucov Zakir Şükür oğlu..................................................................................... 49*

***Nəzirova Ayşən Zəfər qızı** (Rİ-501). Qədim Şərq riyaziyyatı.*
*Elmi rəhbər: m. Quliyeva Leyla Lələkişi qızı.................................................................................. 54*

## *II BÖLMƏ*
## *HUMANİTAR ELMLƏR BÖLMƏSİ*

***Nurullayeva Kübra Ramiz qızı** (MQT1801B). SSRİ-nin süqutu və müstəqil Azərbaycan respublikasının yaranmasi*
*Elmi rəhbər: dos. B.İ.Ələsgərov .......................................................................................... 58*

***Mürşüdova Mehri Seyidağa qızı** (TC- 501). Azərbaycan Xalq Cumhuriyyətinin daxili siyasəti*
*Elmi rəhbər: dos. Y.A. Səmədov.......................................................................................... 65*

***Nəsirova Ləman Habil qızı** (AZD1901B). Eynəlqqüzzat Miyanəçinin fəlsəfi dünyagörüşü*
*Elmi rəhbər: dos. M.M.Səlimov.......................................................................................... 72*

***Şıxəliyeva Aytən İlhamiz qızı** (TCM1901B). Böyük Qafqazin geomorfoloji xüsusiyyətləri*
*Elmi rəhbər: b/m. F.Ə.Məmmədov.......................................................................................... 78*

***Abbasova Aysel Şahmalı qızı** (TCM1801B). Azərbaycanda alternativ enerji və ondan istifadə*
*Elmi rəhbər: b/m. F.T.Cəfərov.......................................................................................... 79*

***Mikayıllı Mikayıl İslam oğlu** (TC-501). Torpaqların deqradasiyasına iqlim dəyişməsinin təsiri*
*Elmi rəhbər: b/m. F.T.Cəfərov.......................................................................................... 86*

***Şıxalıyeva Ləman Seymur qızı** (TCM1901B). İşgaldan azad olunmuş ərazilərdə ekoloji problemlər*
*Elmi rəhbər: b/m F.T.Cəfərov.......................................................................................... 92*

***Fərəcova Səidə Tahir qızı*** *(TC-501). XX əsrin 20-ci illərində Azərbaycan mədəniyyətinin inkişaf tarixi*
*Elmi rəhbər: b/m. A.B.Əliyev*............................................................................................ *95*

***Qasımov Qaməddin Niyaməddin oğlu*** *(TCM1901B). Mərkəzi Asiyanın Türk xalqları XXI əsrin əvvəllərində*
*Elmi rəhbər: b/m. A.T.Kərimli* ............................................................................................ *98*

***İsgəndərli Emin Elsevər oğlu*** *(TCM1901B). Ekoloji böhran, təbiətin mühafizəsi. Azərbaycanın qırmızı kitabı*
*Elmi rəhbər: m. S.C.Mahmudova*.......................................................................................... *102*

## *III BÖLMƏ*
## *FİLOLOGİYA BÖLMƏSİ*

***Orucova Gülşən Hafiz qızı*** *(AZD2101B). Ağcabədi toponimləri (Hacıbədəlli, Pərioğullar, Ağabəyli, Rəncbərlər və Hüsülü kəndləri)*
*Elmi rəhbər: dos. Məmmədov Sabir Rüstəm oğlu*....................................................................... *106*

***Abbasova Ofeliya Yadigar qızı*** *(AZD2101B). Ağdam toponimləri (Maqsudlu, Qızıllı Kəngərli, Salahlı, Cinli, Alağalı və Kürdlər kəndləri)*
*Elmi rəhbər: dos. Məmmədov Sabir Rüstəm oğlu*....................................................................... *107*

***Şirinova Nəzrin Arif qızı*** *(AZD2101B). Şamaxı toponimləri (Qaravəlli, Mirikənd, Qızmeydan, Quşçu, Qurdtəpə)*
*Elmi rəhbər: dos. Məmmədov Sabir Rüstəm oğlu*....................................................................... *109*

***Quliyeva Aytəkin Rizvan qızı*** *(AZD2001B). B.Vahabzadə yaradıcılığında ana dilinin saflığı uğrunda mübarizə motivləri*
*Elmi rəhbər: dos.Allahverdiyev Vaqif Saleh oğlu*......................................................................... *111*

***Musayeva Urfanə Xudu qızı*** *(AZD2001B). B.Vahabzadənin "Gülüstan"poemasında tarix və müasirlik*
*Elmi rəhbər: dos.Allahverdiyev Vaqif Saleh oğlu*......................................................................... *115*

***Abdullayeva Vəfa Vüqar qızı*** *(AZD1901B). Bəzi Qarabağ toponimləri yeni yanaşma müstəvisində*
*Elmi rəhbər: b/m. Əliyev Əli Umud oğlu*....................................................................... *120*

***İsgəndərli Elşən Xaləddin oğlu*** *(AZD1901B). Azərbaycan dili dərslərində təlim üsullarından istifadənin əhəmiyyəti*
*Elmi rəhbər: b/m. Mikayılova Fəridə Mürşüd qızı*................................................................... *127*

***Həsənova Yasəmən Niyazi qızı*** *(AZD1901B). M.Füzulinin əsərlərinin dilində köməkçi nitq hissələrinin işlənmə vəziyyəti*
*Elmi rəhbər: b/m. Əliyeva Tərlan Əliş qızı.................................................................................. 130*

***Hüseynova Ayulduz Mahir qızı*** *(İBT1901B). İngilis dilli ölkələr.*
*Elmi rəhbər: b/m. Mahmudzadə Səfurə Novruz qızı...................................................................... 135*

***Əliyeva Natəvan Araz qızı*** *(AZD1901B). Anarın "Molla Nəsrəddin – 66" əsərlər toplusunda cəmiyyətdəki eybəcərliklərə qarşı mübarizə motivləri*
*Elmi rəhbər: b/m. Rzayeva Qərənfil Zeyqəm qızı....................................................................... 139*

***Hümbətova Aişə Pəhlivan qızı*** *(İBT2001B). N.Gəncəvinin "Sirlər Xəzinəsi" poemasında humanizm ideyalarının təbliği*
*Elmi rəhbər: b/m. Əmirli Arzu Həsən qızı.................................................................................... 144*

## *IV BÖLMƏ*
## *PEDAQOJİ ELMLƏR BÖLMƏSİ*

***Təhməzova Nurcan Nazim qızı*** *(İBT1901B). Valideynlərlə qarşılıqlı münasibətlərin yeniyetmələrin inkişafına təsiri*
*Elmi rəhbər: b/m. Kərimli Tahir Mehdixan oğlu............................................................ 150*

***Quliyeva Ülviyyə Arif qızı*** *(İBT1901B). Tərbiyə işində milli-mənəvi dəyərlərin rolu*
*Elmi rəhbər: b/m. Kərimli Tahir Mehdixan oğlu............................................................ 154*

***Salahzadə Aysel Faiq qızı*** *(MQT1901B). Azərbaycanda məktəbəqədər tərbiyə və təhsilin inkişaf tarixindən*
*Elmi rəhbər: b/m. Nəcəfov Əlizadə Şəmil oğlu............................................................. 159*

***Qarayeva Fidan Ramil qızı*** *(AZD2001B). Uşaq folkloru, böyük dünyası uşaq gözü ilə*
*Elmi rəhbər: b/m. Məmmədova Sara Muradxan qızı................................................................. 164*

***Şirinova Əcəb Sahib qızı*** *(FM2101B). Dövri sistemin sonu varmı.*
*Elmi rəhbər: b/m. Quliyeva Ülviyyə İnqilab qızı........................................................................ 168*

***Həsənli Türkan Şahin qızı*** *(MQT1901B). Əqli gerilik və onun etimologiyası. Oliqofrenik uşaqların xususiyyətləri*
*Elmi rəhbər: b/m. Quliyeva Ülviyyə İnqilab qızı.......................................................................... 173*

***Quliyeva Fazilə İlham qızı*** *(MQT1901B). Müəllimlərin pedaqoji texnologiyalardan istifadə bacarığı*
*Elmi rəhbər: b/m. Cəfərova Sevil Rafiq qızı*........................................................................ *180*

***Əmrahlı Zərifə Şəhliyalı qızı*** *(İBT1901B). Xəstələrə qulluğun əhəmiyyəti*
*Elmi rəhbər: b/m. Əliyeva Hicran Nəsir qızı*..................................................................... *185*

***Əliyeva Nuray Elşən qızı*** *(TSPX2001B). Müəllimlik fəaliyyətinə verilən psixoloji tələblər*
*Elmi rəhbər: m. Əlizadə Aygün Yaşar qızı*............................................................................ *189*

***Əliyeva Nuranə Vüqar qızı*** *(TSPX2001B). Testlər vasitəsilə şəxsiyyətin psixoloji xüsusiyyətlərinin öyrənilməsi*
*Elmi rəhbər: m. Əlizadə AygünYaşar qızı*.......................................................................... *196*

***Rəhimli Elza Adil qızı*** *(AZD2001B). Əxlaq tərbiyəsinin mahiyyəti və nəzəri-psixoloji əsasları*
*Elmi rəhbər: m. Cəfərova Ətrabə Şirastan qızı*.................................................................... *202*

## GİRİŞ SÖZÜ

*Mobil Məcidov, dosent*
*ADPU-nun Ağcabədi filialının direktoru*

Elm, təhsil ölkənin beynəlxalq aləmdə rolunu müəyyən edən mühüm amillərdən olmaqla yanaşı, maddi-mənəvi dəyərlərin və strateji gücün də göstəricisidir.

Ümummilli Liderimiz Heydər Əliyev təhsilə verdiyi yüksək dəyəri öz nitqində belə ifadə edirdi: “Təhsil millətin gələcəyidir. Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam… Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun, kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipal mövqeyimdir”.

Azərbaycanlı olmağı ilə fəxr edən, özünü sadə Azərbaycan vətəndaşı kimi hiss edib müəllim adını bütün adlardan uca tutan Ulu Öndər müəllimə həmişə yüksək qiymət vermiş və Azərbaycan Respublikasına rəhbərlik etdiyi bütün dövrlərdə təhsilin, elmin inkişafı üçün bir çox yeniliklər etmişdir.

Ümummilli Lider Heydər Əliyevin sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsinin açılmasına və ali məktəblərdə təhsilalanların sayının 70 mindən 100 minə qədər artırılmasına müvəffəq olunmuşdur. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və onun təşəbbüsü, birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir.

Ulu Öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. O, təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır.

Ulu Öndərin hakimiyyətə ikinci dəfə gəlişi isə ölkədə sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü kimi yaddaşlara hopub. Xüsusən, gənc nəslin təlim-tərbiyəsi,təhsili və elmi potensialının gücləndirilməsi istiqamətində apardığı daxili siyasət nəticəsində əldə edilən nailiyyətlər danılmazdır. Ulu öndər Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək söyləyirdi: “Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki, Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır”.

Yaşadığımız “təhsil əsri”ndə Ulu Öndərin işlərini onun layiqli siyasi varisi, strateji fəaliyyət xəttinin etibarlı davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir və ardıcıl olaraq ölkədə təhsil sahəsində məqsədyönlü islahatlar həyata keçirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarının birində deyilir: “Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Neft, qaz tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra təmin

edəcəkdir. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o ölkənin inkişafında ən aparıcı rol oynayan neft, qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır”.

Aparılan siyasətin, görülən işlərin nəticəsi kimi tam əminliklə deyə bilərik ki, bu gün Azərbaycan gəncliyi öz intellektual, kreativ və mənəvi-ideoloji yetkinliyi ilə dünya gəncləri arasında qibtə olunacaq dərəcədə nüfuz qazanıb.

Vaxtilə Ulu Öndərin gənclərə göstərdiyi etimad və qayğının davam etdirilməsi istiqamətində bu gün də ölkəmizdə ardıcıl iş aparılr. Gənclər elmi-tədqiqat işlərinə cəlb olunur, onların apardığı elmi araşdırmalar layiqincə qiymətləndirilir.

Bu gün ADPU-nun Ağcabədi filialında təşkil olunan *“GƏLƏCƏYƏ BAXIŞ – 2030”* mövzusunda Tələbə Elmi Cəmiyyətinin XVI konfransı da bu ali məqsədə xidmət edir.

Cari tədris ilində, filialın Pedaqoji fakültəsi, kafedralar, kafedra əməkdaşları Tələbə Elmi Cəmiyyətinin təşkil etdiyi XVI konfransa böyük əmək sərf etmiş və tələbələrin müvafiq bölmələr üzrə apardıqları elmi-tədqiqat işlərinə uğurla rəhbərlik etmişlər.

Aprel ayı ərzində filialın müvafiq kafedralarında, ayrı-ayrı vaxtlarda yüksək formada tələbə elmi-tədqiqat işlərinin ilkin müzakirəsi təşkil edilmişdir.

TEC-nun bugünkü konfransı öz işini plenar iclasdan sonra 4 bölmə üzrə - “Filologiya” bölməsi, “Humanitar elmlər” bölməsi, “Dəqiq elmlər” bölməsi və “Pedaqoji elmlər” bölməsi olmaqla 4 istiqamət üzrə davam etdirəcəkdir. Bölmə iclaslarının müvafiq auditoriyalarda keçirilməsi müəyyənləşdirilmişdir. Plenar iclasdan sonra hər bir bölmə öz iclasını keçirməli və nəticələri ümumiləşdirərək filial rəhbərliyi və Tələbə Elmi Cəmiyyətinə təqdim etməlidir.

Qarşıda olduqca məsuliyyətli və səmərəli bir proses bizi gözləyir. Elmin müxtəlif sahələrini əhatə edən tələbə elmi-tədqiqat işlərinin müdafiəsində tələbələrimizə və onların elmi rəhbərlərinə uğurlar diləyir və nəticələri səbrsizliklə gözləyirik.

Bununla da, Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş ***“GƏLƏCƏYƏ BAXIŞ – 2030”*** mövzusunda TEC-nin XVI konfransının işini açıq elan edir və konfransın işinə uğurlar arzulayıram.

## PLENAR İCLAS

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN TƏHSİLİ VƏ ELMİNİN İNKİŞAFINDA ROLU

*Seymur Süleymanov*
*ADPU-nun Ağcabədi filialının tədris və elmi işlər üzrə direktor müavini, dosent*

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil müəsisələləri xüsusi yer tutur. Ulu öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Dahi rəhbər deyirdi: “Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır”.

Ulu öndərimiz həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, illər boyu bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirmişdir.

İstər Azərbaycana birinci, istərsə də ikinci rəhbərliyi dövründə ümummilli lider Heydər Əliyev daim təhsilə, tərbiyəyə strateji sahə kimi baxmış, vətənin, xalqın tərəqqisində onların roluna yüksək qiymət vermişdir. “Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir”, – deyən müdrik rəhbər Azərbaycan təhsilinin inkişafı naminə son dərəcə böyük işlər görmüşdür. Böyük dövlət xadimi təhsilə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı kimi baxmamış, bütövlükdə, hər bir insanın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətdə gedən tərəqqi prosesində yaxından iştirak etməsində təhsilin mühüm rola malik olduğunu önə çəkərək demişdir: “Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır”.

Müstəqil Azərbaycanın təhsil sisteminin qarşısında duran məqsəd və vəzifələrdən bəhs edərkən dahi şəxsiyyət Heydər Əliyev təlim prosesinin düzgün qurulmasının böyük amalların, ideyaların, vəzifələrin gerçəkləşməsi, bütövlükdə, xalqın və ölkənin sabahkı taleyi üçün son dərəcə vacib əhəmiyyət daşıdığını konkret şəkildə nəzərə çatdırmışdır: “İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsəd Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır”.

Ulu öndərin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev digər sahələrlə yanaşı milli təhsilimizin inkişafı, beynəlxalq aləmə inteqrasiyasını daha da sürətləndirmək istiqamətində həyata keçirdiyi tədbirlər artıq öz bəhrəsini verir.

Azərbaycanın təhsil sisteminin normativ-hüquqi bazasının yaradılması, təhsilin məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsi, təhsilin idarə olunmasının demokratikləşdirilməsi, təhsil sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində çox böyük işlər görülüb. Məhz bunun nəticəsidir ki, bu gün biz təhsilin keyfiyyətinin inkişaf etmiş ölkələrin səviyyəsinə yüksəldilməsi ilə bağlı qürur hissi keçiririk.

Bütün bunlar Prezident İlham Əliyevin təhsilə, təhsil işçilərinə göstərdiyi yüksək diqqət və qayğısı, səmərəli fəaliyyət üçün yaratdığı əlverişli şərait və imkanlar sayəsində mümkün olub. ”Təhsi haqqında” Qanunun qəbul edilməsi, təhsil sistemində əsaslı islahatların daha sürətlə davam etdirilməsi, ən mütərəqqi texnologiyaların tətbiqi, müəllimlərin əmək haqlarının mütəmadi olaraq artırılması, onların pedaqoji biliyinin, təcrübəsinin yüksəldilməsi və bu sahənin dünya səviyyəsinə yüksəldilməsinə imkan verib.

Azərbaycanın həm avropaya, həm də dünya birliyinə sürətli inteqrasiyası bir daha təsdiqləyir ki, bu gün Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasi xətt Azərbaycanın adını daha yüksək zirvələrə qaldıracaq.

Ulu öndərimiz Heydər Əliyev bütün varlığı ilə doğma xalqına və Vətəninə bağlı olmuşdur. Ölkəmizin bütün sahələrində olduğu kimi, elm və təhsil sahəsində də davamlı inkişafının təməlini Heydər Əliyev qoymuşdur. Azərbaycan yaşadıqca Ulu Öndərin adı hər zaman onunla qoşa çəkiləcəkdir. Daim Heydər Əliyevin ideyalarına sadiq qalan Azərbaycan dövlətçiliyi dahi şəxsiyyətin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində daha da güclənəcək.

## TƏLƏBƏ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN PERSPEKTİVLƏRİ

*Qərənfil Rzayeva*
*ADPU-nun Ağcabədi filialının “Keyfiyyətin təminatı” şöbəsinin müdiri, “Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası” kafedrasının baş müəllimi, TEC-in sədri*

Salam, hörmətli konfrans iştirakçıları!

Bu günlərdə bizlərin bir araya toplaşmasına vəsilə olan yüksək mənəvi dəyərin – xalqımızın Xilaskarı, müasir Azərbaycanımızın memarı olan dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ölkə həyatının müxtəlif sahələrində, aidiyyatı formada qeyd olunmaqdadır.

ADPU-nun Ağcabədi filialı olaraq, həmçinin bölgədə yeganə ideoloji mərkəz kimi bu istiqamətdə həyata keçirilən silsilə tədbirlər içərisində bugünkü konfransımız da yer almaqdadır.

Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “GƏLƏCƏYƏ BAXIŞ – 2030” mövzusunda TEC-nin XVI konfransında cəmiyyətin sədri olaraq görülən işlərə və eləcə də tələbə elmi-tədqiqat işlərinin perspektivlərinə həsr olunmuş çıxışımı Ulu Öndərimiz Heydər Əliyevin gənclər haqqında dəyərli sözlərilə başlamaq istəyirəm.

"Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır".

Dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı peşəkar kadrların yetişdirilməsindən, gənclərin cəmiyyətin bütün sferalarında iştirakından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Gənclərin potensialından düzgün istifadə, bu istiqamətdə siyasətin doğru qurulması heç şübhəsiz ki, hər bir dövlətin gələcəyinin sığortasıdır. Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir. Daha yığcam formada ifadə etsək, gənclərə münasibət həmin dövlətin öz gələcəyinə münasibətidir.

Azərbaycanda müstəqillik dövrünün ilk illərində hökm sürən hərc-mərclik şəraitində çox sayda gənclər təşkilatları yaransa da, onların əksəriyyətində siyasiləşmə meyilləri öz əksini tapmışdı. Lakin Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı siyasi qurumlarda deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı.

Ümummilli Lider Heydər Əliyev ölkə rəhbəri olduğu ilk dövrlərdən gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib. Onun potenisal güc mənbəyi kimi elmi-fiziki güclərinə üstünlük verdiyi, ictimai və sosial həyatın, cəmiyyət quruculuğunun bütün sferalarında təmsil olunmalarına geniş imkanlar yaratdığı qüvvə həmişə gənclər olub.

Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu Öndər Heydər Əliyevin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Əlbəttə, milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı ulu öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Ümummilli Liderimiz həmişə gənclərimizə böyük ümidlər bəsləyir, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Heydər Əliyev həyatı boyu, respublikaya rəhbərliyinin bütün dövrlərində sağlam, normal gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsinə xidmət etmişdir.

Ulu Öndərin ən böyük xidmətlərindən biri də o idi ki, gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir, bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi

dəyərləndirirdi.

Məhz Ulu Öndərin gənclər siyasətinin uğurlu nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb.

Gənclərin, xüsusən ali təhsil müəssisələrində təhsil alan tələbələrin hərtərəfli inkişafı, elmin-təhsilin nailiyyətlərindən yaradıcı şəkildə bəhrələnmələri üçün xüsusi təşkilat və cəmiyyətlər fəaliyyət göstərir ki, Tələbə Elmi Cəmiyyəti də məhz bu ali məqsədə xidmət edir. ADPU-nun Ağcabədi filialında da TEC-i tələbələrin elmi-tədqiqat və elmi-praktiki işlərinin təşkili, həmçinin koordinasiyası üçün yaradılmış və öz fəaliyyətini alim və müəllimlərin iştirakı ilə həyata keçirən tələbə birliyidir.

TEC öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Təhsil Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli 295 nömrəli Sərəncamına uyğun olaraq Azərbaycan Respublikası Təhsil Nazirinin 27.06.2014-cü il 752 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində təhsil alanların elmi-tədqiqat işinin təşkili haqqında" Əsasnaməsini, eləcə də ADPU-nun əmr və sərəncamlarını, ADPU-nun Ağcabədi filialının Nizamnaməsini əldə rəhbər tutur.

Filialın TEC-i ötən tədris ilində öz işini məsafədən qurmasına baxmayaraq, yüksək nailiyyət əldə etdi və rəhbərliyin stimullaşdırma məqsədilə TETİ ilə məşğul olan tələbələrin növbəti semestrdə sərbəst işlərin yazılmasından azad olunması barədə verdiyi qərar gənclərin elmi-tədqiqat işlərinə olan həvəsini daha da artırdı.

Əvvəlki illərdən fərqli olaraq Tələbə Elmi Cəmiyyətinin ötən ilki konfrans materialları toplu şəklində filialın kompüter mərkəzində yığılaraq çap üçün hazır vəziyyətə gətirilmişdir.

Qarşıda bizi daha böyük hədəflər gözləyir. Zaman bizi daha artıq fəaliyyətə və elmi araşdırmalara səsləyir. Çünki torpaqlarımız işğaldan azad edilib. Dövlətimizin bu sahəyə ayırdığı diqqət və apardığı məqsədyönlü siyasət elm-təhsil müəssisəsi olaraq bizlərin də qarşısında mühüm tələblər qoyur. Bir Azərbaycan vətəndaşı olaraq çalışmalıyıq ki, bundan sonrakı fəaliyyətimizi daha sistemli quraq və apardığımız tədqiqatlarla ölkə həyatının müəyyən bir istiqamətdə inkişafına töhfələrimizi verək. İlkin müzakirələr prosesində diqqətimi çəkən bir elmi-tədqiqat işini xüsusi vurğulamaq istəyirəm. "Azərbaycanda alternativ enerji və ondan istifadə" mövzusunda aparılan tədqiqat işində işğaldan azad edilmiş torpaqlarda inşa edilən yeni binalar və onların enerji sistemi ilə bağlı aparılan tədqiqat işi mövzusunun aktuallığı və araşdırma səviyyəsinə görə diqqətimi özünə çəkdi. Təbii ki, burada hər bir tədqiqat işi haqqında ayrıca danışmaq üçün vaxt limiti imkan vermir. Hesab edirəm ki, gətirdiyim bu nümunə bundan sorakı illərdə araşdırmaya cəlb ediləcək mövzuların daha aktual seçilməsi üçün zəmin olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

# I BÖLMƏ

## “DƏQİQ ELMLƏR” BÖLMƏSİ

## XX ƏSRİN GÖRKƏMLİ RİYAZİYYATÇILARI

*Tələbə: Bağırlı Ərturqut Muxtar oğlu (qrup RİN1801B)*
*Elmi rəhbər: dos. S.A. Zeynalov*
*osqar5826@gmail.com*

Riyaziyyatın tarixi təxminən bəşəriyyətin özü qədər qədimdir. Qədim dövrlərdən bəri riyaziyyat elm, mühəndislik və fəlsəfədə irəliləyişlər üçün əsas olmuşdur. O, sadə hesablama, ölçmə və hesablama, fiziki cisimlərin forma və hərəkətlərinin sistematik öyrənilməsi ilə inkişaf etmişdir. İlkin insanın beyin sümüklərindən tutmuş Mesopotamiya və Misirdə oturaq kənd təsərrüfatının gətirdiyi riyazi irəliləyişlərə, Qədim Yunanıstanın və onun Ellinist imperiyasının inqilabi inkişaflarına qədər riyaziyyatın uzun və maraqlı hekayəsi vardır. Riyaziyyatın bir elm kimi formalaşması b.e.ə VI əsrə təsadüf edir. Riyaziyyat elmi həmin dövrdən bu yana keçən 20-30 əsr ərzində çox güclü inkişaf etmişdir.

Riyaziyyat elminin inkişaf tarixini əsasən dörd mərhələyə bölürlər.

Birinci mərhələ: Riyaziyyatın yaranması dövrü: bu dövr zaman etibarı ilə b.e.ə VI-V əsrə qədər olan müddəti əhatə edir. Bu mərhələ praktik hesablama və ölçmələrlə bağlı olub ədəd və fiqur anlayışının yaranmasına gətirib çıxarmışdır. Bu dövr sadə riyazi hesablama və ölçmələrlə bağlı olub, fiqurların perimetirlərinin, sahələrinin və s. hesablanması ilə xarakterizə olunur. Bu dövrdə hesab həndəsənin əsası qoyulmuşdur ki, bu da praktik məsələlərin həlli üçün müəyyən olunmuş, empirik qaydaların mövcudluğunda özünü biruzə verir. Hesab-ədəd və onlar üzərində dörd əməldən ibarət olan elmi əməldir.

İkinci mərhələ: B.e.ə V-IV əsrlərdən b.e. başlanğıcına qədər olan dövrü əhatə edir. Bu dövrlərdə riyaziyyatın atıq bir elm kimi, öz tədqiqat üsulları və metodları yaranıb. Bu dövr “sabit kəmiyyətlər riyaziyyatı” dövrü adlanır. Bu dövrün riyaziyyatını Aristotel kəmiyyət haqqında elm kimi xarakterizə edirdi. Bu dövr Evklidin və Arximedin əsərlərində də inkişaf etmiş deduktif metodun yaranması ilə müşahidə olunurdu. Bu dövrdə riyaziyyatının yeni sahəsi olan Cəbr yaranmış və inkişaf etmişdir. Xüsusi simvollar yaranmış və riyaziyyatın tətbiq sahəsi xeyli genişlənmişdir.

Üçüncü mərhələ: Dəyişən kəmiyyətlər dövrüdür. Bu dövr XVIII-XIX əsrləri əhatə edir. Dekartın dəyişən kəmiyyətlər anlayışını riyaziyyata daxil etməsi bu elmin böyük dərəcədə inkişafına səbəb oldu. Dəyişən kəmiyyətlər anlayışından sonra riyaziyyata funksiya, kəsilməzlik, törəmə, inteqral və s. anlayışlar daxil edildi. Riyazi analizin yaranması ilə təbiətin dərk olunması işini rahatlaşdı.

Dördüncü mərhələ: XIX əsrdən sonrakı dövrü əhatə edir. Bu dövr abstrakt riyaziyyatın yaranması və riyazi modellərin formalaşması kimi xarakterizə olunur. Klassik riyaziyyat həm

elmin özü, həm də tətbiq sahəsi üçün çox darlaşır və onların həqiqi vəziyyəti ilə zidiyyət təşkil etməyə başlayır. Riyaziyyatın tətbiq sahəsinə onu idarə edən, aksiomlar sistemi olaraq müxtəlif riyazi struktur təşkil edən, ixtiyari təbiətli elementlər çoxluğunda təyin olunmuş əməliyyat və münasibətlər yararanır. Bununla bağlı olaraq, müasir riyazi struktur təşkil edən ixtiyari təbiətli elementlər çoxluğunda təyin olunmuş əməliyyat və münasibət yaradılır. Bununla bağlı olaraq müasir riyazi srukturlar və onların modelləri haqqında elm kimi təyin olunmağa başlayır.

XX əsr riyaziyyat tarixi 1900-cü ilin yayında Parisdə Sorbonnada keçirilən tarixi konqress ilə başladı. Bu konqress gənc alman riyaziyyatçısı David Hilbertin məruzəsi ilə yadda qalmışdır. Hilbert mühazirəsində günün riyazi problemi kimi gördüyü 23 ən böyük həll edilməmiş problemləri təqdim edib. “Hilbert problemləri” adlanan bu problemlər 20-ci əsr riyaziyyatının gündəmini müəyyənləşdirdi və gələcək nəsillərin riyaziyyatçıları üçün həlli axtarılan məsələlər qoydu. Bu 23 problemdən 10-u həll olunub, 7-i qismən həll olunub və 2-i (Rimann fərziyyəsi və Abel uzantılarına dair Kroneker-Veber teoremi) hələ də açıqdır, qalan 4-ü isə həll olunmuş kimi hesab etmək olar.

20-ci əsrin əvvəlləri həm də Cüzeppe Peano, Brouver, David Hilbert, Bertrand Russell və Vitheadın işlərindən bəhrələnən Gottlob Fregenin əvvəlki nailiyyətləri əsasında qurulan riyazi məntiq sahəsinin yüksəlişinin başlanğıcını qoydu. Onun monumental həmmüəllifi olduğu “Riyaziyyyat Prinsipləri” əsəri riyazi və fəlsəfi məntiqdə çox əhəmiyyətli olmuşdur.

XX əsrdə azərbaycanlılardan Zahid Xəlilov (1911-1974), Əşrəf Hüseynov (1907-1981), Akademik İbrahim İbrahimov (1912-1994), Akademik Məcid Rəsulov (1916-1993), AMEA-nın müxbir üzvü Maqsud Cavadov (1902-1972), professor Mirabbas Qasımov (1939-2008), AMEA-nın müxbir üzvü Arif Babayev (1934-1998), Akademik Fərəməz Maqsudov(1930-2000), AMEA-nın müxbir üzvü Qoşqar Əhmədov (1917-1975), AMEA-nın müxbir üzvü Yəhya Məmmədov (1930-2000), AMEA-nın müxbir üzvü Mais Cavadov(1929-1992), Lütfəli Ələsgərzadə (1921-2017), Rafiq Əliyev (1942), Misir Rəhimov (1934) və Allahverdiyev Cəlal (1929-2017) kimi alimlərin riyaziyyatın inkişafında böyük rolu olmuşdur.

XX əsrdə dünyada Con Forbes Naş (1928-2015), Şrinivasşa Ramanujan (1887-1920), Con Fon Neyman(1903-1957), Donalt Knuz (1938), Kurt Gödel (1906-1978), Aleksandır Qrozendik (1928-2014), Şakuntala Devi(1929-2013), Rocer Penrose (1931), Herman Klaus Huqo Veyl (1885-1955), Sedrik Villiani (1973), Maykıl Atiyah (1929-2019), Andrey Kalmaqarov (1903-1987), Alferd Tarski (1901-1983), Andrey Veyil (1906-1998), Robert Con Aumann(1930), Robert Lenqlend(1936), Fredholm Erik İvar (1866-1927), La Vale Pussen Şarl Jan (1866-1962) və Peano Cüzeppe (1858-1932) kimi alimlərin riyaziyyatın inkişafında əsaslı rolu olmuşdur.

**İstifadə olunmuş ədəbiyyalar:**

1. https://mathshistory.st-andrews.ac.uk/
2. https://www.thefamouspeople.com/20th-century-mathematicians.php
3. Məktəbli kitabxanası. Riyaziyyat ensklopediyası . I hissə, Bakı: Çaşıoğlu, 2011.
4. П.Ф. Фильчаков - Справочник по высшей математике. Киев-1973
5. А. Г.Свешников, А. Н. Тихонов Теория функций комплексной переменной. Изд. 2. <<Наука>>. М., 1970.

6. Митропольский Ю.А. Проблемы асимптотической теории нестационарных колебаний. <<Наука>>, М., 1964.
7. Пойа Д. Математическое открутие. Решение задач: основные понятия, изучение и преподавание. <<Наука>>, М., 1970.
8. Г.Е. Шилов Математический анализ. Функции одного переменного; ч. 1-2. <<Наука>>, М., 1969. ч. 3. <<Наука>>, М., 1970.

## TRİQONOMETRİK EYNİLİKLƏRİN ÜSTLÜ TƏNLİKLƏRİN HƏLLİNƏ TƏTBİQİ

*Tələbə:Əsədova Təhminə Sərdar qızı (qrup RİN1901B)*
*Elmi rəhbər: dos. S.A. Zeynalov*
*tehmine esedova.101@gmail.com*

Üstlü tənliklər içərisində ən sadəsi $a^x = b(a > 0, a \neq 1)$ şəklində olan tənliklərdir. İxtiyari sadə üstlü tənliyin həlli əsasən üç üsulla həll olunur:

1) Verilmiş tənliyin $a^{f(x)} = a^{g(x)}$ şəklinə gəitrələrək, üstlərini bərabərləşdirib $f(x) = g(x)$ tənliyini həll etməklə;

2) Ortaq vuruğu mötərizə xaricinə çıxarmaqla;

3) Yeni dəyişən daxil edərək cəbri tənliyə gətirməklə.

Ancaq üstlü funksiyanın iştirak etdiyi bir sıra transedent tənliklərə rast gəlmək olur ki, onların yuxarıdan qeyd olunan bu üsulların heç biri ilə həl etmək olmur. Ona görədə üstlü tənliklərin həlli həmişə aktualdır və araşdırılması zərurəti yaranır. İşdə müxtəlif üstlü tənliklərin həllində tətbiq olunan süni üsulların axtarışı qarşıya məqsəd kimi qarşıya qoyulmuşdur.

1. Üstlü tənliklər və onların həlli.

Tərif 1: Dəyişəni qüvvət üstündə yerləşən tənliklərə üstlü tənliklər deyilir.
$a^x = b(a > 0, a \neq 1)$ şəklində olan üstlü tənliyə sadə üstlü tənlik deyilir. $a^x > 0$ olduğu üçün $b \leq 0$ olduqda tənliyin həlli yoxdur. $f(x) = a^x$ funksiyasının monotonluğuna və tərs funksiya haqqında teoremə əsasən demək olar ki, $b > 0$ olduqda $a^x = b$ tənliyinin yeganə kökü vardır.

Üstlü tənliklərə belə də tərif vermək olar:
$a^{f(x)} = a^{g(x)}$ şəklində olan yaxud bu şəklə gətirilən tənliklər üstlü tənliklər adlanır. Burada $a > 0$ və $a \neq 1$.

$a > 0$ və $a \neq 1$ olduqda $a^{f(x)} = a^{g(x)}$ şəklində olan üstlu tənlik $f(x) = g(x)$ tənliyi ilə eynigüclüdür.

Üstlü tənlikləri həll edərkən əsasən 4 üsuldan istifadə olunur.

1. Əsasları bərabərləşdirməklə həll oluna bilən üstlü tənliklər.

Misal 1: $3^{2x-6} = 25^{3-x}$ tənliyini həll edin.

Həlli: $3^{2x-6} = 25^{3-x} \Leftrightarrow 3^{2x-6} = 5^{6-2x} \Leftrightarrow$

$\Leftrightarrow 3^{2x-6} = \frac{1}{5^{2x-6}} \Leftrightarrow 15^{2x-6} = 1 \Leftrightarrow 15^{2x-6} = 15^0 \ \Leftrightarrow 2x - 6 = 0 \Leftrightarrow x = 3.$ Cavab: {3}

2. Ortaq vuruğu mötərizə xaricinə çıxarmaqla həll oluna bilən üstlü tənliklər.

Misal 2: $7^{x+2} - 3 \cdot 7^{x+1} = 4$ tənliyini həll edin.

Həlli:

$7^{x+2} - 3 \cdot 7^{x+1} = 4 \Leftrightarrow 49 \cdot 7^x - 3 \cdot 7 \cdot 7^x = 4 \Leftrightarrow (49 - 21) \cdot 7^x = 4 \Leftrightarrow 28 \cdot 7^x = 4$

$\Leftrightarrow 7^x = 7^{-1} \Leftrightarrow \Leftrightarrow x = -;$

Cavab: $\{-1\}$

3.Yeni dəyişən daxil etməklə həll edilən tənliklər.

$Aa^{2f(x)} + Ba^{f(x)} + C = 0$ şəklində tənliklər $a^{f(x)} = y$ əvəzləməsi ilə $Ay^2 + By + C = 0$ kvadrat tənliyə gətirilərək həll olunur.

Misal 3: Tənliyi həll edin.

$$5 \cdot 2^{2x^2-6x} + 3 \cdot 2^{x^2-3x} - 8 = 0$$

Həlli:

$2^{x^2-3x} = y$ əvəz etsək, $5y^2 + 3y - 8 = 0$ alarıq. Tənliyi həll etsək, $y_1 = -1{,}6$ və $y_2 = 1$ olar. $2^{x^2-3x} > 0$ olduğundan $2^{x^2-3x} = -1{,}6$ tənliyinin həlli yoxdur. $2^{x^2-3x} = 1 \Leftrightarrow 2^{x^2-3x} = 2^0 \Leftrightarrow$
$x^2 - 3x = 0 \Leftrightarrow$

$x_1 = 0$ və $x_2 = 3;$ Cavab: {0,3}

4. Əsasında dəyişən iştirak edən üstlü tənliklər.

Əsaında dəyişən iştirak edən tənliklərin ən sadə forması $(f(x))^{g(x)} = b$ qüvvət üstlü tənliklərdir. Belə tənliklərin həlli zamanı 3 hala baxmaq lazımdır:

1) $f(x) = 0$; 2) $f(x) = 1$; 3) $f(x) > 0$ və $f(x) \neq 1$.

Misal 4: Tənliyi həll edin.

$$(x + 4)^{x^2+5} = (x + 4)^{6x}$$

Həlli:

$x + 4 = 0$ olarsa, onda $x = -4$ olar. Bu halda tənliyin sol tərəfində $0^{21}$, sağ tərəfində isə $0^{-24}$ alınır. Axırıncı ifadənin mənası olmadığından $x = -4$ tənliyin kökü deyildir. $x + 4 = 1$ olarsa, onda $x = -3$ olar və tənlikdə yazsaq, $1^{14} = 1^{-18}$ döğru bərabərliyini alarıq. Deməli $x_1 = -3$ tənliyin köküdür. $x + 4 > 0$ və $x + 4 \neq 1$ olarsa $x^2 + 5 = 6x \Leftrightarrow x^2 - 6x + 5 = 0 \Leftrightarrow$
$\Leftrightarrow x_2 = 1$ və $x_2 = 5$. Cavab: $\{-3{,}1{,}5\}$

2.Triqonometrik eyniliklər haqqında məlumat.

Əsas triqonometrik eyniliklər.

1. $cos^2\alpha + sin^2\alpha = 1$
2. $tg\ \alpha \cdot ctg\alpha = 1$
3. $tg\ \alpha = \frac{\sin\alpha}{\cos\alpha}$
4. $ctg\ \alpha = \frac{\cos\alpha}{\sin\alpha}$
5. $1 + tg^2\alpha = \frac{1}{cos^2\alpha} = sec^2\alpha$

6. $1 + ctg^2\alpha = \frac{1}{sin^2\alpha} = cosec^2\alpha$

İkiqat arqumentin triqonometrik eynilikləri.

1. $\sin 2\alpha = 2sin\alpha \cos\alpha$;
2. $\cos 2\alpha = sin^2\alpha - \cos^2\alpha = \cos^4\alpha - \sin^4\alpha$;
3. $tg\ 2\alpha = \frac{2tg\alpha}{1+tg^2\alpha}$;
4. $ctg\ 2\alpha = \frac{ctg^2\alpha - 1}{2ctg\ \alpha}$

3.Triqonometrik eyniliklərin üstlü tənliklərə tətbiqi.

Misal 1: $7^x + 3^x = 10^x$ tənliyini həll edək.

Həlli: Tənliyi həll etmək üçün ğyrəndiyimiz analitik üsulların heç biri yaramır. Belə olan halda qrafik üsula müraciət etmək olar. Bu məqsədlə tənliyin hət tərəfini $10^x$ -ə bölək:

$$\left(\frac{7}{10}\right)^x + \left(\frac{3}{10}\right)^x = 1 \Leftrightarrow \left(\frac{7}{10}\right)^x = 1 - \left(\frac{3}{10}\right)^x \qquad (1)$$

$y_1 = \left(\frac{7}{10}\right)^x$ funksiyası öz təyin oblastında azalır, doğrudan da $y_1' = \left(\frac{7}{10}\right)^x ln\frac{7}{10} < 0$ münasibəti ödənilir. $y_2 = 1 - \left(\frac{3}{10}\right)^x$ funksiyası isə öz təyin oblatında artır, doğrudan da $y_2' = -\left(\frac{3}{10}\right)^x ln\frac{3}{10} > 0$ münasibəti ödənilir. Bu funksiyaların qrafiklərini eyni bir koordinat sistemində quraq.




Qrafiklərdən göründüyü kimi birinci funksiya $(-\infty; +\infty)$ intervalında azalaraq sıfıra yaxınlaşır, ikinci funksiya isə artaraq $+\infty$-a yaxınlaşır. Ona görədə onların qrafiklərinin (1; 0,7) nöqtələrindən başqa kəsişməsi qeyri mümkündür. Deməli verilmiş tənliyin yeganə kökü vardır və bu kök həmin nöqtənin absisidir. $x = 1$.

Bu tənliyi triqonometrik eyniliyin tətbiqi ilə də həll etmək olar.

(1) tənliyini onunla eynigüclü olan aşağıdakı tənlik şəklində yazaq:

$$\left(\sqrt{\frac{7}{10}}\right)^{2x} + \left(\sqrt{\frac{3}{10}}\right)^{2x} = 1 \qquad (2)$$

$-1 < \sqrt{\frac{7}{10}} < 1$ olduğundan $(-1;\ 1)$ intervalına daxil olan elə bir $\alpha_0$ həqiqi ədədi

vardır ki, $\sin\alpha_0 = \sqrt{\frac{7}{10}}$ olur. Onda əsas triqonometrik eyniliyə əsasən

$\cos\alpha_0 = \sqrt{1-\cos^2\alpha} = \sqrt{1-\frac{7}{10}} = \sqrt{\frac{3}{10}}$ olar. Bu münasibətləri (2) tənliyində yazsaq, alarıq:

$$\sin^{2x}\alpha_0 + \cos^{2x}\alpha_0 = 1 \qquad (3)$$

Əgər (3) tənliyini $\sin^2\alpha_0 + \cos^2\alpha_0 = 1$ eyniliyi ilə müqayisə etsək,
$2x = 2 \iff x = 1$ alarıq. Cavab: $\{1\}$

Misal 2: $2^x + 2 = 2\sqrt{3^x}$ tənliyini həll edək.

Həlli: Tənliyin hər tərəfini $2\cdot 2^x$-ə bölək:

$\frac{1}{2} + (\frac{1}{2})^x = (\frac{\sqrt{3}}{2})^x \iff (\frac{1}{2})^x - (\frac{\sqrt{3}}{2})^x = -\frac{1}{2} \iff (\cos 60°)^x - (\sin 60°)^x = \cos 2\cdot 60°.$

Axırıncı tənliyi $\cos 2\alpha = sin^2\alpha - \cos^2\alpha = \cos^4\alpha - \sin^4\alpha$ eyniliyi ilə müqayisə etsək, $x_1 = 2$ və $x_2 = 4$ alarıq.

Cavab: $\{2; 4\}$

Digər triqonometrik eyniliklərin tətbiqinə aid misalları nəzərdən keçirmək olar.

Misal 3: $(\frac{2x}{1+x^2})^y + (\frac{1-x^2}{1+x^2})^y = 1$ tənliyi həll edin.

Həlli:

Məlumdur ki, $(1-x)^2 \geq 0 \iff 1-2x+x^2 \geq 0 \iff 2x \leq 1+x^2 \iff \frac{2x}{1+x^2} \leq 1$. Asanlıqla isbat etmək olar ki, $x \in R$ olduqda, $-1 \leq \frac{2x}{1+x^2} \leq 1$ olur. Bu isə $y = \sin x$ yaxud $y = \cos x$ funksiyasının qiymətlər oblastıdır. Ona görə də

$\sin\alpha_x = \frac{2x}{1+x^2}$ götürmək olar. Əsas triqonometrik eyniliyə əsasən $\cos\alpha_x = \pm\sqrt{1-sin^2\alpha_x} = \pm\sqrt{1-\frac{4x^2}{(1+x^2)^2}} = \pm\sqrt{\frac{(1+x^2)^2-4x^2}{(1+x^2)^2}} = \pm\frac{|1-x^2|}{1+x^2} = \frac{1-x^2}{1+x^2}$.

Beləliklə $(\sin\alpha_x)^y + (\cos\alpha_x)^y = 1$ tənliyini alarıq. Buradan aydın görünür ki, $y = 2$ olduqda əsas triqonometrik eynilik alınır. Deməli $x \in R$ və $y = 2$ olduqda tənlik eyniliyə çevrilir. $\sin\alpha_x = 1$ olduqda $\cos\alpha_x = 0$ olur. Bu halda isə y istənilən ədəd olduqda tənlik doğru bərabərliyə çevrilir. $\sin\alpha_x = 1$ münasibətindən $\alpha_x = \frac{\pi}{2} + \pi k, k \in Z$ alınır. Bunu $\sin\alpha_x = \frac{2x}{1+x^2}$ bərabərliyində yazsaq, $x = 1$ alarıq. Deməli, $x = 1$ və $y \in R$ olduqda tənlik eyniliyə çevrilir.

Cavab: $x \in R$ və $y = 2$ və $x = 1$ və $y \in R$.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. İ.F. Əliyev, A. İ. Əliyev. Elementar riyaziyyat. Bakı, 2002.
2. K.S.Əsgərov, T.M. Əliyev Tənlikləri təqribi üsullarla həlli. Bakı, 1990.
3. M. Cəbrayılov, K.S.Əsgərov. Orta məktəb riyaziyyat kursu (dərs vəsaiti). Bakı, 1994.
4. В.Г. Болтянский и др. Лекции и задачи по елементарная матаматике. М-1995
5. В.Н. Литвиненко и др. Практикум по решению матаматике. М-1984.

6. В.А. Гусев и др. Практикум по решению матаматике. М-1985.
7. С.Т. Завало Елементарная алгебра. М-1985.

## QÜVVƏT SIRASI VƏ ONUN MÜNTƏZƏM YIĞILMASI

*Tələbə: Qasımova Lalə Eldəniz qızı (qrup RİN1801B)*
*Elmi rəhbər: dos. S.E. Süleymanov*
*lalaqasimova2000@gmail.com*

Qüvvət sırası funksional sıraların ən sadə növüdür.

$$C_0+C_1\,(\mathrm{t}-a)+C_2(\mathrm{t}-a)^2+......+C_n(\mathrm{t}-a)^n+... \qquad (1)$$

şəklində olan funksional sıraya qüvvət sırası deyilir. Burada $C_k$ ($k$ = 0,1,2...) və $a$ sabit ədədlərdir. $C_k$ (k = 0,1,2...) ədədlərinə qüvvət sırasının əmsalları deyilir.

Şəklində olan hər bir qüvvət sırası $t = a$ nöqtəsində yığılır və cəmi $C_0$ ədədinə bərabərdir.

Burada $t - a = x$ əvəzlənməsini apardıqda (1) qüvvət sırası

$$C_0+C_1x+C_2x^2+.....+C_nx^n+.... \qquad (2)$$

şəklində yazılır.(2) şəklində olan bütün qüvvət sıraları $x=0$ nöqtəsində yığılır.

Aydındır ki, (1) sırasının yığılmasını tədqiq etmək uyğun (2) sırasının yığılmasını tədqiq etməyə ekvivalentidir. Buna görə də bundan sonra ancaq (2) şəklində qüvvət sıralarının yığılması tədqiq edilir.

**Teorem 1** (Abel teoremi).

$$\sum_{n=0}^{\infty} C_n x^n \qquad (3)$$

qüvvət sırası sıfırındanfərqli $x_0$ nöqtəsində yığılandırsa, onda x- in $|x| < |x_0|$ bərabərsizliyini ödəyən bütün qiymətlərində mütləq yığılandır. İsbatı. (2) qüvvət sırası $x = x_0$ nöqtəsində yığılan olduğundan $\lim_{n\to\infty} C_n x_0^n = 0$ olar (yığılmanın zəruri şərti). Yığılan ardıcıllığın məhdud olmasına əsasən elə sabit $M>0$ tapmaq olar ki, $n$ - in bütün qiymətlərində

$$|C_n x_0^n| \le \mathrm{M}\ (n=0,1,2,...)$$

bərabərsizliyi ödənilir. Onda $|x| < |x_0|$ münasibətini ödəyən bütün $x$ nöqtələri üçün

$$|C_n x^n| = |C_n x_0^n| \left|\frac{x}{x_0}\right|^n \le \left|\frac{x}{x_0}\right|^n$$

və ya q = $\left|\frac{x}{x_0}\right|$ qəbul etdikdə

$$|C_n x^n| \le Mq^n \qquad (3)$$

olar.q<1 olduğundan

$$\mathrm{M+Mq+Mq^2+....+Mq^n+....}$$

sırası (azalan həndəsi silsilə) yığılandır. Buradan, müqayisə əlamətinə görə (2) sırasının $|x| > |x_0|$ münasibətini ödəyən istənilən $x$ nöqtəsində mütləq yığılan olması aydındır.

Nəticə. Hər hansı $x_0$ nöqtəsində dağılan (2) qüvvət sırası $|x| > |x_0|$ münasibətini ödəyən hər bir x nöqtəsində də dağılandır.

Teorem 2. Hər bir qüvvət sırasının yığılma oblastı mərkəzi koordinat başlanğıcında olan simmetrik intervaldır.

Qeyd. Bu teorem (2) şəklində qüvvət sıralarına aiddir. Qüvvət sırası (1) şəklində olduqda onun yığılma intervalı

$|t-a|$=$|x|$ < R və ya - $R < t-a < R$

münasibəti ilə təyin olunur. Buradan aydındır ki, (1) sırası *t* - nin ($a-R < t < a+R$) bərabərsizliyini ödəyən qiymətlərində, yəni ($a-R,\ a+R$) intervalındakı qiymətlərində yığılır.

Qüvvət sırasının müntəzəm yığılması

Teorem 1. Yığılma radiusu $R\neq 0$ olan

$$\sum_{n=0}^{\infty} C_n x^n$$

qüvvət sırası özünün *(-R, R)* yığılma intervalı daxilində yerləşən bir parçada müntəzəm yığılandır.

İsbatı. Tutaq ki, $[a,b]$ parçası (1) sırasının yığılma intervalı daxilində yerləşən ixtiyari parçadır. Onda elə 0< $r < R$ ədədi tapmaq olar ki, $[a,b]$ parçası $[-r,r]$ parçasının da daxilində yerləşir. *r ϵ (-R,R)* olduğundan Abel teoreminə görə $\sum_{k=1}^{\infty}|C_n|r^n$ sırası yığılır, yəni (1) parçasındakı bütün qiymətlərində

$$|C_n x^n| \leq |C_n| r^n$$

bərabərsizliyi ödənildiyindən (1) sırası $[-r,r]$ parçasında müntəzəm yığılır. Onda (1) sırası $[-r,r]$ parçasında yerləşən $[a,b]$ parçasın da müntəzəm yığılan olar.

Qeyd 2. Qüvvət sırası bütün yığılma intervalında müntəzəm yığılmaya da bilər. Məsələn, yığılma intervalı (-1,1) olan *1+x+x+...*$x^n$+... (2)

qüvvət sırası (-1,1) intervalında müntəzəm yığılmır. Doğrudan da (2) sırasının cəmi ilə xüsusi cəminin fərqi heç bir n üçün *x* - in bütün -1< $x < 1$ qiymətlərində

$$|f(x) - S_n(x)| = \left|\frac{x^{n+1}}{1-x}\right| < \varepsilon$$

bərabərsizliyini ödəyə bilməz, çünki *x* dəyişəni 1- ə yaxınlaşanda $\frac{x^{n+1}}{1-x}$ kəmiyyəti qeyri - məhdud olaraq artır, yəni

$$\frac{x^{n+1}}{1-x} \to \infty \ (x \to 1)$$

Deməli, heç bir *N* üçün *n* - in bütün *n* ≥ N və x - in ixtiyarı -1 $< x < 1$ qiymətlərində (1) bərabərsizliyi ödənilə bilməz.

Teorem 2. Qüvvət sırasının cəmi özünün yığılma intervalında kəsilməyən funksiyadır.

İsbatı: Tutaq ki, (1) sırasının cəmi ƒ(x) və onun yığılma intervalı *(-R, R)*-dir. *(-R,R)* intervalında yerləşən ixtiyari $x_0$ nöqtəsi götürək. Bu nöqtə üçün elə r ədədi tapmaq olar ki, $|x_0|$ <r< $R$ bərabərsizliyi ödənilsin (1) qüvvət sırası özünün *(-R,R)* yığılma intervalı daxilində yerləşən hər bir $[-r,r]$ parçasında müntəzəm yığıldığından (teorem 1) və hədləri istənilən sonlu parçada

kəsilməyən olduğundan onun cəmi $[-r, r]$ parçasında, xüsusi halda $x_0 \epsilon [-r, r]$ nöqtəsində kəsilməyən funksiya olar.

Qeyd 2. Qüvvət sırası özünün *(-R,R)* yığılma intervalının *x=R* ucunda yığılan olduqda $[0, R]$ parçasında müntəzəm yığılır və onun cəmi *x=R* nöqtəsində soldan kəsilməyəndir, yəni

$$\lim_{x\to R-0} \sum_{k=0}^{\infty} C_n\, x^n \sum_{n=0}^{\infty} C_n\, R^n$$

bərabərliyi doğrudur (Abelin ikinci teoremi).

Qüvvət sırası yığılma intervalının sol *x= -R* ucunda yığılan olduğu halda da uyğun təklif doğrudur.

**İstifadə olunmuş ədəbiyyatlar:**

1. M.S.Cəbrayılov, B.Ə Əliyev. Riyazi analiz. Bakı, 2010.
2. S.N.Məsimova. Ali riyaziyyatın əsasları. Bakı, 2006.
3. V.M. Qurbanov. Ədədi və funksional sıralar. Bakı, 2005.
4. С.М. Никольский Курс математического анализа том II, Москва,1990.
5. R.H.Məmmədov. Ali riyaziyyat kursu. II hissə, Bakı,1981.
6. Г. М. Фихтенгольц. Куре дифференциаьного и интегрального исчисления. том, Москва, 1969.

## FUNKSİYALARIN TEYLOR SIRASINA AYRILMASI

*Tələbə:Həsənli Nəzrin Niyaz qızı (qrup RİN1801B)*
*Elmi rəhbər: dos. S.E. Süleymanov*
*hesenlinezrin69@gmail.com*

Funksiyaların Teylor sırasına ayrıla bilməsi şərtləri.

Tutaq ki, *f(x)* funksiyası $x = a$ nöqtəsinin müəyyən ətrafında təyin olunmuşdur və həmin nöqtədə istənilən tərtibdən törəməsi var. Onda f(x) funksiyası üçün $x = a$ nöqtəsində

$$\sum_{n=0}^{\infty} \frac{f^{(n)}(a)}{n!}\,(x-a)^n \qquad (1)$$

Teylor sırası yazmaq olar. (1) sırasının yığılan və ya dağılan olması, yığılan olduqda isə onun cəminin f(x) funksiyasına bərabər olması haqqında əvvəlcədən heç nə demək olmaz. Buna görə də

(1) sırasının f(*x*) funksiyasının Teylor sırası olmasını f(*x*)~ $\sum_{n=0}^{\infty} \frac{f^{(x)}(a)}{n!}\,(x-a)^n$ (2)

kimi yazırlar(~ uyğunluq işarəsidir).

Xüsusi halda, (1) *f(x)* funksiyasına yığılan olduqda (2) münasibətində ~(uyğunluq) işarəsi əvəzinə = (bərabərlik) işarəsi yazırlar. Bu halda, deyirlər ki, f(*x*) funksiyası Teylor (və ya qüvvət) sırasına ayrılır.

Belə bir sual qarşıya çıxır: $f(x)$ funksiyasının Teylor sırası nə zaman onun özünə yığılır? Bu məsələni tədqiq etmək üçün $f(x)$ funksiyasının ($x$- $a$) fərqinin qüvvətlərinə görə yazılmış Teylor düsturuna baxaq: $f(x)= \sum_{k=0}^{n}\frac{f^{(x)}(a)}{k!}\ (x-\ a)^k+R_n(x)$ (3)

Burada

$$S_n(x)= \sum_{k=0}^{n}\frac{f^{(x)}(a)}{k!}\ (x-\ a)^k \qquad (4)$$

çoxhədlisi $f(x)$ funksiyasının $n$ - dərəcəli Teylor çoxhədlisi, $R_n(x)$ isə Teylor düsturunun qalıq həddi adlanır. (4) cəmi eyni zamanda (1) Teylor sırasının $n$ - ci xüsusi cəmidir. (3) düsturunu

$f(x)= S_n(x)+ R_n(x)$

və ya

$$f(x)-S_n(x)= R_n(x) \qquad (5)$$

kimi yazdıqda aşağıdakı teorem alınar:

Teorem1. $f(x)$ funksiyasının $(a-R, a+R)$ intervalında (1)Teylor sırasına ayrılması üçün həmin intervalda onun istənilən tərtibli törəməsinin olması və (3)Teylor düsturu qalıq həddinin $x$ - in $(a-R, a+R)$ intervalındakı bütün qiymətlərində

$$\lim_{n\to\infty} R_n(x)=0 \qquad (4)$$

bərabərliyini ödənilməsi zəruri və kafi şərtdir. Bu teoremin şərtlərini yoxlamaq bəzən çətin olur. Belə hallarda funksiyanın qüvvət sırasına ayrılmasını aşağıdakı kafi şərtə əsasən müəyyən etmək olar.

Teorem 2.Tutaq ki, $f(x)$ funksiyasının $(a-R, a+R)$ intervalında istənilən tərtibli törəməsi var bu törəmələrin hamısı həmin intervalda müntəzəm məhduddur, yəni $x$ - in $(a-R, a+R)$ intervalındakı bütün qiymətlərində

$$\backslash f^{(x)}(x) \backslash\leq M\ (k=0,1,2,..., ) \qquad (5)$$

bərabərsizliyi ödənilir. Onda f (x) funksiyası həmin intervalda Teylor sırasına ayrılır:

$$f(x)= \sum_{n=0}^{\infty}\frac{f^{(n)}(a)}{n!}\ (x-\ a)^n \qquad (6)$$

Elementar funksiyaların Teylor sırasına ayrılması.

Bir sıra elementar funksiyaların Teylor sırasına ayrılışına baxaq:

I . $f(x)=e^x$. Bu funksiya üçün

$$f(x)=f'(x)=f^n(x)=...=f^{(x)}(x)=...\ e^x$$

olduğundan $x$ - in $(-R, R)$ intervalında yerləşən bütün qiymətlərində

$$(f^{(x)}(x))=|\ e^x|< e^R (k=0,1,2,....)$$

bərabərsizliyi ödənilir. Deməli, $e^x$funksiyası üçün 2 - ci teoremin şərtləri ödənilir, yəni həmin funksiya istənilən sonlu intervalda (buna görə də bütün ədəd oxunda) Teylor sırasına ($a=0$) ayrılır. $f^{(n)}(0)=e^0$=1 olduğundan $e^x$funksiyasının Teylor ayrılışı

$$e^x = \sum_{n=0}^{\infty} \frac{x^n}{n!} \quad 1 + x + \frac{x^2}{2!} + \cdots + \frac{x^n}{n!} + \cdots \qquad (1)$$

şəklində olar.

II. $f(x)$=sin $x$. Bu funksiya üçün

$$\sin x = x - \frac{x^3}{3!} + \frac{x^5}{5!} - \ldots + (-1)^n \frac{x^{2n+1}}{(2n+1)} + R_n(x)$$

Teylor düsturunun və $x$ - in bütün qiymətlərində

$$\lim_{n\to\infty} R_n(x) = 0$$

bərabərliyinin doğruluğu əvvəllər isbat edilmişdir. Deməli,sin x funksiyası bütün ədəd oxunda

$$\sin x = \sum_{n=0}^{\infty} \frac{(-1)^n x^{2n+1}}{(2n+1)\,!} \qquad (2)$$

Teylor sırasına ayrılır.

III. $f(x) = cosx$ funksiyası üçün

$$cosx = 1 - \frac{x^2}{2!} + \frac{x^4}{4!} - \cdots + (-1)^n \frac{x^{2n}}{(2n)} + R_n(x)$$

Teylor düsturu və x-in bütün qiymətlərində

$$\lim_{n\to\infty} R_n(x) = 0$$

bərabərliyinin doğruluğu əvvəldən məlumdur.Buradan həmin funksiya üçün

$$cosx = \sum_{n=0}^{\infty} \frac{(-1)^n x^{2n}}{(2n)!}$$

ayrılışı alınır.

III.Eyler düsturu. Tərifə görə xəyalı üstlü $e^{ix}$ üstlü funksiyası aşağıdakı sıra ilə təyin olunur:

$$e^{ix} = 1 + (ix) + \frac{(ix)^2}{2!} + \frac{(ix)^3}{3!} + \frac{(ix)^4}{4!} + \frac{(ix)^5}{5!} + \cdots \qquad (3)$$

onda $i^2 = -1, i^3 = -i, i^4 = 1, i^5 = i, i^6 = -1, \ldots$ və s. olduğunu nəzərə alsaq, (14) bərabərliyini

$$e^{ix} = 1 + ix - \frac{x^2}{2!} - \frac{x^3}{3!} + \frac{x^4}{4!} + \frac{x^5}{5!} - \cdots = \left(1 - \frac{x^2}{2!} + \frac{x^4}{4!} - \cdots\right) + i(x - \frac{x^3}{3!} + + \frac{x^5}{5!} - \cdots)$$ kimi

yazmaq olar. Sağ tərəfdəki mötərizələrin içərisindəki sıraların cəmi ( (2) və (3) düsturlarına əsasən),uyğun olaraq cos$x$ və sin$x$ funksiyalarına bərabər olduğundan

$$e^{ix} = cosx + isinx \quad (4)$$

eyniliyi alınar. Buna Eyler düsturu deyilir.

**İstifadə olunmuş ədəbiyyatlar:**

1. M.S Cəbrayılov, B.Ə Əliyev. Riyazi analiz. Bakı, 2010.
2. S.N. Məsimova. Ali riyaziyyatın əsasları. Bakı, 2006.
3.Qurbanov V.M. Ədədi və funksional sıralar. Bakı, 2005.
4. С.М. Никольский. Курс математического анализа том II, Москва,1990.
5. R.H. Məmmədov. Ali riyaziyyat kursu.II hissə, Bakı,1981.
6. Фихтенгольц Г. М. Курe дифференциаьного и интегрального исчисления. ТОМ ||, Москва, 1969.

# BAROMETRİK DÜSTUR

*Tələbə:Əsədova Həmidə Xalqıverdi qızı (qrup FM2101B)*
*Elmi rəhbər: dos. Ə.M. Hümmətov*
*hamideesedova@gmail.com*

Atmosfer təzyiqinin hündürlükdən asılı olaraq dəyişməsinin öyrənilməsi çox böyük elmi və praktiki əhəmiyyət kəsb edir. Bu qanundan istifadə edərək dəniz səviyyəsindən ixtiyari hündürlükdə təzyiqi ölçməklə, Yer səthindən olan hündürlüyü ölçmək mümkün olur. Dağ zirvələrini, təyyarələrinin uçuş hündürlüyünü ölçmək üçün şkalası metrlərə görə dərəcələnmiş, xüsusi baromertlərdən-altimetrlərdən istifadə olunur.

Beləliklə, tələbə elmi tədqiqat işi ardıcıllığa uyğun şəkildə yerinə yetirilmişdir: Giriş; atmosfer təzyiqinin hündürlükdən asılılığı, barometrik düsturun çıxarılışı və qrafik təsviri, nəticə və istifadə olunmuş ədəbiyyatlar.

1. Atmosfer təzyiqinin hündürlükdən asılılığı

Bildiyimiz kimi, Yer kürəsi çox qalın atmosfer qatının təsirinə məruz qalır. Atmosferi təşkil edən hava molekulları bir tərəfdən istilik hərəkətinin, digər tərəfdən isə ağırlıq qüvvəsinin təsirinə məruz qalır. Əgər molekulların istilik təsiri olmasaydı, ağırlıq qüvvəsinin təsiri altında onların hamısı Yer səhtinə tökülərək, Yer səthində nazik təbəqə əmələ gətirərdi. Əgər Yerin cazibə təsiri olmasaydı, onda istilik hərəkətinin təsiri altında hava molekulları dünya fəzasına səpələnərdi.

Atmosferi təşkil edən hava molekulları həm Yerin cazibə təsirinə, və həm də istilik hərəkəti təsirinə məruz qaldığından, hündürlüyə görə bərabər paylanmayıb, Yer səthinə yaxınlaşdıqca daha sıx olur.

Məhz buna görə də molekulların hündürlüyə görə paylanmasına uyğun olaraq qazın təzyiqi də hündürlüyə görə müəyyən qanunla dəyişir ki, onu da tapmaq çətin deyildir. Atmosfer təzyiqinin hündürlükdən asılı olaraq dəyişməsinin öyrənilməsi çox böyük elmi və praktiki əhəmiyyət kəsb edir. Bu qanunu öyrənmək üçün dəniz səviyyəsində atmosfer təzyiqini $P_0$ , $h$ hündürlükdə is $P$ ilə işarə edək.




Onda $h+dh$ hündürlükdə isə $P+dP$ olar. (Şəkil 1.)

Hündürlük artdıqca, atmosfer təzyiqi azaldığından $dh>0$ olduqda, $dP<$ [illegible] ır. Şəkildən görünür ki, dəniz səviyyəsindən $h$ hündürlükdə $h+dh$ hündürlüklər arasında olan *un* qalınlıqlı hava qatının təzyiqi ( hidrostatik təzyiq)

$$dP=-\rho g dh \qquad (1)$$ olacaqdır.

Burada $\rho$- havanın sıxlığı, $g$-sərbəstdüşmə təcili, mənfi işarəsi isə hündürlük artdıqca atmosfer təzyiqinin azaldığını göstərir.

2.Barometrik düsturun çıxarılışı və qrafik təsviri.

Havanın təzyiqi kifayət qədər kiçik olduğundan ( ən böyük təzyiq dəniz səyyəsində olub, təxminən $101325\,\frac{N}{m^2}$-na bərabərdir). havaya ideal qaz kimi baxaraq (1) ifadəsindəki havanın $\rho$ sıxlığını ideal qazın hal tənliyindən istifadə etməklə tapa bilərik:

$$PV = \frac{m}{\mu}RT\text{-dən } \frac{m}{V} = \frac{P\mu}{RT} \qquad (2)$$

$\frac{m}{V} = \rho$ olduğundan

$$\rho = \frac{P\mu}{RT} \qquad (3)$$

Burada $\mu$-havanın molyar kütləsidir.

(3) ifadəsini (1)-də nəzərə alsaq,

$$dP = -\frac{P\mu g}{RT}dh \qquad (4)$$

(4)-ün hər tərəfini $P - y$ə bölsək,

$$\frac{dP}{P} = -\frac{\mu g}{RT}dh \qquad (5)$$

(5) ifadəsinin sağındakı $\mu,\ g$ və $T$-ni sabit qəbul edərək, sol tərəfini $P_0$-dan $P$ —yə, sağ tərəfini idə 0-dan $h$-a qədər inteqrallasaq,

$$\int_{P_0}^{P}\frac{dP}{P} = -\int_{0}^{h}\frac{\mu g}{RT}dh \qquad (6)$$

yaxud

$$\ln\frac{P}{P_0} = -\frac{\mu g}{RT}h \qquad (7)$$

(7) ifadəsindən

$$P = P_0 e^{-\frac{\mu g}{RT}h} \qquad (8)$$

Burada $\mu = m_0 N_A$ *və* $R = kN_A$ olduğundan

$$P = P_0 e^{-\frac{m_0 g}{kT}h} \qquad (9)$$

ifadələri atmosfer təzyiqinin hündürlükdən asılı olaraq dəyişməsini ifadə edib, barometrik düstur, yaxud Laplas düsturu adlanır. Barometrik düsturdan görünür ki, qazın təzyiqi hündürlükdən asılı olaraq eksponensial qanunla dəyişir.

(8) və (9) düsturları ilə ifadə olunmuş barametrik düstur nəinki yalnız atmosfer təzyiqinin hündürlükdən asılılığını, istənilən bircins qazın təzyiqinin də hündürlükdən asılılığını təyin etməyə imkan verir.

Şəkildə iki müxtəlif qaz üçün müxtəlif temperaturlarda təzyiqin hündürlükdən asılılıq qrafikləri göstərilmişdir. Qrafiklərdən görünür ki, eyni temperaturda ağır qazın təzyiqinin hündürlükdən asılı olaraq dəyişməsi daha kəskin olur. Eyni molyar çəki də isə, temperatur artdıqca,

təzyiq hündürlükdən daha çox asılı olur. (8) və (9) ifadələrini çıxaranda $\mu$, $g$ *və* $T$ –ni sabit qəbul etdik. Lakin əslində bu kəmiyyətlərin hər üçü hündürlük artdıqca dəyişir.

Yerin cazibə sahəsinin təsiri altında atmosfer qatı bircinsli olmayıb, nisbətən ağır molekullar Yer səthinə daha yaxın, yüngül molekullar isə yuxarı qatlarda olur.



*(Şəkil 2)*

**İstifadə olunmuş ədəbiyyatlar:**

1. Ə.M. Hümmətov. Ümumi Fizika kursu, Mexanika və Molekulyar fizika. Bakı 2007.
2. E.Ə. Eyvazov, S.Ş. Qurbanov, Ş.X. Xəlilov, Molekulyar fizika və termodinamikaya giriş. Bakı, 2010.
3. N.Qocayev. Molekulyar fizika. Bakı, 2009.
4. N.M. Mehtiyev. Ümumi fizika kursu. Bakı, 2010.
5. N.M Qocayev. Ümumi Fizika kursu. Mexanika. Bakı, 1978.
6. M.H. Ramazanzadə. Fizika kursu. Bakı, 1987.
7. F.A. Əhmədov. Ümumi fizika. BDU, Bakı Universiteti naşriyyatı, 2006.
8. T.M. Pənahov, İ.V.Əhmədov, Ümumi fizika kursu, Fizika-1, Dərs vəsaiti. "Mars-Print" Bakı. 2013. 304 səh.

## SƏS SÜRƏTLİ VƏ ONDAN YÜKSƏK SÜRƏTLİ AXIN

*Tələbə: Piriyeva Aytəkin Novruz qızı (qrup FM2101B)*
*Elmi rəhbər: dos. Ə.M. Hümmətov*
*aytekinpiriyeva@gmail.com*

Laval soplosu buxar və qaz turbinlərində və reaktiv mühərriklərdə səs sürətindən yüksək sürətli buxar və qaz axını almaq üçün istifadə edilir.
Daralan və genişlənən soploların birləşməsinə Laval soplosu deyilir (onu ixtira edən alimin şərəfinə ) (şəkil 1. )




Şəkil 1.

Laval soplosunun daralan hissəsi onun genişlənən hissəsinə nisbətən qısa olur . Odur ki qazın daralan (qısa ) hissədən keçməsi adiabatik axın qəbul edilir .

Qərarlaşmış axında borudan istənilən vahid zamanda axan maye və ya qazın kütləsi eyni olur axının kəsilməzlik tənliyi ), yəni

$$\rho\upsilon S = const \qquad (1)$$

Soplonun en kəsik sahəsi borunun oxu ( məsələn , $x$ oxu ) boyunca dəyişdiyindən , S= S($x$)olar . (1) ifadəsini diferensiallayıb , ρυS - ə bölsək;

$$\frac{d\rho}{\rho} + \frac{d\upsilon}{\upsilon} + \frac{dS}{S} = 0. \qquad (2)$$

Axını ideal ( özlülüyü olmayan ) və adiabatik hesab etsək , $d\alpha = 0$ və $d\varphi = 0$ olar . Onda axın üçün termodinamikanın birinci qanunundan alarıq;

$$VdP + m\upsilon d\upsilon = 0 \qquad (3)$$

Bu tənliyi Puasson və ideal qazın hal tənlikləri ilə birlikdə həll etsək , alarıq ;

$$\upsilon d\upsilon - \gamma\frac{RT}{\mu}\frac{dV}{V} = 0 \qquad (4)$$

$\frac{d\rho}{\rho} = -\frac{dV}{V}$ ilə əvəz edərək (2) və (4) ifadələlərində alarıq

$$\frac{1}{\upsilon}\left(\frac{\upsilon^2}{\alpha_0^2} - 1\right)\frac{d\upsilon}{dx} = \frac{1}{S}\frac{dS}{dx} \qquad (5)$$

Buradan $\alpha_0 = \sqrt{\gamma\frac{RT}{\mu}}$ borunun verilmiş en kəsiyinddə səsin sürəti olub , səsin yerli sürəti adlanır .

Borunun daralan hissəsində $\frac{dS}{dx} < 0$ olduğu üçün (5) ifadəsinin sağ tərəfi mənfi olur. Odur ki, əgər soplonun girişində $\upsilon < \alpha_0$ olarsa , onda $\frac{dS}{dx} > 0$ olar. Məhz buna görə də soplonun girişində qazın axın sürəti səsin yerli sürətindən kiçik olarsa ,onda daralan hissə boyunca onun sürəti artar.

(5) ifadəsindən görünür ki, kanalın daralan hissəsi boyunca səsin yerli sürətindən böyük sürət almaq olmaz . Doğrudan da $\upsilon \to \alpha_0$ və $\frac{dS}{dx} < 0$ olarsa ,$\frac{d\upsilon}{dx} \to \infty$ olar. Bunun da heç bir fiziki mənası yoxdur . Soplonun dar hissəsində (kritik en kəsiyində ) $\frac{dS}{dx} = 0$ olduğu üçün

$$\left(\frac{\upsilon^2}{\alpha_0} - 1\right)\frac{d\upsilon}{dx} = 0 \qquad (6)$$

olar.

Soplonun daralan hissəsində (kritik en kəsiyə qədər) $\frac{dv}{dx}>0$ olduğu üçün ifadəsinə əsasən həmin hissədə qazın sürəti səsin yerli sürətinə bərabər olur (kritik axın sürəti $v_k = \alpha_0$ ) .

Kritik sürət axan qazın elə maksimal sürətidir ki,. daralan soplonun çıxışında mühitin (buxar və qazın ) sürəti ona bərabər olur .

Əgər kanalın kritik en kəsiyində axının sürəti onun kritik qiymətinə bərabər olarsa , həmin en kəsiyindən sonra $\frac{dS}{dx}>0$ olduğu üçün soplonun genişlənən hissəsinin bütün uzunluğu boyunca sürəti artar ( $\frac{dv}{dx)} > 0$) və səsin sürətindən daha böyük olar .

Qaz Laval soplosundan keçərkən genişləndiyi üçün onun təzyiqi , sıxlığı və temperaturu fasiləsiz olaraq aşağı düşür və buna görə də onun daxili enerjisi azalır . Bunun nəticəsində isə axının kinetik enerjisi fasiləsiz olaraq artır , sürəti isə səsin sürətindən xeyli böyük ola bilir.

Laval soplosunun faydalı iş əmsalı

$$\eta = \frac{T_1 - T_2}{T_1}$$

düsturu ilə ifadə olunur . Buradan görünür ki , laval soplosunun faydalı iş əmsalı həmin temperatur inrevalında işləyən Karno maşınının faydalı iş əmsalına bərabər olur.

**İstifadə olunmuş ədəbiyyatlar:**


1. Ə.M.Hümmətov. Ümumi fizika kursu, Mexanika və Molekulyar fizika. Bakı, 2007.
2. E.Ə .Eyvazov, S.Ş. Qurbanov, Ş.X . Xəlilov. Molekulyar fizika və termodinamikaya giriş. Bakı, 2010.
3. N.Qocayev. Molekulyar fizika, Bakı, 2009.
4. N.M . Mehdiyev. Ümum i fizika kursu. Bakı, 2010.
5. N.M.Qocayev, Ümumi fizika kursu. Mexanika. Bakı, 1918.
6. M.H. Ramazanzadə. Fizika kursu. Bakı, 1987.
7. F.A .Əhmədov. Ümumi fizika kursu. BDU, 2006.


## METRİK FƏZALAR

*Tələbə: Şahverənova Səbinə Bədrəddin qızı (qrup Rİ-501)*
*Elmi rəhbər: b/m. X.Ə. Bədəlov*
*ssahverenova@gmail.com*

Metrik fəzalar haqqında anlayış.

Tutaq ki, $X$ fəzasının istənilən $x, y \epsilon X$ elementlərinə qarşı bu elementlər arasındakı məsafə adlanan və aşağıdakı şərtləri ödəyən mənfi olmayan $\rho(x, y)$ kəmiyyəti qarşı qoyulmuşdur. Deməli, burada məsafəni $\rho(x, y)$ ilə işarə edəcəyik. $\rho(x, y)$ kəmiyyəti aşağıdakı üç xassələri ödəməlidir. Diferensial həndəsə kursundan bizə məlumdur ki, metrik fəzalara aşağıdakı tərif verilir:

Tərif : $P: E\ x\ E \rightarrow R_+$ inikası aşağıdakı 3 şərti ödədikdə E çoxluğuna metrik fəza deyilir.

$\rho(x, y)$ = 0 yalnız və yalnız $x = y$ olduqda

$\rho(x, y) = \rho(y, x)\ \forall x, y \in X$ (simmetriklik)

$\rho(x, y) \le \rho(x, z) + \rho(z, y) \forall x, y \in X$ (üçbucaq aksiomu)

$B$u şərtlər məsafə aksiomları və ya metrika aksiomları deyilir.

İndi isə bu xassələrə aydınlıq gətirək. Birinci xassə onu göstərir ki, üst-üstə düşən iki element arasındakı məsafə sıfırdır. İkinci xassə onu göstərir ki, iki müxtəlif nöqtədən hansının birinci seçilməsindən asılı olmayaraq məsafə dəyişmir. Üçüncü xassə göstərir ki, müxtəlif üç nöqtə seçildikdə bunların ixtiyari ikisinin üçüncü nöqtə ilə əmələ gətirdikləri məsafələrin cəmi həmin nöqtələr arasındakı məsafədən kiçik deyil. Əgər bu xassələr ödənirsə, $P: E\ x\ E \rightarrow R_+$ inikasına metrik fəza deyilir.

Başqa sözlə desək, funksional analiz kursundan bilirik ki, verilmiş $X$ fəzasında təyin edilmiş məsafə yuxarıda qeyd etdiyimiz şərtləri ödəyərsə, onda $X$ metrik fəza adlanır.

Misal. $E$ ədəd oxu olsun, yəni $E = R$. Burada iki nöqtə arasındakı məsafə və metrik fəza aksiomlarının ödəndiyini göstərin.

Burada məlumdur ki, $\rho(x, y) = |y - x|$. Bu funksiyanın yuxarıda qeyd etdiyimiz 3 aksiomu ödədiyini bir bir göstərək:

1-ci aksiom: Bu aksiomun ödəndiyini göstərmək üçün yuxarıda göstərdiyimiz refleksivlik xassəsindən istifadə edəcəyik. O xassəyə əsasən yaza bilərik:

$$\rho_1: \rho(x, x) = |x - x| = |0| = 0$$

Göründüyü kimi nəticə 1-ci xassə ilə eyni oldu. Deməli verilmiş funksiya metrik fəza aksiomlarının 1-ci xassəsini ödədi.

2-ci aksiom: Bu aksiomun ödəndiyini göstərmək üçün yuxarıda göstərdiyimiz simmetirlik xassəsindən istifadə edəcəyik. O xassəyə əsasən yaza bilərik:

$$\rho(x, y) = |y - x| = |(-1)(x - y)| = |-1||x - y| = |y - x| = \rho(\,y, x)$$

Göründüyü kimi nəticə 2-ci xassə ilə eyni oldu. Deməli verilmiş funksiya metrik fəza aksiomlarının 1-ci xassəsini ödədi.

3-ci aksiom: Bu aksiomun ödəndiyini göstərmək üçün yuxarıda göstərdiyimiz üçbucaq xassəsindən istifadə edəcəyik. O xassəyə əsasən yaza bilərik:

$$(x, y) = |z - x| = |z - y + y - x| = |(z - y) + (y - x)| \le |z - y| + |y - z| = \rho(\,y, z) + \rho(\,z, y)$$

$$\rho(x, y) \le \rho(y, z) + \rho(x, y)$$

Nəticə 1-ci xassə ilə eyni oldu. Deməli verilmiş funksiya metrik fəza aksiomlarının 3-ci xassəsini ödədi.

Deməli verilmiş, funksiya hər üç şərti ödədiyinə görə deyə bilərik ki, o metrik fəzadır. Başqa sözlə desək, E ədəd oxunda burada iki nöqtə arasındakı məsafə və metrik fəza aksiomlarının ödəndiyini göstərdik.

Tam metrik fəzanın əlaməti.

Bir-birinə daxil olan parçalar ardıcıllığı haqqında Kantor teoremi riyazi analizin mühüm bir prinsipidir və çox saylı tətbiqləri vardır. Metrik fəzalarda bu prinsipin analoqu olan bir-birinə daxil olan kürələr haqqında teorem doğrudur.

Teorem 1. $X$ tam metrik fəzasında bir-birinə daxil olan və radiusları sıfra yaxınlaşan qapalı kürələrin hamısına daxil olan yeganə nöqtə vardır.

İsbatı. Tutaq ki, $\overline{B_1}(x_1,r_1),\overline{B_2}(x_2,r_2),\dots,\overline{B_n}(x_n,r_n),\dots r_n\to 0$ baxılan kürələrdir. Teoremin şərtinə görə $\overline{B_1}\supset\overline{B_2}\supset\cdots\supset\overline{B_n}\supset\cdots$ $\left(\overline{B_n}=\overline{B}(x_n,r_n)\right)$. Baxılan kürələrin mərkəzlərindən düzəlmiş $x_1,x_2,\dots,x_n,\dots$ ardıcıllığını götürək. $p>0$ üçün $x_{n+p}\in\overline{B_{n+p}}\subset\overline{B_n}$ olduğundan $\rho\left(x_{n+p},x_n\right)<r_n\to 0, n\to\infty$. $X$ fəzası tam olduğundan $\{x_n\}$ ardıcıllığı hər hansı $x\in X$ elementinə yığılır. İstənilən $n$ üçün
$\left\{x_{n+p}\right\}_{\rho=1,2,\dots}\in\overline{B_n}$ , $x_{n+p}\to x, p\to\infty$ və $\overline{B_n}$ kürəsi qapalı olduğu üçün istənilən $n=1,2,3,\dots$ üçün $x\in\overline{B_n}$ alırıq.

İndi isə fərz edək ki, bütün kürələrə daxil olan və $x$ −dən fərqli olan hər hansı $y$ elementi də vardır. $\rho(x,y)=\delta>0$ işarə edək. İstənilən $n=1,2,\dots$ üçün $x,y\in\overline{B_n}$ olduğundan yaza bilərik:

$$\delta=\rho(x,y)\le\ \rho(x,x_n)+\rho(x_n,y)\le 2r_n$$

Bu isə ola bilməz, çünki, $n\to\infty$ olduqda bu zaman $r_n\to 0$ olacaq.

Teorem 2. X metrik fəzasının tam olması üçün zəruri və kafi şərt, radiusları sıfıra yaxınlaşan bir-birinə daxil olan kürələrin boş olmayan kəsişməyə malik olmasıdır.

İsbatı. Zərurilik. Tutaq ki, $X$ fəzası tamdır və $B_1,B_2,\dots,B_n,\dots$ bir-birinə daxil olan qapalı kürələrdir. Tutaq ki, $r_n$ bu kürələrin radiusları, $x_n$ isə mərkəz nöqtələridir. $\{\ x_n\}$ ardıcıllığı fundamentaldır. Doğurdan da, $m>n$ üçün $\rho(x_n,x_m)<r_n$ və $n\to\infty$ şərtində $r_n\to 0$ olduğundan $\rho(x_n,x_m)\to 0$. $X$ fəzası tam olduğundan $\lim_{n\to\infty}\ x_n$ vardır. $x=\lim_{n\to\infty}\ x_n$ işarə edək. Göstərək ki, $x\in\bigcap_m B_n$. Doğurdan da, $x_1,x_2,\dots,x_{n-1}$ nöqtələri istisna olmaqla ardıcıllığın bütün hədləri $B_n$ kürəsinə dxaildir. Ona görə də $x$ nöqtəsi bütün $B_n$ kürələri üçün limit nöqtəsidir. $B_n$ kürələri qapalı olduğu üçün istənilən $n$ üçün $x\in B_n$.

Kafilik. Tutaq ki, $\{\ x_n\}$ ardıcıllığı fundamentaldır. Göstərək ki, onun limiti vardır. Ardıcıllıq fundamental olduğundan elə $x_n$ həddini seçmək olar ki, $n\ge n_3$ olduqda $\rho\left(x_n,x_{n_1}\right)<\frac{1}{2}$ olsun. Mərkəzi $x_{n_1}$ nöqtəsində radiusu $r_1=1$ olan kürəni $B_1$ilə işarə edək. Ardıcıllığın elə $x_{n_3}$ həddini seçək ki, $n_2\ge n_1$ və $\rho\left(x_n,x_{n_2}\right)<\frac{1}{2^2}$, $n\ge n_2$ olsun. Mərkəzi $x_{n_2}$ nöqtəsində radiusu $r_2=\frac{1}{2}$ olan kürəni $B_2$ ilə işarə edək. Əgər $x_{n_1},x_{n_2},\dots,x_{n_k}$ $(n_1<n_2<\cdots<n_k)$ nöqtələri artıq seçilmişsə, onda elə $x_{n_{k+1}}$ nöqtəsi seçək ki, $n\ge n_{k+1}$ üçün $\rho\left(x_n,x_{n_{k+1}}\right)<\frac{1}{2^{k+1}}$, $n_{k+1}>n_k$ olsun. $x_{n_{k+1}}$ mərkəzinə və $r=\frac{1}{2^{k+1}}$ radiusuna malik kürəni $B_{k+1}$ ilə işarə edək. Prosesi bu qayda ilə davam etdirməklə bir-birinə daxil olan $B_k$ qapalı kürələr ardıcıllığı almış olarıq. Şərtə görə bu kürələr ardıcıllığının ümumi nöqtəsi vardır. Həmin nöqtəni $x$ ilə işarə edək. aydındır ki, $x$ nöqtəsi $\left\{\ x_{n_k}\right\}$ ardıcıllığınıb limit nöqtəsidir. Əgər $\{\ x_n\}$ fundamental ardıcıllığının $x$ nöqtəsinə yığılan altardıcıllığı varsa, onda bu ardıcıllıq özü də həmin $x$ nöqtəsinə yığılır, yəni $x=\lim_{n\to\infty}\ x_n$. Teorem isbat edildi.

Tərif. Əgər verilmiş M çoxluğunun ən çoxu hesabi sayda hec yerdə sıx olmayan çoxluqların cəmi şəklində göstərmək olarsa, M çoxluğu birinci tip çoxluqlar adlanır.

Məsələn, ədəd oxu üzərində yerləşən bütün rasional ədədlər çoxluğu birinci tip çoxluq, bütün irrasional ədədlər çoxluğu isə ikinci tip çoxluqdur.

Teorem 3. (Ber teoremi). Hər bir tam fəza ikinci tip çoxluqdur.

Bilirik ki, dolu olmayan metrik fəzalar var. İndi göstərəcəyik ki, belə fəzaya müəyyən yeni təbiətli elementlər əlavə etməklə onu dolu fəzaya çevirmək olar.

Fərz edək ki, $E_1$ və $E_2$ metrik fəzaları verilmişdir. $E_1$ -dəki məsafəni $\rho_1$, $E_2$ -dəki məsafəni $\rho_2$ ilə işarə edək. Əgər $E_1$ ilə $E_2$ arasında elə $f$ qarşılıqlı uyğunluğu olarsa ki, bu uyğunluq məsafəni dəyişməsin, yəni ixtiyari $x, y \in E_1$ və $E_2$ elementləri üçün $\rho_2\big(f(x), f(y)\big) = \rho_1(x, y)$ olsun, onda $f -$ ə $E_1$-lə $E_2$ arasındakı izometriya deyilir. Bu halda $E_1$ $və$ $E_2$ fəzaları izometrik fəzalar deyilir.

Metrik fəzanın doldurulması.

Tərif. Tutaq ki, E metrik fəzası verilmişdir. $E^*$ fəzası aşağıdakı şərtləri ödədikdə ona E fəzasının doldurulması deyəcəyik:

1. E fəzası $E^*$ -un alt fəzasıdır.
2. $\overline{E} = E^*$ .
3. $E^*$dolu fəzadır.

Teorem. Hər bir metrik fəzanın doldurulması var və izometriya nöqteyi-nəzərdən yeganədir, yəni $E^*$ və $E^{**}$. E −nin doldurulmasıdırsa, onda $E^*$ və $E^{**}$ izometrikdir.

İsbatı. $E$ fəzasının ixtiyari fundamental $\{ x_n \}$, $\{ y_n \}$ ardıcıllıqlarını götürək. Əgər $\lim_{n\to\infty} \rho( x_n, y_n) = 0$ olarsa, onda deyəcəyik ki, bu ardıcıllıqlar ekvivalentdir və bu səkildə yazacağıq: $\{x_n\} \sim \{y_n\}$. Əgər iki ekvivalent ardıcıllığın biri yığılırsa, o biri də yığılır. Doğrudan da, $x_n \to x$ isə onda $\rho(y_n, x) \le \rho(y_n, x_n) + \rho(x_n, x)$ münasibətindən çıxır ki, $y_n \to x$

$C[a,b]$ fəzası.

$[a,b]$ parçasında kəsilməz bütün funksiyalar çoxluğunda məsafəni aşağıdakı (1) bərabərliyi vasitəsi ilə göstərək:

$$\rho(f,g) = \max_{a\le t\le b} |g(t) - f(t)| \qquad (1)$$

$C[a,b]$ fəzasının doğurdanda merik fəza olduğunu göstərmək üçün onun yuxarıda qeyd etdiyimiz 3 aksiomu ödəməsi vacibdir. Bunu əyani şəkildə göstərək:

$|f(t) - g(t)| \ge 0$ olduğu üçün $\rho(x, y) = \max_{a\le t\le b} |f(t) - g(t)| \ge 0$ olduğunu alırıq.

$\rho(f,g) = 0$ olarsa, $\max_{a\le t\le b} |f(t) - g(t)| = 0$ və buradan. $f(t) = g(t)$ Tərsinə, $f(t) = g(t)$ olarsa, $\rho(f,g) = 0$ olar.

$\rho(f,g)=\max\limits_{a\le t\le b}|f(t)-g(t)|=\rho(g,f)$ olması aydındır.

Həqiqi ədədin mütləq qiymətinin xassələrinə görə

$$|f(t)-g(t)|=|f(t)-\varphi(t)+\varphi(t)-g(t)|\le|f(t)-\varphi(t)|+|\varphi(t)-g(t)|$$

Buradan, alınar:

$$|f(t)-g(t)|=\max_{a\le t\le b}|f(t)-g(t)|+\max_{a\le t\le b}|\varphi(t)-g(t)|,$$

$$\max_{a\le t\le b}|f(t)-g(t)|=\max_{a\le t\le b}|f(t)-\varphi(t)|+\max_{a\le t\le b}|\varphi(t)-g(t)|$$

$$\rho(f,g)\le\rho(f,\varphi)+\rho(\varphi,g)$$

Göründüyü kimi, $C[a,b]$ metrik fəzadır.

**İstifadə olunmuş ədəbiyyatlar:**


1. E.Q. Orucov. Tətbiqi Funksional Analizin Elementləri. Dərslik, 2003.
2. Ə.Ş. Həbibzadə. Funksional analiz. Maarif, Bakı, 1997. 360 səh.
3. H.İ. Aslanov. Funksional analiz. MBM. Bakı, 2012.
4. K.Q. Həsənov, P.F. Qəhrəmanov. Funksiyalar nəzəriyyəsi və funksional analiz. Bakı, “Əzizoğlu H” MMC, 2010. 463 səh.
5. M.S. Cəbrayılov. Metrik və normalaşmış fəzalar. Xətti operatorlar. ADPU, 2007. 230 səh.
6. С.Г. Крейна. Функциональный анализ. / Под ред. М., 1972.
7. Ü. Qurbanova. Diferensial həndəsə.
8. https://knowen.org/nodes/22929


## ROBOT TEXNİKALARIN HAZIRLANMA TEXNOLOGİYASI


*Tələbə: Şahverənova Səbinə Bədrəddin qızı (Rİ-501)*

. *Elmi rəhbər: b/m. Zeynalova Səbinə Cəfər qızı*

*ssahverenova@gmail.com*


Robot dedikdə nə başa düşürük?

Bu anlayışın tərifi çoxdur. Çexiya yazıçısı Karel Çapek 1920-ci ildə insanın yerinə işləyən mexaniki adamlar haqqında pyes yazıb. O, bu mexaniki adamları robot adlandırıb. “Robot” çex dilindən tərcümədə “işçi” deməkdir. Beləcə, həmin söz dünyanın bütün dillərinə daxil olub. Bəs “robot” sözü daha geniş mənada nə deməkdir? Adətən, robot müəyyən hərəkətləri müəyyən qaydalara uyğun yerinə yetirən mexaniki və ya elektromexaniki qurğudur.

Zəmanəmizdə nə kimi robotlara təsadüf edilir?

Elə robotlar var ki, onları insan idarə edir. Belə robotlar insanın komandası olmadan öz işini yerinə yetirə bilmir. Başqa robotlar elektron beynin - kompüterin köməyi ilə idarə olunur və müstəqil işləyir. Məsələn, tozsoran robot müstəqil təmizlik işləri görür. Sadəcə, düyməni basırsan və xüsusi proqram tozsoranı evinizin künc-bucağındakı zir-zibili axtarıb-tapmağa “məcbur

edir”. Ümumiyyətlə, robot maşınları böyük dəqiqlik tələb edən ağır, təhlükəli və sağlamlıq üçün zərərli işləri insanların əvəzinə yerinə yetirir. Robotlar batmış gəmiləri tədqiq edə bilir. Dərinliyin soyuğu və zülməti, köpək balığı və sprutlar robot üçün qorxulu deyil. Planetimizi bürüyən zəhərli qazlar da onlar üçün ziyansızdır. Üstəlik, robotları kosmosa göndərirlər, axı onların kosmonavtlar üçün vacib olan hava və qidaya ehtiyacı yoxdur.

İnsan kompüter əsrində kompüter proqramı şəklində də robot yaradıb. Reklam göndərən robotlar bu qəbildən olan ən geniş yayılmış robotlardır. Əlbəttə, robotu insana və ya heyvana bənzətmək düzgün olmazdı. Robot təchiz olunduğu sxemə uyğun hərəkət edir. Fikir versəniz görərsiniz ki, robotlar, demək olar, həyatımızın hər sahəsində mövcuddur və həyatımızı asanlaşdırmağa xidmət edir.

8 addımda robot texnikaların hazırlanması.

Robotun məqsədinin və hədəf auditoriyasının müəyyən edilməsi;

İstifadəsi günü gündən artan və həyatımızı asanlaşdıran robotların hazırlanması üçün ilk olaraq hədəf auditoriyamızı və robotun məqsədini müəyyən etməliyik. Belə ki, hansı robotu hazırlayacağımızdan asılı olmayaraq, robotun nə üçün istifadə ediləcəyi və kimlərə xitab edəcəyini müəyyənləşdirməliyik.

Robotun öz məqsədinə uyğun qərar verməsi üçün onun ətraf mühitlə əlaqə saxlamasına imkan verən sensorlar olmalıdır. Robotun məqsədi müəyyən edildikdə, onun ətraf mühitdə hansı dəyişiklikləri qəbul etməli olduğu artıq müəyyən edilir. Hazırlayacağımız robotların məqsədindən asılı olaraq hər biri fərqli sensor tələb edir. İstifadə edə biləcəyiniz sensoru müəyyən etmək üçün araşdırma aparmaq lazımdır.

Məlumdur ki, alqoritm verilmiş məsələni həll etmək üçün ilkin verilənlərlə icra olunan hesabi və hər hansı məsələnin həlli üçün məntiqi əməliyyatların sonlu sayda ardıcıllllığıdır. Alqoritm robotların hazırlanmasında ən vacib addımlardan biridir. Alqoritm, sadəcə olaraq, yerinə yetiriləcək əməliyyatları məntiqi ardıcıllıqla yerləşdirir.

Robotu mexaniki qaydada dizayn etməlisiniz ki, o, öz məqsədinə ən sadə şəkildə nail ola bilsin. Robotunuzun riayət etməli olduğu müəyyən meyarlar varsa, onları nəzərə almalıyıq (ölçüsü, çəkisi).

Bunlar aydın olduqdan sonra robot motorlarını müəyyənləşdirməliyik. Robot motorunu seçərkən mühərrikin dövrə sayı, mühərrikin işləmə gərginliyi, mühərrikin çəkdiyi cərəyan və mühərrikin ölçüsü kimi amillər önəmlidir.

Bu mərhələyə gəldiyimiz zaman robot dizaynı ilə bağlı vacib hissələri artıq müəyyən etmiş oluruq. Belə ki, yuxarıda qeyd etdiyimiz sensorları, hansı proseslərin prioritet olduğunu və mühərriklərin xüsusiyyətləri bizə məlum oldu. Burada elektron sxemin vəzifəsi isə, bütün bunları idarə etməli, yəni sensorlardan məlumatları toplamalı, mikrokontrollerə ötürməli və mikrokontrollerdə qəbul edilən qərarların həyata keçirilməsi üçün mühərrikləri düzgün idarə etməlidir.

Robot proqramını yazarkən nəzərə alınmalı olan şeylər elektron dövrənizdəki mikrokontrolun giriş və çıxış pinləri və redaktə etdiyiniz alqoritmdir. İlkin araşdırma ilə istifadə edəcəyiniz proqramlaşdırma dilini və mikrokontrolleri müəyyənləşdirməliyik. Hər bir proqramlaşdırma dili və

hər bir mikrokontroller öz xüsusiyyətləri ilə fərqli əmrlər tələb edə bilər, bu mövzuda biliklərə sahib olmaq mütləqdir.

Artıq bir robot üçün lazım olan bütün hisslərədən istifadə edərək, onları birləşdirə bilərik. Belə ki, motoru, təkərləri, dişli çarxları, sensorlar uyğun yerlərdə yerləşdirməliyik. Elektron dövrəmiz hazırdır. Sensorları və mühərrikləri giriş-çıxış pinlərinə birləşdirməli və dövrənin gərginlik təchizatı üçün istifadə edəcəyimiz batareyanı və ya batareyanı yerləşdirib və birləşdirilməlidir. Nəhayət, mikrokontrolleri elektron dövrəyə yerləşdirin və robotu sınaqdan keçirmək olar.

Robotumuz ilk cəhddə düzgün işləməyə bilər. Əsas odur ki, səhvlərin mənbəyini müəyyənləşdirək.

Robot texnikaların hazırlanmasında istifadə edilən proqramlaşdırma dilləri.

C, C++ proqramlaşdırma dili.

Bol alətlər, zəngin kitabxanalar və funksiyalar təklif edən C/C++ dili bir çox robot proqramçılarının sevimli dilidir. Əgər robototexnika sənayesində karyera qurmaqda istəyirsinizsə, C/C++ mütləq öyrənilməli proqramlaşdırma dilidir. Bu dillər giriş səviyyəli aparatlarla asan qarşılıqlı əlaqəyə imkan verdiyi üçün robototexnika sahəsində ən etibarlı proqramlaşdırma dillərindən biri hesab olunur.

Python proqramlaşdırma dili.

Python, istifadəsi asan olduğu və kodlaşdırma üçün daha az vaxt tələb etdiyi üçün gündən-günə populyarlıq qazanır. Java və ya C/C++ kimi digər obyektyönümlü proqramlaşdırma dilləri ilə müqayisədə Python-da daha az kodlaşdırma ilə eyni funksiyaları yerinə yetirmək mümkündür. Bununla belə, tərcümə edilmiş bir dil olduğuna görə, səhvlərin aşkarlanması çətindir. Bu səbəbdəndə, böyük layihələri çox qarışıq və ya mürəkkəb edə bilər. Python, quraşdırılmış sistemlərin dizaynı üçün geniş istifadə olunan yüksək səviyyəli proqramlaşdırma dili hesab olunur. Bütün bu faydalı xüsusiyyətlərə görə, o, Robotların Əməliyyat Sistemində mühüm gücə çevrilmişdir.

Java proqramlaşdırma dili.

Java proqramlaşdırma dili obyektyönümlü proqramlaşdırma dilidir. Həm mobil tətbiqlərin hazırlanmasında, oyunların yazılmasında,veb saytların hazırlanmasında eləcə də robot texnikaların proqramlaşdırılmasında geniş istifadə edilir. Java bəzi robototexnika şöbələrində olduqca populyardır. IBM-in Watson və AlphaGo da daxil olmaqla bir çox müasir AI-lərin kodlaşdırılması üçün istifadə olunan əsas dillərdən biridir.

Nəzarət Kartları

Nəzarət kartlarına bir sözlə, robotun beyni deyə bilərik. Nəzarət kartları mikrokontrollerlərə və tək lövhəli kompüterlərə bölünür. Mikrokontrollerlər bir proqramı idarə etmək üçün nəzərdə tutulmuşdur. Sensor məlumatlarının alınması, mühərrikin işə salınması və rabitə bölmələrinin idarə edilməsi kimi əməliyyatlar üçün kifayət qədər imkana malikdirlər. Mikrokartlara nümunələr Arduino, PIC, mBed-dir. Tək lövhəli kompüterlər gündəlik həyatımızda istifadə etdiyimiz kompüterlərlə eynidir. Eyni anda birdən çox əməliyyat edə bilərlər. Onların RAM və qeyri-sabit yaddaşı, çoxlu giriş və çıxışları var. Çoxlu əməliyyatları yerinə yetirmək qabiliyyətinə malik olsalar

da, bir çox proqram eyni vaxtda işlədiyi üçün kritik vaxt tələb edən tətbiqlərdə çox uğurlu ola bilməzlər. Onlara misal olaraq, Raspberry Pi, Orange Pi bu kartları göstərmək olar.

Robot texnikasında işıq, temperatur və məsafə kimi fiziki kəmiyyətləri elektrik siqnallarına çevirmək və bu məlumatı emal etmək üçün qərar mexanizmləri yaratmaq üçün sensorlar istifadə olunur. Robotun məqsədi müəyyən edildikdə, onun ətraf mühitdə hansı dəyişiklikləri qəbul etməli olduğu artıq müəyyən edilir. Hazırlayacağımız robotların məqsədindən asılı olaraq hər biri fərqli sensor tələb edir.

Robotlarda istifadə sahələrinə görə servo motor, DC motor və pilləli motor növlərinə üstünlük verilir. Motor seçimi robotun gözlənilən şəkildə işləməsi üçün ən vacib amillərdən biridir. Robotlarda motor seçərkən motor tipindən başqa qiymət, istifadə rahatlığı, ani sürət nəzarəti kimi xüsusiyyətlər seçimimiz üçün mühüm kriteriya olacaq.

Onlar mühərriklərin pwm parametrlərini idarə etməyə imkan verir. Başqa sözlə, mühərriklərin istiqaməti və sürəti sürücülər tərəfindən idarə olunur. Hər bir motor növü üçün müxtəlif növ motor sürücüləri var. Bu motor sürücülərini tək inteqrasiya olunmuş və ya lövhə şəklində tapmaq olar.

Batareyalar robotların və robot sistemlərinin həyat mənbəyi olan elektrik enerjisini təmin edir.

Bu tip modullar simsiz əməliyyatlar üçün tələb olunur. Bluetooth və WiFi kimi protokollarla robot uzaqdan idarə oluna bilər, həm də internetə qoşulan cihaza çevrilə bilər.

Bütün bu komponentlər bir araya toplanır və robotun bir quruluşa çevrilməsi üçün bir bədənə ehtiyacı var. Robotik sistemlər müstəqil robot qolu, mobil robot və ya avtomatlaşdırma sistemi ola bilər. Robotlarda bədən seçimləri iş məqsədlərinə görə dəyişir.

**İstifadə olunmuş ədəbiyyatlar:**

1. https://tr.wikipedia.org/wiki/Robot
2. https://portal.azertag.az/az/node/3270
3. https://www.hwlibre.com/az/como-hacer-un-robot/
4. https://www.stendustri.com.tr/robot-yatirimlari/robotlar-nasil-yapilir-cesitleri-nelerdir-h99487.html
5. http://www.robotiksistem.com/robot_yapimi.html
6. https://www.milliyet.com.tr/cocuk/aktivite/robot-yapimi-ve-malzemeleri-en-kolay-haliyle-oyuncak-robot-nasil-yapilir-6429381
7. https://karaokeonlain.ru/az/robototehnika-programmirovanie-robotov-konstruktory-programmiruemyh/

## İNFORMASIYA TƏHLÜKƏSİZLİYİNİN AKTUAL PROBLEMLƏRİ

*Tələbə: Namazlı İlkanə Elişad qızı (qrup Rİ-501)*
*Elmi rəhbər: b/m. Zeynalova Sevil Cəfər qızı*
*namazliilkane@gmail.com*

Son vaxtlar istər mətbuat orqanlarının səhifələrində, istər güc strukturları və digər dövlət qurumlarının yayımladığı rəsmi bəyanatlarda “İnformasiya təhlükəsizliyi” ifadəsinə tez-tez rast gəlinir. Bu gün haqqında danışacağımız “İnformasiya təhlükəsizliyinin aktual problemləri” anlayışı daha çox kütləvi informasiya vasitələri, internet informasiya resursları, eləcə də yazılı və audio-vizual media üzərindən yayımlanan xəbər və məlumatları təşkil edən informasiya mühütini əhatə edəcək. İnformasiya təhlükəsizliyinin əsas obyektləri şəxs (onun hüquq və azadlıqları), cəmiyyət (onun maddi və mənəvi dəyərləri) və dövlətdir (onun konstitusiya quruluşu, suverinitet, ərazi bütövlüyü, iqtisadiyyatı, hərbi işi və s.). Şəxsiyyətin informasiya təhlükəsizliyi əsasən psixikanın, şüurun təhlükəli informasiya təsirlərindən qorunması ilə xarakterizə olunur. O həm fərdin şəxsi keyfiyyətlərindən, həm də cəmiyyətdə olan mənəvi, sosial və hüquqi şəraitdən asılıdır. Təhlükəsizlik siyasəti nəyin müdafiə edilməsini və müdafiə qanunlarından hansıların əsas olmasını müəyyən edir. Bir sözlə, təhlükəsizlik siyasəti dedikdə, dövlətlər arası danışıq və əlaqələrin qurulması, siyasəti yerinə yetirən mexanizmi, daha doğrusu təhlükəsizlik siyasətini necə həyata keçirməyi, necə müdafiə etməyi müəyyən edir.

İnformasiya təhlükəsizliyi nədir?

İnformasiya təhlükəsizliyi dedikdə informasiyanın və informasiya mühitinin təsadüfi və ya düşünülmüş təbii və ya süni xarakterə malik təsirlərdən müdafiə vəziyyəti başa düşülür. Belə təsirlər informasiyaya və ya informasiya obyektlərinə, həmçinin informasiya istifadəçisinə və sahibinə yolverilməz ziyanlar vura bilir.

İnformasiya təhlükəsizliyi, bəzən InfoSec olaraq qısaldılmışdır, məlumat risklərini azaldaraq məlumatı qorumaq təcrübəsi və eyni zamanda məlumat riskinin idarə edilməsinin bir hissəsidir. Bu, adətən, məlumatlara icazəsiz/uyğun olmayan girişin və ya qeyri-qanuni istifadənin, məlumatın açıqlanmasının, pozulmasının, silinməsinin, korlanmasının, dəyişdirilməsinin, yoxlanılmasının, qeydə alınmasının və ya dəyərsizləşdirilməsinin qarşısının alınmasını və ya azaldılmasını əhatə edir. O, həmçinin bu cür hadisələrin mənfi təsirlərini azaltmağa yönəlmiş tədbirləri əhatə edir. Qorunan məlumat istənilən formada ola bilər, məsələn, elektron və ya fiziki, maddi (sənədləşmə işləri) və ya qeyri-maddi (bilik) və s. İnformasiya təhlükəsizliyinin əsas diqqəti təşkilatın məhsuldarlığına maneçilik törətmədən, səmərəli siyasətin həyata keçirilməsinə diqqəti saxlamaqla məlumatların məxfiliyinin, bütövlüyünün və əlçatanlığının (CIA triadası kimi də tanınır) balanslaşdırılmış qorunmasıdır. Bu, əsasən aşağıdakıları əhatə edən strukturlaşdırılmış risklərin idarə edilməsi prosesi vasitəsilə əldə edilir:

- məlumatın və əlaqəli aktivlərin, üstəgəl potensial təhlükələrin, zəifliklərin və təsirlərin müəyyən edilməsi;
- risklərin qiymətləndirilməsi;

–risklərin qarşısını almaq, azaltmaq, paylaşmaq və ya qəbul etmək kimi riskləri necə həll etmək və ya müalicə etmək barədə qərar vermək;

– riskin azaldılması tələb olunduqda, müvafiq təhlükəsizlik nəzarətinin seçilməsi və ya layihələndirilməsi və onların həyata keçirilməsi;

–fəaliyyətlərin monitorinqi, hər hansı bir problemi həll etmək üçün lazım olduqda düzəlişlər etmək, dəyişikliklər və təkmilləşdirmə imkanları;

Bu intizamı standartlaşdırmaq, akademiklər və peşəkarlar parol, antivirus proqramı, təhlükəsizlik divarı, şifrələmə proqramı, hüquqi məsuliyyət, təhlükəsizlik şüuru və təlimi və s. üzrə təlimatlar, siyasətlər və sənaye standartları təklif etmək üçün əməkdaşlıq edirlər. Bu standartlaşdırma daha çox məlumatların əldə edilməsi, işlənməsi, saxlanması, ötürülməsi və məhv edilməsinə təsir edən geniş çeşidli qanun və qaydalarla idarə oluna bilər. Bununla belə, daimi təkmilləşdirmə mədəniyyəti qəbul edilmədikdə, müəssisə daxilində hər hansı standart və təlimatın tətbiqi məhdud təsir göstərə bilər.

İnformasiya təhlükəsizliyi təhdidləri müxtəlif formalarda olur. Bu gün ən çox yayılmış təhlükələrdən bəziləri proqram təminatı hücumları, əqli mülkiyyətin oğurluğu, şəxsiyyətin oğurluğu, avadanlıq və ya məlumatın oğurlanması, təxribat və məlumat tələbidir. Əksər insanlar bir növ proqram hücumları ilə üzləşmişlər. Viruslar, qurdlar, fişinq hücumları və Trojan atları proqram hücumlarının bir neçə ümumi nümunəsidir. Əqli mülkiyyətin oğurlanması da informasiya texnologiyaları (İT) sahəsində bir çox müəssisələr üçün geniş problem olmuşdur. Şəxsiyyət oğurluğu adətən həmin şəxsin şəxsi məlumatlarını əldə etmək və ya sosial mühəndislik vasitəsilə həyati məlumatlara çıxış imkanlarından istifadə etmək üçün başqası kimi davranmaq cəhdidir. Avadanlıq və ya məlumat oğurluğu bu gün daha çox yayılır, çünki bu gün əksər cihazların mobil olması, oğurluğa meylli olması və məlumat tutumunun həcmi artdıqca daha çox arzuolunan hala gəlir. Sabotaj adətən müştərilərin etibarını itirmək cəhdi ilə təşkilatın internet saytının məhv edilməsindən ibarətdir. İnformasiya hədəsi, ransomware proqramında olduğu kimi, məlumat və ya əmlakın sahibinə qaytarılması müqabilində ödəniş almaq cəhdi kimi şirkətin əmlakının və ya məlumatının oğurlanmasından ibarətdir. Bu hücumların bəzilərindən özünüzü qorumağa kömək etməyin bir çox yolu var, lakin ən funksional ehtiyat tədbirlərindən biri istifadəçinin dövri məlumatlandırılmasıdır. Hər hansı bir təşkilat üçün bir nömrəli təhlükə istifadəçilər və ya daxili işçilərdir, onlara həm də daxili təhdidlər deyilir.

İnformasiya təhlükəsizliyi məlumatın ilkin yaradılmasından məlumatın son sərəncamına qədər bütün ömrü boyu qorumalıdır. Hərəkət zamanı və istirahət zamanı məlumat qorunmalıdır. İnformasiya öz ömrü boyu bir çox müxtəlif informasiya emal sistemlərindən və informasiya emalı sistemlərinin bir çox müxtəlif hissələrindən keçə bilər. İnformasiya və informasiya sistemlərinin təhdid edilməsinin müxtəlif yolları var. İnformasiyanın mövcud olduğu müddət ərzində tam mühafizəsi üçün informasiya emalı sisteminin hər bir komponentinin özünün mühafizə mexanizmləri olmalıdır. Təhlükəsizlik tədbirlərinin qurulması, üst-üstə düşməsi və üst-üstə düşməsi “dərinlikdə müdafiə” adlanır. Ən zəif halqası qədər güclü olan metal zəncirdən fərqli olaraq, dərinlikdə müdafiə strategiyası strukturu hədəfləyir. Burada bir müdafiə tədbiri uğursuz olarsa, digər tədbirlər müdafiəni təmin etməyə davam edəcəkdir. İnzibati nəzarətlər, məntiqi nəzarətlər və

fiziki nəzarətlər haqqında əvvəlki müzakirəni xatırlayın. Üç növ nəzarət dərindən müdafiə strategiyasının qurulması üçün əsas yaratmaq üçün istifadə edilə bilər. Bu yanaşma ilə dərindən müdafiə üç fərqli təbəqə və ya bir-birinin üstünə qoyulmuş təyyarələr kimi konseptuallaşdırıla bilər. Soğanın nüvəsində məlumatlar, soğanın növbəti xarici təbəqəsi olan insanlar və şəbəkə təhlükəsizliyi, host əsaslı təhlükəsizlik və tətbiqetmə ilə soğan təbəqələrini meydana gətirmək kimi düşünməklə müdafiə ilə bağlı əlavə fikir əldə etmək olar. soğanın ən kənar təbəqələrini təşkil edən təhlükəsizlik. Hər iki perspektiv eyni dərəcədə etibarlıdır və hər biri dərindən müdafiə strategiyasının həyata keçirilməsi üçün dəyərli fikir verir.

İnformasiya təhlükəsizliyinə yönəlmiş təhlükələr.

Təhlükə - istənilən bir şəxsin maraqlarına ziyan vura biləcək potensial baş verən hərəkət, hadisə, proses və ya təzahür hesab olunur. Uyğun olaraq informasiya təhlükəsizliyinə yönəlmiş təhlükə dedikdə potensial baş verən hərəkətin, hadisənin, proses və ya təzahürin informasiyaya və ya avtomatlaşdırılmış informasiya sistemlərinin (AİS-nin) komponentinə təsiri başa düşülür. Yönəlmiş təhlükə birbaşa və ya bilavasitə informasiya münasibətlərində olan subyektlərin fəaliyyətinə ziyan vura bilir. Hücum – təhlükənin realizə edilməsinə göstərilən cəhddir.

Pozma – təhlükənin realizə olunmasıdır. Avtomatlaşdırılmış informasiya sistemlərinə təsir edəcək mümkün təhlükələrin təsnifatı, təhlili və müəyyən edilməsi həmin sistemlərin təhlükəsizliyinin təmin edilməsinin əsas aspektlərindən biri sayılır. Təhlükələrin siyahısı, onların realizə olunma ehtimalının qiymətləndirilməsi, həmçinin nizam-intizamı pozma modeli sistemin müdafiəsinə qoyulmuş tələblərin formalaşmasına və baş verə biləcək riskin təhlilinin araşdırılmasına imkan verir. İnformasiya təhlükəsizliyinin təsnifatı bir neçə kriteriya əsasında yerinə yetirilə bilər:

1.İnformasiya təhlükəsizliyinin aspekti baxımından: təhlükənin konfidensiallığı, tamlığı və əlçatanlığı. Bura təhlükənin aufentifikasiyasını və apellyasiya verilməsini də əlavə etmək olar.

2.Avtomatlaşdırılmış informasiya sistemlərinin təşkiledicilərinə təhlükənin vurduğu ziyan baxımından: verilənlər, proqram təminatı, infrastrukturun dəstəklənməsi.

3.Təhlükənin mənbəyinin yerləşməsi baxımından: araşdırılan avtomatlaşdırılmış informasiya sisteminin daxilində və ya xaricində yerləşənlər. İnsayderlər tərəfindən həyata keçirilən təhlükələr daha qorxuludur.

4.Əmələgəlmə təbiəti baxımından: təbii (obyektiv) və sünii (subyektiv).

Təbii təhlükələr - insandan asili olmayaraq AİS-nə və onun elementlərinə obyektiv fiziki proseslərin və təbii fəlakətlərin baş verməsi nəticəsində təsir göstərən təhlükələrdir. Süni təhlükələr – insanın fəaliyyəti nəticəsində baş vermiş təhlükələrdir. Belə təhlükələrə düşünülməmiş, məqsədsiz və təsadüfi təhlükələri, AİS-nin layihələndirilməsində baş vermiş səhvləri, proqram təminatında nəzərə alınmayan səhvləri, iş prosesi zamanı işçi personal tərəfindən buraxılmış səhvləri və nəhayət, bədəməlli şəxslərin məqsədyönlü həyata keçirdiyi təhlükələri və buna bənzərləri aid etmək olar.

İnformasiya təhlükəsizliyinin ən zəif nöqtəsi insan faktorudur və ona qarşı yönəlmiş hücumların geniş yayılan 4 növünə Azərbaycanda çox təsadüf edilir.

1.Sosial mühəndislik (Social engineering, Human hacking)

2. “Brute-forcing”

3.Zərərverici proqramlar vasitəsilə yoluxdurma (Malware, virus, trojans)

4.Fişinq (Phishing)

Bu təhlükədən qorunmaq üçün sizə yönləndirilən hər hansı saytın və həmin saytda sizdən tələb olunan bank kredit kart, bank hesabı və bu kimi məxfi məlumatları yazmağınız tələb olunan sorğulardan şübhələnmək və etibarli mənbələrdən istifadə etmək tövsiyə olunur.

Təhlükəsizlik siyasəti.

Təhlükəsizliyin təşkil olunma siyasəti dedikdə informasiyanın müdafiəsinə yönəldilmiş və onunla birlikdə resursların assosiasiya olunmasının idarəetmə qərarlarının sənədləşdirilməsinin

toplumu başa düşülür. Təhlükəsizlik siyasəti vasitələrdən ibarətdir və onların köməyilə kompüter informasiya sisteminin təşkil olunması fəaliyyəti həyata keçirilir. Ümumiyyətlə, təhlükəsizlik siyasəti kompüter mühitində istifadə edilir və təşkilatın spesifik tələbatını əks etdirir. Adətən kompüter informasiya sistemləri (KİS) dedikdə müxtəlif xüsusiyyətli mürəkkəb kompleks başa düşülür və ya aparat və proqram təminatının arabir öz aralarında lazımi səviyyədə işləmələrinin uyuşa bilməməsi qəbul edilir. Bura kompüterlər, əməliyyat sistemləri, şəbəkə vasitələri, verilənlər bazalarını idarəetmə sistemləri, müxtəlif əlavələr aiddir. Bütün bu komponentlər (təşkiledicilər) özünəməxsus müdafiə vasitələrinə malikdir və bunların bir-biri ilə razılaşdırılması mütləqdir. Bu baxımdan da korporativ sistemlərin təhlükəsizliyinin təmin olunması təhlükəsizlik siyasətinin effektiv həyata keçirilməsində mühüm rol oynayır.

Təhlükəsizlik siyasəti rəhbərliyin faydalı saydığı və seçdiyi informasiya təhlükəsizliyi sahəsində idarəetmə strategiyasını, resursların miqdarını və onlara yanaşmanın ölçüsünü müəyyən edir. Təhlükəsizlik siyasəti müəssisənin informasiya sistemi üçün real sayılan cəsarətin (və ya cürətin) təhlil edilməsinə əsaslanaraq qurulur. Belə olan halda cürət təhlil edilir, müdafiə strategiyası müəyyən olunur, informasiya təhlükəsizliyini təmin edən proqram tərtib edilir - bütün bunlar təhlükəsizlik siyasətidir. Tərtib olunan prioqrama uyğun olaraq resurslar ayrılır, bu resurslara məsul şəxslər seçilir, proqramın yerinə yetirilmə ardıcıllığı müəyyən edilir və s. Müəssisənin təhlükəsizlik siyasəti müxtəsər struktura malik olmaqla yanaşı yüksək səviyyəli siyasətı dəstəkləməlidir. Yüksək səviyyəli siyasət daim nəzərdən keçirilməli və müəssisənin cari tələblərini ödəməklə yanaşı bu tələblərin ödənilməsinə təminat da verməlidir. Siyasət sənədi elə tərtib edilməlidir ki, konkret texnologiyadan asılı olmasın və bu sənədin tez-tez dəyişilməsinə ehtiyac duyulmasın. Təhlükəsizlik siyasəti adətən sənəd formasında tərtib olunur, bura problemin izahı, tətbiq olunma sahələri, müəssisənin tutduğu mövqe, rəhbərlikdə vəzifələrin bölüşdürülməsi və s. bölmələr daxil edilir. Əksər təşkilatlar üçün təhlükəsizlik siyasəti sözün əsl mənasında vacibdir. Siyasət müəssisənin təhlükəsizliyə münasibətini müəyyən edir və özünəməxsus aktivlərin və resursların qorunmasının təşkilinə imkan yaradır. Təhlükəsizlik siyasəti ilə bağlı təhlükəsizlik vasitələrin və prosedurların müəyyən edilməsi, onların yerinə yetirdikləri rollar və müəssisədə işləyən əməkdaşların məsuliyyəti (təhlükəsizliyə əməl etmə baxımından) müəyyən edilir. Adətən müəssisədə təhlükəsizlik siyasəti aşağıdakıları yerinə yetirməlidir:

Baza təhlükəsizlik siyasətini;

Xüsusiləşdirlmiş təhlükəsizlik siyasətini;

Təhlükəsizlik prosedurlarını.

Müəssisənin təhlükəsizlik siyasətinin müddəaları aşağıdakı sənədlərdə əks olunur:

Təhlükəsizlik siyasətinin xülasəsi – təhlükəsizlik siyasətinin məqsədini və strukturunu açıqlayır, kimin nəyə cavab verməsini müəyyənləşdirir, edilmiş dəyişikləri vaxt çərçivəsində müəyyən edir. Müəssisənin miqyasından asılı olaraq təhlükəsizlik siyasəti az və ya çox bölmələrdən ibarət ola bilər;

Təhlükəsizlik baza siyasətinin izahı – qadağa qoyulmuş və icazə verilmiş fəaliyyətin müəyyən edilməsi, həmçinin təhlükəsizlik arxitekturasının həyata keçirilmə çərçivəsində idarəetmə vasitələrinin varlığı;

Təhlükəsizliyin arxitekturası baxımından rəhbərlik – şəbəkənin təşkil edimәsində istifadə olunan təhlükəsizlik mexanizmi arxitekturasının tərkib hissəsinin həyata keçirilməsinin izahı

**İstifadə olunmuş ədəbiyyatlar:**

1. M.N. Əilizadə, E.V. Seyidzadə, M.Ə. Salmanova. İnformatika. (Mövzular, suallar və testlər), Dərs vəsaiti, Bakı 2012
2. Ə.M. Abbasov, M.N. Əlizadə, E.V. Seyidzadə, İ.K. Musayev. İnformatika və kompüterləşmənin əsasları. Dərslik. Yeni işlənmiş nəşri, RS "Poliqal" nəşriyyatı, 2012.
3. Ə.M. Rüstəmov. İnformatika, Bakı, 2012, 522.səh.
4. Ə.M. Rüstəmov. İnformatika – izahlı terminlər lüğəti (Azərbaycanca, rusca və ingiliscə izahlı lüğət), Bakı, 2011.
5. S.Q. Kərimov, S.B. Həbibullayev, T.İ. İbrahimzadə. İnformatika. Dərslik. Bakı, 2011.
6. https://az.wikipedia.org/wiki/%C4%B0nformasiya_t%C9%99hl%C3%BCk%C9%99sizliyi

## İNKİŞAFETDİRİCİ ÇALIŞMALARDA ŞAGİRDLƏRİN TƏHLİLETMƏ VƏ MÜHAKİMƏ YÜRÜTMƏ QABİLİYYƏTLƏRİNİ İNKİŞAF ETDİRƏN VASİTƏ KİMİ

*Tələbə: Təhməzova Nurcan Nazim qızı (qrup İBT1901B)*
*Elmi rəhbər: b/m. Həziyev Əzizağa Əkbər oğlu*
*tehmezovanurcan@gmail.com*

Əgər riyaziyyat fənnini şagirdlərə yaxşı mənimsətmək istəyiriksə ilk olaraq onlarda həmin fənnə maraq tərbiyə etmək lazımdır. İnkişafetdirici çalışmalar nədir? Onların tətbiqində şagirdlər nələrə istinad etməlidir? Ümumiyyətlə təlimin məqsədi nədən ibarətdir? Bu və bu kimi sualların cavabı seçdiyim elmi işdə özünü ehtiva edir. Gəlin bir mənalı şəkildə razılaşaq ki insan heç də hazır məntiqi təfəkkürlə dünyaya gəlmir onu sonrada qazanır inkişaf etdirir və nəzəri,praktik fəaliyyətə yiyələnirlər. Bilik əldə etmək üçün maraq bir stimul rolunu oynamalıdır. Bu marağı da təmin edən inkişafetdirici çalışmalar haqda şagirdlərə məlumat verməkdən ibarətdir.

1.Şagirdlərin təhliletmə qabliyyətləri.

Mən girişdə qeyd etdim ki, çalışmaların tətbiqində şagirdlər nəyə istinad etməlidir? Ümumi desək bu çalışmalar şagirdlərin müşahidə etmək, müqayisə etmək, müstəqil nəticə çıxarmaq və öz fikrini irəli sürmə bacarıqlarını təmin etməlidir. Bir halda ki, inkişafetdirici çalışmalardan danışırıq onda müəyyənləşdirək ki, çalışma nədir? Çalışmalar öz tərkibində həm məsələ, həmdə misalları əks etdirir. Bəs təhliletmə nədir? Təhliletmə hadisədə müxtəlif cəhəti əşyada müxtəlif xüsusiyyətləri ayırd etmək imkanlarını təmin edir. Və nəzərə alaq ki, o iki halda özünü göstərir: kəmiyyət və keyfiyyət baxımından. Eləcədə təhliletmə verilmiş məsələnin şərt və tələblərini araşdırmaq habelə məsələnin şərtindəki məlumatları ayırd etmək bacarıqlarını təzahür edir.

2.Şagirdlərin inkişafındakı fərqləri göstərmək üçün diaqnostik tapşırıqlardan istifadə.

Bilirik ki, təlimin səmərəliyinin yüksəldilməsində riyazi məzmunlu inkişafetdirici tapşırıqlar böyük potensial imkanlara malik olduğu üçün onlar didaktik funksiyası baxımından da böyükdür. Bu gün inkişafdakı fərqləri göstərmək üçün şəkillər-variantlar diaqnostik tapşırıqlardan istifadə edirik. Bu cür tapşırıqlar tədricən çətinləşir yəni sadədən mürəkkəbə doğru yönəlir. Müəllim əvvəl sualları özü cavablandırırdısa sonralar cavabı tapmaq şagirdlərdən tələb olunur. Qeyd edim ki, bu tapşırıqlar müxtəlif formalarda verilə bilər. Lakin buna baxmayaraq hər iki hal yenə də şagirdlərin inkişafı üçün nəzərdə tutulmuşdur.

3. Şagirdlərin mühakimə yürütmə qabiliyyətləri.

Mühakimə ardıcıl olaraq bir fikirdən başqa bir fikir,bir hökmdən başa bir hökm çıxartmaq imkanlarında və hadisələrin vaxta görə bir birlərinə zidd olmayan qayda da görmək bacarıqlarını təzahür edir. Hər şey müəyyən hədd daxilində olmalıdır elə inkişafetdirici çalışmalarda da bu hal gözlənilməlidir.Şagirdlərin yaş və bilik səviyyəsinə uyğun olmalıdır. Mühakimə də kəmiyyət və keyfiyyət baxımından özünü göstərir. Birinci halda şagirdlər çətin nəticə çıxarmağın öhdəsindən asanlıqla gəlir, ikinci halda isə mühakimə zamanı az məntiqi səhvlərə və ziddiyyətlərə yol verilir. Mühakimə şərtdə verilənlər arasındakı əlaqələrin dərk olunmasını təmin edir.

4. İnkisafetdirici çalışmaların şagirdlərin inkişafındakı rolu.

Bu gün təfəkkür əməliyyatlarının müvəffəqiyyətlə başa çatmasında təfəkkürün minimal komponentlərindən səmərəli şəkildə istifadə olunur. Biz inkişafetdirici çalışmaların şagirdlərin inkişafındakı rolundan danışırıqsa, ilkin olaraq onlar şagirdlərin şəxsiyyətinin formalaşmasını təmin edir,eləcədə diqqət,hafizə,məntiqi təfəkkür və özünə inamı formalaşdırır. Riyaziyyatın ibtidai siniflərinin tədrisi prossesində şagirdlərin riyazi təfəkkürünü və inkişafını təmin etmək üçün əsas amil məhz elə dərslikdədi çalışmalardır. Çalışmalar dəqiq və aydın xarakterə malik olmalıdır. Şagirdlərin əldə etdiyi bilik onların dərsdə və evdə müstəqil fəaliyyətini təmin etməldir. Əks halda onların inkişafını təmin etmək olmaz.Biz inkişafetdirici çalışmalardan danışanda onların həllinə də diqqət etməliyik çünki sonraki siniflərdə şagirdlərin ümumiləşdirmə bacarıqlarının inkişafını təmin edir.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. Z. Kazımov, A. İsrafilova. Məntiq və riyaziyyat, Bakı, 2016.
2. Z. Kazımov, A. İsrafilova. Riyaziyyatdan əyləncəli və düşündürücü çalışmalar (I-IV siniflər), Bakı, 2013, 135 səh.

## ORTA MƏKTƏBDƏ STANDART MƏSƏLƏLƏRİN HƏLLİ TEXNOLOGİYASI

*Tələbə: Şirinova Salatın Elxan qızı (qrup RİN-1901B)*
*Elmi rəhbər: m. Orucov Zakir Şükür oğlu*
*ssalatin@gmail.com*

"Məsələ" anlayışı insan fəaliyyətinin müxtəlif sahələrində və cürbəcür fəaliyyət növlərində geniş istifadə edilir. Məhz bu səbəbdən də məsələ termininin çoxcəhətli və çox mənalı olması təbiidir. Təsadüfi deyil ki, indiyə qədər elmi – pedoqoji ədəbiyyatda məsələ anlayışının hamı tərəfindən qəbul edilmiş yeganə tərifi yoxdur. Halbuki həm elmi fəaliyyət prosesində, həm də insanların istehsal və məişət fəaliyyəti prosesində bu anlayış çox tez – tez meydana gəlir və insanlar tərəfindən öyrənilir.

Ümumiyyətlə, "məsələ anlayışı" adətən çox geniş mənada işlənir. Məsələn, elmi məsələlərdən təhsil prosesində, siyasi məsələlərdən, təsərrüfat məsələlərindən, texniki məsələlərdən danışmaq olar. Hətta hər hansı iclasın, yığıncağın gündəliyi də "gündəlikdə duran məsələlər kimi" səciyyələndirilir.

İbtidai riyaziyyat kursunda məsələ anlayışının özünə məxsus spesifikası var. Bir ənənə olaraq ibtidai riyaziyyat kursunda məsələ həllindən danışdıqda hesabi məsələlər nəzərdə tutulur. Hesabi məsələ strukturunu yuxarıda nəzərdən keçirdik və təbiidir ki, ibtidai riyaziyyat kursunda yalnız hesab kursu aparatından istifadə edilir. Bir çox müəlliflər hesabi məsələlər dedikdə hesablama, süjet məsələlərini nəzərdə tuturlar. Lakin onlar hesablama həlli üçün tətbiq olunan riyazi aparatın qeyri – hesabi ola biləcəyini nəzərdən qaçırırlar. Deməli, geniş mənada yox, yalnız dar mənada, yəni ibtidai riyaziyyat kursu çərçivəsində həmin müəlliflərlə razılaşmaq olar. Ibtidai riyaziyyat kursunun tədrisi prosesində mətn məsələlərinin həlli metodlarına aşağıdakı həll metodları aid edilir: 1) praktik üsul; 2) hesabi üsul; 3) cəbri üsul; 4) qrafik üsul; 5) sxematik – modelləşdirmə üsulu; 6) həndəsi üsul; 7) məntiqi üsul; 8) kombinator üsul.

Hər bir həll üsulunun əsasında müxtəlif növ modellər durur. Ən ümumi şəkildə məsələni hesabi üsulla həll etmək, verilən məlumatlar üzərində hesab əməllərini icra etməklə məsələnin sualına (tələbinə) cavab tapmaq deməkdir. Bu halda eyni bir məsələni müxtəlif hesabi üsullarla həll etmək olar. Bu zaman həll gedişi ya verilənlərlə axtarılanlar arasındakı əlaqə ilə, ya da bu əlaqələrin tətbiqi ardıcıllığı ilə fərqlənə bilər. Məsələnin həndəsi metodla həlli həndəsi qurmalardan və ya həndəsi fiqurların xassələrindən istifadəni tələb edən üsullardır. Məsələnin məntiqi üsulla həlli verilmiş məsələnin sualına məntiqi mühakimələrin köməyilə cavab verməyi tələb edir. Məsələnin praktik üsulla həlli əşyalarla, predmetlərlə və ya onların obrazları praktik əməliyyatların icrasını tələb edir.

Məsələnin cəbri üsulla həlli. Məsələnin şərtinə uyğun cəbri tənliyin və bərabərsizliyin qurulması və həll edilməsi nəzərdə tutulur.

İnsan təfəkkürünün (xüsusilə riyazi təfəkkürün) inkişafında məsələ həllinin müstəsna rolu vardır. Məsələni həll etmək, öyrənilmiş bilikləri tətbiq etmək , təfəkkür prosesidir. Hər bir məsələni həll etmək üçün əvvəlcədən toplanmış faktlardan, qazanılmış təcrübədən əlavə tamamilə dərk

edilmiş priyom və qaydaları bilmək lazımdır. Əgər hər hansı bir nəzəri material tam dərk edilməsə, sadəcə əzbərlənib yaddaşda saxlanarsa, mahiyyətə, dəqiqliyə fikir verilməzsə, mülahizələr, fərziyyələr irəli sürmək bacarığı olmazsa , onda məsələ həll etmək mümkün olmaz.

Şagirdlərin ibtidai siniflərdə qazandığı şifahi və yazılı hesablama vərdişlərinin inkişaf etdirilməsi yuxarı siniflərdə müxtəlif məsələlərin həll edilməsində önəmli rol oynayır. Orta məktəbdə əsasən hesablama məsələləri, tənliklər həllinə gətirilən məsələlər, müəyyən şərtlər daxilində həll olunan məsələlər, isbat məsələləri və s. öyrənilir . Bütün bu məsələlərin hamısında həll prosesində məsələlərin özünəməxsus xüsusiyyətləri olduğu kimi ümumi cəhətləridə mövcuddur. Bu ümumi cəhətlər aşağıdakı kimi göstərilə bilər:

1. Məsələlərin şərtinin təhlil olunması.
2. Verilən şərtlər daxilində həllin ideyasının tapılması.
3. Tapılmış ideyaya əsaslanaraq həll prosesinin həyata keçirilməsi .
4. Həllin düzgünlüyünün yoxlanılması.

Göstərdiyimiz bu mərhələlər istənilən məsələlərin həlli prosesində işlənir.

Bunu misallar üzərində göstərək.

Məsələ. Kater 22km çayın axın istiqamətində və 9 km göldə üzərək bütün yola 3 saat vaxt sərf etdi. Çayın sürəti 2 km/saat olarsa, katerin sürətini tapın.

1. Məsələnin şərtini təhlil edərkən şərtdə verilənlər, axtarılanlar və onlar arasında əlaqə araşdırılır.

a) Verilənlər: Katerin axın istiqamətində və göldə müvafiq olaraq getdiyi yollar *22 km* və *9 km;* yola sərf olunan zaman 3 saat; çayın axın sürəti *2 km/saat;*
b) Axtarılanlar: Katerin durğun sudakı sürəti.
c) Əlaqə: Gedilən yolla bu yola sərf olunan zaman arasında əlaqə , sürətin tapılması.

2. Həllin ideyası axtarılarkən məsələnin təhlili zamanı çıxarılan nəticədən istifadə olunur, yuxarıda deyilənlərdən aydın olur ki, məsələni tənlik qurmaqla həll etmək olar.
3. Həll prosesinin həyata keçirilməsi.

Katerin durğun sudakı sürəti *x km/saat* olsun. Onda axınla sürəti *x+2 km/saat* olar. Yola axınla *22/x+2 saat* , durğun suda *9/x saat,* bütün yola

$$(22/x+2)+(9/x)=3$$

Saat vaxt sərf edər.

$$22 \div (x+2) + (9 \div x) = 3$$

$$(22x + 9x + 18) \div x(x+2) = 3$$

$$3x^2 + 6x - 31x - 18 = 0$$

$$3x^2 - 25x - 18 = 0$$

$$D = 625 + 216 = 841$$

$$X_1 = (25 - 29) \div 6 = -1{,}5 \text{ k.k}$$

$$X_2 = (25 + 29) \div 6 = 9$$

4.İndi isə həllin düzgünlüyünü yoxlayaq.

( 22/9+2) +(9/9) = 22/11 + 1 = 2+1 = 3.

Riyaziyyatın ibtidai kursunda qeyri – müəyyən məsələləri çatışmayan verilənləri olan məsələlər, yenidən müəyyənləşmiş məsələləri isə artıq verilənləri olan məsələlər adlandırırlar.

Təsnifatın əsasında məsələnin fabulasını qoyduqda çox vaxt hərəkətə aid . işə aid, ərintiyə və xəlitəyə aid, qarışığa və qatılığa aid, faizə aid, hissəyə aid, zamana aid, alqı və satqıya aid və digər bu kimi məsələ qruplarını fərqləndirirlər. Şərtin fabulasına əsaslanaraq məsələni təsnif etmək çox çətindir, belə ki, məsələnin şərtlərinin tematikası bəzən çox müxtəlif olur.

Kəmiyyətləri arasında eyni asılılıq olan məsələlər çoxluğu onların ədədi verilənlərinin və fabulalarının mümkün müxtəlifliyində müəyyən məsələlər növü əmələ gətirirlər. Eyni növ məsələlər eyni bir cəbri modelə malik olurlar. Təsnifatın əsası olaraq məsələlərin həlli üsullarını götürdükdə aşağıdakı məsələ qruplarını fərqləndirmək olar:

1.Üçqat qaydaya aid məsələlər;

2.Əməllərin nəticəsinə görə məchulların toplanmasına aid məsələlər;

3.Mütənasib bölməyə aid məsələlər;

4.Məchullardan birinin aradan çıxarılmasına aid məsələlər;

5.Ədədi ortaya aid məsələlər;

6.Faizə və hissəyə aid məsələlər;

7.Axırdan başlayaraq yaxud əks gedişlə həll olunan məsələlər və başqaları.

Sadə məsələlərin həlli texnologiyası.

Məsələləri müxtəlif üsullarla həll edərkən, bir qayda olaraq onların “öz” təsnifatından istifadə olunur. Belə ki, cəbri həll üsulunda çox vaxt təsnifatın bazisi olaraq məsələlərin fabulasını götürürlər, hesabi həll üsulunda isə məsələləri onların həlli üsuluna görə təsnif edirlər. Lakin, qeyd etmək lazımdır ki, məsələlərin bu cür qruplara bölgüsü, ciddi desək, təsnifat sayılmır, belə ki, bu hallarda bir tərəfdən elə məsələlər ortaya çıxır ki, onlar düzəldilmiş qruplardan heç birinə aid edilə bilmir, digər tərəfdən elə məsələlər mövcud olur ki, onlar göstərilən qruplardan bir neçəsinə aid olur.

Məsələnin həlli üçün yerinə yetirilməsi vacib olan əməllərin sayını təsnifatın əsası olaraq qəbul etməklə, sadə və mürəkkəb məsələləri fərqləndirib ayırırlar. Həlli üçün bir hesab əməlinin yerinə yetirilməsi lazım olan məsələni – sadə məsələ adlandırırlar.

Məsələ1**.** Həsənin 7 yaşı var və o Sonadan 3 yaş böyükdür . Sonanın neçə yaşı var ?

Bu məsələ sadə məsələdir. İndi isə məsələni həll edək.

1. Məsələnin şərtini təhlil edərkən şərtdə verilənlər, axtarılanlar və onlar arasında əlaqə araşdırılır.

a. Verilənlər: Həsənin yaşı və Sonadan neçə yaş böyük olması.
b. Axtarılanlar: Sonanın yaşı.
c. Əlaqə: 7-dən 3 vahid kiçik ədədi taparaq sonanın yaşını tapmış olarıq.

2. Həllin ideyası axtarılarkən məsələnin təhlili zamanı çıxarılan nəticədən istifadə olunur, yuxarıda deyilənlərdən aydın olur ki, məsələni tənlik qurmaqla həll etmək olar.

3. Həll prosesinin həyata keçirilməsi.

Həsənin yaşı: 7

Sonanın yaşı: $x$

$$x = 7 - 3$$

4. Həllin düzgünlüyünün yoxlanılması :

$x = 7 - 3$

$x = 4$

Burdan aydın olur ki, Sonanın 4 yaşı var.

Məsələ2. Üç ardıcıl natural ədədin cəmi 420-dir . Bu ədədlərdən ən kiçiyini tapın.

İndi isə məsələni həll edək.

Bizə lap orta məktəbdən məlumdur ki, cüt natural ədədlər iki – iki artır. Beləliklə biz axtarılan bu üç ədədi ardıcıl olaraq

$x, x+2, x+4$

Kimi işarə edək. Bu zaman yazırıq ki,

$x + x + 2 + x + 4 = 420$

$3x + 6 = 420$

$3x = 420 - 6$

$3x = 414$

$x = 414 \div 3$

$x = 138$

Deməli biz ən kiçik ədədi $x$ qəbul etdiyimiz üçün cavab 138 olur. Beləliklə məsələni həll etmiş olduq.

Məsələ3. Düz bucaq biri digərindən 20° böyük olan iki bucağa ayrılmışdır. Bucaqlardan kiçiyini tapın.

həlli:

Məlumdurki düz bucaq 90° - dir . Bucaqlardan biri α , digəri α+20° olar. Onda

$\alpha + (\alpha + 20°) = 90°$ olar. İndi isə bunu həll edək:

$2\alpha + 20° = 90°$

$2\alpha = 90° - 20°$




$2\alpha = 70°$

$\alpha = 70° \div 2$

$\alpha = 35°$

Deməli, biz kiçik bucağı α ilə işarə etmişdik. Beləliklədə, məlum olur ki, kiçik bucaq 35° - dir .

Məsələ4.

Eni 45 sm, uzunluğu isə bundan 7 sm böyük olan düzbucaqlının perimetrini hesablayın.



həlli:

Eni: $a$=45 sm

Uzunluğu: $b$=45 sm + 7 sm = 52 sm olar.

Perimetri: $P = 2 \times (a + b) = 2 \times (45 + 52) = 2 \times 98 = 196$ sm.

Beləliklə məlum olurki düzbucaqlının perimetri 196 sm- dır.

2.Mürəkkəb məsələlərin həlli texnologiyası.

Deməli dedik ki, məsələnin həlli üçün yerinə yetirilməsi vacib olan əməllərin sayını təsnifatın əsası olaraq qəbul etməklə, sadə və mürəkkəb məsələləri fərqləndirib ayırırlar. Mürəkkəb hesab məsələləri iki və daha çox əməllə həll olunur. Mürəkkəb məsələlər öz həll strukturuna və kəmiyyətlər arasındakı asılılığa görə bir – birindən fərqlənir. Məsələlər kəmiyyətlər arasındakı asılılıqlara görə bir – birindən fərqli olduqda, onları müxtəlif qruplara aid edirlər. Belə məsələlərə tip məsələləri deyilir və hər tipə aid məsələlərin öz həll üsulu vardır. Eyni bir kəmiyyətə aid müxtəlif tip məsələlər ola bilər. Hər tip məsələni həll etməzdən əvvəl, onun həllini asanlaşdıran hazırlıq məsələsindən istifadə olunmalıdır. Hazırlıq məsələsi nisbətən asan və şifahi həll olunmalıdır . Tip məsələlərin həllini axtararkən, şagirdlərə müqayisə aparmağı öyrətmək lazımdır.

Məsələ1. $( 2 – \cos^2\alpha – \cos^4 \alpha )( 1 + ctg^2 \alpha )$ ifadəsinin ən kiçik qiymətini tapın.

Deməli biz bu məsələni 3 yolla həll edə bilərik.

1. Ilk öncə kvadrat olduqları üçün yerinə 0 qoyaraq həll edə bilərik.

$( 2- 0 – 0 )( 1 + 0 ) = 2\times1 = 2$

2. İkinci həll: $( 1 + ctg^2 \alpha )$ ifadəsinin yerinə $(1\div \sin^2 \alpha )$ ifadəsini yazaraq məsələni həll edirik.

$( 2 – \cos^2\alpha – \cos^4 \alpha )( 1 + ctg^2 \alpha ) = ( 2 – \cos^2\alpha – \cos^4 \alpha )(1\div \sin^2 \alpha ) = (2 \div \sin^2 \alpha) – (\cos^2\alpha \div \sin^2 \alpha ) – (\cos^2\alpha \times \cos^2\alpha ) = 2 + 2\, ctg^2 \alpha - ctg^2 \alpha\, ctg^2 \alpha\times \cos^2\alpha = 2 + ctg^2 \alpha - ctg^2 \alpha\times \cos^2\alpha = 2 + ctg^2 \alpha\times \cos^2\alpha = 2 + \cos^2\alpha = 2$
$+ 0 = 2$

Üçüncü həll:

Burda isə hər birini $\sin^2 \alpha$ – ya gətirib həll edəciyik.

$( 2 – \cos^2\alpha – \cos^4 \alpha )( 1 + ctg^2 \alpha ) = ( 1+ 1 - \cos^2\alpha – \cos^4 \alpha )(1\div \sin^2 \alpha ) =$
$= (1 – \cos^4 \alpha + \sin^2 \alpha )( 1\div \sin^2 \alpha ) = [ (1 - \cos^2\alpha )( 1 + \cos^2\alpha ) + \sin^2 \alpha ] \times ( 1\div \sin^2 \alpha ) =$
$[ \sin^2 \alpha \times( 1 + \cos^2\alpha ) + \sin^2 \alpha ] \times ( 1\div \sin^2 \alpha ) = \sin^2 \alpha + \sin^2 \alpha \times ( 1\div \sin^2 \alpha ) = 2 \sin^2 \alpha \times ( 1\div \sin^2 \alpha ) = 2$

Burdan bizə məlum olur ki , bəzən məsələlərin bir yox bir neçə həlli ola bilər.

Məsələ2. $\begin{cases} 4x - y = 13 \\ 3x + y = 8 \end{cases}$ tənliklər sistemindən $( x +y^2 )$ –i tapın.

həlli:

Əgər biz tənliklər sistemini qarşı – qarşıya toplama üsulu ilə həll etsək o zaman y – lər islah olar və x – i tapıb, yerinə qoyub y – i taparıq. İndi isə dediklərimizi məsələmizə tətbiq edək.

$$\begin{cases} 4x - y = 13 \\ 3x + y = 8 \end{cases} \leftrightarrow 4x - y + 3x + y = 13 + 8 \leftrightarrow 7x = 21 \leftrightarrow x = 21 \div 7 \leftrightarrow x = 3.$$

Deməli, $x$ – i 3 tapdıq , indisə $x$ – in qiymətini birinci tənlikdə yerinə qoyub y – i tapaq:

$$4 \times 3 - y = 13 \leftrightarrow 12 - y = 13 \leftrightarrow -y = 13 - 12 \leftrightarrow -y = 1 \leftrightarrow y = -1.$$

Hər iki məchulu tapdığımıza görə şərtdə bizdən tələb olunanı tapa bilərik.

$x = 3 , y = -1 \leftrightarrow y2 = 1$ olduğundan,

$$x + y2 = 3 + 1 = 4.$$

Beləliklə məsələmizi həll etdik.

3.Çətinlik dərəcəsi artırılmış məsələlərin həlli texnologiyası.

Çətinliyi artırılmış və evristik məsələlər də orta məktəb məsələlərinin bir növüdür. Evristik metodda müəllim problemin həllinin müxtəlif mərhələlərində şagirdlərin iştirakını təşkil edir. Müəllimin rolu tapşırığı qurmaqdan, onu dərsin ayrı – ayrı mərhələlərinə bölməkdən, məktəblilərin müstəqil yerinə yetirəcəkləri işləri müəyyən etməkdən ibarətdir.

Başqa sözlə, müəllim müxtəlif üsullarla şagirdlər tərəfindən biliklərin müstəqil olaraq qazanılmasını təşkil edir.

Həm ümumi orta məktəbdə, həm də yuxarı siniflərdə, demək olar ki, bütün dərslər evristik metoddan istifadə etməklə təşkil oluna bilər. Şagirdlərin yaşı artdıqca onların müstəqil yaradıcılıq prosesinə cəlb edilməsi daha effektli olur.

Məsələ1. Məktəb olimpiada komandası iki müxtəlif yarışlardan birində 150 mümkün xaldan 114 xal , digəri isə 160 mümkün xaldan 120 xal yığmışdır . Hansı yarışda daha yaxşı nəticə olmuşdur?

həlli:

$\frac{114}{150} \times 100\% = 76\% -$birinci yarışdan əldə olunan nəticə,

$\frac{120}{160} \times 100\% = 75\% -$ikinci yarışdan əldə olunan nəticə.

Beləliklə məlum olur ki, birinci yarışda daha yaxşı nəticə əldə olunmuşdur.

Məsələ2. Tərəzinin bir gözündə 2 sabun parçası, digər gözündə $\frac{3}{2}$ hissə sabun parçası və 50q – lıq çəki daşı var. Bir sabun parçasının çəkisi nə qədərdir ?

həlli:

$2x = \frac{3}{2}x + 50q$ bərabərliyindən alırıq ki, $4x = 3x + 100qr$ və bu bərabərlikdəndə $x = 100qr$.

Deməli, bir sabun parçası 100 qramdır.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. S.S. Həmidov. Tip məsələlərinin həlli metodikası. fənninin proqramı. Bakı, 2010.
2. S.A . Feyziyev, R.Y. Şükürov. Riyaziyyatın ibtidai kursunun nəzəri əsasları. Bakı, 2006.
3. S.A. Feyziyev, N.D. Hacızadə. Riyaziyyatın ibtidai kursunun nəzəri əsasları mətn məsələlərində. Naxçıvan, 2006.
4.İnternet resursları.

# OLİMPİADA MƏSƏLƏLƏRİNİN HƏLLİ TEXNOLOGİYALARI

*Tələbə: Həsənova Gülşən Raqif qızı (qrup RİN-1901B)*
*Elmi rəhbər: m. Orucov Zakir Şükür oğlu*
*heseligulsen@gmail.com*

Respublikamızda təhsil islahatının getdiyi bir mərhələdə şagirdlərin fənlərin öyrənilməsi marağını təmin etmək, onların təlimə şüurlu münasibətini yaratmaq üçün hər bir fənn müəllimi çox çalışmalıdır.Hamımıza yaxşı məlumdur ki, “Riyaziyyat elmlərin şahıdır” (K.Qaus). Bu baxımdan bu fənnin tədris keyfiyyətini yaxşılaşdırmaq hər bir müəllimin əsas vəzifəsi olmalıdır. Fənnin tədrisini yaxşılaşdırmaq üçün sinifdənxaric işlərin təşkilini səmərəli etmək, müxtəlif məzmunlu yarışlar, viktorinalar və müsabiqələr keçirmək çox zəruridir. Riyaziyyat fənnindən keçirilən olimpiadalar bütün digər formalarda özünün kütləviliyi, cəlbediciliyi, unversallığı ilə fərqlənir. Olimpiadalarda iştirak edən şagirdlər müxtəlif üsullarla həll etmək vərdişinə, həlləri analiz etmək qabiliyyətinə, qeyri standart həll üsullarını axtarıb tapmaq bacarığına yiyələnir. Şagirdlər beləliklə, verilənlərlə axtarılanlar arasında “gözəgörünməyən” asılılıqları görmək qabiliyyətinə yiyələnmək üçün öz üzərində işləyir. Olimpiadalarda qazanılan hər bir kiçik nəticə onun riyaziyyat məşğələlərində əldə etdiyi nəticələrin yüksəlməsinə səbəb olur. Olimpadaların keçirilməsi riyaziyyata meyl və marağı, xüsusi istedadı olan şagirdlərin aşkar edilməsinə səbəb olur.

Çalışmalıyıq ki, bu işə heç vaxt səhlənkar yanaşmayaq. İsdedadlı şagirdlərin aşkara çıxarılmasında əvəzsiz rolu olan fənn olimpiadalarına biganə qalmaq olmaz.

İdman tədbiri olan “olimpiada”, güc və gözəllik yarışı kimi Qədim Yunanıstanda meydana gəlmişdir. İlk olimpiadanın tarixi isə olduqca qədim olub eramızdan əvvəl 776-cı ilə təsadüf edir. Olimpiadalar eramızın 394-cü ilinə qədər dörd ildə bir dəfə “olimpiya” dağında müntəzəm keçirilmişdir. Sonralar dini mülahizələrə görə bu tədbir qadağan edilmiş, yalnız 1896-cı ildə yenidən bərpa edilmişdir. Sonralar olimpiada tipli müxtəlif yarışların təkcə idman sahəsində deyil, həm də məsələlər həlli şəklində riyaziyyatdan da keçirilməsi geniş yayılmış və ənənə şəklini almışdır. Məsələ həlli şəklində riyazi yarışların da sonralar “olimpiya” adlandırılmasi qəbul edilmişdir. Lakin əvvəllər olduğu kimi bu yarışların dörd ildə bir dəfə deyil, hər il keçirilməsi qaydası qəbul olundu.

Məsələ həlli üzrə konkurslar Rusiyada artıq 1886-cı ildən keçirilməyə başlanmışdır. Keçmiş ittifaqda riyaziyyat olimpiadalarının keçirilməsi daha geniş vüsət almışdı. Artıq 30- cu illərin əvvəllərindən riyaziyyat dərnəkləri fəaliyyətə başladı. Moskva və Leninqrad Universitetlərinin özlərinin riyaziyyat üzrə xüsusi olimpiadaları keçirilməyə başlandı. Leninqrad Universitetində məktəblilərin ilk riyaziyyat olimpiadası 1934-cü ildə keçirildi. O vaxtdan etibarən Leninqrad Universitetində riyaziyyat olimpiadası müntəzəm olaraq hər il keçirilir. Moskva Universitetində isə bu tədbir müntəzəm olaraq 1935-ci ildən keçirilir.

1947-ci ildən başlayaraq isə riyaziyyat olimpiadalarının nəinki keçmiş ittifaqın məşhur şəhərlərində, həm də bütün şəhərlərində keçirilməsi ənənəsi bərqərar oldu. Olimpiadaların ölkədə riyazi təhsilin problemləri ilə bağlı ciddi məsələlərin həllindəki mühüm əhəmiyyəti artıq bütün

riyaziyyat ictimaiyyəti tərəfindən qəbul edildi. Odur ki, bu tədbirin artıq dövlət səviyyəsində bütün ölkə miqyasında sistematik keçirilməsi ənənə şəklini aldı.

1960-cı ildə “eksperimental olimpiada” adlanan olimpiada keçirildi. Burada 9 müttəfiq respublikaların və Rusiya Federasiyasının 13 vilayətinin komandaları iştirak etdi. 1961-ci ildən isə olimpiadalar bütün ölkə miqyasında keçirilərək, əvvəlcə onlar Ümumrusiya riyaziyyat olimpiadaları, 1967-ci ildən isə Ümumittifaq olimpiadaları adlandırıldı.

Lakin Ümumittifaq olimpiyadaları olimpiadaların Respublika mərhələsinin davamı hesab edilirdi. Artıq müntəzəm şəkildə hər il keçirilməyə başlanan ümumdünya olimpiadaları isə olimpiadaların yekun mərhələsi hesab olundu. Riyaziyyat olimpiadaları respublikamız müstəqillik qazandıqdan sonra da, artıq respublika turu zona turlarından sonra 4-cü tur olmaqla müntəzəm keçirilir. Respublika turundan sonra komandamızın ümumdünya turuna vəsiqə almaq hüququna malik olması və ümumdünya turundakı nəticələri böyük fərəh doğurur.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 17 fevral 2006-cı ildə imzaladığı “Xüsusi istedada malik uşaqların (gənclərin yaradıcılıq potensialını inkişaf üzrə Dövlət Proqramı (2006-2010-cu illər)” nin təstiq edilməsi haqqında sərəncam bu sahədə əlimizdə proqram sənəddir.

Respublika fənn olimpiadaları ümumtəhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında keçirilir. Rayon turu, Respublika mərhələsinin yarımfinal və final turu olmaqla 3 mərhələdən ibarətdir. Burada yalnız yuxarı sinif şagirdləri iştirak etsə də, xüsusi istedada malik aşağı sinif şagirdlərinin də iştirak etmələrinə icazə verilir.

Beynəlxalq olimpiadalar bir qədər qarışıq sturuktura malik olub, hansı ölkədə yaranması və hansı fənn üzrə keçirilməsinə görə müxtəlif növlərə bölünür. Çoxlarına mürəkkəb görünən bu sturuktur isə əslində çox sadədir.

Riyaziyyat üzrə keçirilən beynəlxalq olimpiadalar IMO – Beynəlxalq Riyaziyyat Olimpiadası, BMO-Balkan Riyaziyyat Olimpiadası, IZHO- Rautıkov Riyaziyyat Olimpiadası, EGMO-Avropa Qızlar Riyaziyyat Olimpiadası, JBMO-Yeniyetmələrin Beynəlxalq Balkan Riyaziyyat Olimpiadası olmaqla bölünür. Yəni, ölkəni beynəlxalq arenada riyaziyyat üzrə təmsil etmək istəyənlər bu olimpiadalarda iştirak etməlidirlər.

Beynəlxalq Riyaziyyat Olimpiadası (İMO - İnternational mathematics olympiad) məktəblilər arasında keçirilən ən qədim bilik yarışıdır. İlk dəfə 1959-cu ildə Ruminiyada 4 ölkənin iştirakı ilə keçirilən olimpiadada son illər 100-dən çox ölkə iştirak edib. Bu olimpiada hər il fərqli ölkədə olmaqla iyulda keçirilir.

Beynəlxalq Riyaziyyat olimpiadasında hər ölkə 1 rəhbər, 1 müavin və maksimum 6 şagirdlə iştirak edir. Qaydalara görə, yaşı 20-dən çox olmayan istənilən məktəblilər bu bilik yarışında iştirak edə bilər.

1992-ci ildən etibarən bu elm yarışında iştirak edən azərbaycanlı şagirdlər 8 gümüş, 33 bürünc olmaqla cəmi 41 medal əldə ediblər.

Balkan Riyaziyyat Olimpiadası (BMO – Balkan mathematics olympiad) şagirdlər arasında regional olimpiadadır. Əsasən Balkan ölkələri arasında keçirilən bu olimpiada ilk dəfə 1984-cü ildə Yunanıstanın paytaxtı Afinada baş tutub. Balkan ölkələri ilə yanaşı Avropa, Asiya, Afrikadan olan

şagirdlərin də qonaq qismində iştirakına icazə verilir. Hər il növbəli olaraq balkan ölkələrinin birində baş tutan yarışda 30-a yaxın ölkədən 150-dən çox şagird iştirak edir.

Beynəlxalq Riyaziyyat olimpidasından fərqli olaraq Balkan Riyaziyyat olimpiadasında imtahan 1 gün olur. 4 saat 30 dəqiqə ərzində cavablandırmaq üçün şagirdlərə 4 tapşırıq təqdim edilir.Olimpiadada iştirak edən şagirdlərin 3/4 hissəsi mükafatlandırılır. Qaliblər I, II, III dərəcəli

diplom və müvafiq olaraq qızıl, gümüş və bürünc medallarla təltif olunurlar. Olimpiadanın 1 sualını tam həll edən şagirdlərə isə “Həvəsləndirici Sertifikat” təqdim edilir.

Balkan riyaziyyat olimpiadasında da ölkələr eyni tərkiblə iştirak edirlər. Azərbaycan məktəbliləri 2008-ci ildən etibarən bu yarışda iştirak edirlər. 1 qızıl, 7 gümüş, 22 bürünc medal olmaqla cəmi 30 medal əldə edilib.Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadası (JBMO – Junior Balkan mathematics olympiad) aşağı sinif şagirdləri arasında keçirilən regional yarışdır. Keçirildiyi tarixədək yaşı 15 olmayan hər şagird burada iştirak edə bilər.

Keçirilmə qaydaları Balkan riyaziyyat olimpiadası ilə eynidir. Əsasən Balkan ölkələri arasında keçirilən bu olimpiada ilk dəfə 1984-cü ildə Yunanıstanın paytaxtı Afina baş tutub. Balkan Riyaziyyat olimpiadasında olduğu kimi imtahan bir gün olur. Amma 4 saat 30 dəqiqə ərzində şagirdlərə cavablandırmaları üçün 4 tapşırıq təqdim edilir. Qalibin müəyyən olunma qaydaları və heyətin tərkibi Balkan olimpiadaları ilə eyniyyət təşkil edir.

Azərbaycanlılar 2011-ci ildən etibarən bu olimpiadada iştirak edirlər. Nəticə isə 1 qızıl, 9 gümüş, 13 bürünc olmaqla cəmi 23 medaldan ibarət olub.

Azərbaycan məktəblilərinin hər il 15-ə yaxın müxtəlif beynəlxalq olimpiada və müsabiqədə iştirak etdiyini, keçən tədris ilində beynəlxalq fənn olimpiadalarında 1 qızıl, 8 gümüş və 20 bürünc medal olmaqla, ümumilikdə 29 medal və 7 həvəsləndirici sertifikat qazandıqlarını nəzərə alsaq, o zaman ölkəmizdə olimpiada hərəkatının get-gedə inkişafda olduğunu qeyd edə bilərik.

Olimpiada məsələ və misalları adi məsələ və misallardan çətinlik dərəcəsinə görə fərqlənir. Bu tip çalışmaları həll etmək üçün riyazi bilik və bacarıqdan əlavə riyazi istedadın olması da mühüm şərtdir. Belə məsələləri həll edərkən həllin ideyasını düşünüb tapmaq, həllin ən optimal yolunu seçmək lazımdır.

Bu məsələ və misalın standart çalışmalardan fərqi ondadır ki, adi bilik və bacarıqlar tam kifayət etmir, həll edən fərqli yanaşma tərzinə malik olmalıdır.

Bir neçə məsələ və misalın həllini nəzərdən keçirək. IV-V sinif şagirdinin həll edə biləcəyi

1+2+4+8+16+32+ 64+128+256+512 +1024 +2048 (1)

misalda həllin ideyasını tapmaq üçün aşağıdakı yanaşma tərzləri ola bilər:

a) Adi qaydada toplama əməlinin yerinə yetirilməsi
b) Həndəsi silsilənin hədlərinin cəmi düsturu
c) Qanunauyğunluğun tapılması.

Adi qaydanı hesablamanı bacaran istənilən şagird yerinə yetirə bilər. Həndəsi silsilə düsturu da yuxarı sinif şagirdlərinə tanışdır. Qanunauyğunluğun tapılmasını (2048+2047) isə istedadlı şagirdlər tapa bilərlər. Olimpiada məsələlərini həll edarkən adətən müxtəlif üsullarla əvvəllər

qazanılmış bilik və bacariqlara əsaslanan metodlardan istifadə olunur. Aşağıdakı misalı nəzərdən keçirək :

500! ədədi neçə sıfırla qurtarır?

500! = 1· 2.3... 499 · 500. Sıfirları 2 və 5 vuruqlarının hasili yaratdığı üçün hasilda 5 vuruğunun sayını bilmək kifayətdir (2 vuruğunun sayı daha çoxdur). Artıq burada məlum olan Lejandr düsturunu tətbiq etmək olar. 500! ədədində olan sıfirların sayı $\frac{500}{5}+\frac{500}{25}+\frac{500}{125}$ =100+20+4=124-dür.

Tənlik tipli məsələlərin həlli zamanı məlumdur ki, şagirdlərin tənliklə tanış edilməsi məsələ həlli ilə başlanır. Məsələdə verilən ədədlərə görə məchul ədədin tapılması üçün, məchul ədədlə verilən ədədlər arasında müəyyən münasibət yaratmaq lazımdır. Həmin münasibət ilk mərhələdə toplama və çıxma əməlləri ilə bağlı olur. Alınan bərabərliyi ödəyən ədədin axtarılması şagirdi yaradıcı axtarışa cəlb edir. Alınan cavabın yoxlanılması da şagirdin həmin əməli şüurlu surətdə başa düşməsinə də kömək edir. Nəhayət, məsələnin məzmunu əsasında tənliyin qurulması adi dildən riyazi dilə keçməyi yəni məsələdəki prosesin riyazi simvollarla ifadə edilməsi riyaziyyat təliminin ən mühüm məqsədlərindən biridir. Şagird ədədi ifadənin qiymətini hesablayarkən, ədədin tərkibi haqqında biliklərdən və ya hesablama üsullarından (artırmaq, azaltmaq və s.) istifadə edə bilər. Sonrakı mərhələdə tənliklərin həlli əməlin nəticəsi ilə komponentləri arasındakı asılılığa əsaslanır. İbtidai siniflərdə "tənliyin tərifi", "tənliyin kökü" anlayışları işlədilmir .

Məsələlərin hamısında həll prosesində məsələlərin özünəməxsus xüsusiyyətləri olduğu kimi ümumi cəhətləri də mövcuddur. Bu ümumi cəhətlər aşağıdakı kimi göstərilə bilər:

1) Məsələnin şərtinin təhlil olunması.

2) Verilən şərtlər daxilində həllin ideyasının tapılması

3) Tapılmış ideyaya əsaslanaraq həll prosesinin həyata keçirilməsi.

4) Həllin düzgünlüyünün yoxlanması.

Göstərdiyimiz bu mərhələlər istənilən məsələləri həlli prosesində işlənir. Bunu misallar üzərində göstərək.

VIII, IX sinifə aid aşağıdakı məsələlərlə tanış olaq.

Sahəsi 144 $sm^2$ olan düzbucaqlının bir tərəfini 1 sm artırıb, o biri tərəfini 1 sm azaltsaq, onun sahəsi 1 $sm^2$ azalar. Düzbucaqlının tərəfləri nə qədər idi? Bütün halları araşdırın.

Tutaq ki, bu düzbucaqlının tərəfləri a və b-dir. Onda düzbucaqlının sahəsi ab olar. Yeni alınmış düzbucaqlının sahəsi isə $(a\ \text{-}1)(b\ +1)$ = $ab + a\ - b - 1$. Əvvəlki sahədən bunu çıxsaq b-a+1=1 alariq. Buradan $a = b$ olar. Düzbucaqlı kvadrat şəklində imiş, onun tərəfləri isə 12 sm-dir.

$2^{2007}+3^{2007}$ ədədi hansı rəqəmlə qurtarır?

Məsələnin şərtini təhlil etdikdən sonra verilmiş 2 ədədinin müxtəlif qüvvətlərinə baxaq. Əgər n= 4k +1 olarsa, $2^n$ qüvvəti 2 rəqəmi ilə qurtarır. $2^n$-in qüvvəti *n=4k+2* olarsa, 4 rəqəmi ilə, *n=4k+3* olarsa, 8 rəqəmi ilə, *n=4k* olarsa, 6 rəqəmi ilə qurtarır. 2007=4.501+3 olduğundan $2^{2007}$ ədədi 8 rəqəmi ilə qurtarır. Belə mühakimə aparsaq, görərik ki, $3^{2007}$ ədədi isə 7 rəqəmi ilə qurtarar. Onda $2^{2007}+3^{2007}$ ədədi 5 rəqəmi ilə qurtarar.( 8 ci sinif)

Çətinlik dərəcəsi artırılmış aşağıdakı olimpiyada məsələləri ilə tanş olaq.

Müəllim yazı taxtasına çağırdığı şagirdə iki ədədi vurmağı təklif etdi. Şagird vurandakı 4 rəqəmini 2 hesab etdiyindən 224 əvəzinə səhv olaraq hasildə 192 alır. Şagirdə hansı ədədləri vurmaq təklif olunmuşdur?

Şagird vurandakı 4 rəqəmini 2 hesab etdiyindən hasilə vurulanın iki misli daxil olacaqdır. Vurulanın iki mislini verilən şərtlərdən tapa bilərik 224-192=32. Deməli, vurulan 32:2=16 və vuran isə 14-dür.

Düzbucaqlı üçbucağın bütün tərəfləri tam ədədlərdir. Isbat edin ki, katetlərdən heç olmasa, birini göstərən ədəd 3-ə bölünür.

Tutaq ki, düzbucaqlı üçbucağın katetləri $a$, $b$ və $c$- dir. Onda Pifaqor teoreminə görə $a^2+b^2=c^2$ olar. Burada $a, b, c$ - natural ədədlərdir. Tutaq ki, $a$ və $b$ ədədlərindən heç biri 3-ə bölünmür. Onda $a^2$ və $b^2$ ədədlərinin 3-ə bölünməsindən alınan qalıq 1-dir. Onların cəminin 3-ə bölünməsindən alınan qalıq 2- yə bərabərdir. Bu isə ola bilməz. Ona görə ki, $a^2+b^2=c^2$ olmalıdır. Hər hansı natural ədədin kvadratı ya 3-ə bölünməlidir, ya da qalıqda 1 alınmalıdır. Deməli, katetlərdən biri heç olmasa 3-ə bölünməlidir.( 10 cu sinif )

Tərəfi $a$ olan kvadrat şəkilli dəmir lövhənin künclərindən bərabər kvadratlar kəsib qatlamaqla qqpaqsız qutu düzəlir.

Kəsilən kvadratın tərəfini necə seçmək lazımdır ki, alınan qutunun həcmi ən böyük olsun ?

Kəsilən kvadratın tərəfini $x$ ilə işarə edək. Alınan qutunun həcmi V$= x(a-x)^2$ olar. Deməli, məsələ $f(x) = x \cdot (a-2x)^2$

Funksiyasını $0 < x < a$ üçün ən böyük qiymətinin tapılmasına gətirilir.




Aydındır ki, $f(x) = \frac{1}{4} \cdot 4x \cdot (a-2x) \cdot (a-2x)$, həm də $4x + a - 2x + a - 2x = 2a$-*dır.*

Məlumdur ki, *f(x)*-in ən böyük qiyməti alması üçün vuruqlar bir-birinə bərabər olmalıdır. *4x=a-2x və ya x=* $\frac{a}{6}$ olar.

Kəsilən kvadratın tərəfin $\frac{a}{6}$ uzunluqda götürdükdə qutunun həcmi ən böyük olar.

**İstifadə edilmiş ədəbiyyatlar:**


1. A. Nuruşov. Riyaziyyat dərsdən sonra. Maarif nəşriyyatı. Bakı , 1981.
2. Olimpiada.edu.az
3. A. Nuruşov. Gənc riyaziyyatçılara kömək. Maarif nəşriyyatı. Bakı, 1975.
4. Azerbaijan-new.az
5. Education.gov.az

6. C.A. Feyziyev, C.H.Vəliyev. Məktəb riyaziyyat olimpiadası. Qeyrət nəşriyyatı, Naxçıvan, 1999
7. M.H.Yaqubov, M.A. Nəcəfov . Maksimum və minimum məsələlər, Bakı, 1999.
8. M. Abdullayev, U. İskəndərov. Həndəsə məsələləri, Stereometriya. Maarif nəşriyyatı. Bakı, 1985.

## QƏDİM ŞƏRQ RİYAZİYYATI

*Tələbə: Nəzirova Ayşən Zəfər qızı (qrup Rİ-501)*
*Elmi rəhbər: m. Quliyeva Leyla Lələkişi qızı*
*nezirovaysen@gmail.com*

Ən qədim riyazi mətnlər iki böyük sivilizasiyadan Misir və Mesopotamiya və ya Çayarasından qalmışdır. Gündəlik həyatda həlli tələb olunan ilk riyazi məsələlər məhz orada meydana gəlmişdir. Hesablamalar aparmadan nə möhtəşəm saray, nə də buğda anbarı tikmək olar. Onu da qeyd edimki, hal – hazırda günümüzdə də hesablama işləri aparmadan hər hansı bir tikilini inşa etmək olmur. Bəs hesab qaydalarını bilmədən qohumlar arasında torpağı, tacirlər arasında gəliri necə bölmək və ya dənizdə, səhrada doğru yolu necə tapmaq olar? Minilliklər boyunca Misir mədəniyyəti heç bir xarici təsir olmadan inkişaf etmişdir, onun özünəməxsusluğu da bununla izah edilir. Qədim Misir riyaziyyatının səviyyəsi çox yüksək idi. Nailiyyətləri ilə müasir elmin əsasını qoyan yunanlar özlərini misirlilərin tələbələri adlandırırlar. B.e.ə. V əsrdə tanınmış yunan tarixçisi Herodot bu haqda yazırdı “Misir Kahinləri deyirdilər ki, hökmdar torpağı düzbucaqlı sahələrə bölərək, misirlilərə paylayırdı və müvafiq vergi qoyaraq gəlir əldə edirdi. Əgər payın hansısa hissəsini daşqın nəticəsində su basardısa, ora bir dəstə adam gedər, batmış hissənin sahəsini ümumi hissədən çıxaraq vergi təyin edərdilər. Bizcə, həndəsə elə bu şəkildə yaranmışdır”. Qədim Misirin ictimai quruluşu və elmi biliklər də uzun müddət dəyişməz olaraq qalmışdır. Buna görə də alimlər bu və ya digər ixtiranın tarixini dəqiq müəyyənləşdirməkdə çətinlik çəkirlər. Həm də qədim misirlilərin riyazi səviyyələrindən xəbər verən mənbələr olduqca azdır. Onlardan ən məşhurlarının adlarını çəkək. Bu ilk olaraq, öz sahibinin şərəfinə adlandırılmış Rayndın papirusudur. O, 1858-ci ildə tapılmış, 1870-ci ildə isə şifrəsi açılaraq nəşr edilmişdir. Bu əlyazma 84 məsələdən ibarət ensiz (33 sm) və uzun (5,25 m) papirus zolağı idi. İndi bu papirusun bir hissəsi İngiltərədə London muzeyində, digər hissəsi isə Nyu-Yorkda saxlanılır. İkinci, 1888-ci ildə rus misirşünası Vladimir Semyonoviç Qolenişev tərəfindən Luksorada əldə edilmiş Bu papirusu Moskva papirusu adlandırmışdılar. Hal-hazırda papirus A.S. Puşkin adına Dövlət təsviri incəsənət muzeyinə məxsusdur. 5,44 m uzunluğunda və 8 sm eni olan bu bükmədə 25 məsələ yerləşdirilmişdir. Və nəhayət, 1927-ci ildə böyük çətinliklərlə hamarlanmış və misirlilərin riyazi biliklərini işıqlandıran “Misir riyaziyyatının dəri bükməsi” adlı papirusdur. Hal-hazırda o Britaniya muzeyində saxlanılır. Bu əlyazmalar Orta səltənət dövrünə (b.e.ə. XX-XVII əsrlər) aiddir. Moskva papirusu b.e.ə. 1800 və 1600 illər arasında, bir tələbə tərəfindən, daha qədim, 1900-cu ilə aid olan bir əlyazmadan köçürülmüşdür. Raynd papirusu isə b.e.ə. təxminən 1650-ci ildə xəttat Axmes tərəfindən

köçürülmüşdür. Orijinalın müəllifi məlum deyil, sadəcə mətnin b.e.ə. XIX əsrdə yarandığı müəyyən edilmişdir. “Dəri bükməsi” isə b.e.ə. XIX-XVIII əsrlərə aid edilir. Bu qəbildən olan papiruslar çox güman ki, dərslik rolunu oynayırdı. Axmesin əlyazmasında deyildiyi kimi o, “bütün əşyaların əsaslı və mükəmməl tədqiqinə, onların məğzinin öyrənilməsinə, sirlərinin açılmasına” həsr edilmişdir.

Misirlilərin kifayət qədər primitiv, amma çox nəhəng hesablar əsasında, həndəsədə nəzərə çarpan nailiyyətlər əldə etmələri çox heyrətamizdi. Onlar düzbucaqlı, üçbucaq, trapesiya formalı sahələri dəqiq tapmağı bacarırdılar. Məlumdur ki, b.e.ə. I minilliyin ortalarında misirlilər düzbucaqlı üçbucaq qurmaq üçün düyünlərlə 12 bərabər hissəyə bölünmüş kəndirdən istifadə edirdilər. kəndirin uclarını düyünləyib üç tərəfə dartırdılar. Əgər tərəflər 3:4:5 nisbətində olurdularsa, deməli, düzbucaqlı üçbucaq alınırdı. Və bu qədim Misirdə məlum olan yeganə düzbucaqlı üçbucaq idi. Papiruslarda Pifaqor teoremi ilə bağlı heç bir məsələnin olmamasına baxmayaraq, riyazi mətnlərin şifrəsinin açılmasına qədər misirlilərin onunla tanış olduqları barədə mülahizələr yürüdülürdü. Misirlilərin həndəsə elminin ən mühüm nailiyyətlərindən biri, diametri $d$ olan dairənin sahəsini göstərən S= $\left(d-\frac{1}{9}d\right)^2=\left(1-\frac{1}{9}\right)^2 d^2$

düsturundan $\pi$ ədədi üçün çox yaxşı təqribi qiymətin alınmasıdır. Rayndın papirusundakı 50-ci məsələdən bu qaydaya əsasən

$\pi=4\cdot\left(\frac{8}{9}\right)^2$=3,1605 qiymətinə uyğun gəlir. Ancaq düsturun özünü necə aldıqları mətndən

aydın olmur. Moskva papirusunda daha bir maraqlı məsələ var: “ ağzı $4\frac{1}{2}$” olan zənbilin səthi hesablanır. Mətndə zənbilin hansı formada olduğu göstərilmədiyindən, tədqiqatçılar onu müxtəlif şəkildə izah edirlər. Ancaq hamı eyni fikirdədir ki, burada da $\pi$ ədədi üçün 4$\cdot\left(\frac{8}{9}\right)^2$ təqribi qiyməti götürülür. Qeyd edək ki, bütün Qədim Şərqdə hesablamalarda $\pi$ = 3 qiymətindən istifadə olunurdu. Hətta Bibliyada da ona göstəriş var. Beləliklə, bu barədə misirlilər başqa xalqları çox qabaqlayıblar. Fəza cisimləri içərisində piramidanı ən çox “misirli” hesab etmək olar, çünki fironların sərdabələri bu formadadır. Belə məlum olur ki, kubun, paralelepipedin, prizmanın və silindrin həcmini hesablamaqla bərabər, misirlilər oturacaqları a və b tərəfli kvadratlar, hündürlüyü h olan kəsik piramidanın həcmini hesablamağı bacarırdılar. Bunun üçün onlar

$$V=\frac{(a^2+ab+b^2)\cdot h}{3}$$

düsturunu tətbiq edirdilər. Bu düstur qədim Misir riyaziyyatının ən yüksək nailiyyəti hesab olunur. Çapıqlarla yazılı lövhələr üzərindəki hesablama tipli məsələlər içərisində ədədi və həndəsi silsiləyə aid məsələlərə rast gəlinir ki, onlar haqqında mesopotamiyalıların təsəvvürü misirlilərə nisbətən çox inkişaf etmişdi. Belə məsələlərin həlli mütənasib asılılıq və ədədi orta ideyasına əsaslanırdı. Babilli mirzələr ədədi silsilənin n həddinin cəmini tapmaq qaydasını bilirdilər:

$$S_n=\frac{n(a_1+a_n)}{2}.$$

Çapıqlarla yazılı mətnlərdə faizlə əlaqəli məsələlər də var idi. Babilistan ticarət yollarının kəsişməsində yerləşdiyi üçün və burada pul vahidləri və kredit başqa dövlətlərə nisbətən daha tez yaranmışdı. Babillilərin kvadrat köklərin təqribi hesablanması üçün qaydaları da mövcud idi. Məsələlərin əksəri bir və ya iki dərəcəli tənlikiər sistemi ilə əlaqəli idi. Onları simvolsuz, xüsusi terminlərlə yazırdılar. Babillilərin danışıq dili akkad dili idi, amma elmdə termin olaraq şumer sözlərindən istifadə edirdilər. Belə sözlərin hər biri bir işarə ilə göstərildiyi üçün hecalı yazı mətninin ümumi fonunda seçilirdilər. Eramızdan əvvəl XVIII əsrdə, Hammurapinin çarlığı dövründə tənlikiəri həll etmək məharəti yüksək səviyyəyə çatdı. Müxtəlif şərtlərlə tərtib olunan bu məsələlərdə adətən “eni” və “uzunluğu” və ya “vurulan” və “vuranı” tapmaq tələb olunurdu. Uzunluqla enin hasilinə “sahə” deyilirdi. Kub tənliklərə gətirilən məsələlərdə üçüncü məchul “dərinlik” meydana gəlirdi və üç kəmiyyətin hasili “həcm” adlanırdı. Terminologiyaya görə məsələlərin həndəsi mənşəli olduğuna baxmayaraq, babillilər onları sadəcə ədəd kimi qəbul edirdilər və bu səbəbdən də uzunluqla sahəni toplayırdılar. Qədim Yunan riyaziyyatında bunu etmək (uzun müddət sonralar da) olmazdı. Cəbri üsulların inkişafını tələb edən başqa növ məsələlər qeyri-müəyyən tənliklər də mövcud idi. Ən qədim və məşhur qeyri-müəyyən tənliyə misal olaraq: $x^2 + y^2 = z^2$ tənliyini göstərmək olar.

Bir çox çapıq yazılı mətnlərdə bu tənliyin (*x, y, z*) rasional ədədlərlə həllindən söhbət gedir daha sonralar onları “Pifaqor üçlüyü” adlandırmağa başladılar. Babillilərin onun həllinin ümumi düsturunu bilib-bilmədikləri haqqında aydın məlumat olmasa da, onlara məsələn (3, 4, 5), (5, 12, 13), (8, 15, 17) və s. üçlükləri məlum idi. Hətta rasional “Pifaqor üçlüklərinin” cədvəli belə saxlanılmışdır, amma onun necə əldə edildiyini müəyyən etmək mümkün deyil. Qədim babillilər daha bir qeyri-müəyyən tənliyi nəzərdən keçirirdilər:

$$u^2 + v^2 = 2\omega^2 \quad (1)$$

tənliyinə baxırdılar. Onun rasional həlli (u, v, w) “babilistan üçlüyü”nü yaradır. Baxılan tənliyin də həndəsi mənası var. Belə tənlik babillilərin mətnlərində tez -tez rast gəlinir: verilmiş trapesiyanı oturacağa paralel olan xətlə iki müadil hissəyə bölməli Alt oturacağı $v$, üst oturacağı $u$ ilə, bölən parçanı $\omega$ ilə işarə etsək, asanlıqla görmək olar ki, onlar üçün (1) tənliyi doğru olacaq. Babillilər bu tənliyin sonsuz sayda həllərini tapmağı bacarırdılar.

Bizə gəlib çatan Çin riyazi mətnlərindən ən qədimi b.e.ə. I minilliyə aiddir. B.e.ə. II minillikdə riyazi-astronomik “Ölçü çubuğu haqqında traktat” və “Riyaziyyat doqquz kitabda” yazılmışdır. Daha sonra VII əsrdə hər iki əsər, “On klassik traktat” toplusuna daxil edildi. Məcmuəyə: Lyu Xueyanın əlçatmayan əşyalara qədər olan məsafənin və onların ölçülərinin müəyyənləşdirilməsi haqqında olan “Dəniz adası haqqında traktat” (III əsr); Sun-Szının riyazi cədvəllər, cəbri və həndəsi məsələlərdən, xətti tənlikərdən ibarət “Riyazi traktat”; praktiki məsələlərdən ibarət anonim “Beş təsisatda riyazi traktat” daxil idi. “Riyaziyyat doqquz kitabda” əsəri əsas elmi əsər sayılırdı. O, yerölçənlər, mühəndislər, məmurlar, tacirlər, bir sözlə, riyazi biliklərə ehtiyacı olan hər kəs üçün nəzərdə tutulmuşdur. Əslində bu məcmuə giriş mətni və ilkin izahı olmayan 246 məsələdən ibarət məcmuədir.

Çox qədim zamanlardan Çində hesabı onluqlarla aparırdılar. Təxminən b.e.ə. IV əsrdən başlayaraq xüsusi çubuqların köməyi ilə saymağa başladılar. Onlardan təxminən 1,5 min il istifadə etdilər. Çubuqları, sətir və sütunlara bölünmüş hesab lövhəsində düzürdülər. Ədəddə hər hansı mövqe olmadıqda uyğun hücrə boş qalırdı. Hesablama çubuqlarının köməyi ilə Çin nömrələməsi mövqeli onluq say sistemində ən qədim sistemdir. Ta qədimdən Çində kəsrlər məlum idi. Bəzilərinin hətta öz adları belə var idi. İkidə bir “ban”, üçdə bir “şao ban” (“kiçik yarı”), üçdə ikiisə “tay ban” (“böyük yarı”) adlanırdı. Daha sonralar dörddə bir üçün də xüsusi - “zəif yarı” adı da meydana gəldi. Onluq kəsrlərdən də istifadə edirdilər. 1 x 1- dən 9 x 9-a qədər olan vurma cədvəlini əzbər bilirdilər. Onu dərslərdə deklamasiya edirdilər və ya hətta oxuyurdular. Ədədlərin kvadratlarını, kublarını və dördüncü dərəcələrini göstərən cədvəllər də var idi. Bəzi məsələlərin həllində kiçik ədəddən böyük ədədi çıxmaq lazım gəlirdi. Beləliklə də b.e.ə. II əsrdə mənfi ədədlər meydana gəlir. Hesab lövhəsində onları başqa rəngli və ya formalı çubuqlarla, əlyazmada isə başqa rəngli mürəkkəb və ya əyri xətlə qeyd edirdilər. Mənfi ədədlər “fu”, müsbət ədədlər isə “çjen” adlanırdı. Tədricən “fu” ədədlər borc, çatışmazlıq kimi izah olunurdu. Mənfi ədədləri və onların toplanma qaydalarını daxil etməyi Çin alimlərinin ən böyük kəşfi saymaq olar. Yunan riyaziyyatında bunu III əsrin ortalarında Diofant etdi, hind riyaziyyatında isə mənfi ədədlər yalnız VII əsrdə peyda olduğuna rast gəlmək olar.

**İstifadə edilmiş ədəbiyyatlar:**


1. https://az.m.wikipedia.org/wiki/Riyaziyyat
2. https://elektronriyaziyyat.wordpress.com/2014/07/04/riyaziyyatin-yaranma-tarixi/
3. https://wikifaz.icu/wiki/Egyptian_mathematics
4. https://mbukckslg.ru/az/start-v-nauke-zarozhdenie-matematiki-na-drevnem-vostoke- plan.html
5. https://sites.google.com/site/elibabayev8a2/riyaziyyat
6. Riyaziyyat ensklopediya I hissə
7. Riyaziyyat ensklopediya II hissə

## II BÖLMƏ
## "HUMANİTAR ELMLƏR" BÖLMƏSİ

# SSRİ-NİN SÜQUTU VƏ MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ YARANMASI

*Tələbə: Nurullayeva Kübra Ramiz qızı( qrup MQT1801B)*
*Elmi rəhbər: dos. B.İ. Ələsgərov*
*kubranurullayeva@mail.ru*

Son zamanlar Azərbaycan tarixinin müasir dövrünün öyrənilməsinə maraq daha da artmışdır. Düzdür, tariximizin müxtəlif dövrləri ilə bağlı çox saylı fundamental əsərlər yazılmış və bu əsərlər Azərbaycan tarixinin öyrənilməsində böyük əhəmiyyətə malik olmuşdur. Lakin bununla belə, tariximizin daha doğrusu müasir dövr tariximizin tədqiqi öz aktuallığı ilə seçilir. XX əsrin 80-90- cı illərində Azərbaycanın siyasi həyatında baş verən mühüm dəyişikliklərin obyektiv araşdırılması olduqca əhəmiyyətlidir.

Belə ki, XX əsrin nəhəng imperiyalarından olan Sovet imperiyası 90- cı illərdə özünün tənəzzül dövrünü keçirirdi və bu tənəzzül son nəticədə onun süqutuna səbəb oldu. İmperiya tərkibində olan bir sıra dövlətlər isə müstəqillik əldə etdı. Beləliklə, əsrin əvvəllərində yaranan Sovet imperiyası əsrin sonunda daxili çəkişmələr nəticəsində süquta uğradı. Nəticədə, imperiyanın tərkibindəki 15 müttəfiq respublika müstəqillik qazanaraq yeni inkişaf yolu seçdi. Azərbaycan da belə müttəfiq respublikalardan biri oldu və 18 oktyabr 1991-ci ildə müstəqillik əldə etdi. Müstəqillik qazandıqdan sonra isə dövlətimiz bu istiqamətdə böyük uğurlar qazandı. Əldə olunan müstəqillik xalqımıza o dərəcədə də asan başa gəlməmişdir. Azərbaycan öz müstəqilliyini əldə etmək üçün milli azadlıq hərəkatına başlamış və uzun mübarizədən sonra qələbə qazanmışdır. Belə ki, iki sistem-kapitalizm və sosializm sistemləri arasında davam edən ziddiyyətlər artıq XX əsrin sonunda dünya sosializm sisteminin süqutuna səbəb oldu.

XX əsr Azərbaycan tarixinə diqqət yetirdikdə aydın görmək olur ki, əsrin əvvəllərində xalqımız çar Rusiyasına qarşı azadlıq mübarizəsi aparmış və şərqdə ilk müsəlman türk dövlətinin əsasını qoymuşdur.

SSRİ-nin müsəlman əhalisinin sürətlə artması Kreml rəhbərliyini qeyri-slavyanların zərərinə siyasət yeritməsinə vadar etdi. "Müstəqilləşmə" adı altında yuxarıdan etnik təmizləmə siyasətinin həyata keçirilməsi başlanıldı. Suverenlik uğrunda mübarizə elan olunduqdan sonra başlıca məqsəd həmin mübarizə prosesinə nəzarət etmək və hadisələri mərkəzin istədiyi istiqamətə yönəltmək idi. Lakin qarşıya qoyulan məqsədə nail olunmadı. Respublikalarda başlayan milli-azadlıq hərəkatları ittifaqın dağılmasına səbəb oldu. Müstəqillik qazanmış respublikalarda iqtisadi-siyasi islahatlar həyata keçirildi. İslahatların nəticələrini təhlil etsək aydın görmək olar ki, bu dövrdə sosializmdən kapitalizmə SSRİ dövlət formasından yeni dövlətçilik formalarına, sinfi dəyərlərdən bəşəri dəyərlərə keçid baş verdi. Yenidənqurma və aşkarlıq xətinin qəbul olunması SSRİ tərkibindəki xalqlarda milli şüurun oyanmasına, milli-azadlıq hərəkatının genişlənməsinə şərait yaratdı. 1990-cı ildə bir çox respublikaların ali sovetlərinə seçkilər keçirildi. Bu nisbətən azad seçkilər idi. Bir çox respublikalarda, o cümlədən RSFSR-də yeni nəsil siyasətçiləri uğur qazandı. Bu siyasətçilər fəal,

yeni ideyalar irəli sürən şəxsiyyətlər olsada, lakin, onların bir çoxunun aydın fəaliyyət proqramı yox idi və zidiyyətli şüarlarla çıxış edirdilər. Yeni seçilmiş sovetlərin fəalları 1917-ci ildə olduğu kimi, "Bütün hakimiyyət Sovetlərə!" şüarını irəli sürürdülər. Bu o zaman partiya rəhbərliyi ilə hakimiyyət uğrunda hakimiyyət şüarı idi. Alternativ səsvermədən sonra B.N.Yeltsin RSFSR Ali Sovetinin sədri seçildi. 1991-ci il iyunun 12-də isə o, Rusiyanın ilk prezdenti seçildi. Hüquqi dövlət, vətəndaş cəmiyyəti şüarları vətəndaşların azad təşkil olunan və qanun çərçivəsində fəaliyyət göstərən ittifaqlarda, hərəkatlarda, partiyalarda birləşmək hüququ verilməsini nəzərdə tuturdu. Çox partiyalı sistemə keçid və aşkarlıq siyasəti "Qeyri-formal" təşkilatların da yaranmasına imkan verdi. Lakin yeni təşkilatların qeydə alınması və onların qanuni status alması üçün qanunverici aktlar yox idi. Hərəkatlar, təşkilatlar, klublar özlərini liberal, radikal və s. adlandırılan ideyalarla bağlayır və fəaliyyətlərinin ilk mərhələsində partiya dövlət rəhbərliyinin islahatçı hissəsini müdafiə etdiklərini bildirərək aparatın, bütövlükdə inzibati-amirlik sisteminin ehkamçı hissəsinə qarşı çıxırdılar. Partiya nomenklaturasının sıralarında siyasi birliyin olmaması, onun qeyri-mütəşəkkilliyi bütövlükdə Sovet sisteminin dağılmasına şərait yaradırdı. 1990-cı ilin əvvəllərində Kommunist partiyasının rolun ilə bağlı konstitusiyanın 6-cı maddəsini ləğv etmək tələbləri kütləvi xarakter aldı. Eyni zamanda həmin ildə respublika kommunist təşkilatlarında da parçalanmalar baş verdi. Kommunistlərin bir hissəsi sosial-demokrat təmayüllü partiyalar yaradır, digər hissəsi isə mühafizəkar-kommunist mövqelərindən çıxış edirdilər. Məsələn, 1990-cı ilin yayında RSFSR kommunist partiyası yaradıldı. Rəhbərliyi ehkamçı mövqe tutduğundan partiya kütlələr içərisində ideya-siyasi-təşkilati cərəyan kimi öz təsirini itirməyə başladı. 1990-cı ilin iyun ayında keçirilmiş Sov İKP-nin XXVIII qurultayından sonra bir il ərzində 4 mln. nəfərə yaxın adam partiya sıralarından çıxmış, üzvlərin isə əhəmiyyətli hissəsi üzvlük haqqını verməyi dayandırmışdı.

1991-ci ilin 12-21 avqust hadisələrindən sonra artıq Sov. İKP faktiki surətdə öz mövcudluğunu itirdi.

Yer üzərində "Parçala və hökmüranlıq et" prinsipinin çox mahir formalarla, əsasən, qeyri-iqtisadi məcburiyyətlə həyata keçirildiyi son imperiyanın SSRİ-nin sönük həyatının bütün qollarını sındıran uzunmüddətli sujet hazırlamağa çalışırmış. Digər imperiya ABŞ isə daha çox iqtisadi zorakılıq hesabına nəzərə çarpacaq böyük nəticələr əldə edirdi. Qeyd edək ki, həm də xeyli yuvarlaq il dönüşü yaxınlaşırdı: XX əsrdə Avropa-Asiya ərazisində 1992-ci ildə SSRİ adlandırılmış imperiya öz hökmranlığını başlamışdır. Sovet imperiyasında mühüm rol oynamış, demokratiya və aşkarlığı elan etmiş issident, Ceymis Baykerin sonradan etdiyi etirafa görə ABŞ və onun müttəfiqlərinə son yüzillikdə bu "Şər imperiyasını" parçalamaq üçün əlverişli imkan yaratdı.

Prezident Karterin sabiq köməkçisi Bejezinski "Vaşinqton tayms" qəzetində qeyd etdiyi kimi, "Gələcək 20-30 ildə dünyada milli və etnik münaqişələrin mərkəzi Sovet İttifaqı olacaq. Burada millətçilik canlı dinamik qüvvəyə çevriləcəkdir. Sovetlər öz millətlərinin problemlərini nəzarətdə saxlaya bilməyəcəklər. Onların sistemi ölümcül böhran ərəfəsindədir".

Bjezinski ərazi, etnos adı çəkməsə də lakin əvvəlcədən verdiyi proqnozlar "Möhtəşəm iflas: XX əsrdə kommunizmin dağılması və məhvi" əsərinndə öz təsdiqini tapdı.

Bütün bü hadisələrdən aydın olur ki, SSRİ-nin dağılmasında xarici qüvvələrin də, xüsusən kapitalizm dünyasınında böyük rolu olmuşdur. Bu qüvvələr SSRİ-nin silah gücünə yarandığını, daxildən möhkəm olmadığını qeyd edirdilər.

Buna görə də qüvvələr imperiyanın dağılması üçün müxtəlif üsullara əl atırdılar. Yəni artıq demokratiya və insan hüquqlarının azadlığı prinsipi SSRİ-yə ixrac edilməyə başlayırdı. Bu da kommunist ideologiyasına ağır zərbə vurur və yeni planlar işlənib hazırlanmasını zərurətə çevirirdi.

Nəticədə yenidənqurma adlanan siyasi plan meydana çıxdı. Lakin yenidənqurma və aşkarlıq xəttinin meydana çıxmasın son məqamda uğursuzluğa gətirib çıxarırdı. Bildiyimiz kimi, SSRİ konstitusiyasında millətlərin öz müqəddəratını təyin etmək hüququ, insan azadlığı və demokratiya kimi yüksək bəşəri dəyərlər vardır.

1985-ci ilin dekabrında “Daşnaqsütun” partiyasının Afinada keçirilən XXIII qurultayında isə “Böyük Ermənistan” yaratmaq kimi sərsəm bəyanatların səsləndirilməsi mövcud vəziyyəti daha da gərginləşdirdi. Artıq bu dövrdə Azərbaycanda fəaliyyət göstərən ermənilərə məxsus “Krunk” (Durna) təşkilatı da bundan bəhrələnərək xalqımıza qarşı açıq mübarizəyə başladı. Dağlıq Qarabağda yaşayan ermənilər bunun ardınca “Miatsum” adlanan hərəkatada qoşuldular və bu ad altında ermənistanla birləşmək üçün öz fəaliyyətlərini genişləndirdilər. Azərbaycan-erməni milli münaqişəsinin ilk qurbanları yenə də Ermənistanda yaşayan azərbaycanlılar oldu.

Soydaşlarımızın ata-baba torpaqlarından qovulmasının sonuncu-dördüncü mərhələsi başlandı. Belə ki, 1988-ci il fevralın 19-da Yerevanda ilk antitürk mitinqlər həyata keçirildi. Fevralın 21-də Yerevan şəhərində qalmış sonuncu məsçid də dağıdıldı və azərbaycanlılara qarşı soyqırım siyasəti daha da gücləndi. Köməksiz qalan 4 min nəfər azərbaycanlı sakin ağır işgəncələrdən yaxa qurtararaq çox böyük çətinliklə, piyada, ayaqyalın-başıaçıq, çılpaq vəziyyətdə qarlı dağ keçidlərini adlayaraq Azərbaycana gəlməyə məcbur oldular.

90-cı illərdə Azərbaycanda milli-azadlıq hərəkatı getdikcə genişlənirdi. Bunun əsas səbəbi mərkəzin Ermənistanda və Dağlıq Qarabağda azərbaycanlıların soyqrımına laqeyd münasibət göstərməsi və Azərbaycanın parçalamaq siyasətinin həyata keçirilməsi olmuşdur. Artıq Azərbaycan xalqının şüurunda “Milli istiqlal məfkurəsi” kök salmağa başladı. Xalq öz mənliyini dərk edərək mübarizəyə qalxdı. Ziyalılarımız M.Ə. Rəsulzadənin “Milli müstəqilliyi olmayan xalqın mübarizə aparmağa haqqı yoxdur” şüarını rəhbər tutaraq xalqı öz arxasınca aparmağa çalışırdı. Qeyd etmək lazımdır ki, milli azadlıq hərəkatı 1988-ci ilin sonunadək kortəbii xarakter daşıyırdı. 1987-ci ilin sonlarında BDU-da yaradılmış “Yurd” təşkilatı və 1988-ci ilin yazından fəaliyyət göstərən “Çənlibel” cəmiyyəti bu hərəkata istiqamət verməyə çalışsa da, lakin bu təşkilatlar hələ kifayət qədər zəif olduqlarından lazımi nəticələr əldə olunmadı. Əvvəllər Azərbaycan xalqı ermənilərin Dağlıq Qarabağdakı təcavüzünə qarşı Kreml rəhbərliyinə etiraz teleqramları və məktublar göndərməklə, imzalar toplamaqla kifayətlənirdisə, artıq 1988-ci ilfevralın 19-dan bu etirazlar Bakıda mitinqlərlə müşahidə olundu.

1988-ci ilin mayında Azərbaycanda hakimiyyətə gəlmiş Ə.Vəzirov da xalqın etimadını qazanmadı. O, Respublikanın problemlərinin həllini “Komputerləşmə”də və “kəndlərdə hamam tikilməsi”ndə gördü. Həmin ilin payızında isə Dağlıq Qarabağda XİQ-in ermənipərəst siyasəti,

xüsusilə nadir “Topxana meşəsi”ndə ermənilərin sənaye obyekti tikməsi xəbəri xalqımızı hərəkətə gətirdi. Xalq hərəkatının kortəbii mərhələsinin ən yüksək dövrü noyabrın 17-dən başlandı. Həmin gün səhər nümayişçi dəstələr universitet, akademiya, politexnik, iqtisad və s. institutların qarşısından “Azadlıq meydanına” gəldilər. Bu mitinqdə Dağlıq Qarabağda anti-Azərbaycan qurumunun ləğvi və Ermənistanın təcavüzünün qarşısının alınması tələb edildi. Mitinq iştirakçıları tələbləri yerinə yetirilməyənə qədər meydanı tərk etməyəcəklərini bildirdilər. Qarabağ hadisələri ilə bağlı başlanmış bu hərəkat daha da genişlənərək Azərbaycanın azadlığı uğrunda mübarizə hərəkatına çevrildi. Mitinqçilərin sayı yüz minlərə çatırdı. Hətta da meydanda gecələyən mitinqçilər qalanmış tonqalın yanından belə getməyərək öz ehtiraz səslərini ucaldırdılar.

Milli-azadlıq hərəkatına qoşulan xalq kütlələri üç əsas təkliflə çıxış edirdilər:

1. Ermənistan SSR Azərbaycan SSR-dən ərazi iddialarından əl çəkməli.
2. Ermənistan SSR-in Azərbaycan xalqına qarşı etdiyi işğalçılıq siyasətinə görə ölkə və dünya ictimaiyyəti qarşısında rəsmən üzr istəməli.
3. Xalqlar arasında nifaq salmış Z. Balayan, R. Poqosyan, S. Kaputikyan və s. erməni millətçiləri isə cəzalandırılmalı.

Azadlıq mücahidlərimiz bu tələblərin yerinə yetirilməsi uğrunda hər vəchlə mübarizə aparırdılar. Meydan hərəkatının 1-ci mərhələsi kortəbii xarakter daşısa da, milli-azadlıq hərəkatının zirvəsində dayandı. Meydan hərəkatı xalqımızda özünə böyük inam yaratdı. Belə ki, xalq təşkilatlanmağın, imperiyaya qarşı vahid cəbhədə birləşməyin və mübarizə aparmağın zəruriliyini dərk etdi. 1988-ci ilin yazında bir qrup ziyalı “Bakı şəhər alimlər klubu”nda fəaliyyət göstərən gənc alimlər arasında Azərbaycanın SSR-in SSRİ çərçivəsində suverenliyi uğrunda mübarizə aparması üçün bir təşkilatda birləşmək ideyasını irəli sürmüşdü. Bu mühüm hadisədən sonra xalq cəbhəsinin proqram və nizamnaməsinin lahiyələri işlənib hazırlandı. 1989-cu ilin fevralında milli-demokratik hərəkatda yeni canlanma baş verdi. 1989-cu ilin martın 13-də Azərbaycan Xalq Cəbhəsinin Təşəbbüs qrupu və 1988-ci ildə fəaliyyətə başlayan Varlıq Komitəsi arasındakı siyai razılaşmaya əsasən hər iki tərəfdən 5 nəfərin daxil olduğu AXC-nin Müvəqqəti Təşəbbüs Mərkəzi (MTM) təşkil edildi. 1989-cu ilin mayın əvvəllərində DQMV-də XİK-in xalqımıza qarşı həyata keçirdiyi siyasətlə əlaqədar olaraq MTM-nin respublikada fəaliyyəti daha da genişləndi. 1989-cu il iyunun 16-da Bakıda yarımgizli şəraitdə AXC-nin təsis konfransı keçirildi. Cəbhənin proqramı və nizamnaməsi qəbul edildi. Əbülfəz Əliyev (Elçibəy) cəbhənin sədri seçildi. Proqramda qeyd olunurdu ki, “AXC respublika həyatının bütün sahələrinin yenidənqurulması, demokratikləşdirilməsi ilə yanaşı, Azərbaycanın SSRİ daxilində siyasi, iqtisadi və mədəni suverenliyi uğrunda da mübarizə aparır. Əgər yenidənqurma baş tutmasa, AXC Azərbaycanın tam dövlət müstəqilliyi uğrunda mübarizə aparacaqdır”. Cəbhə demokratik mərkəzin prinsipinə istinad etməklə, konfedrativ quruluşa malik idi. Yuxarı təşkilatların qərarları cəbhənin bütün üzvləri üçün yalnız məsləhət xarakter daşıyırdı.

Buna görə də xalqın demək olar ki, bütün təbəqələri, o cümlədən siyasətdə radikal, liberal və barışdıcı mövqe tutanlar bütünlüklə AXC-də birləşdilər. İlk dövrlərdə AXC- nin bu istiqamətdəki fəaliyyəti olduqca uğurlu və səmərəli oldu. Artıq AXC-nin təşəbbüsü ilə silsiləmitinqlər keçirilməyə başlandı. Nəticədə, AXC və Azərbaycan KP MK arasında respublikamızın gələcək taleyi ilə bağlı danışıqlar başlandı. Buna görə də, AXC-nin təşəbbüsü ilə sentyabrın 12-də

respublikada tətil dayandırıldı. Sentyabrın 15-də Respublika Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı. Sessiyada iştirak edən AXC-nin idarə heyəti üzvlərinin təzyiqi altında DQMV XİK-in ləğvi, suverenlik, vətəndaşlıq və iqtisadi müstəqillik haqqında qərar qəbul edildi. Respublika Ali Sovetinin sentyabrın 23-də öz işini davam etdirən növbədənkənar sessiyasında Azərbaycan SSR-in suverenliyi haqqında konstitusiya qanunu qəbul edildi. Qanunda Azərbaycan SSR-in SSRİ tərkibindən çıxmaq haqqında mühüm bəndlər daxil edildi. Azərbaycandakı milli azadlıq hərəkatından qorxuya düşən Moskva 1989-cu il noyabrın 28-də DQMV-də XİK-i ləğv etdi. Azərbaycan SSR Nazirlər Soveti 1989-cu il oktyabrın 5-də AXC-ni rəsmi təşkilat kimi qeydə aldı. AXC-nin yarımleqal şəkildə buraxılan bülleteni əvəzinə dekabrın 4-dən kütləvi tirajla onun mərkəzi orqanı olan “Azadlıq” qəzeti nəşr olunmağa başladı. Respublikamızda demokratik hərəkat genişlənsə də, lakin bu dövr xalqımız üçün ən ağır, məsul dövr idi. AXC-nin lideri Ə.Elçibəy öz yüksək pafoslu nitqləri ilə xalqı birləşməyə, birlikdə mübarizə aparmağa səsləməklə yanaşı, milli müstəqillik ideyalarının da xalq içərisində geniş yayılmasında da böyük rol oynamışdı. O, çıxışlarında demokratik cəmiyyət anlayışına böyük əhəmiyyət vermiş və respublikamızın inkişafını bu baxımdan dəyərləndirmişdi. O qeyd edirdi ki, “harada demokratiya varsa orada insanlıq var, əgər o yoxdursa insanlıqda yoxdur. Ona görə də bu gün ən mühüm vəzifə Azərbaycanda demokratik hərəkatın genişlənməsidir. Qarabağ probleminin həlli ilə yanaşı Azərbaycan xalqı ilə birlikdə biz itirilmiş digər torpaqlarımızı da geri qaytarmalıyıq. Bunun da yeganə bir çıxış yolu var, o da demokratiyanın inkişafındadır”. Sonra Ə.Elçibəy Azərbaycan xalqının mənəvi keyfiyyətlərindən danışmış və bir sıra qabaqcıl dünya ölkələrində xalqımıza verilən yüksək dəyərdən bəhs etmişdir.

Bəhs olunan dövrdə Azərbaycan xalqı bir sıra uğurlarla yanaşı, müəyyən çətinliklərlə də üzləşdi. Qisa müddət ərzində xalq hərəkatını radikallaşdırmaq və bəzi güzəştlərlə onu zoraki hərəkətlərə yönəltmək kimi məkirli siyasət həyata keçirilməyə başlandı. Bu özünü daha çox AXC-nın daxilində siyasi qüvvələrin müxtəlifliyində göstərdi. Belə ki, 1989-cu il 27-28 oktyabrında keçirilən AXC məclisinin birinci sessiyasında cəbhəçilərin bir hissəsi digərlərinin təslimçilikdə, xalqa xəyanətdə və qətiyyətsizlikdə günahlandırdı. Xalqın bu cür təbəqələrə parçalanmasında Moskva rəhbərliyi də müəyyən rol oynamışdı. Lakin xalqın istiqlal amalı onları öz məqsədindən döndərə bilmədi. 1989-cu ilin dekabrında bir sıra rayonlarda Cəlilabad, Ağcabədi, Sabirabad və Naxçıvan MSSR-də Araz çayı boyu Sovet-İran sərhəddində həyəcanlar başladı, həmçinin sərhəd qurğuları dağıdıldı. Hər iki tərəfdən sərhəddə toplaşan azərbaycanlılar Araz çayını keçib bir-biri ilə görüşdülər. Həmin hadisə Azərbaycan tarixinə dünya azərbaycanlılarının həmrəliyi günü kimi daxil oldu. Bu dövürdə ermənilər azərbaycanlılara məxsus yaşayış məntəqələrinə yenə də silahlı basqınları təşkil edirdilər. Silahlı özünü müdafiə dəstələrini birləşdərmək, yeni hərbi dəstələr yaratmaq və erməni hücumlarının qarşısını almaq üçün AXC Milli Şurası (MŞ) təşkil edildi. Lakin Azərbaycanda komminist rejiminin devriləcəyindən qorxan mərkəz xalqımızı cəzalandırmaq üçün Bakı ətrafına əlavə qoşun hissələri və əlavə ağır silahlar toplamağa başladı.

Buna cavab olaraq AXC MŞ-nin göstərişi ilə əhali şəhərin girəcəyində, Bakı qarnizonu hissələrinin ətrafında yük, minik maşınları, avtobus, troleybusları yan-yana düzərək barrikadalar qurmuş və piketlər keçirmişdilər. Baş qaldıran narazlıqların qarşısın almaq üçün Bakıya gəlmiş SSRİ Ali Sovetinin sədri K. Primakov və Sov. İKP MK katibi A. Girenkonun AXC-nin

nümayəndələri ilə görüşləri də müsbət nəticə vermədi. Əksinə, AXC-nin təşəbbüsü ilə 1990-cı il yanvarın 17-də Azərbaycan KP MK-nın binası qarşısında izdihamlı mitinqlər baş verdi və respublika ərazisində ümumtətil elan olundu. Keçirilən mitinqlərdə Ermənistanın Azərbaycan torpaqlarına olan iddialarına son qoyulması, Bakı ətrafına toplanan qoşunların Dağlıq Qarabağa, həmçinin hücuma məruz qalan sərhəd bölgələrinə göndərilməsi və Ə.Vəzirovun istefası tələb olunurdu. Münasib şəraitin yarandığını hesab edən SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 20-də saat 00:00-dan “Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında” fərman verdi. Lakin xalqa qəfil divan tutmaq üçün bu fərman dərhal elan edilmədi. Xalq məlumatsız olsun deyə yanvarın 19-da saat 19:27 dəqiqədə Azərbaycan televiziyasının enerji bloku partladılılaraq sıradan çıxarıldı.

Fövqəladə vəziyyət yanvarın 20-də saat 00:00 da başlanılmasına baxmayaraq, artıq yanvarın 9-da saat 21-dən Sovet qoşun hissələri Türkan-Qala tərəfdən Bakı şəhərinə yeridildi. “Bakı əməliyyatı”na SSRİ Müdafiə Naziri D. Jazov şəxsən özü rəhbərlik edirdi. Bakı qarnizonunun hissələri, respublikaya gətirilən digər hərbi hissələr və hərbi gəmilərdən çıxarılan desant qüvvələri dinc əhali üzərinə hücuma keçdi. Ağır hərbi texnikanın köməyi ilə barikadaları dağıdan hərbiçilər hətda yoldan keçən dinc əhalini, yaşayış evlərini və təcili yardım maşınlarını da atəşə tuturdular.

Sovet ordusunun hücumu zamanı Bakıda və respublikanın digər yaşayış məntəqələrində rəsmi məlumata görə 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 4 nəfər itkin düşmüş və xeyli adam həbs olunmuşdu. Bu hücum nəticəsində nəqliyyat vasitələrinə, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdir.

Qanlı yanvar hadisəsindən sonra Ə.Vəzirovun yerinə Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov Azərbaycan KP MK-nın birinci katibi təyin olundu. Fövqəladə vəziyyətə baxmayaraq “Qara Yanvar”a etiraz əlaməti olaraq respublikada 40 günlük ümumilli tətil başlandı. Mərkəzin xalqımıza qarşı bu qəddarlığı onun nüfuzdan düşməsinə və bu dövlətə olan inamın iflasına gətirib çıxartdı. Yanvarın 22-də Bakıda və bütün Azərbaycan ərazisində azadlıq şəhidləri ilə vida mərasimi keçirildi. Respublikada 3 günlük matəm elan olundu. Şəhidlər şəhərin ən uca yerində Dağüstü parkda dəfn edildi. Kommunist rejimi bu iyrənc üsulla Azərbaycan xalqının azadlıq hərəkatını boğa bilmədi. On minlərlə azərbaycanlı kommunist partiya biletindən imtina etdi və onu tonqallarda yandırdı. Qanlı yanvar hadisəsi Azərbaycanda milli-azadlıq hərəkatının böyük vüsət almasına güclü təkan verdi. Bu hadisə sübut etdi ki, yeganə çıxış yolu sovet imperiyasından ayrılıb suverenliyə nail olmaq və dövlət müstəqilliyini bərpa etməkdədir. 1990-cı ilin aprel ayında respublikanın bir qrup yaradıcı ziyalısı sonralar “75-lərin bəyanatı” adlanan bəyənatla iqtidara və AXC-yə müraciət edərək onları birliyə çağırdı. Mayın ortalarında iqtidar və AXC nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə Məşvərət Şürası yaradıldı. Məşvərət Şürasının razılığına əsasən 1990-cı ilin mayın 19-da Respublika prezidenti vəzifəsi təsis edildi və Ayaz Mütəllibov bu vəzifəyə seçildi. 1990-cı il sentyabrın 30-da ilk dəfə olaraq alternativ əsasda Azərbaycan SSR xalq deputatları və yerli xalq deputatları Sovetlərinə seçkilər keçirildi. Seçkilərə hazırlığın gedişində yəni, iyulun 28-də respublika demokratik qüvvələrinin forumu keçirildi və 20-dən çox ictimai təşkilatın iştirak etdiyi Demokratik Blok adlanan qısaca desək, “Demblok” təşkil olundu. Keçirilən seçkilərdə saxtakarlığa

yol verildi və nəticədə “Demblok”un cəmi 30 nümayəndəsi xalq deputatı seçildi. Azərbaycan SSR-in adı dəyişdirilərək Azərbaycan Respublikası adlandırılırdı. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 18 Oktyabr sessiyasında “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında” konstitusiya aktı yekdilliklə qəbul edildi. Dövlət müstəqilliyimiz haqqında qanun çox mürəkkəb daxili və beynəlxalq şəraitdə qəbul olundu. Ermənistanın Azərbaycana qarşı qəsbkarlıq müharibələri, Azərbaycan silahlı qüvvələrinin hərbi uğursuzluqlarına səbəb olan ordu quruculuğunda baş verən ciddi nöqsanlar, Respublikada nəzərə çarpan dərin siyasi böhran və s. buna misal ola bilər. Düşmən bundan məharətlə istifadə edərək 1992-ci ilin fevralın 25-26-da dəhşətli Xocalı soyqırımını törətdilər. Xocalı faciəsi zamanı 613 nəfər şəhid oldu, 487 nəfər yaralandı, 1275 nəfər isə əsir düşdü, 8 ailə isə bütünlüklə məhv edildi və şəhər isə yandırıldı. Bu qanlı faciədə 366-cı rus alayının da “böyük xidməti” olmuşdur. Xocalı soyqrımı XX əsrin ən qanlı hadisəsi kimi yaddaşlara həkk olundu.

1992-ci il mayın 7-8-də Şuşanın düşmənə təslim edilməsi və mayın 16-17-də Laçının boşaldılması respublikada siyasi vəziyyəti daha da gərginləşdirdi. Bu dövrdə xalqın inam bəslədiyi AXC iqtidara gəldi. Onun liderlərindən biri İsa Qəmbərov Ali Sovetin sədri seçildi. 1993-cü il iyunun 7-də keçirilən prezident seçkiləri nəticəsində AXC-nin sədri Əbülfəz Elçibəy Respublika Prezidenti seçildi. 1992-ci ilin yayında hərbi əməliyyatlarda, xüsusən də Ağdərə əməliyyatında mühüm irəlləyişlər əldə edilsə də, lakin AXC-nin ölkədə siyasi sabitlik yaratmaq, Qarabağ problemini həll etmək, iqtisadi sabitlik yaratmaq və s. kimi mühüm məsələləri həll edə bilmədi. Yeni iqtidar kadr siyasətdində və ordu quruculuğunda da ciddi nöqsanlara yol verdi. Bu da ölkədə mövcud olan böhranlı vəziyyəti daha da ağırlaşdırırdı. Respublikada iqtisadi tənəzzülü daha da dərinləşirdi.

Azərbaycan tarixinin 1991-1993-cü illəri xalqın yaddaşında ən ağır fəlakət illəri, “olum, ya ölüm” dövrü kimi qaldı. Moskvadan idarə olunan xəyanətkar rəhbərlər və onları əvəz edən səriştəsiz AXC-Müsavat hakimiyyəti ölkəmizi parçalanmaq və dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qoymuşdular. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərc-mərclik, anarxiya, özbaşınalıqlar baş alıb gedirdi. Silahlı Qüvvələr torpaqlarımızın deyil, ayrı-ayrı dairələrin maraqlarının müdafiəsinə xidmət edirdi. Ölkə vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Xalq ümidsizlik və təlaş içərisində idi. Sabaha inam qalmamışdı. Ən acınacaqlısı bu idi ki, Azərbaycanın xaricdəki düşmənləri daxildəki satqınlarla birləşmişdilər.

Belə fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri Heydər Əliyev idi. Məhz o zaman - 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. Müdrik dövlət xadimi zəngin təcrübəsinə və idarəçiliyinə arxalanaraq vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı.

1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra dövlətçiliyin əsasları yaradıldı, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək, Azərbaycanın beynəlxalq aləmdə tanıdılması istiqamətində mühüm addımlar atmağa başladılar.

1993-cü ildə Ulu Öndərin hakimiyyətə qayıdışından sonra sabitliyin təmin olunması ölkədə

iqtisadi tərəqqiyə geniş yol açdı. Azərbaycan xalqı illərdən bəri ürəyində gəzdirdiyi istəyinə öz təbii sərvətlərinin əsl sahibinə çevrilməsinə nail oldu.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. H.Əliyev. Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı, 26 mart 1998.
2. İ.Əliyev. Azərbaycan və Türk diaspor təşkilatı rəhbərlərinin formu. 29 mart 2007.
3. Azərbaycan milli ensiklopediyası. Bakı, 2007.
4. H. Sadıqov. SSRİ-nin dağılmasından sonra Azərbaycanda erməni xəyanəti, seperatizm, işğal aktları. Bakı, 2012.
5. H.Sadıqov. Erməni məsələsi. Bakı, 2012.
6. Ə.Əliyev. Siyasət naşıları sevmir. Bakı, 2008.
7. H. Sadıqov. Azərbaycanın müstəqillik əldə etməsi. Bakı, 1991.
8. “Hürriyyət” qəzeti. Dünyanın Azərbaycana qarşı iddiaları. 24 may 1994.
9. Z.T. Mustafazadə. Ümumi tarix, IV cild. Bakı, 1998.
10. S.Cəlaloğlu. Azadlığa məhkumluq. Bakı, 1994.
11. J. Pompeyev. Qarabağ qan içində. Bakı,1996.
12. V.Qurko-Pryajin. Erməni məsələsi. Bakı, 1990.
13. İ. Əliyev Dağlıq Qarabağ: tarixi faktlar, hadisələr. Bakı, 1989.
15. B.Nəcəfov. Azərbaycan Demokratik Respublikası. Bakı, 1992.
16. A. Ziyadxanov. Azərbaycan. Bakı, 1993.
17. Azərbaycan SSR EA Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı,1990.
18. A. Mansurov. Tarixin ağ ləkələri və yenidənqurma. Bakı, 1991.
19. O. Hidayət. Didərginlər. Bakı, 1990.
20. Z.Sultanov. Xocalı faciəsi. Bakı, 1993

21. S.Qəndilov. Siyasi tarix, II cild. Bakı, 1995.
22. Azərbaycan beynəlxalq aləmdə, I cild. Bakı, 1996.
23. Azərbaycan beynəlxalq aləmdə, II cild. Bakı, 1997.
24. Azərbaycan beynəlxalq aləmdə, III cild. Bakı, 1998.

## AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİNİN DAXİLİ SİYASƏTİ

*Tələbə:Mürşüdova Mehri Seyidağa qızı (qrup TC- 501).*
*Elmi rəhbər: dos. Y.A. Səmədov*
*mmrdova@inbox.ru*

Azərbaycan Xalq Cümhuriyyəti - Azərbaycan xalqının Çar Rusiyasına qarşı milli azadlıq mübarizəsi nəticəsində Birinci Dünya müharibəsi dövründə Şimali Azərbaycanda yaranmış müstəqil dövlət və müsəlman şərqində ilk parlamentli respublika. Paytaxtı əvvəlcə Gəncə,

sonra Bakı şəhəri idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Cənubi Qafqazda azərbaycanlıların elliklə yaşadıqları ərazilər təqribən 150 min kv. km-ə bərabər idi. 1918-ci ildə Cənubi Qafqazda müstəqil dövlətlər meydana gəldikdə, əzəli Azərbaycan torpaqlarının bir hissəsində Ermənistan Demokratik Respublikası yaradıldı. AXC Hökuməti, həmçinin Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri və keçmiş İrəvan xanlığının paytaxtı olan İrəvanı da ermənilərə güzəştə getməyə və onu yeni yaradılan Ermənistan Demokratik Respublikası “siyasi mərkəzi” kimi tanımağa məcbur oldu. Beləliklə, Cənubi Qafqaz respublikaları arasında sərhəd məsələləri qismən nizama salındıqdan sonra AXC Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113,9 min kv. km-ni əhatə edirdi. AXC-nin əhalisi 2.8 milyondan çox idi.

Dövlət hakimiyyəti üç qoldan ibarət idi: Azərbaycan parlamenti, hökumət, məhkəmə hakimiyyəti. Dövlət parlamentin qəbul etdiyi qanun və qərarlar əsasında idarə olunurdu. Parlamentdə Azərbaycan ərazisində yaşayan bütün xalqlar, o cümlədən sayları çox az olan xalqlar da öz deputatları ilə təmsil olunmuşdular. İcra hakimiyyəti hökumətə məxsus idi. Hökumət parlament qarşısında cavabdeh idi. AXC hökuməti 1918-ci ilin 28 mayından 16 iyuna qədər Tiflisdə, 16 iyundan 17 sentyabra qədər Gəncədə, 17 sentyabrdan 1920-ci ilin 28 aprelinə qədər isə Bakıda fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Paris Sülh Konfransının qərarına əsasən, müstəqil dövlət kimi tanınmışdı. Dünyanın bir çox ölkələri ilə səfirlik və nümayəndəlliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər bağlamışdı. AXC müstəqil məhkəmə sisteminin yaradılması sahəsində də mühüm tədbirlər həyata keçirilmişdir. AXC-nin müstəqilliyini iyirmi üç dövlət tanımışdır.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin 28 aprelində beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində aradan qaldırıldı. Şimali Azərbaycanda sovet sosialist respublikası yaradıldı. Yeni dövlət 1922-ci ildə ZSFSR-in tərkibində SSRİ-nin qurulmasında iştirak etdi. 1991-ci ildə Sovet imperiyasının dağılması nəticəsində Azərbaycan xalqı Şimali Azərbaycanda dövlət müstəqilliyini yenidən bərpa etdi. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.

“İstiqlal bəyannaməsi” AXC-nin dövlət quruluşunu parlamentli respublika kimi təsbit etmişdi. Qanunverici orqan funksiyasını ilk dövrlərdə Müvəqqəti Milli Şura yerinə yetirirdi. Milli Şuradakı mövcud siyasi qüvvələr Azərbaycanın yalnız müsəlman əhalisini təmsil edirdi. İyunun 17-də fəaliyyətini dayandırmalı olan Milli Şura hökumətin qarşısında 6 aydan gec olmayaraq ümumi, birbaşa və gizli səsvermə əsasında Müəssislər Məclisinin çağırılması vəzifəsini qoymuşdu. Osmanlı qoşunları Şimali Azərbaycanı tərk etdikdən sonra Bakıya gəlişi gözlənilən Antanta qüvvələrinin AXC-ni tanımaqdan imtina etməsi Azərbaycanın müstəqilliyini yenidən təhlükə altına aldı. Belə bir vəziyyətdə ölkənin bütün əhalisini təmsil edəcək qanunverici orqanın təxirə salınmadan çağırılmasına böyük ehtiyac var idi.

1918-ci ilin noyabrında fəaliyyətini bərpa edən Milli Şura özünü yenidən respublikanın yeganə qanunverici orqanı elan etdi. Noyabrın 20-də qəbul edilmiş “Azərbaycan parlamentinin yaradılması haqqında” Qanun seçki əsasında və ölkədə yaşayan bütün millətlərin təmsil olunduğu birpalatalı parlamentin yaradılmasını nəzərdə tuturdu. Parlamentin yaradılması haqqında qanuna görə, milli azlıqlara böyük güzəştlər edilirdi. Belə ki əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən Bakı

qəzasından parlamentə 5 nəfər müsəlman deputatı seçilməli olduğu halda, azlıqda qalan ermənilərin Milli Komitəsi 5, rusların Bakı Milli Şurası isə 10 nəfər deputat seçmək hüququ alırdı. Müsəlman əhali Gəncə və Şuşa qəzalarının hər birindən 2 nümayəndə seçməli olduğu halda, ermənilərə hər birindən 8 nümayəndə seçmək hüququ verilirdi. Bu güzəştlər AXC-ni ölkənin bütün millətlərinin iradəsinə arxalanan dövlət kimi dünyaya təqdim etmək zərurətindən edilmişdi. Erməni və rus Milli şuraları müxtəlif bəhanələrlə əvvəlcə Azərbaycan Parlamentini tanımayacağını bildirsə də, Bakıdakı Antanta hərbi komandanlığının təmsilçisi general Tomson dekabrın sonlarında parlamentə və hökumətə müsbət münasibətini bəyan etdikdən sonra onun işində iştirak etməyə məcbur oldu.

1918-ci il dekabrın 7-də fəaliyyətə başlayan AXC Parlamenti xalqın demokratik hakimiyyət prinsiplərinə verdiyi böyük dəyərin təzahürü idi. Parlamentin sədri vəzifəsinə o zaman İstanbulda Azərbaycanın fövqəladə və səlahiyyətli səfiri qismində fəaliyyət göstərən Əlimərdan bəy Topçubaşov seçildi. Lakin məlum səbəblərə görə bu vəzifəni onun müavinləri – 1920-ci ilin fevralına kimi Həsən bəy Ağayev, daha sonra isə Məmmədyusuf Cəfərov icra etməli oldular. Parlamentin fəaliyyətə başlaması münasibətilə siyasi məhbuslara amnistiya elan edildi. Parlamentin ilk müzakirə etdiyi məsələlərdən biri hökumətin hesabatının dinlənilməsi və yeni hökumətin təşkil olunması idi. F. Xoyski səhhəti ilə bağlı yeni hökumətin yaradılması barəsində təklifdən əvvəlcə imtina etsə də, israrlı müraciətlərdən sonra 1918-ci il dekabrın 26-da yeni koalisiya hökumətini təşkil etməyə razı oldu. Hökumət Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, ərzaq, nəqliyyat, aqrar, maliyyə və ordu sahələrində təxirəsalınmaz islahatların keçirilməsini nəzərdə tutan bəyannamə ilə çıxış etdi. General Tomson bu hökuməti Azərbaycan hüdudlarında yeganə qanuni hakimiyyət orqanı kimi tanımaqla təkcə AXC-nin beynəlxalq aləmdə tanınması istiqamətində mühüm qərar qəbul etmədi, eyni zamanda Rusiyanın parçalanmasını istəyən öz dövlətinin maraqlarını da ifadə etmiş oldu. Tomsonun bu bəyanatına baxmayaraq, ingilis komandanlığı Bakıda yaratdığı general-qubernatorluq vasitəsilə AXC hökumətinin daxili işlərinə kobud müdaxilələrə yol verirdi. Parlament və hökumətin fəaliyyətlərini çətinləşdirən amillərdən biri burada təmsil olunan partiyaların arasında kəskin fikir ayrılıqlarının mövcudluğu idi. Parlamentdə bir neçə fraksiya və qrup fəaliyyət göstərirdi. Lakin buna baxmayaraq, fəaliyyət göstərdiyi müddət ərzində AXC parlamenti 230-a yaxın qanun qəbul etdi.

1918-ci ilin yayında ölkə ərazisində hərbi vəziyyət tətbiq edildi, ilk dövlət bayrağı qəbul olundu, türk (Azərbaycan) dili dövlət dili elan edildi, ümumi hərbi mükəlləfiyyət tətbiq olundu.
Ali icra orqanı funksiyasını hökümət yerinə yetirirdi. AXC-nin ilk hököməti Milli Şura qarşısında məsuliyyət daşısa da, ikinci hökümət şuranın qanunverici səlahiyyətlərini də həyata keçirməli oldu, türk (Azərbaycan) dili dövlət dili elan edildi, ümumi hərbi mükəlləfiyyət tətbiq olundu.

AXC-nin ərazisi 113.896 km2 (onun 97.298 km2-i mübahisəsiz ərazi) idi və inzibati cəhətdən Bakı, Gəncə və Zaqatala quberniyalarına bölünmüşdü. Ölkə əhalis1919-cu ildə 4.617.671 nəfər idi ki, onun da 75,4%-ni müsəlmanlar təşkil edirdilər.

Mürəkkəb daxili və xarici şərait Azərbaycan Milli Ordusunun yaradılmasının sürətləndirilməsini tələb edirdi. AXC hökumətinin 1918-ci il 26 iyun tarixli qərarı ilə, əsasən, azərbaycanlılardan ibarət olan Müsəlman Korpusu Əlahiddə Azərbaycan Korpusu adlandırıldı, bununla da, Cümhuriyyət Ordusunun əsası qoyuldu.

Bu işi sürətləndirmək məqsədi ilə1918-ci il noyabrın 1-də F. Xoyskinin rəhbərliyi altında hökumətin nəzdində Hərbi Nazirlik yaradıldı. Lakin ordu quruculuğu onun müavini, daha sonra isə Hərbi nazir vəzifəsini icra edən general S. Mehmandarova tapşırıldı. Pərakəndə fəaliyyət göstərən milli hərbi hissələrin idarə olunmasını mərkəzləşdirmək məqsədilə Baş Qərargah formalaşdırıldı. AXC parlamenti ordu quruculuğu və ölkənin müdafiəsinin təşkili ilə bağlı 9 qanun qəbul etdi. Orduda Azərbaycan dilinin öyrədilməsinə, savadsızlığın aradan qaldırılmasına, döyüşçülərin xalqın milli dəyərlərinə və şanlı qəhrəmanlıq tarixinə əsaslanan tərbiyəsinə, hərbi bacarıqlarının artırılmasına, peşəkar milli zabit kadrlarının hazırlanmasına, nizam-intizamın gücləndirilməsinə, ordunun silah-sursatla tam təmin olunmasına böyük əhəmiyyət verilirdi. 1919-cu ilin aprelində hökumətin təqdim etdiyi büdcə layihəsinə əsasən, orduya dövlət büdcəsindən xərclərin, təqribən, 28%-i ayrılmalı idi. Hərbi qulluqçuların geyim formasının milli üslubda hazırlanması döyüşçülərin milli ruhunun gücləndirilməsində əhəmiyyətli addım oldu. 1919-cu ilin iyununda imzalanmış Azərbaycan-Gürcüstan hərbi-müdafiə və hərbi-texniki əməkdaşlıq haqqında sazişlərin də Milli Ordunun formalaşdırılmasında mühüm əhəmiyyəti var idi. Ölkənin xarici təhdidlərdən təhlükəsizliyini təmin etmək məqsədilə 1919-cu il iyunun 11-də Baş Qərargahın nəzdində Əks-inqilabla Mübarizə Təşkilatı yaradıldı.

1918-ci ilin aprelindən etibarən Lənkəran bölgəsini vaxtilə burada məskunlaşdırılmış rus-molokan əhalisinin yardımı ilə Azərbaycandan ayıraraq əvvəl ağqvardiyaçılar, sonra isə bolşeviklər nəzarətdə saxlayırdılar. 1919-cu ilin mayında bolşeviklər burada Sovet hakimiyyətinin qurulduğunu və Muğan Sovet Respublikasının yaradıldığını elan etdilər. Sovet Rusiyası separatçılara silah-sursat və pulla yardım edirdi.

AXC ordusunun əsas hissələri bu zaman Qarabağın dağlıq ərazisində erməni separatçılarına qarşı mübarizə aparırdı. Digər qismi isə şimaldan gələn təhlükə ilə bağlı sərhədlərin müdafiəsinə göndərilmişdi. Buna görə də yalnız 1919-cu ilin avqustunda bölgəyə gələn Milli Ordu hissələri separat Muğan Sovet Respublikasını ləğv etdi.

1918-ci ilin yayında Qarabağda məskunlaşmış erməni əhalisi Ermənistandan aldığı yardımın sayəsində fəallaşmışdı. Onların məqsədi əhalinin əksəriyyətini müsəlmanların təşkil etməsinə baxmayaraq, buranı zorla Ermənistana birləşdirmək idi. Qafqaz İslam Ordusu bu dövrdə bütün səylərini Bakının azad edilməsinə yönəltdiyindən Qarabağda erməni quldur dəstələrinin müsəlman əhalisinə qarşı qırğınları geniş miqyas almışdı. Bakının azad edilməsindən dərhal sonra AXC hökuməti Qarabağda sabitliyin yaradılması və erməni quldur dəstələrinin tərk-silah edilməsi üçün Qafqaz İslam Ordusunun bir hissəsini buraya göndərdi. Sentyabr-oktyabr aylarında aparılan hərbi əməliyyatlardan sonra Qarabağda AXC-nin hakimiyyəti bərqərar oldu. Osmanlı qoşunlarının Şimali Azərbaycanı tərk etməsi ilə Ermənistan tərəfindən yardım alan quldur dəstələri yenidən fəallaşdı. Bu dəfə onlara qarşı mübarizəni AXC ordusu aparmalı oldu. 1919-cu il yanvarın 13-də AXC hökuməti Qarabağın azərbaycanlı əhalisini erməni quldur dəstələrinin vəhşiliklərindən qorumaq üçün Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağın müvəqqəti general-qubernatorluğunun təsis olunması haqqında qərar qəbul etdi. Bu vəzifəyə milli azadlıq hərəkatının görkəmli xadimlərindən biri, AXC-nin ilk hökumətində Hərbi nazir olmuş Xosrov bəy Sultanov

təyin edildi. Ermənistan hakimiyyətinin Qarabağda bu vəzifənin təsis edilməsinə və ermənilərin düşməni adlandırdığı X.Sultanovun bu vəzifəyə təyin olunmasına etirazı bir nəticə vermədi. İyunun 5-də Qarabağda AXC hakimiyyətinə qarşı pozucu fəaliyyət aparan erməni Milli Şurasının fəal üzvləri general Tomsonun yardımı ilə ölkə hüdudlarından çıxarıldılar. Ertəsi gün Şuşanın erməni əhalisi separatçıların fitnəkarlığına görə X. Sultanova məktub yazaraq onun şəxsində Şuşanın müsəlman əhalisindən üzr istədi.

Avqustun 15-də Qarabağın erməni əhalisi AXC hakimiyyətinə tabe olduğu haqqında hökumətlə saziş imzalamaq məcburiyyətində qaldı. 1919-cu ilin payızında Zəngəzurda müsəlman əhalisinin erməni basqınlarından müdafiəsinin gücləndirilməsi nəticəsində Ermənistan respublikası bir müddət qəzanın işğalından əl çəkməli oldu. İngilis komandanlığının vasitəçiliyi ilə Azərbaycan Xalq Cümhuriyyəti və Ermənistan Respublikası arasında 1919-cu ilin noyabrında Tiflisdə imzalanmış sazişə əsasən, hər iki tərəf qoşun hissələrini Zəngəzurdan çıxarmalı idi. Lakin saziş imzalandıqdan bir neçə gün sonra Ermənistan onun şərtlərini pozaraq öz qoşununu Zəngəzura göndərdi.

AXC-nin yaradılması ərəfəsində, xüsusilə ondan sonra erməni silahlı qüvvələri tərəfindən Naxçıvanın müsəlman əhalisinə qarşı qırğınların miqyası genişləndirilmişdi. Batum müqaviləsi əsasında 1918-ci ilin iyununda Naxçıvana gəlmiş Osmanlı qoşunları yerli silahlı dəstələrin yardımı ilə bölgənin müdafiəsini möhkəmləndirdi. Osmanlı hərbi qüvvələri 1918-ci ilin noyabrında Naxçıvanı tərk etdikdən sonra fəallaşmış erməni quldur dəstələrinin buranın dinc müsəlman əhalisinə qarşı vəhşilikləri yenidən artdı.

1918-ci ilin noyabrında bölgənin müdafiəsini təmin etmək və onun Ermənistan tərəfindən işğalına yol verməmək üçün mərkəzi Naxçıvan şəhəri olan Araz-Türk Respublikası (ATR) yaradıldı. 1919-cu il fevralın 28-də ATR-in “Cənub-Qərbi Azərbaycan” adı altında AXC-yə birləşməsi xahişini təmin edən hökumət Bəhram xan Naxçıvanskinin rəhbərliyi altında Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar ərazisini əhatə edən Naxçıvan general-qubernatorluğu yaradılmasını qərara aldı. Cənubi Qafqazda ingilis komandanlığının Naxçıvan məsələsində ermənipərəst mövqeyi, Ermənistanın güclü hərbi və siyasi-diplomatik təzyiqi, AXC-nin bölgəyə kifayət qədər yardım göstərə bilməməsi 1919-cu ilin martında ATR-in süqutuna səbəb oldu. Bölgə əhalisinin və AXC hökumətinin maraqlarına ingilis komandanlığının laqeydliyi nəticəsində 1919-cu ilin mart-iyul aylarında burada erməni idarəçiliyi fəaliyyət göstərirdi. Lakin işğal rejimi AXC-nin güclü diplomatik təzyiqi və yerli əhalinin qətiyyəti sayəsində ləğv edildi. 1919-cu ilin avqustunda Naxçıvan şəhərində Səməd bəy Cəmillinskinin başçılığı ilə general-qubernatorluq fəaliyyətə başladı.

AXC-nin siyasi liderləri hesab edirdilər ki, demokratik cəmiyyət insanlar arasında siyasi bərabərliyi təmin etməklə yanaşı, sosial ədalətsizliyi də aradan qaldırmalıdır. 1919-cu ilin dekabrında parlamentdə AXC-nin yeni hökumətinin başçısı qismində çıxış edən N.Yusifbəyli Azərbaycanın azad və müstəqil yaşamasının əsas şərti kimi güclü iqtisadiyyatın yaradılmasının zəruriliyini qeyd etdi. AXC-nin iqtisadi siyasətinin əsas prinsiplərindən biri müxtəlif mülkiyyət formalarının inkişafı üçün bərabər imkanların yaradılması idi. Xüsusi mülkiyyətin toxunulmazlığının azad sahibkarlığın inkişafı üçün vacib olduğu fikrini qəbul edən AXC hökumətləri eyni zamanda da onun miqyasının ifrat dərəcədə artmasına qarşı idi.

1918-ci ilin iyununda hökumət ölkənin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə ərzaq və bəzi xammal məhsullarının xaricə çıxarılmasına müvəqqəti qadağa qoydu. 1919-cu ilin sentyabrında Dövlət Bankı fəaliyyətə başladı. Artan inflyasiya şəraitində milli pul vahidlərinin möhkəmləndirilməsi və onların alıcılıq qabiliyyətinin qorunub saxlanılması hökumətlərin başlıca vəzifələrindən biri idi. Qiymətli metalların ölkədən xaricə daşınmasına görə məsuliyyət müəyyən edildi. Daxili bazarın qorunması üçün xaricdən gətirilən bir sıra mallara qoyulan gömrük rüsumu artırıldı. Eyni zamanda ölkədən məhsulların xaricə azad şəkildə ixracı üçün zəruri qanunlar qəbul edildi. Xarici kapitalın ölkə iqtisadiyyatında iştirakını artırmaq məqsədilə tədbirlər həyata keçirildi. Azərbaycan neftinin xarici bazarlarda satışının kəskin azalması səbəbindən neft sənayesində böhran dərinləşməkdə idi. 1918-ci ilin noyabrında general Tomsonun başçılığı ilə yaradılmış ingilis işğal rejimi Bakı neft sənayesini nəzarətdə saxlamağa çalışırdı. AXC-nin IV hökuməti, əvvəlki hökumətlərdən fərqli olaraq, Bakı neftinin əsas istehlakçısı kimi daim bu məhsula ehtiyac duyan və onun əsas bazarı hesab olunan Rusiya ilə münasibətləri bərpa etməyi nəzərdə tutmuşdu. 1918-ci ilin iyunundan etibarən Osmanlı dövlətinin, noyabrından isə ingilis komandanlığının nəzarəti altında olan Bakı-Batum neft kəmərindən AXC hökuməti yalnız Versal sülh müqaviləsinin 89-cu maddəsinə əsasən istifadə etmək imkanı qazandı. 1919-cu ilin ikinci yarısı – 1920-ci ilin əvvəllərində kəmər vasitəsilə dünya bazarlarına 330 min tona qədər kerosin ixrac edildi.

AXC hökuməti sosial sahədə mühüm tədbirlər həyata keçirdi. 1918-ci ilin iyulundan etibarən inflyasiya ilə əlaqədar bir neçə dəfə əhalinin müxtəlif təbəqələrinin maaşının artırılması haqqında qərarlar qəbul edildi. Hökumət 1919-cu ilin fevralında kasıb ailələrdən olan uşaqlara yardım edilməsi ilə bağlı qərar verdi.

AXC hökumətlərinin sosial siyasətlərində qaçqınların problemlərinin həlli əsas yerlərdən birini tuturdu. 1918–1920-ci illərdə erməni quldur dəstələrinin törətdikləri vəhşiliklər səbəbindən İrəvan, Zəngəzur, Şuşa və Şamaxıdan 300 min nəfərdən çox azərbaycanlı qaçqın düşmüşdü. 1918-ci ildə yaradılmış Himayədarlıq Nazirliyi həm də onların problemləri ilə məşğul idi. Qaçqınlara ərzaq, pul və zəruri istehlak malları verilirdi.

Xalq maarifi sahəsində ən başlıca vəzifələrdən biri təhsil sisteminin yenidən qurulması və milli kadrların hazırlanması idi. Təhsil sisteminin milli zəmin əsasında yenidən qurulmasında 1918-ci il iyunun 27-də türk (Azərbaycan) dilinin dövlət dili elan olunması və avqustun 28-də məktəblərin milliləşdirilməsi haqqında qərarın qəbul edilməsinin mühüm əhəmiyyəti var idi. İbtidai məktəblərdə şagirdlərin ana dilində təhsil alması ilə yanaşı, dövlət dili kimi türk (Azərbaycan) dilinin tədrisi məcburi hesab olunurdu. Orta təhsil müəssisələrində isə tədris dövlət dilində aparılmalı idi. Təhsil müəssisələrində, dövlət idarələrində, orduda, məhkəmələrdə dövlət dilindən istifadə mühüm əhəmiyyət kəsb edirdi. Bununla yanaşı, milli kadrların hazırlanmasına qədər dövlət idarələrində rus dilindən istifadəyə də icazə verilirdi.

Ölkədə müəllim kadrları hazırlamaq üçün qısamüddətli kurslar təşkil edildi. AXC hökumətinin qərarı ilə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin bazasında Qazax Müəllimlər Seminariyası yaradıldı. Ali təhsilin təşkili və ali təhsilli kadrların hazırlanması məqsədilə Bakı Dövlət Universitetinin, Kənd Təsərrüfatı İnstitutunun və Dövlət Konservatoriyasının təsis edilməsi planlaşdırılsa da, yalnız universitetin açılması mümkün oldu. 1919-cu il sentyabrın 1-də Parlament

BDU-nun təsis edilməsi haqqında qanun və 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına xarici ölkələrin (Almaniya, Fransa, Osmanlı, İtaliya, Böyük Britaniya, Rusiya) ali məktəblərində təhsil alması üçün göndərilmələri haqqında qərar qəbul etdi. BDU-nun 4 fakultəsi var idi: tarix-filologiya, fizika-riyaziyyat, hüquq, tibb. Universiyey 1919-cu il noyabrın 15-də fəaliyyətə başladı. Rusiyadakı vəziyyətlə əlaqədar nəzərdə tutulmuş 13 nəfəri oraya göndərmək mümkün olmadı.

Mədəni sahədə keçirilməsi nəzərdə tutulan islahatlardan biri də əlifba ilə bağlı idi. 1919-cu ilin martında AXC hökumətinin qərarı ilə yaradılmış Əlifba İslahatı Komissiyası latın əlifbasına keçilməsi haqqında təqdim olunan layihəni bəyənsə də, Sovet Rusiyasının ölkəni işğal etməsi səbəbindən islahatı axıra kimi həyata keçirə bilmədi.

AXC hökuməti əhalinin maariflәndirilməsi sahəsində dövlət və kütləvi xalq kitabxanalarının açılmasına mühüm əhəmiyyət verirdi. Bakıda fəhlələr arasında mədəni-maarif işlərinin aparılması məqsədilə "xalq evləri" təşkil edilmişdi. Milli Kitabxananın yaradılmasına hazırlıq işləri görülürdü.

AXC dövründə 100-ə qədər qəzet və jurnal dərc edilirdi ki, onların da əksəriyyəti türk (Azərbaycan) dilində idi.

1918-20 illərdə Azərbaycanda ideoloji mübarizənin bütün ağırlığı dövri mətbuatın kesərli silahı olan publisistikanın üzərinə düşürdü. Azərbaycan publisistikası ideya-mövzu cehətdən çox rengarəng və zengin idi: çarizm əsarətindən yenicə qurtulmuş Şimali Azərbaycanın milli müs təqilliyinin qorunub saxlanması, milli ordunun yaranması, ölkədə demokratik parlament seçkiləri ve islahatlarm keçirilməsi, bolşevik və Denikin təhlükəsinin dəf edilməsi, Qarabağda erməni millətçilərinin törətdiyi müharibə yanğının söndürülməsi, ölkə daxilindəki təfriqəçilik, Bakı nefti uğrunda xarici imperialistlerin didişməsi və s. publisistikanın toxunduğu əsas məsələlər idi. Milli publisistikanın esasında xalqın gələcəyi ilə bağlı böyük siyasi-ictimai kon-sepsiya dayanırdı. Bu konsepsiya 20 əsrin əvvəllərində Azərbaycanda intişar tapmış "türkləşmək, islamlaşmaq, müasirləşmək" ideahında təcəssüm olunurdu.

AXC-nin yaranması ilə milli teatrın fəaliyyətində canlanma baş verdi. 1918-ci ilin oktyabrında Dövlət Teatrı təşkil olundu.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının tarixi, siyasi və mənəvi-psixoloji həyatında, o cümlədən o dövrün ədəbi-bədii fikir nümunələrində silinməz izlər buraxmışdır. Cümhuriyyət dövrünün öz böyük poeziyası, nəsri, dramaturgiyası və publisistikası olmuşdur.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920).Parlament (Stenoqrafik hes.).Bakı, 1998. 978 səh.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. Bakı, 2004–2005. 472 səh.
3. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. "Azərbaycan". Bakı, 2007. 884 səh.
4. XX əsr Azərbaycan tarixi. 2 cilddə. 2-ci cild. Bakı, 2009. 560 səh.
5. Azərbaycan tarixi. Yeddi cilddə. IV–VII cildlər. Bakı, 2007–2008.
6. S. Allahverdiyev, Q. Cəbiyev. Azərbaycan tarixi.
7. A. İsayev. Azərbaycan tarixi. Bakı, 2020.
8. Z. Bünyadov. Azərbaycan tarixi.
9. Y. Mahmudov. Azərbaycanın qısa dövlətçilik tarixi. Bakı, 2005.

10. İ. Nuriyeva. Azərbaycan tarixi.Ən qədim zamanlardan XXI əsrin əvvəli. Bakı, 2015.

## EYNƏLQQÜZZAT MİYANƏÇİNİN FƏLSƏFİ DÜNYAGÖRÜŞÜ

*Tələbə:Nəsirova Ləman Habil qızı (qrup AZD1901B)*
*Elmi rəhbər: dos. M.M.Səlimov*
*lemannasirova@gmail.com*

Eynəlquzat Abdulla Miyanəci əslən Cənubi Azərbaycanın Miyanə şəhərindəndir. Coğrafiyaşünas Yaqut Həməvi yazırdı ki, bu şəhər Marağa ilə Təbriz arasında yerləşdiyi üçün belə (Miyanə adlanmış və həmin iki şəhərlə üçbucaq təşkil etmişdir). Miyanəcilər XI-XII əsrlərdə istedadlı şairlər, görkəmli alimlər yetirmiş böyük nəsildir. Onlardan Eynəlquzat Miyanəcinin babası Əbülhəsən Əli Həsən oğlu Miyanəci mükəmməl təhsil görmüş hüquqşünas alim və incə təbli şair kimi tanınmışdır. Mənbələrdə onun haqqında çox az məlumat qalmışdır: “Qazi Əbülhəsən Əli Miyanəci 1079-cu ilin aprel (471-ci ilin şəvval) ayında sübh namazı əsnasında öz məscidində qətl edilmişdir”. Müasirləri mütəfəkkirin “düşmənlər və ona həsəd aparanlar tərəfindən məhv edildiyini” bildirirlər. Eynəlquzat Miyanəcinin atası Əbubəkr Məhəmməd Miyanəci də adlı-sanlı hüquqşünas alim və Həmədan şəhərinin qazisi imiş. Orta əsr müəlliflərindən biri onun haqqında yazmışdır: “Fəzilətli, fəzilətlinin oğlu və fəzilətlinin atası. Yəni o, Qazi Əli Miyanəcinin oğlu, Eynelquzat Abdulla Miyanəcinin atasıdır”. Eynəlquzat Əbülməali Abdulla Məhəmməd oğlu Miyanəci Həmədanda doğulub yaşadığına görə Həmədani kimi də məşhurdur. O, baş qazi vəzifəsində dərin hörmət qazandığından “Eynəlquzat” (ayn al-qudat-Qazilərin gözü) fəxri admı almışdır. “Əbülməali” ləqəbi isə “Fəzilətlər atası” deməkdir. Eynəlquzat Miyanəci təhsilə çox erkən başlayıb, Ömər Xəyyam, Əhməd Qəzali, Məhəmməd Cüveyal və başqalarından elmin müxtəlif sahələrini mükəmməl öyrənmişdir. Azərbaycan filosofu gənc olmasına baxmayaraq, dövrün açıqfikirli görkəmli alimləri ilə möhkəm dostluq əlaqələri yarada bilmiş, elm xadimləri ilə mühüm məsələlər ətrafında mübahisələr aparmış, məktublaşmışdır. Təhsildə yaradıcılıq fəaliyyətində ənənəvi yollarla getməyən, həmi axtarışlarda, həqiqət sorağında olan Eynəlquzat Miyanəci keçdiyi həyat yoluna nəzər salaraq yazırdı: “Mən bu yolu seçdim. Mühüm və şa qeyri-mühüm elmləri nəzərdən keçirdim. Zərərli və faydalı olan hər şeyi mütaliə etdim. Hətta öz mətləbimdə məni maraqlandıran nə vardısa, onun təhsilinə nail oldum. Faydası az [şeylərə] baş qoşmadım, elmdə dolanbac yolla getmədim. Çünki elm çox, ömürsə qısadır. Az fayda verəcək təhsildə [ömrü] itirmək axmaqlıqdır”. Azərbaycan filosofu elmdə və fəlsəfədə çoxlarının təsdiqlədiyi zehniyyətə ilk yaradıcılıq çağlarından tənqidi münasibət bəsləmişdi. Eynəlquzat Miyanəci 28-29 yaşlarında azadfikirlilik üstündə müsəlman qanunçuları – fəqihlər tərəfindən təqiblərə məruz qalır. Ayrı-ayrı yerlərdə onu kafir elan edir, ölümünə fitva verirlər. O, 1127-ci ildə bu xəbəri eşidib, dostu qazi Kəmalüddövləyə yazmışdı: “Şəhərdə deyirlər ki, Eynəlquzat allahlıq iddiası edir. Mənim qətlimə fitva veriblər. Ey dost, əgər səndən fitva istəsələr, sən də fitva ver”. Azadfikirli filosof yaxın gələcəkdə cəzalanacağını yəqin bilirdi. Lakin o öz amalları, idealları uğrunda qurban getməyi özünə böyük səadət sayır, məğrur-məğrur yazırdı: “Günlər keçəcək, bir səhər görəcəksən ki, Eynəlquzat bu müvəffəqiyyətə nail

olubdur". Azərbaycan filosofu dinsizlikdə təqsirləndirilir. Nə sayılan ailədən çıxması, nə böyük mənsəb – Həmədanın baş qazisi vəzifəsini tutması, xilas edə bilir. O, 1128-ci ildə həbs edilib. Eynəlquzat Miyanəcinin gənc yaşlarında xalq içərisində belə qızğın rəğbət qazanması heyrət doğurur. Onun geniş mündəricəli yaradıcılığını yüksək qiymətləndirən Əbusəd Səmani daha sonra yazır: Eynelquzat Miyanəci "yaxşı söhbətcil idi. Adamlar ona inanır, ondan xeyir dua alırdılar. Xüsusi şəxslərin (oyanların) və ümumi camaatın yanında onun nüfuzu vardı". Eynəlquzat Miyanəci zəngin və orijinal yaradıcılıq irsinə malikdir. Onun iyirmi dörd yaşına qədər yazdığı əsərlərdə, özünün xəbər verdiyi kimi, ədəbiyyat, hədis, təfsir, hüquq, kolam, habelə peripatetizm məsələləri asas yer tutur. Filosofun bundan sonra qələmə aldığı "Həqiqətlərin məğzi" ("Zübdət əl-həqaiq"), "Müqəddimələr" ("Təmhidat") və "Qəribin şikayəti" kitablarında sufizmin müxtəlif aspektləri işıqlandırılmış, ona bitkin fəlsəfi məzmun verilmişdir."Həqiqətlərin məğzi" sufi-fəlsəfi traktatını Eynəlqüzat Miyanəci iyirmi dörd yaşında ikən yazıb başa çatdırdığını bildirir. Müəllif yüz fəsildən ibarət bu əsərdə ifrat sufi mütəfəkkirlərin istəyini yerinə yetirmək məqsədini güddüyünü söyləyərək, onların panteist əhval-ruhiyyəli fikirlərini inkişaf etdirib, təsəvvüfdə fəlsəfəyə geniş yol açmışdır."Müqəddimələr" Eynəlquzat Miyanəcinin ən iri həcmli kitabıdır. Onun yazılıb tamamlandığı vaxt filosofun ciddi təqiblərə məruz qaldığı 1127-ci ilə təsadüf edir."Qəribin şikayəti" Eynəlquzat Miyanəcinin son kitabıdır. Mütəfəkkir ölüm ayağında qələmə aldığı bu traktatda öz yaradıcılıq fəaliyyətinə bir növ xitam verir, panteist doktrinalarına, mütərəqqi ictimai-siyasi baxışlarına bəraət qazandırmağa çalışır. Eynəlquzat Miyanəci özünün fəlsəfi sistemində həm varlıq təlimini, həm də idrak nəzəriyyəsini tamamilə orijinal şəkildə işləyib hazırlamışdır. O, bütün əvvəlki filosoflardan öz yetkin dialektik mühakimələri ilə seçilir.

Allah, substansiya və onun atributları, aksidensiya və i.a. istilahların şərhi də Eynəlquzat Miyanəcinin varlıq təliminin başlıca xüsusiyyətlərini əks etdirir. Varlığın cisimləri, növləri filosof tərəfindən başqa istilahlarla da verilir. Eynəlquzat Miyanəcinin panteist məzmun daşıyan varlıq təlimi öz mahiyyəti etibarilə kreatsionizmə və dualizmə müxalifdir. Panteist filosof Allah ilə mövcudat arasındakı münasibəti Günəş ilə onun şüaları timsalında aydınlaşdırır. O yazır: "Ümumi camaatın nəzərində deyildiyi kimi, ərzə yayılan şüaların varlığı üçün, daim Günəşin üzü olmasaydı, şüaların varlığı əsla mövcud olmazdı". Günəş ilə şüalar arasındakı münasibət Xaliq ilə məxluqat arasındakı münasibətdən fərqlidir. Xaliq ilə məxluqat bir-birindən zamanca ayrılır, zira məxluqat sonradan meydana çıxmışdır. Günəş ilə şüalar isə birgə mövcuddur. Eynəlquzat Miyanəcinin varlıq təlimində Günəşlə onun şüaları kimi Allahla mövcudat da bir-birindən ayrılmazdır, vahid tamdır. Eynəlquzat Miyanəcinin təlimində Allah öz müxtəlifliyi ilə mövcud bütün varlıqların çıxış yeri və mənbəyi olmaqla bərabər, həm də onların yeganə səbəbidir. Çünki "Ondan savayı olan hər bir mövcud şeyin nə həqiqət, nə də varlıq sarıdan substansiyası vardır" Filosof qeyd edir ki Allahdan başqa şeylər ümumi camaatın nəzərində mövcud adlandığı kimi səbəb də adlanır. Hər bir şey yalnız qədim substansiyaya bağlılığ cəhətdən əsasa malikdir. Eləcə də onun oluşu yalnız həmin cəhətdə səbəb sayıla bilər. Onun varlığına məxsus bir gerçəklik olmadığı kimi, onun səbəbliyi üçün də əslində gerçəklik yoxdur. Beləliklə, burada yalnız o qalır ki, deyilə: "Əgər səbəb vardırsa, o, Allah-taaladır". "Hər bir mövcud şeyin varlığına səbəb Allah-taaladır".Filosof səbəb ilə nəticə arasındakı münasibəti əsaslı şərh etmişdir. Səbəbin varlığı labüddür ki, ondan nəticə vücuda gələ. Çünki

yoxluq səbəbiyyət üçün yaramaz. Səbəbin varlığı davam etməlidir ki, o, nəticə üzərindəki varlığın davamını saxlamağa yaraya. Mümkün mövcudat dan heç şeyin özünəməxsus substansiyası və həqiqi varlığı yoxdur Vacib substansiya Allaha məxsusdur. Gerçəklik sarıdan varlığı olmayan şey başqası üçün səbəb ola bilməz.Panteist filosofun təlimində gətirmək keyfiyyəti yalnız Allaha, onun substansiyasına – vacib varlığa xasdır. Eynəlquzat Miyanəci bütün mövcud şeylərin yalnız vacib varlığın sayəsində gerçək olduğunu israrla söyləmişdir. Qeyd etmək lazımdır ki, ayrı-ayrı şeylərin substansional müstəqilliyinin inkarı panteist mütəfəkkirlərin hamısının antologiyası üçün səciyyəvi xüsusiyyətdir. Məsəllən, XVII əsr Niderland filosofu Benedikt Spinoza deyirdi: "Allahdan başqa heç bir substansiya nə mövcud ola bilər, nə də təsəvvür edilə bilər. Eynəlquzat Miyanəcinin varlıq təlimində cisim, hərəkət, zaman, habelə onlarla bilavasitə bağlı fəlsəfi kateqoriyaların izahı da maraqlıdır. Onun əsərlərində cisimlərin cansızlara və canlılara bölünməsi, canlı cisimlərin nəfsə (cana) malik olması haqqındakı müddəalar qəbul edilir, cismin və düşüncəli nəfsin vəhdətindən təşəkkül tapmış insan varlığı məsələsi üzərində xüsusi dayanılır. Filosofun varlıq təlimində şeylərin cinsi onların substansional atributu, şeylərin hər hansı keyfiyyəti isə onların aksi dental atributu adlandırılır. Eynəlquzat Miyanəci elan edir ki, gördüyümüz göylər, planetlər, Ay, Günəş, ünsürlər, tərkiblər, bitkilər, heyvanlar şeylərdə substansional və aksidental olmaqla iki cür atribut mövcuddur. Filosof substansional və aksidental atributlar arasındakı fərqi göstərərək yazır ki, substansional atributlar öz atribut daşıyanlarının mövcudluğu üçün zəruridir, aksidental atributlar mövcudluq üçün mümkündür: ola da bilər, olmaya da bilər. Lakin substansonal atributlar hər halda olmaya bilməz, əks təqdirdə atribut daşıyanlar olmaz.

Eynəlquzat Miyanəci də hərəkəti cisimdən ayırmayıb, onun yalnız cisimdə vaqe olduğunu elan etmişdir. Hərəkət ilə sükunəti qarşılıqlı şəkildə nəzərdən keçirən filosof yazırdı ki, cismin bir anda yalnız bir oluşda mümkündür. Bir oluş isə bir məkandakından savayı ola bilməz. İki anda cisim zəruri surətdə iki oluşda mövcuddur. Iki oluş ya bir məkanda, ya da iki məkanda vaqedir. Indi ogor desək ki, hərəkət iki məkanda iki oluşun məcmusundan, sükunət isə bir məkanda iki oluşun məcmusundan ibarətdir, deməli, bir anda cisim heç cür nə hərəkətdə, nə də sükunətdədir, heç cür nə həmin hərəkətin, nə də sükunətin mövcudluğu ilədir, yəni bir anda hərəkət və sükunət olmur" Eynəlquzat Miyanəci zamanı hərəkətlə əlaqələnirmi, rəkətin mövcudluğunda vaqe olmasını demişdir. Filosofa görə, zaman hərəkətlə, hərəkət isə cisimlə bağlı olduğu kimi, məkan da cisimlər dən kənarda mövcud deyildir, daha doğrusu məkan cismin formasıdır. Onun he Qabaq və sonra kateqoriyaları Aristotelin və onun Şərq davamçı larının əsərlərində mühüm yer tutur. Onların bu barədə mülahizələr bir-birinə tamamilə uyğundur. Ibn Sina və Bəhmənyar ilk səbəblə nəticə arasındakı münasibəti əsla zamanca, yaxud məkanca qabaq və sonraya görə müəyyənləşdirməmişlər. Əksinə, peripatetik filosoflar həmişə qeyd etmişlər ki, səbəblə nəticə zamanca birgədir. Həmin filosoflar ilk səbəb ilə nəticə arasındakı zaman fərqini inkar etməklə dünyanın qədimliyi ideyasını irəli sürürdülər. Aləmdən qabaq yoxluğun olmasını sxolastlar iddia edirdilər. Onlar Allahın bütün atributlarının əzəliliyini inkar etdikləri kimi mövcudatın yaradılmasına bais onun iradəsini də zamanca meydana çıxmış sayırdılar Beləliklə, Eynəlquzat Miyanəcinin varlıq təlimi o dövrün dini fəlsəfi fikrində varlığa dair baxışlardan əsaslı surətdə fərqlənir. Əgər sxolastlar maddi aləmi Allahdan zamanca ayırırdılarsa, Şərq peripate tikləri isə

mümkün varlığın vacib varlıqla yanaşı mövcudluğunu dua listcəsinə söyləyirdilərsə, Eynəlquzat Miyanəci Allahı mövcud şeylerin mənbəyi, səbəbi saymaqla onu mövcudatın özü ilə vəhdətdə, eyniyyətdə götürürdü.

Eynəlquzat Miyanəcinin idrak nəzəriyyəsi onun varlıq təlimi ilə üzvi surətdə bağlıdır. Filosofun panteist fəlsəfəsində bütün varlığın və onun qisimlərinin Allahın, onun substansiyasının və atributlarının, habelə aksidensiyaların mövcud şeylərin hallarının dərk olunması mümkün sayılır. Burada idrak prosesinin üç mərhələsi qəbul edilir: hissi mərhələ, əqli mərhələ və əql arxası mərhələ (mərifət-intuisiya).Eynəlquzat Miyanəcinin əsərlərində məlum olur ki, o, idrakın hissi və əqli mərhələlərinin şərhində Şərq peripatetiklərinin mövqeyinə yaxındır. Hissi idrakı Aristotelin "hissdən, (duyğudan) məhrum olan kaş idrakdan da məhrumdur" tezisi məzmununda başa düşən filosofun fikrincə, rənglər görmə duyğusuna görə, dadlar dadbilmə duyğusuna görə, qoxular iybilmə duyğusuna görə, səslər eşitmə duyğusuna görə qavranılır. Bu duyğulardan biri digərini əvəz edə bilməz. Miyanəci duyğuları uyğun olaraq görünən, dadılan, qoxulanan, səslənən şeylərin dərk edilməsində tərəzi adlandırmışdır. Məsələn, rənglərin tərəzisi yalnız görmə duyğusudur. Iybilmə, dadbilmə və başqa tərəzilər qırmızı, sarı, göy və s. Rəngləri ölçə bilməz. Eləcə də səslərin xoş, yüksək, ahəngdar və bunların əksi olması yalnız eşitmə duyğusuna görə, dadların acı, şor və şirin olması yalnız dadbilmə duyğusuna görə bilindiyi üçün bunların başqa tərəzilər vasitəsilə ölçülməsi mümkün deyildir. Mütəfəkkir qeyd edir ki, hər şeyin öz tərəzisi var, hər işin öz meyarı var. Eynəlquzat Miyanəci hissi idrak məsələləri üzərində öz sələfləri olan Şərq peripatetikləri qədər geniş dayanmamışdırsa da idrak prosesinin bu birinci mərhələsinin rolunu düzgün qiymətləndirmişdir. Filosofun fikrincə, hisslər, duyğular obyektiv gerçəkliyi əks etdirir, onların mənbəyi xarici aləmdir, maddi mühitdir, buna görə də, məsələn, "birisi dadmazsa dadı duymaz". "Görmə əsəri yalnız görünən bir şey də təzahür edir". Duyğular konkret şeylərin müəyyən xassələrinin bilavasitə inikasıdır, həmin xassələrin təsdiqi üçün heç bir vasitə, dəlil-sübut rol oynamır. Məsələn, kora rənglərin idrak keyfiyyətlərini başa salmaq çətindir. Eynəlquzat Miyanəci yazır ki, görən kəs görünən şeyləri qavramaqda mühakimə yürütməyə ehtiyac duymur. Hissi qüvvələrin fəaliyyəti birbaşa orqanizmin fəaliyyəti ilə əla qəddardır, hissi idrak qabiliyyəti bədənin müvafiq üzvlərindən asılıdır. Şərq peripatetiklərinin idrak nəzəriyyəsində mühüm yer tutan bu ideya Eynəlquzat Miyanəci tərəfindən müdafiə edilmişdir. O, yazırdı ki, eşitmə və görmə qulağa və gözə görədir, zira eşidilən və görünən şey Jərin qavranılması qulaq və göz kimi üzvlər olmadan mümkün deyildir.Hissi idrakın müəyyən bir üzvün ətrafdan təsirlənməsi sayəsində mümkün olduğunu Bəhmənyar əsaslı şəkildə yazırdı.Eynəlquzat Miyanəci də məsələyə belə bir mövqedən yanaşıb göstərir ki, rəngli görünən şeyləri kora təsvir etsək deyər: "Bu görünən şeylər nə dadıyır?", yaxud "Bu görünən şeylər necə qoxuyur?". Bu yerdə həqiqi cavab budur ki, deyirik: "Görünən şeylərə aid bilik görən üçündür". Həddi vardır. Bu mərhələdən sonra əqli (məntiqi) idrak mərhələsi Eynəlquzat Miyanəci bildirir ki, hissi idrak üçün müəyyən imkan gəlir. Filosof insan əqlinin gücünə, gerçəkliyi dərk etməkdə onun böyük imkanına inanırdı. "Həqiqətlərin məğzi" traktatında deyilir: "Bil ki, əql düzgün tərəzidir, onun hökmləri yalana yol verməyən doğru yəqinlikdir. O, adildir, ondan heç zaman haqsızlıq təsəvvür edilməz". Əbülhəsən Bəhmənyar və başqa Şərq peripatetikləri kimi Eynəlquzat Miyanəci də sözləri quruluş və məna etibarilə nəzərdən keçirmiş, onları sadə və

mürəkkəb, habelə təkmənalı və çoxmənalı olmalarına görə təhlil etmişdir. Filosofun idrak nəzəriyyəsində söz anlayışla, dil təfəkkürlə əlaqələndirilir. O bu münasibətlə deyir ki, adamın kəlamı onun ağlının və elminin kamalını göstərir. O məntiqdən bir metod kimi geniş bəhrələnmişdir. O öz əsərlərində istidlalın müxtəlif formalarını işlətmiş, elmi mühakimələrində sillogizmin təbiiliyə yaxın fiqurlarını, apodiktik istidlaları, sübutları tətbiq etmişdir. Formal məntiqin bütün qayda-qanunlarından məharətlə istifadə edən alim təfəkkür formalarının düzgünlüyünü onun əks etdirdiyi məzmunun gerçəkliyi ilə vəhdətdə götürmüşdür.Eynəlquzat Miyanəci hissi idrak kimi əqli (məntiqi) idrakın da müəyyən imkan həddi olduğunu deyir. O özünün idrak nəzəriyyəsində hissi ilə rasionalın mövqeyini nisbətən aydınlaşdırarkən yazır ki, göz bəzi mövcud şeyləri dərk etməyə qabildir. Göz eşidilən, qoxulanan və dadılan şeylərin qavranılmasında acizdir, eləcə də, əql mövcud səylərin çoxunun dərk olunmasında çətinlik çəkir.Filosof qeyd edir ki, bu xüsusiyyət əqlin obyektiv həqiqəti düzgün əks etdirməsine asla xələl gətirmir. Eynalquzat Miyanəci bir daha israrla xatırladır ki, əql qaranlıq məsələlərdən, anlaşılmaz görünən işlərdən çoxunun idrakı üçün yarayır. O, yalnız öz mərhələsindən kənara çıxarsa, həddini ötüb-keçərsə səhvə yol verər. Panteist filosofun fikrincə, idrak növlərindən heç biri digərini əvəz edə bilməz, duyğu da, qavrayış da, əql də obyektiv gerçəklikdən özü nə müyəssər olan cəhətləri əks etdirir. Dərkedici qüvvələrdən birinə aid olan inikas o birisi üçün sirr görünə bilər. Gözün dərk etdiyi şeylər qoxu duyğusu üzərində, vəhmin dərk etdiyi şeylər xəyal və hafizə qüvvələri üzərində, toxunma duyğusunun dərk etdiyi şeylər eşitmə və dadbilmə qüvvələri üzərində sirlərdir. Aksiomlar duyğuların hamısı üzərində sirlərdir. İdrak prosesində məlumların məcmusu bir tama çevrildikdə sirlər aradan qalxır, bütün mövcud şeylər və hadisələr dərkedilən olur. Idrakda əqlin acizlik çəkdiyi şeylərə gəldikdə, filosof onları metafizik təfəkkür tərzi ilə izah edilə bilməyən məsələlər saymışdır. Eynəlquzat Miyanəcinin fəlsəfəsində substansiyanı anlama peripatetizmdəki ilk səbəbi dərketmə ilə qarşılıqlı götürülür.

Eynəlquzat Miyanəcinin idrak nəzəriyyəsində “eşq” anlayışı mühüm yer tutur. O, eşqi Allahı dərk etməyin göstəricisi, aşiqi məşuqa qovuş duran qüvvə adlandırmışdır. Eşqin başlanğıcında aşiq müşahidə edən. Məşuq müşahidə edilən sayılır. Lakin bu psixoloji halın sonunda onlar arasında fərq silinir: “Müşahidə edən ilə müşahidə edilən birləşdikdə müşahidə edən müşahidə edilənə, müşahidə edilən müşahidə edənə çevrilir”. Eynəlquzat Miyanəcinin fəlsəfəsinin bu nöqtəsində qneseoloji aspekt ilə antoloji aspekt üst-üstə düşür. Müşahidə edənlə müşahidə edilənin, dərk edilənin eyniyyətinin qəbulu varlığın vəhdətinin təsdiqinə aparıb çıxarır. Vəhdətdə olmaq əzəmiyyətə, yəni ilahiyyat aləminə daha doğrusu, Allaha qovuşmaq deməkdir. Bu isə filosofun fikrincə idrakın hissi və əqli mərhələlərində deyil, yalnız əql arxası mərhələdə saliko (təsəvvür yolçusuna) müyəssər olur. Eynəlquzat Miyanəci yaz ki, “salikin azaliyyətə elm yolu ilə qovuşması açıq-aşkar qeyri mümkündür”, Bəli, onun mənasının dərk başqa, başqadır. Biz “ozaliyyətə elm yolu ilə qovuşmaq qeyri-mümkündür” dedikdə, bu onun üçündür ki, özünü hələlik zamanın əsilliyindəki toloba həsr edən kos yalnız həmin əsirliyin həllindən sonra əzəliyyələ qovuşa bilər. Panteist filosofun fikrincə, əzəliyyətə qovuşan kəsilər, yəni ariflər hər şeyi panteist mövqedən yanaşırlar. O bu mənada “Ariflər Allaha şeylərdən baxmırlar, əksinə, Allahda şeylərə baxırlar”,-deyərək, “Bir şeyi gözdən keçirməmiş ondan qabaq Allahı gördüm” kəlamını yayır.Beləliklə, Eynəlquzat Miyanəcinin idrak

nəzəriyyəsinə görə, konkret hissi şeylərin zahiri cəhətləri duyğularla, onların mahiyyəti əqllə, Allahla eyniləşdirilən şeylər aləminin bütövü isə intuisiya ilə dərk edilir. Bundan əlavə, filosof inkişaf prosesinin sırf formal məntiq qanunları ilə dərk etməyin çətinliyi qarşısında qalarkən həqiqətin yalnız intuisiya vasitəsilə əldə edildiyini söyləmişdir. Intuisiyaya aid edilən bu təfəkkür tərzi bilavasitə Eynəlquzat Miyanəcinin dialektikası ilə əlaqədardır.

Müasir fəlsəfi ədəbiyyatda dialektika dedikdə təbiət, cəmiyyət və təfəkkürün inkişafının ən ümumi qanunları haqqında təlim nəzərdə tutulur. Bu təlim XIX əsrdə özünün yüksək inkişaf səviyyəsinə çatana qədər müxtəlif dövrlərdə görkəmli mütəfəkkirlərin baxışlarında, doktrinalarında ayrı-ayrı ünsürlər halın da təşəkkül tapıb formalaşmışdır. Eynəlquzat Miyanəcinin panteist fəlsəfəsində dialektikanın müəyyən cəhətləri bariz şəkildə nəzərə çarpır. Azərbaycan filosofunun dialektikası onun varlıq təlimi və idrak nəzəriyyəsi ilə sıx bağlıdır. Eynəlquzat Miyanəcinin varlıq təlimindən məlum olur ki, bu tərəflərdən bəzisi digərini əvəz edə bilir, zira burada əkslik münasibəti ilə yanaşı, eynilik münasibəti də vardır. Eynəlquzat Miyanəci onları anlamaq üçün alimləri daha dərindən düşünməyə çağırırdı: “Bu mövzu olduqca qaranlıqdır, çətin qavranılandır, ağır dərk ediləndir, fəhmi müşkül olandır. Onun misallarında büdrəmələr çoxdur. Bunun idrakı əql üçün yalnız dərin yoxlama, aydın nəzər, dolğun tədqiqat, böyük zəka və yetkin ciddilik ilə təsəvvür edilir”. Filosof möhkəm inandığı həqiqəti yalnız ariflərə deyil, həm də aqillərə (alimlərə) çatdırmağa səy göstərmişdir: “Aqillərdən kim bu mövzunun fəhmində özündə hər an başqa bir varlığın yeniləşdiyi çıraq işığına diqqət yetirsə, bunu dərk etmək ona asan olar. Uşaqlar zənn edirlər ki, vahid qayda üzrə şölələnən gördükləri çıraq işığı eyni bir şeydir. Alimlər qəti bilirlər ki, hər bir anda onun üçün başqa bir surət yeniləşir. Ola bilsin ki, ona nəzər yetirsən və onunla fəhmini tanış Etsən, əqlin bundan bir şey mənimsəyə”. Panteist filosof inkişafın inkarla davam edən istiqamətini görə bilmişdir: “Hər bir mövcud şey daimi varlıqdır. O, əbədi daim canlıya görə daim təkrarlanır. Həmin şey üçün hər bir anda özündən qabaq kuna oxşar başqa varlıq yeniləşir”.Göründüyü kimi, Azərbaycan filosofunun dialektik mühakimələri panteist təlimin təbiətinə xas ziddiyyətləri əks etdirən təfəkkür t dən irəli gəlmişdir.Tari Eynəlquzat Miyanəcinin XII əsrdə yaratdığı panteist fəlsəfə -varlıq təlimi, idrak nəzəriyyəsi və dialektika orta əsr dünya fəlsəfəsinin parlaq səhifələrindəndir. Eynəlquzat Miyanəci dinsizlikdə təqsirləndirilib bədnam edilməsinə baxmayaraq, əsrlər boyu tarixçi və təzkirəçilər tərəfindən gör kəmli sufi-filosof kimi yad edilmiş, onun əsərləri ayrı-ayrı ölkələrdə müxtəlif vaxtlarda təkrar-təkrar köçürülərək əldən-ələ gəzmişdir. Sayı yetmişdən artığa çatan, dünyanın mötəbər kitabxanalarında saxlanılan həmin nüsxələrin çoxunun köçürülmə tarixi XVII əsrdən qabağa gedib çıxır. Orta əsrlərdə Eynəlquzat Miyanəcinin traktatlarına, onun təliminə böyük maraq göstərilməsi o dövrdə təsəvvürdə fəlsəfi aspektin mühüm yer tutması və yayılması ilə əlaqədar idi. İbn Ərəbi, İbn Fariz. Cəlaləddin Rumi, Mahmud Şəbüstəri və başqa sufi mütəfəkkirlərin əsərlərində panteist fəlsəfə özünəməxsus üslubda ifadə edilmişdir. İmadəddin Nəsiminin poeziyası yüksək bədiiliyi ilə yanaşı, dolğun panteist məzmunu ilə də seçilirdi. Panteist sufilərin fəlsəfəsi Yaxın və Orta Şərq ölkələrində geniş yayılmaqla bərabər, Qərb ölkələrinə də keçmişdir.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. Fəlsəfə dərsliyi. Bakı, 2008.

2. A. Şükürov fəlsəfə dərsliyi. Bakı, 2002.
3. Z. Məmmədov. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 2006.
4. Fəlsəfə enkslopedik lüğəti. Bakı, 1997.

## BÖYÜK QAFQAZIN GEOMORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

*Tələbə:Şıxəliyeva Aytən İlhamiz qızı (qrup TCM1901B)*
*Elmi rəhbər: b/m. F.Ə.Məmmədov*
*aytenshixeliyeva@gmail.com*

Azərbaycanın ərazisi bir sıra regionlarla müqayisədə böyük olmasada, geoloji qurluşunun mürəkkəbliyinə və rəngarəngliyinə görə bir sıra ölkə və regionlarla müqayisə edilə bilər. Böyük Qafqazın və eləcədə Azərbaycanın digər ərazilərinin geoloji quruluşunu məhşur Avstriyalı alim G.Abix özünün məşhur əsəri olan “Qafqaz geologiyası” adlı monoqrafiyasında xarakterizə etmişdir. Böyük Qafqazın öyrənilməsində və onun tədqiqində rus alimlərindən İ.Qubkinin, S.Simonoviçin və V.Boqoçovin xidmətləri böyük olmuşdur. Onların fədakar əməyi sayəsində Böyük Qafqazın bir sıra ərazilərinin çöküntü stratiqrafikasını, tektonik qurluşunu, neftlilik xüsusiyyətlərini öyrənmişlər. Həmçinin milli kadrlarımızdan bu istiqamətdə məşhur geoloqlarımızdan Ş.Əzizbəyovun, Ə. Əlizadənin, M. Qaşqayın, Ş. Mehdiyevin və M. Ağabəyovun böyük xidmətləri olmuşdur.

Azərbaycanın ərazisi bir sıra regionlarla müqayisədə böyük olmasada, geoloji qurluşunun mürəkkəbliyinə və rəngarəngliyinə görə bir sıra ölkə və regionlarla müqayisə edilə bilər. Böyük Qafqazın və eləcədə Azərbaycanın digər ərazilərinin geoloji quruluşunu məhşur Avstriyalı alim G.Abix özünün məşhur əsəri olan “Qafqaz geologiyası” adlı monoqrafiyasında xarakterizə etmişdir. Böyük Qafqazın öyrənilməsində və onun tədqiqində rus alimlərindən 1.Qubkinin, S.Simonoviçin və V.Boqoçovin xidmətləri böyük olmuşdur. Onların fədakar əməyi sayəsində Böyük Qafqazın bir sıra ərazilərinin çöküntü stratiqrafikasını, tektonik qurluşunu, neftlilik xüsusiyyətlərini öyrənmişlər. Həmçinin milli kadrlarımızdan bu istiqamətdə məşhur geoloqlarımızdan Ş.Əzizbəyovun, Ə.Əlizadənin, M.Qaşqayın, Ş.Mehdiyevin və M.Ağabəyovun böyük xidmətləri olmuşdur.

Azərbaycan Respublikasının ərazisinin xeyli hissəsi düzənliklərdən təşkil olub. Böyük Qafqaz Kiçik Qafqaz və Talış dağlarından ibarət ərazidə yerləşir. Respublikamızın ərazisinin hipsometrik ampilitudan böyük olmaqla, Xəzərsahili ovalıqdan 26 m-lə dəniz səviyyəsindən 4466 m yüksəkliklərədək Bazardüzü zirvəsinədək ucalır. Burada oroqrafik ferq 4492 m -ə bərabərdir. Azərbaycan respublikasının əsas oroqrafik vahidindan biri də Böyük Qafqazdır. Qafqaz sira dağlarının asas oroqrafik vahidlərindən biri olan Böyük Qafqaz Gürcüstan Respublikası və Dağıstan Respublikası ilə sərhəddəki Tinov-Rosso zirasindan (3385 m) başlayaraq canub-şərq istiqamətində uzanır. Silsileninin Tinov-Rosso va Bazardüzü zirvələri arasındakı hissesinin yalnız cənub yamacı bundan cənub-şərqdəki hissəsinin isə hər iki yamacı respublikamızın yamac ərazisindədir. Böyük Qafqazın Başsuayrici silsilesi çox mürəkkəb oroqrafik qurluşa malikdir. Silsilede cənub istiqamətində köndələn və qisa tirələrlə ayrilir. Bu tirələr kosmik şəkillərdə və hipsometrik və

topoqrafik xəritələrdə aydın görünür. Böyük Qafqazin ən mühüm oroqrafik elementlerinden biri də Yan silsilədir.

Azərbaycan relyefinin mürəkkəbliyi onun geoloji quruluşunda da özünü aydin göstərmişdir. Azərbaycan da və eləcə də Böyük Qafqazda aparılan yüzillik tədqiqatlar dövründə sübut olmuşdur ki, respublika ərazisi və həmçinin Böyük Qafqaz landşaft bünövrəsi istər yaşına və istərsə də əmələ gəlməsinə, tərkibinə, quruluşuna görə olduqca zəngin və çoxçeşidlidir. Azərbaycanın bütün dağlıq vilayətlərində bitki örtüyünün yüksəklik zonallığı düzənlik və dağətəyinin yarım-sahra quru çöl qurşağından başlanır. Bitki zolağının xarakterinə görə Böyük Qafqazın şimal-şərq və cənub-qərb yamacları ilə Kiçik Qafqazın şimal-şərq və cənub-qərb yamacları arasında ciddi fərqlər müşahidə edilmir. Lakin Böyük Qafqazın cənub-şərq yamacları bu əlamətə görə Azərbaycanın qalan dağlıq ərazilərdən və onların ayrı-ayrı bölgələrindən ciddi fərqlənir.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1.Геология СССР Том 47. Азерб ССР. Баку, 1959.
2.Климат Азербайжана. Баку, 1968.
3. M.A. Müseyibov, R.U. Quluyev. Azərbaycanın morfologiyası. Bakı, 1970.
4. К.Т. Мустафайев. Охрана природы. Баку, 1970.
5.Нахичеванская АСССР, Баку, 1975.
6.Почвы Азерб ССР. Баку, 1953.
7.Советский Азербайджан. Москва. 1971.
8. Ə.M. Rüstəmov. Azərbaycan SSR-nin fiziki-cografiyası, Bakı, 1987.
9. М.А. Мусейибов. Ландшафты Азербайджанской ССР. Баку, 1981.
10. M.A. Müseyibov. Azərbaycanın fiziki coğrafiyası, Bakı 1998.

## AZƏRBAYCANDA ALTERNATİV ENERJİ VƏ ONDAN İSTİFADƏ

*Tələbə:Abbasova Aysel Şahmalı qızı (qrup TCM1801B)*
*Elmi rəhbər: k.t.ü.f.d., b/m. F.T.Cəfərov*
*ayselabbasova@mail.ru*

Bəşəriyyətin yarandığı dövrdən, insanların enerjiyə olan tələbatları, milyon illər öncə od əldə etdikləri və bu oddan yaşamları üçün istifadə etdikləri zamandan başlamışdır. Od istilik, işıq mənbəyi, düşmənlərdən qorumaq, müalicə mənbəyi və s. kimi vasitə olmuşdur. Bu baxımdan insanlar üçün od həmiə müqəddəs olmuşdur. İnsan cəmiyyəti inkişaf etdikcə sənaye və kənd təsərrüfatı sahələri sürətlə artmış və enerjiyə ehtiyac yüksəlmişdir. Bugün bəşəriyyətdə qlobal problemlərdən biri yanacaq ehtiyatlarından dayanmadan istifadə olunmasıdır. Hətta XXI əsrdə bəzi kənd yerlərində məskunlaşan əhalinin əksəriyyəti hələ də müasir enerjidən istifadə etmək imkanına malik deyil. Hesablanmışdır ki, 2010-cu ildə dünya əhalisinin təxminən 20%-i elektrik enerjisindən istifadə edə bilməyib. Dünyanın demək olar ki, bütün ölkələri öz enerji ehtiyaclarını neft, təbii qaz və kömür kimi ənənəvi enerji mənbələri hesabına ödəyir. Bu resurslar isə tükənəndir, ətraf mühiti çirkləndirəndir, qiymətləri bahadır. Bunun əksi olaraq alternativ enerji mənbələri ekoloji cəhətdən

təmiz və tükənməzdir. Proqnozlara görə yaxın 15-20 il ərzində bərpa olunan enerji mənbələri dünya energetika balansında görkəmli yer tutmalı, tükənməkdə olan üzvi yanacaq ehtiyatlarının əvəzlənməsini və ətraf mühitin ekoloji sağlamlaşdırılmasını təmin etməlidir. Alternativ energetika təkcə ətraf mühitin mühafizəsi üçün vacib deyil. Qeyri - ənənəvi enerji mənbələrindən istifadə iki vacib şərtlə əsaslanır ki, bunlar da yanacaq mənbəyinin bərpa olunan olması və verilmiş ərazidə mümkünlüyüdür.

Külək enerjisi küləyi meydana gətirən hava axınının sahib olduğu hərəkət (kinetik) enerjisidir. Alternativ enerji (bərpa olunan) mənbələrindən biri hesab olunur. Bu enerjinin bir hissəsi faydalı olan mexaniki və ya elektrik enerjisinə çevrilə bilər. Külək enerjisi digər alternativ enerji mənbələri olan günəş, hidroenergetika, geotermal və biokütlə enerjisindən özünün maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə ən sərfəlisidir.Küləyin gücündən çox köhnə illərdən bəri faydalanılar İndiki vaxtda daha çox elektrik çıxarmaq məqsədiylə istifadə edilməkdədir. Elektrik enerjisi istehsalı üçün daha səmərəli texnologiyalardan biridir. Külək qurğularının inşasına ənənəvi elektrik stansiyalarının qurulmasına nisbətən daha az vaxt sərf olunur. Bundan başqa, külək, əslində, istənilən ölkənin malik olduğu daimi təbii enerji mənbəyidir. Külək enerjisindən istifadə olunması energetikanın daha tez inkişaf edən sahələrindən biridir. Dünyada ilk KES –1 1981-ci ildə Krımda inşa edilmişdir. Dünyanın digər ölkələrində sonralar bu tədbirlər tətbiq olunmağa başladı. Qafqazda da Külək enerjisindən istifadə edilməsi qədim tarixə malikdir. Ən çox külək əsən Abşeron yarımadasında küləyin orta illik sürəti saniyədə 8-9 m-ə, hətta 35-40 m-ə çatır. Küləyin orta illik sürətinin 6-7 m-ə çatdığı Kamık və Sal çöllərində də külək enerjisindən istifadə olunması üçün əlverişli şərait vardır. Külək enerjisinin enerjiyə çevrilməsi əsasən 2 mühüm tədbirin həyata keçirilməsini tələb edir:

1) Müvafiq maliyyə, material sərfi vasitəsilə daimi olmayan külək enerjisinin toplanması;
2) Müxtəlif ərazilərdə enerji almaq üçün külək mühərriklərindən istifadə edilməsi.

Azərbaycan Respublikası bu cəhətdən olduqca əlverişli şəraitə malikdir. Burada külək enerjisi almaq məqsədilə 1-5 min kVt gücündə enerji qurğularının tikilməsi üçün əlverişli şərait vardır. Külək enerjisindən istifadə edilməsinin təşkilatı məsələləri istehsal proseslərinin bütün sahələrini əhatə edir.

Hazırda külək enerjisi qurğularının əsas iqtisadi parametrlərinin müəyyən edilməsi, istehsal olunan enerjinin dəyəri, hansı maddi vəsait hesabına başa gəlməsi ilə ölçülür. Külək enerjisindən istifadə olunmasının əsas meyarı hər hansı ərazidə il müddətində küləkli günlərin sayının, küləklərin istiqamətinin müəyyən edilməsindən ibarətdir. Azərbaycan hidrometereologiya xidmətinin energetika institutlarının məlumatları təsdiq edir ki, Abşeron yarımadasında 1 km2 sahədə 4 mVt gücündə enerji almaq mümkündür. Yarımadanın 8-10 faizi həmin məqsədlə istifadə edilərsə 2.5-2.6 mln kVt gücündə enerji qurğusu əldə etmək olar ki, bu da Azərenerji şirkətinin istehsal gücünün xeyli hissəsinə bərabərdir. Aşağıda göstərilən rayonlarda külək enerjisjndən istifadə edilməsi “kiçik energetika”-nın inkişafında mühüm əhəmiyyətə malikdir. Azərbaycan ərazisində əsasən Bakı, Sumqayıt, Abşeron, Binə, Maştağa külək enerjisindən istifadə etmək məqsədə uyğun sayılır. Azərbaycanın külək rejimi mürəkkəb xarakterə malikdir. Bu da ölkə ərazisinin 60%-nin dağlıq zonalardan ibarət olması ilə əlaqədardır. Dağların Respublikanın iqliminə

və külək rejiminə təsiri böyükdür. Məsələn, Böyük Qafqaz dağları sədd rolunu oynayaraq ölkə ərazisinə şimaldan və şimal-şərqdən soyuq hava kütlələrinin daxil olmasına maneə törədir. Soyuq hava kütlələri Böyük Qafqaz dağlarının ətrafından keçərək Abşeron yarımadasından Respublika ərazisinə daxil olur. Buna görə də Zaqatalada küləyin orta illik sürəti 1.2 m/san. Abşeronda isə 8.6m/san.-dir. Hesablamalara görə Azərbaycan Respublikası özünün coğrafi vəziyyətinə, təbii şəraitinə və iqtisadi infrastrukturuna görə 800 MVt-a yaxın illik külək enerji ehtiyatına malikdir. Bu ehtiyat ildə təxmini hesablamalara görə 2,4 milyard kVt/saat elektrik enerjisi deməkdir. Bu isə, öz növbəsində, ildə 1 milyon tona yaxın şərti yanacağa qənaət, ən əsası isə ildə küllü miqdarda tullantıların, o cümlədən azondağıdıcı olan karbon dioksidin atmosferə atılmasının qarşısının alınması deməkdir. 1999-cu ildə Yaponiyanın “Tomen” şirkəti Azərbaycan Elmi-tədqiqat Energetika və Enerji layihə İnstitutu ilə birlikdə Abşeronda hündürlüyü 30 və 40 metr olan iki qüllə quraşdırmış, küləyin sürətinin orta illik qiyməti $v$ = 7,9 - 8,1 m/san olması müəyyən edilmiş və Qobustan rayonu ərazisində ümumi gücü 30 MVt olan külək elektrik stansiyasının quraşdırılmasına dair texniki iqtisadi əsaslandırma hazırlanmışdır. 2002-ci ildə Azərbaycanın bərpa olunan enerji resurslarının qiymətləndirilməsi həyata keçirilmiş və aşkar olunmuşdur ki, Abşeron yarımadası iri həcmdə külək enerjisi potensialına malikdir. Uzunmüddətli küləyin orta sürəti 6 m/san-dan artıqdır ki, bu da külək enerjisi üçün əlverişli texniki-iqtisadi potensialın olmasını göstərir. Şimal DRES-nin yerləşdiyi ərazidən toplanılmış külək enerjisi üzrə statistik məlumatlar bir daha təqdim olunan göstəriciləri təsdiq etmişdir. Aparılmış bu tədqiqatlar zamanı Qobustan rayonu ərazisi üçün təqdim olunmuş göstəricilər külək enerjisi potensialının 4-cü sinfinə aid edilir ki, bu da yüksək potensial hesab olunur.

Azərbaycan çaylarının ümumi hidroenerji potensialının 40 mvt/saat, kiçik SES-lərin nəzəri enerji potensialının isə 28 nlrd.kvt./saat olduğu müəyyən edilmişdir. İlkin hesablamalara görə, çayların üzərində tikilməsi mümkün olan 280-ə yaxın kiçik SES-in ümumi istehsal gücü 700 MVT, illik enerji istehsalı isə 3,2–3,5 mlrd.kvt/saat təşkil edir. Respublika ərazisində 140-dan çox su anbarı var və bu su anbarlarından yalnız 61-nin həcmi 1 mln. $m^3$-dən çoxdur. Su anbarlarının ümumi tam həcmi 21,5 $km^3$ təşkil edir. Su anbarları həm çayın məcrasında (məcra su anbarları) həm də ondan kənarda (məcradan kənar su anbarları) yaradılıb. Su anbarlarının əksəriyyəti fəsillik nizamlanır və suvarma üçün istifadə olunurlar. Kür, Araz və Tərtər çaylarında yaradılmış su anbarları və SES-lər – Şəmkir, Mingəçevir, Yenikənd, Varvara, Araz və Sərsəng kompleks təyinatlı su təsərrüfatı obyektləridir və energetika, suvarma, su təchizatı və s. üçün istifadə olunurlar. Respublikanın ən iri Mingəçevir su anbarı 1953-cü ildə istismara verilib, çoxillik tənzimləmə rejimində işləyir, Kür çayının axımı onun aşağı axınında tamamilə tənzimlənib və subasma hallarının qarşısı alınıb. Su anbarlarının yaradılması su ehtiyatı və enerjisindən səmərəli istifadə üçün görülən əsas tədbirlərdəndir. Böyük su anbarları kompleks əhəmiyyətə malik olduğu halda, digər su anbarlarının əksəriyyəti irriqasiya məqsədi ilə tikilmişdir.

Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağlarında axan kiçik dağ çayları üzərində SES-in tikilməsi daha məqsədəuyğun sayılır. Mingəçevir SES — Cənubi Qafqazda ən böyük su elektrik stansiyası olub, su anbarıdır. Mingəçevir su anbarının və Su Elektrik Stansiyasının tikintisi 1953-cü ildə tamamlanıb. Su anbarının normal dolma səviyyəsində ümumi su tutumu 15730 mln. $m^3$,

faydalı həcmi isə 8210 mln. $m^3$-dir. Su anbarının çay boyu uzunluğu 70 km, eni 3 km-dən 18 km-ə qədər dəyişir. Maksimal dərinliyi 75 m, orta dərinliyi 26 m, sahil xəttinin uzunluğu 247 km, su güzgüsünün sahəsi isə 605 $km^2$-dir. Mingəçevir su anbarı bəndinin üstdən uzunluğu 1550 m, eni 16 m, hündürlüyü 80 m-dir. Şəmkir SES — Cənubi Qafqazda Azərbaycana məxsus 1982-ci ildə inşa edilmiş su elektrik stansiyası olub, Kür çayının üzərində, Şəmkir şəhərinin yaxınlığında yerləşir. 2 hidroaqreqata (hər biri 190 Mvt) malik olan Şəmkir SES-in müəyyən olunmuş gücü 380 Mvt, orta illik elektrik enerjisi istehsalı 56 milyon kvt/saat-dır. Bəndinin hündürlüyü 60 m, uzunluğu 4500 m-dir. Bənd Şəmkir su anbarını əmələ gətirmişdir. Sərsəng su anbarı — Azərbaycana məxsus 1976-cı ildə Tərtərçayın üzərində, keçmiş Ağdərə, indiki Tərtər rayonu ərazisində, inşa edilmiş su anbarı Onun ümumi su tutumu 560 mln $m^3$, bəndinin hündürlüyü isə 125 m-dir. Sərsəng su anbarı respublikada bəndinin hündürlüyünə görə ən hündür bəndli su anbarlarından biridir. Sərsəng su anbarı hazırda Tərtər rayonu ərazisində yerləşir və Azərbaycan tərəfindən istismar olunur. Sərsəng su anbarı respublikanın 6 rayonunun 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin edirdi. Yalnız Sərsəng su anbarının işğalı nəticəsində 100 min hektar sahədə kənd təsərrüfatı bitkilərinə suvarma suyunun verilməməsi respublikanın bu regionuna əvəz olunmaz zərər vurmuşdur. Hazırda su anbarına və onun qurğularına işğal altında 10 ildən artıq müddətdir ki, texniki xidmət göstərilmədiyi üçün o qəza vəziyyətindədir. Bu səbəbdən Sərsəng su anbarı onun aşağı byefində yerləşən əhali üçün ciddi təhlükə yaradır. Lakin anbarın işğaldan azad olunması onun yenidən işlək vəziyyətə gətirilməsi üçün şərait yaradır. Araz SES — Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Babək rayonu ərazisində, Araz çayı, Araz su anbarı üzəində su elektrik stansiyası. Araz SES-in inşasına 1964 cü ildə başlanılmış və 1970 ci ildə bitirilmiş 1971 ci ildə istismara verilmişdir. SES SSRI dövründə Azərbaycan SSR iləİran dövləti arasındakı razılaşma əsasında inşa edilmişdir. SES torpaq tipli bəndə malik olub, uzunluğu 900 m hündürlüyü isə 40 m-dir. SES 11 MVt gücə malik 2 hidroaqreqat turbinlə təmin olunmuşdur. SES-in ümumi gücü 22 MVt olub istehsal potensialı 148 milyon KVt-saatdir. SES hər biri İran və Azərbaycan ərazisində yerləşməklə iki binaya malikdir. Hər bir bina özlüyündə 11 MVt gücə malik 2 hidroaqreqat turbinə malikdir.

Günəş - ətraf mühitə təsirsiz davranan dünyanın tükənməyən ən güclü və təmiz enerji mənbəyidir. Müasir dövrümüzdə günəş enerjisi ən mühüm enerji mənbələrindən biri hesab olunur. Günəş enerjisi ilə işləyən isitmə və soyutma sistemlərinə qoyulan ilk investisiya xərci şərti yanacaqla işləyən sistemlərə nəzərən yüksəkdir. Lakin dövrümüzdə davamlı şəkildə artan enerji xərclərini diqqətə alsaq bu sistem xərcləri müqayisə olunmaz dərəcədə aşağıdır. Günəş enerjisi sistemlərinin əlverişli xüsusiyyətləri: - Ətraf mühitə zərər vermir; - İstifadəsində çox aşağı xərc tələb edir; - Asanlıqla tətbiq edilə bilir; Günəş enerjisi sistemlərindən - isti su təmini, binaların isidib soyudulmasında, buxar əldə edilməsində, elektrik istehsalında, hidrogen istehsalı, dəniz suyunun artırılmasında, saf su və duz istehsalında və s. istifadə edilir. Ənənəvi enerji mənbələrinin tədricən tükənməsi, həmçinin, onlardan istifadə zamanı ətraf mühitə vurulan külli miqdarda ziyan hazırda bütün dünyada olduğu kimi, Azərbaycanda da alternativ enerji növlərindən istifadə zərurətini yaradır. Məlum olduğu kimi, dünyanın əksər inkişaf etmiş ölkələrində, həmçinin ölkəmizdə günəş və külək enerjisi, hidroenerji, termal sular və biokütlə enerjisi kimi bərpa olunan

mənbələrdən istifadə edilir. Günəş enerjisi günəş işığından enerji əldə edilməsi texnologiyasıdır. Günəş enerjisinin istifadəsinin üstünlüyü ondadır ki, Günəş qurğuları işləyən zaman parnik effekti yaranmır, havanın çirklənməsi baş vermir, istilik aşağı atmosfer qatlarına yayılmır. Günəş enerjisindən passiv və aktiv qurğuların vasitəsi ilə istifadə etmək mümkündür. Passiv sistemlərdə günəş enerjisi şüalanmanın, istilikkeçirmənin və təbii ventilyasiyanın köməyi ilə ötürülür. Aktiv sistemlərdə isə, günəş şüaları ilə qızan səthin istiliyi istilikdaşıyıcısının vasitəsilə digər qurğuya nəql edilir. Bu zaman istiliyi qəbul etmək üçün günəş kollektorlarından istifadə edilir. Günəş panelindən maksimun elektrik enerjisi almaq üçün günəşli hava daha yaxşıdır. Amma bu o demək deyil ki, buludlu, yağışlı havada enerji istehsal edilməyəcək. Günəş panelləri ən buludlu havada belə 50 faiz güclə işləyir. Azərbaycanın təbii iqlim şəraiti günəş enerjisindən istifadə etməklə elektrik və istilik enerjisinin istehsalını artırmağa geniş imkanlar açır. Dövlət Agentliyi tərəfindən aparılmış tədqiqatlara görə ölkə ərazisinin hər kvadrat metrinə düşən günəş enerjisinin illik miqdarı 1300 kilovat-saatdan 1750 kilovat-saata qədər dəyişir. Azərbaycan Respublikasında günəş enerjisinin iqtisadi potensialı 20,000 meqavat həcmində qiymətləndirilir. Qəbul edilmiş dövlət proqramları və struktur islahatları nəticəsində 2009-cu ildən başlayaraq dövlət və qeyri-dövlət müəssisələri tərəfindən ölkəmizdə bu istiqamətdə işlər görülüb, yeni elektrik stansiyaları tikilib istifadəyə verilmişdir. Bunlara Qobustan, Suraxanı, Pirallahı, Samux və Qaradağ rayonu, Sumqayıt şəhəri, və Naxçıvan MR Babək rayonunda istifadəyə verilmiş günəş elektrik stansiyalarını nümunə göstərə bilərik. Bir günəş paneli 1 kilovat-saat enerji istehsal edir. Azərbaycanda isə nəzərə alsaq ki, bir ev gündə ortalama 8-10 kilovat-saat enerji sərf edir, azı 5 ədəd 250 vattlıq günəş paneli lazımdır. Bir evin günəş enerjisini istehsal edən avadanlıqla təhciz olunması evin enerji işlətmə gücündən asılıdır. Ağıllı şəbəkə layihəsi — Qobustan HES-də istehsal olunan elektrik enerjisinin müasir İKT texnologiyalarındam istifadə etməklə istehlakçılara itkisiz çatdırılması və səmərəli şəkildə paylanması məqsədi ilə Dövlət Agentliyi tərəfindən “ağıllı şəbəkə”nin qurulmasına artıq başlanılmışdır. Bu şəbəkə vasitəsi ilə ilkin mərhələdə Qobustan şəhəri, sonradan bütün Qobustan rayonunun elektrik enerjisi ilə təminatı həyata keçiriləcəkdir. Qaradağ rayonun Səngəçal qəsəbəsi yaxınlığında quraşdırılan günəş elektrik stansiyasının layihə gücü 9 MVt-dir. Layihənin icrasında 2014-cü ildə başlamış və hazırda layihə üzrə işlər davam etdirilir. Quraşdırılacaq elektrik stansiyası Səngəçal qəsəbəsinin və ümumilikdə Qaradağ rayonunun elektrik enerjisinə olan ehtiyacının daha yüksək səviyyədə təmin edilməisinə xidmət edəcəkdir. Stansiyada ən çox texnologiyalarla hazırlanmış 36 minə yaxın günəş panelinin quraşdırılması və etibarlı elektrik ötürmə sisteminin yaradılması Ölkənin enerji təhlükəsizliyində və ümumi elektrik enerjisi istehsalında alternativ və bərpa olunan enerji mənbələrinin rolunun artırılması, sahənin inkişafı və infrastrukturunun yaradılması məqsədilə strateji plan hazırlanıb icra olunur. Günəş enerjisinin bahalı (qiymətin yüksək olması) bir mənbə kateqoriyasına aid olduğuna dair ümumi bir fikir mövcuddur. Alınan

enerjini toplamaq üçün istifadə olunan elektrik akkumulyatorlarının yüksək qiymətlərdə olması bu fikri təsdiq edir. Bu mənbənin çatışmazlığı panellərin çox yer tutub, az gücdə enerji istehsal etməsidir. Günəş enerjisinin bir çatışmazlığı da var – o da atmosferin vəziyyətindən, günün və ilin vaxtından asılılığıdır. Bütün bu çatışmazlıq və problemlərə baxmayaraq günəş enerjisindən istifadənin geniş tətbiqi ölkədə enerjidən qənaətlə və səmərəli istifadə olunmasına, yanacaq

resurslarının ixracının artmasına, ətraf mühitə atılan zərərli maddələrin həcminin azalmasına və yeni iş yerlərinin açılmasına şərait yaradacaqdır.

Qarabağda yenidənqurma və bərpa işləri sırasında ən mühüm yeri ərazilərin elektrik enerjisi ilə təmin edilməsi, bərpa olunan və yeni enerji mənbələrinin yaradılması tutur. Bütövlükdə, Qarabağ “Yaşıl enerji” zonası kimi elan edilmişdir. Qarabağ və ətraf regionların hidroenerji, günəş, külək, bioenerji və geotermal enerji kimi bərpa olunan enerji mənbələrinin dəqiq potensialının hesablanması, külək və günəş enerjisi üzrə dəqiq potensialın müəyyən edilməsi üçün ölçü müşahidə stansiyalarının quraşdırılması, texniki imkanların və iqtisadi səmərəliliyin qiymətləndirilməsi üzrə görüləcək işlərə dair təkliflər hazırlanıb. İlkin olaraq Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarının ərazisində yüksək günəş enerjisi potensialına malik ümumi sahəsi 14 427 ha olan 8 potensial ərazi seçilmişdir. Bu ərazilərdə ümumilikdə 7214 MVt gücündə günəş elektrik stansiyalarının yerləşdirilməsi mümkün görünsə də, cənub ərazilərin bir hissəsinin kənd təsərrüfatı təyinatlı ola biləcəyi nəzərə alınaraq, burada ümumi potensial 4000 MVt-dan yüksək qiymətləndirilir. Kəlbəcər və Laçın rayonlarının külək enerjisi resursları nəzərdən keçirilib. Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 500 meqavatdan yüksək qiymətləndirilir və bu potensialın böyük hissəsi adıçəkilən rayonların Ermənistanla sərhəd zonalarına düşür. Belə böyük potensiala baxmayaraq, əlverişli infrastrukturun olmaması səbəbindən bu sahələrdə külək enerjisindən elektrik enerjisinin hasil edilməsi məsələsinin yerində araşdırma və tədqiqat işləri tələb edir. Azərbaycanda 25% yerli su ehtiyatlarının Qarabağda formalaşdığı nəzərə alınmaqla, Tərtər, Bazarçay, Həkəri kimi əsas çaylar və onların qollarından elektrik enerjisi istehsalı məqsədi ilə istifadə perspektivləri vardır. Su elektrik stansiyaları əsasən Tərtər, Laçın və Kəlbəcər rayonlarının ərazisində yerləşir. Zəngilan rayonunda ilk “Ağıllı kənd”in inşası başa çatmaq üzrədir. Bu kənd azad olunmuş ərazilərə Qayıdışın ilk məntəqəsi olacaq. Kəndin inşasında çoxsaylı innovativ yanaşmalar tətbiq olunub. Kənddə enerjiyə tələbat “Yaşıl enerji” sistemi ilə təmin ediləcək. Dayanıqlı enerji təminatı Həkəri çayı üzərində inşa olunan Arximed qurğusu tipli su elektrik stansiyaları vasitəsilə həyata keçiriləcək. Arximed qurğusu vasitəsilə alınan enerji hesabına kənd öz enerji tələbatını ödəyəcək. “Ağıllı kənd”də evlərin dam hissəsində yerləşdirilən vaakum Günəş kollektorları vasitəsilə enerji toplanaraq evlərin və suyun qızdırlmasında istifadə ediləcək. Evlərdə quraşdırılacaq anod-katod sistemləri otaqları daha az enerji sərfiyyatı ilə qızdırmağa imkan verəcək. Füzuli rayonunun Dövlətyarlı kəndində də sayca ikinci “Ağıllı kənd”in təməlinin qoyuldu həmin kənddə alternativ enerji həlləri məqsədilə Günəş paneli tarlası salınacaq.

Biokütlə - bir enerji mənbəyi olub, günəş enerjisini fotosintez olaraq toplayan bitki mənşəli orqanizmlərdir. Sənaye mənasında biokütlə dedikdə bioloji maddələrdən yanacaq əldə edilməsi və ya sənayenin digər sahələrində istifadəsi başa düşülür. Belə ki, yanacaq əldə etmək məqsədilə yetişdirilən bitkilər ilə lif, istilik və kimyəvi maddələr almaq üçün isə heyvani və bitki mənşəli məhsullar istifadə olunur. Biokütlə enerjisindən alınan istilik miqdarı odunun yanmasından alınan istilik miqdarından yüksəkdir. Ümumiyyətlə bu enerjidən qədim zamanlardan istifadə edilir. Müxtəlif növ biokütlələrin köməyi ilə alınan qazalara isə bioqaz deyilir. Biokütlə enerjisi biokütlənin yandırılması ilə alınan enerjidir. Daxilindəki karbon, bitkilərin havadakı karbondioksidi ($CO_2$) parçalaması ilə əldə edildiyindən bioyanacaqlar atmosferdə karbon dioksid qazının artmasına

səbəb ola bilmir. Bu xüsusiyyət biokütlədən enerji alınmasında ən önəmli üstünlüyüdür. Biokütlədən müxtəlif üsullarla biodizel, bioqaz, etanol, metan, hidrogen, üzvi gübrə və bu kimi digər maddələr və məhsullar əldə edilməkdədir. Biokütlədən alınan maddələri müxtəlif hazırlıq və çevrilmə proseslərindən keçirərək bioyanacaqlar əldə edirlər. Bunlardan da öz növbəsində elektrik istehsalı üçün istifadə edilməkdədir. Biokütlə enerjisinin alınmasının müsbət xüsusiyyətləri aşağıdakılardır: - Təmiz enerji mənbəyidir; - Yüksək temperatur tələb olunmur; - Aşağı işıq həddi yetərlidir; - Ətraf mühitin çirklənməsində rol oynamaz; 13 13 - İstixana effekti təsiri yaratmaz. Biokütlə enerjisi bərpa olunan enerji mənbələri içərisində çox böyük potensiala sahibdir. Təbiətdə hər il 150 mlrd ton biokütlə istehsal edilərək bunun yalnız 1%-dən kommersiya məqsədilə istifadə edilməkdədir. Bioyanacaq istehsalında ən mühüm canlı orqanizmlər su yosunlarıdır. Su yosunları karbon qazının və günəş işığının təsirilə fotosintez edərək protein, karbohidrat və yağ istehsal etməkdədirlər. Lakin bu prosesdə su yosunlarının azot əldə etmələrinin qarşısı alınaraq müəyyən miqdar karbon qazı verilirsə su yosunları protein istehsal edə bilmədikləri üçün 50%-dən çox nisbətdə yağ alınmaqdadır. Alternativ enerji mənbələri sahəsində bir çox alimlərin apardığı təcrübələr nəticəsində müəyyən edilmişdir ki, istehsal olunan elektrik enerjisinin 79.9%-i biokütlədən alınan enerjinin payına düşür.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. Azərbaycan Respublikasının enerji resursları haqqında qanunu. Bakı,1996.
2. Ç.M.Çüvarlı, V.İ. Jesman – Külək və günəş enerjisi onun çevrilməsi və istifadəsi. Bakı, 2003.
3. R.İ.Talışınski, N.M.Əliyev, L.H.Həsənova, R.L.Əlizadə. Bərpa olunan saf enerji mənbələri. Bakı.
4. S.Q.Əmirov, M.V.Abdulayeva – Külək və günəş enerjisindən istifadə ilə təbii ehtiyatlara qənaət. Bakı.
5. R.Əliyev – Alternativ enerji və Ekologiya. Bakı.
6. M.F.Cəlilov – Alternativ və reyenerativ enerji sistemləri. Bakı.
7. E.F.Yusifov, B.H.Təhməzov – Ətraf mühit iqtisadiyyat və həyat. Bakı.
8. Şövqi Göyçaylı, Telman İsmayılov – Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları. Bakı, 2009.
9. M.C.Atakişiyev – Təbiətdən istifadənin iqtisadiyyatı. Bakı, 2004.
10. Q.Məmmədov,M.Xəlilov – Ekologiya və ətraf mühitin mühafizəsi. Bakı, 2009.
11. Telman Xəlilov, Maya Zeynalova – AEM-nin inkişafı. Bakı.
12. F.F.Məmmədov – Azərbaycanda Günəş Enerjisindən istifadə və Müasir Günəş Energetik Qurğuları. Bakı, 2011.
13. V.Z.Mehdiyeva, T.R.Tarverdiyev və b. – Aqrar sektorda Bərpa olunan enerjidən istifadə və davamlı inkişaf. Bakı, 2015.
14. V.Qasımlı və b. – Yaşıl İnkişaf. Enerji səmərəliliyi və alternativ mənbələr. Bakı, 2014.
15. Z.Səmədzadə - Azərbaycan XXI əsrin astanasında. Bakı,1998.
16. Z.Səmədzadə - Dünya iqtisadiyyatı. Bakı, 2001.
17. N.Nəbiyev – Təbii sərvətlər və istehsal. Bakı, 1983.
18. Azərbaycan XXI əsrin astanasında. Elmi – praktiki konfransın materialları. Bakı,1998.

# TORPAQLARIN DEQRADASİYASINA İQLİM DƏYİŞMƏSİNİN TƏSİRİ

*Tələbə: Mikayıllı Mikayıl İslam oğlu (qrup TC-501).*
*Elmi rəhbər: k.t.ü.f.d., b/m. F.T.Cəfərov*
*mikayilmikayilli01@gmail.com*

Yer Kürəsinin karbon-dioksid (CO2 ) və digər istilik effekti yaradan (parnik) qazların udulması potensialı durur. Bu nə deməkdir? Müxtəlif növ tərəvəz və bitkilərin yetişməsi üçün lazımi temperaturu yaradan istilikxanalar kimi, atmosferdəki qazlar da günəşdən gələn istiliyi tutub saxlayaraq planetimizdə bizim yaşamağımız üçün zəruri istiliyi yaradır. Alimlərin hesablamalarına əsasən, əgər atmosferdə bu qazlar olmasaydı, onda Yer Kürəsində orta illik temperatur təxminən -19° C olardı. Məhz buna görə həmin qazlar istilik effekti yaradan və ya “istilikxana” qazları adlandırılır. $CO_2$ və digər qazlar atmosferin üst qatlarında günəşdən gələn istiliyi tutub saxlamaqla bizi hədsiz istilikdən mühafizə edərək bir növ görünməz mühafizə zolağı yaradırlar. Beləliklə onlar dünyada insanların normal yaşaması və fəaliyyət göstərməsi üçün zəruri temperaturun formalaşdırılmasında müstəsna rol oynayırlar. $CO_2$ atmosferə müxtəlif mənbələrdən daxil olur: kənd təsərrüfatı, landşaftdan istifadədə olan dəyişikliklər, sənaye, tullantılar, energetika və sair.

Ekoloji anlamda deqradasiya-təbii, antropogen və texnogen proseslər nəticəsində bitki örtüyünün, otlaqların vəziyyətinin pisləşməsi, meşələrin kolluqlara çevrilməsi, torpağın strukturunun pozulması, humus və dəyişən kationların azalması nəticəsində münbitliyinin pisləşməsi prosesidir.

Torpağın deqradasiyasına torpağa üzvi və mineral gübrələrin düzgün verilməməsi, dağ-mədən sənayesi, sənaye binalarından atılan çirkab sular, əhalinin artımı, eroziya prosesi, mal-qaranın düzgün otarılmaması, irriqasiya prosesinin düzgün aparılmaması əsaslı şəkildə təsir edir.

Torpağın deqradasiyası Torpağın fiziki, kimyəvi, bioloji və iqtisadi məhsuldarlığının azalmasını və ya tamamilə itməsini ehtiva edən ciddi bir problemdir. Prosesin özünəməxsus çatışmazlıqlarından biri, torpaqların parçalanma sürətinin çox yüksək olması və bunun çox yavaş bərpasıdır. Torpağın deqradasiyasına səbəb olan amillər son dərəcə müxtəlifdir və bir çoxu əlaqəlidir, bu da öyrənilməsini və dəqiqləşdirilməsini çətinləşdirir. Havanın və ya suyun təsirləri, temperaturda və insan fəaliyyətinin quruluşunda dəyişikliklər, çirklənmə, encrotamiento, daşqın, çölləşmə, kimyəvi pisləşmə və s. Torpağın deqradasiyası dövrümüzün xüsusi problemi deyil. Əslində bu termin böyük mütəfəkkirlərin və filosofların dövründən bəri istifadə olunurdu. Məsələn, Platon tənəzzül fenomenini təsvir etdi və onu ekosistemlərin meşələrin qırılması ilə əlaqələndirdi.

Torpağın deqradasiyasının müxtəlif təsnifatları mövcuddur. Bəziləri üçün məhsuldarlığın və torpaq çirklənməsinin deqradasiyasına bölmək olar.

Məhsuldarlığın azalması və torpağın çirklənməsi.Məhsuldarlıq itkisində, sözügedən torpağın canlı orqanizmlərin inkişafını dəstəkləmək və inkişaf etdirmək qabiliyyətində əhəmiyyətli bir azalma olur, çirklənmə isə torpağın tərkibindəki zərərli və ya zəhərli maddələrin artması ilə müəyyən edilir.

Digər tərəfdən, onları bioloji, fiziki, kimyəvi, su və külək deqradasiyası kimi də təsnif edə bilərik.

Bioloji deqradasiya, fiziki deqradasiyanın dərhal bir nəticəsi olan yerin səth qatında mövcud olan humusun minerallaşmasının artmasına aiddir. Bu torpaqlar qida itkisinə məruz qalır və artan axıntı və eroziyaya səbəb olur.

Fiziki deqradasiya bitki örtüyünün kəsilməsi və yararsız məhsulların həddindən artıq təcrübəsi nəticəsində üzvi maddələrin tərkibinin azalmasından ibarətdir.

Diaqnostik xarakteristikası gözenekliliğin azalmasıdır və torpaq kompakt və bişmiş bir toxuma nümayiş etdirir.

Kimyəvi deqradasiya, həmçinin “baza yuma” adlanır, su komponentinin bitkilər üçün lazımlı qidaları torpaqların daha dərin bölgələrinə sürüklədiyi bir hadisədir.

Bu fenomen məhsuldarlığın pisləşməsinə gətirib çıxarır və torpağın pH dəyərlərini xeyli aşağı salır və daha asidik hala gətirir.

Alüminium kimi müəyyən zəhərli komponentlərin artan konsentrasiyası səbəbindən də baş verə bilər. Kimyəvi çirklənmə təbii mənbələrdən baş verə bilsə də, ən çox yayılanı, böcək dərmanları və gübrələrin istifadəsi sayəsində insanların ərazinin tərkibində balanssızlığa səbəb olmasıdır.

Suyun deqradasiyasına səbəb torpaq elementlərinin dağılmasına və daşınmasına təsir göstərən sudur.

Külək deqradasiyası külək müdaxiləsi nəticəsində meydana gələn, torpaq hissəciklərinin süpürülməsinə, aşınmasına və süründürülməsinə səbəb olan bir fenomendir.

Ətraf mühitin çirklənməsi və pozulması bir sıra ekoloji, iqtisadi və sosial problemlərin yaranmasının əsasını təşkil edir və insanın bir şəxsiyyət və vətandaş kimi layiqli həyat sürməsini əngəlliyir. Ətraf təbii mühitin pozulması və çirklənməsi hal-hazırda bəşəriyyət üçün bir sıra iqtisadi və sosial problemlər yaratmaqla yanaşı, eyni zamanda gələcəkdə yeni irimiqyaslı ekoloji fəsadların əmələ gəlməsinə də təkan verir. Ətraf mühitin pozulması və çirklənməsindən irəli gələn yeni törəmə ekoloji problemlər arasında iqlim dəyişmələri xüsusi yer tutur. Dünyanın müxtəlif reqionlarında baş verən qasırğa və sellər, çayların daşması, dünyanın fərqli yerlərində müşahidə olunan quraqlıq və bunun tam əksi olan leysan yağışlar və çayların daşması şəhər və kəndlərin infrastrukturlarına, sənaye və kənd təsərrüfatına olduqca böyük zərər vurur. Nəticədə insanların həyatı, onların ərzaq və ekoloji təhlükəsizliyi böyük risklərlə üzləşir. İqlim dəyişmələri qlobal xarakter daşıdığından bütün dünya tərəfindən ona böyük diqqət ayrılır. Bu problemlərin qarşısının alınmasına yönəldilmiş konvensiyalar, çoxsaylı beynəlxalq konfransların, o cümlədən dünya sammitlərinin keçirilməsi problemin və onun həllinə yönəldilmiş tədbirlərin xüsusi ciddiliyindən xəbər verir.

Atmosferdə sərhədlərin olmaması və $CO_2$-nin havada sərbəst hərəkəti, hətta yuxarıda adı çəkilən mənbələrin zəif inkişaf etdiyi və ya mövcud olmadığı yerlərdə temperaturun artmasına gətirib çıxarır. Bu qlobal istiləşmə adlandırılır.

Dünyanı narahat edən qlobal problemlərdən biri də İqlim dəyişmələridir. İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox narahat etməkdədir. Qeyri-sabit hava şəraiti tək Azərbaycanda deyil dünyanın bir sıra ölkələrində hiss olunmaqda və problemlər

yaratmaqdadır. Bu problemlərə diqqətin artması özünü bir sıra beynəlxalq tədbirlərin, o cümlədən elmi və praktiki konfransların keçirilməsində göstərir. İqlim Dəyişmələri üzrə Hökümətlərarası Ekspertlər qrupunun son qiymətləndirmə hesabatına görə son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. Temperaturun artması isə əsasən antropogen amillərlə bağlıdır. Antropogen amillərin əsasını istilik effekti yaradan qazlar: karbon, metan, azot oksidi, azot 1 oksid və xlor-fülor birləşmələr təşkil edir. Son 100 illik kosmik müşahidələr göstərir ki, tufanların, çovğunların həm intensivliyi, həm də tezliyi artıb. İsti küləklər, qasırğalar, yağıntılar güclənib. Eyni zamanda, sel, daşqın hadisələrinin də sayı artıb. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, artıq qızma 2000 metr dərinliyə qədər çatır. Bu da isti axınların daha da qızmasına səbəb olur. Yəni bütün bu təbii fəlakətlərin artımında əsas amil iqlim dəyişmələridir.

Son 100 ildə Azərbaycan ərazisində orta illik temperaturlar 0,4-1,3$^{0}$ C-yə qədər artmışdır. Temperatur artımı regionlardan asılı olaraq qeyri-bərabər paylanır. Son 10 illiklərdə Azərbaycan ərazisində kiçik dağ çaylarında sel və daşqınların sayı və gücü artmışdır.

Deqradasiya ümumiyyətlə üç mərhələdə baş verir: birincisi, torpağın orijinal xüsusiyyətlərinin tədricən məhv edilməsindən ibarətdir. Bu mərhələ praktik olaraq hiss olunmur, çünki gübrələrin və digər məhsulların istifadəsi ilə tez bir zamanda düzəldilə bilər. Beləliklə, demək olar ki, dəyişməyən bir istehsal əldə edilir.

Bunun ardınca torpağın üzvi maddələrinin daha aydın itkisi gəlir. İkinci mərhələ torpaqların struktur çökməsi ilə xarakterizə olunur. Bundan əlavə, suyun sızmasına və bitkilərin köklərinin düzgün nüfuz etməsinə mane olan səthi ziyan var.

Zərərin son mərhələsi məsamə boşluğunun çökmələrindən ibarətdir. Eroziya sürəti yüksəkdir və ərazidə kənd təsərrüfatı texnikalarını idarə etmək çətindir. Bu nöqtədə məhsuldarlıq ümumiyyətlə minimaldır və ya yoxdur.

Bir mərhələdən digər mərhələyə keçmə vaxtı torpaqdan istifadə intensivliyi dərəcəsindən və əkinçilikdə uyğun olmayan təcrübələrin tətbiq olunmasından asılıdır.

Son məlumata əsasən artıq 194 ölkə və bir regional təşkilat BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etmişdir. Konvensiyanın tələblərinə əsasən hər bir ölkə atmosferə tullanan istilikxana qazlarının miqdarı, iqlim dəyişmələrinin təsiri və onun nəticəsində baş vermiş dəyişikliklər, iqlim dəyişmələri ilə mübarizə üzrə görülmüş işlər barədə mütəmadi olaraq Konvensiyanın Katibliyinə hesabatlar təqdim edir. Azərbaycan Respublikası da artıq Katibliyə iki hesabat təqdim etmişdir (2005 və 2010-cu illərdə). Çərçivə Konvensiyada iqlim dəyişmələrinə uyğunlaşma üzrə tədbirlər planı öz əksini tapır. Konvensiyanın mətnində kənd təsərrüfatından sahilboyu ərazilərin mühafizəsinə, daşqın təhlükəsindən bərk tullantıların idarə olunmasına kimi müxtəlif sahələrdə iqlim dəyişmələrinin təsirinə hazır olmaq üçün beynəlxalq əməkdaşlığın əhəmiyyəti xüsusi vurğulanır. Bu əməkdaşlığın əsas məqamlarından biri varlı ölkələr tərəfindən inkişaf etməkdə ölkələr, onların arasından iqlim dəyişmələrinin mənfi təsirlərinə daha həssas dövlətlər dəstək verilməsidir.

Torpağın deqradasiyası problemini həll etmək üçün mümkün qədər çox insanın səylərini birləşdirmək lazımdır. Əvvəla, torpağın deqradasiyasının qarşısının alınması beynəlxalq hüquqla tənzimlənir. Hər bir dövlətin torpaq ehtiyatlarının istismarını tənzimləyən qayda və qaydaları vardır.

Torpağı qorumaq üçün eroziyaya, səhralaşmaya və digər problemlərə qarşı qoruyucu vasitələrin quraşdırılması üçün tədbirlər görülür. Məsələn, meşələrin kəsilməsinə və əkin becərilməsi üçün torpaqdan istifadəyə nəzarət tələb olunur. Əlavə olaraq əkin sahələrində əkin sahələrinin zolaqlarının yerləşdirilməsi ilə əkin rotasiyası texnologiyaları tətbiq olunur. Torpağı bərpa edən çoxillik ot sahələri də yaradılır. Qar tutma, qumların meşə salınması, bufer zonaların yaradılması - meşə zolaqları faydalıdır. Əlbətdə ki, torpağın qorunması torpaq işləyən, əkin becərən və otlayan heyvanlardan asılıdır. Torpağın vəziyyəti hansı texnologiyalardan istifadə etmələrindən asılıdır. Ayrıca, ərazi sənaye tullantıları ilə çox çirklənmişdir, buna görə sənaye işçiləri ətraf mühitə atılan zərərli maddələrin miqdarını azaltmalıdırlar. Hər bir insan torpaq ehtiyatlarına yaxşı baxa bilər və onlardan düzgün istifadə edə bilər və bundan sonra torpağın deqradasiyası problemi minimuma endiriləcəkdir.

Torpaq ehtiyatlarının deqradasiyadan qorunması üçün belə bir mühafizə tədbirlərini yerinə yetirmək məqsədə uyğun olar: 1. təsərrüfatdaxili-təşkilati tədbirlər 2. meşə-meliorativ 3. hidroloji-texniki 4. aqro-texniki tədbirlər Təsərrüfatdaxili-təşkilati tədbirlər zamanı deqradasiya prosesinin qarşısının alınması, ona qarşı təşkilati tədbirlərin keçirilməsi həyata keçir. Və bu proseslər zamanı ən vacib şərt bu fəaliyətin qarşısının alınmasına yönəlmiş müxtəlif atlas və xəritələrin, cədvəl və dioqrammaların tərtibatıdır. Bütün bunlara rəğmən sonda deqradasiyanın formalaşmasına qarşı tədbirlər plan-sxemi tərtib olunur. Bu tədbir plan-sxemdə torpaqlarda deqradasiyanın müxtəlif növlərinə əsasən müxtəlif layihələr planlaşdırılır : əkin məqsədilə həddən artıq becərilən torpaq ehtiyatları, azaz hallarda istifadə olunan torpaq ehtiyatları və ümumiyyətlə becərilmə prosesində yararsız olan torpaqlar. Deqradasiyaya uğramış torpaq ehtiyatlarının məhsuldarlığının çoxaldılmasının kənd təsərrüfatında kimyəvi təsirləri, o cümlədən, qar yağan zaman onun bir müddət torpaq üstündə süni sürətdə qalması, müxtəlif bitki ehtiyatlarından yararlanmaq və s. kimi proseduralar aqrotexniki layihələrə aiddir.

Azərbaycanda İqlim Dəyişmələri üzrə milli səviyyədə fəaliyyətlər Azərbaycan Respublikası Milli Məclisi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına 1995-ci ildə qoşulmuşdur. Ölkəmiz İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Əlavə 1 qrupuna daxil olmayan tam hüquqlu tərəf kimi İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası qarşısında istilik effekti yaradan qaz tullantılarının kadastrının hazırlanması, müntəzəm olaraq yeniləndirilməsi, milli məlumatlarin hazırlanması kimi öhdəliklər götürmüşdü və bu öhdəliklər sistemli şəkildə yerinə yetirilmişdir. Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əlavə olan Paris Sazişini 22 aprel 2016-cı ildə imzalamış və həmin ilin oktyabr ayında ratifikasiya etmişdir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına özünün Nəzərdə Tutulan Milli səviyyədə müəyyən edilmiş Töhfələrində qlobal iqlim dəyişmələrinin qarşısının alınması təşəbbüslərinə töhfə olaraq 1990-cı baza ili ilə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35% azalmanı hədəf kimi götürmüşdür.

İqlim ehtiyyatlarından kənd təsərrüfatı istehsalında səmərəli istifadə məsələsi ərzaq problemini həll etmək üçün qarşıya qoyulmuş mühüm vəzifələrdən biridir. Onu həyata keçirmək üçün ərazimizin xüsusiyyətlərini dərindən öyrənmək, kənd təsərrüfatının daha səmərəli və sürətli inkişafını təmin edən potensial imkanları aşkara çıxarmaq tələb olunur.

Ümumiyyətlə Azərbaycan dağlıq ölkədir. Ona görədə təbii amillərin məkan-zaman bölgüsü, iqlimin ayrı-ayrı ünsürlərinin kəmiyyət əlaqələri, aqroiqlim göstəricilərinin hündürlükdən, girintili-çıxıntılı relyef şəraitindən, yamacların ekspozisiyasından asılı olaraq paylanmasının öyrənilməsi böyük elmi və praktiki əhəmiyyət kəsb edir.

Günəş enerjisinin ən çox toplandığı bir dövrdə (aprel-oktyabr) ümumi FFR Kür-Ara ovalığında 50-54 kkal/ $sm_2$ , Naxçıvan Muxtar Respublikasının düzən hissələrində isə 59-60 kkal/$sm_2$-dir.

Yayda işıqlanma şəraiti şərq yamaclarda qərb yamaclara nisbətən yaxşı olur. Belə ki, günün ikinci yarısında qərb yamaclar daha çox radiasiya almalı olduğu halda, tez-tez baş verən konvektiv hərəkətlər nəticəsində buludluluq əmələ gəlir, işıqlanma şəraiti zəifləyir və Günəş radiasiyasının gərginliyi azalır. Xüsusi ölçmə işləri göstərmişdir ki, Kiçik Qafqazda səpələnən radiasiyanın

gündəlik cəmi buludsuz havada şərq yamaclarda qərb yamaclara nisbətən 30° bucaq altında -8, 40° bucaq altında isə, -12 kkal/$sm_2$ çox olur. Müxtəlif səmtli yamaclarda şaxtavurma hadisələrinə görə də bir-birindən fərqlənir. Bitkilər şərq yamaclarda qalan yamacalara nisbətən şaxtadan daha çox zərər çəkirlər. Yüksəkliyə doğru Günəş radiasiyasının qızdırma effekti artdığına görə bitkilər dağlarda fazalararası dövrdə düzənliyə nisbətən daha az temperatur cəmi tələb edirlər. Mədəni bitkilərin dağ rayonlarına köçürülməsi işində bu effektin nəzərə alınmasının praktiki əhəmiyyəti var.

Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına1995-ci ildə qoşulmuş və Konvensiyanın Kioto Protokolunu 2000-ci ildə təsdiq edilmişdir.

Kioto protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinin 2-ci dövrü üçün qəbul edilmiş Doha əlavəsi 14 aprel 2015-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilmiş və ölkə prezidenti tərəfindən imzalanmışdır.

Paris Sazişi 2016-cı ilin aprelində imzalanmış və 2016-cı il oktyabrın 28-də Milli Məclis tərəfindən ratifikasiya olunmuşdur. Paris Sazişinə əsasən Azərbaycan Respublikası Nəzərdə Tutulan Milli Səviyyədə Müəyyən edilmiş Töhfələrini Konvensiya Katibliyinə təqdim etmiş və qlobal iqlim dəyişmələrinə təsirlərin yumşaldılması təşəbbüslərinə özünün töhfəsi olaraq baza ili ilə(1990) müqayisədə 2030-cu ilə istilik effekti yaradan qaz emissiyalarının 35% azalma səviyyəsində saxlanılmasını hədəf kimi götürmüşdür.

İqlim Dəyişmələrinin təsirinin azaldılması tədbirləri Kioto Protokolu çərçivəsində Azərbaycan İEYQ emissiyalarının azalması ilə bağlı kəmiyyət öhdəlikləri götürməməsinə baxmayaraq son illərdə ölkədə bir sıra əhəmiyyətli tədbirlər yerinə yetirilmişdir ki, bunlara az karbonlu, enerji səmərəliliyikli, bərpa olunan enerji və tullantıların effektiv idarə edilməsi texnologiyalarının tədbiq olunması, həmçinin meşə sahələrinin genişləndirilməsi və meşə sahələrin mühafizəsi üzrə atılan addımlar daxildir.

Adaptasiya məsələləri BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyanın Birinci, İkinci, Üçüncü Milli Məlumatlarına daxil edilmişdir .

Azərbaycan artıq sosial, iqtisadi inkişafı və yoxsulluğun azaldılmasını ölkənin prioritetləri olaraq müəyyənləşdirmişdir. Ölkənin iqlim dəyişmələrinin təsirlərinin azaldılması (mitiqasiya) və

bu təsirlərə uyğunlaşma (adaptasiya) strategiyaları uzunmüddətli aşağıdakı Dövlət Proqramlarında öz əksini tapır:

Alternativ və Bərpa olunan Enerji mənbələrindən İstifadə olunması üzrə Dövlət Proqramı (2004) Azərbaycan-2020-gələcəyə baxiş inkişaf konsepsiyasi 2008-2015-ci illərdə Azərbaycan Respublikasinda Əhalinin Ərzaq Məhsullari Ilə Etibarli Təminatina Dair Dövlət Proqrami (2008-2015) Regionların Sosial-iqtisadi İnkişafına dair Dövlət Proqramı (2004, 2009,2014) 2008-2015-ci illərdə Azərbaycan respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı (2008-2015) Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair dair strateji yol xəritəsi", 2016 Davamlı İnkişaf məqsədlərinə nail olmaq üçün Respublika Prezidentinin 6 oktyabr 2016 –cı il tarixli Sərəncamı ilə Azərbaycanın Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası (NCCSD) yaradılmışdır.

Torpağın deqradasiyası həm quruluşuna, həm tərkibinə, həm də məhsuldarlığına təsir edən bir çox nəticəni əhatə edir. Birincisi, natrium, kalium, kalsium, maqnezium kimi ionların və qida maddələrinin itirilməsidir. Torpağın münbitliyi üzvi maddələrin miqdarının azalması ilə azalır. Torpaqda yaşayan orqanizmlərin sayını da azaldırlar. Torpaq quruluşunun itirilməsi və hissəciklərin çılpaq torpaqdakı su damlaları ilə dağılması torpağın səthi möhürlənməsinə səbəb olur ki, bu da suyun və bitkilərin köklərinin girməsini çətinləşdirir. Torpağın gözenekliliği, infiltrasiya qabiliyyəti və su və nəm tutma qabiliyyəti azalır və öz növbəsində torpaqda həyat yaradan bitkilərə təsir göstərir. Bundan əlavə, axıntı dəyərləri artır və beləliklə də eroziya potensialı artır. Səthdə yerləşən incə materialların itirilməsi bitkinin kök sistemini dəstəkləməyi çətinləşdirir və buna görə də onun substrata yapışmasını təmin edir.

Torpaqlarımızın sağlamlaşdırılması, mühafizəsi, ondan səmərəli istifadə olunması məqsədilə münbitliyinin bərpası və artırılması, habelə ekoloji cəhətdən təmiz və keyfiyyətli, bol məhsul istehsal edilməsi hamımızın müqəddəs və təxirəsalınmaz işidir.

**İstifadə edilmiş ədəbiyyatlar:**


1. M.Avazova. Respublika torpaqlarının müasir ekoloji vəziyyəti. "Təbii sərvətlərin qiymətləndirilməsi və təbiətdən istifadə" mövzusunda elmi-praktik konfransın tezisləri. Bakı,2003, 340- 342 səh.
2. Azərbaycanda səhralaşma problemləri. Akademik B.Ə. Budaqovun anadan olmasına 75 illiyinə həsr olunmuş konfransın materialı. Bakı,2003, 300 səh.
3. Azərbaycanda ekoloji kənd təsərrüfatının bugünkü vəziyyəti və perspektivləri. (H.Əliyevin 85 illiyinə həsr olunmuş Ümumrespublika Konfrasında məruzə). Gəncə, 2008. 12 səh.
4. Q. Məmmədov, M. Xəlilov. Ekologiya, Ətraf Mühit və İnsan. Bakı, 2006. 607 səh.
5. Q.Ş. Məmmədov, M.P. Babayev, A.İ. İsmayılov. Azərbaycan torpaq təsnifatının WRB sistemi ilə korrelyasiyası. Bakı, "Elm", 2002, 252 səh.
6. X.M. Mustafayev. Torpaq eroziyası və ona qarşı mübarizə tədbirləri. Bakı, 1974. 128 səh.
7. www.Google.com

## İŞGALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ EKOLOJİ PROBLEMLƏR

*Tələbə: Şıxalıyeva Ləman Seymur qızı (qrup TCM1901B)*
*Elmi rəhbər: k.t.ü.f.d., b/m F.T.Cəfərov*
*shixaliyevaleman09@gmail.com*

Qlobal iqlim dəyişikliyi, torpaqların səhralaşması proseslərini və təmiz içməli su çatışmazlığını nəzərə alsaq, bu gün ekologiya bütün dünya ictimaiyyətini narahat edən əsas məsələlərdən biridir. Bu məsələlər BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) sırasında öz əksini tapmışdır. Daha dəqiq desək, Məqsəd 6 su ehtiyatlarından səmərəli istifadənin və su təchizatı, sanitariya və gigiyenaya çıxışın zəruriliyindən, Məqsəd 13 iqlim dəyişikliyinə qarşı mübarizədən, Məqsəd 15 isə quru ekosistemlərinin qorunması və bərpa edilməsinin, meşələrdən səmərəli istifadənin, səhralaşmaya qarşı mübarizənin, habelə torpaqların deqradasiyasının dayandırılmasının zəruriliyindən bəhs edir.

Ermənistanın təxminən 30 il davam etmiş və regionun ekoloji vəziyyətinə ciddi ziyan vurmuş işğalçılıq siyasəti nəticəsində, BMT-nin bu Məqsədlərinin 2030-cu ilədək qarşıya qoyduğu hədəflər Cənubi Qafqaz regionunda böyük sual altındadır. İşğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni fəaliyyət və təbii ehtiyatların istismarı iqtisadi kontekstlə yanaşı, həm də bir sıra ekoloji problemlərə gətirib çıxarmışdır. 30 il ərzində Azərbaycanın işğal altında olan rayon, şəhər və kəndlərinin ərazisində Ermənistanın vəhşicəsinə həyata keçirdiyi ekoloji genosid aksiyaları ekoloji vandalizmin ən səciyyəvi nümunəsi olub, beynəlxalq, planetar və bəşəri miqyaslı vandalizmdir.

Ümumiyyətlə, Qarbağ zonası özünün flora və fauna müxtəlifliyinə görə həmişə zəngin olmuşdur. Vaxtilə həmin ərazilərdə səhra, yarımsəhra, quru bozqır, bozqır, eləcə də dağ kserofit bitkilik tipi üstünlük təşkil edirdi. Ərazinin orta dağ qurşağında, dəniz səviyyəsindən 300-350 m yüksəklikdə yarımsəhra bitki növləri, 1800 m yüksəkliklərdə enliyarpaqlı meşələr, kolluqlar, çox yüksəkliklərdə isə tundra növləri geniş yayılmışdır

Zəngin bitki örtüyünə malik olan ərazidə 2000-dən çox bitki növünə rast gəlinir. Düzən yerlərdə yovşan, yovşanlı-şoranotlu yarımsəhra, dağ ətəklərində daşdayan, şibyə, yovşanlı-darağotlu bozqır və yarımbozqır bitkiləri, dağ yamaclarında kolluqlar, enliyarpaqlı meşələr (fıstıq, palıd və s.) geniş yer tutur. Dəniz səviyyəsindən 2000-2300 m-dən yüksəklikdə subalp və alp çəmənlikləri mövcuddur. Landşaft müxtəlifliyi baxımından əlverişli olan bu ərazilərdə 460 növdən çox yabanı ağac və kol bitkiləri bitir, onlardan 70-i endemik növ olub, dünyanın heç bir yerində təbii halda bitmir

Qarabağ, həmçinin Azərbaycan Respublikasının “Qırmızı Kitabı”na daxil edilən safsar, çay samuru, qonur ayı, zolaqlı kaftar, qamışlıq pişiyi, çöl pişiyi, vaşaq, Qafqaz bəbiri, nəcib maral, cüyür, Bezoar keçisi kimi nəsli tükənmək təhlükəsində olan orta və iri ölçülü nadir məməlilər də az deyil.

Son illərdə Ermənistanda mebel sənayesinin istehsalında və ixracında xeyli artım müşahidə olmuşdur. Şübhəsiz ki, bu, Azərbaycanın işğal olunmuş ərazilərində minillik yaşı olan qiymətli ağac növlərinin amansız kəsilməsi yolu ilə əldə edilmişdir. Məlumat olaraq bildiririk ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində 43 min hektar sahəsi olan (Bəsitçay Dövlət Təbiət

Qoruğu - 107 ha, Qaragöl Dövlət Təbiət Qoruğu - 240 ha, Qubadlı Dövlət Təbiət Yasaqlığı- 20000 ha, Daşaltı Dövlət Təbiət Yasaqlığı - 450 ha, Arazboyu Dövlət Təbiət Yasaqlığı - 2200 ha və Laçın Dövlət Təbiət Yasaqlığı - 20000 ha) xüsusi mühafizə olunan təbiət ərazilərində "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş 24 fauna və 70-dən çox flora növü qorunurdu ki, bunların da əksəriyyəti artıq məhv edilmişdir.

Qaragöl Dövlət Qoruğu Azərbaycan Respublikasının Nazirlər sovetinin 17 noyabr 1987-ci il tarixli qərarı ilə Qaragöl (Sevinc) respublikalararası dövlət qoruğu yaradılmışdır. Qaragöl dövlət qoruğu Laçın rayonu ilə Gorus rayonu sərhədində dəniz səviyyəsindən 2658 metr hündürlükdə yerləşir. Qoruğun ümumi sahəsi 240 ha-dır. Qoruqda 102 bitki növü və yarım növü vardır ki, bunlar 68 növ və 27 ailədən ibarətdir. Gölə heç bir yerdən su axımının olmamasına və suyun çox təmiz və şəfalı olmasına görə xalq bu gölə müqəddəs ibadət yeri kimi baxırdı. Hazırda nəzərdən kənar qalmış gölün suyundan intensiv istifadə göl üçün qarşıalınmaz neqativ təsirlərə gətirib çıxara bilər.

Bəsitçay Dövlət Qoruğu Azərbaycan hökumətinin 4 iyul 1974-cü il tarixli qərarı ilə Zəngilan rayonunda yaradılmışdır. Qoruq Azərbaycanın cənub-qərbində, Bəsitçayın dərəsində yerləşir. Qoruq ərazinin landşaft kompleksini, xüsusi ilə nadir təbii çinar meşəliyini qorumaq məqsədilə təşkil edilmişdir. Onun sahəsi hazırda 107 ha təşkil edir.Qoruq Ermənistanın meşə fondu ərazisi ilə əhatələnir. Ərazinin 79,4%-ni meşə ilə örtülü sahə 14%-ni seyrək meşəlik təşkil meşəlikdir. Meşəsiz sahələr isə 6. 5%-dir. Bəsitçay dövlət qoruğunun sahəsinin 100 hektarını çinar meşələri tutur. Xalqımız-çinar ağaclarını daim yüksək qiymətləndirmiş, onu bitki aləminin fəxri "şah" ağacı hesab etmişdir.

Qarabağ bölgəsi təkcə füsunkar təbiətə, münbit torpağa, qədim abidələrə deyil, həm də zəngin su ehtiyatlarına malikdir. Burada su ehtiyatları çox zəngindir, belə ki, yerli su ehtiyatlarımızın 25%-i Qarabağ bölgəsindədir. Qarabağın yerüstü su ehtiyatları dedikdə, əsasən Xaçınçay, Quruçay, Tərtərçay və Həkəri çaylarının illik axın həcmləri və onların hövzələrində tikilmiş su anbarlarında toplanmış su nəzərdə tutulur. Bu çayların suları Azərbaycanda demək olar ki, ən keyfiyyətli sular hesab olunur.

Yeraltı su ehtiyatları dağətəyi ərazilərdə bulaq şəklində səthə çıxaraq çayları qidalandırır. Qarabağ bölgəsində, həmçinin Yuxarı İstisu, Aşağıistisu, Qoturlu, Çərəktar, İlıqsu, Turşsu və digər bu kimi müalicəvi əhəmiyyətli mineral bulaqlar da mövcuddur. Kəlbəcər rayonu ərazisində Qamışlıgöl, Zəlxagöl, Zəligöl və Qapıgöl adlı kiçik həcmli təbii göllər mövcuddur. Qarabağda 24 su anbarı vardır və bunlardan 3 su anbarı qəzalı vəziyyətdədir.

İşğaldan azad olunmuş ərazilərdə əhəmiyyətli su anbarlarından biri 1976-cı ildə Tərtər çayı üzərində inşa edilən, ümumi sututmu 560 milyon kubmetr, bəndinin hündürlüyü isə 125 metr olan Sərsəng su anbarıdır. Su anbarının fəaliyyəti nəticəsində Tərtər, Ağdam, Goranboy, Yevlax və Ağcabədi rayonlarının 100 min hektara yaxın torpaq sahələrinin suvarma suyu ilə təminatı mümkün olacaqdır. Sərsəng su anbarı ilə yanaşı, ümumi sututumu 80 milyon kubmetr olan digər kiçik su anbarları ümumi su ehtiyatlarının tərkibinə qatılarsa, kənd təsərrüfatı sahəsində əhəmiyyətli irəliləyişə nail olmaq mümkündür.

Torpaqlarımızın işğaldan azad olunması, bu regionda yerləşən Sərsəng və Xudafərin su elektrik stansiyalarının (SES) potensialı ətraf rayonların elektrik enerjisinə olan tələbatnın

yaxşılaşdırılmasına, digər enerji mənbələrinin üzərinə düşən yüklərin azalmasına və bərpa olunan enerji mənbələrinin ümumi istehsalatda

Su ehtiyatlarından düzgün istifadə prosesinin uğurla həyata keçirilməsi və səmərəli innovasiya siyasəti kənd təsərrüfatının inkişafına, neft sektorundan asılılığın azalmasına, o cümlədən, qeyrineft sektorunun inkişafına, yeyinti sənayesində yeni güclərin yaranmasına və etibarlı təchizat bazasının formalaşmasına xidmət göstərəcəkdir.

Məlumdur ki, respublikamızın su balansının təqribən 80%-i transsərhəd çaylar hesabına formalaşır. Ərazimizə daxil olan transsərhəd çaylar əsasən Ermənistan və Gürcüstandan daxil olur. Ermənistan ərazisində kəskin çirklənməyə məruz qalan çaylardan biri də Oxçuçaydır.

Oxçuçay Arazın sol qoludur. Ermənistan Qafan rayonu və Azərbaycanın Zəngilan rayonu ərazisindən keçir. Uzunluğu 85 km, hövzəsinin sahəsi 1140 $km^2$-dir.

Başlanğıcını Zəngəzur silsiləsinin Qapıcıq dağından (3285 m) götürür.

Qafan və Qacaran dağ – mədən sənayesinin tullantıları ilə hədsiz dərəcədə çirkləndirilən Oxçuçay əslində sənaye tullantılarını Ermənistanın bu bölgəsindən uzaqlaşdıran kollektor rolunu oynayır. Çayın suyu o qədər zəhərlənmişdir ki, burada heç bir canlı yaşamır. Onun suyundan suvarmada istifadə edildiyi Zəngilan rayonu ərazisində torpaqlar da zəhərlənmişdir və yetişdirilən məhsul əhalinin sağlamlığı üçün təhlükəlidir. Oxçuçayın zəhərli suları gələcəkdə Xudafərin su anbarına tökülməlidir.

Belə ki, suda aerob bakteriyaların miqdarının az və anaerob bakteriyaların miqdarının çox olması oksigen qıtlığının göstəricisidir. Ancaq oksigenin miqdarının az olduğu su hövzələrində saprotrof bakteriyaların miqdarı yüksək olmalıdır. Oxçuçayda isə əksinə, saprotrof bakteriyaların miqdarı azdır. Belə ki, suda olan ağır metalların yüksək qatılığı bütün canlılar kimi bakteriyaların inkişafına da mənfi təsir göstərir

Qarabağ bölgəsinin zəngin Flora və faunaya sahib olması, relyefinin əsasən dağlıq olması, füsunkar təbiəti, yaşı minilliklərlə ölçülən abidələrinin olması, zəngin mədəniyyətə sahib olması bu bölgədə ekoturizmin inkişaf etdirilməsini labüd edir. Ölkənin Strateji Yol Xəritəsində ekoturizmə önəm verilməsi Qarabağ bölgəsinin də ekoturizm çərçivəsində dəyərləndirilməsini qaçılmaz edir.

Qarabağ bölgəsini turizm destinasiyası olaraq dəyərləndirsək, bir çox alternativ turizm növlərində yüksək potensiala sahibdir.

**İstifadə olunmuş ədəbiyyatlar:**

1. U. Həşimova, K. Baxşəliyeva. Qarabağın faunası, herontoloji tədqiqatlar, ekoturizm, arxeobiologiya. 158 səh.
2. Ə. Məmmədov, M. Abbasov. Qarabağın genetik ehtiyatları və ərzaq təhlükəsizliyi.
3. D. Ağayeva, Z. Məmmədov. Qarabağın torpaq və su ehtiyatları, yaşıl iqtisadiyyat.
4. E. İsgəndər, S.Bağırova. Qarabağın təbii florası, bitkiliyi, meşə və otlaq ekosistemlər.
5. Qarabağ, suallar, faktlar. Qismət nəşriyyatı. Bakı
6. N.R. Məmmədov. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai siyasi həyat, iqtisadi və mədəni inkişafı, Təhsil nəşriyyatı, Bakı, 2008, 285 səh.
7. İşğal olunmuş ərazilərimizin bitki genefondu təhlükədədir. Science.gov.az. 28.09.2020. 2021-01-22 tarixində orijinalından arxivləşdirilib. İstifadə tarixi: 2021-01-22.

8. Qarabağınn təbiəti (az.). Virtualkarabakh.az. 2021-01-22 tarixində orijinalından arxivləşdirilib. İstifadə tarixi: 2021-01-17.
9.“Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində biomüxtəlifliyi məhv edir”.www.science.gov.az. İstifadə tarixi: 28.07.2020.
10. https://www.azerbaijan news.az/index.php/az/posts/detail/qarabagin-zengin-turizm-potensiali-var-1644093605.

## XX ƏSRİN 20-Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAF TARİXİ

*Tələbə: Fərəcova Səidə Tahir qızı (qrup TC-501).*
*Elmi rəhbər: b/m. A.B.Əliyev*
*seyideferecova32@gmail.com*

Sovet hakimiyyəti Azərbaycanda mədəni dəyişikliklərə “kommunist ideologiyasını” rəhbər tutaraq, əslində mərkəzdən inqilabi metodlarla başladı. 1920-ci ilin mayında Azərbaycan Inqilab Komitəsinin vicdan azadlığı haqqında dekretinə görə, Xalq Maarif Komissarlığının tabeliyində olan bütün dövlət məktəblərində dini təlimlərin öyrənilməsi və hər hansı dini mərasim keçirilməsi qadağan olundu. 1920-ci ildən Azərbaycanın müxtəlif məntəqələrində müəllimlər hazırlamaq üçün üç aylıq kursların təşkil edilməsinə başlandı. 1920-ci il avqustun 5-də Azərbaycan Inqilab Komitəsi respublika xalq təsərrüfatının bərpası üçün ixtisaslı işçi kadrları hazırlamaq məqsədilə texniki-peşə təhsili Komitəsi təsis etdi. Respublikada gənclər texniki-peşə təhsilini dörd tip tədris müəssisələrində — fabrik-zavod şagirdliyi məktəbləri, peşə məktəbləri, peşə kursları və texnikumlarda alırdılar. 1923-cü ildə Bakıda birinci kino-fabrik filmlərin çəkilişinə başlandı. Azərbaycanın birinci sovet bədii filmi —Qız qalası ekrana çıxdı.

Cəmiyyət həyatının demokratikləşdirilməsi, xalqın mədəni səviyyəsinin yüksəldilməsi sahəsində onun fəaliyyəti aydın ifadə olunan partiyalı xarakter daşıyırdı. Heç bir mühüm mədəni məsələ “partiya rəhbərliyi” olmadan həll edilmirdi. Partiyanın əsas vəzifəsi mədəniyyəti öz “ideologiyası” ruhunda xalqın sərvətinə çevirmək, zəhmətkeş kütlələri bu yöndə mədəni-tarixi quruculuğa cəlb etmək idi. Ancaq əslində “böyük məqsəd” bir partiyanın diktaturasını yaratmaqdan, kütlələr içərisində proletariat diktaturası “mübarizləri” formalaşdırmaqdan ibarət idi. 1920-ci ilin mayında Azərbaycan Inqilab Komitəsinin vicdan azadlığı haqqında dekretinə görə, Xalq Maarif Komissarlığının tabeliyində olan bütün dövlət məktəblərində dini təlimlərin öyrənilməsi və hər hansı dini mərasim keçirilməsi qadağan olundu. Din nazirliyi ləğv edildi.

Azərbaycan sənayesinin bərpası və inkişafı ixtisaslı işçi qüvvəsinin hazırlanmasını tələb edirdi. Sovet hakimiyyətinin qurulması ərəfəsində Bakıda yalnız 2 texniki-peşə və dənizçilik məktəbi, Gəncə və Zaqatalada isə sənət məktəbləri var idi. Burada dərslər yalnız rus dilində aparılırdı, praktiki olaraq bu məktəblər yerli əhalidən ayrı düşmüşdü. Neft işinə xidmət edən, texniki sahədə çalışan ixtisaslı azərbaycanlı fəhlələrin sayı həddindən artıq az idi. Bu cəhətdən kənd

təsərrüfatında, habelə iqtisadiyyatın digər sahələrində vəziyyət daha ağır idi.1920-ci il avqustun 5-də Azərbaycan Inqilab Komitəsi respublika xalq təsərrüfatının bərpası üçün ixtisaslı işçi kadrları hazırlamaq məqsədilə texniki-peşə təhsili Komitəsi təsis etdi. Respublikada gənclər texniki-peşə təhsilini dörd tip tədris müəssisələrində - fabrik-zavod şagirdliyi məktəbləri, peşə məktəbləri, peşə kursları və texnikumlarda alırdılar. Onlar müvafiq olaraq texniki-peşə təhsilinin aşağı, orta və ali pillələrini təşkil edirdi.

Azərbaycanda yeni cəmiyyət qurulmasında ən mühüm vəzifələrdən biri sovet mütəxəssisləri, ələlxüsus fəhlə və kəndlilərdən ziyalı kadrlar hazırlamaq idi. Lakin bu sahədə Azərbaycanın konkret spesifık şəraitini nəzərə almadan, RSFSR-in ali məktəb təcrübəsindən istifadə edildi, orada isə təhsil xüsusi dekretlə təlimin “proletariatlaşdırılmasına” istiqamətləndirilmişdi. Həmin dekretdə göstərilirdi: “Birinci yerdə sözsüz, proletariat və yoxsul kəndlilər mühitindən şəxslər qəbul edilməlidir, onlara geniş həcmdə təqaüdlər veriləcəkdir”. Fəhlə və kəndli hakimiyyəti yeni sosialist cəmiyyətinin öz qurucu kadrlarını hazırlamalı idi. Ali təhsil probleminin bu qaydada həlli onun əsil humanist, sərbəstlik tələb edən zəminini məhdudlaşdırırdı. Azərbaycanda ali məktəb quruculuğu işinə ana dilində dərs deməyi bacaran kifayət qədər yüksək ixtisaslı mütəxəssis kadrların olmaması, bina və zəruri avadanlıqların çatışmaması, təsərrüfat dağınıqlığı ilə əlaqədar maddi çətinliklər şəraitində başlandı. Azərbaycan ali məktəb quruculuğu işinə ana dilində dərs deməyi bacaran kifayət qədər yüksək ixtisaslı mütəxəssis kadrların olmaması, bina və zəruri avadanlıqların çatışmaması, təsərrüfat dağınıqlığı ilə əlaqədar maddi çətinliklər şəraitində başlandı. Azərbaycanda yalnız 1919-cu ilin sentyabrında açılmış yeganə ali təhsil müəssisəsi olan Bakı Universiteti fəaliyyət göstərirdi. Sovet hökuməti respublikada ali təhsilin inkişafında Bakı Universitetinin rolunu artırmaq üçün ciddi səy göstərirdi. Bakı şəhər Soveti, Xalq Təsərrüfatı şurası, Azərbaycan Həmkarlar Ittifaqları şurası, Azərneft və digər sovet-təsərrüfat idarələri Universitetin maddi bazasının möhkəmlənməsinə yardım göstərməyə səfərbər edilmişdi. Fəaliyyətə başladığı vaxt Universitetin tərkibində yaranmı iki fakültə (tibb və tarix-filologiya) var idi. 1921 -1922-ci ildə isə tarix-filologiya fakültəsi ictimai elmlər fakültəsinə çevrildi, ictimai elmlər və fizika-riyaziyyat fakültələri əsasında pedaqoji fakültə yaradıldı.

Respublikada müəllim kadrların hazırlanması mərkəzi olan Azərbaycan Pedaqoji Institutu N. Nərimanovun böyük səyi sayəsində 1921-ci ilin payızında Bakıda fəaliyyətə başladı. Institutun tərkibində fizika-riyaziyyat, təbiət-kimya və ədəbiyyat şöbələri var idi. Burada tədris Azərbaycan dilində aparılırdı. R.B.Rzabəyli, M.O.Əfəndiyev, K.D.Cəfərov, M.Q.Əliyev, T.A.Şahbazi, A.Məmmədov, B.T.Talıblı, Ə.Haqverdiyev, V.Xuluflu və b. Institutun ilk fədakar təşkilatçıları, müəllimləri idilər. Azərbaycan Dövlət Universiteti (ADU) də əsaslı yenidənqurmaya məruz qaldı. ADU-nun tərkibindən bir neçə müstəqil institut ayrıldı. Tibb fakültəsi Azərbaycan Tibb İnstitutuna (indiki Azərbaycan Dövlət Tibb Universiteti), pedaqoji fakültə isə Azərbaycan Pedaqoji İnstitutuna (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) çevrildi, hüquq fakültəsi əsasında Sovet Quruculuğu və Hüquq İnstitutu, iqtisad fakültəsi bazasında isə Kooperativ-Ticarət İnstitutu təşkil olundu.

192I-ci ilin yanvarında Xalq Maarif Komissarlığı nəzdində teatr, musiqi, təsviri sənət və foto-kino yarımşöbələri olan xüsusi incəsənət şöbəsi və incəsənətlə bağlı bütün işlərə rəsmi rəhbərlik

etmək üçün incəsənət şurası təsis edildi. N.Nərimanov respublikada keçirilən ilk mədəni tədbirlərin təşəbbüskarı və rəhbəri idi. Bədii, musiqi və teatr idarələrinin formalaşması və inkişafında Ü.Hacıbəyov, M.Maqomayev, Ə.Əzimzadə, Ə.Haqverdiyev kimi böyük sənətkarlar fəal iştirak edirdilər. Azərbaycan Inqilab Komitəsinin 1920-ci il 18 may tarixli dekreti əsasında bütün xüsusi incəsənət idarə və təşkilatları milliləşdirildi. Mayilov teatrının bazasında Dövlət teatrı yaradıldı, o vaxt bütün dram və opera kollektivləri orada cəmləşmişdi. 1918-ci il qanlı mart hadisələri zamanı erməni daşnakları tərəfindən yandırılmış H.Z.Tağıyev teatrı binasının bərpasına başlandı.1920-ci ilin iyulunda Bakıda Azərbaycan Dövlət Dram Teatrının özəyi olan ilk teatr truppası formalaşdı. Bu teatrın inkişafında Xalq Maarif Komissarlığ nəzdindəki incəsənət Şöbəsində teatr yarımşöbəsinin rəhbəri, görkəmli dramaturq və ictimai xadim Ə.Haqverdiyevin böyük rolu var idi. Respublikanın teatr həyatında ―Tənqid-təbliğ teatrının açılışı da mühüm hadisə oldu. Həmin ilin dekabrında bu teatrın rus truppası yaradıldı.

1926-cı ildə Azərbaycan səhnəsində U. Şekspirin “Hamlet” faciəsi ilk dəfə tamaşaya qoyuldu. Baş rolda görkəmli “Azərbaycan Hamleti” A.M.Şərifzadə çıxış edirdi. 1923-cü ildə Bakıda X.Məmmədova və A.M. Şərifzadənin fəal iştirakı ilə təkcə Azərbaycan üçün deyil, habelə Orta Asiya respublikaları üçün də kadrlar hazırlayan, müsəlman şərqində birinci teatr texnikumu açıldı. Yeni sovet teatrının mürəkkəb və ciddi məsələlərindən biri “sosialist quruculuğu” vəzifələrinə cavab verən repertuar idi. Mətbuat səhifələrində və müzakirələrdə bəzən klassik irsi, onun milli özünəməxsusluğunu inkar edən nihilist fikirlər irəli sürülürdü. Bu zərərli meyillər N.Nərimanov və digər görkəmli ictimai xadimlər tərəfindən pislənirdi. Bu illərin teatr repertuarlarında təsadüfi, bədiilikdən uzaq, sənətə yabançı mövzular da özünə yer tapırdı.

1926-cı ildə Azərbaycan səhnəsində U. Şekspirin “Hamlet” faciəsi ilk dəfə tamaşaya qoyuldu. Baş rolda görkəmli “Azərbaycan Hamleti” A.M.Şərifzadə çıxış edirdi. 1923-cü ildə Bakıda X.Məmmədova və A.M.Şərifzadənin fəal iştirakı ilə təkcə Azərbaycan üçün deyil, habelə Orta Asiya respublikaları üçün də kadrlar hazırlayan, müsəlman şərqində birinci teatr texnikumu açıldı. Yeni sovet teatrının mürəkkəb və ciddi məsələlərindən biri sosialist quruculuğu” vəzifələrinə cavab verən repertuar idi. Mətbuat səhifələrində və müzakirələrdə bəzən klassik irsi, onun milli özünəməxsusluğunu inkar edən nihilist fikirlər irəli sürülürdü. Bu zərərli meyillər N.Nərimanov və digər görkəmli ictimai xadimlər tərəfindən pislənirdi. Bu illərin teatr repertuarlarında təsadüfi, bədiilikdən uzaq, sənətə yabançı mövzular da özünə yer tapırdı.

Sovet hökuməti xalq kütlələrinin tərbiyəsində mühüm vasitə olan kino incəsənətinin inkiŞafına mühüm əhəmiyyət verirdi. Azərbaycan Inqilab Komitəsinin 1920-ci il 18 may dekreti ilə bütün kinoteatr və muzeylər “milliləşdirildi”. Həmin ilin iyununda isə bütün kinematoqrafıya vasitələrinin müsadirəsi elan edildi. Xalq Maarif Komissarlığı nəzdində təsis edilmiş foto-kino yarımşöbəsi 1921-ci ilin martında Azərbaycan foto-kino idarəsinə çevrildi. 1923-cü ildə Bakıda birinci kino-fabrik fılmlərin çəkilişinə başladı Azərbaycanın birinci sovet bədii filmi ―Qız qalası ekrana çıxdı. Milli kinonun görkəmli xadimlərindən biri Şamil Mahmudbəyov 1925-ci ildən AFKI-yə başçılıq edərək, milli kadrlar hazırlamaq üçün istehsalat bazası və studiya yaratdı.

İncəsənətin bütün digər növləri kimi, memarlıq da sovet cəmiyyətinin maddi və estetik tələbatını ödəməyə istiqamətləndirilirdi. Sovet hakimiyyəti fəhlə qəsəbələri salmaq yolu ilə

zəhmətkeşlər, birinci növbədə neftçi fəhlələr üçün yaşayış evlərinin geniş tikintisinə başladı. Yaşayış evləri ilə yanaşı, mədəni-məişət müəssisələri üçün binalar da tikilirdi. Abşeronda ilk fəhlə qəsəbələri salınması Azərbaycan memarlığının öz dövrü üçün böyük nailiyyəti idi. Bu işlər sovet memarı A.P.İvanitskinin ümumi rəhbərliyi altında həyata keçirilirdi. 1924-cü ildə ona Bakı şəhərinin gələcək baş inkişaf planının tərtibi işinə başlamaq həvalə olunmuşdu. Ittifaqda ilk işlərdən biri olan, Böyük Bakının inkişafını müəyyən edən bu baş planın hazırlanması 1927-ci ildə başa çatdırıldı.

**İstifadə olunmuş ədəbiyyatlar:**


1. Azərbaycan tarixi. 7 cilddə.VI c. Bakı, 2008.
2. XX əsr Azərbaycan tarixi. II c. Ali məktəblər üçün. dərslik. Bakı, 2009.
3. T. Qaffarov. Azərbaycan tarixi. (1920 -1991). Bakı, 1999.
4. T. Qaffarov. Azərbaycanın ən yeni tarixi. Bakı , 2006.
5. M. Zülfüqarlı. Azərbaycan tarixi. II Respublika dövrünün tarixşünaslığı. Bakı, 2001.


## MƏRKƏZİ ASİYANIN TÜRK XALQLARI XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ


*Tələbə: Qasımov Qaməddin Niyaməddin oğlu (qrup TCM1901B)*
*Elmi rəhbər: b/m. A.T.Kərimli*
*qameddinqasimov@gmail.com*


Mərkəzi Asiyada ərazisinə görə ən böyük dövlət Qazaxıstandır. Qazaxıstan sahəsinin böyüklüyünə görə dünyada doqquzuncu yerdə, dənizə çıxışı olmayan ölkələr arasında isə ilk pillədədir. Ümumi sahəsi 2724900 km² olan Qazaxıstan şimalda Rusiya, şərqdə Çin, cənubda Türkmənistan, Özbəkistan və Qırğızıstanla həmsərhəddir. Ölkənin qərbində isə Xəzər dənizi yerləşir və bu dəniz vasitəsilə Rusiya, Azərbaycan, İran və Türkmənistanla su sərhədinə malikdir.

Qazaxıstanın paytaxtı 1997-ci ildən bəri Nur-Sultan şəhəridir. Həmin vaxta qədər ölkənin paytaxtı ən böyük şəhər olan Almatı şəhəri olmuşdur. Qazaxıstan iqtisadi cəhətdən Mərkəzi Asiya regionunda dominant dövlət hesab olunur. Belə ki, regionun ÜDM-nin 60 faizi Qazaxıstana məxsusdur. Ölkənin əsas gəlir mənbəyini neft-qaz sənayesi təşkil edir. Ölkə həmçinin böyük mineral resurslara sahibdir.

Qazaxıstan ərazisi tarix boyunca köçəri türk xalqlarına ev sahibliyi etmişdir. 13-cü əsrdə bu ərazi Çingiz xanın rəhbərlik etdiyi Monqol İmperiyası tərəfindən işğal olunmuşdur. 16-cı əsrdən etibarən qazaxlar ayrıca qrup kimi ortaya çıxdıqdan sonra onların yaşadığı ərazilər üç cüzə bölündü. 18-ci əsrdə ruslar Qazaxıstan ərazisində məskunlaşmağa başladı və 19-cu əsrin ortalarından etibarən bu ərazi Rusiya imperiyası tərəfindən idarə olunmağa başlandı. Rusiyada 1917-ci ildə baş tutmuş inqilab və onun ardınca baş vermiş Rusiya vətəndaş müharibəsi nəticəsində imperiyaya tabe olan digər bütün dövlətlər müstəqillik əldə etdi. Lakin bu müstəqillik uzun çəkmədi. 1920-ci ildə ölkə ərazisi yenə rusların işğalına məruz qaldı və Sovet hakimiyyəti bərqərar oldu. 1936-cı ildə Sovet İttifaqının tərkib hissəsi olan Qazaxıstan SSR-in əsası qoyuldu.

Qazaxıstanda maye qazın bahalaşması ilə bağlı 2022-ci ilin ilk günlərində ölkənin Janaozen, Aktau və Manqistau vilayətlərində böyük aksiyalar başlamış və kəskin xaraktel almışdır. Bu etiraz aksiyaları ətrafında müxtəlif fikirlər formalaşıb. Bir tərəf iddia edir ki, Qazaxıstanda baş vermiş aksiyalarda ssenari müəllifi İngiltərədir. Digər tərəf isə Rusiyanın Belarusdakı “təcrübəsinə” əsaslanaraq bu məsələdə əlinin olduğunu düşünür. Lakin fakt ondan ibarətdir ki, hazırda narazı bir kütlə var,və həmin insanları narahat edən məsələlər var. Həmin məsələlər nələrdir.

Etirazçılar Nursultan Nazarbayevin adına şəhər salınmasından, uzun illərdir hakimiyyətdə olmasından, hətta prezidentlik kürsüsündən durandan sonra olduqca strateji post olan Təhlükəsizlik Şurasının ömürlük sədri seçilməsindən narazıdır. Bütün bunlar təbiidir. Əhalinin içində olan aqressiyanın kəskinləşməsi də qazın və digər sahələrdəki qiymət artımı katalizator rolunu oynadı. Nəticə etibarilə iğtişaş başladı. Etirazçılar dövlət binalarını ələ keçirdi, həmin şəxsləri əsir götürdü, Nazarbayevin abidəsi endirildi. Bundan əlavə ölkədən kütləvi qaçışlar başladı. Oliqarxlar ölkəni tərk edirlər. Hətta Elbaşı Nursultan Nazarbayev müalicə məqsədilə ölkəni tərk edəcəyi deyilirdi. Bu məqamda Comərt Tokayev xalqa müraciət etdi. O bildirdi ki, mən heç bir yerə getmirəm və mübarizə aparacam.

Türkmənistan Mərkəzi Asiyanın cənub-qərb hissəsində yerləşir. Şimal-qərbdə Qazaxıstan, şimal və şərqdə Özbəkistan, cənub-şərqdə Əfqanıstan, cənub və cənub-qərbdə İranla həmsərhəddir. Ölkənin qərbində isə Xəzər dənizi yerləşir və bu dəniz vasitəsilə Azərbaycan, Rusiya, Qazaxıstan və İranla sərhədə malikdir. Paytaxtı və ən böyük şəhəri Aşqabad şəhəri, ümumi sahəsi 491210 kvadrat kilometrdir. Cərco, Marı, Nebitdağ, Daşoğuz, Türkmənbaşı ölkənin iri şəhərlərindəndir.

Türkmənistan 27 oktyabr 1991-ci ildə SSRİ-dən müstəqilliyini əldə etmişdir. Türkmənistan həm də Asiyanın ən az məskunlaşan ərazilərindən biridir.

X əsrdə Türkmənistanın ərazisinə oğuzlar(indiki türkmənlərin əcdadları) köçüb gəlirlər. Oğuzlar XIII əsrdə Böyük Səlcuq imperiyasını yaradırlar. XVI əsrdə Türkmənistan ərazisi Xivə və Buxara xanlıqlarının tabeçiliyinə düşür. 1869-cı ildə Çar Rusiyası tərəfindən işğal olunur. 1921-ci ildə Türküstanın tərkibinə daxil olur. 1924-cü ildə isə SSRİ tərəfindən Türkmənistan MSSR-i yaradılır və SSRİ-nin tərkibinə daxil olur. 1991-ci ildə müstəqil Türkmənistan Respublikası elan olunur.

Ölkənin geosiyasi mövqeyi Avropa ölkələri ilə Çin və Hindistana gedən quru yollarının üzərində yerləşməsi baxımından əlverişlidir.

Relyefinə görə ovalıq və dağlıq hissələrdən ibarətdir. Cənubda yerləşən cavan Kopetdağ silsiləsi seysmik cəhətdən fəaldır. Ölkə ərazisinin 80%-dən çoxu Turan ovalığında okean səviyyəsindən 100-200 metr hündürlükdədir. Xəzər dənizidə bir sıra adalara malikdir. Oğurçalı adası ilə Çələkən yarımadası arasında Çələkən Oğurçalı boğazı yerləşir. Zəngin təbii qaz və neft ehtiyatına görə ölkə dünyanın ən qabaqcıl dövlətlərindən biridir. Ölkə ərazisində 144 neft və qaz yatağı aşkar edilmişdir. Onlardan yalnız 40 yataq istismar olunur. (Xəzərətrafı, Buxara-Xivə, Mraı, Lebap və s.). Yeraltı sərvətlərdən kükürd, kalium və daşduz, bentonit gili, mirabilit, alunit vardır.

Ölkənin iqlimi quru subtropik iqlimdir. Burada ilin 290 günü buludsuz keçir. Respublika ərazisində illik və sutkalıq temperatur amplitudu çox böyükdür. Yağıntıların orta illik miqdarı 50–

200 mm arasındadır. Mümkün buxarlanma 1500 mm-dən artıqdır. Əkinçilik əsasən suvarma, dağlarda isə qismən dəmyə şəraitində mümkündür. Ölkənin şərq rayonları Amudərya, Murqab və Təcən çaylarının suları ilə təchiz olunur.

Türkmənistan etnosunun mənşəyi qədim türk və akhun qəbilələri ilə bağlı olub. Etnosun formalaşmasında oğuzlar yaxından iştirak etmişlər.

Türkmənistanda kənd əhalisi üstünlük təşkil edir (55%). Əhali əsasən, Qaraqum kanalı zonasında, Murqab və Təcən çaylarının deltasında, Kopetdağın ətəyində cəmləşmişdir. Aşqabad şəhəri Türkmənistan Respublikasının paytaxtı, mühüm elm, sənaye və mədəniyyət mərkəzidir. Başqa əsas şəhərləri Cərco, Daşoğuz, Marı, Nebitdağ, Türkmənbaşıdır.

Türkmənistan BMT, İKT, MDB, İqtisadi Əməkdaşlıq Şurası və s. təşkilatların üzvüdür

Türkmənistan Respublikasında ölkəni xammal istehsalçısından hazır məhsul istehsalçısına çevirmək məqsədi daşıyan dövlət proqramı həyata keçirilir. Proqram reallaşması üçün emaledici sənaye sahələrinə diqqət artırılır, əhalinin ərzağa olan tələbatını daxili imkanlar hesabına ödəmək üçün layihələr hazırlanır.

Türkmənistan Respublikasında ölkəni xammal istehsalçısından hazır məhsul istehsalçısına çevirmək məqsədi daşıyan dövlət proqramı həyata keçirilir. Proqram reallaşması üçün emaledici sənaye sahələrinə diqqət artırılır, əhalinin ərzağa olan tələbatını daxili imkanlar hesabına ödəmək üçün layihələr hazırlanır

Qırğızıstan Mərkəzi Asiyada yerləşən türk dövlətidir. Qırğızıstanın dənizə çıxışı yoxdur və ərazisinin əksər hissəsi Tyan-Şan, Talas, Qırğız, Türküstan dağları ilə əhatə olunmuşdur. Şimalda Qazaxıstan, qərb və cənub-qərbdə Özbəkistan, cənubda Tacikistan, şərqdə isə Çin Xalq Respublikası ilə həmsərhəddir. Paytaxtı və ən böyük şəhəri Bişkek şəhəri, ümumi sahəsi 199,951 kvadrat kilometrdir. Qırğızıstan 31 avqust 1991-ci ildə SSRİ-dən müstəqilliyini əldə etmişdir

Dənizə çıxışı olmayan Qırğızıstanın qonşuları şimalda Qazaxıstan, qərbdə Özbəkistan, cənub-qərbdə Tacikistan və cənub-şərqdə Çin Xalq Respublikasıdır. Tanrı dağları ölkənin 80%-ini əhatə etdiyi üçün ölkəni bəzən “Mərkəzi Asiyaın İsveçrəsi” adlandırırlar. Tanrı dağlarının şimal-qərbində yerləşən və ölkənin ən böyük gölü olan İsıkgöl gölü Titikakadan sonra dünyanın ən hündür dağ gölüdür.

Qırğızıstan Respubliikası Mərkəzi Asiyada, okeanlardan uzaq, materik daxilində yüksək dağlıq regionda – Tyanşan, Talas, Qırğız, Türküstan dağlarında yerləşir. Ən uca zirvələri Qələbə piki (7439 metr) və Xan-Tenqridir (6995 metr). Dağlar arasında geniş İssıkkul, Narın, Talas vadiləri və Fərqanə çökəkliyinin Qırğızıstana aid olan cənub və şərq dağətəyi sahələri yerləşir. Ərazinin 95%-I 1000 metrdən yüksəkdə yerləşir. Qırğızıstan dağlarının geoloji quruluşunda, əsasən, Paleozoy erasının müxtəlif mənşəli süxurları iştirak edir. Dağəmələgəlmə prosesi davam edir. Kaynozoy çöküntüləri isə yalnız dağarası çökəkliklərdə və dağətəyində yayılmışdır. Qırğızıstanda əlvan metallar – mis, molibden, dəmir filizi, qızıl, civə, qurğuşun yataqları, dağarası çökəkliklərdə isə neft və kömür ehtiyatları mövcuddur.

Qırğızıstan ərazisi subtropik və mülayim iqlim qurşağında yerləşir. Orta və yüksək dağlıqda sərt iqlim, dağarası çökəkliklərdə bir qədər mülayim iqlim hakimdir. Ən isti ayın orta temperaturu dağarası çökəkliklərdə 16-22°C, qarlı və buzlu zirvələrdə 0°C-dən aşağıdır. Yanvar ayında dağətəyi

və düzənlik sahələrdə orta aylıq temperatur -1 °C olduğu halda, dağlıq ərazilərdə 15°C -27°C olur. Yağıntılar düzənlik və qapalı çökəkliklərdə 100 mm-dən 300 mm-ə qədər, dağlarda isə 900–100 mm-dək artır.

Qırğızların etnik tarixi hun, sak və usun qəbilələri ilə bağlıdır. Bu qədim türk qəbilələri e.ə VII əsrdə köçəri tayfa ittifaqları yaratmışdılar. Sonrakı əsrlərdə Qırğızıstan ərazisi müxtəlif yadelli dövlətlərin əsarəti altına düşmüşdür. Ölkə XIX əsrdə Rusiyanın tərkibinə daxil edilmişdir. Qırğızıstan 1991-ci ildən müstəqilliyini elan etmiş parlamentli respublikadır. Ölkənin başçısı prezidentdir.

Qırğızıstan çoxmillətli ölkədir. Burada ruslar, özbəklər, ukraynalılar, tatarlar, qazaxlar, taciklər, uyğurlar, almanlar və 1930-1940-cı ilərdə buraya sürgün olunan azərbaycanlılar yaşayır.

Qırğızıstan iqtisadiyyatına görə aqrar-sənaye ölkəsidir. Ölkə müstəqillik qazandıqdan sonra dövlət əmlakının özəlləşdirilməsi prosesi hələ də davam edir. Müstəqilliyin ilk illərində təsərrüfatın bütün sahələrində tənəzzül baş vermişdir. Elektroenergetika, yüngül, yeyinti sənayeləri, o cümlədən əlvan metallurgiya və maşınqayırma sənayesi ixtisaslaşmış sahələrdir.

Elektrik enerjisi ölkənin cənubunda Narın çayı üzərindəki SES-lər kaskadında cəmlənmişdir.

Əlvan metallurgiya sənayenin mühüm sahəsidir. Civə, sürmə, qalay, qurğuşun-sink filizləri çıxarılır. Tikinti materialları, yüngül və yeyinti (ət, süd, dənüyütmə) sənayesi var.

Özbəkistan Mərkəzi Asiyanın mərkəzi və şimal-qərb hissəsində yerləşir. Şimal və şimal-qərbdə Qazaxıstan, şimal-şərqdə Qırğızıstan, cənub və cənub-qərbdə Türkmənistan və Əfqanıstan, cənub-şərqdə isə Tacikistanla həmsərhəddir. Paytaxtı və ən böyük şəhəri Daşkənd şəhəri, ümumi sahəsi 448,978 kvadrat kilometrdir. Əhalisinin sayına görə isə Mərkəzi Asiyada birinci yeri tutur. Özbəkistanın dənizə birbaşa çıxışı yoxdur və Lixtenşteynlə birlikdə dənizə çıxışı olmayan ölkələrlə əhatə olunmuş nadir dövlətlərdəndir. Özbəkistanda həm də Asiyanın ən böyük qızıl mədəni yerləşir.

Özbəkistan böyük bir tarixi olan qədim ölkədir. Burada sanki zaman öz "imzasını" qoyub. Ən mühüm şəhərləri Daşkənd, Nukus, Fərqanə, Səmərqənd, Buxara, Xivə, Kokand, Termez, Muynak, Şəhrisəbzdir. Ölkədə müxtəlif tarixi abidə, məscid və muzeylər var. Onların sırasında Bibixanım məscidi, Uluqbəy rəsədxanası və mədrəsəsi, Şahi Zində məqbərəsi, Əmir Teymur və onun nəslinin uyuduğu Gur-Əmir mavzoleyi, Ağ-Saray, Registan meydanının adını çəkmək olar.

Təkcə Mərkəzi Asiyanın müqəddəs şəhəri adlandırılan Buxarada 140-a yaxın arxitektura abidəsi var. Səmərqənddəki Bibixanım məscidi islam aləmində və Mərkəzi Asiyada yerləşən ən böyük məscidlərdən biridir. Qədim Xivə isə müxtəlif əsr və xalqlara məxsus tarixi abidələrin məkanı olduğu üçün 1967-ci ildə, İçan-Qala isə1990-da YUNESKO-nun Ümumdünya irsinə daxil edilib.

Ökənin ərazisi 448.900 km²-dir, onun 426.800 km²-i quru, 22.000 km²-i isə su sahəsidir. Özbəkistan əsasən Turan ovalığında yerləşir. Amudərya və Sırdərya çayları arasındakı geniş Qızılqum səhrası ərazinin daha çox hissəsini tutur. Ümumiyyətlə, ərazisinin 70%-i səhra və yarımsəhralardan ibarətdir. Respublika ərazisinin qalan hissəsini dağarası vadilər (Fərqanə, Çirçik) və onları əhatə edən dağlar (Tyanşan, Pamir, Altay) əhatə edir. Öz mənbəyini dağlardakı buzlaqlardan götürən, hətta yayın istisində belə öz suyunu azaltmayan Amudərya və Sırdərya kimi çaylar onun təbiətində və təsərrüfatında mühüm rol oynayır.

Özbəkistanda 100 növdən artıq mineral ehtiyat var. Orta Asiyanın digər ölkələrindən fərqli olaraq Özbəkistanın əsas yanacaq ehtiyatı zəifdir. Kömür ehtiyatı nisbətən az olsa da, Əngren (Daşkənd vilayətində), Şarqun və Baysun (Surxandərya vilayətində) yataqları əsas kömür yataqlarıdır. Kömürün kəşf olunmuş ehtiyatı 2 mlrd tondur. Təbii qaz əsas yanacaq-energetika sərvətidir. 2005-ci ildə ölkə ərazisində 130-dan çox qaz yatağı aşkar edilmişdir. Sənaye əhəmiyyətli

ehtiyatının ümumi həcmi 3 trilyon kub metr hesablanmışdır. Qaz ehtiyatlarının 90%-i Buxara-Xivə bölgəsində cəmlənib

Özbəkistan Mərkəzi Asiya respublikaları siyahısına daxildir. Ərazisinin böyük hissəsi Amurdərya və Sırdərya çayları arasında yerləşir. Ölkənin ümumi sahəsi rəsmi məlumatlara əsasən 448.9 min km² , 1 yanvar 2013-cü ilə olan məlumata əsasən daimi əhalisi isə 29.994.600[7] nəfərdir və onun 81,7 %-i özbəklərdən ibarətdir.

**İstifadə olunmuş ədəbiyyatlar:**

1. https://az.wikipedia.org › wiki › Türk_xalqları
2. https://turuz.com › storage › Turkologi › 1713-Turk
3. https://www.academia.edu › Sevinc_Ruintən_Mərkəzi_...

## EKOLOJİ BÖHRAN, TƏBİƏTİN MÜHAFİZƏSİ AZƏRBAYCANIN QIRMIZI KİTABI

*Tələbə: İsgəndərli Emin Elsevər oğlu (qrup TCM1901B)*
*Elmi rəhbər: m. S.C.Mahmudova*
*isgenderli.emin@gmail.com*

Müasir dövrün qlobal problemləri içərisində əsas və başlıca yerlərdən birini kimyəvi-texnoloji fəaliyyətin nəticəsi olan ekoloji böhran tutur. Ekoloji böhran – ətraf mühitin böhran vəziyyətində nəzərəçarpacaq dərəcədə dəyişməsidir ki, nəticədə təbii komplekslər, oradakı canlı orqanizmlərin gələcək mövcudluğu təhlükə altında qalır. Bəşər inkişaf etdikcə oksigen ehtiyatı azalmağa və karbon qazı çoxalmağa doğru getmişdir. Bu prosses XX əsrdən bu günə kimi təkrarlanmaqda davam edir. Avtomobillərdən çıxan tüstülər, qazanxanalar, zavodların tüstüsü, kondisonerlər, toz və .s dünyamızı ciddi bir şəkildə məhv edir. Ekoloji halın dözülməz hala gəlməsi ozon qatinin məhvi zəncirvari olaraq digər fəsadlar törədəcək. Günəşin zərər verən şüaları, hava çatışmamazlığı, oksigen qazının çox azalması, təbii fəlakətlərin artması bunlardan doğan çətinliklərdir. Həyatda insan ömrünün qısalması, səhətinin pozulması, yaşamaq və işləməyin çətinləməsi baş verəcək. Ekoloji böhranın törətdiyi dəyişikliklər insanlar arasında pis xəstəliklərə gətirib çıxarır. Baş verən bu hadisələr insanlarda cırlıq, nəsili kəsilmə və çıxış yolu olmayan xəstliklərə gətirib çıxarır. İri şəhərlərdə sənaye və məişət tullantılarının uzun illər yığılıb istifadəsiz qalması öz növbəsində o, ekoloji böhranın yaranmasına səbəb olur. Bəzi iri yaşayış yerləri yəni şəhərlər, ölkələr sənayə mərkəzlərində məişət tullantılarının daşınması və yerləşdirilməsi də xüsusi narahatçılıq yaradır.

Ekoloji böhranları aradan qaldırmaq üçün bəzi məsələləri yerinə yetirmək lazımdır. Bunlara, Oksigen təlabatını zənginləçdirmək, havanı çirkləndirməmək, ağacları kəsməmək və təbiəti qorumaq daxildi.

Ekoloji böhran keçmişdə görünməmiş bir böhrandır. Bu gün alimlər qlobal ekoloji böhran, bu böhranın səbəb və nəticələri haqqında danışaraq bildirirlər ki, əgər bəşəriyyət yaranmış vəziyyəti aradan qaldırmayacaqsa, onda bu böhran bütün planet üçün qəzaya çevriləcək. Ekoloji böhranın bir neçə səbəbi var. Əhalinin sürətli artımı, qeyri-mükəmməl kənd təsərrüfatı və sənaye texnologiyaları, həmçinin bəşəriyyətin dayazdüşüncəsi, biosferin inkişaf qanunlarına məhəl qoymamasıdır. Bir neçə ekoloji problem mövcuddur ki, bunlardan da birincisi qlobal istiləşmə problemidir. Antropogen tullantıların nəticəsində istilik effektinin güclənməsi əsasında iqlim dəyişir. Bizim yer kürəmiz, planet nəhəng istixanadır, hansıki şüşəni atmosferin qalın qatı əvəz eliyir. O günəş şuasını buraxır, əks etdirilən istilik şüasını saxlayır, hansıki atmosfer və planetin səthi isinir. Planetdə növbəti ekoloji problem meşə sahələrinin ixtisarıdı. Bütün yerüstü ekosistemlər arasında ən böyük sahəni meşələr tutur. Bu planetdə oksigenin mənbəyidir. Yer kürəsində kənd təsərrüfatının meydana çıxmasına qədər, meşələr təxminən 6 milyard hektar ərazini tuturdu, indi onlardan 4/1 hissə qalıb, və yalnız 1,5 milyard hektar meşə ərazisinə toxunulmamışdır. Ölkənin nəqliyyat sisteminin əhəmiyyətli yerini avtomobil nəqliyyatı tutur. Amma o çox mənfi təsirlərə malikdir, ildə yüzlərlə, milyonlarla ton işlənmiş qaz olaraq zərərli maddə atmosferə daxil olur. Bundan başqa, avtomobil nəqliyyatının təsiri insanların sağlamlığını pisləşdirir, torpaqları və çarhovuzları zəhərləyir, bitki aləmi və heyvanlar aləmi əziyyət çəkir. Ətraf mühitin çirklənməsinin əsas mənbələrdən biri avtomobil parklarıdır.

Ətraf təbii mühitin mühafizəsi – təbii ehtiyatlardan istifadə, onların saxlanmasını və səmərəli istehsalını təmin etmək üçün dövlət və hüququ tədbirlər sistemidir. Azərbaycan Respublikasında Təbitəin mühafizəsi müvafiq dövlət orqanları, qoruqları, meşəçilik idarələri, ovçuluq təsərrüfatları və b. Müəssisələr tərəfindən həyata keçirilir. Təbitəin mühafizəsi torpağın, su ehtiyatlarının, havanın sənaye tullantıları və zəhərləyici kimyəvi maddələrlə çirklənməsi, meşə və otlaqların mühafizəsi, nadir tapılan və nəsli kəsilməkdə olan faydalı bitki və heyvanların mühafizəsi, təbii sərvətlərdən düzgün istifadə edilməsi, təbii abidələrin qeydiyyatı, mühafizəsi və bərpası, balneoloji və iqlim ehtiyatlarından maksimum istifadə olunması, termal və mineral mənbələrin mühafizəsi, həmçinin Təbitəin mühafizəsi ideyası və təbiətin qorunmasına yönəldilmiş tədbirlərin təbliği və s. İlə məşğul olur. Eyni zamanda geniş miqyasda tarlaqoruyucu və digər melorativ meşə zolaqları salınır, torpağın münbitliyinin artırılması, meliorasiya üzrə tədbirlər görülür, su və külək eroziyasına qarşı mübarizə aparılır. Su ehtiyatlarının mühafizə edilməsi üçün işlər görülür. Dəniz və başqa su hövzələrinə tökülən axar suların zərərsizləşdirilməsi üçün xüsusi təmizləyici qurğular quraşdırılır.

Təbitəin mühafizəsi eyni zamanda təbii ehtiyatların saxlanması və bərpasının ümumi prinsipləri və metodlarının işlənilməsinə aid elmi fəndir. Bu fənnin bölmələri torpağın, suyun, atmosferin, bitki və heyvanat aləminin, təbii komplekslərin (landşaftın) qorunması və s.-dən ibarətdir. Azərbaycan Respublikasında Təbitəin mühafizəsi üzrə mühüm tədbirlər keçirilir. Belə ki, nadir flora, fauna və əhəmiyyətli obyektləri qoruyub saxlamaq üçün diqqətəlayiq işlər görülür, milli

parklar, dövlət qoruqları, yasaqlıqlar, ovçuluq təsərrüfatları yaradılır. Təbitəin mühafizəsinin əsas forması təbii ehtiyatlardan səmərəli və kompleks istifadə etməkdir.

Alimlər öyrənmişlər ki, 1600-cü ildən bəri 150-dən çox vəhşi heyvanların və quşların nəsli tamamilə kəsilmişdir. Qırmızı kitab – planetimizdə nəsli kəsilmək təhlükəsinə məruz qalan heyvan və bitkilər haqqında məlumat, faktlar və illüstrasiyalar toplanmış kitabdır. Azərbaycan Respublikasının bütün ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda heyvan və bitki növlərinin vəziyyəti, yayılması və mühafizəsi tədbirləri haqqında məlumatları özündə əks etdirir.

Azərbaycan Respublikasının “Qırmızı kitabı”na daxil olan 108 növ faunanın 14 növü məməli, 36 növü quş, 13 növü sürünən və suda-quruda yaşayan, 5 növü balıq, 40 növü həşəratdır.

Respublika “Qırmızı Kitab”ına fauna və flora növləri 2 kateqoriya üzrə daxil edilib: yoxa çıxmaq təhlükəsi olan və nadir növlər. Birinci kateqoriyaya bir sıra mənfi amillərin təsiri nəticəsində sayı və arealı əhəmiyyətli dərəcədə azalan və böhran səviyyəsinə çatan növlər daxildir. Sayı azalmağa doğru meyl edən və kiçik sahələrdə rast gəlinənən növlər isə nadir növlərə aiddir.

Qanunvericiliyə əsasən, hər on ildən bir yeni nəşrin çap olunması nəzərdə tutulsa da, kitabın II nəşri 24 il gecikib. Yəni Azərbaycan Respublikasının “Qırmızı Kitabı”nın II nəşri 2013-cü ildə çapdan çıxıb. Akademik Cəlal Əliyevin rəhbərliyi altında respublika ərazisində yayılmış nadir və nəsli kəsilməkdə olan bitki, göbələk və fauna növlərinin tədqiqi üzrə nəticələri əks etdirən "Azərbaycan Respublikasının “Qırmızı Kitabı” hazırlanmış və dərc edilmişdir. 300 ali və ibtidai bitki, həmçinin göbələk və 223 fauna növü, onların yayılması, sayı və azalma tendensiyaları haqqında məlumatlar ilk dəfə olaraq bu kitaba daxil edilmişdir.

Qafqaz tetrası Kiçik və Böyük Qafqazın subalp zonasında, yaşılbaş ördək Xəzərin sahilində, respublikanın su tutarlarında qeydə alınıb. Qaya keçisi və Cənubi Qafqaz muflonu hazırda Naxçıvan MR-də, ceyran ancaq Şirvan qoruğunda, Bəndovan və Korçayda rast gəlinir. Dağıstan turu Böyük Qafqazın cənub ətəyində, Balakən, Qəbələ, Zaqatala və İsmayıllı rayonları ərazisində qalmışdır. Qıvrımlələk qutan qışda demək olar ki, respublikanın bütün iri su hövzələrində rast gəlinir. Sultan toyuğu Ağzıbir gölündə və Mil düzü su hövzələrində rast gəlinir. Xəzər pələngi bütün Xəzər sahəsində yayılmışdır. 40-cı illərdə areal Transqafqaza qədər, Aral dənizi, Əfqanıstan və Balxaş gölünə qədər kiçildi. 30-cu illərdə Turan pələngini

Azərbaycanda Talış dağlarında, Cənubi Türkmənistanda görmüşdülər. Toğlugötürən Böyük və Kiçik Qafqaz və Talış dağlarında, Tetraçalan Azərbaycanın Talış və Şərqi Qafqaz dağ meşələrində, Xəzər uları isə Kiçik Qafqazın yüksək dağlıq zonalarında yayılıb. Azərbaycanda, yalnız Naxçıvanda rast gəlinir. Safsar Azərbaycanda arealı dağətəyi və mərkəzi düzənlik ərazilərində, Zuvand yaylasını və Naxçıvanda yayılmışdır

Hirkan şümşadı Lənkəran ovalığında, Dəmirağac Lənkəran ovalığı, Böyük Qafqazın şərq hissəsində, Araz palıdı isə Zəngilan rayonu (Bərgüşadçay) və Naxçıvan MR-də Babək, Ordubad rayonu ərazilərində yayılmışdır. Eldar şamı Eldar düzünün qərb hissəsində Eldar oyuğunda təbii halda arealı vardır. Şabalıdyarpaq palıd İsmayıllı, Yalama, Quba, Tər-tər, Şəmkir, Şamaxı, Bərdə rayonlarında, Talış zonasında təsadüf edilir. Hirkan bigəvəri Astara və Lənkəran rayonları ərazilərində, Budaqlı danaya isə Lənkəran ovalığı, Böyük Qafqazın şərqində yayılmışdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. C.M.Mahmudov. Ekologiya. Bakı,2010.
2. M.İ.Cəfərov, A.H. Babayev, Z.A.İbrahimov. Azərbaycanın təbii sərvətləri və onlardan səmərəli istifadə. Bakı, 2005.
3. R.Əliquliyev, S.Şükürlü, S.Kazımova. Elmi fəaliyyətdə istifadə olunan əsas terminlər. Baki, İnformasiya Texnologiyaları, 2009. 201 səh.
4. Azərbaycan Respublikası “Qırmızı Kitab” ı . II nəşr.
5. Xalq qəzeti. 2009. 3 sentyabr. S. 12.
6. E. Qaliboğlu. Xalq Cəbhəsi. 2010. 22 aprel. S.13.
7. WWW.Google.com axtarış sistemi.

## III BÖLMƏ

## "FİLOLOGİYA" BÖLMƏSİ

# AĞCABƏDİ TOPONİMLƏRİ (HACIBƏDƏLLİ, PƏRİOĞULLAR, AĞABƏYLİ, RƏNCBƏRLƏR VƏ HÜSÜLÜ KƏNDLƏRİ)

*Tələbə: Orucova Gülşən Hafiz qızı (qrup AZD2101B)*
*Elmi rəhbər: dos. Məmmədov Sabir Rüstəm oğlu*
*orucovagulshen@gmail.com*

Ağcabədi sözü türk mənşəlli sözdür. Ağca və vadi sözlərindən ibarətdir. Xalq arasında "Ağcavədi" kimi tələfüz olunur. Lakin söz Ağcabədi şəkilində formalaşmışdır. Ağcabədi adının meydana gəlməsinə dair bir çox mülahizələr vardır. Belə bir fikir vardır ki, bu ad təxminən VII əsrdə iranda əməvilər sülaləsinin süqutundan sonra hakimiyyət başına gəlmiş Abbasilər sülaləsinin köçürmə siyasətilə bağlıdır. Deyilənə görə İranda köçürülənlərdən biridə Azərbaycanlı sufi dəstəsinin başçısı Sufi Məhəmməd təxminən 100 ailə ilə Araz çayını keçərək Qarqar vadisinə doğru irərləyir. Bu köç yayın isti gününə təsadüf edir. Təbii şəraitə bələd olmayan bu köçəri ailələr 150 - 200 km məsafəni çox çətinliklə keçirlər. Ağcabədiyə yəni Qarqar vadisinə təxminən 25 - 30 km qalmış ağacların göyərtisini və ağsu dəryasını görürlər. Bu sevincə səbəb olur. Qəbilənin cavan atları suya tez çatmaq üçün atları çapıb irərləyirlər. Bu dərya duzlu və şoranlı olduğu üçün qızmar günəşin altında ağarıb suya oxşayırmış. Yavaş irərləyib gələn Sufi Məhəmməd və qəbilənin digər üzvüləri dəhşətli hadisənin şahidi olurlar. Artığ atlar susuzluğa tab gətirməyib ölürlər. Sufi Məhəmməd burada demişdir: Məncə bu ağca görünən yerlər bəd yerlərdi. Qarqar vadisinə az qalıb təmkinlə irəliləmək lazımdır. Bu yerin yəni ağca görünən yerin bəd olması fikri yeni məskən adına çevrilir və tədricə Ağcabədi ifadəsi tapır.

Hacıbədəlli kəndi: Ağcabədi rayonunun eyniadlı inzibati ərazi vahidindən kənddir. Düzənlikdədir. Yaşayış məntəqəsi Kəbirli tayfasının Hacıbədəlli tirəsinin özlərinə məxsus qışlaq yerində məskunlaşması nəticəsində yaranmışdır. Yerləşdiyi yer "Çaqqalı Qobu" da olub. Sonralar insanlar yaşayış məskəninin yerlərini dəyişib indiki kəndə Hacı bədəllidə məskunlaşmışlar.

Pərioğullular kəndi: Bu kəndin meydana gəlməsinə dair müxtəlif rəylər vardır. Rəvayətə görə ibrahim xanın Pəri arvadından oğullarına bağışladığı ərazidə Pərinin oğlanları məskən salıb yaşadıqları üçün bu kənd Pərioğulluları adlandırılıb. Həttda xalq arasında söyləyirmişlərki İbrahim xan belə deyərmiş

Hər ağacdan Masan olmaz
Hər igiddən Həsən olmaz
Hər oxuyan Molla Pənah
Hər qatıeçı Murad olmaz.

Elmi ədəbiyyatda isə Pərioğullular belə çözülür:

Türk mifologiyasında tanrı övladlarından fərqli olarağ Pəri oğlanları insanların bədxağı kimi görünərmişlər. Pəri oğlanlarından biridə Təpəgözdür.

Rəncbərlilər kəndi: Bu kəndin ilk sakinləri Murtuza bəy, Səlim bəy və Həmid bəyin torpaqlarında işləyən və mənşəcə “Kəbirli” tayfasına mənsub olan Rəncbərlər olduğu üçün o belə adlandırılmışdır. Rəncbərlilər “Cütçü“ və “əkinçi” sahibkardan şəxsi aslı olan kəndli mənasındadır.

Ağabəyli Kəndi: Burada Ağa bəy adında zalım bir bəy yaşayırmış. Kənd camaatı toplaşıb Ağa bəydən rus hökümətinə şikayət edir. Bunu eşidən Ağa bəy gəlib kəndlilərə qoyun kimi mələməklərini deyir. Kənd camaatıda bunu edir. Ağa bəy də çar genirallarına deyir ki, “qoyun kimi mələyən kütlə ilə başarmaq olmaz” .

Çar geniraları da Ağa bəyi kənddə böyük təyin edir. Elə o gündən bəri bura Ağabəyli adlandırılmışdır.

Hüslü Kəndi: XIX əsrin əvvəllərində Hüslü Qarabağda maldarlıqla məşğul olan 13 ailədən ibarət kiçik elat olmuşdur. Hüslü mənşəcə qızılbaşların ustaclı tayfasının tirlərindən biridir. XVIII əsrdə bu tirə mənsub ailələr Şahsevənlərə qoşulub və Qarabağda yaşamağa başlamışlar. Yayı Sarıyer və Qırxqız yaylaqlarında, qışı isə Qarabağ düzündə keçirən Hüslülər əvvəlcə indi ki kənddən 1 km aralıdaki meşədə Ələkbər Suatı adlı yerdə məskunlaşmışdırlar.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. http://agcabedi-ih.gov.az › page

2. https://az.wikipedia.org › wiki › Hacıbədəlli

3. https://az.wikipedia.org › wiki › Pərioğlular_(Ağcabədi)

## AĞDAM TOPONİMLƏRİ (MAQSUDLU, QIZILLI KƏNGƏRLİ, SALAHLI, CİNLİ, ALAĞALI VƏ KÜRDLƏR KƏNDLƏRİ

*Tələbə: Abbasova Ofeliya Yadigar qızı (qrup AZD2101B).*
*Elmi rəhbər: dos. Məmmədov Sabir Rüstəm oğlu*
*hesenovaofeliya9@gmail.com*

Azərbaycanda rayon. 8 avqust 1930-cu ildə yaradılıb. Sahəsi 1150 km², əhalisi 153000 olan rayonun relyefi əsasən düzənlik, qismən dağlıqdır. “Ağdam” sözü qədim türk dilində “kiçik qala” deməkdir. Uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. Zaman keçdikcə bu şəhərin adının mənası dəyişib. XVIII əsrin birinci yarısında Qarabağlı Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan imarət tikdirmək barədə əmr verib. Həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün bir növ oriyentirə çevrilib. Bu mənada “Ağdam” — günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev deməkdir.

Maqsudlu kəndinin yerli əhalisi əsasən türklərdən formalaşıb. Ağ Hunların davamçıları sayılan bu kənd əhalisi Asiyadan Anadoluya daha sonra Naxçıvan ən son Ağdam rayonu ərazisində yerləşib. Xarici görünüşləri əsl türklərə aid hündür boy, rəngli gözləri ilə fərqlənir. Kənd məşhur ağ daş karxanalarıyla məşhurdur. Ağdamın ən gözəl ağ daşları bu kəndin daş karxanalarından əldə

edilib. Ağdam şəhər mərkəzinə ən yaxın olan kəndlərdən biridir. Qədim tarixə malik bu kənddə 15-18 əsrə aid tarixi tikililər var.

Maqsudlu kurqanları – tunc dövrü, Məbəd – XV əsr, Türbə – XVIII əsr

Ağdam rayonunun Qızıl Kəngərli kəndi rayon mərkəzi Ağdam şəhərindən 14 km. şimalda, Xaçın çayının sol sahilində, Qarabağ silsiləsinə daxil olan Qaraman dağının ətəyində və Qarabağ düzündə, Ağdam – Ağdərə yolunun üstündə yerləşir. Qızıl Kəngərli kəndi şimaldan Boyəhmədli, şərqdən Salahlı Kəngərli, cənubdan isə Xaçın çayının sağ sahilində yerləşən Maqsudlu və Şahbulaq kəndləri, eləcə də Şahbulaq Qalasıyla qonşudur.

1727-ci ilə aid “maliyyə dəftəri”ndə qeyd edilir ki, vaxtı ilə kəngərlilərin Qarabağda qışlaqları olmuş, Arasbar və Bayad torpaqlarında mal, mülk, üzüm bağlarına sahib imişlər. Qarabağda qışlayır, Naxçıvanda yaylayırlar.

1930-cu ilə qədərki dövrdə Qızıl Kəngərli kəndi Yelizavetpol quberniyasının Cavanşir qəzasının tərkibində olub.

Birinci Qarabağ Müharibəsində Ermənistan Silahlı Qüvvələri tərəfindən 26 iyul 1993-cü ildə işğalı nəticəsində Qızıl Kəngərli kəndi 27 il işğal altında qalmışdır. Bu müddət ərzində kənd, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Ağdərə rayonunun Marağa (erm. Maraqaşen) kəndindən olan ermənilərlə məskunlaşdırılmışdı. İşğal dövründə kənd, erməni inzibati bölgüsündə “Nor Marağa” (Yeni Marağa) adlandırılırdı. İkinci Qarabağ Müharibəsində, Azərbaycan, Ermənistan və Rusiyanın imzaladığı 9 noyabr 2020 tarixli üçtərəfli razılaşmaya əsasən, 20 noyabr 2020-ci il tarixində Ermənistan Silahlı Qüvvələrinin bölmələri kənddəki mövqelərini tərk etmişdir.

Kəndin əsl adı “Qızıllı Kəngərli” – dir. Oğuz türklərinin peçeneq qolundan olan kəngərlərin (kanqarlar) çoxsaylı tirələrindən biri də Qzıllıdır. Kəndin adı (Qızıllı Kəngərli oykonimi) da bunu ifadə edir: kəngərlərin qızıllı tirəsindən olan elin yaşayış məskəni – Qızıllı Kəngərli. Kəngərlilər Azərbaycanın, əsasən, Naxçıvan bölgəsində yaşasalar da – o bölgədə bütöv bir rayon Kəngərli adlanır – digər bölgələrdə də, məsələn, Qazaxda, Borçalıda, Qarabağda və s. məskunlaşıblar. O səbəbdən də Azərbaycanda çoxlu Kəngərli kəndi var; tək elə Ağdam rayonu ərazisində üç Kəngərli kəndi var: Qızıl Kəngərli, Salahlı Kəngərli və Kəngərli (bu kəndə Pirhəsən Kəngərlisi də deyirlər). Nəzərə almaq lazımdır ki, Pirhəsənli Kəngərlisinin yerləşdiyi Uzundərə ərazisinin sol cinahındakı daha iki kəndin (Şirvanlı və Qaraqaşlı, – Qaraağaclı da mümkündür) camaatı da faktiki olaraq kəngərlilərdən ibarətdir və 1963-cü ilə qədərki dövrdə Kəngərli kəndləri adlanıblar, o halda məlum olur ki, Ağdam rayonu ərazisində beş Kəngərli kəndi var. Yaşayış məskənlərinin adları (oykonimlər) həm də Azərbaycan xalqının tarixidir, odur ki, onlarla çox ehtiyatla davranmaq lazımdır; toponimlərin dəyişdirilməsi qədimliyə xələl gətirirsə, buna heç cür yol verməк olmaz.

Erməni işğalına qədərki dövrdə Qızıl Kəngərli kəndində məktəb, kitabxana, klub, tibb məntəqəsi və müxtəlif ticarət-iaşə obyektləri var idi. Kənddə orta əsrlərə aid qədim qəbristanlıq, şimal-şərqdə, üç qonşu kəndin (Boyəhmədli, Qızıl Kəngərli və Salahlı Kəngərli) arasında qalan ərazidə yerləşən Boyəhmədli kurqanları (80-ə yaxın kurqan – ilk tunc dövrü) var.

1933-cü ildəki siyahıya alma nəticələrinə əsasən Qızıl Kəngərlidə 445 nəfər əhali yaşayırdı, bunların 98,5%-i azərbaycanlılar idi. İşğaldan əvvəl, 1993-cü ildə Qızıl Kəngərli kəndində yaşayan

əhalinin sayı 1219 nəfər idi. Erməni işğalı dövründə kəndin yerli azərbaycanlı əhalisi qovulmuş və bura ermənilər köçürülmüşdü. 2015-ci ildə burada 529 nəfər erməni əhali yaşayırdı.

2020-ci il noyabr ayında erməni əhali kəndi tərk edərkən kənddəki evləri yandırmışdır. Əhalinin əsas məşquliyyəti maldarlıq, bağçılq, taxılçılq və üzümçülük olub.

Ağdam rayonunun Salahlı Kəngərli kəndi rayon mərkəzi Ağdam şəhərindən 17 km. şimalda, Xaçın çayının sol sahilində, Ağdam – Ağdərə yolundan 3 km. şərqdə, Qarabağ düzündə yerləşir. Salahlı Kəngərli kəndi şimal-qərbdən Boyəhmədli kəndi, qərbdən isə Qızıl Kəngərli kəndi ilə qonşudur. Kəngərli ellərinin hamısı oğuz türklərinin peçeneq qolundan olsalar da, müxtəlif tirələrdəndilər və bu da çox vaxt onların məskunlaşdıqları ərazi adlarında özünü biruzə verir. Salahlı Kəngərli kəndinin camaatı kəngərli türk tayfasınln salahlı tirəsindəndi və kəndin adı da bunu ifadə edir – Salahlı Kəngərli.

Cinli — Azərbaycan Respublikasının Ağdam rayonunun Əlimədətli kənd inzibati ərazi dairəsində kənd.

Kənd 1993-cü il iyunun 11-də Ermənistan ordusu tərəfindən işğal olunmuşdur.

Kürdlər — Azərbaycan Respublikasının Ağdam rayonunun Əlimədətli kənd inzibati ərazi dairəsində kənd.

**İstifadə edilmiş ədəbiyyat**


1. https://az.wikipedia.org › wiki › Maqsudlu_(Ağdam)
2. https://az.wikipedia.org › wiki › Cinli_(Ağdam)
3. https://az.wikipedia.org › wiki › Qızıl_Kəngərli


## ŞAMAXI TOPONİMLƏRİ (QARAVƏLLİ, MİRİKƏND, QIZMEYDAN, QUŞÇU, QURDTƏPƏ)

*Tələbə: Şirinova Nəzrin Arif qızı (qrup AZD2101B)*
*Elmi rəhbər: dos. Məmmədov Sabir Rüstəm oğlu*
*shirinovanezrin@gmail.com*

Şamaxı Qafqaz dağlarının cənub - şərq ətəklərində, dəniz səviyyəsindən 749 metr hündürlükdə yerləşir. Şərqdə Pirsaat çayı, şimal və şimal - qərbdən Pirdirəyi və Qız qalası dağları, qərbsən zenisli kəndi, Meysəni dağı, cənubdan Zoğalavay çayı ilə əhatə olunur. 2012 -ci il araşdırmalarına görə əhaslisi 36.800 nəfərdir. Şamaxı şəhəri Azərbaycanın ən qədim şəhərlərindən biridir. Şamaxı toponimi IV əsrin I yarısında baş verən hadisələrlə bağlı adının çəkildiyi köçəri jamax (şamaxı) tayfasının adı ilə bağlıdır. VI ərsdə fars mənbələrində verilən məlumata görə Sasani şahı I xosrov ənüşravan tərəfindən salınmışdır. Belə güman edilir ki Şamaxı adı gürcü və akkad dillərində mövcud olmuş yerli "şam" (qamış ) sözünə "ha" artılmaqla yaranmış sözdür. Beləliklə Şamaxı şəhəri

“Qamışlı“ deməkdir. Şamaxı şəhəri zəlzələli zonadır və burada zəlzələ əsasında bir çox insan həlak olmuş və dağıntılar baş vermişdir.

Qaravəlli kəndi: Azərbaycan Respublikasının Şamxı rayonun inzibati ərazisindən kənddir. Şamaxı rayonu Mirikənd idarə ərazi dairəsindən kənddir. Ləngəbiz silsiləsində “şor dəvə” çay dərəsi hövzəsindədir. 2009 - cu ilin siyahiyaalınmasına görə 1143 nəfər əhalisi və 278 təsarufatı var. Keçmiş adı Qaravəlli Qanubəy bəyin adı ilə bağlı olmuşdur. Qanubəy bəyin tayfasının adı Qaravəlli olduğu üçün kənd tayfanın adını daşıyır.

Şamaxı rayonu Qızmeydan kənd inzibati ərazisindən kənd mərkəzi. Rayon mərkəzindən 30 km şimal-şərqdə, Qozluçayın sağ sahilindən 3 km aralı, Qızmeydan platosundadır. Şose yolu Qızmeydanı Şamaxı ilə birləşdirir. Əhalisi 1114 nəfərdir (2009), 258 təsərrüfatı var. Əhalisi taxılçılıq və heyvandarlıqla məşğuldur. Məişət xidməti obyektləri, tam orta məktəb, kitabxana, klub, xəstəxana və rabitə şöbəsi var.İkinci Dünya müharibəsində həlak olmuş həmyerlilərin şərəfinə abidə qoyulmuşdur. Yaxınlığında mineral bulaq var.

Müəyyən müddət adı Astraxanka olmuşdur. Çar hökumətinin Rusiyanın mərkəzi quberniyalarından müxtəlif dini təriqət nümayəndələrini (molokan, baptist, duxobor və b.) milli ucqarlara, o cümlədən Azərbaycana köçürmə siyasəti ilə əlaqədar 1849 ildə Həştərxan vilayətindən köçüb gələnlər burada məskən salmışlar. Astraxanka – “Həştərxandan gələnlər” mənasındadır.

Şamaxı rayonu Quşçu kənd i.ə.d.-nin mərkəzi. Rayon mərkəzindən 26 km cənub-şərqdə, Pirsaat çayından 8 km, Bakı—Şamaxı şose yolundan 12 km aralı, Ləngəbiz silsiləsinin yamacındadır. Əhalisi 3681 (2009) nəfərdir, 558 təsərrüfatı var. Tam orta və ibtidai məktəb, kitabxana, tibb məntəqəsi, kənddən 2—3 km cənub-qərbdə qədim yaşayış yeri (e.ə. I minilliyin sonu, eramızın I minilliyi) var. Eyniadlı palçıq vulkanı kəndin yaxınlığındadır. Kəndin adı türkdilli quşçu tayfasının adı ilə bağlıdır.

Kənd türkdilli tayfasının adılə bağlıdır. Quşçular kəndinin adı bir çox inamlarla bağlıdır. Beləki qədim dövrlərdə Azərbaycan türkləri arasında quş anqonu geniş yayılmışdır. Odurki nağıl və dastanlarımızda quşlara xüsusi yer verilmişdir. Həttda oğur qəbilənin quşun özləri üçün sinvol seçmişlər. Xalq arasında eləcədə nağıl və dastanlarımızda geniş şəkildə özünə yer almış “Dövlət quşu” haqqında rəvayətlər imakan verir deyək ki, quş var - dövlət, ağıl simvolu sayılmışdır. Ermənilərin dəhşətli faciələr törətdiyi kəndlərdən biridə Quşçu kəndidir. Erməni cəlladları bu qədim kəndə 192 nəfər kişi, 115 nəfər qadın və 25 nəfər uşaq qətlə yetirmişlər.Bu barədə 1919 -cu ilin Aprel ayının 18 də kənd sakini Səbzəli Paşa yazmışdır: “bizim Quşçu kəndi Şamaxının 20 metirliyində yerləşir. Ermənilər buraya bir neçə dəfə basqın etmişlər. Birinci dəfə 1918 - ci ilin mart ayında. Dəqiq yadımdadır, bizim kəndə ermənilər səhər tezdən soxuldular. Əvvəlcə onlar kənd uşaqlarını atəşə tutdular. Biz kəndən Abdulayan qəzasına çıxmalı olduq. Yol boyi ermənilər bizim üzrəimizə hücum çəkib, qırmağa başladılar. Kəndə soxulan ermənilər ən yaxşı kəndi yandırır və bütün kəndi qarət edirdilər. Əsgərlərin hamısı ermənilərdən ibarət idi. 15 gündən sonra biz kəndimizə qayıtdıq. Bir gün keçəndən sonra bu dəfədə malaklar bizə hücum etdilər. Biz yenidən qaçmağa üz tutduğ, onlar kəndi darmadağın etmişdilər. Biz kəndə qayıtdıqdan sonra Mərzdən iki malakan gəlib bizə dedki, biz bolşeviklərə tabe olmalı və silahları onalara təhvil verməliyik. Yanlız bundan sonra sizin rahatlığınız ola bilər, dedilər, biz rahatlaşdıq və təslim olduq. Həttda aktda

bağladıq. Hər iki hücüm zamanı çoxlu itki vermişik və 300 nəfər öldürülmüş və kənd yandırılmışdır.

Mirikənd Kəndi: Azərbayacan Respubilkasının Şamaxı rayonunun inzibati ərazisindən kənddir. Ləngəbir silsiləsinin ətəyindədir. 2009 - cu il siyahıya alınmasına görə əhalisi 799 nəfərdir və 170 təsarufatı var. Kəndin adı burada məskunlaşmış Qaravəlli tayfasına mənsub bir qurup ailələrin başçısı olmuş Miri adlı şəxsin adı ilə bağlı olmuşdur.

Şamaxı rayonu Qurdtəpə kənd i.ə.d.-nin mərkəzi. Əhalisi 804 nəfərdir (2009), 139 təsərrüfatı var.

**İstifadə edilmiş ədəbiyyat**

1. http://shamakhi-encyclopedia.az › category › essay › sh...
2. https://www.wikiwand.com › Qaravəlli_(Şamaxı)
3. https://az.wikipedia.org › wiki › Qurdtəpə_(Şamaxı)

## B.VAHABZADƏ YARADICILIĞINDA ANA DİLİNİN SAFLIĞI UĞRUNDA MÜBARİZƏ MOTİVLƏRİ

*Tələbə: Quliyeva Aytəkin Rizvan qızı (qrup AZD2001B)*
*Elmi rəhbər: dos. Allahverdiyev Vaqif Saleh oğlu*
*quliyevaaytekin@gmail.com*

Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci il avqustun 16-da Şəki şəhərində anadan olmuşdur. Şəkidə ibtidai məktəbdə oxuyan Bəxtiyar repressiyalardan qorunmaq üçün 1934-cü ildə ailəsi ilə Bakıya köçmüş və təhsilini 176 nömrəli məktəbdə davam etdirmişdi. Orta məktəb illərindən bədii yaradıcılığa həvəs göstərən B. Vahabzadənin ilk şeirləri məktəbin divar qəzetində dərc olunmuşdur. Həmçinin o məktəbin dram və şeir dərnəklərində fəal iştirak etmişdir. Gənc şair 1942-ci ildə görkəmli Azərbaycan şairi Məhəmməd Hadiyə həsr etdiyi “Xəzan bülbülü” poemasını qələmə alır. Bakı Dövlət universitetinin filologiya fakültəsinə daxil olan B. Vahabzadə Mir Cəlalın rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin fəal üzvlərindən olmuş, “Gəncliyin səsi”, “Gənclik töhfəsi” şeirləri poeziya almanaxlarında çap olunmuşdur. B. Vahabzadə Poeziyasında ictimai, siyasi, vətənpərvərlik, bədii fəlsəfi, milli-mənəvi və əxlaqi, həmçinin təbiət və məhəbbət lirikası özünəməxsus mahiyyət daşıyır.

B. Vahabzadənin yaradıcılığında beylənxalq mövzuda yazılmış əsərlərdə mühüm yer tutur. Onun 1967-ci ildə tamamladığı “Təzadlar” poeması, əslində Azərbaycan həqiqətlərinə həsr olunmuş qiymətli əsərdir. Şair poemada Viyetnam müharibəsi fonunda azadlıq düşüncələrini əks etdirmişdir. Şairin lirik şeirləri mövzu və mündəricə baxımından rəngarəngdir. Çingiz Aytmatov Bəxtiyar Vahabzadə haqqında deyir: “Bizi əhatə edən aləmdə nə varsa, Bəxtiyar Vahabzadəni dərindən düşündürür: xeyir və şəri, gözəlliklə eybəcərliyi, bütövlüklə kiçikliyi, bir sözlə insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq onun fitrətindədir. Mütəfəkkir sənətkarın ustad şairin başlıca qayəsi, uğuru da bundadır”.

Şair 1974- cü ildə “Əməkdar incəsənət xadimi” fəxri adını almış,1976-cı ildə Azərbaycan SSR-in, 1984-cü ildə keçmiş SSR-in Dövlət mükafatı laureatı olmuşdur. 1984-cu ildə xalq şairi adına layiq görülmüşdür.

Qüdrətli söz ustası B. Vahabzadə lirik, epik, satirik şeir və poemaların, publisistik və tənqidi məqalələrin müəllifi olaraq həm elmi, həm də bədii yaradıcılığında ana dilimizin saflığı və onun qorunması məsələlərinə diqqətlə yanaşmışdır.

Azərbaycan ədəbiyyatında Bəxtiyar Vahabzadənin dilə, dil tarixinə, onun sağlığına, qorunmasına həsr etdiyi şeirlər nəinki uşaqlar, hətta böyüklər tərəfindən sevilməkdədir. Şair dilin təmizliyinin qorunmasının təkcə yazıçı, şair və alimlərin deyil, ədəbiyyatşunasların və xalqımızın mənəvi yükünə çevirib. B. Vahabzadə şair olmaqla yanaşı geniş təfəkkürlü dilçi və ədəbiyyatşunasdır. Marifə Hacıyevanın “Bəxtiyar taleli şairimiz” məsələsində yazır: “B. Vahabzadə daim axtaran, dilimizin nəhayətsiz gözəlliklərini şeirə gətirən, qələmə aldığı mövzuya ehtiramla, Coşqun ürəklə yanaşan narahat, həm də müdrik bir şairdir”.

Şairin həm bədii, həm nəzəri əsərlərində, həmçinin sənət və ədəbiyyatla əlaqədar olan məruzə və çıxışlarında doğma dilimizin saflığını qoruyub saxlamaq, onu daha da zənginləşdirmək istiqamətində görülən tədbirlərə xüsusi önəm vermişdir.

Bu dil -bizim ruhumuz eşqimiz canımızdır,
Bu dil-bir birimizə əhdi-peymanımızdır,
Bu dil-tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil-əcdadımızın bizə qoyub getdiyi,
Ən qiymətli mirasdır onu gözlərimiz tək,
Qoruyub nəsillərə biz də hədiyyə verək.

B. Vahabzadə şeirdə ana dilini geniş tarixi konteksdə poetik məzmunda mənalandıraraq, hər bir dilin mənsub olduğu xalqın varlığının, həmçinin tarixi və mənəvi yaddaşının qoruyucusu olduğunu diqqətə çatdırır. Dil tarixinin müxtəlif mərhələləri məhz həmin dövrdə yaşayıb-yaratmıs sənətkarlarla bağlıdır. Çünki həmin sənətkarlar həmin dövrdə mövcud olan dilə daha tez müdaxilə edə bilirlər. Orta dövrdə Nəsimi, Xətayi, Füzuli kimi sənətkarlar yeni dövrdə M.F. Axundov, M. Cəlil, S.Vurğun çağdaş dövrdə isə B. Vahabzadə davam etdirmişdir. B. Vahabzadə ana dilimizin inkişafı yolunda daim mübarizə aparmışdır. Onun dil haqqında düşüncələri ədəbi-nəzəri fikrin ən kamil nümunələridir. Ana dili xalqın həm ünsiyyət forması, həm tarixi, həm dünya görüşü, həm də milli mənliyinin təsdiqi faktıdır.

Millətlərə, xalqlara xalqımızın adından
Məhəbbət dastanları yaradıldı bu dildə.

Şairi doğma dilinə xor baxanlar, ana dilində danışmağı özünə yaraşdırmayanlar hiddətləndirir. “Latın dili”ndə nəinki Azərbaycan ədəbiyyatında, hətta keçmiş sovetlər ittifaqı miqyasında milli azadlığın vacib şərtlərindən olan ana dilində mübarizədən söz açılır.

Sənətkarın “Azərbaycan-Türkiyə” adlı məşhur şeiri dövlətçiliyini bərpa edəndən sonra Azərbaycana bütün sahələrdə təmənnasız dəstək verən qardaş Türkiyə cümhuriyyəti ilə tarixi bağlılığı və çağdaş münasibətləri əks etdirən təsirli poetik nümunədir.

Bir millətik, iki dövlət,

Eyni arzu, eyni niyət,
Hər ikisi cümhuriyyət,
Azərbaycan- Türkiyə
Bir ananın iki oğlu,
Bir ağacın iki qolu,
O da ulu bu da ulu,
Azərbaycan-Türkiyə.
Ana yurdda yuva qurdum,
Ata yurda könül verdim,
Ana yurdum, ata yurdum
Azərbaycan-Türkiyə.

Şair ara sıra qəzet və jurnallarda “Ana dilim-ana könlüm!” , “Tarix, dil ənənə”, “Ana dili”, “Dil haqqında sorğu”, “Bir daha ana dili haqqında”, “Dil və əlifba”, “Dilimiz ədəbiyyatımız”, “Dildə təbiilik və gözəllik”, “Ana dili dövlət dili” kimi məqalələrlə çıxış edib. Şair dil haqqında şeirlərində türkçülüyü qabardır, dil haqqında oxucuda öyrədici, yol göstərici funksiya daşıyır. O milli şüuru dildə görür və ona görə də “ana dilinə” “ana könlüm” deyir. Professor B. Xəlilov B. Vahabzadənin yaradıcılığını dörd mərhələyə bölür. Şairin dil haqqında mübarizəyə başladığı illər, yəni 50-ci illər şairin dilçilik görüşlərinin birinci mərhələsi, 60-cı illər ikinci mərhələsi,70-ci illər üçüncü mərhələsini, 80-cı illər dördüncü mərtəbəsini təşkil edir. B. Vahabzadənin dilçilik görüşlərinin birinci mərhələsində yazılan, özünə qədərki və özündən sonrakı ədəbiyyat üçün örnək bir əsər olan “Ana dili” şeiri onun yaradıcılığında şah əsərlərdən biridir.

Dil açanda ilk dəfə ana söyləyirik biz,
“Ana dili” adlanır bizim ilk dərsliyimiz,
İlk mahnımız laylanı anamız öz südüylə,
İçirir ruhumuza bu dildə gilə-gilə.

Şair ana dilini konkret tarixi aspektdə mənalandırmağa nail olmuşdur.

Şairin fəaliyyətinin müəyyənləşməsində şeirlərinin dil faktorları mühüm rola malikdir. Çünki dil bədii formanın, ədəbi üslubun ayrılmaz hissəsidir və dili yalnız onlarla birgə təhlil edib dəyərincə qiymətləndirmək olar. Şairin dili, emosional çalarları, poetik təfəkkür tərzi, təzə rəng, milli ruh və obrazlığı ilə seçilir. Bu baxımdan şairin “Beşik” şeirinin poetik məzmununa diqqət yetirmək olar.

Hopdu ruhumuza bayatılardan,
Nəğməyə bənzəyən ləhcələrimiz.
Daddıq dilimizin şirinliyini,
Hələ bələkdəykən bu beşikdə biz.

B. Vahabzadənin şeir fərdiliyini, bənzərsizliyini təmin edən əsas amil onun mənsub olduğu millətin dilini incəliklərinə qədər duyması, sözün içində yaşaması və sözü içində yaşatması ilə üzə çıxmışdır.

Laylanın hər xalı bir ümid güman,
Onun ahənginə qaynadı qanım.
Anamın yanıqlı laylalarından,
Sürüldü ruhuma Azərbaycanım.

Şairin dilinin mühüm xüsusiyyətlərindən biri və başlıcası onun qrammatik dəqiqliyi və sərraslığıdır. Şairin dilə yanaşmasındakı ciddiyyət göstərir ki, o xalq dilinin təcrübəsi çərçivəsində, bədii məntiqin tələbi daxilində normalara riayət edir, həmçinin qafiyəyə görə sözün təbii sırasına xələl gətirmir, sözün fonetik sərhədini aşmır, söz oyunbazlığından uzaq durur.

B. Vahabzadənin dili bədii keyfiyyətləri ilə seçilən, özünəməxsus poetik-fəlsəfi zənginliyə, dolğunluğa malikdir. Onun poeziyası dərin və aydın məntiqi ilə, həmçinin yüksək bədii məziyyətləri ilə ana dilimizin zənginləşməsinə və qorunmasına xidmət edir. Tofiq Hacıyev B. Vahabzadənin bədii dilinin özəllikləri ilə əlaqədar yazdığı məqaləyə müraciət edək.

B. Vahabzadənin yaradıcılığını bu aspektdən təhlil edən alim, bədii-zehni təfəkkürümüzün genişlənməsində, mənəvi koloritimizin artmasında, həmçinin dilimizin saflığının qorunmasında B. Vahabzadənin poeziyasını yüksək qiymətləndirir.

B. Vahabzadə sözü məharətlə oynadaraq parlaq bədii təzadlar yaradır, fikrin poetik məğzini dərinləşdirir və fəlsəfi ümumiləşdirmələr səviyyəsinə qaldıraraq, oxucuda böyük sevinc və mənəvi estetik duyğular oyadır:

Bəzən nalə çəkib tökər göz yaşı,
Həmişə özümlə durar yanaşı,
Özümün hakimi, sözümün başı,
Eşqimin, arzumun qulu fikirlər.

Ənənəvi mövzuları qələmə alanda da şairin poetik özünəməxsusluğu dərhal duyulur. Bir çox adi görünən mətləbləri mənalandırmağı, oxucuya çatdırmaq üçün istədiyi fikri yüksək poetik duyğularla, həqiqi poeziya dili ilə ifadə etməyi bacarır:

Qocaldır insanı, qocaldır zaman,
Ürəyin atəşi, közü qocalmır.
Dağları, daşları qocaldan zaman,
Bilmirəm, bəs niyə özü qocalmır?

Bəxtiyarın özünəməxsus poetik nəfəsi bu misralardakı mənanı fəlsəfi mərtəbəyə qaldırır. Şairin poetik qüdrəti bədii sualın onun fəlsəfi mahiyyətini açıqlayan cavabı yerləşdikcə bilmək bacarığından ehtiva olunur:

Getdi baharımız, yer qışa qaldı,
Düzlər qara qaldı, yağışa qaldı,
Bizimki bir quru baxışa qaldı,
Neyləyək, arzunun gözü qocalmır.

Sənətkarlıq məharətinin, orjinal poetik mənanın təravətli ifadəsi heyranlıq doğurur. Ana laylası vətən sevgisinin insanın ruhuna süzülməsinin şairanə ifadəsi məhz budur: "süzüldü ruhuma Azərbaycanım".

Sənətkarın diqqətində İnsan və zaman məfhumu yaradıcı müstəvidə mücərrəd, ümumi anlayışlar kimi deyil, yığcam realist təhlilini tapan obrazlar kimi səciyyələnir. Şair əksər şeirlərində cəmiyyətin sosial ab-havasını, günün əxlaq və mənəviyyat qatlarını, bəşəri sual-problemləri, tarixin və çağdaşlığın ortağı kimi dəyərləndirir. B. Vahabzadənin yaradıcılığında fəlsəfi lirikanin çox gözəl nümunələri hədsizdir. “Piyada -sərnişin” şeirdə fikrimizin istingahıdır.

Sərnişin yol getdi, yoldan xəbərsiz,
Bilmədi bu yolda kələ-kötür var.
Ancaq piyadanın xəbər-ətərsiz,
Alnında iz açdı getdiyi yollar.
Yol özü apardı sərnişinləri,
Yolda nə iz qaldı, nə də toz oldu.
Ancaq piyadalar gördü dünyanı,
Sərnişin dünyadan xəbərsiz oldu.

Həyati mənbə, ötəridə əbədini həkk edə bilmək məharəti sənətkarlıq qüdrətinə xasdır. Piyada ilə sərnişinin hərəkətindəki məzmuna fəlsəfi yanaşaraq, onu ictimai dəyər kontekstində mənalandıran şair bədii-fəlsəfi ideyanı belə indeksləşdirir. Yəni rəmzi mənada sərnişin yolu həyat yolu kimi mənalandırır və sərnişin məsafəni sürətlə gedir, ancaq bu sürətdə sərnişin hərəkət imkanını dincə qoyur, gördükləri sürətlə dəyişir və yox olur. Lakin piyada isə ayağı altında torpağı duyaraq gedir, gördükləri yaddaşının aynasında naxışlanır. Şair şeirin bədii həllini poetik-fəlsəfi dərinlikdə ümumiləşdirir, çünki məzar hamının görüş yeridir.

Qəribə dünyadır sərnişin ilə,
Piyada görüşür mənzil başında.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. Y. Qarayev, Ş. Salmanov. Poeziyanın kamilliyi. Bakı, 1985.
2. İ. Əliyev. Bəxtiyar Vahabzadənin lirikası. Bakı, Yazıçı,
3. Müasir Azərbaycan ədəbiyyatı. Dərslik. Bakı, 2007.
4. V. Zaurlu. Poezyanın inkişaf yolları. Bakı, Ozan, 1977.
5. V. Allahverdiyev. Bəxtiyar Vahabzadə yaradıcılığında milli özünüdərkin bədii-fəlsəfi ifadəsi. Bakı, Yazıçı, 2011.
6. B. Vahabzadə seçilmiş əsərləri. Bakı, 2014.

## B. VAHABZADƏNİN “GÜLÜSTAN” POEMASINDA TARİX VƏ MÜASİRLİK

*Tələbə: Musayeva Urfanə Xudu qızı (qrup AZD2001B)*
*Elmi rəhbər: dos. V. S. Allahverdiyev*
*musayevaurfane.01@gmail.com*

Azərbaycan poeziyasının, dramaturgiyasının, elminin görkəmli nümayəndələrindən biri də böyük xalq şairimiz Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci ildə Şəkidə anadan olmuşdur. İbtidai təhsilini orda almış və 1934 -cü ildə ailəsi ilə Bakı şəhərinə köçəndən sonra təhsilini 176

saylı orta məktəbdə davam etdirmişdir. Orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil alır. Ali məktəb həyatı onun ömründə yeni yollar, geniş üfüqlər açır, poeziyaya, ədəbiyyata olan marağını, həvəsini daha da alovlandırır.Yetmisdən çox şeir kitabı ilə böyük oxucu sevgisi qazanan B.Vahabzadə 2 monoqrafiyanın, 11 elmi publisist kitabın və yüzlərlə məqalənin müəllifi olaraq əsl alim kimi özün sözün deyib.

B.Vahabzadə poeziyasının başlıca keyfiyyətləri sırasında onun milli bədii irsə söykənən, ədəbi ənənələrdən yaradıcı şəkildə bəhrələnən, əsərlərinin tarixilik və müasirlik ruhunda diqqətə çəkilmişdir. Belə ki, şair tarixi keçmişimizə, milli-mənəvi dəyərlərimizin, genetik yoldaşımızın keçmiş səhifələrinə müraciət edəndə də müasirlik aspektindən çıxış etmiş və aşıladığı ideyanı müasirliklə bağlamağa çalışmışdır.

Ümumiyyətlə şair istər lirik şeirlərində, istərsə də poemalarında tarixilik və müasirlik vəhdət təşkil edir.

Onun poeziyasında haqsızlığa, ədalətsizliyə qarşı üsyan Bəxtiyar şeirinin əsas leytmotivlərindəndir. Görkəmli söz ustası hələ ötən əsrin 60-cı illərindən ölkəmizdə sovet imperiyasına qarşı milli azadlıq hərəkatının öncüllərindən biri olub. 1959-cu ildə yazdığı “Gülüstan” poeması ilə 2 yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirərək azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulub.

Bəxtiyar Vahabzadə millətin məhəbbətinə layiq olduğunu təsdiq etmək üçün ziddiyyətlər içində keçən həyatının bütün cəfalarına tap gətirib, heç vaxt sarsilmayıb. Bunu Bəxtiyar Vahabzadənin poemalarında və ən əsası “Gülüstan” poemasinda da öz əksini tapmışdır.

XX əsr vahid türk bədii düşüncəsinin, ictimai fikrinin formalaşmasında Bəxtiyar Vahabzadə mühüm rol oynayır. Bəxtiyar Vahabzadənin yaradıcılığında Azərbaycanın bütövlüyü məsələsi, Türk dünyasının birliyi, türk dövlətləri arasında qarşılıqlı ictimai, mədəni əlaqələrin güclənməsi fikri əsas təşkil edir.

Bəxtiyar Vahabzadə güneyli, qüzeyli Bütöv Azərbaycanın istiqlal şairidir. O , öz şəxsiyyəti və yaradıcılığı ilə Güney Azərbaycan milli hərəkatının ilhamvericisi, dəstəkçisi, Quzey Azərbaycan milli hərəkatının fəal iştirakçılarından olmuşdur. Bəxtiyar Vahabzadə ən çətin tarixi şəraitlərindən belə millətinin azadlığı, vətənin bütövlüyü fikrini müdafiə etmişdir.Təsadüfi deyil ki, şairin 1959-cu ildə qələmə aldığı “Gülüstan” poeması bütün SSRİ məkanında ideoloji stereotipləri sındıran, milli ideyanın əksi baxımından ən mükəmməl bədii nümunə hesab oluna bilər.

Bəxtiyar Vahabzadənin “Gülüstan” poeması qeyrətli şair-vətəndaşın bədii etirazı və poetik “usyanı” idi.

Əyləşib kənarda topsaqqal ağa,
Hərdən mütərcimə suallar verir.
Çevrilir gah sola, baxır gah sağa,
Başını çevirib təsbeh çevirir.

Qoyulan şərtlərə razıyıq deyə,
Tərəflər qol çəkdi müahidəyə,
Tərəflər kim idi?!

Hər ikisi yad!

Çar Rusiyası və İran dövləti poemanın ifşa hədəfi olaraq şair tərəfindən kəskin hiddətlə lənətləndirilir. Poemanın hər misrası sanki yadelliyə, işğalçıya qarşı atılan mərmiyə bənzəyir. Bu misralarda xalqın ərən oğullarının etiraz harayı duyulur.

Yadlarmı edəcək bu xalqa imdad?!
Qoy qalxsın ayağa ruhu Tanrının.
Babəkin qılıncı parlasın yenə
Onlar bu şərtlərə sözünü desin.

Şair "bu şərtlərə" ifadəsi ilə parçalanmış, həmçinin ilhaq olunmuş torpaqlarımızı nəzərdə tutaraq, buna Babək qılıncının müdaxiləsini təbliğ edir. Həm də "Vətənin mərd oğulları"nın "bərələri, yolları" açmaq cürəti arzulayır, onlara ulu babaların əzəmətini, hünərini xatırladır.

Bəs hanı bu əsrin öz Koroğlusu -
Qılınc Koroğlusu, söz Koroğlusu?
Babaların Şəki, şərəfi əlbət,
Bizə əmanətdir, böyük əmanət...

Əsər bədii-publisistik dildə yazılsa da, şairin poetik məramı, bədii niyyəti yığcam, lakonik və kəskindir. O xalqımızın, millətimizin taleyinə qəsd edənlərin, millətin, yurdun ikiyə bölünməsinin səbəbkarlarını cəsarətlə, ifşa edici şəkildə əks etdirmişdir.

Atıb imzasını hər kəs varağa,
Əyləşir sakitcə keçir yerinə.
Eynəkli cənabla,təsbehli ağa
Qalxıb əl də verir biri-birinə.

Burada "eynəkli cənab" rusların, "təsbehli ağa" isə fars nümayəndəsi kimi nifrətlə təsvir olunmuşdur. Daha sonra şair bu nümayəndələrin mənsub olduqları hakimiyyətlər tərəfindən Azərbaycana qarşı törədilən ədalətsizliklərin, mənəvi və fiziki əzabların bədii-psixoloji mənzərəsini canlandırmışdır.

Min ləkə vurdular şərəfimizə,
Verdik , sahibimiz yenə "ver"-dedi.
Lap yaxşı eyləyib doğrudan, bizə
Biri "baran" dedi, biri "xər" dedi.

Şairin bu əsərdə bədii dillə ifadə etdiyi ittihamlar senzuranı möhkəm diksindirmisdir. Buna görə də əlaqədar təşkilatlar məxsusi cəza mexanizmi işə saldılar. Amansız təqiblərə baxmayaraq, xalqın qəlbində cəsarətli şair oğluna tükənməz və əbədi məhəbbət doğuldu .

Təsadüfi deyildi ki, qadağan olunmuş bu əsər xalqın vətənpərvər övladları tərəfindən əzbərlənir, üzü köçurülərək gizli surətdə əldən-ələ gəzirdi.

İctimai-siyasi, həmçinin vətəndaşlıq poeziyasının dəyərli nümunələrindən biri olan "Gülüstan" poemasında mövzusunu ideya-mundəricisi, həmçinin etik-əxlaqi və bədii-fəlsəfi düşüncələr aləmi zəngindir.

Bəxtiyar Vahabzadənin vətəndaşlıq lirikası yalnız vətənin, yurdun tərənnümündən ibarət deyil, ümumxalq miqyaslı mühüm problemlər, əxlaqi və mənəvi düşüncələr onun vətəndaşlıq

lirikasının ideya və məzmunu n ifadə edir. Məhz bu baxımdanm “Gülüstan” poemasında şair ictimai laqeydliyi, həqiqət və ədalət uğrunda mübarizədən uzaq durmağa xalqın dərdinə, iztirabına, ədalətin tapdanmasına biganə soyuqqanlı olmağı əxlaqi-mənəvi, həmçinin milli özünüdərk aspektindən mühakimə edərək dəyərli bədii -fəlsəfi ümumiləşdirilmə yaradır .

Dolandı zəmanə, döndü qərinə,
Şairlər od tökdü yenə dilindən.
Vurğunun o həsrət nəğmələrinə
Şəhriyar səs verdi Təbriz elindən.

... Bir uçaydım bu çırpınan selinən.
Ağlasaydım uzaq düşən elinən
Bir görəydim ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı.

Şairin poeması Şəhriyarın məşhur “Heydər baba” poemasının haraydolu misraları ilə tamamlanmasının səbəbi, məhz xalqın ruhunun, məhəbbətinin həmişə bütöv olmasını, bədii fakt və dərin poetik-fəlsəfi niyyət kimi ümumiləşdirməsidir .

“Gülüstan” poeması Bəxtiyar Vahabzadənin yaradıcılığının zirvəsidir. Əsərin bədii-publisist notlarla yazılması, ciddi ittiham və qaynaqlarını, həmçinin sərt həqiqətlərin dolğun ifadə olunmasına vəsilə olmuşdur. Poema həm də bədii təsvir və ifadə əlvanlığı, zəngin təzadlarla diqqəti cəlb edir. Bu da şairin yüksək sənətkarlıq məziyyətlərini təsdiqlədi.

Poema mənəvi həyatın qatlarını açan, tarixin ibrət dərslərini, insan məişətinin mənəvi-əxlaqi ahəng və təzadlarını cəmiyyət və təbiət problemlərini geniş epik təfəkkürlə, lirik bir vüsətlə açıqlayan bədii forma kimi ədəbi prosesin maraqlı yanlarındandır. Azərbaycan poeziyasında bu janrın inkişafında xüsusi xidməti olan qüdrətli sənətkarlardan biri də Bəxtiyar Vahabzadədir.

Böyük sənətkar üslub orjinallığı ilə seçilən, obrazların zənginliyi , insan xarakterinin dərin təhlili baxımından sanballı,ədəbi ictimaiyyətin həmişə diqqətini cəlb edən poemalar yazmışdır.

Lirik təfəkkür tərzi, lirik duyumu Bəxtiyar Vahabzadənin sənətkar özünə məxsusluğunu şərtləndirən cəhətlərdəndir. Onun yaradıcılığını başlıca ideya-mənəvi mündəricəsi, poetik-fəlsəfi düşüncələri daha çox lirik əsərlərində poeziyasında poema janrı təbii qanunauyğun hadisə kimi səciyyəvidir. Öncə o səbəbdən ki, onun lirikası və epik əsərləri həm mövzu, ideya-fəlsəfi istiqamət, həm də forma-üslub baxımından yaxındır, digər tərəfdən müəllifin lirik məzmundakı ideya-mənəvi axtarışları, insan və zamanla bağlı düşüncələrinin yetkin inkişafı, dolğun ifadəsi poemalarında tamamlanır. Poema janrını şairin yaradıcılığında lirikanın daha yetkin və daha çox inkişaf etmiş mərhələsi kimi dəyərləndirmək lazım gəlir. 60-80-ci illər yaradıcılığı, həmçinin bu tarixindən sonrakı illərdə də poemanın mövqeyi şairin yaradıcılığında davam etməkdədir.

“Gülüstan” poeması yalnız Bəxtiyar Vahabzadənin fərdi yaradıcılığının, həmçinin ədəbiyyatımızın hadisəsi deyil, bütövlükdə milli-mənəvi düşüncəmizin , milli mənlik şüurunun milli özünüdərkin intişar tapdığı çox dəyərli sənət hadisəsi kimi səciyyəvidir.Bu əsərdə ikiyə bölünmüş xalqımızın, vətənimizin tarixi faciəsi yüksək vətənpərvərlik hissi və cəsarəti ilə əks olunmuşdur. Şair tarixi faciəmizin baş verdiyi səhnəni sənətkar-vətəndaş ağrısı ilə canlandırır .

İpək yaylığıyla o asta-asta,
Silib eynəyini gözünə taxdı.
Əyilib yavaşca masanın üstə
Bir möhürə baxdı, bir qola baxdı.
Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsəyərək
Bir qələm əsrlik hicran yaratdı ,
Bir xalqı yarıya böldü qılınctək.

Bu misraların ruhunda vətənin, xalqının, taleyi üçün ağrıyan bir şair-vətəndaşın harayını eşidirik. Sənətkar məharətiylə qələmə alınmış misralarda şairin kədər dolu səsində bir poetik etiraz notu duyulur.

Öz sivri ucuyla bu lələk qələm,
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı,
Ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın.
O güldü, kağıza qol çəkən zaman,
Qıydı ürəklərin hicran səsinə.
O güldü haqq üçün daim çarpışan
Bir xalqın tarixi faicəsinə.

Öz xalqının tarixi faicəsini bədii sənət müstəvisində böyük cəsarətlə canlandıran şair, ilk dəfə olaraq ədəbiyyatımızda milli düşüncənin , milli özünüdərkin təməlini qoydu.

Bəxtiyar Vahabzadə əllinci illərin axırlarından başlayaraq mübariz ruhda, vətənpərvərlik duyğuları ilə millət sevgisini təbliğ edən qabaqcıl və aktiv düşüncə sahibi kimi, görkəmli şair kimi xalqın diqqəti və məhəbbətini qazanmışdır. Həmin dövrdə millətpərəstlik sovet ideyalarına çox əks bir ideologiya kimi rədd edilir, onun taleyində baş verən ədalətsizlikəri cahana yaymaq, milli düşüncənin, milli şüurun inkişafına xidmət edən fikirləri təbliğ etmək millətçilik hesab olunurdu.

Sovet imperiyasının, kommunist rejiminin at oynatdığı siyasi senzuranın tüğyan etdiyi bir dövrdə öz xalqının, vətənin ağrı dolu taleyini qələmə alaraq, işğalçıya, yadelliyə kəskin nifrət hissini bədii sənət dili ilə ifadə etmək sürəti böyük qəhrəmanlığa bərabər idisə, digər tərəfdən şairin şəxsi taleyi üçün ağır fəlakət sayılırdı. Bəxtiyar Vahabzadənin 1959-cu ildə qələmə aldığı "Gülüstan" poemasını "Şəki fəhləsi" qəzetində dərc etdirdikdən sonra imperiyanın əlaqədar təşkilatlarının qəzəbinə tuş gəlir. Poemada şair etirazının qaynaqladığı məsələnin kökünə diqqət edək.

1813-cu ildə Rusiya və İran arasında bağlanan "Gülüstan" muqaviləsində İran dövləti Gəncə, Şəki, Şirvan, Quba, Qarabağ, Talış və Bakı xanlıqlarından, həmçinin Dağıstan, Şərqi Gürcüstan ərazilərinin Rusiyaya verilməsini rəsmi olaraq qəbul etdi. Bununla da rus imperiyası öz işğalçılıq siyasətini rəsmiləşdirməyə nail oldu.

Bəxtiyar Vahabzadə “Gülüstan” poeması ilə başlanan və həqiqi şair-vətəndaş qayəsi ilə daim yaşayan sənətkar olduğu üçün ədəbi düşüncələrimiz də “milli birliyin, vahid Azərbaycanlığın” öncülünə çevrildi. Görkəmli tənqidçi Vaqif Yusifli onu belə səciyyələndirir. ”... Onun poeziya tarixində xidmətlərini şişirtmək niyyətində deyilik. Ancaq fakt burasındadır ki, milli bilik, Azərbaycanı vahid görmək ideyası sovet dönəmində Bəxtiyar Vahabzadədən başlayır”.

Bəxtiyar Vahabzadənin poemasında dili, torpağı bütöv bir xalqın bu şəkildə parçalanması yalnız tarixi acı və ədalətsiz faktı olaraq qeyd olunmur, həm də aydın dərk olunmuş, yaranmış bir ağrı hissi kimi ifadəsini tapır. Lakin bu kədər nə qədər ağır olsa da, xalqın mənəvi bütövlüyü, səbatı, birlik ruhu bu iztiraba dözür. Şair bu ağır faciəni əks etdirməklə bahəm, qabiliyyətə ümid duyğusunu da ifadə etməyi öz şəxsi cəsarətli ilə göstərir.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. Ş. Salmanov. Müasirlik mövqeyindən. Bakı, “Yazıcı”, 1982.
2. Müasir Azərbaycan ədəbiyyatı. (Dərslik). II hissə. BDU. Baki, 2007.
3.V. Allahverdiyev. Poeziyanın inkişafı yolları. “Ozan”, 1997.
4.V. Allahverdiyev. Bəxtiyar Vahabzadə yaradiciliginda milli özünüdərkin bədii fəlsəfi ifadəsi. Baki, “Yaziçı”, 2011.
5.B. Vahabzadə seçilmiş əsərləri. Bakı, “Yazıcı”, 2014.

## BƏZİ QARABAĞ TOPONİMLƏRİ YENİ YANAŞMA MÜSTƏVİSİNDƏ

*Tələbə: Abdullayeva Vəfa Vüqar qızı (qrup AZD1901B)*
*Elmi rəhbər: f.ü.f.d.,b/m. Əliyev Əli Umud oğlu*
*vefa.abdullayeva@gmail.com*

Müstəqillik əldə olunan dövrdən sonra hər bir sahədə irəliləyiş olduğu kimi onomastık vahidlərin də düzgün deyilişi, yazılışı və etimoloji baxımdan doğru şərh olunmasında gözəçarpacaq dərəcədə yeniliklər göz önündədir. Belə ki, bu sahədə bayağı və cılız şərhlərə son qoyulmuş, məntiqli, doğru və düzgün elmi araşdırmalara önəm verilmişdir. Bu isə müasir dilçi alimlərimizin uğurlu axtarışlarının nəticəsi kimi diqqəti cəlb edir. Odur ki, mövzunun aktuallığını nəzərə alaraq və etibarlı mənbələrə dirsəklənərək bir sıra toponomlərin şərhinə müasir yanaşma müstəvisində aydınlıq gətirməyi önəmli bilib bəzi toponimlərin izahına çalışmışam.

Toponimika yunan sözü olub (topos-yer və onoma)- coğrafi adları; toponimləri, onların mənasını, quruluşunu, mənşəyini və yayılma arealını öyrənir. Mənası yer deməkdir.

Hər bir ərazidəki toponimlərin məcmusu onun toponimiyasını təşkil edir. Azərbaycan toponimiyqsının əsas fondunu Azərbaycan (Türk) mənşəli adlar təşkil edir. Azərbaycanda qədimdən başlayaraq,, hun, qıpçaq, oğuz-səlcuq və monqol qaydalarının, habelə İber-Qafqaz, İran, ərəb və.s xalq adları ilə bağlı toponim layları aşkara çıxarılmışdır.

Toponim sözü ilk dəfə 1876-cı ildə İngilis dilində işlənmişdir və ondan sonra digər dillərdə istifadə edilməyə başlanmışdır. O vaxta qədər Toponim termini əvəzinə “yer adı” terminu işlənmişdir. İlk Toponimistlər böyük ehtimalla dastan yazarları və şairlər olmuşdur ki, bunlar da Öz

əsərlərində müəyyən yerdə verilən adların mənasına açıqlıq gətirmişdilər. Bəzən yer adları etimoloji əfsanələrin köku olurdu, bəzən bir adın quruluşuna baxaraq məna çıxarılırdı və bu çox vaxt səhv olurdu. Yer adları yararlı bir coğrafi əlaqə sistemidir. Bir yerdən danışarkən tutarlı və xətasız olmaq vacibdir. Buna görə də toponomistlər tarixi əsaslara dayanaraq rəsmi coğrafi adların açıqlamasını verirlər. Toponimləri araşdırarakən elmi tutalqalara əməl etməli, olduğumuz vacib ünsürlər toponimin hansı coğrafi ərazidə yayıldığı, neçənci əsrdən həmin ərazidə işləndiyini, hansı dilə aid olduğunu, tələffüzü kökü və mənasını düzgün müəyyənləşdirmək lazımdır. Toponimlərin mənasının açıqlanmasının, həmin ərazinin coğrafiyası və tarixi üçün əvəzsiz faktdır. Toponimlər etnik yerləşmə və bəlli köç dönəmlərinin təsbit olunmasında böyük rol oynayır. Toponomistlər bir bölgədəki yer adlarını düzgün müəyhənləşdirməklə oradaki etnik mədəniyyəti də qoruyurlar. Toponimlərin araşdırılıb, öyrənilməsi dövlətin, xalqın tarixinin, hansı köklərə mənsub olmasının müəyyənləşdirilməsi baxımından çox əhəmiyyətlidir. Toponimlərin bir sıra növləri vardır bunlar:

Aqronim—meydan adları (qədim yunanca ayapa- meydan, sahə).

Antrotoponim—Şəxs adlarından törəmiş coğrafi adlar (qədim yunanca antro insan)

Astionim—şəhər adları (qədim yunanca aotu- şəhər)

Dromonim—nəqliyyat yollarının adları (qədim yunanca - qaçış, hərəkət, yol)

Hidronim—çay adları (qədim yunanca - su)

Qodonim—küçə adları

Oykonim—yaşayış yeri adları (ev, yaşayış yeri)

Oronim—dağ adları

Urbanonim—şəhəriçi obyekt adları( latınca urbanus - şəhərli)

Makrotoponim—böyük yaşayış yerlərinin adları( qədim yunanaca -böyük)

Mikrotoponim—kiçik yaşayış yerlərinin adları( qədim yunanca -kiçik)

Kainatln ən qədim mədəniyyət mərkəzlərindən biri də Azərbaycandır. Hər kəsə məlumdur ki , ölkəmizin altı da, üstü də tükənməz xəzinədir. Hər qarışı canlı tarixdir. Bu tarixi yaşadan, minilliklərdən bu günə və sabaha doğru, düzgün məlumatlar verən babalardan bizə yadigar qalan xüsusi adlardır ki, bunlar dilçilikdə onomastik vahidlər adlanır. Onomastik vahidlər bütün dünyanın ünvan dilidir, tarixi pasportudur, etnik sikkəsidir.

Azərbaycan xalqının tarixinin qədim olduğu qədər toponim tarixidə qədimdir.

Məlumdur ki, Azərbaycan ən qədim insan məskənlərindən biridir. Bunu Qarabağ ərazisində tapılan Azıx mağarası sübut edir. Hər kəsə məlumdur ki, Azıx mağarası Qarabağ ərazisində, Quruçay dərəsində Füzuli rayoni ilə Xocavənd rayonu ərazisində yerləşir. Burada müəyyən vaxtlarda aparılan tədqiqatlar zamanı tapılan əyani sübutlar bu ərazinin ən qədim insan məskəni olduğunu bir daha sübut edir. Bildiyimiz kimi Qarabağ ərazisi, Azərbaycanda yaranmış və ilk dövlətlərdən biri olan Albaniya dövlətinin ərazisində yerləşmişdir. Burada 26 tayfa olmuşdur ki, bunlarında hər biri özünəməxsus şəkildə adlandırılmışdır. Qarabağ ərazisi Albanların dövründə eramızın 1 minilliyinə və ondan əvvəlki yüzilliklərə aid tarixi mənbələrdə Kür çayından cənubdakı ərazidə Kaspiana, Arsak (Arsax da yazılır), Sünik, Uti, Sakasena və s. Vilayətlər, (əyalətlər) yalnız alban, kaspi, sak, qarqar, uti, soda (savdey) və s. Tayfa adlarına rast gəlinir. Bu tayfalar əsas etibarilə qədim Qarabağ torpaqlarında məskunlaşmışdılar.

Sadalanan əyalətlərdən: Kaspiananın bir hissəsi, Arsak, Uti, Sakasena, Sunik və Girdiman indiki Qarabağın torpaqlarında qərar tutmuşdu. Beləliklə Aran və Dağ Qarabağ vahid məkanda hələ çox qədim zamanlarda Qafqaz Albaniyasının tərkib hissəsi olmuşdur. VIII əsrə qədər bu ərazidə Albaniya dövləti öz mövcudluğunu qorumuş lakin sonralar Ərəblər tərəfindən Azərbaycan işğal edildikdən sonra burada yerləşən toponim adlarında da müəyyən dəyişikliklər edilmişdir. Lakin onu da unutmaq olmaz ki, Azərbaycan-Qarabağ ərazisində ən qədim zamanlardan türk mənşəli tayfalar çoxluq təşkil etmişlər. Qədim Qarabağın etnik tərkibinə Sode və Sodaklar adlı türk mənşəli tayfalar da daxildir. Hətta erməni-hay tarixçisi M. Xorenatsi Miladın I yüzilliyinin ortalarında Arsak əyalətində, Kür çayının cənubundakı ərazilərin hakimi Aran haqqında danışanda yazır ki, utilər, qarqarlar, qardmanlar və sodelər (əslində Sodeylər) Aranın nəslindəndirlər. Bu məzmunda məlumat M. Kalankatlunun salnaməsində də rast gəlinir. Lakin, o bu adı Savdev kimi işlədir. 1727-cu ilə aid bir sənəddə Qarabağ ərazisində Sadak-Tor yaşayış nahiyvəsinin adı çəkilir. Deməк, Sodak etnonimdir, tor-türk dillərində dağ örüşü mənasındadır. Dağ örüşündə yaşayan sadaklar). Bir sıra mənbələr göstərir ki qədim albanlara məxsus Sadak türk ailələri Arsakda Albaniyanın giircüstanla sərhəd bölgəlırində, həm də qərbi Azərbaycanda yaşamışlar. Qədim azər türkcəsində danışan sadaklar Güney Azərbaycanda Sadaklı kəndləri salaraq orada da məskunlaşmışlar. Sal, Sadak, Satak adlı türk tayfalarının adını yaşadan etnonimlər türk dünyasında geniş yayılmışdır. Sataklar adlı türklər Orta Asiya və Altayda indi də yaşayırlar.

Tarixi Qarabağın ərazilərində məskunlaşmış türk tayfalarından biri də Aran adlanırdı. Antik mənbələrdə, miladdan əvvəl 23-cü və Miladın 79-cu illəri arasında Aran -Oran formasıda işlənmişdir. Qaraqalpaqlarda Aranşi (arançı), türkmənlərdə -Aranje tayfaları vardır. Qarabağda vaxtilə Aranrot adlı mahal olmuşdur. Aranrot sözü Aran etnonimindən və “Rot” çay ( fars dilində) sözündən olub -Aran çayı deməkdir. Aran türk tayfasının adı azərbaycanda indiyədək bir neçə etnonimdə qalmışdır. Aran kəndi (Lerik bölgəsində). Aran dağı (tovuz bölgəsi), Arançı təpələri (Ağstafa bölgəsi) hal-hazırda Beyləqan rayonu ərazisində yerləşən Yuxarı Aran kəndinin adı da Aran tayfalarının adından qaynaqlanmışdır. Aranların məskunlaşdığı ərazi isə Aranzəmin adalandırılmışdır.

Sözügedən bölgənin qədim elatlarından biri də dondar türkləridir. Dondarların bu ərazidə yaşamaları bu ərazinin toponimlərinədə də öz əksini tapmışdır. Qubadılı və Tovuz rayonu ərazisində Donadr adlanan kəndlər vardır ki, bunların əhalisi azəri türklərindən ibarətdir. Qazax bölgəsində Dondardağ adlı dağ var. Diqqəti çəkən məqam isə Şuşa sözünün dondarlarla bağlanılmasıdır. Dondarlar e.ə 3-4 əsrdə Hunlarla bərabər edilən hərbi yürüşlərdə iştirak etmişdir. Çox güman kı, Dondarlar bu yürüşlər zamanı Qarabağa gəlmiş və burada məskunlaşmışlar və yaşadıqları məkanlardan birinin adını Şoşu adlandırmışlar. Sonralar bu söz fonetik dəyişikliyə uğramış və Şuşa formasına düşmüşdür. Bu fikri Qarabağ ərazisində məskunlaşmış türk mənşəli tayfalardan: sak, tərtər, peşeneq, kəngər, berendey və başqalarının gəlişi və onların adları ilə çoxsaylı etnonimlər, toponimlər təsdiq edir. 1727-ci ildə tarixi səndələrdə Şuşi adlı kənd qarabağ ərazisində (Ağcabədi bölgəsi) , Şoşu isə Qarabağın Çulundur mahalında (Mehri bölgəsində) və indiki Dondarlı (Quba bölgəsi ) qeyd edilmişdir.

Tarixi qaynaqlarda Arsak əyalətində Pazkank (Panskank) nahiyyəsinin adı çəkilir. Alban tarixçisi M. Kalankatlu xatırladır ki, albaniyada Pazkank adlı vilayət var. Peçeneklər qafqazda hələ miladdan əvvəl yaşamışlar. Peçeneklər 3 tayfadan ibarət olmuşlar, onlardan biri isə Kəngərli olmuşdur. Kəngərlilər əsasən Gürcüstan. Qərbi Azərbaycan və Naxçıvan ərazisində məskunlaşmışlar. Qarabağ xanı Pənah Əli xan Kəngərləri döyüşkən elat kimi bir hissəsini Naxçıvandan Qarabağa köçürmüşdü. Böyük bir qismi isə Naxçıvanda qalmış orada Şərur bölgəsində Qarabağlar kəndi, Qarabağlar abidəsi, Qarabağ tayfasının adını daşıyır. Qarabağ tayfasının burada hələ qədim zamanlardan məskunlaşdığı qeyd olunur.

10-cu yüzilliyin müəllifi K. Baqryanordnu cənubi rus çöllərində kəngər-peçeniqlərin bir tayfasının adı Qarabağ olmasını göstərir. Məlumdur ki, Kəmgərlər Albaniyada, o cümlədən Qarabağ ərazisində miladın əvvələrində məskunlaşmışlar.

Qarabağ sözü Vll əsrdən etibarən işlənməyə başlamış, XII əsrdən etibarən isə geniş yayılmışdır.

Qarabağ ─ qara və bağ türk sözlərinin birləşməsindən əmələ gəlmişdir, "qara" sözü türk dillərində o cümlədən Azərbaycan dilində, rəng bildirməklə yanaşı, "Böyük", "qalın", "sıx" mənasında da işlənmişdir. Bəzi tədqiqatçılar Qarabağın "Böyük bağ", "Səfalı bağ" mənasında işlədildiyini də bildirirlər. Lakin bir çox tədqiqatçılar kimi biz də bu fikirlə tam razı deyilik. Çünki qarabağ sözünün ayrılıqda mənalarına baxsaq— Qara sözü türk və Azərbaycan dilində ən qədim zamanlardan böyük mənasında işlənmişdir. Son dövrlərdən Qara sözü rəng mənasında işlənmişdir. Ən qədim yazılı abidəlirimizin dilinə nəzir yetirsənk görərik ki, burada rəng mənasında ─ siyah sözü işlənmişdir. "Qara" sözü isə "böyük" mənasında işlənmişdir.

"Bağ" ─sözünə nəzər yetirsək görərik ki. bağ - birlik mənasına da uyğun gəlir. Deməli, Qarabağ sözünün etimologiyası "Böyük birlik" mənasına uyğun gəlir. Burada qədim dövrlərdən türk tayfaları yaşamış və onların birliyinə uyğun olaraq bu ərazi "Qarabağ" - böyük birlik adlandırılmışdır. Ancaq bu söz daha çox "Bak-Bok, Baq-Boq" tayfasının adı ilə bağlıdır. Zaman keçdikcə müəyyən fonetik dəyişikliyə uğramış "Baq-Bak"- Bağ formasında işlənmişdir. Qarabaklar- Qarabağlar — Güclü, qüvvətli bövük Baklar mənasında işlənmişdir və yaxud. Baqların, Bağların birliyi kimi də işlənmiş ola bilər. Qarabağ tayfası bu ərazidə məskunlaşdıqdan sonar (Albanların dövründən bu ərazi Arsak adlanmış) Arsak sözü tədricən dildən çıxmış və bura Qarabağ tayfasının adı ilə Qarabağ adlandırılmışdır. Arsak sözü də qədim türk sözüdür. Sak türk tayfasıdır. Ar-Ər isə qədim türk dilində Ər - Ərən -igid mənaslnı bildirmişdir. İgid Ərlər -İgid Saklar və yaxud Sak əri - Sak igidi mənasında işlənmişdir.

Bundan əlavə Qarabağ ərazisində qədim zamanlardan Oğuzlar, Abdallar. Qazaxlar, Ayrımlar, Qaramanlı, Tərtərlər, Tuğalr adlı Türkmənşəli tayfalar jaşamışdır ki, bunlarsa, Qarabağin, ümumilikdə, Azərbaycan ərazisində formalaşan toponimlərin məna anlamında başlıca amil olmuşdur.

Qarabağın inzibati ərazi bölgüsündən danışarkən -Ağdam, Şuşa, Füzuli, Tərlər, Ağcabədi və Bərdə rayonlarının adını qeyd edirik.

İlk öncə Ağdam sözünün mənşəyinə nəzər salaq-Ağdam Qarqar çayının sol sahilində, qarabağ düzünün cənub qərbindədir. Şəhərin əsası XVIII əsrin ikinci yarısında qoyulmuşdur.

Burada Pənah xanın ağ daşdan tikdirdiyi “İmarət” mühafizə edilib. Şəhərin adının bu bina ilə əlaqədar olması ehtimal edilir. Lakin şəhərin adı yaşayış məntəqəsi kimi ilk dəfə 1937-ci ilə aid mənbələrdə çəkilir. Buna rəğmən şəhərin adı rayon ərazisindəki eyniadlı dağdan götürülmüşdür. Bəzi mənbələrə görə “Ağdam” sözü qədim türk dilində “Kiçik qala” deməkdir. Bu versiyaya görə isə qədimdə burada yaşayan türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. Yuxarıda da qeyd etdiyim kimi XVIII əsrin birinci yarısında Qarabağ xanlığının yaradıcısı Pənahəli xan şəhərdə özü üçün ağ daşdan imarət tikdirmək əmri verir, indi həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün bir növ müdafiə qalasına çevirilmişdir.

Baqlar Elamın süqutundan sonra şimala köçüb, Araz çayı boyunda, Van gölü vadisində, Qarabağda yurd saldılar.

Samuel Anetsi Beyləqanı Baxaq adlandırır. Baxaq Baqların ölkəsi deməkdir. Sonra həmin ölkə Qara Baq və Ağ Baq adlı iki mahala bölündü. Aran mənşəli baqlar Sasanilərlə vuruşa-vuruşa Beyləqandan Qarabağ dağlarına çəkildilər və burada özlərinin kiçik dövlətlərini yaratdılar. Baq çarlığının ərazisində sonralar Xaçın knyazlıgı yaranmışdır. Nizami Gəncəvinin adını qeyd eldiyi Ağ Bağ yaylağı sonradan Xaçın Knyazlığı adlanmışdır.

Baq nəslinin başqa qanadı Beyləqandan şimal-qərbə köçərək Van gölü vadisində yurd salmış, orada Baqavan məbədini tikmişdir. Xristianlıq dövründə həmin məbədin bünövrəsi üzərində kilsə tikildi və o kilsə xristian baqların yeni dini-ideoloji mərkəzinə çevrildi.

Baq nəslinin əsas yurd yerlərindən biri Qarabağ idi, daha doğrusu Baq idi. Demək, Qarabağ sonradan formalaşmış addır, əvvəlcə Qarabağ ərazisi Baq adlanırmış. Ərəb işğalına qədər baqlar Qara Baq və Ağ Baq qollarına ayrılmamışdılar. Baq nəslinin alp ərənləri sasanilərlə, sonra ərəblərlə döyüşlərdə qırılıb seyrəldilər. Düzənlikdə yaşayanlar İslam dinini qəbul edib, Qara Baq adı ilə tanındılar. Dağlarda yaşayanlar xristian olaraq qaldılar və özlərini Ağ Baq adlandırdılar.

Albaniyada yaşayan 26 tayfadan biri Oel Bak idi. Bəzi mənbələrdə qelbaklar Xel Bak adlandırılır. Xel Baklar Bakların bir qolıudur və Bak tayfa birliyinə daxil olmuşdur. Moisey Kalankatuklunun “Alban tarixi” əsərində Uti vilayətinin Baq kəndi (Bağlı kəndi şəklində) qeyd olunmuşdur

Mahmud Kaşğari yazır ki, Balasaqun dağlarında Qul Bak adlı tayfa yaşayır. Onların mömin və müdrik ağsaqqalı tanrı qulu Qul Bak adlanır. Qulbaklar Mahmud Kaşğaridən 700 il qabaq tberiyada Kulbak adlı şəhər salmışdılar. Bir neçə məhəlləsi olan həmin şəhər XIX əsrə qədər qalırdı.

D.D. Paqirev 1912-ci ildə Kutaisi quberniyasında Kulbak adlı kənd görmüşdü. Bu da onu göstərir ki, ağbaq və qelbaklar kimi kulbaklar uzun zaman Gürcüstanda gürcüləşməmiş, öz etnik cizgilərini qoruyub saxlamışlar.

Stepan Orbelian (XIII əsr) yazır ki, Sisakan vilayətində Kitabak adlı mahal var. Həmin Kitabak mahalı hazırki Gədəbəydir. Gədəbəy şəhərinin adı Kitabaq etnonimindən törəmişdir. Kitabaq Kitay nəslinin baqi, yəni müdrik kahini deməkdir.

Gitabak Kitay nəslinin bakları deməkdir. Hələ e.ə. 783-cü ildə Urartu çarı Argişti Suriyanın şimalını tutmuş, Kitay və Çop tayfalarını oradan Qafqaza köçürtmüşdü.

İrəvan şəhərinin yerləşdiyi ərazi xitayların adı ilə rus işğalına qədər Kitay maltalı adlanırdı. Erməni dilçiləri məqsədli şəkildə həmin mahalın adını Ktay, Ktayk, Kotayk kimi yazmaqla diqqəti yayındırırlar.

V.V. Radlov XIX əsrin sonlarında qazaxların arasında Kitabaq adlı qıpçaq nəslinin yaşadığını görmüşdü. Bərdə rayonunda Çinqoğuz adlanan yer var. Ola bilsin ki, bu toponim Kitay bakları olduğu kimi, Çinli oğuzlar, qıpçaqların adını yaşadan toponm olsun.

Demək, Paq, Puq, Baq, Bax, Baq Aran, Baq Avan, Qara Baq, Ağ Baq, Qel Bak, Oul Bak, Kita Bak, Arbak, Ambak və s. nəsillər Bak tayfa birliyinə daxildirlər. Bəy, Bay sözü də Baq tayyfasının adı ilə əlaqədar formalaşmışdır.

Beyləqan, Qarabağ, Ağbağ, Gədəbəy toponimləri müasir yanaşma müstəvisində belə şərhlərlə yeni araşdırma obyekti kimi dəyər qazanır. Bu gün talan-qarət olunmuş, gözəlliklər diyarı Qarabağımın viranəlikləri də gözəldir. Çünki Qarabağ Tanrı anlamında olan və Bax/Baq/Bak/Boq formasında yazıya alınan türk tayfa birliyinin sahib olduğu Azərbaycan bölgəsidir. Beyləqan Baxaq adlanırmış, yəni baxların, Qarabağ-Qara bakların. Ağbağ-Ağ bakların, Gədəbəy-Gita bakların məskəni, yaşayış yeri olmuşdur. Bu məlumatlar elmi nəzəri fikirdə son dövrlərdə tədqiq olunmuşdur. Qarabağ-Sovetlər dönəmində çoxlu bağ olan yer mənasında. Arandan dağa tərəf baxıb dağlara yağan qara işarə edərək "qara bax" anlamında izah edənlər də olub, qara sözünü böyük mənasında diktə edib, "böyük bağ", "bağlı-bağatlı yer", mənalarında izah edənlər də olmuşdur.

Qarabağ-Sovetlər dönəmində çoxlu bağ olan yer mənasında. Arandan dağa tərəf baxıb dağlara yağan qara işarə edərək "qara bax" anlamında izah edənlər də olub, qara sözünü böyük mənasında diktə edib, "böyük bağ", "bağlı-bağatlı yer", mənalarında izah edənlər də olmuşdur.

"Mənbələrdə Qarabağ adı 1284-cü ildən məlumdur. Erkən orta əsrlərdə Qarbağ düzü alban tayfası qarqarların adı ilə Qarqar düzü adlanırdı. Bəzi tədqiqatçılar düzün öz adını vaxtilə mövcud olmuş Qarabağ şəhərinin adından aldığını göstərirlər. Onlar bu fikirdə Həmdullah Qəzviniyə (XIV əsr) əsaslanırlar

Məlum olduğu kimi qədim kəngər-peçeneqlərın tərkibində qarabağ adlı tayfa da var idi. Peçeneqlər hələ eramızın əvvəllərindən Azərbavcanda yaşamışlar. Məhz buna görə də bu adı həmin tayfanın adı ilə əlaqələndirirlər. Qarabağ toponiminin yayılma arealı genişdir. Türkdilli xalqların toponimiyasında Qarabağlı (Özbəkistan), Qarabağ (Türkmənistan, Əfqanıstan, Şimali Qafqaz, Tacikistan, Türkiyə) və s. toponimlər qeydə alınmışdır.

Onu da qeyd edək ki. Qarabağ adı XII əsrdə "Buğra çölü" adı ilə Nizami Gəncəvinin "Xəmsəsində" qeyd olunmuşdur. Bu isə ən doğru məlumat və düzgün anlamdır. Buğra, Bak, Bık eyni anlama malikdir.

Doğrudan da, həqiqəti nə qara buludlar, nə də qara torpaq örtüb gizlədə bilməmişdir. Müasir dövrümüzdə bəlli olmuşdur ki, Qarabağ "qara bak"ların yaşadığı məkan deməkdir. Bu haqda f.e.d., türkoloq tədqiqatçı İlhami Yusif oğlu Cəfərsoy geniş araşdırmalar aparmış və həqiqətləri ortaya qoymuşdur: "Bak nəsli dünyanın neçə-neçə ölkəsinə yayılsa da, onların özək boyları Sindlə Xorasan arasında, öz tarixi vətənində qalmış, Parfiya dövlətinin hakim sülaləsi olmuşdur. İbrahim peyğəmbərin Kantura Kənanidən olan bir oğlu Eşbak adı ilə tanınmışdır. Xorasan türkləri onun

nəsimdəndirlər. Eşbak arxaik forması Eşbakan olan İsfahan şəhər adının kökүdür. Yalnız Xorasan türkləri yox, İsfahan türkləri də İbrahim peyğəmbərlə Kanturanın nəslindəndirllər”.

Moisey Kalankatuklunun “Aban tarixi” əsərində Uti vilayətinin Baq kəndi (Baqlı şəklində) qeyd ounmuşdur.Yəni Baqlarn yaşadığı kənd. Hazırda həmin ərazidə Baqlı pəyə adlı kənd vardır.

İlk dəfə Bakı adına V-VIII əsr mənbələrində “Baqavan” və ya Baquan, Atşi Baqavan, Atşi Baqvan, yəni Atəşi Baquan kimi rast gəlinib. Baq sözün kökü, avan (an) hissəcikləri isə məkan bildirir. Toponimi eramızın VI1 əsrində bu ərazidə yaşamış “bakan” tayfası ilə bağlayırlar. Sözün kökü “Baka-”Günəşin doğulduğu yer” anlamındadır. “Baqavan” və “Baquanın” mənası “od mənbəyi”, “müqəddəs torpaq”, “atəşpərəstlər şəhəri”, “Allah məskəni” deməkdir. Bu toponimin kökü “Allah” mənasında işlənən “Bak” və yaxud “Bağ” təşkil edir.

Mənbələrdə qeyd olunur ki, Fələstin əvvəllər Baqastan, Belbek şəhəri Baka adlanırdı.

Şərhlərə əsasən deyə bilərik ki, Beyləqan, Qarabağ, Ağbağ, Gədəbəy, Uti vilayətinin Baq kəndi, Kulbak şəhəri, İsfahan (Eşbakan), Fələstin. Belbek şəhəri və Bakı şəhəri və s. onomastik vahidlər Bak tayfasının yadigarlarıdır.

İlhami Cəfərsoy yazır ki, Baklıların bir boyu eradan əvvəl IX-VI əsrlərdə yuxarı Araz çayı vadisində yaşayırdı. Onların adı Urartı qaya yazılarında Paxini formasında vazıya alınmışdı. İ.İ.Meşşaninova görə, Paxini “Baq qəbiləsinin ölkəsi” deməkdir.

Məlumdur ki, Albaniyanın bir vilayəti Baqk adlanır. Həmçinin keçmiş Borçalı qəzasındakı Paxlu, Şuşa qəzasındakı Böyük Bəkli və Qara Bəkli, Gəncə qəzasındakı Bəkli, hazırkı Laçın rayonundakı Qarabəyli, Qara Bəkli kəndlərinin əhalisi qədim Baklı nəslinin son qalıqlarıdır.

Ağbağ – Nizami Gəncəvinin “Xosrov və Şirin” əsərində Ağbağın adı çəkilir. Qeyd olunur ki, Xosrov Məhinbanunun dəvəti ilə Ağbağ yaylağına gedir və orada dincəlir və istirahət edir. Burada qeyd olunan Ağbağ yaylağı Ağ baqların yaşadığı Xaçın yaylağı nəzərdə tutulur.

Azərbaycan xalqının soykökünə Qara Bakdan başqa, ona qohım olan Ağ Bak da daxil olmuşdur. Ağ Bak boyu indiki Türkiyənin şərqində yaşamışdır. Onların Van gölü yaxınlığında Aqbak adlı şəhəri vardır.

Deməк, Ağ baqların adları aqbaq, akbak, axvax, axbax və s. formalarda yazıya alınmışdır. Ağ baqlar xristian dıinində qalmaqla ermənilər arasında əriyib itmişlər. Buna görə də vaxtilə biz Qarabağ ermənilərinə “din ayrı qardaş” deyirdik Bunu ona görə deyirdik ki, onlar Ağ baqların nəsli idi və Qara baqların din ayrı qardaşı idi. Aydın Qarabağlı Göyçə bölgəsində Qelam dağ tirəsinin zirvələrindən birinin adının Böyük Aqbağ olduğunu qeyd edir.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. M. Kalankatuklu. Alban tarixi, Bakı, 1993.
2. Azərbaycan toponimlərin. Ensiklopedik lüğəti. 2 cildə, Bakı, 2007.
3. İ. Cəfərsoy. Hayların və armenlərin mənşəyi. Bakı, 2020.
4. İ. Cəfəsoy. Arilərin türk mənşəyi. Bakı, 2017.
5. Uğur. Xalq Cəbhəsi. Milli ruhumuzu təsdiq edən toponimlər, Bakı, 2014.
6. N. Gəncəvi. IV cild. Bakı, 1985.
7. İ. Cəfərsoy. Sibirdə Təbriz şəhəri Bakı, 2005.

8. A. Qarabağlı Qarabağ onun qədim tayfaları və toponimləri, Bakı, 2008.

## AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ TƏLİM ÜSULLARINDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

*Tələbə: İsgəndərli Elşən Xaləddin oğlu (qrup AZD1901B)*
*Elmi rəhbər: b/m. Mikayılova Fəridə Mürşüd qızı*
*elshenisgenderli@gmail.com*

Hər kəsə məlumdur ki, Azərbaycan respublikası müstəqillik əldə etdikdən sonra Təhsil sahəsində də hərtərəfli, diqqətə layiq işlər görülmüşdü. Bildiyimiz kimi Sovet hakimiyyəti Azərbaycanda qurulduqdan sonra bütün sahələrdə olduğu kimi təhsil sahəsində də dəyişikliklər olmuşdur. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Ənənəvi təlim üsullarından istifadəyə geniş yer verilmişdir. 2008 ci – il təhsil islahatlarından sonra Azərbaycanda milli kurikulum təhsil sistemindən istifadə edilməyə başlandı. Buradan yanaşaraq biz kurikulumun tədrisi ilə bağlı müəyyən cəhətlərə açıqlıq gətirmək istəmişik.

Təhsil sahəsində islahatlar Azərbaycan ilə Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyası arasında bağlandığı ilk Kredit Sazişi əsasında başlanmışdır. Təhsil sahəsində Proqramı 15 iyun 1999-cu ildə qəbul olunmuşdur. Təhsil sahəsində İslahat Proqramının əsas məqsədi məktəbəqədər, orta ali təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ hüquqi bazanı yaratmaq, Azərbaycan Respublikasının Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatın demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarətdir. Təhsil sahəsində islahat mərhələləri aşağıdakılardır:

1999-2003—Öyrədici innovativ

2004-2007—Hazırlıq

2008-2013—Tətbiqetmə

Təhsil sahəsində islahatların əsas istiqamətlərindən biri də kurikulum islahatıdır. Dünyanın təhsil sistemində kurikulum modeli geniş istifadə edilməkdədir. “Kurikulum” latın sözü olub “kurs”, “yol”, “elm”, “istiqamət” deməkdir. 1918 -ci ildə ilk kurikulumlar yaranmışdır. Artıq ötən əsirin 60-70-ci illərində dünyada, xüsusəndə ABŞ-da kurikulum ideyaları genişlənmişdir. Eyni zamanda bir nəzəriyyə kimi formalaşmışdır. Kurikulum hərəkəti kimi genişlənən bu təhsil dalğası dünyanın inkişaf etmiş ölkələrində də yayılmış, mütərəqqi təhsil təcrübəsi kimi öz təsdiqini daha geniş miqyasda tapmışdır. Hər kəs öz ölkəsinin ehtiyacları baxımından ona yanaşmışdır. Hazırladığı nümunələrdə zəruri tələbatları nəzərə almışdır. Azərbaycanda kurikulum termini ötən əsrin 90-cı illərinin sonundan etibarən istifadə olunmağa başlanmışdır. Azərbaycan pedaqoji fikirində belə qəbul olunmuşdur ki, kurikulum təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə cəmləşdirən konseptual sənəddir. Kurikulumun nəzəri problemlərindən biri onun növlərinə görə təsnif olunmasıdır. Kurikulumların növləri barədə yekdil fikir yoxdur. Bu da ondan

irəli gəlirki, kurikulumları təsnif edərkən ona müxtəlif prinsiplərlə yanaşılır: ya xarakterlərin təyinatına, yada məzmun və strukturlarına görə münasibət bildirilir.

Təhsil kurikulumları xarakterinə görə iki yerə ayrılır:

1. Fənnyönümlü kurikulum
2. Şəxsiyyətyönümlü kurikulum.

Şəxsiyyətyönümlü kurikulumda insanın gələcək həyat fəaliyyətinə lazımı olaraq praktiki bacarıq və vərdişlər əhatə edilir. Fənnyönümlü kurikulumda isə praktik əhəmiyyət daşıyan bacarıq, vərdiş və qabiliyyətlər arxa plana keçir, fənnin elmi potensialı artır, məlumatlılıq səviyyəsi çoxalır. Azərbaycanda tələbyönümlü kurikulumların yaradılması istiqamətində mühüm işlər aparılmışdır. “Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası Milli Kurikulum” sənədin 2006-cı ildə, I-IV siniflər üçün fənn kurikulumlarının 2007-ci ildə ilk dəfə hazırlanaraq təsdiq olunması respublikamızın təhsil həyatında hadisəyə çevrilmişdir. Bu Konsepsiya 2010-cu ildə “Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları” adı ilə təkmilləşdirilmişdir. 2008-ci ildən etibarən məktəblərdə dərslər yeni tədris kurikulumlarına əsaslanaraq təşkil olunur. Müasir təhsil sisteminə əsasən şagirdlər şəxsiyyət kimi formalaşır, azad düşüncə sahibi, sərbəst qərar verə bilən, özünəgüvənən, yanlız biliyə deyil, həmcinsin həyatda ona lazım olan bacarıqlara, vərdişlərə, keyfiyyətlərə yiyələnən, rahatlıqla ünsiyyət qura bilən, sağlam düşüncəyə sahib və humanist olan gənc nəsil formalaşır. Təhsilin-zaman, dövlət və şagirdlərin maraq və təlabatına, inkişafına yönəlməsi məqsədəuyğundur.

Kurikulumu zəruri edən tələblər:

Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması;

İnformasiya əsrinin tələbləri;

Mövcud təhsil proqramlarının müasir tələblərə uyğunsuzluğu;

Dünya təhsil sisteminə inteqrasiya;

Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid;

Təhsilin məqsəd və vəzifələrinə yeni baxış.

Təlim məqsədlərinin səmərəli şəkildə həyata keçməsi, təliminin şagirdlərin marağına uyğun olması, potensial imkanlarının üzə çıxması üçün bir çox fəal təlim üsulları vardır.

Təlim üsulu seçilən zaman nəzərə alınan meyarlar:

Seçilmiş üsulun tətbiqində şagirdlərin təcrübələrinin olub-olmaması;

Fənnin məqsədinin unudulmaması;

Seçilmiş üsulun təlimin forması ilə vəhdət təşkil etməsi;

Dərsdə neçə şagirdin iştirak etməsi;

Dərsdə veriləcək biliklərin həcmi;

Üsulun tətbiqinə sərf olunacaq vaxt;

Məşğələ keçiriləcək kabinetin şəraiti;

Zəruri texniki avadanlıq və təlim metodlarının təminatı;

Üsulun dərsin hansı mərhələsində tətbiq olunacağı;

Təlim nəticəsinə nail olub-olunmayacağı;

Şagirdlərdə yaş səviyyəsi.

Təlim metodları: əqli hücum, müzakirələr, rollu oyunlar, prezentasiyalar, tədqiqatın aparılması, məntiqi təfəkkürün inkişafına yönəlmiş metodlar tənqidi təfəkkürün inkişafına yönəlmiş metodlar, yaradıcılığa yönəlmiş metodlar, təşkilatçı metodlar, fəallaşdırma.

Akvarium. Keçirilmə məqsədi. Burada qrupların vahid fikirə gəlməsi önəmli deyil. Əsas məqsəd, problemin müzakirəsində irəliləmək və düzgün disskusiya vərdişlərini inkişaf etdirmək, disskusiya vərdişlərini nümayiş etdirməkdir. Bu üsulun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir. Akvarium bir neçə variantlarda keçirilə bilər.

Debat. Üsulun tətbiqində əsas məqsəd-dəlil və sübutlarının köməyiilə üçüncü tərəfi öz mövqeyinin düzgünlüyünə inandırmaq. Diskussiyanı yanlız bir-birinə etiraz edən tərəflərin arasında keçirildiyi mübahisə, müzakirə, mübadilə kimi məlum formasından fəqli olaraq, debatlar üçüncü tərəfi inandırma prosesini nəzərdə tutur. Müzakirə xəritələri. Üsulun tətbiqində əsas məqsəd. Daha çox humanitar fənnlərdə istifadə olunur. Müzakirə xəritəsi debat üçün hazırlıq rolunu oynaya bilər. Arqument təhlili şagirdlərə müzakirə olunan məsələ barəsindəki mövqelər haqqında düşünmək imkanı verir. Dinləmə mədəniyyəti, mənbələrlə işləmək və tədqiqat aparmaq bacarığı formalaşır.

Əqli hücum metodları. Üsulun tətbiqində əsas məqsəd: Əvvəlki bilik və təcrübə ilə yeni biliklər arasında əlaqə yaratmaq və müqayisə etməyə imkan verməklə şagirdin düşünməsini optimallaşdırmaq.

Tədqiqat aparmaq üçün düzgün strategiya müəyyənləşdirmək;

Şagirdlərin mövzu barəsindəki əvvəlki təcrübəsini nəzərdən keçirməyə və dərsdəki cavablarına əsasən sualları formalaşdırmağa imkan verir.

Venn diaqramı. Üsulun tətbiqində əsas məqsəd: Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək; Biliklərin aktuallaşması; Təhlil proseslərinin inkişafı;

Qiymətləndirmə prosesinin inkişafı.

Qiymətləndirməyə yeni yanaşmanın əsas mahiyyətini formativ qiymətləndirmə təşkil edir və şagirdlərin təlim fəaliyyətini izləmək qarşıya çıxan problemləri aşkar etməklə aradan qaldırmaq məqsədinə xidmət edir. Pedoqoji termin olaraq formativ qiymətləndirmə şagirdlərin öyrənmə fəaliyyətinin izlənməsi kimi şərh olunur və onların təlim nəticələrinə, summativ qiymətləndirmədəki nailiyyətlərinə əhəmiyyətli təsiri qeyd edilir. Beləki, fənni tədris edən müəllim dərs ili ərzində müntəzəm olaraq şagirdlərin öyrənmə fəaliyyətini meyarlar üzrə izləyir, şagirdin təlim ehtiyaclarını öyrənir, təlim fəaliyyətinə təsir göstərən səbəbləri müəyyənləşdirir, maneələri aradan qaldırmaq, həmiçinin fəaliyyəti stimullaşdırmaq üçün tədbirlər görür. Qiymətləndirmə məqsədlərini düzgün müəyyənləşdirmək, üsul və vasitələrin köməyi ilə nəyi ölçəcəyini və ya izləyəcəyini rahatlıqla təyin edə bilmək. Qiymətləndirmə məqsədlərini fənnin məzmun standartları əsasında müəyyən edirik. Odur ki, öyrənəcəyimiz və izləyəcəklərimiz də standartlarda tələb olunan bilik və bacarıqlardır. Hər hansı bacarığın daha səmərəli qiymətləndirmə vasitəsi ilə ölçülməsi və müəllimin peşəkarlığından asılıdır.

**İstifadə edilmiş ədəbiyyatlar:**

https://www.muallim.edu.az › news
http://anl.az › Kitab › Azf-293715

## M. FÜZULİNİN ƏSƏRLƏRİNİN DİLİNDƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN İŞLƏNMƏ VƏZİYYƏTİ

*Tələbə: Həsənova Yasəmən Niyazi qızı (qrup AZD1901B)*
*Elmi rəhbər: b/m. T. Ə. Əliyeva*
*yasemen.hesenli@gmail.com*

Məlumdur ki, “bəşər mədəniyyətinin hər bir məhsulu kimi dil də tarixin təhlil predmetidir”. Yəni hər bir dilin müasir vəziyyəti öyrənildiyi kimi həmin quruluşun tarixi də araşdırılmalıdır. Hər bir dilin tarixi həmin dildə danışan xalqın tarixi ilə bağlı olur. Azərbaycan dilinin tarixi də xalqımızın tarixi ilə əlaqədar olaraq onun kimi çox qədimdir.

Azərbaycan dili hazırkı inkişaf səviyyəsinə birdən-birə çatmamışdır. Bu bir çox əsrlərin məhsuludur. İlk dövrlərdə başqa dillər kimi, Azərbaycan dilinin də lüğət tərkibi kasıb, qrammatik quruluşu isə bəsit olmuşdur. Lakin xalqımız tarixən inkişaf etdikcə dilimizin səs sistemi tədricən səlisləşmiş, lüğət tərkibi zənginləşmiş və qrammatik quruluşu təkminləşmişdir.

XVl əsr Azərbaycan ədəbi dilinin inkişafında böyük şair M. Füzulinin xüusi rolu olmuşdur. M. Füzuli Azərbaycan dilinin bütün qrammatik vahidlərini əsərlərinin dilində işlətmişdir.

Füzuli yaradıcılığında Azərbaycan dilinin bütün incəlikləri öz əksini tapmışdır.Onun əsərlərinin dilində bütün nitq hissələrinə rast gəlmək olar, lakin biz ancaq orta əsrlər üçün əsas olan köməkçi nitq hissələrinin göstərəcəyik. Bu nitq hissələrinin həmin dövr dili üçün əhəmiyyətini qeyd edib, onun müasir dövr üçün işlək olub-olmadığını, arxaikləşdiyini və qeyri-arxaik olduğunu qeyd edəcəyik.

Azərbaycan dilinin köməkçi nitq hissələri də bu dövr üçün xarakterikdir. Köməkçi nitq hissələrinin hər birisinin ayrı-ayrılıqda söz sənətkarlarımızın, xüsusilə də M. Füzulinin yaradıcılığında işlənməsi tədqiqat materiallarından bizə yaxşı bəllidir. Füzuli güclü söz hissi olan sənətkardır. Heç də təsadüfi deyildir ki, “Azərbaycan ədəbi – bədii dilinin inkişafında, klassik şeir üslubunun yüksək zirvəyə qaldırılmasında Füzulinin böyük xidmətlərindən biridir.

M. Füzuli dilinin qrammatik vahidlərlə zənginliyi diqqəti ayrıca cəlb edən məsələlərdəndir. Bu zənginlik onun bütün janrlarından olan əsərlərində müşahidə edilsə də, ən çox qəzəllərində öz ifadəsini tapır. Sözün bədii gücü, estetikası şairin qəzəllərində, birinci növbədə, məhz yüksək obrazlılığı ilə əks olunur; məsələn, aşağıdakı beytlərdə işlənən köməkçi nitq hissələri Füzuli özünün enerjisinin necə “yığıldığını”, adi ifadələrini necə böyük sənət faktına çevrildiyini burada göstərir. Eyni sözlər müxtəlifləşdiyi kimi, müxtəlif sözlər də köməkçi sözlər hesabına, eyniləşir və söz deyilir.

Tarixilik baxımından Füzuli şeirinin dili xəlqiliyi ilə səciyyələnir. Füzuli dilində xəlqilik ədəbiliyin tərkib hissəsidir. Leksik millilik bilavasitə anlaşma ilə bağlıdırsa, qrammatik millilik ana

dilinin eroziyaya uğramaması, bel stunun əyilməməsi, etnik keyfiyyətinin saxlanması üçün zəruridir.

M. Füzulinin dilində işlənən köməkçi nitq hissələrindən biri də qrammatik cəhətdən dəyişilməyən adlardan, bəzən də məsdərdən, sifətdən sonra gəlib əşya ilə hərəkət (adla fel) və ya əşya ilə əşya ( adla ad ) arasında müəyyən münasibət bildirən (qrammatik əlaqə yaradan), lüğəvi mənaya malik olmayan köməkçi nitq hissəsi olan qoşmadır. Qoşmalar xarici görünüşünə bəzən də xüsusi intonasiyaya malik olma xüsusiyyətlərinə görə söz qrupuna – adlara, müstəqil lüğəvi məna ifadə edən, sözlərin sonuna əlavə olunaraq, qrammatik əlaqə yaratmaq xüsusiyyətlərinə görə hal şəkilçilərinə daha çox uyğun gəlir. Bəzi qoşmalar dilin inkişafı prosesində tədricən şəkilçiyə çevrilir. Beləliklə orta əsir Azərbaycan yazılı abidələrində rast gəlinən qoşmaları lüğəvi mənaya malik olub- olmamasına görə iki yerə ayırmaq olar :

1. Əsli qoşmalar.
2. Söz qoşmalar.

Orta əsirlərə məxsus olan Azərbaycan dilində, o cümlədən M. Füzulinin dilində işlənən qoşmaları əlaqədə olduğu sözü idarə etmə xüsusiyyətlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Qrammatik əlaqədə olduğu sözü adlıq və ya yiyəlik hal görünümü ilə idarə edən qoşmalar.
2. Qrammatik əlaqədə olduğu sözü yönlük hal görünümü ilə idarə edən qoşmalar.
3. Qrammatik əlaqədə olduğu sözü çıxışlıq hal ilə idarə edən qoşmalar.

Əlaqədə olduğu sözü adlıq və ya yiyəlik hal görünümü ilə idarə edən qoşmalardan biri "birlə" qoşmasıdır. Birlə qoşması orta əsr Azərbaycan ədəbi dilində, aşağıdakı variantlarda işlədilir: birlə, bilə, bilən, birlən, lan, lən.

M.Füzulinin əsərlərinin dilinə müraciət edərkən aydın olur ki, şair üçün arxaikləşən birlə qoşmasından əsərlərinin dilində istifadə etmişdir.

Qaməti – kəm birlə bir əhli kəramətdir, qaşın,
Daş olur, əlbəttə gər baş əkməsə mehrab ona.

Yuxarıda göstərdiyimiz nümunədə birlə qoşması iş, hərəkətin keyfiyyətini bildirir.

Açar ol güldən birlə ləm nuşxənd.

Yazılı mənbələrimizin, o cümlədən M. Füzuli dilində işlənən qoşmalardan biridə kibi qoşmasıdır.

Surəti insan kib idi.

M. Füzulinin yaradıcılığında tez – tez müraciət olunan qoşmalardan biri də tək qoşmasıdır.

Ləbib əksi gözüm yaşını mey tək laləgun etdi,
Zənəxdanin muradım dəsgahın sənnigun etdi.

Tək qoşma dilimizdə işlənən ən qədim qoşmalardandır. Tək qoşmasının etimologiyası haqqında yürüdülən ilk mülahizə fransız alimi Jan Deniyə mənsubdur. Jan Deniyə görə tək qoşması " tan", "tən", "bərabər" sözünün fonetik quruluşca dəyişmiş başqa bir şəkilidir. J. Den belə hesab edir ki, həmin qoşma Azərbaycan dilində olduğu kimi əvvəlcə toy şəklinə düşmüş və nəhayət "y səsi, k səsinə" çevrilmiş və tək qoşması meydana çıxmışdır.

Orta əsr Azərbaycan ədəbi dilində tək qoşmasının aşağıdakı variantlarından istifadə edilmişdir: tək , deq,tek , dək, dek,təki, teki, tekin, təkin, dəklü, denql.

Azərbaycan ədəbi dilində çıxışlıq hal şəkilçisi ilə idarə edən qoşmalar çox azdır. Bunlar əsasən aşağıdakılardır. Dilimizdə işlənən ən qədim qoşmalardan biri də ötrü qoşmasıdır.

Orta əsr Azərbaycan dilində və M. Füzulinin əsərlərinin dilində, ötrü ətri ötürü, etiri variantlarına rast gəlinir. Bu qoşma adla fel arasında əlaqə yaratmaqla yanaşı aşağıdakı mənaları ifadə etmişdir .

1.İş, hərəkətin səbəbini bildirmişdir:

Xudaya, şükür, asayişdən ötrü bir bina tikdim
Ki, səbrü ölü hilmin mayəsindən oldu bünyani.

2. İş, hərəkətin məqsədini bildirmişdir:

Tamahla odlanan bir qəlbin heç vaxt atəşi sönməz,
Qızıldan ötrü şiddət kəsb edər hər ləzhə böhranı .

Müasir Azərbaycan dilində ötrü qoşmasından çox az istifadə olunur. Bu qoşmanın dilimizdə məhdud şəkildə işlədilməsində, şübhəsiz ki, eyni mənanı və vəzifəni yerinə yetirən görə qoşmasının da rolu az deyildir. Ədəbi dilimizdə yalnız bir variantda sabitləşmiş olan ötrü qoşmasının dialekt və şivələr də aşağıdakı variantlardan istifadə edilir: Ötrü – ötürü – ötri – ötəri – erki.

Qoşma vəzifəsini yerinə yetirən sifətlər sırasına ayrı sözü də daxildir. Ayruq, ayrux, ayrıx, ayriq, ayru sifəti məlumdur ki, əşyanın əlamətini bildirən müstəqil mənalı sözdür. Lakin bu sözün əsasən ayrı variantı həmdə qoşma vəzifəsini yerinə yetirmişdir.

Sənsiz olmam ayrı möhnətdən, bəladən bir zaman,
Əlaman, hicran bəlavü möhnətdən, əlaman.

Türkoloji ədəbiyyatlarda çox vaxt tam hüquqlu qoşma kimi, öyrənilən başqa sifəti müasir dilimizdə hələ də həm əlamət bildirən sifət, həmdə qrammatik əlaqə yaradan qoşma kimi işlədilməkdədir.

Xudadan başqa acizdir hamı, fərz et Süleymandan,
O torpaq uddu kim, daim ona coriydi fərmani.

Tarixən dilimizdə işlənən və bu günümüzə qədər öz sabitliyini, işlənmə tezliyini qoruyub saxlayan köməkçi nitq əsərlərində biri də ədatdır. Ədat dilimizdə işlənən ən qədim nitq hissələrindən biridir. Emosional – məntiqi duyguları ifadə etməkdə köməkçi nitq hissələrinin əhəmiyyətindən klassiklərimiz çox bəhrələnmişlər. Odur ki, klassiklərimiz, o cümlədən, M. Füzuli əsərlərinin dilində onlara tez -tez müraciət etmişdir.

Orta əsr Azərbaycan yazılı abidələrinin və M. Füzulinin əsərlərinin dilində işlənən ədatların bir qisminin daimi sabit yeri olmuşdursa, bir qrup ədat ya sözün əvvəlində, ya da sonunda gəlmiş, ya bir sözün, ya da bütöv bir cümlənin məna çalarını dəyişməyə xidmət etmişdir. Bundan əlavə, yazılı abidələrimizdə təsadüf olunan ədatların bir qrupu həmişəlik olaraq təcrid olunub yalnız modallıq ifadə edən köməkçi söz kimi, sabitləşmişdirsə, başqa bir qrup söz mətindən asılı olaraq modalliq ifadə etsə də yazılı abidələrimizdə rast gəlinən ədatları iki böyük qrupa ayırmaq olar :

1. Əsli ədatlar
2. Söz ədatlar

M. Füzuli əsərlərinin dili ilə tanış olarkən aydın olur ki, ədibin yaradıcılığında əsli ədatlara müraciət olunmuşdur. Müstəqil lüğəvi mənaya malik olmayan və yalnız bu və ya digər söz, söz birləşməsi və ya cümlə ilə bağlı olaraq müxtəlif məna çalarları əmələ gətirməyə xidmət göstərən köməkçi söz qrupuna əsli ədatlar deyilir. Orta əsr Azərbaycan ədəbi dilində və M. Füzulinin əsərlərinin dilində işlənən ədatlar əsasən aşağıdakı məna xüsusiyyətlərinə görə qruplaşdırmaq olar:

1. Çağırış, xatırlama ədatları;
2 Şiddətləndirmə ədatları;
3.Sual ədatları;
4. İnkar ədatları;
5. Gərəklik, vaciblik ədatları;

M. Füzulinin dilində çağırış – xatırlatma ifadə edən ədatlar çox azdır. Bu qrupa daxil olan ədatlar, adətən, cümlənin müəyyən bir üzvünə aid olmuş və sözün əvvəlində və ya sonunda gəlmişdir. Çağırış – xatırlatma ədatına A ədatını misal göstərə bilərik. Bu ədat əsasən isimdən (y) sonra gəlmiş və çağırış bildirən əsli ədatdır. A- ədatına M. Füzulinin dilində cümlə əvvəlində gəlməsinə rast gəlirik:

A ciyər zəxmi, ağız açma xədəngin görübən,
Yetənə hazi – nihanim, yetər, azhar eylə.

Tarixən dilimizdə işlənən və M. Füzulinin yaradıcılığında tez – tez müraciət edilən ədatlardan biridə ancaq ədatıdır. Orta əsr yazılı mənbələrimizin dilində işlənən ədatlardan biri də ingən ədatıdır. M. Füzuli əsərlərinin dilində ikən variantından istifadə olunmuşdur:

Fürsətin var ikən sən işsiz qalma,
Boş yerə ömrünü gəl etmə ələf.

M.Füzulinin yaradıcılığında müraciət olunan ədatlardan biri də ki ədatıdır. Ki ədatı orta əsr Azərbaycan ədəbi dilində ən çox işlədilmiş ədatlardan biridir. Orta əsr Azərbaycan yazılı abidələrində və M. Füzulinin əsərlərinin dilində işlənən ki ədatı, adətən ifadə olunan fikri konkretləşdirmək, dəqiqləşdirmək və qüvvətləndirmək vəzifəsini yerinə yetirmiş.

Biliksiz olduğuna etiraf et, alim olsan da,
Ki nadandır demişlər gerçəyin məğrur dananı.

M. Füzulinin əsərlərinin dilində eyni zamanda tabeedici bağlayıcı vəzifəsini də yerinə yetirmişdir. Ki ədatının eyni zamanda bağlayıcı kimi işlədilməsi hadisəsi müasir Azərbaycan dilində də geniş yayılmışdır.

Tarixən dilimizdə işlənən ədatlardan biri də ha ədatıdır. Ha ədatı yalnız Azərbaycan dilinə məxsusdur. Əsasən XVl əsrdən sonra yazılmış abidələrdə rast gəlinir. Ha – hu ədatı ifadə olunmuş fikri konkretləşdirmək, dəqiqləşdirmək, feldən, bəzən də isimdən əvvəl gələrək müəyyən bir işə və ya əşyaya işarə etmişdir.

Mən neçün zəbuni-xorəm ha gəldim, əgər küçevkorəm.

Ha ədatı müasir ədəbi dilimizdə öz işlənmə tezliyini itirərək arxaikləşmişdir. Lakin həmin ədatın bu işarə əvəzliyi ilə paralel şəkilində işlədilməsi hadisəsinə Şəki dialektində hələ də rast gəlmək mümkündür. Yazılı abidələrimizdə və M. Füzulinin əsərlərinin dilində sual ədatları da işlənmişdir, qeyd edək ki, başqa ədatlarin miqdarı çox azdır. Bunlara yalnız aşağıdakı ədatları

göstərə bilərik. Mı – mi ədatı ad bildirən sözlərdən və ya feldən sonra gələn ən qədim əsli ədatlardan biridir. M. Kaşğari mı ədatinin dörd variantını qeydə alınmışdır: mı – mi – mu – mü.

Füzuli, çəkmə yarın oxların hər ləhzə yarəndən,
Sənəmi qaldı çəkmək hər zaman bir yar hicranın.

Mı – mi ədatı ad bildirən sözlərdən sonra gələrək əşya haqqında sorğu ifadə etməklə yanaşı feldən sonra gələrək iş, hərəkət haqqında sorğu ifadə etmişdir.

Məni candan usandırdı cəfadan yar usanmazmı.
Fələklər yandı ahimdən muradım şəmi yanmazmı.

Mı – mi ədatı müasir Azərbaycan dilində öz məna vəzifəsini xeyli genişləndirmişdir. Dörd variantda ( mı, mi ,mu ,mü ) işlədilən bu ədat bağlayıcıya məxsus keyfiyyətləri mənimsəyərək eyni zamanda budaq cümləsi əmələ gətirən bağlayıcı kimi də iştirak edir.

M. Füzulinin əsərlərinin dilində tez – tez müraciət olunan sual ədatlarından biri də ya ədatıdır. Ya ədatı türk dillərində ən geniş yayılmış ədatlardan biridir. M. Füzuli də öz əsərlərinin dilində ya ədatına tez – tez müraciət etməklə söyləniləcək fikrə dolğunluq, rəvanlıq gətirmişdir:

Pünhani oldum, aləmə faş oldu Füzuli,
Ya rəb ki, mənim şəm kimi yənə zəbanım.

Ya ədatı cümlənin müxtəlif yerində, sözün əvvəlində və ya sonunda gələrək aşağıdakı mənaları ifadə etmişdir. Əşya haqqında, iş və ya hərəkət haqqında sorğu ifadə etmişdir:

Hər tərəf pürxun həliflərdir çəkilmiş köksümə,
Ya havadan mövcuddur bağrımdakı dəryayi – xun.

Ya ədatı müasir Azərbaycan dilində ilkin mənasını tamamilə itirən bağlayıcı kimi sabitləşmişdir.

Deyil ədatı müasir Azərbaycan ədəbi dilində yalnız bir variantda işlədilir. M. Füzulinin əsərlərində işlədilən ədatlardan biri də iməz ədatıdır. İməz ədatı məna və vəzifəcə deyil ədatının sinonimi kimi işlədilmiş əsli ədatdır. Bu ədata yalnız XVl – XVll əsr Azərbaycan yazılı abidələrində təsadüf edilir.

Dustlar mən naləvü – fəryad qılam eyb iməz,
Çərxi bəd – mehrin əlindən dad qılam eyb iməz .

Yazılı abidələrimizin dilində, həmçinin M. Füzulinin yaradıcılığında vaciblik, gərəklik məhfumunu ifadə etmək üçün yalnız gərək ədatından istifadə edilmişdir. Orta əsr Azərbaycan ədəbi dilində və M. Füzulinin əsərlərində ta ədatı da işlənmişdir:

Ta Füzuli qamətü rüxsarına vermiş könül,
Maili sərvü həvaəsəhi – külü nəsrin deyil.

Çün ədatı orta əsr Azərbaycan ədəbi dilində geniş yayılsa da müasir ədəbi dilimizdə tamamilə arxaikləşmişdir. Tarixən dilimizdə işlənən və M. Füzulinin tez–tez müraciət etdiyi alınma ədatlardan biri də çün ədatıdır. Çün ədatı iş, hərəkətin nəticəsini ,iş hərəkətin prosesini bildirmişdir:

Çün bir dəm onunda ağladı zar.
Deyil asan keçəsən qəlblə candan, ey şeyx.
Bağlayıcının tarixi vəziyyəti və sonrakı inkişafı.

M. Füzuli dilində qoşma və ədatla yanaşı bağlayıcıda işlənmişdir. M. Füzulinin dili bağlayıcılarla zəngindir. M. Füzuli əsərlərinin dilinin tədqiqindən aydın olur ki, bütün yaradıcılığı boyu bağlayıcılardan istifadə etmişdir. M. Füzuli əsərlərinin dilində işlənən bağlayıcılar müasir dilimizdə olduğu kimi qrammatik vəzifəsinə görə iki yerə ayrılır:

1.Tabesizlik bağlayıcılar;

2.Tabelilik bağlayıcısı.

M.Füzulinin dilində işlənən bağlayıcılardan biri də və bağlayıcısıdır. Bu bağlayıcı ərəb dilində olduğu kimi həmcins sözlər və bərabərhüquqlu sadə cümlələr arasında qrammatik əlaqə yaratmışdır.

Orta əsr yazılı mənbələrin dilində, o cümlədən də M. Füzulinin dilində işlənən bitişdirici bağlayıcılardan biri də həm bağlayıcısıdır.

M. Füzulinin müraciət etdiyi gah bağlayıcısı müasir dövrdə bir variantda qorunub saxlanılır.

M. Füzuli dilində tabesizlik bildirən bağlayıcı vəzifəsini yerinə yetirən yalnız iki bağlayıcı sözə, daha doğrusu yoxsa və nə sözlərinə təsadüf olunur. Yazılı mənbələrimiz və Füzulinin dilində tez – tez müraciət olunan bağlayıcılardan biri yoxsa bağlayıcısıdır .

Səndən savay yoxsa da candan mənə əziz,
Dırnağı əldən üzməyə qalmışıq bu gün güman.

Yoxsa bağlayıcı sözü müasir dilimizdə geniş surətdə işlədilməkdədir. Füzulinin müraciət etdiyi nə - nə bağlayıcı sual əvəzliyidir. Bununla belə nə əvəzliyi həm də bağlayıcı vəzifəsini yerinə yetirir. Nə - nə bağlayıcısı eynicinsli sözlər və tabesiz mürəkkəb cümlənin tərkibləri arasında qrammatik əlaqə yaradır

Tarixən dilimizdə işlənən bağlayıcılardan biri də nədən kim bağlayıcısıdır. Bu bağlayıcı da çıxışlıq hal görümündə təcrid olunan nə sual əvəzliyinin kim bağlayıcısı ilə birləşməsi nəticəsində əmələ gəlmiş bağlayıcı vasitəsidir. Əsasən XV – XVl yazılı abidələrində rast gəlinir. M. Füzuli də bu bağlayıcıya müraciət etmişdir.

Füzuli, eyb qılmaz yüz çevirsən əhli aləmdən,
Nədən kim hər kimə yüz tutdum ondan yüz bəla gördüm .

M. Füzulinin dilində ki bağlayıcısı ilə yanaşı ən geniş yayılmış və eyni qrammatik vəzifələri yerinə yetirən kim bağlayıcısı da işlənmişdir:

Ey gözüm, rahi – vəfa icrə Füzuli neyləmiş,
Kim salıbsan gözdən etmişsən bietibar.

Şübhə yoxdur ki, kim və ki bağlayıcıları min ildən artıq bir dövr ərzində bir – birinə təsir göstərmiş və nəhayət ki, ki, kim bağlayıcısını sıxışdırıb dilimizdən çıxarmışdır. Bununla belə kim bağlayıcısı dilimizin bəzi dialekt və şivələrində kın – kın – kun – kün şəklində hələ də işlədilməkdədir.

M.Füzuli öz yaradıcılığında necə kim – necə ki bağlayıcısına müraciət etmişdir. Bu bağlayıcı söz necə sual əvəzliyinin kim, ki bağlayıcı vasitələrindən biri ilə birləşməklə əmələ gəlmiş mürəkkəb bağlayıcıdır:

Canü – cigərimdə qalmadı tab,
Məhv oldu necə kim odda sinab.

M. Füzulinin əsərlərinin dilində milli mənşəli bağlayıcılarla yanaşı alınma bağlayıcılar da işlənmişdir. Qeyd edək şairin dilində işlənən alınma bağlayıcılar kəmiyyətcə çox azdır. Alınma tabeedici bağlayıcılar lüğəvi mənaya malik olub-olmaması xüsusiyyətinə görə iki yerə bölünür:

1. Tabeedici alınma əsli bağlayıcılar.
2 . tabeedici alınma bağlayıcı sözlər .

Şairin dilində işlənən alınma əsli bağlayıcılara zira, çünki, əgər bağlayıcılarını göstərmək olar.

Bildim bu qəziyyə imtəhandır.
Zira ki, bu bir bəlayı candır.

Zira bağlayıcısı müasir Azərbaycan ədəbi dili üçün arxaikləşən bağlayıcılardandır. M. Füzulinin müraciət etdiyi bağlayıcılardan biri də çünki bağlayıcısıdır. Bu bağlayıcı ən geniş yayılmış bağlayıcılardandır.

Rəqib öldükdə mən zövq etmərəm qorxum budur, çünki.
Ölüb xəki – rəh olduqda tuta bir də damani.

Çünki bağlayıcısı dilimizdə geniş dairədə işləməklə vətəndaşlıq hüququ qazanmışdır. Əgər bağlayıcısı da çünki bağlayıcı kimi orta əsr Azərbaycan ədəbi dilində geniş yayılmışdır . Əgər bağlayıcısı Füzulinin dilində əgər - əgərçi variantlarında işlənmişdir.

Leylidə əgərçi dərd çoxdur.
Məcnunu – həzincə dərdi yoxdur .

Əgər bağlayıcısı bu günkü gündə də Azərbaycan ədəbi dilində işlənməkdədir.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1.Azərbaycan ədəbi dili tarixi . 4 clddə. I cild. Bakı, "Şərq – Qərb" 2007 .
2.A.Qurbanov.Müasir Azərbaycan ədəbi dili. "Maarif" nəşriyyatı Bakı,1985.
3. H. Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1990.
4. Ə. Şükürov. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1991.
5. C.Əfəndiyev. Qoşmalar."Azərbaycan dilinə aid tədqiqlər", Bakı, 1947.
6. T. Hacıyev. Füzuli. Dil sənətkarlığı. Bakı,1994.
7. N. Xudiyev. XV – XVl əsrlər Azərbaycan ədəbi dili. Bakı, 1994.
8. Ə. Dəmirçizadə Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı, 1979.
9. M. Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1970.
10. N. Mirzəzadə. Azərbaycan dilinin tarixi morfologiyasi. Bakı, 1962.
11.M. Quluzadə. Füzulinin lirikası. Bakı, 1065.
12. M. Füzulinin. Əsərləri Altı clddə.I cild. Bakı, 2005.
13. M. Füzulinin. Əsərləri Altı clddə. II cild. Bakı, 2005.
14. M. Füzulinin əsərləri altı clddə III cild. Bakı, 2005.
15. M. Füzulinin. Əsərləri altı clddə. IV cild. Bakı, 2005.
16. M. Füzulinin. Əsərləri altı clddə.V cild. Bakı, 2005.
17. M. Füzulinin Əsərləri Vl clddə V cild. Bakı, 2005.
18. Azərbaycan klassik ədəbiyyatından seçmələr. Üç clddə. II cild. Bakı, 2005.

## İNGİLİS DİLLİ ÖLKƏLƏR

## ENGLISH-SPEAKING COUNTRIES

*Tələbə: Hüseynova Ayulduz Mahir qızı (qrup İBT1901B)*
*Elmi rəhbər: b/m. Mahmudzadə Səfurə Novruz qızı*
*ayuldushuseynova@gmail.com*

Great Britain, USA, Canada, Australia and New Zealand, South Africa are English speaking countries. They are situated in different parts of the world and differ in many ways. The nature of these countries, their weather and climate and way of life of their people differ. Each coutry has it's own history customs, traditions, its own national holidays. But they all have a common language. English, the language of the people who left England to make their names in new countries. The United Kindom consist of 4 parts: Great Britain, Scotland, Wales and Northen Ireland.












### Great Britain

Great Britain is an island. London is the world's seventh biggest city. In Britain you can meet people of many different nationalities. The capital of the UK is London. The official language is English.

### Elizabeth II

Works every day except Queen Christmas. By 9 a.m., her personal secretary is preparing a popular "red briefcase" full of documents that the monarch needs to get acquainted with and sign.

By this time, the queen's husband, Prince Phillip, has usually finished breakfast. His Majesty likes to have breakfast alone at nine o'clock in the morning.

It is not easy to know what the queen eats: the chefs and servants of the palace never give public interviews, and loyalty and silence are highly valued in the Windsor dynasty.

However, former royal chef Darren McGrady told reporters that the queen ate a simple breakfast such as scrambled eggs, toast with jam and milk tea.

During breakfast, he reads articles selected by his secretary in fresh newspapers.

It is known that all members of the royal family are sensitive to what is written about them in the press and published pictures.

According to former secretaries, this is not due to their concern for appearance. According to them, the presentation of the monarch should be perfect.

Otherwise, as a rule, after a while, at the appropriate time, the press service of the Buckingham Palace conveys the dissatisfaction of the royal family about this or that publication.

**Emblem of England**

**The rose is the national emblem of England.**

**Christmas**

Christmas celebrated on 25th December is a big holiday for the British people. The most famous Christmas tree can be found lit in all its glory at Trafalgar Square in London. Santa Claus is called Father Christmas and will appear in the night, on Christmas Eve.

**New Year’s Eve**

The largest celebration of fireworks explodes at midnight over the London Eye. Big Ben chimes and rings in the New Year and British people sing Auld Lang Syne. Crowds gather at Trafalgar Square or Piccadilly Circus

**Guy Fawkes Night**

Guy Fawkes Night is celebrated on the 5th of November each year. Guy Fawkes was the mastermind of the Gun Powder Plot in 1605, which failed when he attempted to destroy the House of Parliament.

**Shrove Tuesday or Pancake Day**

If America is famous for its Mardi Gras, England is known for Shrove Tuesday. Shrove Tuesday takes place before the start of Lent and is celebrated by Christians across the country by making pancakes. Pancakes are similar to crepes in England accompanied by golden syrup, sugar or lemon.

**The United States of America**

The United States is the fourth largest country in the world in area (after Russia, Canada, and China). The capital of the USA is Washington. There are 50 in US. The White House is situated in New York.

**Canada**

Canada is the second largest country in the world. The capital of Canada is Ottawa. In Canada there are people of many nationalities. There are two official languages - English and French. English spoken in Canada is a bit different from British English: there are some pronunciation and grammatical differences. The red and white Canadian flag shows a leaf of the maple tree , which grows in North America. The maple leaf is the official emblem of Canada.

**New Zealand**

New Zealand is a small country in the Pacific Ocean. It consists of two major islands. When it's summer in Europe, it's winter in New Zealand. But the school year still starts in autumn — in February! When it's time to go to bed in Europe, It's time to go to work in New Zealand.

Milford Sound is the most famous tourist attractions in New Zealand.

**Australia**

Australia is the biggest island and the smallest continent in the world. The capital of Australia is Canberra. English is the official language in Australia. But English spoken in Australia is a bit different from British English and American English. Sometimes Australia is called “Oz” or

“the Lucky Country”

Sydney Opera House is one of the main attractions of Australia

**Referenced literature:**

https://worldpopulationreview.com › country-rankings › e..
https://www.lingoda.com › en...

## ANARIN “MOLLA NƏSRƏDDİN – 66” ƏSƏRLƏR TOPLUSUNDA CƏMİYYƏTDƏKİ EYBƏCƏRLİKLƏRƏ QARŞI MÜBARİZƏ MOTİVLƏRİ

*Tələbə: Əliyeva Natəvan Araz qızı (qrup AZD1901B)*
*Elmi rəhbər: b/m. Rzayeva Qərənfil Zeyqəm qızı*
*nataaliyeva02gmail.com*

Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli simalarında olan Anar “60-cılar nəsri” adlı ədəbiyyatın yaradıcılarındandır. O nəsrin ki, sovet ədəbiyyatı və hətta bu günə qədərki müstəqillik illəri nəsrində o mərhələni əvəz edə biləcək və ya ondan irəli gedə biləcək ədəbi dövr yaranmadı.

Anar öz yaradıcılığı ilə ötən əsrin 60-cı illərində ədəbiyyatımıza yeni nəfəs gətirdi. Onun “Ötən ilin son gecəsi”, “Bayram həsrətində” hekayələri ədəbiyyata ilk gəlişinin ədəbi nümunələri idi. Çox keçmədi ki, “Ağ liman” povesti, “Beşmərtəbəli evin altıncı mərtəbəsi” romanı, “Mən, sən, o və telefon” hekayəsi ilə ədəbi ictimaiyyətin rəğbətini qazandı. “Vahimə”, “Mütləq görüşərik”, “Qırmızı limuzin”, “Gürcü familiyası”, “Dantenin yubileyi” və onlarca əsərləri oxucuların sevimli stolüstü kitabına çevrildi. Kitabları dünyanın müxtəlif ölkələrində çap olunaraq yazıçıya şöhrət qazandırdı. Bu gün Anar tək Azərbaycanda yox, bütövlükdə Türk dünyasının sevimli yazıçısı kimi tanınır, oxunur və sevilir...

Anarın əsərlərində detallar, əşyalar və simvolların canlı obrazlar kimi dili, spesifik xarakteri və portreti var. “Taksi və vaxt” hekayəsində mətnin mahiyyəti taksi cizgisi ilə çözülür, açılır. İnsanların qərarı yox, sanki taksinin marşrutu həll edir taleləri. Taksi durğunluq və hərəkətlilik, gəncliklə qocalıq arasındakı məsafəni zaman qanunları, zaman sürəti ilə ölçən meyardır. Taksi bir qadını onu sevən kişinin əlindən alıb aparır, sonra bu peşman olmuş adamı başqa bir qadının yanına qaytarır, amma heç nə dəyişmir. Çünki şahmat formasında işarələnmiş bu taksinin özünü də Vaxt qovur, idarə edir. Bu maşını hara istəsən sürdürmək olar, irəliyə-geriyə var-gəl etdirmək də, amma saxlamaq olmaz. Yanından siqnal verə-verə keçər, əl eləyərsən, gah görər, gah görməz, gah da içi dolu ötüb gedər, sənə o maşında yer olmaz...

“Asılqanda işləyən qadının söhbəti” hekayəsini isə Anar 1959-cu ildə 21 yaşı olanda yazəb. Bu kiçik həcmli hekayədə obrazların taleyi haqqında bir sadə peşə sahibi - asılqanda işləyən qadın danışır. Əslində qadın ancaq və ancaq paltolardan bəhs edir. Lakin paltolar forma, geyim, insanın zahiri libası mənasından çıxır. Mətnin süjeti də, kompozisiyası da paltoların tarixçəsi ilə bağlıdır. Hekayəni nəql edən qadın yazıçı missiyasındadır, amma müəllif elə maraqlı kombinasiya qurub ki, monoloq şəklində, pıçıltı ilə söylənən hekayətin özündə belə süjetin detallarını müəyyənləşdirə bilirik. Bu qadının pıçapıçla danışdığı hadisənin ekspozisiyası, zavyazkası, kulminasiyası,

razvyazkası və finalı var. Bu alleqorik hekayə də hesab edilə bilər. Baxmayaraq ki, fikirlər asılqanda işləyən qadının dilindən nəql olunur, əsərin qəhrəmanları isə əşyalar, paltolardır.

Yazıçının “Ötən ilin son gecəsi” hekayəsini də ilk qələm təcrübəsi hesab etmək olar. Hekayədə bir ailənin timsalında insanların get-gedə yadlaşması, bir-birindən uzaqlaşması reallığı tanış, hər kəsə doğma cizgilərlə təsvir edilir. Həmidə bu yadlaşmanı həzm edə bilmir. Qəbul etmək istəmir, səbəbləri anlayır, lakin böyük bir boşluğa addım atacaq adamın həyəcanını yaşayır. Ərinin ölümündən sonra ailənin bayramkeçirmə ənənəsində çat yaranır. Qadın sanki bir ocağın sönməsindən qorxurmuş kimi özünü fəda edir, lakin bağlar qırılıb, daha əvvəlki hərarəti, istiliyi, doğmalığı qaytarmaq mümkün deyil.

Göründüyü kimi, yaradıcılığa kicik hekayələr müəllifi kimi başlayan Anar, sonralar iri həcmli, sanballı əsərlər müəllifi kimi diqqətimizi çəkir. Artıq Anarı qlobal problemlər düşündürür və bu problemləri insan və zaman kontekstində çözməyə çalışır.

İnsan və zaman haqqında düşüncələr daim yaradıcı təfəkkür sahiblərini narahat etmiş, düşündürmüş və bu ayrılmaz ikilinin poetik cizgilərini yaratmağa çalışmışlar. Anarın əsərlərini oxuyarkən rast gəlinən mühüm xüsusiyyətlərdən biri, ən başlıcası, yazıçının ömrə, vaxta, zamana böyük dəyər verməsi, onu bütün sirri, müəmması, dolğunluğu ilə açıb göstərməyə çalışmaq əzmidir. Demək olar ki, onun qələmə aldığı əsərlərin əksəriyyətində heç zaman öz rolunu, mövqeyini itirməyən, müxtəlif təzahür formaları ilə yaddaşlara hopan əbədi, əzəli bir obraz yaşayır – vahid Zaman obrazı! Bu obraz əsərlərdəki qəhrəmanlar qədər əhəmiyyətlidir.

Anarın yaradıcılığında vaxt, zaman təkcə romantik çalarda ifadə olunmaqla qalmır, əsrin müəyyən bir dönəmində insan mənəviyyatında, düşüncə və psixologiyasında yaratdığı dəyişikliklər, sənətkarın realist düşüncəsindən yayına bilmir. Onun bir sıra əsərlərində cəmiyyət həyatında, insanların düşüncə və davranışlarında sezilən nöqsanlar aydınlaşdırılır, analiz edilir və fəal vətəndaş-yazıçı mövqeyi ilə işıqlandırılır. Anarın bu səpkili əsərləri içərisində onun “Mola nəsrəddin- 66” əsərlər silsiləsi xüsusilə diqqətəlayiqdir.

Qeyd etdiyimiz kimi, Anar həm romantik, həm də realist yaradıcılıq qabiliyyətinə malik sənətkardır. O, realist əsərlərində sanki həyat həqiqətinə reallığın lap zirvəsindən baxmış, dərin həyati müşahidə, aydın, doğru mülahizələri, özünəxas düşüncə və fikir tərzi ilə bu həqiqəti bütün detallarına qədər bədii boyaların köməyilə əks etdirə bilmişdir.

Cəmiyyətin, mövcud mühitin anormallıqları sənətkarı daim məşğul etmiş, bunun nəticəsində bir-birinə bənzəməyən hadisə və əhvalatlar onun əsərləri üçün mövzu mənbəyi olmuşdur.

Obrazlarının fərdi psixoloji durumuna yaxşı bələd olan yazıçı, biri digərindən özünəməxsus xüsusiyyətləri ilə seçilən obrazlar qalareyası yaratmışdır. Bu xarakterlər öz müxtəlifliyini şübhəsiz ki, hadisələrin gedişində, əhvalatların başvermə prosesində, ziddiyyət və açılış nöqtələrində büruzə verir, oxucu üçün nəinki xarakterin, həmçinin hadisələrin də mahiyyəti aydınlaşır.

Anarın istər nəsr, istərsə də dramaturji fəaliyyəti boyunca müraciət etdiyi məsələlər heç də öz aktuallığını itirməmiş, əksinə, hətta yarım əsrdən artıq bir zaman kəsiyinin həmin əsərlərdən bizi ayırmasına baxmayaraq dövrümüzün bəzi hadisələri, problemləri ilə səsləşir. O, cəmiyyətdə baş verən hadisələr fonunda bitkin, düzgün süjet xətti qurmuş və bilavasitə qarşısına qoyduğu məsələnin bədi həllinə nail ola bilmişdir.

Anar yaradıcılığında rast gəlinən maraqlı faktorlardan biri onun Mirzə Cəlil ənənlərinə sadiqliyi, ənənəvi irsə böyük hörmət və rəgbət bəsləməsi və bu irsin layiqli davamçısı olmasıdır. Hələ XX əsrin əvvəllərində Mirzə Cəlilin toxunduğu problemlər, kəskin tənqid atəşinə tutduğu cəmiyyətin qaranlıq, kölgəli sahələribu gün sanki yenidən, məhz Anar qələminin güçü və qüdrəti ilə oxucunun gözləri önündə canlanır. O dövrün Lağlağılarının, Hərdəmxəyallarının, Qızdırmalılarının, Dəmdəməkələrinin dediyi sözlər, əsrin ikinci yarısında Anar qəhrəmanlarının dilindən səslənir. Məhz cəmiyyətin bu ziya işığından kənar qalan bucaqları yeni mollanəsrəddinçi sənətkarın parlaq zəkasının nuruna qərq olur. Çürüməkdə, ölməkdə olan köhnə ideyalar, mənəviyyatca cılız insanlar bu qələmin kəsərindən, hədəfindən yayına bilmir.

Vaxtilə görkəmli tənqidçimiz Aydın Məmmədov nəsrimizin Mirzə Cəlil ənənələrinə qayıtması məsələsini izaha çalışarkən yazırdı: “Əgər Mirzə Cəlil 60-cı illərdən bəri bizim müasirimizdirsə, məncə, bu, Mirzə Cəlil yaradıcılığının bədii-estetik gücündən daha çox,
cəmiyyətin özünün də Mirzə Cəlilin toxunduğu problemlərin səviyyəsinə düşməsi ilə əlaqədardır. Əgər bu gün cəmiyyət üçün Mirzə Cəlil, Sabir obyektivdirsə, dövrün tələblərinə cavab verirsə, deməli dövrün, cəmiyyətin daxilində elə hadisələr baş verir ki, bunlar Mirzə Cəlilin, yaxud sabirin poetikasına, onların əsərlərinin ictimai məzmun dairəsinə yerləşir” (1, 19)

Anarın satirik əsərlər yazmasının, xüsusilə “Molla Nəsrəddin- 66” əsərlər toplusunu qələmə almasının nə kimi səbəbləri vardı? Nə üçün o, əsərinə başqa ad deyil, məhz Molla Nəsrəddini seçdi? Bu səbəbləri biz yalnız əsərin özündə deyil, həmçinin əsərdə öz əksini tapmış, dayaqları möhkəm olduğu üçün hələ də çürümək bilməyən cəmiyyətin ifrat formalizmində, dövrün, mühitin köhnəlik ab-havasına, geriliyin və onun ifadəçilərinin öz xarakterində axtarmalıyıq.

“Molla Nəsrəddin - 66”, “Molla Nəsrəddin - 86” silsiləsi Anarın təkcə Mirzə Cəlil sevgisi ilə bağlı tərzi deyildi, həm də cəmiyyətdə mövcud olan bütün qaranlıq, şər, yaramaz vəziyyətlərə məhz Mirzə Cəlil güzgüsü tutmaq varisliyi ilə əlaqəli idi.

Həmçinin başlıca səbəb məhz, Molla Nəsrəddinin gülərək anlatmaq istədiyi, istehza, kinayə, hətta qəzəb ediləsi ünsürlərin hələ də cəmiyyətdə mövcud olması idi.

Elə şeylər vardır ki, onları ancaq xafif bir kinayə, yaxud yüngül istehza ilə anlatmaq, bəzilərini yumorla, bəzilərini isə yalnız birbaşa, satiranın tanqid hədəfinə tuş etməklə həll etmək mümkündür. Mirzə Cəlil ideyalarının tərəfdarı olan Anar da sələfinin bu sahədəki məharətindən bəhrələnmiş, onun ənənələrini yaşatmağı özünə mənəvi borc bilərək bu şərəfli işi layiqincə yerinə yetirmişdir. Təsadüfi deyildir ki, Anar “Molla Nəsrəddin-66” sərlövhəli əsərinin əvvəlində belə bir ifadə işlədir: “Mirzə Cəlilə min rəhmət!” Təkcə bu ifadə oxucuda həmin an oxuyacağı əsərlər barədə fikir formalaşdırır. Həm yazıçının öz saləfinə olan böyük hörməti, həm də onun ənənələrinə sadiqlik prinsipi elə bu kəlmədəncə bəlli olur. Oxucunun gözləri önündə Mirzə Cəlilin ölməz əsərləri, obrazları canlanır. Anarın öz oxucularına müraciətlə dediyi “Sözün doğrusu isə budur ki, ceyranım, hələ zir-zibili tamam silib, qurtara bilməmişik. Odur ki, sevincdən, fərəhdən gülməklə bərabər, hərdən-hərdən acıqnan da gülək, rişxəndlə, kinayəylə, hirslə gülək, yana-yana gülək, gülə-gülə yandıraq. Mən ölüm, necə deyirəm?” (2, 11-12) - kimi sözlərin səmimiyyəti, ifadə tərzi, üslub xüsusiyyətləri, sanki Mirzə Cəlil ruhunun ölməz ifadəsidir.

Doğrudan da, yerində deyilmiş kəlamlardır: hirslə gülək, yana-yana gülək, gülə-gülə yandıraq”. İnsan çarəsiz qalanda, qarşısına çıxan əngəli dəf etmək üçün bəzən hirslə gülməli,nə qədər ağır olsa da, dərdinə yana-yana gülməli, bəzən də “hərif“i qandırmaq üçün gülə-gülə yandırmalı olur.

Anar, istər həyatda, istərsə də ədəbiyyatda həmişə həqiqətin tərəfində durmuş, yaxşını yaxşı, pisi pis əks etdirməyə çalışmışdır. O, pisin əməllərinə göz yumaraq onu yaxşı qələmə verənlərin, üzdə özünü “yaxşı kişi” kimi tanıdanların gözünün içinə dedi ki, eybi yox, qoy mən pisin pisini deyib “pis kişi” olum. Bu həqiqət, bu fikir Anarın “Qaravəlli” komediyasında öz əksini tapmışdır.

Əsərdə “Yaxşı kişi” ilə “Pis kişi”nin simasında yaxşılıqla pisliyin, doğru ilə əyrinin, qaranlıqla işığın mübarizəsi təsvir olunmuşdur. Mövcud cəmiyyətin özündən doğan səfehlik, axmaqlıq tənqid olunmuş, insanın insana təmənnalı yardımı, quruluşun sxematikliyi, formalizmi, hər bir şeyin keyfiyyətlə deyil, kəmiyyətlə ölçüldüyünü isbat edən fakt kimi satira hədəfinə çevrilmişdir.

Yazıçı axmaqların, səfehlərin yersiz hərəkətlərinə, söhbətlərinin mənasızlığına, boşluğuna gülmək, rişxənd etmək kimi üsullarla həməsrlərini silkələmək istəmişdir. Mollanəsrəddinçi nasirin oxucusuna müraciətlə dediyi sözlərə diqqət edək: “Gündüz çıraqla axtaranda, yəni sözün düzü, elə çıraqsız axtarmayanda da bir də görürsən ki, qarşıva çıxdı kim? Ay sağ ol. Qorxaq!” (2, s.12).

Anarın satira hədəfi qorxaqlar, yaltaqlar, alçaqlar və axmaqlardır. Insana yaraşmayan bu cür iyrənc xüsusiyyətli kəsləri görəndə nəinki sənətkarın qəzəbi coşur, hətta ürəyi bulanır.

Anar bilir ki, rüşvətin baş alıb getdiyi yerdə həqiqətin dəyərindən danışmağa, müftəxorluğun məkan saldığı bir mühitdə halallıqdan danışmağa nəinki əsas, haqq belə yoxdur. Nəyinsə bahasına qazandığı şöhrətin, mənsəbin qulu olan hər hansı bir rəhbər işçi heç vaxt xalqın güzəranının yaxşılaşması qeydinə qala bilmaz. Dayaqları möhkəmlənsin deyə qohum-əqrabasını, yerlisini başına toplayan, tutduğu mövqeni hiylə, məkr yuvasına çevirən nakəslərin çirkin əməlləri, əlbəttə ki, xalqın taleyini düşünən, onun ağır güzəranına dəstək olmaq istəyən və hər şeyə vicdanının tələbi ilə qiymət verməyə çalışan sanətkarı düşündürməyə bilməzdi.

Sənətkarı yandıra-yandıra güldürən təkcə bunlar deyildi. Haqqı tapdanan avamlar, düzü əyridən seçməyən cahillər, nadanlar mənsəb sahiblərinin əməllərinə göz yuman laqeydlər, biganələr, dəymə mənə, dəymərəm sənələr, əşi, mənim nə işimələr də sənətkarın gülüş hədəfləri idi. Anarın mülayimcəsinə dediyi “əlqərəz, hamısını saysam, deyəcəklər, ifrata varırsan, boyaların tünddür, bə hanı yaxşı “çılar”- əlaçılar, zərbəçilər” ifadəsi camiyyətin bir para üzvləri tərəfindən onun düzgün başa düşülməyəcəyini, boyaların tündlüyündən gileylənənlərin şanına toxunacağını, kürklərinə birə salacağını aydın göstərirdi. Yazıçı bütün bunları əvvəlcədən ölçüb-biçir, nə olursa-olsun gördüyü nöqsanları, əyər-əskiyi, xırda-xuruşu, kəm-kəsiri gün işığına çıxarır. Çıxarır ki, gülən gülsün, gülümsünən gülümsünsün.

Beləliklə, “Kölgəsindən qorxanlara, milçəyi fil edənlərə, olmayanı “yaradanlara”, nadanlara, söyüd kölgəsində kölgə axtaranlara Anar sonuncu zərbəni vurur”(3, s.73).

Anarın əsas qəhrəmanları ilə yanaşı, digər obrazları da diqqəti cəlb edir. Belə ki, o, tüfeyli həyat sürən, ayağa bulaşan “insanlar və onların ikrah doğuran hərəkətləri haqqında məlumatları, xəbərçilikdən başqa əlindən bir iş gəlməyən Xəbərçi Xədicənin, işbilməz iş adamlarının manasız və

yersiz hərəkətlərini Boşboğazovun, vəzifə başında rəngdən rəngə, dondan dona girən, yeri gələndə qızarıb bozarmağı, hatta göyərməyi, qaralmağı bacaranların iç üzünü Qara Dinməzov va Qara Qışqırıqovların vasitəsilə açır, onların dilindən təqdim edir. Buradakı obrazlar öz xarakterik xüsusiyyətləri ilə səciyyələnir. Məsələn: “Məlumat”da Lül Qənbərin, Hayıl Mayılovun təkcə adları onların xarakteri haqqında oxucuda ilkin məlumat mənbəyinə çevrilir. Onların çıxışları isə, xarakterin açılmasında həlledici rol oynayır. Yaxud, “Gülməşəkər kəndinin sabahı”ndakı obrazlara diqqət edək. Onların Yalan Planov, Bəli Bəliyev, Dedi Qoduyev kimi adlandırılması, onların ilk andan xarakterlərinə bir açardır.

Oxucu Yalan Planovun simasında keçmiş kolxoz quruluşu dövründə saxta sənədlər üzərində yalan planlar verərək özünə şöhrət qazananların, Bəli Bəliyevin simasında əmr, buyruq qullarının misgincəsinə itaətinin, Dedi Qoduyevin simasında isə yalnız gücü adda budda dedi-qodu yaymağa çatan, lakin əlindən heç bir iş gəlməyən tiplərlə qarşılaşır. Burada müəllifin sənətkarlıq xüsusiyyətləri, o cümlədən, tipi fərdiləşdirmə və ümumiləşdirmə bacarığı aydın görünür. Müəllifin "Əl əli yuyar və yaxud bozbaş dasgahı” əsərində isə tamam başqa mətləblar,fikirlər ortaya çıxır. Əsərdə təsadüfi adamların özünü sənətkar kimi qələmə verməsi və belələrinin əlaltıları ifşa olunur.

Əsərin qəhrəmanı Dərə Düzov fırıldaqçı bir adamdır. O, tamahının əsiri olan Qarın Quliyevi bozbaş qonaqlığına dəvət edir. Bunun əvəzində isə onu yalan ifadələrlə sənətə yabançı “Əl əli yuyar, əl də üzü” adlandırdığı mənasız bir cızmaqaranın guya dəyərli bir əsər olmasından, həqiqi sənət əsəri kimi əvəzsizliyindən danışmağa sövq edir. Tamahına qul olan Qarın isə bu şablon əsər haqqında fikir söyləmək istərkən bir anlıq başa düşür ki, yazı haqqında heç bir malumatı yoxdur. Odur ki, Dərə Düzovun həyat yoldaşı Nənəm Nehrə xanımın bozbaş qonaqlığındakı ara-sıra zəhlətökən ifadələrini yada salır və çox gülünc bir tərzdə “əsər” haqqında fikir söyləyir. Bu məqamda əsl “Əl əli yuyar, əl də üzü” fikri öz təsdiqini Dərə Düzovla Qarın Quliyevin təmannalı dostluğunda, münasibətində tapır.Nənəm Nehrə xanımın sözlərindən gətirilən sitatlarla “əsər”ə bozbaş dəsgahı qurulur.

“Molla Nəsrəddin – 66”ya daxil olan “Bir stakan su”, “Maraqlı tadqiqat” kimi əsərlərdə isə avara, işbilməyən, boşboğaz, yalançı iş adamları gülüş obyektinə çevrilir. Kəndin cuvarı Cuvar Cəfər saman altından su yeritməsinə baxmayaraq, ortaya çıxanda adam kimi bir kəlmə dürüst söz danışa bilmir. Bir stəkan su ilə həmişə özünə, çıxışına mövzu tapan Cəfər, nəhayət Çayçı Cəmilin vasitəsilə ifşa olunur. Artıq kürsülərdə boş-boş danışmağı özünə adət edən Cəfərin çıxış üçün heç bir tərəddüdü, həyəcanı yoxdur. O, kürsüyə qalxır və gözü stəkanda su axtarır. Lakin su əvəzinə çayı görən Cəfərin dili dolaşır, nə haqda danışacağını unudur, gülünc bir vəziyyətdə pərt olaraq kürsüdən enir. Burada Cuvar Cəfərin ifşası ilə bərabər, ikinci bir tanqid hədəfi də vardır ki, o da Cəfərin kütlüyünə, işbilməzliyinə göz yuman, onu alqışlayaraq kürsüdən-kürsüyə irəli çəkən,böyüdən avam, sadə camaatdır. Cafərin nə danışdığının mahiyyətinə varmadan onu gurultulu alqışlarla sadə bir çıxışdan sonra böyük mitinqlarə, hatta televiziyada xalqın qarşısında çıxış üçün irəli çəkirlər. Avamlığı, cəhaləti inandırıcılıqla əks etdirən bu əsər öz kəsəri, hədəfinin doğruluğu və silahının yönümü ilə olduqca əhəmiyyətlidir.

Anarın satirik məharəti bir də özünü onda büruzə verir ki, o, hadisələrin məğzinə uyğun obrazlar seçir. Sanki tipin hansı şəraitdə əl-qol açacağını, hansının mühit üçün əlverişli, “işbacaran”

olacağını yaxşı bilir. Obrazların təkcə adları onların əməlləri ilə vəhdət təşkil etdiyi üçündür ki, uzun zaman oxunan hər hansı bir əsərin sadəcə qəhrəmanının adını xatırlamaq əsərin başdan-ayağa yada düşməsi üçün kifayətdir. Məsələn: Gül Yanaqovun adını çəkdiyimiz zaman təsəvvürümüzdə “Rəng” haqqında bildiklərimiz gözlərimiz önündə yenidən canlanır və onu da bilirik ki, Gül Yanaqov nə ağarırdı, nə də bozarırdı. Sadəcə qızarır, qızarırdı. Bunun özü əsərin yaddaqalımlığını təmin edən əsas cəhətlərdən biridir. Tədqiqatçı Nurlana Əliyeva yazır: “Molla Nəsrəddin – 66” silsiləsinin bir cəhəti var ki,buradakı hekayələrin əksəriyyəti, müəllifin sözü ilə desək, “zarafat” janrında yazılmışdır” (4, s.21).

Yazıçının demək olar ki, bütün satirik əsərlərində obrazların adları komikdir. Ilk baxışdan adın özü ya gülüş doğurur, ya da acı təəssüf. Bu xüsusiyyətin özü əsərə xüsusi bir rəng qatır, onu daha oxunaqlı edir və hadisələrin mahiyyətinin açılmasında mühüm rol oynayır. Müəllifin digər obrazlarının, o cümlədən, Xəbərçi Xədicə, At Balaxanım, Süsən Sünbül, Nazlı Qəmzəli, Nənəm Nehrə xanımın və başqalarının adlarını çəkə bilərik ki, bu obrazlar da öz xarakterlərinə uyğun olaraq müəllifin layiq bildiyi münasib adlarla dəyərləndirilmişlər.

Yazıçı, göründüyü kimi, bir-birindan seçilən müxtəlif xarakterli qadın obrazları yaratmışdır. Xəbərçi Xədicənin xəbərçiliyi, At Balaxanımın kobudluğu. Nənəm Nehrə xanımın qadın zərifliyinə uyuşmayan bədən biçimi və zəhlətökən danışığı, Nazlı Qəmzəli kimilərinin iş xatirinə,yaxud nəyinsə naminə özünü kiminsə oyuncağına çevirməsi Anarda həm nifrət, həm kinayə, həm də acı təəssüf hissi doğurur.

**İstifadə olunan ədəbiyyatlar:**


1 A. Məmmədov. Sözümüz eşidilənədək, Bakı, “Yazıçı”, 1998.
2. Anar. “Sizi deyib gəlmişəm”, Bakı, “Azənəşr”, 1984.
3. S. Bəşirov. Anar, Bakı, 1995.
4. N. Əliyeva. Anar - şəxsiyyət və sənətkar. Bakı, Təhsil, 1998
5. Y. Səmədoğlu Anarın “Adamın adamı” kitabına ön söz. Bakı, Azəməşr. 1977
6. A. Dadaşzadə. Anarın “Sizi deyib gəlmişəm” kitabına ön söz. Bakı, Azərnəşr, 1984


## N. GƏNCƏVİNİN “SİRLƏR XƏZİNƏSI” POEMASINDA HUMANİZM İDEYALARININ TƏBLİĞİ


*Tələbə: Hümbətova Aişə Pəhlivan qızı (qrup İBT2001B).*
*Elmi rəhbər: b/m. Əmirli Arzu Həsən qızı*
*humbatovaaishe@gmail.com*


Prezident İlham Əliyevin ədəbiyyatımızın görkəmli nümayəndəsi Nizami Gəncəvi irsinə göstərdiyi böyük diqqət və qayğı xalqımızın mədəni həyatında çox əlamətdar və təqdirə layiq hadisə hesab olunur.Prezident İlham Əliyev tərəfindən 2021-ci ilin Azərbaycanda “Nizami Gəncəvi ili” elan edilməsi əsası Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyev tərəfindən qoyulan ənənənin davamıdır.Belə ki, Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik

və vətənpərvərlik mövqeyindən yanaşan ümumilli lider Heydər Əliyev Nizami irsinə xüsusilə böyük diqqət və qayğı ilə yanaşmışdır.

2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd olunmuşdur.880 il bəşəriyyəti öz poetik dünyası ilə heyrətdə qoyan Nizami Gəncəvinin yubileyinin dövlət səviyyəsində keçirilməsi ölkəmizdə milli mədəniyyətə diqqət və qayğının daha bir parlaq numunəsi olmaqla bərabər dünya şöhrətli şairin duhasının əzəmətinə saf və bəşəri duyğularına yeni baxış olacaq.

Dahi şair Nizami Gəncəvi öz dövrünün və gələcək dövrlərin humanist və demokratik istiqamətli fikirlərin, habelə sosial ədalət ideyalarının parlaq təbliğatçısı olmuşdur.

İnsan haqlarının təbliği və onların müdafiəsi, şəxsiyyət azadlığı, şəxsiyyətin iradə müstəqilliyi, bəşəriyyətin mədəni tərəqqisində dönüş nöqtəsi olan intibah dövrünün mənəvi mahiyyətinin aşkar olunmasına şevrilmiş səlist humanizm təlimi Nizaminin sosial-siyasi görüşlərinin sosial ədalət hissəsində öz parlaq təcəssümünü tapmışdır.

Nizami öz əsrinin misilsiz humanist mütəfəkkiri olmuşdur.Bunun öz əsərlərində irəli sürdüyü sosial-siyasi ideyalarının məzmunu da təsdiq edir.

Mütəfəkkir lirik əsərləri ilə yanaşı, “Xəmsəyə” daxil olan əzəmətli poemalarında da dövrünün sosial-siyasi problemlərinin həllinə toxunmuşdur.

“İş insanın cövhəridir”, “İşləməyən dişləməz”, “Əmək xoşbəxtliyin açarıdır”, və s. kimi hikmətli kəlamlar çox maraqlı xalq deyimləridir. Dahi şairimiz Nizami Gəncəvinin öz əsərlərində əmək adamlarını dərin məhəbbətlə təsvir etmiş və əməyə yüksək qiymət vermişdir. Bu cəhətdən şairin “Sirlər xəzinəsi” poemasındakı “Kərpickəsən kişinin dastanı” hekayəti çox maraqlıdır. Burada göstərilir ki, Şam şəhərində kərpic kəsmək kimi ağır zəhmətlə məşğul olan bir kişi yaşayırmış. O, əyninə öz əlinin zəhməti olan, otlardan toxuduğu köynək geyir, kərpic kəsib dolanırmış.Bir gün gənc bir oğlan kərpickəsən kişinin yanına gələrək bir qarın çörək üçün belə bir ağır zəhmət tələb edən işlə məşğul olmamasını ona məsləhət bilir. Qoca kişi cavan oğlanın məsləhətlərindən narazı qalaraq ona belə bir cavab verir:

“Cavansan belə cahillik etmə, acı sözlərindən əl çək, mənə ağıl öyrətmə. Pula görə heç kimə möhtac deyiləm. Əlimin zəhməti ilə qazandığım ruziylə qarnım toxdur. Əlimi bu sənətə ona görə öyrətmişəm ki, bir gün sənə əl açıb xəcalətə düşməyim. Məni bu ruziyə görə günahkar bilmə, düşünsən bu dediklərinin əbəs olduğunu görərsən”

Qocanın haqlı və ədalətli sözləri gəncə böyük təsir göstərir. O, hərəkətindən peşman olur və üzr istəyərək uzaqlaşır.

Nizaminin qocanın dili ilə dediyi sözlərdən göründüyü kimi şair əməyə, insana sərbəstlik verən, onu başqalarının qarşısında boyun əyib, əl açmaqdan xilas edən bir vasitə kimi baxır. Nizami həyatın mənasını zəhmətdə görür və göstərir ki, insan gərək əməyi sevsin və bununla da ən fəal insanların cərgəsinə daxil olsun. Zəhmətə alışmış hər kəs həyatın da əsl mənasını və gözəlliyini dərk edə bilər.

“Kərpickəsən kişinin dastanı” mənzum hekayəsində göstərilən cavan oğlan surətinin etdiyi yersiz davranış tənqid olunsa da onun etdiyi hərəkətdən peşman olması onun gələcəyi ilə bağlı ümid

yaradır. Qocanın sözlərini dinləyən gənc onun dediklərinin doğru olduğunu anlayır. O, hərəkətindən utanaraq oradan uzaqlaşır.

Cavan oğlan sarsıldı qocanın bu sözündən
Orda durmadı getdi yaş axıdıb gözündən
Dönya görmüş qocaydı söylədiyim bu qoca,
Öz işiylə hamının gözündə oldu uca

Nizami Gəncəvinin sadə əməkçi insana diqqəti “Süleyman və qoca əkinçi” mənzum hekayəsində də özünü göstərmişdir.Hekayədə belə bir fikir özünü göstərir ki, insan ömrü boyu halal əməyə toxunmalı, haramdan, özgə hesabına yaşamaqdan, ələbaxımlılıqdan çəkinməlidir.

Əsərdə Süleyman padşahın istirahət üçün seyrə çıxması təsvir edilir:

Günlərin bir günündə qanad açdı diləyi
Bir çırağa yetişdi Süleymanın küləyi.

Təntənəylə, cəlalla yön aldı çöl səmtinə,
Qaldırdı öz təxtini göyün mina təxtinə.

Yaşıl bir çəməndə istirahət edən Süleyman çöldə işləyən əkinçi görür. Əkinçinin görkəmi Süleymanı kədərləndirir. Qoca əkinçi evində bir ovuc da olsun taxıl saxlamayıb hamısını tarlaya səpmişdir.

Bir az mərdanə davran, gözü tox ol ey qoca
Əkdiyini biçib ye,bəsdir,tər tökmə bunca.

Quş deyilsənki...dəni boş yerə saçma,
Gəl mənimlə bu yerdə quş dililə danışma

Süleyman qocaya üz tutub deyir: “Ey qoca, biz sulu yerlərdə toxum səpib heçnə əldə eləmədik, əliboş qaldıq. Sənin yer Şumlamağa belində yoxdur, torpağı qazıb əzab çəkmə. Bu şoran torpaqlarda məhsul əldə edə bilməzsən”.

Hanı əlində belin? Az cırmaqla səhranı
Nə suyun var nə arxın. Zay eləmə arpanı.
Düşün: Sulu torpağa biz səpdik nə qədər dən,
Zəhmətindən savayı nə gördük bu əkimdən.

Hökmdarın tənəsini eşidən qoca əkinçi deyir: “Susuzluq torpağın şoranı məni narahat etmir. Mən bir toxum səpənəm , mənə tanrı kömək edər.

Cavab verdi ixtiyar: -Gəl incimə sözümdən
Heç nə gözləmirəm mən yerin,suyun feyzindən

Mən bilmərəm heç suyu varmı,yoxmu tarlanın?
Əmək mənim işimdir yetişdirmək tanrının.

“Mənim alın tərim suyumdur bulağımdır. Dırnağım yer qazan, torpaq atan beli əvəz edir”.

Bax budur suyum mənim-alnımdan süzülən tər,
Lingim, belim Külüngüm – bu dırnaqlar bu əllər

Şair əkinçinin dili ilə hökmdara əməkçi insanın ləyaqətindən söz açır,halal zəhmətlə ruzi qazanmağın asan olmamasını söyləyir.

Nizami Gəncəvinin yaradıcılığından danışarkən ilk növbədə qeyd etmək lazımdır ki, o dünya ədəbiyyatı tarixinə məsnəvi formasıda yazdığı beş poemanın (“Sirlər xəzinəsi”-(1175-ci il), “Xosrov və Şirin” (1180), “Leyli və Məcnun”(1188), “Yeddi gözəl” (1196) , “İsgəndərnamə”(1203) müəllifi yəni, “Xəmsə”nin müəllifi kimi daxil olmuşdur. Bu əsərlər içərisində xüsusilə dahi şairin Sənai Qəznəvinin “Hədiqətül-həqiqə” əsərinə nəzirə yazdığı ilk iri həcmli“ Sirlər xəzinəsi” poeması həm didaktik poema janrının ən qiymətli nümunəsi kimi dünyaya tanınmışdır.

Nizaminin mənzum hekayələrində cəmiyyət üçün aktual olan bir sıra ictimai, mənəvi problemlər qaldırılır, insanları düşündürən, narahat edən məsələlərə münasibət bildirilir.

Belə bir cəhət də xüsusi qeyd edilməlidir ki, Nizaminin ibrətamiz məzmunlu hekayələri şahların tərifinə həsr edilmiş mədhiyyə və qəsidələr deyildir.Bu hekayələrdə hökmdarların ittihamı, islahı, yenidən tərbiyəsi, şahla rəiyyətin açıq-saçıq dialoqu, mübahisə və münaqişələri daha çox səciyyəvi bir haldır.

“Sirlər xəzinəsi” şairin “Xəmsə”yə daxil olan ilk məsnəvisidir.Bu poemaya aşağıdakı mənzum hekayələr daxildir: “Ümidsiz şahın günahının bağışlanması”, “Nuşirəvanla vəziri və bayquşların söhbəti”, “Süleyman və qoca əkinçi”, “Qarı və Sultan Səncər”, “Kərpickəsən kişinin dastanı” , “ Oğru ilə tülkü hekayəti”, “Zalım padşahla düz danışan qocanın hekayəti” və s.

“Simnarın dastanı” mənzum hekayəsində Nizami yaşadığı cəmiyyətdə saray və sənətkar problemini qaldırmış, sənətə münasibət, sənətkarın taleyi ilə bağlı acı həqiqətlərdən söz açmışdır.

“Sultan Səncər və Qarı” mənzum hekayəsində şair cəmiyyətdə haqqın, ədalətin gözlənilməsini zəruri sayır zülmü insan haqlarının tapdalanmasını pisləyir. Əsərda şah məmurlarının insanlara qarşı etdiyi cinayətlər, hökmdarın ölkədə baş verən qanunsuzluqlara laqeyd münasibəti təsvir edilir.

Nahaq yerə incidilmiş, təhqir edilmiş qarı Sultan Səncəri ittiham edir.

Zülm edib bir qarıya çox uddurmuşdular qan
O da Sultan Səncərin tutaraq yaxasından
Dedi ki,səndə insaf az görmüşəm qulaq as
Səndən gördüyüm zülm əsla hesaba sığmaz
Bir kefli darğa gəlib evimdə məni söydü,
Salıb təpik altına doyunca döydü-döydü

Qarının dediklərindən məlum olur ki, darğa bu günahsız qadının saçlarından tutub evdən çölə sürümüş, camaat arasında söyüb təhqir etmişdir. Darğa ondan bir küçə də cinayət törətmiş qatilin yerini soruşmuş evini axtarmışdır. Buna səbəb isə darğanın sərxoşluğu olmuşdur. Qarının yanıqlı- yanıqlı dediyi sözlər Sultan Səncərə qarşı bir ittiham kimi səslənir.

Nizami əsərdə cəmiyyətdəki haqsızlıqlara etiraz səsini ucaldır. O, haqlı olaraq belə bir nəticəyə gəlir ki, darğanın sərxoş olub qoca qarını döyməsi təhqir etməsi təsadüfi deyildir. Belə hərəkət yalnız ədalətsizliyin hökmran olduğu cəmiyyətdə mümkündür. Darğanın cinayətində hökmdar günahkardır. Çünki bu cinayətə onun özünün etdiyi zülm, ədalətsizliklər münbit zəmin

yaratmışdır. Hökmdarın qəddarlığı saray adamları üçün nümunəyə çevrilib. Onlar kimsəsiz qarıları, məzlum insanları incidir, zülm edirlər.

Göründüyü kimi, Nizami bütün qəlbi, bütün varlığı ilə xalqın məzlum insanların tərəfindədir, onların müdafiəçisi kimi çıxış edir.Əsərdə şairin ədalətli hökmdar haqqında fikirləri maraq doğurur. Sairin fikrincə hökmdar gərək ölkənin işlərini nizama salsın, hər zaman rəiyyətin qayğısına qalsın.Nizami ədalətsiz hökmdarın aqibətini də təsvir edir. Şair yazır ki, qoca qarının sözlərinə əhəmiyyət verməyən Sultan Səncər sonralar çox böyük zərər çəkir, Xorasanda əsir düşür. Beləliklə, xalqın sadə insanların ah naləsi, qarğışı hökmdarı tutur.

“Zalım padşahla zahidin dastanı” mənzum hekayəsində hər tərəfi casuslarla doldurmuş, həqiqəti deyənləri amansızlıqla cəzalandıran qəddar şah obrazı yaradılmışdır. Ölkədə xalqın ah naləsinə qulaq asan yoxdur, hökmdarın zülmündən şikayət edən insanlar məhv edilir. Şahın əleyhinə danışmaq ən böyük cinayət sayılır. Əsərdə diqqəti cəlb edən digər obraz həqiqəti söyləyən zahiddir. Zahid xalqa edilən zülmlərə dözmür, hökmdarın bəd əməllərini çəkinmədən söyləyir. O, yaşadığı cəmiyyətin eybəcərliklərini açıb göstərən mübariz ruhlu bir insandır. Şah onu cəzalandırmaq qərarına gələndə ölümünü gözünün önünə alan Zahid qorxu hissi keçirmir, saraya kəfən geyinib gəlir.

Dəstəmaz aldı qoca,kəfən geydi əyninə,
Salam verdi ədəblə, gəlib şahın önünə.

Hökmdarın qəzəbli ittihamlarına cavab olaraq deyir:

Cavab verdi ixtiyar: -Mən ki, ayığam nə qəm,
Sənin dediklərindən beş qat artıq demişəm.
Qocalarda gənclərdə qan ağlayır əlindən,
Kənd, şəhər –bütün ölkə dad çəkir əməlindən.

Bu şəhərdə zalım hökmdarla ədalət tələb edən zahid qarşılaşdırılmaqla, dövrün tipik mənzərəsi yaradılmışdır. Dərin ifşaçı məzmunlu bu əsərdə də Nizami şərə qarşı mübarizədə barışmaz mövqedə durur,haqqın, ədalətin müdafiəçisi kimi çıxış edir.

“Nuşirəvan və bayquşların söhbəti” mənzum hekayəsi ideya məzmun baxımından “Sultan Səncər və qarı” əsəri ilə səsləşir. Bu əsər də haqsızlıqlara, zülmə, ədalətsizliyə etirazı əks etdirir. Şairin humanistliyi bu əsərində də özünü göstərir, o cəmiyyətdə baş verən zülmə haqsızlığa laqeyd qala bilmir. Buna hər fürsətdə öz etiraz səsini ucaldır. Əsərdə Nuşirəvanın öz qoşunu ilə ova çıxması təsvir edilir. Ov axtarıb gəzən padşah ilə birlikdə dəstəsindən uzaq düşür. Onlar uçuq xaraba bir kəndə rast gəlirlər. Xarabalıqda iki bayquş söhbət edirlər. Padşah vəzirindən bu quşların nə barədə söhbət etdiklərini soruşur. Vəzir deyir: “Bu quşlardan biri öz qızını o biri quşa vermişdir. İndi həmin quş qızın cehizini istəyir. Bu viran qalmış kənddən başqa, bir neçə belə xaraba kənd tələb edir. Bayquşda ona deyir ki, bu padşahın zülmü sayəsində məndən yüz min belə xaraba kənd alacaqsan. Nə qədər ki, bu zalım padşah var,xaraba kənd üçün qəm-qüssə çəkməyə dəyməz. Bu sözləri eşidən Nuşirəvan şah etdiklərindən peşman olur, əllərini başına vurub ağlayır. O, anlayır ki, onun zülmü quşlara belə məlumdur.

Əsər müsbət sonluqla bitir. Öz əməllərindən peşman olan şah bu əməllərindən əl çəkib haqsızlıqlara son qoyur. Ölkədə zülmdən əsər əlamət qalmır. Nuşirəvan adil hökmdara çevrilir, Nuşirəvan adil deyə çağrılır.

Nizami Gəncəvinin “Sirlər xəzinəsi” əsərində bir çox məqalə və hekayələrində şair onu çox düşündürən, narahat edən, hökmdar-xalq münasibətlərinə həsr etmişdir. Həmin hekayə və məqalətlərdə hamını düşündürən bir məsələ hökmdarın xalqla rəftarı məsələsi qoyulub həll edilir. Dahi şair dövrünün zalım hökmdarlarını gah axirətli qorxudur, gah zülmün bu dünyada onlara zərər, ziyan yetirəcəyini xatırladır, onları xalqın qəzəbi ilə hədələyir.

Aləmi kim fəth eləyər zülm ilə.
Mülki ədalətlə alarlar ələ .
Məmləkət ədlilə olar payidar,
İşlərin əql ilə olar bərqərar.

**İstifadə olunan ədəbiyyatlar:**

1.Azərbaycan ədəbiyyat tarixi, I hissə.
2.E.Əlibəyzadə, Nizami və tariximiz. Bakı, 2004.
3.T. Kərimli. Nizami və tarix. Bakı, Elm, 2002.
4.B. Həsənli. “Azərbaycan Uşaq ədəbiyyatı”. Bakı, 2013.
5.N. Gəncəvinin seçilmiş əsərləri.

## IV BÖLMƏ

## “PEDAQOJİ ELMLƏR” BÖLMƏSİ

# VALİDEYNLƏRLƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİN YENİYETMƏLƏRİN İNKİŞAFINA TƏSİRİ

*Tələbə: Təhməzova Nurcan Nazim qızı (qrup İBT1901B)*
*Elmi rəhbər: p.ü.f.d.,b/m. Kərimli Tahir Mehdixan oğlu*
*tehmezovanurcan@gmail.com*

Əgər bu mövzunu seçməkdə məqsədin nədir? sualını yönəltsəniz, ilk əvvəl həm müasir dövrümüzün problemi məsələlərindən olduğundan, həm də bu mövzu ilə demək istəyirəm ki, bəzən valideyinlər şübhəsiz ki, bütün valideynlərə şamil edilmir. Qarşı tərəfdən sevgi, hörmət və s. kimi gözləntiləri almaq istəyirsə ilk olaraq özündə bu gözləntiləri formalaşdırıb onlara təsir etməsidir ki, bu gözləntilər əks göstəricilərlə qarşılarına çıxmasın. Ümumiyyətlə valideyn yeniyetmələrin inkişafında nəyə əsaslanmalıdır. Bilirik ki, uşağa yalnız kitabça versən və ya rəngləri görməsə alətləri əlinə ala bilməsə o yaxşı rəssam və ya musiqiçi ola bilməz. Deməli tərbiyəni insana yalnız təcrübə və nümunələr əsasında öyrətmək olar. Tələbə elmi tədqiqat işi aşağıdakı planların ardıcıllığı ilə yerinə yetrilir. Giriş, giriş əsasında dörd plan-bunlar yeniyetməlik yaşının psixoloji xüsusiyyətləri, valideyn münasibətinin mahiyyəti,valideynlərlə qarşılıqlı münasibətin yeniyetmələrin inkişafına təsiri, valideyn yeniyetmə korreksiyası, nəticə və istifadə olunmuş ədəbiyyatlar.

Mövzuya keçməzdən əvvəl giriş hissədə belə bir sual qoyaq. Ailə nədir? Ailə cəmiyyətin ilkin struktur birliyi, ilkin özəyi və sosial qurluşunun əsas ünsürlərindən biridir. Bəs ailənin bütövlüyü üçün əsas şərt nədir? Uşağın dünyaya gəlməsi ailənin tamlığını təmin edir. Lakin uşağın dünyaya gəlməsi heç də hər şeyin tam olması demək deyil. Elə müasir dövrümüzdə əsas qlobal problemlərindən biri budur. Valideyn yeniyetmə anlaşması, onlar arasındakı problem bəzi valideyinlərin tərbiyədə yanlış yolu seçməsinə görə yeniyetmələrin gələcəkdə özünü tanıması və şəxsiyyət kimi formalaşa bilməməsi bu və bunun kimi bir çox problemlər mövzu ilə əlaqədar verdiyimiz planlarda öz əksini tapmışdır.

Məlumdur ki, hər bir yaş dövrünün özünəməxsus xüsusiyyətləri var. Məhz yeniyetməlik yaş dövründə öz xarakterik xüsusiyyətlərinə, əlamət və keyfiyyətlərinə görə təsnif edilir. Yeniyetməlik yaş dövrü öz mürəkkəbliyinə görə digər dövrlərdən fərqlənir. Qeyd edək ki, yeniyetməlik yaş dövrü 11-12 yaşdan,14-15 yaşa kimi və orta məktəbin 5-8-ci siniflərini əhatə edir. Lakin yeniyetməlik yaş dövrünün başlanmasına və bitməsinə dəqiq sərhəd qoymaq olmaz. Müxtəlif amillərin təsiri altında bir il gec, yaxud bir il tez başa çata bilər. Yeniyetməlik yaş dövrünün mexanizminin açılmasında görkəmli pedaqoq A.N. Leontyevin – uşağın psixi inkişafının hərəkət verici qüvvəsi onun real münasibətlər sistemində tutduğu real yerin dəyişməsidir, müdəası çox böyük əhəmiyyət kəsb edir. Qeyd edim ki, bu dövr digər yaş dövrlərindən fərqlənirdi. Çünki bu dövrdə artıq yeniyetmələrin

həyat tərzi ilə həyat tərzinin qabaqlamış imkanları arasında açıq ziddiyətlər yaranır. Ümumiyyətlə yeniyetmələrin psixologiyası ilə əlaqədar bu dövr həm yeniyetmələr həm də onların valideyinləri

üçün çətin və problemli dövr hesab olunur.

Bəs bu çətin dövrdə valideynin məsuliyyəti nədən ibarətdir? Mən istifadə etdiyim ədəbiyyatlar içərisində sorğunun da adını vurğuladım. Bunu əbəs yerə qeyd etmədim.Valideyn yeniyetmə münasibətində əsas problem nədir? sualın ətrafımdakı yeniyetmələrə və valideyinlərə yönəltdim.Yeniyetmələr əsas problem yaradanın valideyn olduğunu, valideynlər isə problemi yeniyetmələrdə görürdü. Mənim öz fikrimə gəldik də isə məncə sualı mən səhvsizəm düşüncəsi altında cavablandırmaa düzgün deyil. Elə problemin əsas özəyində günahı özümüzdə yox qarşı tərəfdə axtarmağımızdır. Düzdür, valideyn bünövrəni qoyur və inkişafda təməl rol oynayır. Əgər bu gün valideyn nəyin səhv və doğru olduğunu ayırd etmək imkanı verir və bunlara rəğmən yeniyetmələr yenə də valideynin asılılığı olmadan özünü sərbəst idarə etmək istəyirsə onda günahı valideyinlərdə yox özümüzdə axtarmalıyıq. Qısa şəkildə onu çətin dövrdə adlandırırlar. Bilirik ki, ilk öncə məkətbə başlayan uşaq yeni mühitə düşür və müəyyən olunmuş qayda qanun çərçivəsində hərəkət etməyə məcbur olur. Bundan əlavə onların həm öz yaşıdları həm də özündən böyüklərlə münasibətləri formalaşır. Dedik bu dövr çətin dövr adlanır və çətinlik iki baxımından özünü göstərir. Bioloji dəyişiklik dedikdə bədənin daxili və xarici dəyişiklikləri nəzərdə tutulur. Bəs psixoloji dəyişiklik nədir? Artıq yeniyetməlik dövründə qeyri sabit duyğular hiss olunur. Qısa müddət ərzində onlarda emosianal dəyişikliklər hiss olunur. Az əvvəl enerjili olduqları halda biraz keçmiş yorğun hiss edə bilirlər. Bilirik ki, yeniyetmələr özləri haqqında yüksək düşünür. Buna görə də “mən” və “mənim” sözlərindən daha çox istifadə edirlər. Bu dövrü yeniyetmələrin gələcək həyatlarının necə olacağı və necə yaşayacaqlarının təməli qoyulur desək yerinə düşmüş olar. Ona görə də bu dövrdə yeniyetmələrə sevgi və qayğı göstərməyə xüsusi diqüət yetrilməlidir. Apardığım bəzi müşahidələr əsasında gördüm ki, elə ailələr var ki, uşağa sevgini dilə gətirmir. Bunun səbəbini soruşduqda isə onlar düşünür ki, guya sevgini dilə gətirmək uşaqları ərköyün edir. Əlbəttə bu dügün yanaşma deyil. Nəyin ki, yeniyetmə hər bir uşağın sevgi və qayğıya ehtiyacı var. Sevgidən məhrum olmayan və sevgi ilə böyüyən uşaqlar ətrafındakılarda mülayim və mehriban münasibət göstərir. Bu gün valideyn elə şərait yaratmamalıdır ki, yeniyetmələr ətraf mühitə meyl etsin. Elə günümüzdə də valideynlərin narahatlığına səbəb olan amillərdən biri uşaqların ətrafa meyl etməsidir. Bəs görəsən valideynlər düşünübmüki niyə məhz bu dövrdə bəzi yeniyetmələr ətrafa meyl göstərir. Nəzərə alaq ki, yeniyetmələr valideynlərlə ünsiyyəti tələbatını kifayyət qədər təmin edə bilmədiyi üçün ətrafa meyl göstərir. Əslində yeniyetmələr tez təsir altına düşüdükləri üçün onların ətraf mühitə meyl etməsini heç də təqdirdə layiq hal kimi qiymətləndirmək olmaz. Bəs valideyn nə etməlidir? Valideynlər öz psixologiyasına görə və ya uşaqları qayda qanun, təhqir əsasında deyil onlara sərbəstlik, öz fikrini ifadə edə bilmək və onları öz istəklərinə görə yönləndirməyi bilməlidir.

Qəbul edilmiş bir faktdır ki,insan anadan olduğu gündən ömrünün sonuna kimi tərbiyəvi təsirlərin əhatəsində yaşayır.Valideynlər ilk gündən uşaqları elə tərbiyə etməlidir ki, hər hansısa bir yaş dövründə yenidən onların tərbiyəsinə ehtiyac qalmasın. Mən burda bir neçə yerdə tərbiyə sözünü vurğuladım, bəs görək tərbiyə nədir? Tərbiyə-tərbiyə edənin tərbiyə olunana məqsədyönlü

təsiri prosesidir. Tərbiyə edən həmişə müəyyən məqsəddən çıxış edir; O tərbiyə olunana ictimai təcrübə aşılamaq, ondan yaxşı və pis haqqında təsəvvür yaratmaq, bu və ya digər hadisəyə münasibət formalaşdırmaq davranış və rəftar norması ilə tanış etmək mənəvi keyfiyyət aşılamaq və s. məqsədi ilə müxtəlif üsulların köməyi ilə təsir göstərir. Kitabi Dədə-Qorqud dastanında deyildiyi kimi məhəbbət həyatın musiqisidir. Diqqət yetirsək bu sözün nə qədər dərin məna kəsb etdiyinin fərqinə varmış olarıq. Ona görə də ailə elə qarşılıqlı prosesdir ki, hər iki tərəfə həm valideynlərə

həm də yeniyetmələrə zövq, rahatlıq verməlidir. Yeniyetmələrin formalaşmış şəxsiyyət kimi inkişafında valideynlərlə münasibət çox mühüm rol oynayır. Biz bu gün yaxşı və pis uşaq haqqında danışırıq.Onların hər iksinin atası da, anası da var. Lakin valideynlərin xeyirxah əməllərindən asılı olmayaraq bir evdə pis, digərində isə yaxşı uşaq böyüyür. Bunu necə izah etmək olar? Sualı bir qədər də konkretləşdirək. Ailədə hansı şəraitdə yaxşı və pis uşaq formalaşır? Əslində sualın cavabını şərtdən müəyyənləşdirmək olar ki, yeniyetmələrin yaxşı və pis olması valideyn münasibətində özünü göstərir. Bu gün heç kim deyə bilməz ki, uşaqlar kor-koranə tərbiyə edilir. Hansı valideyn olmasından asılı olmayaraq o mütləq şəkildə müəyyən pedoqoji məqsədi rəhbər tutur.Əsas sual isə bu məqsədin nə dərəcədə doğru və yanlış olmasından asılıdır.Valideynlər öz məqsədini necə həyata keçirir.Bəzi valideynlərin pedoqoji məqsədi qeyri-dəqiq olur və aydın xarakter daşımır. Bu hal uşaqların tərbiyəsinə mənfi təsir edir. Ona görə bəzi sözünü vurğuladım ki,elə ailələr də var ki,onların pedoqoji məqsədi qarşıya qoyduğu dəqiqliyi ilə seçilir.Və uşaqların tərbiyəsində müstəsna rol oynayır. Yeniyetmələri müxtəlif yol və üsullarla tərbiyə etmək olar. Lakin valideyn münasibətinin səmərəliliyi əvəz edə bilməz.Ailə münasibətlərinin gənc nəslin tərbiyəsindəki rolunun nəzərə alınmaması ailədə yol verilən əsas nöqsanlardan biridir. Valideynlərlə olan münasibətdə mühüm bir xüsusiyyət var; Valideyn yeniyetmə münasibətinin şəxsi-emosianal xaraakter daşıması. Əgər biz bu gün yeniyetmələrin xeyirxah, özünə güvənən, ətrafındakılara və özünə qarşı məsuliyyətli olmasını istəyiriksə bu təklikdə deyil valideyn nümunəsində formalaşan prosesdir.Qeyd edim ki, onların yaşı nə qədər artırsa valideynin şəxsi nümunəsi bir o qədər əhəmiyyətlidir.

Deyə bilərəm ki, bu gün uşaq böyük deyil, o xüsusi funksiyası olan insandır. Və uşaq dünyaya gəldiyi gündən valideynləri dialoqa çağırır. Həm də bərabər hüquqlu tərəfdaş kimi. Diqqət yetirsək görərik ki, bu əsl müsahibdir. Lakin qəribəsi və acınacıqlısı odur ki,istər təlim istərsə də tərbiyə və digər problemlərlə bağlı böyüklər özləri düşünür və qərar qəbul edir. Üzərində əməliyyat aparılan uşaq kənarda qalır. Yəni uşağa bir növ ruhu olmayan əşya kimi baxılır. Lakin yeniyetmələr gələcək həyata hazırlanmalıdır şüarı altında onlara düşünmək, danışmaq fikir yürütmə və s. kimi imkanlar verilməlidir ki, onların inkişafını təmin etmiş olaq. Yeniyetmələrin inkişafına təkan verən ilk addım valideynlərlə olan qarşılıqlı münasibətdir, ilk olaraq valideyn uşağı necə var elə görüb elə də qəbul etməlidir. Bəzən valideyn uşağı istədiyi və arzuladığı kimi görmək istəyir və ona uyğun tələblər qoyur. Bu isə ifrat, valideyn nəsihəti və danlağı ilə nəticələnir. Görkəmli pedaqoq V.A. Suxomlinski yazır,idarəetməyə heç də insanın insan üzərində ağalığı kimi baxmaq olmaz. Bu cür hakimiyyət uşaq qəlbini boş qoyur, onda inamsızlıq və ətrafındakılara qarşı nifrət hissi yaranır. Əgər bir iş cəzalandırma ilə tətbiq olunarsa onda tərbiyə olunan tərbiyəçidən qorxar, onda laqeydlik

və kobudluq baş qaldırar. Elə görkəmli filosoflardan F.M. Dostayevski də bu sözlərə əsasən deyirdi ki, insan öz hakimiyyətini digər insan üzərində tətbiq edərsə o kobudlaşar və qəddarlaşar. Hər iki pedaqoqun fikrini məqbul saymaq olar. Çünki yeniyetmələrin müstəqilliyi təbii və vacib prosesdir. Belə ki, onların tərbiyəsində və inkişafında müstəqillik əsas şərtlərdən biridir. Məncə insan başqalarını öz istədiyi necə var elə idarə etmək yerinə müəygən qədər onlara müstəqillik verməlidir ki, bu halda onların tərbiyəsini təmin etsin.Valideynlərlə münasibət şübhəsiz ki, burada düzgün qurulmuş münasibətlərdən söhbət gedir yeniyetmələrin sabahkı inkişafının təməlini qoyur. Valideynlər uşaqlara öz dünyalarını kəşf etməsi üçün imkan verməli və onlarda özlərinə qarşı inam yaratmalıdır. Bəs nə vaxt yeniyetmələr də valideynə qarşı inamsızlıq yaranır. Bir sıra ailələr yeniyetmələrə qarşı həddən-ziyadə tələbkarlıq göstərir və cəzanın ədalətli olmasını gözləmirlər.

Bəzi ailələr də isə cəza müstəsna dərəcədə sərt xarakter daşıyır.Uşağı qorxudur və an etibarı ilə valideynə qarşı inamsızlıq yaranır. Yəqin ki, hər biriniz müşahidə etmisiniz ki, bəzən yeniyetmə səhv etdikdə valideyn cəza kimi ona təzyia edir və ya sözlə təhqir edir. Bu düzgün deyil, çünki mən əvvəlki planda qeyd etdim ki, yeniyetmələrdə mənlik şüuru yüksək olur,onlar özünü şəxsiyyət kimi görür və şərəf, ləyaqətini bütün aydınlığı ilə dərk edir. Ona görə də fiziki nəyin ki, psixi cəhətdən onlara təsir etmək, şəxsiyyətlərini tapdalamaq deməkdir. Lakin bu dediyimdən heç də bu qənaətə gələ bilmərik ki, valideyn heç vaxt yeniyetməyə cəza verməməlidir. Bu düzgün yanaşma deyil, çünki cəzanın müxtəlif üsulları var. Əgər bu gün valideyn uşağa cəza vermək istəyirsə ilk olaraq onu bilməlidir ki, cəza onlar üçün məqsəd yox vasitə olmalıdır. Valideyn əgər yeniyetmənin tərbiyəsini düzgün istiqamətləndirə bilmirsə,uşaq düzgün yol tapana qədər ciddi problem yaşaya bilər, Deməli siz valideynlər övladınızla dostluq münasibəti quranda onlara qarşı valideynlik situasiyasından çıxmamış olacaqsınız.Yeniyetmələrin inkişafı ictimai münasibətlər sistemi ilə sıx bağlıdır. Məhz tərbiyə prosesindən danışanda ictimai münasibətlər və valideynlərlə olan qarşılıqlı münasibətlər sisteminin yeniyetmələrə təsiri nəzərdə tutulur.

Əvvəlcə korreksiya sözünü aydınlaşdıraraq korreksiya - səhvlərin təsnifi deməkdir. Yəni hansı halda yalnışdan doğruya, səhvdən düzə doğru yönəltmək. Bu gün valideyn və yeniyetmə bir evdə yaşayır. Əfsuslar olsun ki, əksər valideynlər ümüd edir ki, hər şey öz - özünə qaydasına düşəcək. Lakin bu valideynlərin nə aydın məqsədi nədə müəyyən bir proqramı var. Bu cür tərbiyənin nəticəsi təsadüfi xarakter daşıyır. Müəyyən müddət keçdikdən sonra valideyn düşünür niyə məhz onun məqsədi korlanıb. Gəlin bir mənalı şəkildə razılaşaq ki, insan nəyə nail olacağını bilmirsə o, heç bir işi yaxşı görə bilməz. Valideyn övladın əsəridir, bu nöqteyi nəzərdə uşaqlara nəyin səhv nəyin doğrlu olduğunu göstərmək üçün və doğruların həyatımızdakı rolunu başa salmaqla düzgün tərbiyə sərgiləyə bilərik, uşaqların hər səhvinə reaksiya vermək yerinə onlara imkan yaradaq ki, səhvləri özü aradan qaldıra bilsin.

Əgər bu gün yeniyetmə öz hislərini ifadə etməkdə çətinlik çəkdiyini görsən onu təhqir etmək yerinə düşüncələrini dilə gətirməsi üçün yardımçı olun. Özünüzü onlara inandırın , inandırın ki, sizə qarşı onlarda güvən hissi yaransın əgər bu gün uşaqlar öz sirrini sizinlə bölüşmür və bir valideyndən əlavə sizi dost kimi görmürsə demək ona yetəri qədər güvən aşılaya bilməmisiniz . Ümumiyyətlə hər şeydə müəyyən hədd gözlənilir. Valideyn yeniyetmə münasibətində də hər şey müəyyən hədd və çərçivə daxilində olmalıdır. Və hər şey öz qədərində olmalıdır. Bəzən valideyn uşaqların kiçik də

olsa uğurların göz ardı edir və ya onları çox böyüdür bu da uşaqlarda özündən razılıq kimi səhv bir xarakter formalaşdırır, deməli səhv xarakterin də əsasını səhv qoysan münasibət təşkil edir. Səhvləri aradan qaldırmaq üçün sadəcə olaraq hər şeyi normada etməyi gözə alın. İnanınki, bu doğru nəticələrə gətirəcək . Biz həddin gözlənilməsindən danışdıq bu hədd tələbkarlıq üçün də keçərlidir.

Tələbkarlıq uşağın şəxsiyyətinə və ləyaqətinə təzyiq kimi yox hörmət və etibar zəmnində olmalıdır. Uşağa yox deməyi bacarmaq lazımdır. Fransız filosofu J.J. Russo deyir ki, Bilirinizmi uşağı bədbəxt etməyin ən sadə yolu nədir. Bu uşağın istəyinə heç vaxt yox dеməmək, qadağaları bilən, əngəllər və maneələr qarşısında özünü şəxsiyyət kimi formalaşdıra bilən lazım olduğunda imtina etməyi sonuna qədər bacara bilən bir gənc, yetkin böyütməyin, ən əsas şərtlərindən biri onlarda düzgün tərbiyə formalaşdırıb yanlışdan doğruya yönətlmək və intizamı lazımınca, keyfiyyətcə verməkdir.

**İstifadə olunmuş ədəbiyyatlar:**

1. M. İsmixanov. Pedaqogikanın əsasları. Bakı, 2013.

2. Ə.S.Bayramov, Ə.Ə. Əlizadə. Psixologiya. Bakı, 2016
3. F. Allahverdiyeva, S. Tağıyeva. Pedaqogika dərs vəsaiti. Bakı, 2018
4. R. Əliyev, G. Əliyev. Şəxsiyyət psixologiyası. Baki, 2010.
5. İnternet resursları.
6. Sorğu və müşahidə.

## TƏRBİYƏ İŞİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN ROLU

*Tələbə: Quliyeva Ülviyyə Arif qızı (qrup İBT1901B).*
*Elmi rəhbər: p.ü.f.d.,b/m. Kərimli Tahir Mehdixan oğlu*
*quluyevaulviyye@gmail.com*

Hər bir milləti dünyada tanıdan və onu digər xalqlardan fərqləndirən ən əsas xüsusiyyətlərdən biri onun milli mənəvi dəyərlər sisteminə malik olmasıdır. Milli mənəvi dəyərlər hər bir xalqın sahib olduğu ən dəyərli sərvətdir. Azərbaycan xalqınin bu sərvəti cox zəngindir. Qədim və köklü milli mənəvi dəyərlər sisteminə malik olan Azərbaycan xalqı bu dəyərləri sədaqətlə qorumuş, əsrlərlə yaşatmış və inkişaf etdirmişdir.

Milli-mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri ilə yanaşı, milli dövlətçiliyimizin möhkəmləndirilməsində xüsusi rolu vardır. Heydər Əliyev demişdir ki, “Milli-mənəvi dəyərlərini qoruyub saxlaya bilməyən xalq həqiqi millət, həqiqi xalq ola bilməz” Tarixi təcrübə də göstərir ki, öz soykökündən, tarixindən, milli-mənəvi dəyərlərindən uzaq düşən millətlər və dövlətlər müəyyən zaman kəsiyində yox olmaq tarix səhnəsindən birdəfəlik silinmək təhlükəsi ilə üz-üzə qalmışlar.

Ən güclü cəmiyyət isə öz milli-mənəvi dəyərlərini hər zaman yaşadan, nəsildən-nəslə ötürən cəmiyyət hesab olunur. Bəs milli-mənəvi dəyərlər nədir? – Cəmiyyətin yaratdığı, yaşatdığı,

nəsildən-nəslə ötürdüyü və inkişaf etdirdiyi dəyərlər toplusu milli-mənəvi dəyərlər adlanır. Dəyərlərin tarixi insanın tarixi ilə həmyaşıddır. Çünki insan yarandığı gündən etibarən yaşadığı dünyaya, həyatına bir məna vermək axtarışında olub.

Milli-mənəvi dəyərlər sistemi çoxsahəlidir. Milli dəyərlər – millətin özünəməxsusluğu keçmişini xas olub günümüzə daşınan dəyərlərdir, bu dəyərlərə azərbaycançılıq, adət-ənənələrimiz, dastanlarımız, tarixi abidələr, muğam, din, dil faktorları, mərasimlər və s. aiddir. Mənəvi dəyərlər isə - insani dəyərlərdir, vətənsevərlik, humanizm, ailə dəyərləri, adətlilik, doğruluq və s.

2) Milli-mənəvi dəyərlərin nəsildən-nəslə ötürülməsində gənclər əsaslı rol oynayır, çünki bir nəsilin davamçısı bu dövrün gəncidir. Gənc nəsil eyni zamanda dövrün əsas mühərrikidir, mədəniyyətini inkişaf etdirən, tanıdan əsas qüvvədir. Bu səbəblərə görə də gənclərin milli-mənəvi ruhda tərbiyə olunması çox vacib, eyni zamanda çətindir. Nə üçün çətin olduğuna baxaq;

Buna səbəb müasir texnologiyaların, informasiyalaşdırılmış cəmiyyətin yaranması və bəşəriyyətin güclü şəkildə inkişafının mənfi təsiridir. Təəsüf ki, bu dövrdə milli mənəvi dəyərlərimizə zidd olan bəzi televiziya verilişləri, sosial şəbəkələr gənclərimizdə özünü mənfi şəkildə göstərir. Bu gün bəzi gənclər arasında yalnış bir tendensiya var - bu müasirləşmədir, və gənclərimiz müasirləşməni Avropa cəmiyyətinin özündə də tənqid edilən məsələləri aşılamaq kimi başa düşürlər. Ancaq müasirləşmə heç də milli mənəvi dəyərlərdən imtina etmək deyil, milli

mənəvi dəyərləri dövrün tələbinə uyğun inkişaf etdirməkdir. Bu Avropa dövlətlərində də belədir, dəyərlərdən imtina edilmir, inkişaf etdirilir.

Gənclərin belə bir ruhda milli mənəvi dəyərlərlə tərbiyə olunması əvvəlcə ailənin daha sonra məktəbin səlahiyyətindədir.

İnsan nə yaşayırsa onu öyrənir və öyrəndiyini yaşayır, yəni uşaq evdə nə yaşayırsa onu öyrənəcək və gələcəkdə yaşadığı həyatı ona uyğun yaşayacağ. Uşaqların ailədə öyrənə biləcəyi başlıca dəyərlərimizdən biri humanizmdir.

Humanizm tərbiyəsi – Humanizm latın sözüdür – insansevər deməkdir. İnsansevər olmaq həyatda qazana biləcəyiniz ən dəyərli keyfiyyətlərdən biridir. Qədim dövrün əxlaq peyğəmbəri hesab edilən Sokratdan soruşublar ki, – İnsanda ən çox nəyi qiymətləndirirsiz? Filosof tərəddüd etmədən cavab verir – "insaniyyəti". Həyatda bir çox işlərdə uğurlu ola bilərik – gözəl müəllim, həkim, alim, çox zəngin bir insan və s. ancaq bizim insaniyyət hissimiz olmazsa bir heç kimik. Yer üzündə heç bir məzhəb, din olmadığı zamanlarda insanlar arasında insaniyyət və haqqaniyyət vardı. İnsanlar bir-birinə qayğı ilə yanaşırdı. Yəni insaniyyətlik hissi din, dil, irq və məzhəb ilə əlaqəli deyil. İnsanlıq insanların içindən gələn, ruhunu gözəlləşdirən ən qiymətli hissdir. Humanist insanın məqsədi F.E. Dzerjinskinin bu hikmətli sözü ilə çox gözəl ifadə edilmişdir – "başqaları üçün işıqlı şüa olmaq, özü işıq saçmaq insanın əldə edəcəyi ən gözəl səadətdir". Tolstoy isə yazmışdır: "Acı hiss edə bilirsənsə canlısan, başqalarının acısını hiss edə bilirsənsə insansan".

Humanizm bütün bəşəriyyətə məhəbbətlə sıx surətdə bağlıdır. Ada kimi yalnız özü üçün olan adam yoxdur, insan dünya vətəndaşıdır. Gənclərdə humanizm tərbiyə etmək üçün uşaqlıqdan onlara dünyanı qəlbi ilə görməyi, duymağı öyrətmək lazımdır. Bu hisslər əvvəlcə ailədə daha sonra məktəbdə öyrədilir. Ancaq bu hissləri uşaqlara danışmaqla kifayətlənməməli həmdə əməldə

göstərmək lazımdır. Necə deyərlər – “Uşaqlarınızı tərbiyə etməyə çalışmayın, onsuzda sizə bənzəyəcəklər, özünüzü tərbiyə edin”.

Böyüklər, ata və analara hörmət – Ata anaya və böyüklərə hörmət Azərbaycan xalqının ən qədim və ən dəyərli mənəvi dəyərlərindən biridir. Ata və anaya məhəbbət hissi uşaqlarada təbii olaraq meydana gələn və insan həyatında çox böyük əhəmiyyət kəsb edən ali hissiyyatdır. Müxtəlif nəsillərə məxsus adamlardan ibarət olan ailə - düşüncə və hisslər qohumluluq və ya mənəvi yaxınlıq vəhdəti ilə birləşir. Uşaqların mənəvi inkişafının əsasları ailədə qoyulur. Ata və ananın gündəlik hərəkətləri, yaşlı nəslin nümayəndələrinə böyüklərə münasibəti uşağın qəlbində dərin izlər buraxır. Ümumiyyətlə, ata və ananın bütün münasibətləri uşaqların psixologiyasına, beləliklə də gələcəkdəki şəxsiyyətinə böyük təsir göstərir. Buna görə də görkəmli pedaqoqlar ailə münasibətlərinə xüsusi diqqət yetiriblər. Uğursuz ailə sadəcə 2 insanın ömür boyu peşmanlığı deyil, eyni zamanda gələcəyimizdə travmalı gənclərin təməlidir.

Uşaqların ailə ilə münasibətlərinin çətinləşdiyi dövr yetkinlik və gənclik dövrüdür, bu dövrdə bəzən gənclər daha etirazçı, mühitə maraqlı, davakar olurlar və təəssüf ki, bəzi gənclərin şəxsiyyəti bu dövrdə formalaşır. Gənclərin düşdüyü mühit onları bir çox əxlaqi-demoqrafik bəlalara sürükləyir ( sərxoşluq, narkomaniya və s.). Ona görə də ailə yetkinlik dövründə övladına ən yaxın dost olmalı, ona həssas davranmalı və bu prosesin övladına mənfi təsir göstərməsinə imkan verməməlidir. Bunun üçün ən yaxşı sipərlərdən biri mənəvi-insani dəyərlərin, milliözünüdərkin qorunması, tərbiyə edilməsidir. Heç bir valideyn öz övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz. Milli-mənəvi dəyərlərin gələcək üçün zədəsiz, həssaslıqla qorunması övlada veriləcək ən dəyərli hədiyyələrdəndir.

Qadınlara hörmət, həssaslıq, iradəlilik, dürüstlük, mərdlik, vətənsevərlik və s. kimi mənəvi dəyərlər də ailədə formalaşır.

Qadınlara həssaslıq bu dövrün aktual məsələlərində biridir buna səbəb qadın cinayətlərinin çoxalmasıdır. Qadınları─ başqa qadınların tərbiyə etdiyi insanlar öldürür. Ailədə qadın öz qürurunu, hüquqlarını qorumalı, qadına sevgi qadın müqəddəsliyi ailədən formalaşdırılmalıdır. Ana əsl qadın modeli olmalıdır.

İradə insanın məqsədinə çatmaq üçün göstərdiyi şücaət, bu yolda maneələri aradan qaldırmaq üçün kömək edən psixi prosesdir. Nizami Gəncəvi iradə haqqında belə demişdir:

İradəsiz olma iradəsizlər,
Ayaqsız qurd kimi yerdə sürünər.

Dürüstlük─doğru yolda irəriləməkdir. Özündə doğruluq, açıqsözlülüyü, səmimilik, güvənlilik kimi müsbət hərəkətləri ehtiva edir. Cəmiyyətimizdə dürüst insanlara o qədər ehtiyac var ki, artıq belə insanları bir müdrik olaraq görürük. Həyatımızda güvənəcəyimiz insanları dürüst insanlar olaraq sərhədləyirik. Dürüstlük eyni zamanda beynin ehtiyacıdır, belə insanlar daha yaradıcı, uğurlu, xoşbəxt olurlar. Dürüstlüyün hər zaman mükafatı vardır.

Mərdlik─ ruhun bədən üzrə qələbəsidir. Sədaqətlilik, işində etibarlılıq, igidlik, ədalətlilik və s. kimi məhfumları özündə ehtiva edir. Mərd insan öz hisslərinə hakim olmağı bacaran, düz yoldan

dönməyən, çətin maneələrdən keçərək məqsədinə çatan, digər insanları yarı yolda qoymayan insandır. Bu dəyər biz gənclərə uşaqlıqdan dastanlarımızla, milli dəyərlərimizlə tərbiyə edilir.

Azərbaycançılıq– xalqımızın çox əzab-əziyyətlər bahasına nail olduğu tarixi sərvətdir. Bu, sərvət ilk növbədə, vahid və bölünməz Azərbaycanın qorunub saxlanılması və möhkəmləndirilməsinin siyasi əsasıdır. Azərbaycançılıq milli dövlət ideologiyası kimi, Azərbaycan Respublikasının Konstitusiya əsaslarına söykənən, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir müstəqil, suveren Azərbaycanın istiqlalını və bu ölkədə dünyəvi prinsiplərə malik sivil demokratik dövlət uğrunda mübarizəni strateji məqsəd seçən Azərbaycan xalqının ideologiyasıdır. Azərbaycançılığın əsasında –Azərbaycanı özünə vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası dayanır.

Azərbaycançılıq ideologiyası XIX əsrin sonu XX əsrin əvvəllərində təşəkkül taparaq formalaşmış və bir əsr ərzində davamlı təkamül yolu keçmişdir.

Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi Ümummilli lider Heydər Əliyevin tarixi xidmətidir. Heydər Əliyev hələ sovet dövründə Azərbaycan Respublikasına rəhbərlik edərkən azərbaycançılıq məfkurəsinin bütün həmvətənlərimiz arasında yayılmasına, bu ideyanın geniş ictimai dəyər qazanmasına çalışırdı

Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya azərbaycanlılarının I qurultayında belə bir nitq nəzərə çatdırmışdır: “Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”.

Dil– hər bir xalqın milli kimliyi, bir dövləti tanıdan başlıca faktor eyni zamanda ən dəyərli sərvətdir. Tarix boyu başı bəlalar çəkmiş. Azərbaycan xalqı zaman – zaman əzilsə represiyalara məruz qalsa da öz ana dilini qoruyub saxlaya bilmişdir. Dil sadəcə ünsiyyət vasitəsi deyil, dil millətin tarixidir, musiqidir, ədəbiyyatdır, millətin taleyidir. Azərbaycan dili indi tam müstəqil inkişaf etmiş dillər arasındadır. Tarixin sınağından keçmiş bu dili yaşatmaq, inkişaf etdirmək də indi biz gənclərin əsas vəzifəsidir. Sizcə biz vəzifəmizi yerinə yetirə bilirikmi? Təssüflər olsun bəzi müasir gənclərimiz ikinci dilə ana dilindən daha çox qiymət verirlər. Əlbəttə ikinci dil bilmək çox vacibdir, amma bu öz ana dilinə xəyanət mənasını verməz. Azərbaycan dilinə, bir öz yazımızda, danışıqlarımızda, televiziya verilişlərində, mahnılarımızda zərər gəldiyini görürük, əgər bu səhvlər düzəldilməzsə dilimizin inkişaf etməz və zaman keçdikcə sıradan çıxa bilər. Belə vəziyyətdə valideynlərin və gənclərin üzərinə bu dili qorumaq və gələcək nəsillərə ötürmək kimi mühüm vəzifələr düşür. Sonda Bəxtiyar Vahabzadənin bu şeirini xatırlayaq.

Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil əcdadımızın bizə qoyub getdiyi ən qiymətli mirasdır,
Onu gözlərimiz tək Qoruyub nəsillərə biz də hədiyyə verək .!

Din– Ailədə təlim-tərbiyə işinin təşkilində dini maarifləndirmənin də rolunu xüsusi qeyd etmək lazımdır. İslam dinində böyüyə hörmət, ədalətlilik, humanizm, xeyirxahlıq, halallıq,

fədakarlıq kimi dəyərlər aşılanır, ailənin uşağı dini cəhətdən maarifləndirməsi uşaqda bir çox dəyərlərin də tərbiyəsinə gətirib çıxarır.

Hazırda Azərbaycanda 2054 məscid mövcuddur. Eyni zamanda heç bir ölkədə Azərbaycanda olduğu kimi dini tolerantlıq mövcud deyil Biz uzun illər Ermənistanla müharibə şəraitində olsaq belə onlardan fərqli olaraq kilsələrə ziyan vermədik, hörmətlə yanaşdıq. Beləliklə, biz həm də dünyaya plüralizmlə bağlı dərs keçdik. Müharibədə gənclərimiz dəyərlərə olan hörmətini göstərdi və dünyaya dərs verdi.

Dastanlarımız və tarixi abidələrimiz– Məktəb yaşlarından bizə türklüyü, vətən sevgisini, mərdliyi igidliyi, əsl sevgini dostluğu, ailə münasibətlərini tərbiyə edən milli sərvətimiz dastanlarımızdır. Dastanlar uşaq qəlbini duygulandıra, qürurlandıra bilən və gələcəyə milli-mənəvi ruhda tərbiyə olunmuş gənclər yetişdirən sərvətimizdir. Bu sərvət əsrlər boyu qorunub, nəsildən-nəslə keçərək bu günümüzə gəlib çatmışdır. Gənclərin əsas vəzifəsi isə bu dəyəri gələcək nəsillərə ötürməkdir.

Memarlıq tarixdir-insanlıq tarixi. Tarixi abidələrimiz bizə keçmişdən, qan yaddaşımızdan qalan, mübarizələrdən keçərək bu dövrümüzə gəlib çatan əsas dəyərlərdən biridir. Bu dəyərlərin tarixi ibtidai insanların yaşadığı dövrdən başlayır, Azərbaycanda belə mağaraların sayı çoxdur, bu da dövlətimizin qədimliyini göstərir. İşğaldan azad edilmiş torpaqlarımızda tarixi abidələrimiz bərpa edilir və gələcək nəsilə ötürüləcək. Bu qalalar bizim mübarizliyimizin rəmzi olacaq.

Muğamlarımız, milli mahnı və rəqslərimiz– Qoca Şərqin ən qədim musiqi janrlarından olan muğam xalqımızın incisi,onun genetik kodudur. Azərbaycan xalqının qan yaddaşından qalan, onun ürəyində əbədi iz buraxan ən dəyərli sərvətlərimizdən biridir. Muğam yaralı ürəklərin nəğməsidir, bu sənət növü tarixən enişli-yoxuşlu yollar keçsə də xalqımız onu qoruyub, nəsildən-nəslə ötürərək bu gün də inkişaf etdirir. Dövlətimizin muğama olan böyük qayğısı nəticəsində bu sənət gündən-günə yeni zirvələr fəth edir, yeni layihələrin yaranmasına təkan verir.

Qarabağımızın işğaldan azad olunması ilə muğamlarımız daha da ön plana gətirildi və inkişaf etməsinə təkan oldu.

Muğam haqqında İlham Əliyevin demişdir. “Milli mahnılar klassik muğamlara əsaslanmış, onlardan bəhrələnmişdir. Milli mahnılar və rəqslər zərifliyi, obrazlılığı, insan psixikasına təsiri ilə insan qəlbini fəth edən ecazkar qüvvədir. Bu qüvvənin tarixini Qobustan qayaüstü rəsmlərdə görə bilərik. Milli mahnılarımız və rəqslərimiz əsrlər boyu qorunub, inkişaf etdirilmiş və bu günümüzə çatdırılmışdır. Düşmənlərimiz bizim milli mahnı və rəqslərimizi özününküləşdirmək istəsələr də buna nail ola bilməmişdilər və bilməyəcəklər”.

Vətən şərəfdir, namusudur, uğrunda can verə biləcəyimiz torpaqdır, bizə nemət verən, bizi böyüdən sərvətdir, vətən ümid yeridir, anadır, haqqdır. Vətən güvənlə addım atdığımız torpaqdır, əcdadlarımızın mirasına sahib çıxmaqdır. Düşmənin qarşısında qorxusuzca dura bilməkdir, mübarizə aparmaqdır.Vətən bir olmaqdır. Vətən sevgisi insan hissləri üçün ən müqəddəs, əbədi tərəqqi inkişafa təkan verən amillərdən biri bəlkədə ən mühümüdür. Xalq eşqi vətən məhəbbəti insanın həyat nəfəsidir, onu yaşadan ən qadir qüvvələrdəndir.Vətən sevgisi vətən üçün mübarizə aparmaqdır, bütün çətinliklərə rəğmən bu mübarizəni dayandırmamaqdır, məğlubiyyəti qəbul

etməməkdir. Bu hisslər, bu sevgi bugünkü gənc nəslin təlim- tərbiyəsinin əsas ruhu, çarpan ürəyi, düşünən beyni olmalıdır. Bunun belə olduğunu gənclərimiz bizə 44 günlük vətən müharibəsində göstərdilər. Azərbaycan gənci milli mənəvi dəyərlərə sadiqliyini, qorxmazlığını, qürurunu dünyaya göstərdi, tarixin sınağından keçdi. Qanı, canı bahasına geri aldı 30 ildir həsrətini çəkdiyimiz Qarabağı.

Əsrlər boyu torpaqları üçün mübarizə aparan bu xalq bütün dövrlərdə öz cəsurluğunu, mərdliyini, vətənsevərliyini göstərmişdir. Bu torpaq üçün ölümü gözə almışdır. Sadəcə ölümü deyil, toyunu görməyən valideynlərini, qoxusuna doymadığı.. körpəsini, xəyallar qurduğu uşaqlarını tək qoymağı da, əlsiz-ayaqsız yaşamağı da. Günü tapdaq altındakı torpaqlarımızın geri qayıdışı ilə açırdıq, gözünü bizdən fərqli olaraq səhərlərə açmayacaq gözlər sayəsində. Qarabağ müharibəsi bizə sadəcə qalibiyyət yaşatmadı, qürur, birlik məsuliyyət, acı hissi yaşatdı.

Əsrlər boyu vətənsevərlik dəyərimizin heç dəyişmədiyini görürük. Bəxtiyar İsmayılov, Əliyar Əliyev, Polad Həşimov, Mübariz İbrahimov, Tərlan Həsənov bu igidlərimizin sadəcə ad dəyişdiyini görürük. Məsələn – özünü qranatı ilə erməni tankının altına atıb, 30 döyüşçünün həyatını xilas edən Bəxtiyar İsmayılov və özünü dostları üçün qumbaranın üstünə atan Tərlan Həsənov... bu o deməkdir ki, biz dəyərlərimizi bu illər ərzində qoruyub saxlaya bilmişik, nəsildən-nəslə ötürmüşük.

Bu dəyərlər yeni nəslin tərbiyəsində xüsusi yer tutur. Gənclərin vətənsevərlik ruhunda tərbiyə olunması indi daha vacibdir, çünki müstəqil, bütöv olduğumuz bu dövrdə vətənimizin gələcəyi bugünkü nəslin hansı ruhda tərbiyə olunmasından asılıdır.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. A. Həsənov, B. Ağayev. Pedaqogika.
2. Ə. Mustafayev. Məktəblilərin mənəvi tərbiyəsi.

## AZƏRBAYCANDA MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ VƏ TƏHSİLİN İNKİŞAF TARİXİNDƏN

*Tələbə: Salahzadə Aysel Faiq qızı (qrup MQT1901B).*
*Elmi rəhbər: t.ü.f.d., b/m. Nəcəfov Əlizadə Şəmil oğlu*
*ayselsalahzade@gmail.com*

“Azərbaycanda məktəbəqədər tərbiyə, təhsil və müəsisələrin inkişafı tarixi” elmi işinin araşdırılmasının əsas məqsədi klassik mütəfəkkirlərin dəyərli fikirləri həmçinin Azərbaycanda olan məktəbəqədər tərbiyə müəssisələri, müstəqillik illərində uşaqların inkişaf tərbiyəsi və təhsilinə dair məsələlərin üzə çıxarılmasıdır. Ümumiyyətlə məktəbəqədər təhsil vahid təhsil sisteminin ilk pilləsi olmaqla, uşaqların intellektual, fiziki və psixoloji inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyətə malikdir. Hazırda Azərbaycan Respublikasında 110017 uşağı əhatə edən 1764 məktəbəqədər təhsil müəssisəsi, o cümlədən 545 uşaq bağçası, 1192 körpələr evi- uşaq bağçası, 38 körpələr evi, 4 məktəb-bağça fəaliyyət göstərir. 104533 uşağı əhatə edən 1696 müəssisə Təhsil Nazirliyi sistemində, ikisi isə bilavasitə Təhsil Nazirliyinin tabeliyindədir. Bununla yanaşı, ölkədə müxtəlif nazirlik, şirkət, idarə və təşkilatların

tabeliyində olan təhsil müəssisələri, habelə müvafiq qaydada lisenziya almış 3 özəl məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 5 məktəbəqədər xüsusi təhsil müəssisəsi, ümumi təyinatlı 9 müəssisədə 18 xüsusi təyinatlı qrup və 5 sanator tipli məktəbəqədər təhsil müəssisəsi mövcuddur.

Keçən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə baş verən köklü ictimai-siyasi dəyişikliklər nəticəsində mövcud sosial-iqtisadi infrastrukturun dağılması məktəbəqədər təhsil sisteminin də səmərəliliyinin nəzərəçarpacaq dərəcədə aşağı düşməsinə səbəb olmuşdur. Həmin dövrdə ölkə iqtisadiyyatının iflic vəziyyətinə düşməsi, əhali arasında kütləvi işsizlik və büdcə gəlirlərinin kəskin azalması bu sahənin fəaliyyətinə mənfi təsir göstərmiş, onun tənəzzülə uğrama meyllərini gücləndirmişdir.

Azərbaycanda məktəbəqədər tərbiyə müəssisəsi ilk dəfə 1907 - ci ildə Bakının Bayıl qəsəbəsində Alisa İvanovna Radçenko adli bir qadın tərəfindən təşkil edilmişdir. "Dəcəllər məktəbi" adlanan bu uşaq bağçası ilə Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələrinin əsası qoyulmuşdur. A.İ. Radçenko özü hələ gənc ikən T.F. Lesqaft tərəfindən təşkil edilmiş pedaqoji kursları bitirmiş , inqilabçı əhval - ruhiyyədə olmuşdur. A.İ. Radçenkonun "Dəcəllər məktəbi"ndə uşaqların fiziki, bədii, əxlaqi və əqli inkişafına xüsusi diqqət yetirilirdi. Məşğələlərdə oyundan, söhbət və nağıllardan, kitab oxumaqdan, gəzintilərdən geniş istifadə edilirdi. A.İ. Radçenko Bakıdan getdiyinə görə "Dəcəllər məktəbi" həmin ilin yazında bağlanmışdı. Tarixdən bəllidir ki, Böyük Oktyabr Sosialist İnqilabının qələbəsindən əvvəlki 10 illiklərdə, xüsusilə 1905-1907 - ci illər inqilabı dövründə mitinqlərdə, iclaslarda, qurultaylarda, dövri mətbuatda irəli sürülən qətnamələrdə, müraciətlərdə xalq maarifi sahəsində milyonların fikrini ifadə edən bir sıra demokratik tələblər verilirdi. Həmin inqilabın sürətlə yetişməkdə olduğu həmin dövrdə xalq maarifi sahəsində irəli sürülən demokratik tələbləri ümumiləşdirmək, onları aşağıdakı formada qruplaşdırmaq olar: 1. Xalq maarifini yerli əhalinin idarəsinə vermək; 2. Müəllim kütləsini xalq maarifinin idarə işinə cəlb etmək; 3. Üçillik ibtidai məktəb həcmində ümumi icbari təhsili həyata keçirmək ; 4. Qadınlara kişilərlə bərabər təhsil hüququ vermək; 5. Tədrisi ana dilində aparmaq; 6. Orta məktəb şəbəkəsini gücləndirmək , onun hüququnu artırmaq, maddi vəziyyətini yaxşılaşdırmaq; 7. Məktəbəqədər tərbiyə və mədəni - maarif müəssisələrini inkişaf etdirmək. Qeyd edilən və Rusiyada maarif və mədəniyyətlə bağlı xalq tələblərinin 101 tədricən həyata keçirilməsi prosesi Azərbaycan maarifinə də təsirsiz ötüşmürdü. Belə ki, bütün bunların nəticəsində XX əsrin ilk onilliklərində respublikamızın ərazisində yeni - yeni uşaq bağçaları təşkil edilmişdir . O cümlədən, növbəti bağça 1914 - cü ildə Sumarokova Zinaida Alekseyevna adlı bir qadın tərəfindən açılmışdır . Sayca 3 - cü bağça yenə də həmin illərdə Baranova tərəfindən, dördüncü Bakı şəhər xalq məktəbləri müdiriyyətinin qadın gimnaziyası nəzdində açılmış uşaq bağçası beşinci isə Kələntərova tərəfindən açılan uşaq bağçası olmuşdur. Bu sahədə Bakı qız gimnaziyası xüsusilə fərqlənirdi. Əsası 1874 - cü ildə qoyulan Bakı qız gimnaziyasının məzunları dünyəvi təhsili yaymaqla bərabər yeniyeni uşaq bağçaları da açırdılar. Belə bağçalardan biri 1916 - cı ildə Bakıda həmin gimnaziya yanında

açılmışdır. Bu uşaq bağçası 4 yaşından 7 yaşına kimi 20 uşağı əhatə edirdi. Burada uşaqlara maraqlı hərəkətli oyunlar öyrədilir, idman məşğələləri keçirilir, əl işləri vərdişləri öyrədilirdi. Uşaqlar rəngli

saplar ilə toxuma, rəngli kağızlardan kəsib yapışdırma, şəkillərin rənglənməsi ilə məşğul olur, rəngli kağız zolaqlarından “səbət” və “xalça” toxuyurdular. Burada uşaqlara hekayələr, nağıllar oxunur, kitablar üzrə müsahibələr keçirilirdi. Bu uşaq bağçasına yalnız varlı ailələrin uşaqları qəbul edilirdi. Bakı qız gimnaziyasını bitirən qızların uşaq bağçaları açmaları və orada fəaliyyət göstərmələri o dövr üçün mütərəqqi hadisə idi. 1918-1920 - ci illərdə uşaq bağçalarının sayında artım az - çox müşahidə edilir. Bu illərdə Gəncə Gimnaziyasının direktoru olmuş, Azərbaycanın ilk maarif naziri Nəsib bəy Yusifbəylinin nəslindən olan Şükufə xanım Gəncədə ilk dəfə uşaq bağçası açmışdır. Uşaq bağçalarının inkişafına Nəriman Nərimanov xüsusi kömək göstərirdi. 1918 - ci ildə Xalq Maarif Komissarlığında işləyən N.N. Kolesnikova yazırdı ki, tərbiyəçilər hazırlayan kursların təşkilində, tərbiyə ocaqlarının avadanlıqla təchiz olunmasında N. Nərimanov bizə çox kömək edirdi. Onun vasitəsilə bir bina, lazımi avadanlıq və ərzaq malları alırdıq. Yoldaş Nərimanov bizim işimizə diqqətlə yanaşırdı. O, bizim uşaq ocaqlarımızı tanıyırdı, tez - tez bu və ya digər uşaq ocağına gəlirdi. Uşaqlar, tərbiyəçilər və eləcə də valideynlərlə söhbət aparırdı. Məktəb işimizin islahatı, məktəb şəbəkəsinin genişləndirilməsi, məktəbəqədər 102 tərbiyə və məktəbdənkənar təhsil müəssisələrinin yaradılması o vaxtlar Xalq Maarif Komissarlığının əsas vəzifələrindən olmuşdur. Bütün bunların nəticəsidir ki, 1920 - ci ilə kimi məktəbəqədər tərbiyə müəssisələrinin sayı xeyli artmışdı. Bununla belə o zamanlar respublikada pedaqoji kadr hazırlanması problemi meydana çıxmışdı. Bu problemin aradan qaldırılmasında yenə də N. Nərimanov yaxından kömək etmişdi. 1920 - ci ilin may ayının 24 - də N. Nərimanovun Azərbaycan İnqilab Komitəsi adından Xalq Maarif Komissarlığına göndərdiyi 54 № - li telefonoqramda deyilirdi: “Təklif edirəm ki, bir həftə müddətində şəhərin müsəlman məhəllələrində uşaq bağçaları təşkil edilsin. Bu məqsədlə də şəhərin bütün müəllim və müəllimələrini səfərbərliyə almaq lazımdır”. Bu telefonoqramdan sonra respublikada, xüsusilə Bakının müsəlmanlar yaşayan rayonlarında yeni - yeni uşaq bağçaları və körpələr evi təşkil edilmiş və bu məqsədlə şəhərin ən yaxşı müəllim və tərbiyəçiləri bu işə cəlb edilmişdi. 1921 - ci il yanvarın 10 - da Azərbaycan İcraiyyə Komitəsinin iclasında Dadaş Bünyadzadə Xalq Maarif Komissarlığının 8 ay müddətində (1920 - ci il aprel ayından 1921 - ci ilin yanvarına qədər ) görülmüş işləri haqqındakı məruzəsində göstərir ki, bu müddətdə Bakıda 35 uşaq bağçası təşkil edilmişdir ki, bunlarda da 2400 uşaq tərbiyə alır . Bunlar ilk növbədə Azərbaycanın şəhər və qəzalarında, o cümlədən Gəncədə 8, Nuxada ( Şəki ) 6, Şuşada 5, Qubada 1, Qazaxda 3, Göyçayda 3, Lənkəranda 2, Şamaxıda 1, Zaqatalada 1, Şamxorda 2, Salyanda 1 uşaq bağçası açılmışdır . Azərbaycan Xalq Maarifi Komissarlığı kollegiyasının 27 yanvar 1921 - ci il tarixli qərarı əsasında uşaq bağçalarında beynəlmiləl qruplar təşkil edilir (rus, tatar, yəhudi, gürcü və s.). Uşaqların milli tərkibinin belə müxtəlifliyi onların lap kiçik yaşlarından xalqlar dostluğu ruhunda tərbiyə edilmələrini göstərir. Uşaq bağçasında təlim - tərbiyə işləri Azərbaycan dilində aparılsa da, bu qruplarda iş əsasən rus dilində gedirdi. 1920 - ci il iyun ayının 28 - nə kimi təkcə Bakıda “Yuva” , “Svetlyaçok”, “Xutorok”, “Sünbül”, Suraxanı rayonunda “Krasnoye solnışko”, “Aydınlıq”, “Krasniy uqolok”, “Kolokolçik” adlı uşaq bağçaları təşkil edilmişdi. 1920 - ci ildən sonra məktəbəqədər tərbiyə 103 müəssisələrinin sayı nəinki şəhərlərdə, həm də kənd yerlərində də artmağa başladı. 1921-1922 - ci illərdə respublikada 4 mindən çox uşağı əhatə edən 76

məktəbəqədər tərbiyə müəssisəsi təşkil edilmişdir. Nadejda Kolesnikovanın rəhbərliyi ilə komissarlıq məktəbləri yenidən təşkil etdi, xalq universitetləri təşkil olundu , zəhmətkeş uşaqları

üçün uşaq evləri və uşaq meydançaları yarandı. Şuşa Xalq təhsil şöbəsi ilə uşaq bağçası, meydançaların açılması, məktəblərin zəruri ləvazimatlarla təmin olunması və başqa məsələlər haqqında yazışmalar əldə edildi. Ağdaşda uşaq evlərinin açılması haqqında qərar verildi. O zamanlar Dağlıq Qarabağ ərazisində məktəbəqədər təhsil müəssisələri də diqqət mərkəzində olmuşdur. Tədqiqat nəticəsində məlum olmuşdur ki, hələ 1920 - ci illərdə Qaryagino, Horadis, Cəbrayıl, Şuşa, Ağdam, Daşbulaq, Ağcabədi, Tərtər, Çardaxlı və s. ərazilərdə də uşaq evlərinin açılması nəzərdə tutulurdu. 1920 - ci il noyabrın 1 - də Şuşa Maarif şöbəsinin məktəbəqədər bölməsinin müdiri təyin edilən Yusif Qazızadə tərəfindən Şuşanın beş məhəlləsində uşaq bağçası açıldı. Bunlar aşağıdakılar idi: 1. Mərdanlı; 2. Balaca - Qurdlar; 3. Hamam qabağı; 4. Ağa Dədəli və Təzə məhəllə. Hər uşaq bağçasında 25 nəfər uşaq var idi. Diqqəti cəlb edən cəhət isə Yusif Qazızadənin bu uşaqların hamısının türk olduğunu xüsusilə vurğulamasıdır.

1920 - ci il oktyabrın 3 -də Xalq Maarif Komissarlığı tərəfindən “Məktəbəqədər tərbiyə işçiləri evi” (Dom doşkolnikov) təşkil edilir. Burada məqsəd məktəbəqədər tərbiyə ideyalarının təbliğ edilməsi, uşaqların tərbiyəsi və inkişafı üçün zəruri şəraitin yaradılması idi. Burada yığılan materiallar gələnləri məktəbəqədər tərbiyənin müxtəlif məsələləri ilə daha dərindən tanış edirdi. Bu dövrdə Xalq Maarif Komissarlığı məktəbəqədər müəssisələri üçün kadrlar hazırlığı məqsədilə üç və altı aylıq pedaqoji kurslar təşkil edilmişdi. 1921 -ci ildə isə Azərb.SSR Xalq Maarif Komissarlığının kollegiyasının qərarı ilə Bakıda Azərbaycan qadın pedaqoji texnikumu yaradıldı. Bu texnikumun məqsədi qadın pedaqoqlar hazırlamaq idi. 1921- ci il yanvar ayının 11- də N. Nərimanovun göstərişi ilə Azərbaycanda birinci Məktəbəqədər Tərbiyə Pedaqoji Institutunun açılması haqqında dekret verildi. Azərbaycan İnqilab Komitəsinin bu barədə 104 dekretində deyilirdi: “Məktəbəqədər tərbiyə sahəsində təcrübəli kadrlar və rəhbər işçilər hazırlamaq və həmçinin qadınlar arasında tərbiyə məsələlərini yaymaqdan ötrü Azərbaycan İnqilab Komitəsi qərara alır ki, 1921 - ci il mart ayının 1 - dən etibarən Bakı şəhərində birinci Azərbaycan tərbiyə ocağı açılsın. “Bu dekretə əsasən 1921 - ci il mart ayının 4 - də Məktəbəqədər Pedaqoji İnstitutu təşkil edildi. O vaxtlar məktəbəqədər tərbiyə müəssisələri üçün müvafiq kadr hazırlığı işində Məktəbəqədər Tərbiyə Pedaqoji İnstitutunun təşkili mühüm rol oynadı. Belə ki, instituta ilk dəfə 30 nəfər qadın qəbul olundu. Maarif Komissarı D. Bünyadzadənin köməyi ilə bu dövrdə məktəbəqədər tərbiyə müəssisələrində çalışan azərbaycanlı tərbiyəçilər üçün rus dilindən xeyli pedaqoji ədəbiyyat tərcümə edilib çap olundu. 1922 - ci ildə Məktəbəqədər Tərbiyə İnstitutu Pedaqoji İnstituta çevrildi və nəzdində məktəbəqədər tərbiyə fakültəsi təşkil edildi. Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələri yaradılmasında böyük xidmətləri olan və bu sahədə uzun illər çalışan tanınmış maarifçi Gülrix Qədimbəyova öz xatirələrində yazırdı: “Məktəbəqədər tərbiyə işçilərinin hazırlanmasında qısamüddətli kursların çox böyük rolu olmuşdur. Kurslara geniş qadın kütlələrini cəlb etmək məqsədilə N. Nərimanov öz qadın ailə üzvlərini də bu kurslara oxumağa göndərmişdi. O zaman azərbaycanlı qadınların kurslara cəlb edilməsi çox çətin məsələ idi”. Məktəbəqədər tərbiyə, təhsil haqqında Azərbaycanda ilk tədqiqatlar, direktiv sənədlər və ədəbiyyatı haqqında Azərbaycan Maarif Komissarlığı məktəbəqədər tərbiyə

şöbəsinin uşaq müəssisələri üçün 1920 - ci ildə tərtib etdiyi təlimatnamə məktəbəqədər tərbiyə sahəsində çalışan işçilərə çox kömək etdi. Həmin təlimatda məktəbəqədər tərbiyə müəssisələrinin tipləri müəyyənləşdirildi. Bunlar aşağıdakılar idi: körpələr evi, uşaq bağçaları, meydança, koloniya və uşaq evləri. Təlimatda məktəbəqədər tərbiyə müəssisələrinin təşkili prinsipləri, işin məzmunu, uşaqları neçə yaşdan qəbul etmək müəyyən edilir, uşaqların qidalanmasına xüsusi yer verilir, rejim və onun tərtibinin əsasları göstərilirdi. Bu sənəddə təvazökarlıq, bir - birinə qarşılıqlı qayğı və kömək, əməyə hörmət və s. kimi keyfiyyətlərin bir yerdə tərbiyəsi tövsiyə edilir, oyunlara, ailə ilə əlaqəy, valideynlər arasında pedaqoji təbliğata ciddi diqqət yetirilirdi. 1924 - cü ildə ümumittifaq məktəbəqədər tərbiyə işçilərinin 3 - cü qurultayı çağırıldı. Qurultayda fəhlə klubları nəzdində uşaq evləri, gecə - gündüz işləyən uşaq 105 bağçalarının açılması qarşıya məqsəd kimi qoyuldu. Həmçinin kənd yerlərində uşaq bağçaları açılması ideyası irəli sürüldü. Bundan əlavə uşaq bağçalarında təlim - tərbiyə işinin yaxşılaşdırılması və təkmilləşdirilməsi sahəsində məsələlər müzakirə edildi. Məktəbəqədər tərbiyə müəssisələrində o zamanlar işin səmərə və keyfiyyətinin yaxşılaşmasında ilk təcrübə üçün nəşr edilmiş kitab və kitabçaların da böyük rolu olmuşdur. O vaxtlar bu sahədə nəşr edilən kitab və kitabçalara nümunə üçün “Məktəbəqədər yaşlı uşaqlar üçün nağıllar məcmuəsi”, “Tərbiyə prinsipləri”, “Uşaq bağçalarını necə təşkil etməli və onun işini aparmaq qaydaları” adlı kitabçaları göstərmək olar. Bu dövrdə Məktəbəqədər Ali Pedaqoji İnstitutu tələbələrinin təşəbbüsü ilə buraxılan “Rəhbər” məcmuəsində “Məqsəd və yolumuz”, “Tərbiyə haqqında atalar sözü”, “Şəkillər üzrə cavab nağılları” və s. adlı məqalələr dərc olunmuşdu. Məhz bu illərdə və sonrakı dövrlərdə bağça yaşlı uşaqların mənəvi, əxlaqi, estetik və fiziki tərbiyəsinin formalaşmasında uşaq ədəbiyyatının yaradıcılarının, ilk növbədə M.Ə. Sabirin, Abbas Səhhətin, Rəşid bay Əfəndiyevin, Firudin bəy Köçərlinin , Yusif Vəzir Çəmənzəminlinin, Sultan Məcid Qənizadənin, Fərhad Ağazadənin, Şaiqin və digər şair və yazıçıların uşaqlar üçün yazdıqları əsərlərin böyük rolu olmuşdur. Elə bu gün də gənc nəslin tərbiyəsi işində bu unudulmaz şəxsiyyətlərin əsərləri müəllim və tərbiyəçilərin stolüstü kitablarındandır. Bütün bunların nəticəsidir ki, o zamanlar uşaq bağçalarının və burada tərbiyə alan uşaqların sayı ildən - ilə artmaqda davam etmişdi. Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələri tarixinin tanınmış tədqiqatçısı Əfşan Qədimbəyovanın apardığı tədqiqatlar göstərir ki, əgər 1924-1925- ci dərs ilində respublikada fəaliyyət göstərən 19 uşaq bağçasında 1096 nəfər uşaq tərbiyə alırdısa, 1930-1931 - ci dərs ilində uşaq bağçalarının ümumi sayı artaraq 463 olmuş, burada tərbiyə alanların sayı isə artaraq 135,043 - ə çatmışdı. Bu illərdə uşaq bağçalarında aparılan tərbiyənin qarşısında; uşaq kollektivinin təşkili və onun tərbiyədə rolu, uşaqların təşkilatçılıq qabiliyyətini inkişaf etdirilmək, təbiətlə tanışlıq, yoldaşlıq, dostluq və s. keyfiyyətlərin aşılanması kimi vəzifələr qoyulmuşdu . 1926 - cı ildə Dövlət Elmi Şurası “Uşaq bağçaları üçün Nizamnamə” təsdiq etdi. Nizamnamənin birinci bölməsində məqsəd və vəzifələrdən, məktəbəqədər yaşlı uşaqlarla aparılan işin məzmunundan, ictimai tərbiyənin 106 məqsədindən, uşaq bağçalarında işlərin ana dilində aparılmasından və qəbul qaydalarından bəhs edilirdi. Daha sonra bu bölmədə uşaq bağçalarına yetimlərin, anası işdə olan uşaqların, qızıl əsgər və yoxsul kəndli uşaqlarının birinci növbədə qəbul komissiyaları vasitəsi ilə qəbul edilməsi xüsusi qeyd edilirdi. O vaxtlar məktəbəqədər tərbiyə müəssisələrinin idarə edilməsində bu nizamnamənin böyük əhəmiyyəti olmuşdu.

Vətənimizin sosial - iqtisadi inkişafının dinamik sürəti bu gün məktəbəqədər təhsil müəssisələrinin qarşısında uşaqları altı yaşına kimi tərbiyə etmək, müstəqil Azərbaycan Respublikası üçün layiqli vətəndaş yetişdirmək kimi məsuliyyətli vəzifələr durur. Xalq maarifi sisteminin ilkin həlqəsi olan məktəbəqədər müəssisə uşağın tərbiyə edilməsində ailəyə yaxından köməklik göstərir, şəxsiyyətin formalaşmasının əsasını qoyur, onların məktəbə hazırlaşmasını həyata keçirir. Bizlərdən hər birimiz yaxşı bilirik ki, əmək olmadan, əməkdənkənar tərbiyə də ola bilməz. Məktəbəqədər müəssisələrdə əmək fəaliyyəti ilk növbədə uşaqların ümumi inkişafının yaxşılaşdırılmasına, maraqlarının genişlənməsinə, əməksevərlik, məsuliyyət, borc, yaşlıların əməyinə hörmət hissinin formalaşmasına xidmət edir. Uşaq müxtəlif növ tapşırıqları yerinə yetirməklə yalnız sadə hərəkətləri öyrənmir, eyni zamanda öyrənir ki, yaxşı nədir, pis nədir, öz istəyini ümuminin, kollektivin mənafeyinə uyğunlaşdıra bilir, davranış qaydalarını mənimsəyir. Bu isə mənəvi tərbiyənin əsasının təşkilində, müxtəlif uşaq fəaliyyətində: məişət, əmək, oyun, təlim prosesində öz əksini tapır. Uşağın ümumi inkişafında gözəlliyə məhəbbət, daxili aləminin zənginləşməsi, təxəyyülün inkişafı xüsusi əhəmiyyət kəsb edir . Burada müəllimin başlıca vəzifəsi uşaqlarda vaxtinda estetik hissi, bədii qavrayışı, incəsənət və musiqi əsərlərini, ətraf aləmin gözəlliyini dərk etməyi inkişaf etdirməkdən ibarətdir .

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. A.M. Həsənov. Məktəbəqədər pedaqogika. Bakı, 2000.
2. Ə.B. Qədimbəyova. Uşaq bağçasında əxlaq tərbiyəsi, Bakı, 1969.
3. M. Ismayilova, C. İsmayılova. Uşaq bağçalarının böyük qrupunda keçirilən didaktik oyunlar, Bakı, 1995.
4. M.Şabayeva. Məktəbəqədər pedaqogika tarixi. Seçilmiş pedaqoji əsərləri. Bakı,1967.
5. N.M. Rüstəmova. Məktəbəqədər pedaqogika tarixi. Bakı, 2004
6. Y.A. Komenski. Bakı, 1961.
7. İnternet mənbələri.

## UŞAQ FOLKLORU, BÖYÜK DÜNYASI UŞAQ GÖZÜ İLƏ

*Tələbə: Qarayeva Fidan Ramil qızı (qrup AZD2001B)*
*Elmi rəhbər: b/m. Məmmədova Sara Muradxan qızı*
*fidanqarayeva@gmail.com*

Azərbaycan dilində el ədəbiyyatı, şifahi xalq ədəbiyyatı, şifahi ədəbiyyat, şifahi xalq yaradıcılığı kimi tanınan ədəbiyyata elmi terminologiyada folklor deyilir. Əsli ingiliscə olan bu sözün mənası “xalq müdrikliyi” deməkdir.

Tarixdə xalqlar bir sıra özünəməxsus əlamətlərə görə səciyyələnirlər; irq, dil, hərbi, psixoloji və s. əlamətlərlə bərabər, xalq müdrikliyi də bu sıradadır. Xalq müdrikliyi sadə anlayış olmayıb tarixi inkişaf prosesinin nəticəsidir.

Xalqımız qədim tarixə malik olduğu kimi, onun folkloru da qədimdir. Xalqın sevinci, kədəri, toyu, yası, əməyi, istirahəti, körpəsi, böyüyü folklorda əks olunmuşdur. Əvvəldə qeyd etdiyimiz

kimi atalar sözləri, laylalar, bayatılar, holovarlar, sayaçı sözlər, düzgülər, sanamalar, oxşamalar, nazlamalar, lətifələr, yanıltmaclar, əfsanələr, rəvayətlər, nağıllar, dastanlar və s. folklor bəlirləridir və xalqın tarixi təcrübəsi əsasında yaranmışdır. Onların hər birinin həyatda müstəsna əhəmiyyəti var.

Xalqın yaratdığı bütün şifahi xalq ədəbiyyatı nümunələri insanın tərbiyəsinə, mənəvi kamillik yoluna istiqamətləndirilməsinə xidmət edir. Dünyaya gəldiyi gündən uşaq estetik, isti, məhrəm, işıqlı arzularla dolu sözlər dünyasına düşür; ona layla çalınır:

Layla dedim yatasan,
Qızılgülə batasan.
Qızılgülün içində
Şirin yuxu tapasan.

Laylalar insanın tərbiyəsinə istiqamətləndirilmiş ilk folklor nümunəsidir. Hələ yeriməyi, danışmağı bacarmayan, ətrafdakıları tanımayan uşağın ruhuna sığal çəkir layla; ağlayırsa sakitləşir, yuxusuzdursa yatır. Anasının, nənəsinin səsini, ünsiyyətini duyur; əmin-amanlıq və gözəllik içində böyüyür.

Uşağın yuxudan oyanmasını ata-ana və evdəki digər böyüklər bir qədər də gözəl əhval-ruhiyyə ilə qarşılayırlar. Onu atıb-tutur, oynadır, əzizləyir, oxşayırlar.

Dağda darılar
Sünbüllü sarılar,
Qoca qarılar
Bu balama qurban.
Qızlar üçün isə belə demişlər:
Qızım qızlar içində
Gül sünbüllər içində
Qızıma elçi gələcək
On beş yaşın içində.

Uşaq tədriclə böyüdükcə tərbiyə prosesinə xırda oyunlar əlavə olunur.

Bu yedi,
Bu içdi,
Bu yığışdırdı,
Buna qalmadı.
Bu da küsdü, uçdu,
Uçdu, uçdu, uçdu,
Gəlib qondu bura.

Xalqın sınaqlı inancına görə dişin çıxma prosesini qabıqlı baş soğan asanlaşdırır.

Dişin çıxacağı ərəfədə onun yeri gicişir, bu zaman baş soğanın üstündən boşalıb soyula biləcək qabıqları götürərək bərk qabıqlı halda uşağın əlinə verirlər. Uşaq instinktiv olaraq onu

ağzına aparır və dişləməyə çalışır. Yaranan sürtünmədən dişin üstü açılır, altı görülür. Ailə bunu "düyülər göründü" deyə sevinclə qarşılayır, "diş hədiyi" bişirir.

Hədik qohum-qonşuya paylanır. Uşaq isə belə oxşanıb əzizlənir:

İki dişi var qabaqda
Çörəyi qoymaz tabaqda

Uşaq böyüdükcə ona danışmaq, saymaq öyrədilir.

Baş barmaq,
Başala barmaq,
Uzun hacı,
Gül papıcı,
Balaca bacı.

Uşaq böyüdükcə oyunların da tərzi dəyişir və tədriclə mürəkkəbləşir. Nitqin və zehnin inkişafına xüsusi diqqət yetirilir.

Bir, iki – bizimki,
Üç, dörd – qapını ört.
Beş, altı – daş altı,
Yeddi, səkkiz – Firəngiz,
Doqquz, on – qırmızı don.

Uşaqların nitqini inkişaf etdirmək üçün böyüklər onlara yanıltmac söylədirlər. Yanıltmaclar uşaqları düzgün danışıq və nitq vərdişlərinə yiyələndirir, söz ehtiyyatlarını artırır.

Ay qılquyruq qırqovul,
Gəl bu kola gir, qılquyruq qırqovul.
Cüt dükcə, cüt-cüt dükcə, üç cüt dükcə
Cöngə, göy cöngə, gömgüy cöngə, dümgöy cöngə.

Nitq inkişafı dövründə xalq həm təfəkkürün, ağıl və zehnin inkişafı qayğısına qalmış, tapmacalar söyləmiş, onlara cavab istəmişdir. Tapmacalar bu və ya digər əşya, hadisə, məfhum haqqında olur. Həmin əşya və hadisənin bir əlaməti, bir keyfiyyəti dolayı yolla söylənilir, başqa cəhətləri isə gizli saxlanılır.

Hacılar haca gedər,
Əhd edər, gecə gedər.
Bir yumurta içində
Yüz əlli cücə gedər. (Nar)

Elə bir azərbaycanlı tapılmaz ki, o gün ərzində atalar sözündən, tapmacalardan, nağıllar söyləməsin. Bütün həyatını folklorun müşayiəti ilə keçirən hər bir şəxs xalqının övladı olmaqla, xalqın özünə məxsus keyfiyyət və tələbləri ruhunda böyüyüb formalaşır. Çünki folklor xalqın tərbiyə məktəbidir.

Uşaqlıq – insanın həyatının parlaq, yadda qalan, sosial həyat fəaliyyətinin bir dövrüdür.

Hələ qədim zamanlardan uşaq folkloru xalq pedaqoqikasının əsas qollarından biri kimi tərbiyə vasitəsi olmuşdur. Folklor uşaqların hərtərəfli inkişafına böyük təsir göstərir. Uşaqlar oyunlarla

bağlı yaranan xalq yaradıcılığı nümunələrinə meyil göstərirlər. Uşaq folklorunun ayrı-ayrı janrları çox qədimdə meydana gəlmişdir.

Xalq pedaqoqları olan müdrik insanlar uşaqları folklorun bu nümunələri vasitəsilə tərbiyə edirdilər.Əsrlərlə uşaqların tərbiyəsində tərbiyə müəssələrinin gördüyü işi el sözü, el hikməti yerinə yetirmişdir.

Yaşlı nəsil üçün məktəb və müəllim həyat özü olmuş, öyrəndiklərini və gəldikləri nəticələri isə həyat dərsi vasitəsilə almışlar. Uşaq folkloru iki istiqamətdən böyüklərin uşaqlara söylədikləri (nağıllar, tapmacalar, oxşamalar və s.).

Xalq pedqoqikasında insanın təşəkkülü şərti olaraq mərhələlərə ayrılır. Bunların hər birinin öz dünyası, öz həyat məkanı uyğun gəlir. İlk mərhələdə uşaq ana ilə yaşayır və hələ insan cəmiyyətinə qoşulmayıb. Sonrakı mərhələ beşik dövrüdür ki, beşik uşağın düzgün böyüməsi üçün xüsusi məkan keyfiyyətində vacibdir. Üçüncü mərhələ uşağın iməklədiyi, təzə gəzməyə başladığı dövrüdür. Belə uşaq üçün həyat məkanı evdir. Dördüncü mərhələdə uşaq küçədə qala bilir. Uşaq folklorunun uşaqların düzgün tərbiyəsində hərtərəfli inkişafında böyük əhəmiyyəti vardır.

Uşaq folkloru dedikdə hər şeydən əvvəl, şifahi xalq ədəbiyyatının böyüklər və uşaqlar tərəfindən yaradılan elə nümunələri nəzərdə tutulur ki, onlar uşaqlara həsr olunsun, başqa sözlə, uşaqların məişətini, arzularını ifadə etsin və əhatə etdiyi mövzuları, ideyaları, forması, məzmunu, üslubu, hətta sözlərin seçilib düzülməsi ifadə tərzi balacaların zövqünə, biliyinə, yaş səviyyəsinə, psixaksına uyğun olsun.

Uşaq folkloru qədim dövrlərdə gənc nəsli tərbiyə etmək, ona əməksevərlik, mübarizlik dövrün tələbinə uyğun olaraq ovçuluq, əkinçilik, maldarlıq və s. peşələrin sirlərini öyrətmək tələbatı ilə əlaqədar yaranmışdır.

Laylalar və oxşamalar uşaq folklorunun geniş yayılmış janrlarıdır. Laylalar ananın öz körpəsini yuxuya vermək, əzizləmək məqsədilə söylədiyi nəğmələrdir. Oxşamalar öz körpəsini atıb-tutan, əyləndirən, əzizləyib oynadan ananın oxuduğu nəğmələrdir. Son dövrlərdə elmi ədəbiyyatda oxşama əvəzinə nazlama terminindən istifadə olunur.

Laylalar (Beşik nəğmələri) laylalar yuxunun rahatlığını təmin edir. Musiqinin ahəngi, ana səsinin titrəyişi uşağa xoş təsir edir və o, şirin yuxuya gedir. Belə mahnıların müəllifləri əsasən analardır. Beşik nəğmələri ananın uşağa məhəbbətini verir, uşaqlarda hisslərin və əhval-ruhiyyənin inkişafına təsir edir. Uşaq beşikdə mehriban nitq eşidərkən sakitləşir. Sözlərin mənasını hələ başa düşməyən uşaq artıq ananın sakit səsinə və mehriban mahnı ifasına reaksiya verir.

Laylaların tərbiyədə rolu nəhəngdir və heçnə ilə müqayisə olunmur. Laylalar poetik sözlərə, gözəl melodiyalara malik olaraq uşaqların hisslərinə və şüuruna güclü təsir edir və uzun müddət onların yaddaşında qalır. Beşik mahnıları körpəni təkcə, yatırmır, həm də sakitləşdirir, ona sevinc gətirir.

Beşik mahnılarının əsas məzmunu ananın öz uşağına məhəbbəti, onun xoşbəxt gələcəyi üçün arzularıdır.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. https://az.wikipedia.org › wiki › Uşaq_folkloru
2. http://anl.az › Kitab

## DÖVRİ SİSTEMİN SONU VARMI

*Tələbə: Şirinova Əcəb Sahib qızı (qrup FM2101B)*
*Elmi rəhbər: b/m. Quliyeva Ülviyyə İnqilab qızı*
*shirinovaeceb@gmail.com*

Qədim Yunanıstanda əsas 4 elementin mövcudluğuna inam var idi: hava, od, torpaq, su. Bütün elementlər isə bu 4 elementin birləşməsindən yaranır; məsələn, torpaq və od birləşib lavanı əmələ gətirir. Lakin bu inam ilk kimyəvi elementlərin kəşfindən sonra itdi.

Artıq XVI-XVIII əsrlərdə əksər elementlər tapılmışdı. Buna görə də elementlərlə işləməni sadələşdirmək üçün cədvələ ehtiyac var idi. Belə cədvəllər Kvant fizikasının inkişafı, atomun quruluşunun izahından sonra yaradılmağa başladı. 1829-cu ildə alman alimi İohan Volfanq Dobereyner triadalardan (üçlüklərdən) təşkil olunmuş dövri cədvəli qurdu.
Bəzi üçlüklər aşağıdakı kimidir:

Bəzi triadalar

| Element | Molyar kütlə (q/mol) | Sıxlığı (g/cm³) | Quotient (cm³/mol) |
|---|---|---|---|
| Xlor | 35.453 | 0.0032 | 11100 |
| Brom | 79.904 | 3.1028 | 25.8 |
| Yod | 126.90447 | 4.933 | 25.7 |
| Kalsium | 40.078 | 1.55 | 26.0 |
| Stronsium | 87.62 | 2.54 | 33.2 |
| Barium | 137.327 | 3.594 | 38.2 |

Bu cədvələ əsasən Dobereyner triadalar qanununu təklif etdi: Triadanın ortasında yerləşən elementin atom kütləsi digər iki elementin atom kütlələrinin cəminin yarısına bərabərdir.

1829-cu ildə alman kimyaçısı İohann Volfqanq Döbereyner elementləri sistemləşdirmək üçün ilk əhəmiyyətli cəhd etdi . O qeyd etdi ki, xassələrinə görə oxşar olan bəzi elementlər üçlü qruplara birləşdirilə bilər və onları üçlük adlandırmışdır:

| | | | | |
|---|---|---|---|---|
| Li | Ca | P | S | Cl |
| Na | Sr | As | Se | Br |

K Ba Sb Te I

Təklif olunan Döbereyner üçlüklər qanununun mahiyyəti ondan ibarət idi ki, triadanın orta elementinin atom kütləsi triadanın iki ekstremal elementinin atom kütlələrinin yarım cəminə (arifmetik orta) yaxındır.

Döbereyner triadalarının müəyyən dərəcədə Mendeleyev qruplarının prototipləri olmasına baxmayaraq, bütövlükdə bu fikirlər hələ də çox qeyri-kamildir. Tək bir kalsium, stronsium və barium ailəsində maqneziumun və ya kükürd, selenium və tellur ailəsində oksigenin olmaması oxşar elementlərin aqreqatlarının üçlü ittifaqlara süni şəkildə məhdudlaşdırılmasının nəticəsidir. Bu mənada Döbereynerin oxşar xassələrə malik dörd elementdən ibarət üçlüyü ayıra bilməməsi bu mənada çox göstəricidir.

Döbereyner fosfor və arsenin, sürmə və vismutun kimyəvi xassələrində dərin bənzətmələri aydın görürdü, lakin əvvəlcədən triadaların axtarışı ilə məhdudlaşaraq düzgün həll yolu tapa bilmədi. Yarım əsr sonra Lotar Meyer deyəcək ki, Döbereyner bir müddət də olsa özünü triadalarından yayındırsaydı, o, eyni anda bütün bu dörd elementin oxşarlığını dərhal görərdi.

Döbereyner, əlbəttə ki, bütün məlum elementləri üçlüyə bölməyə müvəffəq olmasa da, triadalar qanunu atom kütləsi ilə elementlərin və onların birləşmələrinin xassələri arasında əlaqənin mövcudluğunu açıq şəkildə göstərirdi. Bütün sonrakı sistemləşdirmə cəhdləri elementlərin atom kütlələrinə uyğun düzülməsinə əsaslanırdı.

Dobereynerin fikirlərini başqa bir alman kimyaçısı Leopold Qmelin inkişaf etdirdi və elementlərin xassələri ilə onların atom kütlələri arasındakı əlaqənin triadalardan qat-qat mürəkkəb olduğunu göstərdi. 1843-cü ildə Qmelin kimyəvi cəhətdən oxşar elementlərin birləşdirici (ekvivalent) çəkilərin artan sırası ilə qruplara yerləşdirildiyi bir cədvəl nəşr etdi. Elementlər triadaları, həmçinin tetradları və pentadları (dörd və beş elementdən ibarət qruplar) təşkil edirdi və cədvəldəki elementlərin elektronmənfiliyi yuxarıdan

Bu qanun təkmilləşdirən ingilis kimyaçısı Con Nyuland 1865-ci ildə oktavalar qanununu kəşf etdi.

Nəhayət, 1869-cu ildə rus kimyaçısı Dmitri İvanoviç Mendeleyev və ondan 4 ay sonra Yulius Lotar Meyer elementlırin dövri cədvəlini qurdular. Bu cədvəldəki qanunauyğunluqlara əsasən, gələcəkdə tapılacaq elementlərin atom kütlələrini, elektronların sayını və s. parametrlərini tapmaq olar.

Dövri cədvəl yalnız elementləri deyil, onların ən müxtəlif xüsusiyyətlərini sistemləşdirir. Dövri qanun — 1869-cu ildə Dmitri Mendeleyev tərəfindən o dövrdə məlum olan kimyəvi elementlərin xassələri və onların atom kütlələrinin qiymətləri müqayisə edilərkən kəşf edilmiş əsas təbiət qanunu.

Dövri qanunun kəşfindən sonra Dmitri Mendeleyev iki il onun tərtibini təkmilləşdirdi və nəhayət, aşağıdakı formada rəsmiləşdirdi (1871):

Elementlərin xassələri və buna görə də onların yaratdığı sadə və mürəkkəb cisimlərin xassələri vaxtaşırı onların atom çəkisindən asılıdır.

Atom fizikası və kvant kimyasının inkişafı ilə Dövri Qanun ciddi nəzəri əsas əldə etdi. C.Rıdberqin (1897), A.Van den Brukun (1913), Q. Mozelinin (1913) klassik əsərləri sayəsində elementin sıra (atom) nömrəsinin fiziki mənası açılmışdır. Daha sonra kimyəvi elementlərin atomlarının

nüvələrinin yükləri artdıqca elektron strukturunun dövri dəyişməsi üçün kvant mexaniki modeli yaradılmışdır. Hal-hazırda D. I. Mendeleyevin Dövri Qanunu aşağıdakı formadadır:

Kimyəvi elementlərin xassələri, habelə onların əmələ gətirdiyi sadə maddələrin və birləşmələrin formaları və xassələri vaxtaşırı onların atomlarının nüvələrinin yüklərinin böyüklüyündən asılıdır.

Dövri qanunun digər fundamental qanunlar arasında özəlliyi ondan ibarətdir ki, onun riyazi tənlik şəklində ifadəsi yoxdur. Dövri qanun Kainat üçün universaldır: məşhur rus kimyaçısı N.D. Zelinskinin obrazlı şəkildə qeyd etdiyi kimi, dövri qanun “kainatdakı bütün atomların qarşılıqlı əlaqəsinin kəşfi” idi. Qanunun qrafik (cədvəl) ifadəsi Mendeleyev tərəfindən işlənmiş kimyəvi elementlərin dövri sistemidir.

Ümumilikdə dövri sistemin təsvirinin bir neçə yüzvariantı (analitik əyrilər, cədvəllər, həndəsi fiqurlar və s.) təklif edilmişdir.

Kimyəvi elementlərin təbii təsnifatı və sistemləşdirilməsi üçün əsasların axtarışı Dövri Qanunun kəşfindən çox əvvəl başlamışdır. Bu sahədə ilk dəfə işləyən təbiət alimlərinin qarşılaşdıqları çətinliklər eksperimental məlumatların olmaması ilə əlaqədar idi: XIX əsrin əvvəllərində məlum kimyəvi elementlərin sayı az idi və atomun qəbul edilən dəyərləri çoxlu elementlərin kütlələri yanlışdır.

Kimyəvi elementlərin dövri sistemi — elmə məlum olan bütün elementləri müəyyən bir nizama görə təsnifləşdirən və araşdırmağı asanlaşdıran bir sistemdir. İlk olaraq 1867-ci ildə Con Nyuland elementləri artan atom kütlələrinə görə sıralamış və bir elementin özündən sonrakı

səkkizinci elementlə bənzər xüsusiyyətlərə malik olduğunu göstərən Oktavalar qanununu ortaya qoymuşdu.

Daha sonra 1869-cu ildə Dmitri İvanoviç Mendeleyev, bənzər xüsusiyyətlər daşıyan elementləri arxa-arxaya düzdüyündə, atom kütləsinə dayanan bir cədvəl əldə etmiş və o zamanlar bilinməyən bəzi elementlərin (skandium, qallium və germanium kimi) varlığını, hətta xüsusiyyətlərini təxmin edə bilmişdi.

Lotar Meyer adlı tədqiqatçı da, 1886-cı ildə, Mendeleyevdən müstəqil olaraq, atom kütlələrinə görə bir dövri cədvəl meydana gətirmiş və valentlik anlayışını ortaya atmışdı. İndiki vaxtda istifadə etdiyimiz cədvəl, yeni elementlərin də yerləşdirilə bilməsinə imkan tanıyan Mendeleyevin Kimyəvi elementlərin dövri cədvəlidir. Ancaq ilk halından fərqli olaraq, elementlər atom kütləsinə deyil, atom nömrəsinə görə sıralanmışdır. Buna görə dövri cədvəldə, soldan sağa və yuxarıdan aşağıya doğru atom nömrəsi artır. Sıxlıqla, buna paralel olaraq nisbi atom kütləsi də artım göstərir. Cədvəldəki üfüqi sıralar dövri cədvəl olaraq adlandırılır. Bir elementin dövri cədvəl nömrəsi, o elementin sahib olduğu elektronların olduğu ən yüksək enerji səviyyəsini göstərir.

Dövri cədvəl indi kimya elminin (təbiət elmləri də demək olar) hüdudlarında hər yerdə işlədilir. Kimyəvi elementlərin dövri cədvəlindən istifadə edərək, hər element haqqında müəyyən məlumatlar əldə edə bilərik. Məsələn, 1 kiloqramlıq bir karbon blokunda neçə karbon atomu olduğunu təyin etmək üçün, karbon atomunun nisbi atom kütləsini istifadə etməmiz kifayətdir.

Nisbi Atom Kütləsi: Bir elementin atom kütlə vahidi (Atomic Mass Units: amu) cinsindən ortalama kütləsini ifadə edir. Bu rəqəm, sıxlıqla elementin izotopların da ortalama kütləsini ifadə

etdiyi üçün, onluqlu bir sayıdır. Bir elementin nisbi atom kütləsindən atom nömrəsinin (proton sayının) çıxarılması ilə, o elementin neytron sayı tapıla bilər.

Atom Nömrəsi: Bir atomda olan proton sayı, elementi müəyyənləşdirir və atom nömrəsi olaraq adlandırılar. Atomda olan proton sayı eyni zamanda, elementin kimyəvi xarakteri haqqında da məlumat verir.

Elektron Düzülüşü: Xəbərdar edilməmiş bir atomdakı elektronların mövqelərini göstərir. Kimyaçılar, təməl fizika məlumatlarına əsaslanaraq, atomların elektron düzülüşlərinə görə necə hərəkət edə biləcəkləri mövzusunda fikir söyləyə bilərlər. Elektron düzülüşü, bir atomun dayanıqlılıq, qaynama nöqtəsi və keçiricilik kimi xüsusiyyətləri haqqında məlumat verir. Atomların son enerji səviyyələrinə (ən xarici orbitlərinə) “valentlik səviyyəsi”, burada olan elektronlara da “valent elektronlar” adı verilir. Kimyəvi reaksiyalarda birinci dərəcədə əhəmiyyət daşıyan elektronlar, valent elektronlardır.

Bir elementin dövri cədvəldəki yerinə baxaraq, o elementin elektron düzülüşü də müəyyən oluna bilər. Eyni qrupda (şaquli sırada) olan elementlərin elektron düzülüşləri böyük bənzərlik göstərir və bu səbəblə də kimyəvi reaksiyalarda bənzər şəkildə davranırlar.

Qrup elementlərin şaquli sütunda yerləşməsidir. Qruplar elementlərin sistemləşdirilməsində çox böyük rol oynayır. Bir çox qruplarda elementlərin oxşar xassələri var. Qruplara qeyri-elmi adlar da verilib; qələvi metallar, qələvi-torpaq metallar, hallogenlər, xalkogenlər, təsirsiz qazlar.

Standart dövri cədvəldə 18 qrup var.

Elelementlərin qruplarda yerləşmələrinin müasir izahı onların xarici energetik səviyyələrində eyni sayda atomun olmasıdır. Qrupların nömrələnməsində ərəb və rum rəqəmlərindən istifadə edirlər.

Dövri cədvəlin qrupları aşağıdakılardır:

Qrup 1-Qələvi metallar və ya Litium ailəsi
Qrup 2-Qələvi torpaq metallar və ya Berillium ailəsi
Qrup 3-Skandium ailəsi
Qrup 4-Titan ailəs
Qrup 5-Vanadium ailəsi
Qrup 6-Xrom ailəsi
Qrup 7-Manqan ailəsi
Qrup 8-Dəmir ailəsi
Qrup 9-Kobalt ailəsi
Qrup 10-Nikel ailəsi
Qrup 11-Mis ailəsi
Qrup 12-Sink ailəsi
Qrup 13-Bor ailəsi
Qrup 14-Karbon ailəsi
Qrup 15-Azot ailəsi
Qrup 16-Xalkogenlər və ya Oksigen ailəsi
Qrup 17-Hallogenlər və ya Flüor ailəsi

Qrup 18-Təsirsiz qazlar və ya Neon ailəsi

Dövr elementlərin üfüqi istiqamətdə dövri sistemdə yerləşməsidir.

Baxmayaraq ki, qrup - elementləri sistemləşdirməyin ən yaxşı üsuludur, bəzi hallarda dövrlərdə sistemləşdirmə də istifadə oluna bilər; xüsusilə d-, f- qrup elementlərin və aktinoid və lantanoidlərin sistemləşdirilməsində istifadə olunur.

Kimyəvi element — eyni cins atomlardan ibarət olan, fiziki və ya kimyəvi yollarla özündən daha sadə və fərqli maddələrə ayrıla bilməyən saf maddələrə element deyilir. Məsələn su bir element deyil. Lakin suyun elektrolizindən əldə edilən hidrogen və oksigen elementdirlər.

Elementi meydana gətirən bütün atomların böyüklükləri və atomların arasındakı uzaqlıq eynidir. Lakin bir elementin atomları ilə başqa bir elementin atomlarının böyüklükləri və atomları arasındakı məsafə fərqlidir. Eyni elementdən düzəldilən fərqli maddələr də eyni cins atomlardan meydana gəlirlər. Elementi meydana gətirən atomların bir-birinə olan uzaqlığı elementin qatı, maye və qaz halına görə dəyişə bilər. Canlı və cansız varlıqların hamısı elementlərdən meydana gəlirlər.

Kimyəvi element nüvəsinin yükü eyni olan atom növüdür. Kimyəvi elementlər bir-biri ilə birləşərək bizi əhatə edən aləmin bütün mürəkkəb maddələrini əmələ gətirirlər. Hər bir kimyəvi element nüvəsində eyni sayda elektrik yükü və atom örtüyündə eyni sayda elektron olan atomlardan ibarətdir. Atom kimyəvi elementin bütün xassələrini özündə saxlayan ən kiçik hissəcikdir və bütün maddələrin ilkin materialıdır. Atom müsbət yüklü nüvədən və onun ətrafında hərəkət edən mənfi yüklü elektronlardan ibarətdir. Atomların nüvəsi isə proton və neytronlardan təşkil olunmuşdur. Proton müsbət yüklü, neytron isə yüksüz zərrəcikdir. Dövri sistemdə elementin sıra nömrəsi protonların sayını, kütlə ədədi isə nuklonların sayını göstərir. Proton və neytron birlikdə nuklon adlanır.

Dövri sistem cədvəlini 1 mart 1869-cu ildə rus alimi D.İ. Mendeleyev tərtib etmişdir. Həmin cədvəldə cəmi 63 element mövcud idi. Mendeleyev elementləri atom kütlələrinin artması sırası ilə yerləşdirərək dövri qanunu belə ifadə etmişdir: Kimyəvi elementlərin və onların əmələ gətirdiyi kimyəvi birləşmələrin forma və xassələri atom kütlələrinin artmasından dövri surətdə asılıdır. Mendeleyev bəzi hallarda bu qanundan kənara çıxaraq elementlərin cədvəldə yerini onların atom kütlələrinin artması ardıcıllığına deyil, xassələrinin qanunauyğun dəyişməsinə görə müəyyən etmişdir.

Daha sonra 1913-cü ildə ingilis alimi Mozli müəyyən etmişdir ki, elementlərin xassələri onların atom kütlələrinin artması ilə deyil, nüvələrinin yükü ilə bilavasitə müəyyən olunur. Dövri qanunun müasir ifadəsi belədir: Kimyəvi elementlərin və onların əmələ gətirdiyi birləşmələrin forma və xassələri atom yükündən dövri surətdə asılıdır.

Bəzi kimyəvi elementlər yer qabığında geniş yayılmışdır. Elementlərin yer qabığında yayılması miqdarının tədqiqi ilə ilk dəfə amerika alimi Klark məşğul olmuşdur. O, 50-yə qədər elementin yer qabığında yayılmasını faizlə hesablamışdır. Elementlərin yer qabığında yayılma xarakteri və qanunauyğunluqları ilə geokimya elmi məşğul olur. Yer qabığında ən geniş yayılmış element oksigendir və kütləcə yarısını təkcə o təşkil edir. Ümumiyyətlə yer qabığında ən çox yayılmış elementlər bunlardır: O - 49,1%, Si - 26,0%, Al - 7,5%, Fe - 4,2%, Ca - 3,2%, Na - 2,4%,

K - 2,3%, Mg - 2,3%, H - 1,0%, Ti - 0,9%. Kimyəvi elementlərin bir qrupu ümumi ad ilə "Nadir elementlər" adlandırılır. Nadir element dedikdə, yer qabığında miqdarı adi elementlərdən xeyli az olan və xassələrinin lazımi dərəcədə öyrənilməməsi ilə əlaqədar olaraq, tətbiqi məhdud çərçivədə olan elementlər nəzərdə tutulur: Li, Be, Ga, Ge, V, Se, Re, Rb, Sr, Sc, Kr, Nb, Te, Cs, İn, Hf, Ta, Y, Tl, La və lantanoidlər. Nadir elementlərin siyahısı sabit qalmayaraq tədricən dəyişir, yəni istehsalı və tətbiqi genişləndikcə onlar adi elementlər qrupuna keçir.

Elementlər metallar, qeyri-metallar və təsirsiz qazlar olmaqla üç əsas təsnifə bölünür. Dövri sistemdə yerləşən elementlər yuxarıdan aşağıya doğru qrupları, soldan sağa doğru isə dövrləri təşkil edir. Cədvəldə 7 dövr, 8 qrup var. Hidrogen atomu və ya qələvi metalla başlayıb, təsirsiz qazla qurtaran və nüvələrinin yükünün artması sırası ilə üfüqi vəziyyətdə düzülmüş elementlər ardıcıllığına dövr deyilir. Birinci üç dövr kiçik dövr, qalanları böyük dövr adlanır.

Kiçik dövrlər bir sıradan, böyük dövrlər isə iki sıradan ibarətdir. Dövrün nömrəsi bu dövrdə yerləşən elementlərin atomlarındakı energetik səviyyələrin sayına bərabərdir. Qruplar və dövrlər ayrılıqda müvafiq olaraq əsas və əlavə yarımqruplara, böyük və kiçik dövrlərə bölünür. Həm böyük, həm kiçik dövr elementlərindən təşkil olunmuş qrupa əsas yarımqrup (A qrupu) deyilir. Yalnız böyük dövr elementlərindən təşkil olunmuş qrupa isə, əlavə yarımqrup (B qrupu) deyilir.

**İstifadə edilmiş ədəbiyyatlar:**


1. V.M. Abbasov. Ümumi kimyanın əsasları. Bakı, 2000.
2. R.Əliyev Ümumi və Qeyri-üzvi kimya. Bakı, 1987.
3. Z.Ş. Qarayev. Qeyri-üzvi kimya Bakı, 1983.
4. İ.U. Lətifov. Kimya. Bakı, 1993.


## ƏQLİ GERİLİK VƏ ONUN ETİMOLOGİYASI. OLİQOFRENİK UŞAQLARIN XUSUSİYYƏTLƏRİ

*Tələbə: Həsənli Türkan Şahin qızı (qrup MQT1901B)*
*Elmi rəhbər: b/m. Quliyeva Ülviyyə İnqilab qızı*
*hesenliturkan19@gmail.com*

Defektologiyanın müstəqil sahəsi olan oliqofrenpedaqogika əqli və fiziki cəhətdən geri qalan anomal uşaqların təlim və tərbiyəsindən bəhs edən elm sahəsidir.

Əqli cəhətdən geri qalma baş beyin qabığının zədələnməsi nəticəsində əqli cəhətdən geri qalmanın başlıca səbəbi dərketmə fəaliyyətinin əsaslı şəkildə pozulmasıdır. Əqli cəhətdən geri qalma sadəcə olaraq “ağlın miqdarının azlığı” deyil, bu mərkəzi sinir sisteminin zədələnməsinin nəticəsində əmələ gəlmiş, bütünlükdə şəxsiyyətin, onun psixikasının keyfiyyətcə dəyişməsidir.

Bu zaman təkcə intellekt deyil, həm də emosiyalar, iradə, davranış, fiziki inkişaf da zərər çəkir. Əqli cəhətdən geri qalmış uşaqların patoloji inkişafının belə səciyyə daşıması onların ali sinir fəaliyyətinin xüsusiyyətlərindən irəli gəlir. Əqli cəhətdən geri qalanlar üçün idrak maraqlarının

inkişafdan qalması səciyyəvidir və bu da onların öz normal həmyaşıdlarına nisbətən dərketməyə daha az ehtiyac duymalarında əksini tapır.

Belə uşaqlar onları əhatə edən ətraf aləm haqqında qeyri-tam, əksər hallarda isə təhrif olunmuş təsəvvürə malik olurlar. Əqli cəhətdən inkişafdan qalma zamanı dərketmənin artıq ilk pilləsidə qavrama defekti olur. Əqli cəhətdən geri qalanlar üçün fəza və zaman anlayışlarının qavranılması xeyli çətin olur və onların ətraf aləmlə oriyentasiya olunmasında maneçilik törədir. Tez-tez belə uşaqlar sağ və sol tərəfləri ayırd edə bilmirlər. Bir çox hallarda məktəb binasında yeməkxananı, öz siniflərini tapa bilmirlər. Belə uşaqlar normal həmyaşıdlarından rəngləri bir-birindən xeyli gec ayırmağa başlayırlar. Rənglərin çalarlarını ayırmaq onlar üçün xüsusi çətinlik törədir. Belə qavrama təfəkkürlə ayrılmaz surətdə bağlıdır. Əşyaların təhlilini onlar sistemsiz aparır, yalnız daha çox gözə çarpan hissələri ayıraraq bir sıra mühüm xassələri unudurlar. Belə təhlil nəticəsində onların əşyanın hissələri arasında əlaqələri təyin etməkdə çətinlik çəkirlər.

Əqli cəhətdən geri qalan uşaqlarda iradi yaddasaxlama gec formalaşır. Qavramanın yetkin olmaması, yaddasaxlamadan istifadə etməyi bacarmamaları, hər hansı bir məsələni xəyalda canlandırma zamanı xəstə uşaqlar səhvlərə yol verirlər.

Əqli cəhətdən geri qalmışlarda vasitəli, mənalı yaddaş zəif inkişaf edir. Yaddaşın unutqanlıq xüsusiyyəti sinir sisteminin çox yorulması ilə bağlıdır. Belə uşaqlarda təxəyyül-fraqmentliliyi, semantikliyi ilə seçilir. Belə uşaqların həyat təcrübəsi məhdud təfəkkür əməliyyatları təkmilləşməmiş, təxəyyülün formalaşması arzu olunmayan əsasda gedir.

Belə uşaqlarda diqqət çatışmamazlıqları nəzər diqqəti cəlb edir. Diqqətin sabitsizliyi, onların paylanmasının çətinliyi, keçirilmənin ləngiməsi daha qabarıq surətdə özünü göstərir. Bu onunla bağlıdır ki, əqli cəhətdən geri qalmış uşaqlarda çətinliklər yarandıqda onları dəf etməyə cəhd göstərmirlər. Belə uşaqlarda emosiyaların inkişafdan qalması, təəssüratın çalarlarının olmaması müşahidə olunur.

Onların fəaliyyətində tez-tez təqlidetmə və impulsiv hərəkətlər müşahidə olunur. Onlara verilmiş tələblərin gücləri daxilində olmaması ucbatından bəzi uşaqlarda neqativizmi, inadkarlığı inkişaf etdirir. Əqli cəhətdən geri qalmışlar alınan nəticələri onların qarşısına qoyulmuş tapşırıqla əlaqələndirə bilmədiklərindən onun həllini düzgün qiymətləndirməyi də bacarmırlar. Bu uşaqların öz işlərinə qeyri-tənqidi münasibətləri də onların fəaliyyət xüsusiyyətləri ilə əlaqədardır.

Əqli cəhətdən geri qalmışların dərketmə və emosional-iradi proseslərinin ən səciyyəvi xüsusiyyətləri aşağıdakılardır: Ali sinir fəaliyyətinin pozğunluğu, psixi proseslərin inkişafdan qalması əqli cəhətdən geri qalmışların şəxsiyyətinin bir sıra xüsusiyyətlərinin səbəbləridir.

Belə xəstə uşaqlarda bütün fəaliyyətin aktivliyi aşağıdır. Şəxsiyyətin bu xüsu- siyyətləri həmyaşıdları və böyüklərlə düzgün münasibətlərin formalaşmasını çətinləşdirir. Əqli cəhətdən geri qalmış uşaqların psixi fəaliyyətinin qeyd olunmuş xüsusiyyətləri inkişafın müxtəlif mərhələlərində zədələnmələrin (genetik, bətndaxili, doğuş zamanı və s.) nəticəsi olduğundan davamlı xarakter daşıyır.

Oliqofreniya – ruhi xəstəlik yox, pataloji haldır və özünü normal psixi və fiziki proseslərin pozulması ilə büruzə verir.Belə insanlarda real varlığın dəyişmiş formada qavranılması, əhval-ruhiyyənin dəyişilməsi və s. əlamətlər müşahidə olunur.

Oliqofren uşaqlar haqqında elmi təsəvvürlər dedikdə, bu patoloji halın təsir göstərdiyi sahələrdə: intellektual inkişafda, emosianal iradi sferada və şəxsiyyət aləmində yaranmış pozuntuların nəticələri və onun mənşəyi nəzərdə tutulur. Daha sonra isə uşağın yaşadığı şərait, insanların ona münasibəti, sosial amillər xəstəliyin gedişinə inkişafetdirici və ya ləngidici təsir göstərə bilir. Məhz bu ləngidici təsirlər psixologiyada məqsədyönlü təsirlər kimi qiymətləndirilir.

İrsi mənşəli xəstəliklərinin qarşısının alınması çətin və mürəkkəbdir. Oliqofreniya əsasən cinsi xromosomların genetik pozulması çatışmazlığı nəticəsində yaranır. Həmçinin tədqiqatlar göstərir ki, xəstəlik inkişaf vaxtından asılı olaraq hər bir inkişafın gedişinə təsir göstərir, digər halda isə psixi gerilənmənin mürəkkəb formasını, oliqofreniyanı yaradır. Müxtəlif inkişaf dinamikasına malik olan psixi geriliyin 2 variantını müəyyən edirlər:

1. Psixi gerilik
2. Oliqofreniya

Əqli cəhətdən geri qalmış uşaq dedikdə baş beynin orqanik təsirlər nəticəsində dərketmə prosesləri pozulmuş uşaqlar nəzərdə tutulur. Bu uşaqların əqli geriliyinin səviyyəsini müəyyən edilməsi xeyli çətinlik törədir. Çünki onlar ali əsəb fəaliyyətinin pozulması ilə səciyyələnən geriliyə malik olurlar. Lakin xüsusi eksperimental psixoloji yollarla onları digərlərindən fərqləndirmək, geri qalmanın səbəblərini aydınlaşdırmaq, və bu qüsurları tezliklə aradan qaldırmaq mümkündür. Belə nəticə isə iki mütəxəssis tərəfindən müəyyənləşdirilə bilər: həkim psixonevroloq - patopsixoloq və ya pedaqoq - defektoloq.

Müayinəyə əsasən birinci uşağın mərkəzi əsəb sistemi, ikinci isə dərketmə fəaliyyəti haqqında qərar çıxarılır. Beləliklə, psixi geriliyin səviyyəsi bununla aparılacaq pedaqoji - psixoloji işin yolları müəyyənləşdirilir.

Psixi cəhətdən geri qalmış və oliqofren anlayışlar bir-birilə sıx bağlıdır. Belə ki, bütün uşaqlarda psixi cəhətdən geri qalma heç də həmişə oliqofreniya ilə nəticələnmir. Hansı ki, onun izahı bir çox psixoloqlar tərəfindən verilmişdir.

Uşaqlarda yaranan qüsurların səbəblərindən biri də irsilikdir. Qohumluq əlaqələri olan ailələrdə də xəstə uşaqlar doğulur. Spirtli içki içən ata və ananın, eləcə də, narkomaniya ilə məşğul olan valideynlərin övladlarında, həmçinin müxtəlif zəhərlənmələrin və zədələnmələrin nəticəsində də uşaqlarda qüsur yarana bilir. Buna səbəb həmçinin – uşaq yaşında keçirilmiş yoluxucu xəstəliklər (epidemik, meningit, skarlatina, qrip, sarılıq və s.) və müxtəlif zədələr də təsir edir.

Xəstəliyi doğuran digər səbəb – ananın özündə olan müxtəlif xəstəliklər: ürək-damar çatışmazlığı, qara ciyər, böyrək xəstəlikləri, uşaq ilə ananın qanının düz gəlməmsi və s.

Uşağın bətn daxili beyninin inkişafını pozan səbəblərdən biri də xroniki oksigen çatışmamazlığıdır. Doğuş zamanı alınan zədələr, boğulmalar hal-hazırda oliqofreniyaya səbəb olan faktorlar hesab edilmir. Ümumiyyətlə, ağıl çatışmamazlığına səbəb olan ən qorxulu dövr hamiləliyin ilk üç ayıdır. Çünki bu vaxt beyin sistemlərinin intensiv formalaşması dövrü hesab olunur. Erkən uşaqlıq (1-3) dövründə beyin sistemlərinin zədələnməsi nəticəsində müşahidə olunan oliqofreniya – dizenteriya, qızılca, minengit, ensefalit xəstəliyi nəticəsində baş verir. Əlbəttə, oliqofreniyanın inkişafına beyin xəstəlikləri ilə yanaşı, kəllə sümüyünün və beyin zədələnməsini

də aid etmək olar. Xəstəliyin ilkin əlamətləri kimi uşağın çox ağlaması, göyərməsi və ağlayarkən dodağın, əllərin əsməsini, boyunun düz durmamasını göstərmək olar.

Bundan əlavə ananın hamilə vaxtı toksikoz keçirməsi, çox həyəcanlanması, qida rejimi, istirahət və hava rejimindən düzgün istifadə etməməsi də müəyyən çatışmamazlıqlar yarada bilər.

Ağıldan kəmliyin mahiyyəti – baş beyin qabığında və onurğa beyində iltihabın baş verməsi şəklində başa düşülməlidir. Beyin qabığına yoluxucu mikrobun düşmə şəraiti heç bir xəstəlik baş vermədən inkişaf funksiyasının zəifləməsminə başlayır. Beyin xəstəliklərindən biri olan minengit zamanı baş beyin qişalarının zədələnməsini göstərən əlamətlərə rast gəlinir – yüksək hərəkət, baş ağrısı, ürək bulanması, görmə və eşitmə qıcıqlarında həssaslıq yüksək dərəcədə artır.

Yoluxucu minengitə adətən 3-5 yaşlı uşaqlarda rast gəlinir. Xəstəlik qış-yaz aylarında daha çox müşahidə olunur. Xəstəlik əksər hallarda xəstə insanlardan və çirkli əşyalardan keçə bilər. Xəstəlik çox şiddətli surətdə – yüksək temperaturdan ($40^0$) başlayır. Dərhal baş ağrısı, qusma və özündəngetmə halları baş verir. (Bundan başqa xəstəliyə bir sıra səbəblər – soyuq su içmək, başını yuyub çölə çıxmaq (qış aylarında) çimib su içmək və qripdən aslajenni vermək bu xəstəliyin də yaranmasına səbəb ola bilər.)

Bu zaman uşaqlarda şüuru itirmə, sayıqlama, yuxusuzluq və digər hallar özünü büruzə verir. Ağıldan kəmliyin yaranmasına şərait yaradan xəstəliklərdən biri də “Ensefalit”dir. Ensefalitin hərfi mənası “beyin” deməkdir. Ensefalit yoluxucu xəstəlik olub, xəstəlik törədən mikrobların beyin toxumalarına daxil olması sayəsində baş verir.

Ensefalit beyin toxumalarına müəyyən virusların düşməsi nəticəsində baş verirsə, bu ilk ensefalitdir, başqa gərgin xəstəliklərlə – qrip, tif, çiçək, revmatizmlə əlaqədar baş verirsə, bu 2-ci ensefalit adlanır. Ensefalit kəskin və xroniki göstəricilərə malikdir. Xəstəlik eyni zamanda, məsələn qida zəhərlənmələri, bəzi hallarda isə zədələnmədən də baş verə bilər. Ensefalitin gedişi çox kəskindir. Və ümumi göstəriciləri aşağıdakılardır: psixikanın dəyişilməsi, əzginlik, yüksək yorğunluq və s. Belə xəstələr gecə və gündüz şəraitdən asılı olmayaraq harda gəldi yuxulayırlar. Bəzən uzun müddət davam edən qeyri normal hallar – ağlamaq, gülmək, təlxəklik kimi yersiz hərəkətlər də müşahidə olunur. Qeyd olunan cəhətləri aradan qaldırmaq və müalicə etmək mümkündür.

Müalicə antibiotiklərin, dezintoksikasion preparatların (homodez, qlikoza, vitamin C, poliqlikon və s.) tətbiqi ilə aparılır.

“Ensefalapatiya”da baş beyin xəstəliklərindən olub, baş-beyin zədələnməsi, yoluxucu xəstəliklərlə xəstələnmə sayəsində baş verir. Ensefalopatiyaya bir neçə ay, yaxud bir neçə il əvvəl beyin zədələnməsi və ya silkələnməsi sayəsində sinir sistemi xəstələnən şəxsləri misal göstərmək olar. Ensefalopatiyanın ümumi göstəriciləri bunlardır: baş beyin ağrıları, baş gicəllənməsi, həddən artıq həssaslıq, həyəcanlı yuxu, hafizənin zədələnməsi və s. Xəstəliyin müalicəsi onun əlamətlərinə əsasən aparılır: sinir sistemini aşağı salan dərmanlardan, psixoterapiyapdan, bəzi hallarda uzun müddətli yuxudan istifadə etməklə müalicə olunur.

“Epilepsiya” da uşaqları ağıl kəmliyinə gətirib çıxaran xəstəlikdir. Epilepsiya psixi sinir xəstəliyi olub, müəyyən dövrlərdə təkrar olan özündəngetmələrdə, xarakterin psixi pozğunluğunda, bəzi hallarda isə əqli qabiliyyətin azalmasında müşahidə olunur.

Uşaqlarda epilepsiyanı əmələ gətirən səbəblərdən biri də iltihabi xəstəliklər, 2-ci beyinin bu və ya digər dərəcədə zədələnməsi ilə əlaqədar baş verə bilər.

Epilepsiya əsasən özündən getmələrdə təzahür edir. Böyük titrəşməli, əsməcəli özündən getmələrdə şüurun itməsi, yıxılma, bədəndə qıcolmalar baş verməsi, dərinin göyərməsi, ağızın köpüklənməsi və sonrakı dərin yuxu ilə müşahidə olunur. Bəzən elə özündən getmə halları baş verir ki, burada heç də bütün mərhələlər təkrar olunmur.

Bəzən uşaqlarda belə hallar olur ki, uşaq tez-tez göz vurur, yaxud özünü o tərəf, bu tərəfə hərləyir. Bununla yanaşı bəzi xəstələrdə titrəşməli, əsməli özündən getmələrlə yanaşı, elə hallar da müşahidə edilir ki, bu vaxt xəstənin bütün hərəkətləri qeyri-şüurlu, avtomatik xarakter daşıyır. Özündəngetmə və belə dumanlı hal getdikdən sonra xəstə yadına heç nə sala bilmir.

Epilepslərin əhval-ruhiyyəsi adətən davamsız xarakter daşıyır. Çox vaxt əhvalın pozulması heç də səbəbdən asılı olmayıb, tamamilə başqa xarakter daşıyır. Əhvalın bu cür səbəbsiz dəyişməsinə disfariya deyilir. Epilepsiyanın gedişi müxtəlifdir. Xəstəliyin yüngül gedişi – psixikanın ciddi şəkildə pozulması, tək-tək hallarda gündüz, yaxud təkcə gecə tutmaları baş verir ki, bu da uşağın kütləvi məktəbdə təhsil almasına maneçilik törədir. Əqli fəaliyyətin azalması və az-az tutmalar zamanı uşağı yardımçı məktəbə göndərirlər. Belə uşaqlar (epilepsiyadan əziyyət çəkən) daim müəllim və həkimin nəzarəti altında olmalıdır. Uşağın vəziyyəti kəskinləşdikcə, yəni tutmaların sayı çoxaldıqda, onu psixonevroloji xəstəxananın müvafiq şöbəsinə göndərmək lazımdır.

“Şizofreniya” yunan sözü olub, hərfi mənası “ruhun parçalanması” deməkdir. Şizofreniya xəstəliyinə uşaq yaşlarında da rast gəlindiyini heç kəs inkar etmir. Xəstəliyin uşaqlarda yaşla əlaqədar xüsusiyyətlərini düzgün təhlil etmək üçün yaş dövrlərinə nəzər salmaq lazımdır.
1) uşaqlıq dövrü (9), yeniyetməlik dövrü (11-15), gənclik dövrü (16-18).

Əhali arasında xəstəliyin rast gəlinən bütün formalarının tədqicən ¼-i 18 yaşadək, 5% isə uşaqlıq dövründə (10 yşadək) təsadüf edilir. Qızlarda nisbətən oğlanlarda xəstəlik daha tez-tez baş verir. Uşaq yaşlarında rast gəlinən şizofreniyanın ən başlıca xüsusiyyətlərindən biri pozitiv əlamətlərin yaşa uyğun dəyişməsidir.Yəni bir sıra əlamətlərin daha parlaq nəzərə çarpması və bir sıra sindromların əsas etibarilə uşaqlarda təsadüf etməsidir.

Daun xəstəliyini ilk dəfə 1866-cı ildə ingilis həkimi Daun tərəfindən təsvir edilmişdir. Belə xəstələr özünəməxsus görkəmləri ilə diqqəti cəlb edirlər. Daun xəstəliyi oliqofreniyanın formalarından biri olub, uşağın əqli inkişafında qüsurla birlikdə özünəməxsus xarici görkəmində – kəllənin inkişaf etməməsi, yastı peysər, gözlərin çaş yerləşməsi, yarıaçıq ağız və formasını dəyişmiş qulaqlar kimi əlamətlərdə özünü büruzə verir. Xəstəliyin əksəriyyətində ürək-damar sistemində və digər daxili orqanlarında müxtəlif çatışmamazlıqlar: cinsiyyət orqanlarının və vəzilərinin inkişafından qalması, piylənmə, dərinin quruması, dırnaqların və saçların tez qırılması, baş tükünün erkən tökülməsi və s. əlamətlərə rast gəlinir.

Oliqofreniyanın növləri. Səfehlər (İdiotiya)

Mənşəyi: endogen- irsi, ekzogen-qarışıq amillər.

Cinsi xromosomlar, onların çatışmazlığı və qüsurları, sayının çox və ya az olması, maddələr mübadiləsinin pozulması ilə bağlı sinir sisteminin anomiyaları: Keçirilən infeksion xəstəliklər (qızılca, məxmərək və s.) doğuş travmaları.

– ağıldan kəmliyin daha ağır dərəcəsinə malik olan uşaqlardır. Belə uşaqlar nitqə yiyələnmir, başqasının nitqini də başa düşmürlər. Belə xəstə uşaqlarda nitq səslərdən və ya biri digərinə bağlı olmayan və aydın deyilməyən sözlərdən ibarətdir. Onlar özünəxidmət vərdişlərinə yiyələnə bilmir, hərəkətlərində ağır qüurlar olur.Onları işığı, parlaq rəngə, hərəkətdə olan obyektə və digər qıcıqlandırıcılara qarşı bəzi istiqamət seçmə reaksiyaları tərbiyə etmək mümkündür.

Səfeh uşaqlar daima nəzarət altında saxlamaq üçün onları xüsusi uşaq müəssisələrinə, yaxud psixopatiklər şöbəsinə göndərirlər. Səfeh uşaqların xarici görkəminə görə sakit, məzlum, yazıq görünmələrinə baxmayaraq onlar üçün aqresivlik xarakterikdir. Onlar bəzən olduqları yerdə yırğalanır, yuxarı və aşağı ətrafları ilə qəribə hərəkətlər edir, gözlənilmədən yaxınlıqdakı adamlara hücum çəkir, onları cırmaqlayır, dişləyir, yaxud özlərini ora-bura çırpır, zərər yetirirlər. Onlarda oliqofrenlərlə müqayisədə nevroloji, somatik pozunğular daha çoxdur.

İmbesinlər.

Mənşəyi: Endogen – irsi, ekzogen və qarışıq amillər.

Kliniki əlamət: Kəllə həcmcə kiçik, əllər kiçik, şəhadət barmaq qısa, çeçələ barmaq içəriyə doğru əyilmiş, bəzən isə bir barmaq çatmır.

Üzvi pozuntular: Ürəyin qüsuru, böyrək anomiliyası, cinsi pozuntular, duyğu analizatorunun qüsurları.

Nevroloji əlamətlər: Təsadüfi cəngolmalar, davranış pozuntuları, əzələ tonusunun artması

Emosional iradi sahəsində və idrak proseslərində dərin qüsurlar olan, müstəqil məqsədə yönəlmiş fəaliyyətə qabil olmayan uşaqlardır. İmbesin uşaqların nitqində,səslərin ifadə olunmasında çatışmamazlıqlar və hərəkəki davranışlarında müəyyən qüsurlar diqqəti cəlb edir.

Uzun müddətli məktəb təlimi sayəsində imbisil uşaqlar oxu texnikasına, yazı vərdişlərinə yiələnirlər, lakin yazı və oxu vərdişləri onların şəxsiyyət kimi inkişaf mənbəsinə çevrilmir. Əksər hallarda imbesil uşaqlar ictimai Təminat Nazirliyinin uşaq müəssisələrinə göndərilir və burada onlara müvafiq təlim-tərbiyə əsasında müalicə işləri aparılır. Bəzi yardımçı məktəblərin nəzdində imbesil uşaqlar xüsusi siniflər ayrılır ki, burada aparılan iş müəyyən həddə, proqrama tabe olmur.

İmbesil uşaqlar oliqofreniyanın orta dərəcəli forması olduğundan və səfeh uşaqlarla müqayisədə qismən əqli hərəkət imkanlarına malikdirlər. Onları özünəxidmət, məişət və sadə əl-əməyi vərdişlərinə alışdırmaq mümkündür (məs. etketlərin yapışdırılması, muəyyən əşyaların qablaşdırılması, təsərrüfatda əkin sahələrində işləmək və s.). İmbesil uşaqlarda mənfi xüsusiyyyət təlqinə qapılma vardır. Başqasının sözünə fikirləşmədən əməl etmək bu uşaqlar üçün xarakterikdir.

Oliqofreniyanın ən yüngül formasıdır. Psixiatriyada onun özünü də dərəcəsinə görə 3 növə ayırırlar: yüngül, orta və ağır. Bunları da yardımcı məktəblərdəki təlim-tərbiyə sistemi üzrə müəyyən qədər tərbiyə etmək mümkündür. Debil uşaqlar müntəzəm məktəb təliminə qabildirlər. Lakin onların ümum təhsil təlimi elementar xarakter daşıyır. Hadisələr arasındakı səbəb-nəticə asılılıqlarının dərk edilməsindən ibarət təlim materiallarının mənimsənilməsi debil uşaqlar üçün çətinlik törədir. Hesab məsələlərinin həllində, qrammatik qaydaların dərk edilməsində çətinlik

çəkmək bütün debil uşaqlar üçün səciyyəvi cəhətlərdir. Debillik anadangəlmə kəmağıllığın ən yüngül və geniş yayılmış formasıdır. Azərbaycan ərazisində bu formaya az hallarda rast gəlinir.

Beləliklə, oliqofren şagirdlərin kliniki xarakteristikasını nəzərdən keçirdikdə aydın olur ki, xəstəliyin səbəbləri müxtəlifdir. Hər bir xəstəlik isə özünəməxsus kliniki əlamətlərlə nəticələnir. Həmçinin onlar daxili orqanlarda və fiziki orqanlarda da fəsadlar törədir. Bütün bunlarla yanaşı, oliqofreniya xəstəliyi psixoloji xüsusiyyətlərlə də xarakterizə olunur, hansı ki, bu xüsusiyyətlərin öyrənilməsi onlar da təlim-tərbiyə işinin aparılması üçün olduqca vacibdir.

Əqli qüsurlu uşaqlar üçün nitq inkişafının gecikməsi xarakterikdir. Bu uşaqlar 2-3 yaşında tək-tək sözlərə 4-5 yaşında isə yalnız frazalı nitqə yiyələnməəyə başlayırlar. Əqli qüsurlu uşaqlarda isə həm ümumi, həm də nitq motorikasının inkişafı ləng diferensiallaşmadan keçir. Bu uşaqlarda səslərin artikulyasiyası prosesində nitq hərəkətlərinin qarışıqlığı, onların həcminin azlığı, əzələ tonusunun süstlüyü halları müşahidə olunur.

Əqli qüsurlu uşaqlarda analitik-sintetik fəaliyyətin ümumi inkişafdan qalması ilə bağlı bütün dil birləşmələri çox çətinliklə formalaşır, dilin bütün qanuna - uyğunluqları ləng qavranılır. Əqli qüsurlu uşaqlarda nitqin leksik və qrammatik tərəfləri də çox zəif inkişaf edir. Normal uşaqlardan fərqli olaraq bu uşaqlarda lüğət ehtiyatı çox aşağı səviyyədə olur.

Passiv aktiv lüğət arasında böyük fərq müşahidə olunur. Bu uşaqlarda aktiv lüğətin həcmi passivdən xeyli aşağı olur, kiçik məktəb yaşlı uşağın nitqi əsasən, isimlərdən, çox işlənən feillərdən ibarət olur. Az-az hallarda isə sifətə, zərfə rast gəlmək olur. Əqli qüsurlu uşaqların nitqinin qrammatik quruluşu olduqca qüsurlu olur. Nitqin morfoloji, sintaksis quruluşu, sözdüzəltmə və sözdəyişmə prosesi lazımi səviyyədə inkişaf etmir.

Şifahi nitqdə çoxlu səhvlərə yol verilir. Əqli qüsurlu uşaqlarda nitq pozğuntusu öz ifadəsinə görə olduqca müxtəlifdir. Nitq potologiyasının simptomatikası əqli qüsurluğun dərəcəsi ilə, nitq sisteminin lokal potologiyası ilə, nitqeşitmə və nitq hərəki analizatorun pozulması ilə müəyyən edilir. Bununla bağlı olaraq, müəlliflərdən çoxu əqli qüsurlu uçaqları iki qrupa bölürlər:

1. Nitq ümumi inkişafdan qalmış əqli qüsurlu uşaqlar;
2. Mürəkkəb nitq pozğuntusu olan atipik oliqofren əqli qüsurlu uşaqlar. İkinci qrup uşaqlarda qüsurluluqla bağlı nitqin inkişafdan qalmasından başqa spesifik nitq potologiyası mövcuddur.

Kiçik yaşlı məktəblilədin daxili nitqi lazımınca inkişaf etmir. Məlum olduğu kimi, hər cür əqli fəaliyyət özünün formalaşması prosesində bir neçə mərhələdən keçir. Birinci mərhələdə o, xarici vasitələrə əsaslanaraq həyata keçirilir. Əqli iş geniş xarici fəaliyyət formasında ifadə olunur. Xarici fəaliyyət öz əməliyyat tərkibinə görə maksimum inkişaf edir. İlk əqli iş xarici planda həyata keçirilir.

İkinci mərhələdə əqli iş şifahi nitqə əsaslanaraq yerinə yetirilir. Geniş təcrübi iş tədricən ixtisarlaşır. bu mərhələdə uşaq say əməliyyatını şifahi, əşyalarla işə əsaslanmadan yerinə yetirir. Üçüncü mərhələdə iş daha çox ixtisarlaşır və daxili əqli planda yerinə yetirilir. Əqli qüsurlu uşaqların praktik fəaliyyəti sadə və geniş xarakter daşıdığı zaman böyük çətinliklər aşkar olur. Sonrakı mərhələlərdə də bu çətinliklər aşkarlanır.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. S.Qasımov, E.Kərimova. Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası.

Bakı, 2004.
2.Xüsusi məktəblərdə ana dilinin tədrisi metodikası. Bakı, 2002.
3. Sağlamlığı məhdud olan uşaqlara ana dilinin öyrədilməsi problemləri. Bakı, 2003.
4. N.V. İsmayılov. Psixiatriya. Bakı, 1992.

## MÜƏLLİMLƏRİN PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ BACARIĞI

*Tələbə: Quliyeva Fazilə İlham qızı (qrup MQT1901B).*
*Elmi rəhbər: b/m. Cəfərova Sevil Rafiq qızı*
*fazilequliyeva@gmail.com*

“Məktəbəqədər təhsildə müasir pedoqoji texnologiyalar və innovasiyalar” elmi işi müəllimlərin peşə sənətində yeni təlim texnologiyalarından düzgün şəkildə istifadə bacarığına eyni zamanda şagirdlərə bu bacarıqları aşılayarkən müxtəlif metodlardan istifadəsinə həsr olunmuşdur. Ümumiyyətlə, təhsil prosesinin əsas siması müəllimdir. Müəllimin peşə qabiliyyətləri sırasında akademik, didaktik, ünsiyyət, konstruktiv, təşkilatçılıq və iradi-emosional qabiliyyətlər mühüm yer tutur. Pedaqoji qabiliyyətlər insana hazır verilmir; onları gündəlik fəaliyyətdə, gərgin əməklə qazanmaq olar. Pedaqoji texnologiya dedikdə, əvvəlcədən verilmiş xarakteristikalar üzrə kompüter təlimi üçün işlənib hazırlanmış optimal didaktik proseslər başa düşülür. Dərs vəsaitində məsələlərin açıqlanmasına da məhz bu nöqteyi-nəzərdən yanaşılmışdır.

Hazırkı dövrdə Azərbaycanın təhsil sistemində zəruri islahatın aparıldığı bir şəraitdə tədris proqramlarının təkmilləşdirilməsinə, yeni dərsliklərin yazılmasına böyük ehtiyac duyulur. Dünyada gedən qloballaşma və Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası təhsil sistemində yeni təlim texnologiyalarından, fəal və interaktiv təlim metodlarından, yeni texnologiyalardan istifadə edilməsini tələb edir.

Müəllimin pedaqoji səriştəliyində başlıca rol oynayan amillərdən biri onun pedaqoji texnikaya malik olması və bundan dərs, dərsdənkənar proseslərdə məharətlə istifadə edə bilməsidir. Müəllimin pedaqoji texnika elementlərinə yiyələnməsi uzunmüddətli bir prosesdir. Yəni bunun üçün müəllimin fəaliyyətində həm müəyyən müddət lazımdır, həm də bu müddətdə müəllimin pedaqoji fəaliyyətə yaradıcı yanaşması, onu sevməsi, onun sirrlərini öyrənməyə can atması lazımdır. Müəllimin sadəcə mövzunu şagirdlərə mənimsətməyə çalışması pedaqoji proses üçün kifayət deyildir. Şagirdlər müəllimin hər bir sözünə, hər bir hərəkətinə və davranışına, hər bir üz ifadəsinə qarşı çox həssasdırlar. Buna görə də pedaqoji fəaliyyətdə səriştəli olmaq müəllimin fənnini yaxşı B bilməsi və yaxşı öyrətməyə çalışması ilə məhdudlaşmır. Müəllim P özünün digər keyfiyyətləri ilə də öyrədəndir, tərbiyə edəndir.

Müəllimin pedaqoji texnikaya yiyələnməsi , ona malik olması B bu baxımdan zəruridir və faydalıdır.

Pedaqoji texnika müəllimin müxtəlif pedaqoji vəzifələri həll etməsinin mühüm və incə aləti olub, onun fəaliyyətinin məzmunu və ahəngdarlığını təmin edən üsulların məcmusudur. Pedaqoji texnikada ünsiyyət texnikası və müəllimin nitqi mühüm tərbiyə vasitəsi kimi əhəmiyyətli rol oynayır. Bunlara bir qədər aydınlıq gətirsək pedaqoji texnikaya müəllimin mənalı hərəkətlərini, səsin intonasiyasını, gülüşünü, mimikasını, pantomimikasını, sinifdəki hərəkətini və.s göstərmək olar.

Pedaqoji texnika bədən dili ilə sıx bağlıdır. Burada başın duruşu, üzün , əlin hərəkətləri, gözlər və baxışlar mühüm rol oynayır. Müəllimin gözləri sadəcə olaraq görmək vəzifəsini yerinə yetirən üzv deyil, həmçinin müəyyən hissləri anlada, şagirdlərə nəyi isə diktə edən bir üzv kimi də mənalı olmalıdır. Müəllim gözlərin ünsiyyət funksiyasını yaxşı başa düşməlidir. O, ifadəli baxışlardan ustalıqla istifadə edə bilməli və şagirdlərin də baxışlarının mahiyyətini və mənasını anlamalıdır. Baxışın sualına cavab almaq istəməsi, yaxud, dediklərinin müəllim tərəfindən necə qəbul edilməsi və ya dərsə yaxşı hazır olmaması və.s niyyətli olduğunu yaxşı bilməlidir.

Müəllimin əl-qol hərəkətləri də sözsüz təsirin əsas əlamətlərindəndir. Müəllimin hər hansı bir mövzunu tədris edərkən təsvir etdiyi obraza, hərəkətə, əşyaya uyğun olaraq əlinin hərəkət etdirirsə bu, şagirdlərdə mövzunu daha dərindən mənimsəməyə kömək edir. Onlar müəllimin sözlə təsvir- Mimika müəllimin əsas texnikalarında biridir. Şagird dərsə cavab verərkən, müəyyən müsahibədə iştirak edərkən müəllimin üzündəki ifadələr şagirdin müəllim tərəfindən necə qəbul olunduğunu əyani şəkildə ifadə edir. Müəllimin qaşlarını çatması, üzündəki sərt ifadə, sual dolu baxışı və ya üzündəki təbəssüm, razılıqla başını tərpətməsi şagirdlərə çox şeyi deyir. Həsas uşaq gözü nəinki bunları görür, onların mənasını da dərk edirlər. Şagirdlərin də mimikası belədir. Müəllim onların üz ifadələrindən şagirdin daxili vəziyyətini duymalı və onların düşüncələrini anlamağı bacarmalıdır.

Müəllim-xüsusi hazırlıq keçmiş və pedaqoji fəaliyyətlə peşəkarcasına məşğul olan insandır. Yalnız o, pedaqoji biliklərə müvafiq olaraq hərəkət etməyi bacarır, öz peşə borcunu keyfiyyətlə icra etmək üçün müəyyən olunmuş qaydada məsuliyyət daşıyır. Müəllim müəyyən bir sahədə bilikləri, əmək prosesində əldə edilmiş bacarıqları ötürən, həmçinin praktiki təcrübəni bölüşən mütəxəssisdir. Bu peşəyə sahib olan insanlar geniş dünyagörüşünə malik olmalı, səriştəli danışmağı bacarmalı, inandırmaq qabiliyyətinə və ünsiyyətçi istedadına malik olmalıdırlar.

Müəllimlik peşəsi insan fəaliyyətinin çox mürəkkəb növünə adiddir. Pedaqoji funksiya müəllimə peşə bilikləri və bacarıqlarını tətbiq etmək istiqamətini göstərməkdir. Pedaqoji fəaliyyətin başlıca istiqamətini şagirdlərin təlimi, təhsili, tərbiyəsi, inkişafı və formalaşması təşkil edir. Bu işlərin hər birində müəllim konkret işlər görür. O, özü bu başlıca funksiyanı nə qədər dərindən başa düşsə, öz şagirdlərinə bir o qədər müstəqillik, təşəbbüskarlıq verər.

Müəllimin ustalığı, hər şeydən əvvəl, tədris prosesini təşkil etmək bacarığındadır. Usta müəllim təlim prosesini fəallaşdırmaq üçün müxtəlif metodlardan istifadə etməklə şagirdləri düşünməyə məcbur etməyi bacarmalıdır.

Müəllimin vəzifəsi öyrənmə prosesinin özündə müsbət emosiyalar aşılamaq üçün yollar axtarıb tapmaqdır. Bunlar adi piryomlardır, iş metodlarını dəyişmək, müəllimin fəallığı, maraqlı

misallar, yerinə düşən iradlar və s. Bu priyomlar təkcə müvəqqəti müvəffəqiyyətlərə səbəb olmur, onlar müəllimə rəğbətin artmasına kömək edir fənnə maraq yaradır.

Pedaqoji ustalığın mahiyyəti- müəllimin şəxsi mədəniyyətində, biliyində, onun təlim və tərbiyənin pedaqoji texnikanın priyomlarına və qabaqcıl təcrübəyə yiyələnməsində, hərtərəfli nəzəri hazırlığnda özünü göstərir.

Yaxşı müəllim olmalıdır:

1. uşaqları sevmək;
2. pedaqoji təhsil bacarıqlarına malik olmaq;
3. müxtəlif yaşlarda olan uşaqların psixologiyasının xüsusiyyətləri haqqında təsəvvürə malik olmaq;
4. bir qrup uşaq və qrupdakı fərdi uşaqla əlaqə və anlaşma tapa bilmək;
5. tələbələrə qarşı diqqətli və mehriban olmaq, hər birinin şəxsiyyətinə hörmət etmək;
6. mövzunu bilmək, seçilmiş bilik sahəsində sərbəst hərəkət etmək;
7. elmin və yeni texnologiyaların inkişafını nəzərə almaqla erudisiyalı olmalı, biliklərinin sərhədlərini genişləndirməlidir;
8. bilikləri auditoriyaya çatdırmaq, onların nitq qabiliyyətlərini təkmilləşdirmək maraqlı və əlçatandır;
9. lider, nüfuzlu və dəyərli fikirlərin daşıyıcısı olmaq, tələbələrə yol göstərə bilmək;
10. yüksək səviyyədə intizam və məsuliyyətə malik olmaq;
11. özünə nəzarət və təmkinli olmaq;
12. qərar qəbul edərkən obyektiv və ədalətli olmaq;
13. çox yönlü maraqlara malik olmaq, özünü inkişaf etdirməklə məşğul olmaq;
14. müxtəlif fikirlərə və hərəkətlərə dözümlü və loyal, insanlara münasibətdə nəzakətli olmaq;
15. ailədə uşağın tərbiyəsinin xüsusiyyətlərini, onun əqli və fiziki inkişafını, istedadının, ərdişlərinin və meyllərinin olub-olmamasını nəzərə almaq;
16. müşahidəçi olmaq, uşaqların inkişafında perspektiv görmə qabiliyyətinə malik olmaq.

Müəllimin pedaqoji qabiliyyətləri

Pedaqoji qabliyyətlər müəllmi-şagird münasibətlərində müəllimin əqli, emosional – iradi cəhətlərini xarakterizə edir.

Müəllimin pedaqoji qabiliyyətləri əsasən yeddi qrupa ayrılır.

1. Təşkilatçılıq qabiliyyəti – müəllimin uşaqları birləşdirmək, onları məşğul etmək, vəzifələri bölüşdürmək, görülən işi yekuna vurmaq və.s bacarığında özünü göstərir.
2. Didaktik qabiliyyəti – tədris materilanın əyani vasitələr, avadanlığı seçmək və hazırlamaq, tədris materialını başa düşüələn şəkildə aydın, ifadəli, inandırıcı nəql etmək, idrak maraqlarını yüksəltmək

Perspetiv qabiliyyət- şagirdlərin daxili aləmini görmək bacarığında, onların emosional vəziyyətini obyektiv qiymətləndirməkdə, psixikasını xüsusiyyətlərini üzə çıxarmaqda özünü göstərir.

Kommunikativ qabiliyyəti- müəllimin şagirdlər, onların valideynləri, həmkarları, tədris müəssisəsinin rəhbərləri ilə pedaqoji cəhətdən məqsədyönlü münasibət qura bilməsində özünü göstərir.

Suqqestiv qabiliyyət – şagirdlərə emosional -iradi təsir göstərməkdən ibarətdir. Belə qabiliyyət nəticəsində müəllim şagirdə verdiyi hər hansı bir tələbin yerinə yetirilməsinə nail olur.

Suqqestiv qabiliyyətlər müəllimdə iradənin inkişafından, özünə qarşı dərin inamından asılıdır.

Tədqiqatçılıq qabiliyyəti - pedaqoji situasiyaları və prosesləri dərk etmək və obyektiv qiymətləndirmək bacarığında özünü göstərir.

Elmi-idarki qabiliyyət - seçdiyi sahə üzrə elmi bilikləri mənimsəmə qabiliyyətidir. Bu qabiliyyətlər içərisində aparıcı və köməkçi qabiliyyətlər vardır. Təşkilatçılıq və didaktik qabiliyyəti aparıcı qabiliyyətlərə aiddir. Qalanları isə köməkçi qabiliyyətlər hesab olunur. Müəllim üçün ən vacib keyfiyyət humanizmdir. “Humanizm” sözünün mənası, insanpərvər, insanları sevən deməkdir.

Humanist münsibətlər şagirdlərin şəxsiyyətinə maraqdan, onun vəziyyətinə şərik olmaqdan, firkinə hörmət etməkdən, tədris fəaliyyətinə yüksək tələbkarlıqdan, şəxsiyyətinin inkişafına qayğı göstərməkdən və.s ibarətdir.

İdeal pedaqoji keyfiyyətlərin üç qrupa ayrılması.

Pedaqoqun professional potensialının ümumi strukturu belədir; İntellektual motivasion, kommunikativ, sırf professional, yaradıcı komponentlər.

İdeal pedaqoq anlayışının öz mənası vardır. İdeal pedaqoq professional pedaqoqa nümunədir. İdeal pedaqoq - ən yüksək səviyyədə formalaşmış vətəndaşlıq, istehsalat və şəxsiyyət funksiyalarının daşıyıcısıdır. İdeal pedaqoqun keyfiyyətləri 3 qrupa ayrılır:

1. İdeal pedaqoq bir mütəxəssis kimi – öz işinin ustası, öz işinin bilicisi deməkdir.
2. İdeal pedaqoq bir işçi kimi – işgüzar, zəhmətkeş, daim fəaliyyətdə olan biridir.
3. İdeal pedaqoq bir insan kimi – xeyirxah bir insan, həm də vətəndaşdır.

Pedaqoji ünsiyyətin üslubundan aslı olaraq müəllimlər 3 tipə bölünür: fəal, az fəal, çox fəal

Fəal müəllim: ünsiyyətin təşkilində təşəbbüskardır, şagirdlərə əlaqələrini fərdiləşdirir, onun mövqeyi, xətti, topladığı təcrübəyə uyğun dəyişir, o nə istədiyini bilir və öz hərəkətlərində nəyin məqsədə nail olmağa kömək göstərdiyini başa düşür.

Az fəal müəllim: öz xəttində, mövqeyində çevikdir, amma daxilən zəifdir. Onun siniflə ünsiyyətinin xarakterini özü yox, şagirdlər diktə edir. Onun məqsədləri dağınıqdır və davranışında açıq-aşkar şəraitə uyğunlaşdırır.

Çox fəal müəllim: öz şagirdlərini yüksək qiymətləndirməyə və qeyri- real ünsiyyət modelləri qurmağa meyillidir. Ona görə əgər şagird başqalarına nisbətən fəaldırsa o çoxbilən, əgər passivdirsə tənbəldir. Belə müəllimin uydurduğu qiymətlər ona müvafiq olaraq hərəkət etməyə məcbur edir.

Azərbaycanda interaktiv metodlarla, yeni təlim texnologiyaları ilə işləyən müəllimlərin iş təcrübəsi demək olar ki,uğurlu alınır.

Müəllimin interaktiv metodlardan istifadəsi.

İnteraktiv metodlarla əlaqədar xarici təcrübədən əxz olunan istifadə edilən və əməli işdə tətbiq olunan bir sıra müxtəlif adlar və terminlərin işlədilməsinə diqqət yetirməyin zəruriliyi ortaya çıxır.

Nümunə üçün xarici təcrübədən əxz edilmiş və bəzi yenilikçi müəllimlər tərəfindən tətbiq edilməyə başlanılan interaktiv metodlara diqqət yetirək.

Rollu oyun uşaqların özlərinə rol təyin etdikləri, həmən rolu mənimsəyib canlandırdıqları bir oyun növüdür. Özünü başqa biri və ya başqa bir şey kimi göstərməkdir. Bu, nağıl qəhrəmanı kimi fərqli biri və ya ana rolu ola bilər. Uşaqlar bəzən real həyatda öz əksini tapmış, bəzən isə öz təxəyyüllərinin məhsulu olan rolları oynayırlar. Hər bir halda, reallığın bütün sərhədlərini qıran, təbii və eyni zamanda vacib oyun növüdür. Rollu oyun bir çox formada ola bilər və rola girmək sadəcə “oyun” kimi görünsə də, inkişafetdirici öyrənmə prosesinin əsas tərkib hissəsidir. Bu, təşviq edilməlidir və uşaqların bu prosesdə istirak etməsi üçün çoxlu imkanlar yaradılmasına ehtiyac var. Rollu oyun yeni situasiyaların qavranılması ücün yaxşı üsuldur: əgər ailə səyahətə hazırlaşırsa, bundan öncə bir neçə dəfə səyahət oyunu oynamaq lazımdır. Bu halda informasiya uşaq tərəfindən mənimsəniləcək və o, adi həyatda bu informasiyadan istifadə edəcək.

Rollu oyunun iki növü var – struklaşdırılmış və struklaşdırılmamış rollu oyun: Strukturlaşdırılmış oyunun əvvəlcədən müəyyən edilmiş quruluşu və gözlədiyiniz nəticəsi var. Valideyn və ya müəllim uşaqların oynaması üçün ssenari hazırlayır – məsələn, “hava limanı” qurur- və uşaqlar orada mövcud olan rolları seçir və sonra həmin ssenaridə yaranan problemlərlə oyunu davam etdirirlər. Struklaşdırılmamış oyun zamanı isə uşaqlar öz planlı ssenarilərini seçməkdə azaddırlar və tez-tez əllərində olanlara əsasən öz oyunlarını qururlar. Qonaq otağınızdakı divan bir pirat gəmisinə və ya bir ayaqqabı bağı baytarlıq otağında stetoskopa çevrilə bilər. Hər ikisinin problemləri və üstünlükləri var və ikisi də erkən uşaqlıq dövründə istifadə edilməlidir.

Debatlar şagirdləri həyəcanlandıran, xarakterli, mübahisəli mövzular üzrə planlaşdırılmış xüsusi dialoqdur. Debatların məqsədi öz mövqeyini, nöqteyi-nəzərini dəlil-sübutlu şəkildə, sakitcəsinə müdafiə etməyi şagirdlərə öyrətməkdir. İştirakçılar müzakirə olunan mövzunun “lehinə” və “əleyhinə” olan dəlilləri gətirməli və kompponentlərini öz mövqeyinin düzgün olduğuna inandırmağa çalışmalıdırlar. Debatların aparılmasının 2 forması mövcuddur: şifahi və yazılı.

Yazılı debatlar - tərəflər arasında yazılı dialoq formasıdır. Debatlar cütlüklər, ya da üç-dörd nəfərlik qruplar şəklində aparıla bilər. Debatlar A-4 (albom) və A-1 (vatman) vərəqlərində, xüsusi forma üzrəkeçirilir. Debatlar zamanı şagirdlər yalnız öz dəlillərini təqdim etmir, həm də digər tərəfin dəlillərinə cavab verirlər. Debatlar şagirdlərin müzakirə olunan məsələ ilə bağlı fikirlərini dərinləşdirir, onları diskussiya mədəniyyətinə alışdırır.

Tətbiq etmək qaydası.

1. Müəllim şagirdlərə debatların necə keçirildiyini izah edir: bir qrup mövzusunu təsdiq edir və öz mövqeyini sübuta yetirir, digəri isə həmin mövzunu təkzib edir və öz sübutlarını təqdim edir.
2. Şagirdlər debatın keçiriləcəyi mövzu ilə irəlicədən tanış olurlar.
3. Sinif ya cütlüklərə, ya da cüt saylı qruplara, məsələn, hərəsində üç şagird olmaqla 8, yaxud 10 qrupa bölünür.
4. Müəllim şagirdlərə sinif otağının hər iki tərəfi boyu düzülmüş stullara əyləşməyi təklif edir və püşkatma yolu ilə hər qrupun üzvlərinin hansı nöqteyi-nəzəri müdafiə edəcəklərini müəyyənləşdirir.
5. Sinif otağının hər iki tərəfində əyləşmiş qruplar iki-iki yazılı dialoqa başlayırlar. Birinci qrupdan olan şagirdlərə öz dəlilinin formalaşdırılması üçün 5 dəqiqə vaxt verilir. Həmin dəlil kağız vərəqinə

yazılır.
6. Sonra vərəqlər opponentlərə ötürülür və onlara öz tərəf-müqabillərinin dəlillərinə cavablarını formalaşdırmağa və yazmağa, eləcə də öz əks-dəlillərini şərh etməyə 8 dəqiqə vaxt ayrılır.
7. Bu cür mübadilə prosesi 2-3 dəfə təkrarlanır, özü də bu zaman hər şagird mütləq tərəf-müqabilinin dəlilinə cavab verməli və öz dəlilini də buraya əlavəetməlidir. Adətən 3-4 raund kifayət edir. Sonuncu raundda şagirdlərə nəticəni yazmaq imkanı verilir. Bundan sonra işlər yığılır yaxud təqdimatı keçirilir

Bu gün müstəqillik yolunda uğurla addımlayan Azərbaycanın təhsil quruculuğu sahəsində qazandığı nailiyyətlər aparılan ardıcıl və davamlı təhsil siyasətinin nəticəsi kimi meydana çıxmışdır. Cəmiyyət özünün ən çətin problemlərini həll etmək üçün özünə qayıtmalı, daxili aləmini, milli - mənəvi dünyasını təzələməli olur. İlk növbədə, insan resurslarının təkmilləşdirilməsi üçün potensial imkanlarını səfərbər edir. Gənc nəslin yetişdirilməsini, geniş mənada vətəndaş tərbiyəsini böyük uğurlarının bünöv rəsinə gətirir. Bununla mənəvi təkamülə nail ola bilir. Azərbaycanda təhsil islahatı uğurla həyata keçirilir.Təhsilin keyfiyyətinin yaxşılaşdırılması, cəmiyyət üçün inkişaf etmiş, beynəlxalq standartlara cavab verə biləcək şəxsiyyətin formalaşdırılması sosial - iqtisadi və mədəni inkişafın əsasını təşkil edir. Bu şəxsiyyəti yetişdirmək üçün ailə ilə yanaşı, müəllimlərin də üzərinə böyük məsuliyyət düşür. Pedaqoji təmayüllü müəssisələrdə isə bu, xüsusilə, diqqət mərkəzində olmalıdır. Bu gün qarşımızda duran əsas vəzifələrdən biri texniki tərəqqi dövründə yeni təhsil islahatından, Milli kurikulum və fəal təlimin üsul və vasitələrindən xəbərdar olan, İKT dən istifadə etməklə dərslərini quran müəllimlər hazırla maqdır.Təhsildə özülün möhkəm qoyulması nailiyyətlərin artmasına səbəb olur. Demək, təlimin, xüsusilə, ibtidai təlimin səmərəlilik dərəcəsinin artırılması başlıca şərt kimi daim diqqətdə olmalıdır.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. A. Mehrabov. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, 2007.
2. A. Mehrabov, E. Bəylərov Şagird intellektinin inkişafı. Bakı, 2006.
3. A. Nəzərov. Müasir təlim texnologiyaları ADPU. Bakı, 2012.
4. Ə. Ağayev. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2006.
5. M. Ağayev. Kiçik yaşlı məktəblilərin tərbiyəsi. Bakı, 2006.

## XƏSTƏLƏRƏ QULLUĞUN ƏHƏMİYYƏTİ

*Tələbə: Əmrahlı Zərifə Şəhliyalı qızı(qrup İBT1901B)*
*Elmi rəhbər: b/m. Əliyeva Hicran Nəsir qızı*
*zerifeemrahlı@gmail.com*

Xəstəliyin mahiyyətini başa düşmək uçun sağlam, normal həyatın nədən ibarət olduğunu müəyyən etmək lazımdır. Çünki xəstəlik bu həddən kənarda baş verir. Tibbi təcrübədə normal temperatur, normal çəki, normal təzyiq və s. ıfadələrdən istifadə olunur. Çoxlu sayda adamlarda təyin edilən həmin göstəricilərin orta rəqəmi normal kimi qəbul olunmuşdur. Normal, sağlamlıq

yaxın olsa da müxtəlif anlayışlardır, insan uçun sağlamlıq yalnız xəstəliklərin və fiziki qüsurların olmaması deyil, həm də onun tam fiziki, psixi, sosial sağlamlığı nəzərdə tutulur. Xəstəlik zədələnmiş orqanizmin pozulmuş funksiyalarının kompensasiyası prosesinin iştırakı ilə keçən həyatı deməkdir. Xəstəlik zamanı insanın əmək qabiliyyəti azalır, orqanizm uçun keyfiyyətcə yeni proses başlanır, xəstəlik hər şeydən əvvəl həyati proses olduğunu uçun təbiidir, xəstəlik zamanı da həyatın bütun əlamətləri vardır. Xəstəlik orqanizmin dəyişilmiş həyat fəaliyyətidir. Xəstə orqanizmin dəyişilmiş həyat fəaliyyətini patafiziologiya elmi öyrənir (yunanca patos iztirab, əzab loqos, təlim, elm deməkdir.

Hər bir xəstəliyin özünəməxsus əlamətləri-simptomları. Bir çox xəstəliklərin tez - tez rast gəlinən əlamətlərindən biri ağrıdır. Ağrı xəstəliyin muhum əlaməti olub, bədənin hər hansı zədələnmiş nahiyəsindən xəstənin beyin qabığına verilən orqanizmdəki narahatçılığın siqnaldır. Ağrı xoşagəlməz hissiyat olsa da diaqnozu muəyyləşdirməkdə həkimə komək edir. Xəstəliyin ən çox rast gəlinən digər əlamətlərinə zəiflik, qızdırma, öskürək və s. aiddir. Müəyyən bır xəstəlik uçun əsas olan daimi və xarakter əlamətlərin məcmusuna sindrom deyilir. Hələ eramızın əvvəllərindən başlayaraq xəstəliklərin təsnifatını verməyə cəhd göstərilmişdir. Hazırda UST-un 1975 – ci ildə Cenevrə konfransında qəbul etdiyi xəstəliklərin beynəlxalq təşkilatından istifadə olunur. Həmin təşkilata görə butun xəstəliklər 17 qrupa bolunür:

İnfeksıon və paraztar xəstəliklər;
Şişlər;
Endokrin sisteminin xəstəlikləri;
Qidalanmanın pozulması;
Qanın və qanqaraldıcı sistemin xəstəlikləri;
Psixi pozulmalar;
Sinir sisteminin və duyğu orqanlarının xəstəlikləri;
Qanın dövranı sisteminin xəstəlikləri;
Tənəffüs orqanlarının xəstəlikləri;
Həzm orqanının xəstəlikləri;
Sidik cinsiyyət sisteminin xəstəlikləri;
Hamiləliyin, doğuşun, zahılıq dövrunun xəstəlikləri;
Dərini dərialtı təbəqənin xəstəlikləri;
Sümük əzələ sisteminin və birləşdirici toxumanın xəstəllkləri;
Anadangəlmə anamiyalar;
Erkən uşaqlıq dovrunun xəstəliklari;
Aydın olmayan simptomlar və patoloji hallar;
Travmalar və zədələnmələr.

Xəstəliyin səbəbi elə amilə deyilir ki, o, xəstəliyi törətsin və ona spesifik əlamətlər versin. Patofizialogiyanın xəstəliklərin səbəblərini və yaranma şəraitlərini öyrənən hissəsinə etiologiya (yun -etia- səbəb ) deyilir. Xəstəliklərin ekzogen və endogen yəni, xarici və daxili səbəbləri ayırd edilir. Amma bu bölgü şərtidir. Çünki daxili amillər özləri də fərdin orqanizminə, onun valideyinlərinə və ya nə vaxtsa uzaq əcdadlarına (məs. irsi xəstəliklərə səbəb olan mutagen amillər) təsir göstərmiş ekzogen amillə əlaqədar olaraq formalaşır. Xəstəliklərin yaranma şəraitini də xarici və daxili amillər təşkil edirki, bunlar xəstəliyin inkişafını sürətləndirir və ya qarşısını alır. Məsələn,

xarici şərait amillərindən emosional gərginlik, soyuqdəymə, xroniki yorğunluq, keyfiyyətsiz qidalanma, zərərli vərdişlər ( alkaqol ,siqaret və s) xəstəyə pis qulluq xəstəliklərin törənməsinə və ya şiddətlənməsinə səbəb olursa, düzgün iş günü və qidalanma rejimi, idmanla məşğul olma xəstəliyin qarşısını alır. Eləcədə xəstəliyə qarşı meyillilik, diatezlər ( patoloji konstitusiya ) körpəlik və qocalıq dövrləri və s. xəstəliklərin əmələ gəlməsinə şərait yaradarsa, sağlam irsiyyət immunitet kimi daxili amillər bunun qarşısını alır.

3. Müalicə prosesinin ayrılmaz tərkib hissəsi olan xəstələrə qulluğun xəstələrin sağalmasında mühum rolu vardır. Xəstələrə pis qulluq, həkim təyinatına laqeyd münasibət xəstələrin sağalma prosesini ləngidir. Bəzən isə bir sıra ağırlaşmalara gətirib çıxarır. Xəstələrə xəstəxanada orta tibb işçiləri, evdə isə qohumları və tibb bacısı qulluq edir. Xəstələrə qulluq dedikdə aşağıdakılar nəzərdə tutulur.

1. Palatada və ya evdə sanitar gigiyenik şərait yaratmaq;
1. Rahat yataq düzəltmək və onu təmiz saxlamaq;
2. Xəstəni təmiz saxlamaq, bəzi vaxtlarda ona yardım etmək;
3. Həkim təyinatını yerinə yetirmək;
4. Xəstənin dindirilməsini təşkil etmək;
5. Mehriban soz və qayğıkeş münasibət göstərmək;

Xəstəni gecə gunduz müşahidə etmək, ondakı dəyişikliklərə fikir vermək qulluqla sıx əlaqədardır. Xəstəyə vaxtında düzgün diaqnoz qoyulduqda, yaxşı qulluq etdikdə və müalicəni duzgun apardıqda xəstə tezliklə sağalır. Xəstələrə qulluq etməyi bacarmaq və həkimlərin layiqli köməkçisi olmaq üçün tibb işçilərinin müəyyən dərəcədə tibbi biliyi olmalıdır. Tibbi biliklərdən başqa zahiri və daxili keyfiyyətləri –gigiyenik mədəniyyəti, mənəvi siması və davranışı gözəl olmalıdır. Xəstələr öz xəstəliyinin ağırlıq dərəcəsinə və xarakterinə gorə yataqdan dura, otura və gəzə bilirsə onun yataqdakı belə vəziyyətinə aktiv, özü hərəkət edə, çevrilə, başını yaxud qolunu qaldıra bilmirsə, belə vəziyyətə passiv vəziyyət deyilir. Xəstənin öz vəziyyətini yüngülləşdirmək üçün aldığı vəziyyətə məcburi vəziyyət deyilir.

Uzun müddət yataqda olan ağır və üzülmuş xəstələrdə dəri uzun müddət sümüklə xəstənin yatağı arasında sıxılan yerlərdə (ona kurək,daban, ənsə və s.) yataq yaraları əmələ gəlir . Buna səbəb dərinin sıxılması nəticəsində yerli qan dövranının, toxumalarının qidalanmasının pozulması və həmin toxumalarının nekrozudur. Həmin nahiyədə əvvəlcə dəri avazıyır, sonra qızarır, qızarmış nahiyədə odem, dəridə çuxurlar əmələ gəlir və bu da nekroza səbəb olur.

Yataq dəyişikləri təmiz, ağ olmalı və həftədə bir dəfə dəyişdirilməlidir. Ağır xəstələrin yatağındakı mələfələrdə qırışlar və tikişlər, balışlarda düyün və düymələr olmamalıdır, yataq dəyişəkləri təmiz, ağ olmalı və həftədə bir dəfə dəyişdirilməlidir. Yataq ağları müntəzəm qaydaya salınmalıdır. Xəstəlik insan orqanizminin bütun orqan və sistemlərinin fəaliyyətini pozur. Xəstəlik vəziyyətində olan orqanizm dəriyə olan tələbatını artırır ki, bununla əlaqədar olaraq xəstənin dərisini təmiz saxlamağın əhəmiyyəti daha da artır. Dərini piy və tər vəzilərinin ifrazatı, buynuzlaşmış pulcuqlar, mikroblar və toz çirkləndirir. Üzü, boyunu və gövdənin yuxarı hissəsini hər gün yumaq lazımdır. Əlləri səhər, yeməkdən əvvəl və sonra, ayaqları har axşam isti su və sabunla yumalıdırlar. Xastələrə pis qulluq yataq yaralarının əmələ gəlməsi uçun şərait yaradır. Yataq yaralarının əmələ gəlməsinə aşağıdakılar səbəb olur.

1. Narahat və nahamar, bərk yataq;

2. Yatağın gec - gec yığışdırılması;
3. Mələfə və köynəklərin zolaqları;
4. Dərinin çirklənməsi

Yataq yaralarının qarşısını almaq üçun aşağıdakı profilaktik tədbirlər görülməlidir. Hər 2 saatdan bir xəstəni böyürləri üstə çevirərək, həmin vəziyyətdə bir müddət saxlayırlar.

Xəstənin yatağı gündə 2-3 dəfə səliqəyə salınmalı, xəstənin alt paltarları təmiz və qırışsız olmalıdır.Yataq yarası tez tez təsadüf edilən nahiyələr hər gün ılıq su ilə yuyulur və 10% -li komfra spirti ilə silinir.Dərının qızarmış nahiyələri gündə 2-3 dəfə 5-10% -li kalium permanqanat məhıulu ilə silinir. Rezin dairələrdən istifadə etmək lazımdır, daban və dirsəklərin altına pambıq tənzif qoyulur. Xəstə insanın dərisindən başqa ağız boşluğuna, qulaqlara, gözlərə, buruna və başqa orqanlara ciddi fikir vermək va təmiz saxlamaq lazımdır.

Qidalanma canlı orqanizmin əsas fizioloji tələbatlarından biridir. İnsan qida ilə özünün normal həyat fəaliyyəti uçun lazım olan maddələri zülallar, yağlar, karbohidratlar, mineral, mineral elementlər və s. orqanizmdən çıxır. Üzvı maddələrin oksidləşmələrindən enerji ayrılır. 1 $q$ zülal parçalandıqda 4,1 $kkl$, 1$q$ karbohidrat - 4,1 $kkl$, 1 $q$ yağ - 9,3 $kkl$ enerji ayrılır. Müxtəlif cür qida qəbul edən sağlam insan sutkada orta hesabla təxminən 3000 $kkl$ alır. Bədən çəkisini artırmaq uçun yüksək kalorili, azaltmaq üçün azkalorili yeyinti məhsulları təyin edilir. Hər bir sağlam insan sutkada 150-160 $q$ zülal, 80 -100 $q$ yağ, 400-500 $q$ karbohidrat, 2-3 litr maye, 10 $q$ xörək duzu, həmçinin lazımı miqdarda mineral maddələr ($K, Ca, Fe, Zn , Cu$) və vitaminlər qəbul etməlidir.

Zülallar orqanizmin bütün toxumalarının əsas tərkib hissəsini təşkil edir, onlar amınturşulardan ibarətdir. Əsas zülal mənbəyi heyvan mənşəli qida məhsullarıdır, məsələn ət, balıq, kəsmik, yumurta. Bitki mənşəli məhsullarda da zülal vardır, lakın az miqdardadır. Bunlar paxlalı bitkilərdə, qoz - fındıqda nisbətən çoxdur. Yağlar mürəkkəb üzvi birləşmələrdir və mühüm enerji mənbəyidir. Bunlann bir hissəsi hüceyrənin enerji məsrəfinə gedir, bir hissəsi yağ depolarında ehtiyyat şəkildə toplanır və tələbat olduqca işlənir. Heyvani yağlara ət piyi ( mal piyi, quyruq yağı və s). süddən alınan yağ - kərə yağı və balıq yağı aiddir. Bitki yağları günəbaxanda, soyada, qarğıdalı,qozda olur. Böyük adamın yağlara gündəlik tələbatının 80-100 $q$-nın 20- 25 $q$-ı bitki yağı olmalıdır. Həddindən artıq yağ qəbulu piylənməyə səbəb olur. Uzun müddət bədəndə yağın miqdarını azaltmaq bədəni zəiflədə bilər. Karbohidratlar - orqanizmin enerji məsrəfini ödəyan əsas mənbədir. Şəkərdə, unda ondan hazirlanan məmulatlardan, tərəvəzdə, kartofda, dənli bitkilərdə olur. Müalicə qidası - xəstə adamın qida maddələrinə fizioloji tələbatını ödəyan və xəstəliyin gedişinə müalicəvi təsir göstərən qidalanma növüdür. Müxtəlif xəstəliklərin müalicəsi zamanı pəhrizlə müalicə təyin edilir. İnsan bədəninin temperaturunda fizioloji fərqlər mövcuddur. Qoltuq nahiyəsində 35,5-37$^{o}$C, uşaqlarda 37- 37,5$^{o}$C, qocalarda 35,5 -36,5$^{o}$C olur. Bədən temperaturu axşamlar səhərə nisbətən yüksək olur.

Bədən temperaturunu ölçmək üçün tibbi termomelrdən istifadə edilir. O kapilyar boru birləşdirilmiş şuşə rezervuardan ibarətdir. Kapilyar boru nazik və qalın divarlı olur. Şkala bəzən metal lövhəciyə yazılır, bəzən də qalın divarlı kapilyarın xarici səthində işarə edilir. Kapilyar borucuqda və rezervuarın aşağı hissəsinə civə doldurulmuşdur. Civə qızdırıldıqda onun həcmi genişlənir. Bunu şkalada qeyd edlrlər. Genişlənmlş civə yenidən rezervuara qayıda bilmir. Onun üçün termometri azca silkəliyirlər. Temperaturu çox vaxt qoltuqaltı çuxurda, bəzən xəstə, südəmər

uşaqlarda duz bağırsaqda, yaxud ağız boşluğunda olçürlər.Termometri silkələyib elə qoymaq lazımdır ki, onun rezervuarı (civə olan hissə) dəriyə hər tərəfdən toxunmuş olsun Qoltuqaltı nahiyədə 10 dəqiqə, boşluqlarda 5 dəqiqə saxlanılır. Arterial təzyiq əsas etibarilə ürəyin yığılmalarının qüvvəsindən və damarların tonusundan (gərginliyindən) asılıdır. Sağlam insan orqanizminində arterial təzyiq maksimal $110 - 120\ mm$ civə sütunu, minimal təzyiq $70 - 80\ mm$ civə sutununa bərabərdir. Arterial təzyiqi olçməzdən xəstə 10-15 dəqiqə dincəlməlidir. Xəstə oturmuş və uzanmış vəziyyətdə ölçülür. Onun qolunu paltardan çıxarmaq, qolunu stolun və ya çarpayının kənarına təqribən urək səviyyəsində qatlayıb qoyurlar, ovuc yuxarı baxır, əzələlər boş saxlanılır.

1. Manjeti bazunun üzərinə qoyurlar; o bir qədər boş olmalıdır ki, altından bır barmaq keçirmək mümkün olsun.
2. Nəbzi dirsək arteriyasında tutur, həmin yerə fonendoskop qoyub,qulaq asmalı.
3. Manjetə yavaş-yavaş hava vurub qulaq asırlar, səs gəlmədikdə civə sutununu bir daha 30-40 mm qaldırırlar, manjet arteriyanı tam sıxmış olar.
4. Balonun vintini yavaş- yavaş açıb havanı buraxırlar ki, civənin səviyyəsi birdən-birə düşməsin, eyni zamanda manjetdə təzyiq azalacaqdır.
5. Diqqətlə qulaq asırlar; manjetdəki təzyiq arteriyadakı qanın təzyiqindən azca aşağı olan kimi qan arteriyanın sıxılırmış hissəsindən keçməyə başlayacaq və ilk səslər-damar tonları əmələ gəlməyə başlayacaqdır.
6. Arteriyanın hər hansı dərəcədə sıxılmış olduğu müddətdə səslər eşidiləcəkdir.Əvvəlcə səs tonları, sonra küy və sonra bir daha tonlar eşidilir.
7. 2-3 dəqiqə fasilə verib, arterial təzyiqi yenə iki dəfə ölçməli və 3 dəfə alınan nəticələrdən orta rəqəm çıxarmalı. Ölçmələr arasındakı fasilədə manjeti çıxarmırlar, lakin onun havasını tamam buraxırlar.

**İstifadə edilmiş ədəbiyyatlar:**


5. A. Məmmədov “Tibbi biliklərin əsasları”. Bakı, 2012.
6. F. Hacıyev “Yaş fiziologiyası və məktəb gigiyenası”. Bakı, 1992.
7. S.C. ƏIiyev, H.M. Hacıyeva “Tibbi biliklərin əsasları”. Bakı, 2009.


## MÜƏLLİMLİK FƏALİYYƏTİNƏ VERİLƏN PSİXOLOJİ TƏLƏBLƏR


*Tələbə: Əliyeva Nuray Elşən qızı (qrup TSPX2001B)*
*Elmi rəhbər: m. Əlizadə AygünYaşar qızı*
*eliyevanuray@gmail.com*


Son illər müəllimlərin peşəkarlığı və səriştəliliyi tez-tez gündəmə gətirilir. Peşəkarlıqla səriştəliliyin müəllimdə cəmləşməsi onun pedaqoji ustalığının və müəllim novatorluğunun əsas əlamətləri kimi qeyd olunur. Təsadüfi deyil ki, 2013-cü ildə qəbul edilən, 2020-ci ilədək uzun bir dövrü nəzərdə tutan Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında da bu məsələ dönə-dönə vurğulanır və buna böyük əhəmiyyətverilir. Strategiyada deyilir: “Təhsilalanın

savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Peşəkarlıq və səriştəlilik müəllimin fəaliyyət strukturunun əsasını təşkil edir. Respublikamızın təhsil siyasətində əsas yerlərdən birini tutan bu problem müəllim hazırlığında və müəllimin peşəkar fəaliyyətində diqqət yetirilən məsələlərdən biridir. Bu keyfiyyətlərin tərbiyə olunması pedaqoji fəaliyyətin səmərəliliyini, şəxsiyyətyönümlülüyünü və nəticəyönümlülüyünü təmin edən amillərdən biri və birincisi kimi aktuallıq kəsb edir. Müəllimin peşəkar olması, səriştəliliyi müəllim peşəsini daha nüfuzlu, müəllim əməyini daha maraqlı, daha məzmunlu və daha səmərəli edir.

Son illər respublikamızda təhsilin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni informasiya-kommunikasiya və təlim texnologiyalarının tətbiqi, müəllimlərin ixtisas və peşəkarlıq səviyyələrinin artırılması sahəsində bir sıra uğurlu işlər görülmüş və görülməkdədir. Bunlarla yanaşı,“sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır”. Azərbaycan təhsilində səriştəli və peşəkar müəllimlərə, yeni texnologiyaları dərindən mənimsəyən, onlardan tədrisdə müvəffəqiyyətlə istifadə edən, innovasiyaları, yenilikləri özünün fəaliyyətinə tətbiq edən, məktəbə, öz peşəsinə bağlı olan, müəllimliyi özünün həyat kredosu hesab edən, sözün əsl mənasında onunla nəfəs alan müəllimlərə tələbat çoxdur.

Respublikamızda aparılan təhsil islahatları pedaqoji innovasiyalara geniş yol açmaqla yanaşı, Avropa təhsil standartlarına uyğun gələn yeniliklər aparmağı, innovasiyaları tətbiq etməyi zəruri edir. Müəllimlərin peşəkarlıq və səriştəlilik səviyyəsinin artırılması bu zəruriyyətdən irəli gələrək günümüzün prioritet vəzifələrindən birinə çevrilir. Dünyada baş verən pedaqoji yenilikləri mənimsəmək, onlardan istifadə etmək və yeniliklər yaratmaqla pedaqoji fəaliyyətin məzmununu dərinləşdirmək aktual problem olaraq təhsilimizin qarşısında durur.

Dünya təhsil sistemlərində mövcud olan pedaqoji yeniliklərin öyrənilməsi və tətbiq edilməsi, həmçinin, yaradıcı pedaqoqlar, müəllimlər tərəfindən yeniliklər yaratmaqla onların tətbiq edilməsi müəllimlərdən yaradıcı pedaqoji təfəkkür, təşəbbüskarlıq tələb etdiyindən onların peşəkarlıq və səriştəlilik səviyyələrinin artırılması, innovasiyaları öz fəaliyyətlərinə gətirmələri mühüm əhəmiyyətə malikdir. Müəllimlərin peşə və ixtisas hazırlığının təkmilləşdirilməsi, onların özlərinin yeniliyə maraq göstərməsi, daim öz peşə və ixtisas bilik, bacarıq və vərdişlərini artırması, özünütəhsil, özünütərbiyə və pedaqoji yaradıcılıqla məşğul olması onun peşəkar və səriştəli pedaqoq kimi formalaşmasının əsasında durur. Müəllim ali məktəbdə aldığı biliklərlə, yiyələndiyi metodika ilə kifayətlənməyərək və daim öz üzərində işləməklə peşəkar müəllim kimi formalaşa bilər. Müəllimin peşəkarlıq və səriştəlilik səviyyəsinin artması onun pedaqoji fəaliyyəti ilə birbaşa bağlı olan bir prosesdir. Bu hər şeydən əvvəl pedqoji fəaliyyətin özünün daim yeniliklərə tələbatının olması ilə bağlıdır. Pedaqoji fəaliyyət yenilik, innovasiya tələb edən bir işdir. Onun olmaması pedaqoji fəaliyyəti yeknəsək edir, onun cəlbediciliyini, rəngarəngliyini azaldır və şagirdlərin inkişafını ləngidir, müəllim fəaliyyətinin səmərəsini aşağı salır.

Cəmiyyətin inkişaf sürəti, şagirdlərin daha çox yeniliklərə meyl etməsi, məktəbdə aparılan təlim və tərbiyə işlərinin cəmiyyətin artan tələbləri ilə uzlaşdırılmasını tələb edir. Məktəb, dərs, müəllim şagirdləri özünə cəlb etməlidir. Şagirdlər hər gün bir yeniliklərlə qarşılaşacaqlarını, yeni biliklər əldə edəcəklərini səbrsizliklə gözləməli, məktəbə getməyə, müəllimlərlə ünsiyyətdə olmağa maraqlı olmalıdırlar. Bunu yaradan isə müəllimlərdir. O müəllimlər ki, onlar pedaqoji prosesin bütün incəliklərinə bələddirlər, şagirdlərlə işləməkdən nəinki yorulurmurlar həm də bu işdən zövq alırlar, məktəblə, dərslə, öyrətməklə yaşayırlar.Yüksək peşəkarlığa və səriştəliliyə malik olan belə müəllimlərin işi də, dərsləri də maraqlıdır, məzmunludur. Şagirdlər onları sevirlər, onlara hörmətlə yanaşır və dərslərinə həvəs göstərirlər. Bütün bunlar müəllimdən daim öz üzərində işləməyi, peşəkarlığını təkmilləşdirməyi tələb etməklə yanaşı, yaradıcılıq imkanlarını genişləndirməyi, yeniliklər axtarmağı da tələb edir. Peşəkar və səriştəli müəllim adını qazanmaq həm şərəfli, həm də çətin bir işdir. Buna nail olmaq təkcə "bu peşə üçün doğulanlar", müəllimliyə müəyyən mənada fitri qabiliyyəti, istedadı olanlara nəsib olmur. Daha çox öz peşəsinin zirvəsinə yüksəlmək üçün inadla çalışan, daim axtarışda olan, yeniliklər axtara-axtara özü də yenilikçi olan, yeni pedaqoji təfəkkürəyiyələnən müəllimlər belə bir adın sahibi ola bilirlər. Bu ad onları ucaltdığı kimi, onlar da müəllim adını müqəddəs tutur, onun nüfuzunu yüksəldir və ona maraq və məhəbbəti artırır.

Müəllim peşəsi peşə sahibinin şəxsiyyəti ilə bilavasitə vəhdət təşkil edən, biri digərini tamamlayan peşələr sırasına daxildir. Bəlkə də ikinci elə bir peşə yoxdur ki, onun sahibinin şəxsiyyəti ilə bu qədər əlaqəli, bağlı olmuş olsun. Müəllim elə bir saflıq, təmizlik rəmzidir ki, onun şəxsiyyətində özünü göstərən müəyyən çatışmazlıqlar dərhal nəzərə çarpır və qınaq obyektinə çevrilir. Buna görə də çətin ki, başqa elə bir peşə, sənət tapılsın ki, onun sahibinin şəxsiyyətinə bu qədər çox tələbkarlıq göstərilsin və tələb verilmiş olsun. Bu da səbəbsiz deyildir. Çünki, müəllim öyrədəndir, tərbiyəçidir, təbliğatçıdır, nümunədir. Bunlar müəllimin şəxsiyyəti ilə fəaliyyətini bilavasitə əlaqələndirən həm vəzifələr, həm də proses kimi kompleks haldamüəllim şəxsiyyətini xarakterizə edir.

Müəllimin öyrədici (təhsilverici) vəzifəsi, fəaliyyətinin mərkəzində dayanır və onun müəllimlik peşəkarlığını xarakterizə edir. Müəllim öyrədəndir və öyrədə- öyrədə özü də öyrənəndir.

Müasir dövrdə müəllim bir çox funksiyaları yerinə yetirir. Onun öyrətmək funksiyasının reallaşması peşəkarlığının səviyyəsini üzə çıxarmaqla yanaşı, özünütəqdim və özünütəsdiq kimi vəzifələri də yerinə yetirmiş olur.

Uşaqlar müəllimin biliyinə, öyrətmə bacarığına və səriştəliliyinə qarşı çox həssasdırlar. Burada üzə çıxan hər hansı bir səthilik, edilən səhlənkarlıq, buraxılan səhv şagirdlər tərəfindən çox tez duyulur və ona qarşı dərhal reaksiya verilir. Buna görə də hər bir müəllim, xüsusən yeni yaradıcılığa başlayan gənc müəllim buna daimfikir verməlidir. Müəllimin tədris etdiyi fənn üzrə öyrətmə bacarığı o zaman qaydasına düşə biləcəkdir ki, o, öz fənnini yaxşı bilsin. Əgər müəllim öz fənnini yaxşı bilmirsə nə qədər əlverişli olsa da heç bir yeni texnologiya, səmərəli metod bu nöqsanı aradan qaldıra bilməyəcəkdir. Bütün bunlar tələb edir ki, müəllim adını daşıyan hər bir insan həqiqətən də öz fənninin müəllimi olmalı, onu bütün incəliklərinə qədər öyrənməlidir.

Müəllimin öyrədici vəzifəsi onun didaktik qabiliyyətini reallaşdırmasıdır. Bildiklərini öyrədə bilmək, yəni didaktik qabiliyyət müəllimin əsas qabiliyyətlərindən olub, müasir dövrdə daha da aktuallıq kəsb edir. Müasir müəllim bələdçidir, istiqamət verəndir, öyrənməyin yollarını öyrədə biləndir, şagirdləri stimullaşdırmağı, onlarda öyrənmə motivlərini inkişaf etdirəndir.

İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdiyi müasir dövr bilik mənbələrinin şəbəkəsini xeyli genişləndirmişdir. Müəllimlər hazırda bir vaxt olduğu kimi yeganə bilik mənbəyi, biliklərin transformatoru deyildir. Şagirdlərin bilik aldıqları mənbələr o qədər inkişaf etmişdir ki, onların artan tələbatlarını ödəmək üçün müəllim daha çox çalışmalıdır. Müəllim öz üzərində işləməklə biliyini, metodikasını hər gün zənginləşdirməyə çalışmalıdır. O, biliklərin bələdçisi olub, şagirdərin özlərini yeni biliklər öyrənməyə istiqamətləndirməli, öyrənməyin yollarını öyrətməklə onların şəxsiyyətini inkişaf etdirməlidir. Görkəmli alman pedaqoqu, alman müəllimlərinin müəllimi hesab edilən A. Disterveqin “Pis müəllim həqiqəti təqdim edir, yaxşı müəllim isə onu tapmağın yollarını öyrədir” –kəlamını yaddan çıxarmamalıdır.

Müəllim həm də tərbiyəçi, tərbiyə verəndir. Bu onun ən əsas funksiyalarından biridir. Müəllimin tərbiyəvi təsiri çox güclüdür. Xüsusən ibtidai siniflərdə şagirdlər müəllimi qeyri-şərtsiz qəbul edir, onun bütün tapşırıqlarını yerinə yetirməyə çalışır və onun dediklərini ən düzgün, ən ağıllı hesab edirlər.

Müəllimin tərbiyəçilik vəzifəsi başlıca olaraq onun apardığı dərs prosesində, təlim zamanı reallaşır.

Dərs və bütövlükdə təlim prosesi tərbiyə imkanları ilə zəngindir. Müəllimin dərsin daxilindəki tərbiyəvi ünsürləri üzə çıxarıb şagirdlərə çatdırması bu prosesdə əsas yer tutur. Müəlim yeni mövzunun tədrisinə hazırlaşarkən bu hazırlıq içərisində dərsin tərbiyəvi funksiyasının reallaşdırılmasına xüsusi fikir verməli və onun şagirdlərə çatdırılmasına çalışmalıdır.

Ümumtəhsil məktəblərində tədris fənlərinin xarakteri elədir ki, hər bir dərsin özündə tərbiyəvi ünsürlər vardır. Lakin görkəmli rus pedaqoqu N.İ. Piroqovun belə bir fikrini yaddan çıxarmaq olmaz ki, bu ünsür çox zaman dərində olur və bəzən səthi, müşahidəçi üçün görünməz qalır. Bundan istifadə etməyən müəllim isə K.D.Uşinskinin dediyi kimi “Uşaqlar üzərində ən başlıca və gerçək təsir vasitələrini itirmiş olur”. Buna görə də müəllim dərsin bu cəhətini yaddan çıxarmamalı və onun tərbiyəvi imkanlarını nəzərdən qaçırmamalıdır. Lakin dərsin tərbiyəvi funksiyası təkcə onun məzmununda olan potensial imkanlarla məhdudlaşmır. Dərs, təlim prosesi özü-özlüyündə həm də tərbiyə prosesidir. Burada mövcud olan qaydalar, dərsin düzgün təşkili, aparılması, şagirdlərin dərs boyu fəaliyyətə cəlb edilməsi üsulları, müəllim-şagird münasibətləri, pedaqoji əməkdaşlıq, dərsdə müəllimin davranışı, onun şəxsi nüfuzu və nümunəsi, şagirdlərin nizam-intizamı, verilən tapşırığın məsuliyyətinin dərk edilməsi, tələblərin reallaşdırılması və s. amillər də tərbiyəyə güclü təsir göstərir. Buna görə də təlim prosesində müəllim həm də tərbiyəçilik funksiyasını reallaşdırır ki, bunun da səmərəliliyi onun peşəkarlığından və səriştəliliyindən çox asılıdır.

Müəllim həm də sinif rəhbəridir, dərsdənkənar tərbiyəvi işlərin bilavasitə təşkilatçısı və rəhbəridir.

Müəllim peşəsi onun şəxsiyyəti ilə həmahəng olan peşədir, sənətdir. Müəllim deyəndə uşağın da, böyüyündə ilk növbədə göz önünə gətirdiyi onun hərəkət və davranışı olur. Yəni, müəllimdirsə hərəkət və davranışında müəyyən ölçü vardır, yersiz hərəkət, yersiz davranış ona yaddır, sözlərində səmimidir, səliqəsi, geyimi, insanlarla qarşılıqlı münasibətləri müəyyən etik normalara uyğundur, biliklidir, hər şeydən xəbərdardır, bir sözlə, tərbiyəlilik nümunəsi, mənəviyyat etalonudur. Elə məhz buna görədir ki, müəllim adı, müəllimlik peşəsi bütün cəmiyyətlərdə ən nüfuzlu, ən hörmətli peşə, müəllim adı ən yüksək ad hesab olunur. "Mən müəllim adından yüksək ad tanımıram" - kəlamını deyən Böyük Öndər Heydər Əliyev məhz bunları nəzərdə tuturdu.

Fikrimizcə, müəllimi ilk növbədə yüksək mənəviyyata malik insan kimi xarakterizə etmək lazımdır.Mənəviyyat, mənəvi keyfiyyətlər müəllim üçün ən zəruri keyfiyytlərdən biridir. Müəllimin mənəvi keyfiyyətlərə malik olması həm də ondan tələb olunan keyfiyyətdir. Bunsuz nəinki müəllimdən, həm də müəllimlikdən, insanlıqdan, insan olmaqdan belə danışmaq əbəsdir.

Yüksək mənəviyyata, xalqın yaratdığı və yaşatdığı ədəb- ərkana malik olan, özünü əxlaqi sifətlərlə dolğunlaşdıran, kamillik zirvəsinə çatmaq üçün özünənəzarət edən, ağıllı hərəkət edən, müdrikliyi, müdrik adamların həyat yolunu özünə həyat kredosu seçən, yaxşılardan öyrənən, iradəsi gücünə daxilində baş verən ziddiyyətləri ağıllı surətdə həll edən və nəhayət, ağlı nəfsindən üstün olan müəllimlər həm də bir insan, bir şəxsiyyət kimi cəmiyyətdə dəyərləndirilir, hörmət qazanır. Mənəviyyat, mənəvi zənginlik insanın həmişə yaraşığı olub, onu insanlar içərisində hörmətli və izzətli edib.

Müəllimlərin səriştəliliyinin artırılması inkişaf etməkdə olan Azərbaycan təhsil siyasətində başlıca yerlərdən birini tutur. Səriştəlilik pedaqoji prosesin yüksək səviyyədə təşkili və aparılması, keyfiyyətli nəticələr əldə edilməsi üçün əsasdır. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında müəllimin peşə səriştəliliyinə xüsusi diqqət verilməsi də onun bu funksiyasından irəli gəlir.

Pedaqoji prosesə müxtəlif cür yanaşmaların olduğu indiki şəraitdə təhsilə səriştəli yanaşma şagirdlərin nəzəri və praktik bilik, bacarıq və vərdişlərə yiyələnmələrinin elə bir yoludur ki, bu zaman Y.A.Komenskinin dediyi kimi, öyrədənlər az öyrədir,öyrənənlər isə çox öyrənirlər.

Pedaqoji səriştəlilik müəllimin pedaqoji hadisə və proseslərə ustalıqla, peşəkarlıqla yanaşmasıdır. Peşə səriştəliliyi peşənin məzmunu ilə bilavasitə bağlı olan keyfiyyətdir. Bu baxımdan müəllimin peşə səriştəliliyi pedaqoji fəaliyyətin bütün mərhələlərində özünü göstərməklə bir tamlıq yaratmalıdır. Müəllim həm tədris prosesində şagirdlərlə qarşılıqlı təsirdə, həm dərsdənkənar vaxtlardaaparılan tədbirlərdə peşəkarlıqla yanaşı səriştəlilik də nümayiş etdirməli, hər bir şeyə səriştəli yanaşmalıdır.

Müəllimin peşə səriştəliliyi pedaqoji prosesdəki bütün gərginliyi aradan qaldırmaqla yanaşı, təlim-tərbiyə işlərinin nəticəyönümlüyünü də təmin edir.

Səriştəli müəllimin keçdiyi dərsdə təkcə şagirdlər deyil, müəllimin özü də heç bir əsəb gərginliyi, sıxıntı, naratlıq keçirmir. Rozenfeld tərəfindən aparılan bir təcrübədə məlum olmuşdur ki, dərsə hazırlıqlı gələn müəllimlərin üz ifadələri, danışıqları, fəaliyyətləri, gülümsəmə tərzləri, jest və mimikaları kimi davranışları dərsə hazırlıqsız gələn müəllimlərin eyni davranışlarından təqribən ikiqat daha təsirli olmuşdur.

Müəllimin səriştəli davranışı, pedaqoji hadisə və proses- lərə səriştəli yanaşması onun pedaqoji məharətinin göstəricisi kimi də xarakterikdir. İstər dərs prosesinə, istərsə də dərsdən- kənar aparılan tədbirlərə müəllimin səriştəli yanaşması dərsin vədigər tədbirlərin səmərə və keyfiyyətinin yüksəlməsinə birbaşatəsir göstərir. Bu hər şeydən əvvəl müəllimin pedaqoji prosesə yenilikçi mövqedən yanaşması ilə xarakterizə olunur.

Müəllimin yenilikçi olması onun təkcə yeni metodlara, müasir təhsil texnologiyalarına mükəmməl yiyələnməsi deyildir. Yenilikçilik, novatorluq həm də ənənəvi metodları, texnologiyaları yaxşı bilmək, ənənəviliklə müasirliyi müqayisə edə və əlaqələndirmək, onlarda yaxşı nə varsa onu tətbiq edə bilməkdir. Buna görə də müəllimin pedaqoji proseslərə səriştəli yanaşması onun mütərəqqi pedaqoji təcrübəni öyrənməsi, ümumiləşdirməsi və onları özünün fəaliyyətinə tətbiq edə bilməsi, bir növ “özününküləşdirməsi” ilə də sıx bağlıdır.

Müəllimin pedaqoji prosesə yenilik gətirməsi, təlim-tərbiyə prosesinə yenilikçi mövqedən yanaşması təhsil və tərbiyə işlərində, onun məqsəd və məzmununun reallaşdırılmasında, həyata keçirilmə prosesinin forma və metodlarında, eyni zamanda müəllim-şagirdbirgə fəaliyyətində yeniliklərdən istifadə etmək, pedaqoji prosesə yenilik gətirməkdir. Belə müəllimlər təkcə yeni pedaqoji texnologiyaları tətbiq etməklə deyil, həm də özləri yeni texnologiyaların müəllifi kimi də pedaqoji səriştəliliyə malik olurlar. Pedaqoji səriştəlilik müəllimlərin öz üzərlərində müntəzəm işləmələri ilə yaranır və cilalanır. Dərin müşahidəçi və yaradıcı təfəkkürə malik olmaq, innovasiyaya meyllik, tətbiq etdiyi yeniliklərin səmərəliliyini diaqnozlaşdıra bilmək və təhlil etmək, nəticə çıxarmaq kimi məsələlər bu prosesdə mühüm rol oynayır. Pedaqoji səriştəliliyə yiyələnmə müəllimin bütün müəllimlik fəaliyyəti prosesində davam edir. Bu, nə məktəb divarları, nə də müəllimin dərs prosesindəki fəaliyyəti ilə məhdudlaşmır. Pedaqoji səriştəlilik özünü hər bir prosesdə - dərsdə də, dərsdən- kənar tədbirlərdə də özünü göstərir. Müəllimin digər həmkarları ilə fikir mübadiləsi aparanda da, pedaqoji konsliumlarda da, müəllim – şagird əməkdaşlığında, bir sözlə, müəllimin bütün pedaqoji fəaliyyətində pedaqoji səriştəliliyin olması vacibdir. Bu baxımdan pedaqoji səriştəliliyin bir çox əlamətlərini və göstəricilərini qeyd etmək olar ki, bunlar müəllimin səriştəli olmasının kriteriyaları kimi önəmli xarakter daşıyır.

1. Təşkilatçılıq, idarəetmə səriştəliliyi:
2. Didaktik (öyrədə bilmə) səriştəliliyi:
3. Şagirdlərin idrakının inkişaf etdirilməsi səriştəliliyi:

Qeyd edək ki, müəllimin peşə səriştəliliyinə malik olması təkcə bu kompotensiyalarla - səriştəlilik keyfiyyətləri ilə məhdudlaşmır. Hər bir müəllimin özünəməxsus fərdi-psixoloji xüsusiyyətləri olduğu kimi, pedaqoji fəaliyyətində də onu başqa müəllimlərdən fərqləndirən özünəməxsus səriştəlilik keyfiyyətlərinin olması da özünü göstərir. Xüsusən, novator müəllimlər də elə səriştəlilik cizgilərinə rast gəlinir ki, bunlar pedaqoji prosesi daha da cazibədar, məzmunlu etməklə əsl yaradıcılıq laboratori- yasına çevirir.

Təcrübə belə bir faktı təsdiq edir ki, müəllim öz üzərində işlədikcə, özünün fəaliyyətinə məsuliyyətlə, sosial borc və vətəndaşlıq mövqeyindən yanaşdıqca onun peşəkarlıq və səriştəlilik səviyyəsi də artır, yüksəlir. Bu həm onun özünün, həm də pedaqoji peşənin nüfuzunu yüksəldir,

pedaqoji fəaliyyətə yeni- yeni çalarlar gətirir.

Müasir müəllimin qarşısında o qədər mühüm vəzifələr durur ki, onları yerinə yetirmək üçün təkcə pedaqoji biliklərkifayət etmir.

Müəllim həm də kifayət qədər psixoloji biliklərə malik olmalıdır. Psixoloji biliklər müəllimi şagirdlərə, onların qəlbinə daha da yaxınlaşdırır və pedaqoji prosesi rəngarəng, daha maraqlı, daha məzmunlu edir. Elə bu səbəbdən də bir çox klassik pedaqoqlar müəllimin psixoloji biliklərə yiyələnməsinin vacibliyini dəfələrlə vurğulamış və buna böyük əhəmiyyət vermişlər. Bəs psixoloji biliklərə nəyi aid etmək olar? Müəllim hansı psixoloji biliklərə yiyələnməlidir ki, bunlar onun peşə səriştəliliyinin daha da məzmunlu olmasını təmin edə bilsin?

Müəllim eyni zamanda uşaqların fərdi xüsusiyyətlərinə dərindən bələd olmalıdır. Onların temperament tiplərini, hər bir temperament tipinin özünəməxsus xüsusiyyətlərini, hansı tip uşağa necə yanaşmaq lazım olduğunu, uşaqların diqqəti, hafizəsi, onların xüsusiyyətləri, təfəkkür və təxəyyülün inkişaf səviyyələri, nitqi və s. haqqında elmi biliklərə yiyələnməlidir.

Hər şeydən əvvəl, müəllim dərin müşahidə qabiliyyətinə malik olmalı, şagirdlərinin bütün müsbət və mənfi cəhətlərini görməli, onların irəliləyişlərini və geriliyini, dərhal duymalı,onları cavabsız qoymamalıdır.

Müəllim dərin analitik təfəkkürə malik olmalı, baş verən bütün situasiyaları, o cümlədən, şagirdlərin irəliləmə və geriləmə səbəblərini, onlara təsir edən amilləri təhlil edə bilməli və müvafiq nəticələr çıxarmağı bacarmalıdır.

Müəllim tədris prosesini yüksək emosional fonda, şagirdləri maraqlandıra biləcək səviyyədə, onlarda gərginlik yaratmadan, lakin qəlblərini həyəcanlandıra biləcək səviyyədə təşkil etməyi və şagirdləri öyrənməyə, yeni biliklər kəsb etməyə ruhlandırmalıdır.

Müəllim şagirdlərin düşüncəsinə, hisslərinə, fikirlərinə, ideya və istəklərinə hörmətlə yanaşmağı, onları qiy mətləndirməyi özündə tərbiyə etməli, humanizmin ən yüksək səviyyəsinə malik olmalıdır. Şagirdlərə qarşı mehriban münasibət, onların ən kiçik müvəffəqiyyətini belə yüksək qiymətləndirmək müəllimin şagirdlərə qarşı diqqətli münasibətini ifadə etməklə yanaşı, həm də müəllimi uşaqların gözündə ucaldır.

Hər bir müəllim peşə fəaliyyətində bir sıra etik davranış prinsiplərini gözləməli və müvafiq tələblərə ciddi şəkildə əməl etməlidir.

Göstərilən amilləri nəzərə alaraq elmi tədqiqat işinin nəticəsini aşağıdakı kimi müəyyənləşdirmək olar.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. Ə.Əlizadə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, Ozan, 1998.
2. Ə. Əlizadə, Əlizadə H. Pedaqoji psixologiya. Bakı, 2010.
3. M.İ. İlyasov. Müəllimin pedaqoji ustalığı. Bakı, Elm və təhsil, 2013.
4. Müəllimlərin etik davranış qaydaları. Bakı, 2014.
5. M.İ.İlyasov. Müəllim peşəkarlığı və pedaqoji səriştəliyinin müasir problemləri. Monoqrafiya. Bakı, “Elm və təhsil”, 2018. 208 səh.

# TESTLƏR VASİTƏSİLƏ ŞƏXSİYYƏTİN PSİXOLOJI XÜSUSIYYƏTLƏRİNİN ÖYRƏNİLMƏSİ

*Tələbə: Əliyeva Nuranə Vüqar qızı (qrup TSPX2001B)*
*Elmi rəhbər: m. Əlizadə AygünYaşar qızı*
*nuraneeliyeva@gmail.com*

Şəxsiyyətin strukturunu araşdırmazdan əvvəl, "Şəxsiyyət" anlayışının özünü dəqiqləşdirməyə ehtiyac vardır. Elmi ədəbiyyatda bu barədə çox müxtəlif mülahizələr söylənilsə də, onları əsasən iki qrupda birləşdirmək olar:

1) Şəxsiyyət normativ kateqoriya kimi izah edilir, yəni onun mahiyyəti insanın şüuruna vəfəaliyyətinə aid olan müsbət keyfiyyətlərlə əlaqələndirilir. Bu halda bəziləri yaş etibarilə yetkinliyi və psixicəhətdən normal olmağı, bəziləri yüksək mənəviyyatı, şüurluluğu, məsuliyyəti, bəziləri fikirlərin müstəqilliyini, baxışların müəyyənliyini, hisslərin orijinallığını, iradə qüvvəsini, daxili intizamı və s. şəxsiyyət olmaq üçün vacib normalar hesab edirlər. Məsələyə bu cür yanaşılması elmi cəhətdən doğru deyildir. Çünki insanların bir qismini şəxsiyyət kimi, digər qismini isə qeyri-şəxsiyyət kimi səciyyələndirmək şəxsiyyət anlayışının tarixən yaranması faktına uyğun gəlmir, ümumiyyətlə, şəxsiyyət probleminin həm nəzəri, həm də praktik səpgidə öyrənilməsi işinə lüzumsuz çətinliklər əlavə edir. Bu cür yanaşma əslində normativ əlamətlər əsasında insan və şəxsiyyət anlayışlarını nisbətən kəskin hədlərlə bir-birindən ayırır. Burada xatırlatmaq yerinə düşər ki, hüquq nəzəriyyəsi və praktikası insanların şəxsiyyət və qeyri-şəxsiyyət kimi ayrılmasını məqbul saymır.

2) Şəxsiyyət öz tipik və fərdi cəhətlərinin vəhdətində konkret insan kimi izah edilir. Bu nöqteyi-nəzərşəxsiyyət anlayışını daha dəqiq əks etdirir. Şəxsiyyət anlayışını fərd və fərdiyyət anlayışları ilə müqayisə etdikdə onun mahiyyətini daha aydın təsəvvür etmək olar. Belə ki, hər bir insan eyni zamanda fərd, hər bir fərd isə eyni zamanda insandır. Ona görə də yeni doğulmuş uşaq da, ağlını itirmiş səfeh də, yaşlı vəhşi insan da, mədəni ölkələrin yüksək intellektə malik olan insanları da fərd hesab olunur. Deməli, bir konkret adamı fərd adlandırmaqla onun potensial insan olduğunu təsdiq edirik. Lakin bütün fərdləri şəxsiyyət adlandırmaq olmaz. Yeni doğulmuş uşaq, ağlını itirən səfeh şəxsiyyət hesab olunmur. Bir fərd kimi doğulmuş insan tədricən ictimai münasibətlər qovuşuğunda, sosiallaşma nəticəsində şəxsiyyətə çevrilir.

Şəxsiyyətə hansı tərəfdən yanaşsaq görərik ki, şəxsiyyət o adamdır ki, onun bir sıra psixoloji keyfiyyətləri olsun. Onları aşağıdakı kimi xarakterizə edə bilərik:

1. Şəxsiyyət o adamdır ki,başqalarını qavrayıb qiymətləndirməklə bərabər öz mənliyini də dərk edib qiymətləndirsin.
2. Şəxsiyyət o adamdır ki, mühitə aydın dərk olunmuş münasibəti olsun.

- Cəmiyyəti təşkil edən insanlara münasibəti;
- Onu əhatə edən əşyalara münasibəti;

- Əməyə münasibəti;
- Öz məninə münasibəti;
- Adət — ənənəyə münasibəti.

3. Şəxsiyyət o adamdır ki, özünün əqidəsi, sərvət meyli var.
4. Şəxsiyyət fəal insandır. O adam ki, cəmiyyəti dəyişə bilir, təkmilləşdirə bilir, özunu də təkmilləşdirir, özünə nəzarət edir.

İnsanlar təkcə gözlərinin rənginə, səslərinin tembrinə, barmaq izlərinə və s. görə deyil şəxsiyyətlərinin xarakteristikasına görə də bir-birlərindən fərqlənirlər. İnsanları gözlərinin rənginə, səslərinin tembrinə və ya digər biofiziki xüsusiyyətlərinə görə xarakterizə etməyə nisbətən onları bir şəxsiyyət kimi xarakterizə etmək olduqca çətindir. Şəxsiyyət anlayışı mürəkkəb anlayışdır. Onun adekvat şəkildə anlaşılmasının çətinliyi bir sıra amillərlə bağlıdır. Həmin mühüm amillərdən bir neçəsini nəzərdən keçirək.

1. İnsan şəxsiyyəti maddi və toxunula bilən, hiss edilən deyildir. O, bir sıra amillərin, şəraitin, imkanların və determinantların təsiri altında formalaşan psixoloji törəmədir.
2. İnsan şəxsiyyəti bir sıra amillərin təsirinə məruz qalsa da yalnız onlardan asılı bir törəmə kimi şərh oluna bilməz, çünki o formalaşdığı həmin əsası dialektik olaraq rədd edir.
3. İnsan davranışının determinasiyasmda şəxsiyyətin mühüm əhəmiyyət kəsb etməsi barədə çoxlu nəzəriyyə və konsepsiya mövcuddur ki, bunların bir çoxunun “şəxsiyyət” anlayışını şərh etməsi ziddiyyətlidir.
4. Nəhayət, şəxsiyyəti anlamaq insan fenomenini anlamaqla birbaşa əlaqədardır. Şəxsiyyət yalnız o zaman insanın əsası, özəyi kimi, onun başlıca parametri, onun eyniləşdirmə vasitəsi kimi şərh oluna bilər ki. antropologiya və insan haqqında biliklər

insanın öz təbiətini anlamaq səviyyəsinə yüksəlmiş olsun.

“Şəxsiyyət” sözü Azərbaycan, rus və ingilis dillərində maraqlı və faktiki olaraq eyni etimologiyaya malikdir. Azərbaycan dilində “şəxsiyyət” sözü öz əsasını ərəb sözü olan “şəxs” sözündən götürmüş və hər hansı bir konkret şəxsi, simanı bildirir. Rus dilində “şəxsiyyət” *(*liçnostğ) sözü də “liüo”, “liçina” (üz, sifət) sözləri ilə bağlıdır. İngilis dilində “şəxsiyyət” mənasını ifadə edən “personality” sözü öz əsasını iki latın sözündən – “per” və “sona” sözlərindən götürmüşdür ki, bu da bir növ “vasitəsilə danışır” mənasını ifadə edir. Sonralar qədim Yunanıstanda və Rim imperiyasında bu söz teatr tamaşasında aktyorun “maskası” şəklində özünü büruzə vermişdir. Adətən, səhnə hərəkətindən asılı olaraq “masqa” dəyişilir, aktyor rola daxil olur. Lakin, yalnız xeyli vaxt keçdikdən sonra “persona” sözü hazırki dövrdə daşıdığı məna yükünü daşımağa başlamış, “personality” – “şəxsiyyət” mənasında işlənməyə başlanmışdır.

Qeyd edilənlərdən görünüdüyü kimi insanın şəxsiyyəti birbaşa və dolayı mənada onun siması, sifətidir. Birbaşa mənada insanın siması, sifəti onun başlıca identifikatorudur. Məhz onun xətləri, formaları, çevrəsi və digər xüsusiyyətləri əsasında bir adamı başqasından fərqləndirir, onun hansı yaş kateqoriyasına mənsub olduğunu müəyyənləşdirə bilirik. Təsadüfi deyil ki, şəxsiyyəti eyniləşdirməklə bağlı bütün sənədlərdə onun sifətinin şəkli olması tələb edilir. Bununla yanaşı bizim sifətimiz emosiyalarımızın, hisslərimizin, əhvalımızın, vəziyyətimizin, istəklərimizin ifadəçisinə çevrilir, o bizə təkcə verbal yolla deyil, qeyri-verbal yolla da, zəngin mimiki

imkanlarımızın köməyi ilə ünsiyyətə girmək imkanı verir. Dolayı mənada insan şəxsiyyəti onun “ruhunun”, başqa sözlə, onun bütün psixi təzahürünün “sifətidir”. İnsana məxsus olan fərdi-psixoloji xassələrin təzahür xüsusiyyətlərinə, onun ünsiyyət üslubuna, davranışına, fikir və ideyalarına görə onu aydın eyniləşdirməyimiz və onun gələcək davranışının istiqamətini proqnazlaşdırmağımız heç kimdə şübhə doğura bilməz.

Şəxsiyyətin ahəngdar inkişafı tərbiyənin başlıca məqsədidir. Bəs, şəxsiyyətin inkişafı nə deməkdir? Buraya hansı amillər təsir edir? Nə üçün həyatda bir-birinə daxilən tam bənzər iki adam tapmaq olmur? Bu sualların düzgün həlli problemin mahiyyətini başa düşməkdə mühüm əhəmiyyətə malikdir.

Şəxsiyyət dedikdə, müəyyən sosial keyfiyyətlərə, mənlik hissinə malik olan şüurlu fərd başa düşülür. İnsan fərd (bioloji varlıq) kimi doğulur, sonradan müxtəlif amillərin təsiri ilə şəxsiyyətə çevrilir.

Şəxsiyyətin inkişafı dedikdə, insanın müəyyən keyfiyyətlərə (zehni, psixi, mənəvi, əmək, fiziki və s.) yiyələnməsi və özünü təkmilləşdirməsi başa düşülür. Şəxsiyyət birdən-birə formalaşmır; o, müəyyən səviyyələrdən (aşağı, orta, yüksək, ideal səviyyə) keçir. Psixoloqlar 3-5 yaşlı uşaqların da şəxsiyyətin müəyyən keyfiyyətlərinə malik olduğunu qeyd edirlər.

Anadan təzəcə doğulmuş uşaq hələ şəxsiyyət deyil. O, ünsiyyət və fəaliyyət prosesində ictimai münasibətləri mənimsədikcə şəxsiyyətə çevrilir. Bu da şəxsiyyətin strukturunu təşkil edir.

Şəxsiyyətin özünəməxsus psixoloji strukturu vardır. Psixoloji ədəbiyyatda qeyd olunduğu kimi, insanın şəxsiyyətə çevrilməsi üç psixoloji kateqoriyanın nəticəsidir. Bunlar: inikas - ünsiyyət - fəaliyyətdir. Bu baxımdan şəxsiyyətin psixoloji strukturunun əsasında birinci növbədə onun idrak prosesləri durur. İnsan həyata gəldikdən sonra duyğu olqanları vasitəsilə ətraf mühit cisim və hadisələrini əks etdirərək psixi inkişafa nail olur.

Şəxsiyyətin istiqaməti dedikdə buraya onun dünyagörüşü, ictimai mövqeyi, tələbatları, maraq və meylləri, əqidə və idealları, adət və ənənələri, ideya və praktik yönəlişlik sistemi və s. daxildir. Bu zaman yönəlişliyin komponentlərindən biri dominantlıq təşkil edir və aparıcı olur. Başqaları isə istinad rolunu oynayır. Dominantlıq təşkil edən istiqamət şəxsiyyətin bütün psixi fəaliyyətini müəyyənləşdirir.

Şəxsiyyətin strukturunda sonrakı mühüm yarımstrukturunu onun hazırlıq səviyyəsi təşkil edir. Buraya şəxsiyyətin əldə etdiyi bilik, bacarıq və vərdişlər sistemi daxildir.

Şəxsiyyətin strukturunda mühüm yer tutan yarımstrukturlardan, komponentlərdən biri də onun imkanlarını müəyyənləşdirən və fəaliyyətin müvəffəqiyyətini təmin edən qabiliyyətlər sistemindən ibarətdir.

Şəxsiyyətin strukturunda mühüm yer tutan digər komponenti insanın həyatda qazandığı davranış forması, başqa sözlə onun xarakteridir.

Nəhayət, bu komponentlərin hamısının üzərində şəxsiyyətin mənliyi, yəni özünü dərk edib anlaması, öz davranışını nizama salıb idarə etməsi “hökmranlıq” edir.

Şəxsiyyətdə “şüursuzluq” və “şüurun” istiqaməti dedikdə isə insanda şüurun gələcəyə, şüursuzluğun isə keçmişə yönəlişliyinin mümkünlüyünü zənn etmək imkanı yaranır. Bununla da şüurun gələcəyə yönəlişliyi insanda hadisənin baş verməsindən qabaq onun inkişafını görmə

qabiliyyəti kimi antisipasiya fenomeninin olması ilə də təsdiq olunur. Bununla yanaşı şüursuzluğun keçmişə yönəlişliyi tamamilə təbii haldır. Çünki, sıxışdırılmış, unudulmuş və arxetipik elementlər yalnız keçmişə aid ola bilər.

Beləliklə insanda keçmiş və gələcəyin qarşılıqlı təsiri onun şüursuzluğu və şüurunun qarşılıqlı təsirindən başqa bir şey deyildir. Bunun nəticəsi isə hal hazırda yaşayan konkret şəxsiyyətdir.

İnsan şəxsiyyətində yuxarıda qeyd olunan struktur yaradıcı elementlərindən birinin olması onun tamlığının şərti hesab olunur. Lakin bunlardan birinin və ya bir hissəsinin üstünlüyü xüsusi şəkildə müəyyənləşdirilir.

Mövcud olmayan heyvan testindən şəxsiyyəti öyrənmək üçün istifadə olunur.
Testi keçirmək üçün ağ vərəq, sadə qələm və pozan lazımdır. Yoxlanılan şəxsə heç bir izahat verilmədən dünyada olmayan heyvan şəkli çəkmək təklif edilir.

Yadda saxlamaq lazımdır ki, bu test fərdi halda istifadə olunduqda daha effektiv olur.
Təlimat: Siz fikirləşib elə bir heyvan şəkli çəkməlisiz ki, elə bir heyvan indiyə qədər dünyada olmayıb (qəhrəmanlar, nağıl və cizgi filmlərinin qəhrəmanlarından istifadə etmək olmaz). Testləşmənin sonunda yoxlanılan şəxsə heyvanın cinsini müəyyənləşdirməyi təklif etmək olar (qeyd edin sizin heyvan kişidir, qadındır yoxsa orta cinsdir).
Ümumi təəsürat: Mövcud olmayan heyvan çəkməklə yoxlanılan şəxs özünü ifadə edir və buna uyğun olaraq insan xarakterizə olunur. Adətən şəkil üç təəsüratdan birini yaradır. Şəkil çəkən insan ya aqressordur, ya inciyib və ona hədə qorxu gəlirlər, ya da neytraldır. Bu ilk təəsüratdır. Testin nəticələri ilkin tanışlıqda istifadə olunur.

Dairə fiquru və ya dairədən ibarət olan heyvan, əgər heç nə ilə doldurulmayıbsa, yəni boşluqdursa bu daxili aləmin qapalılığım, özü haqda ətrafdakılara informasiya vermək istəmədiyini və nəhayət sadəcə olaraq testdən keçmək istəmədiyini bildirir. Axırıncı bir neçə səbəbdən ola bilər. Birincisi, bu yoxlanılan şəxsin sizinlə ünsiyyətdə olmaq istəməməsini bildirir. Ola bilsin ki, o, sizin şəxsinizdə müdiriyyət nümayəndəsini görür. Bu zaman siz ona psixoloqun kim olduğunu izah edə bilərsiz. 2-ci halda bu bir sıra assosiasiyalarla bağlı ola bilər. Əgər belədirsə, onda onu belə düşünməyə vadar edən şəxsin kim olması haqqında düşünmək lazımdır. 3-cü
5. -ə bu yoxlanılan şəxsin psixi qüsurları ilə bağlı ola bilər. O halda başqa, qeyri-verbal metodlarla təkrar müayinə aparılmalıdır. Ola bilər ki, yoxlanılan şəxs müayinə olunmaq istəməsin. Amma sizin izahatınızdan sonra axır ki şəkil çəkir. Bu halda şəkil o qədər də inandırıcı olmayacaq.

Bu zaman şəklin vərəqdəki vəziyyəti, yerləşməsi, istiqaməti və ümumi dinamikası təhlil olunur. Normal halda şəkil vərəqin mərkəzində və ya bir azca solda və yuxarıda yerləşdirilir. Lakin yadda saxlamaq lazımdır ki, norma nisbi anlayışdır.Əgər şəkil vərəqin yuxarı hissəsində yerləşibsə bu yüksək özünüqiymətləndirmə və insanın sosiumda tutduğu vəziyyətindən narazılığını bildirir. Özünü ətrafdakılır tərəfindən qəbul edilməyən hesab edir. Özünütəsdiqə meyllidir. Konfliktli davranışa, aqresiyaya (zor, əzab vermək və s.) meyllidir.

Əgər şəkil vərəqin aşağı hissəsindədirsə, onda əks əlamətləri bildirir: özündən narazılıq, aşağı özünüqiymətləndirmə, ruh düşkünlüyü, qətiyyətsizlik, özünün sosial mövqeyi ilə maraqlanmamaq. Sağda yerləşdirilmiş şəkil yoxlanılan şəxsdə ekstraversiya, diqqətin gələcək üzərində cəmləşməsi, xarakterdə kişi xüsusiyyətlərinin nəzərə çarpdırılması, situasiya üzərində nəzarət etməyə meyl,

ətrafdakılara yönəlmə, aqressiv seksuallıq əlamətlərinin olduğunu göstərir.

Lap kənarda sağda yerləşdirilmiş şəkil isə yoxlanılan şəxs üçün tabe olmamaq meylinin, həddən artıq konfliktli şəxs olduğunun, fövqaladə situasiyalarda autoaqresiyanm xarakterik olduğunu göstərir.

Əgər şəkil vərəqin sol tərəfində yerləşibsə yoxlanılan şəxs üçün introversiya, keçmişə yönəlmə, utancaqlıq xasdır. Bu növ şəkil çəkən şəxslərdə həmişə münaqişəli situasiyalardan qaçmaq müşahidə olunur. Yuxarı sol küncdə yerləşdirilmiş kiçik şəkil yüksək həyəcanı bildirir. Əksər hallarda özünə qəsd meylli insanlarda müşahidə olunur.

Subyektdən sol və arxada yerləşən boşluq keçmiş və fəaliyyətsizlik dövrü ilə, fikirlə, təsəvvürlə planlaşdırma və həyata keçirmə ilə əlaqədardır.

Sağ tərəfdə, öndə və arxada olan boşluq gələcək və fəaliyyət göstərmək dövrü ilə əlaqədardır. Vərəqin sağ tərəfi (sağ ələ uyğun olan) və yuxarı hissəsi müsbət boyalı emosiyalarla: coşğun, fəal hərəkət çətinliyi ilə bağlıdır.

Göstərici və şərhlər

Fiqurun əsas mənalı hissəsi baş yaxud onu əvəz edən detaldır. Sağa döndərilmiş baş hərəkətində sabitdir, demək olar ki, nə fikirləşirsə həyata keçirir və ya axıra çatdıra bilməsə belə heç olmasa həyata keçirməyə başlayır. İnsan öz maraq və meyllərini həyata keçirməyə fəallıq göstərir.

Sola döndərilmiş baş fəaliyyətə sabit meylli olmadığını göstərir. Düşüncəlilik, götür- qoy etmə əlamətidir, iş adamı deyil, fikirləşdiyinin cüzi hissəsini həyata keçirir. Əksər halda qətiyyətsizdir, fəal işə girişməkdən çəkinir.

Başın öndə görünüşü, yəni şəkil çəkənə baxması eqoizm, xudbinlik kimi qiymətlən

3aşda yerləşdirilmiş hissələr hiss üzvləri qulağa, gözə, ağıza uyğun olanlardır. Gözlərin xüsusi mənası var (onlar qorxunun rəmzidir). Bu məna xüsusən gözün qişasının çəkilməsindədir.

Kipriyin olub-olmamasma fikir verin. Kipriklər daxili qıcıqları xəbər verir, xarakterin əlamətlərini nümayiş etdirir. Kipriklər həm də onu əhatə edənləri zahiri gözəlliklə və yüksək məna verdiyi geyim tərzilə heyran etməyə marağı ifadə edir.

Əgər Yarı açılmış ağız dillə birlikdə (əgər dodaq yoxdursa) yüksək nitq fəallığını göstərir. Əgər dodaqla birlikdə çəkilibsə bioloji həssaslığı göstərir, bəzən hər ikisi birlikdə olur. Dodaq və dil çəkilməyən açıq ağız qalın xəttlə çəkilibsə onda qorxub çəkinmənin və inamsızlığın əlamətləri olduğunu göstərir.

Qulaq hissəsinin mahiyyəti informasiyaya, onu əhatə edənlərlə maraqlanmağı göstərir.

Ağızda diş adamı dillə yeyən, əksər halda özünü müdafiə edən kimi izah olunur.

Uşaqlar və yeniyetmələr şəkildə ağzı dəyirmi çəkdikdə, bu onların qorxmalarını və təlaşlı olmalarını göstərir.

Fiqura nisbətən başın iri olması onu çəkənin geniş məlumatlı olmasını göstərir. Çox vaxt başda əlavə hissələr də yerləşdirilir. Buynuz müdafiə və təcavüz əlamətidir. Həmin təcavüzün xarakteri daxili səbəblərdən yaxud müdafiədən irəli gələ bilər.

Lələk özünütəsdiqi, nümayişkaranəliyi bildirir. Həmçinin lələk yoxlanılan şəxsdə qadın xüsusiyyətlərinin üstünlük təşkil etməsini və ya nəzərə çarpdığını göstərir. Yal (tel), saç, tük bu kimi hissələr həssaslığın, öz cinsini biruzə verməyi, bəzən isə seksual rola meyli göstərir. Fiqurun

hərəkət-dayaq hissələri əzələlər, pəncələrdir. Burada həmin hissələrin fiqurun tam ölçüsünə və formasına nisbətən uyğun böyüklükdə olmasına diqqət yetirmək lazımdır. Belə ki, uyğun böyüklük qərar qəbul edərkən düşünməyi, səmərəli yol tapmağı, informasiyanın mövcud mənasına, vəziyyətinə əsaslanmağı göstərir. Və əksinə olduqda isə bu mülahizənin üzdən olmasını, xüsusən ayaqlar olmadıqda əsassız nəticə çıxarmağı bildirir. Ayaqların bədənlə birləşməsinə fikir vermək lazımdır: dəqiqmi, düzmü birləşdirilmişdir, yaxud necə gəldi, zəif birləşdirilib, yoxsa heç birləşdirilməyib. Ayaqların, bədənin digər dayaq hissələrinin eyni istiqamətdə, eyni formada olması mülahizə və fikirlərin konformluluğuna, bayağılığa işarədir. Həmin hissələrin yerləşməsində müxtəliflik isə sosial yönəlmələrin, mülahizə və fikirlərin orijinallığını, özünəməxsusluğunu, müstəqilliyini göstərir.

Fiqurdan yuxarıda duran hissələr funksional, yaxud məqsədli ola bilər. Bunlar qanadlar, ayaqlar, buynuz, caynaq, əlavə ayaqlar, digər hissələr, canlı zireh və lələk, bantlar, buruq saçlar, hörüklər, güllərdir.

Birincilər enerjini, insan fəaliyyətinin müxtəlif sahələrinin əhatə edilməsini, özünə inamı göstərir. Buynuz, caynaq, qanad cəsarətə uyğun gəlir.

Quyruqlar öz hərəkətinə, qərarına, çıxardığı nəticəyə, düşünüb danışmasına münasibəti ifadə edir.

Quyruğun sağa və ya sola dönməsinə fikir vermək lazımdır. Həmin münasibətin mənfi və ya müsbət olması quyruğun istiqamətilə izah olunur. Belə ki, quyruğun yuxarıya doğru çəkilməsi inam, müsbət hal, gümrahlıq kimi, aşağıya çəkilməsi özündən narazılığı, dediyinə təəsüfləndiyini, peşimançılığım bildirir. Quyruqları bir neçə, bəzən təkrarlanan, qıllı, tüklü, uzun, saçaqlanan hissəsinə xüsusi fikir vermək lazımdır. Bu aktivlik, dözüm, etibar, inam yaratmaq qabiliyyəti, ünsiyyətcillik, stres və standart olmayan situasiyalarda hazırcavablıq, özünü itirməmək, məsuliyyəti öz üzərinə götürmək xüsusiyyəti kimi qiymətləndirilir. Sağa, yuxarı çəkilmiş quyruq insanın öz fəaliyyətindən, davranışından narazılığını göstərir. Sola, yuxarı çəkilmiş isə öz qətiyyətsizliyinə, fürsəti verdiyinə görə narazılığı göstərir.

Çıxıntıların olub olmamasına görə fiqurun konturu, tikan və caynaqların növləri, konturun qalın, tünd rəngli çəkilməsi onun başqalarından müdafiə olunmağını göstərir. Əgər iş sərt, iti çıxıntılarla yerinə yetirilibsə bu təcavüzkar müdafiədir.

Əgər kontur xəttində ləkələnmə, tündlük varsa bu qorxu və ya həyəcanı göstərir. Əgər sədd qoyulubsa, ikiqat xəttlə çəkilibsə bu ehtiyat və şübhələnmə əlamətidir. Yuxarı kontur ondan yüksəkdə duran, real hakimiyyəti olan adamların, yaşca böyüklərin- valideynlərin, müəllimlərin qadağan qoymalarının əleyhinədir. Aşağı kontur lağa qoyulmanın, sayılmamağın, tabe olanlar və kiçiklər arasında hörmətin olmamasının, ittiham qorxusunun əleyhinədir

Yan kontur fərqləndirilməyən qorxu, hər cür tərzdə və müxtəlif vəziyyətlərdə müdafiəyə hazırlığı göstərir. Əgər bunlar konturda yox, lap elə daxildə, heyvanın bədənindədirsə yenə də müdafiə elementi sayılır. Sağda daha çox real fəaliyyət prosesində, solda isə fikirlərini, inamını müdafiə edir.

Heyvanın insana oxşadılması, yəni düz qamət, 4 pəncə əvəzinə 2-sinin olması, heyvana insan paltarı geydirilməsi, üzünün insana oxşadılması infantilizm əlamətidir.

Ev heyvanları. Ev heyvanlarının çəkilməsi öz həyat enerjisinin "əhliləşdirmək" meylinə uyğun gəlir.

Fantastik və üslublaşdırılmış (yəni birinin xarakterinin təqlid edilməsi) heyvanlar. Məs: kitab və cizgi filmlərinin qəhrəmanları (Tıq-tıq xanım, div, Tom və Ceri və s.) yoxlanılan şəxsin öz problemlərini təhlil etməkdən imtina etməsini bildirir.

İnsana məxsus olan konkret heyvanların təsvir olunması. Bir qayda olaraq belə heyvanlar insanın həmin heyvanla təmasda olarkən tələbatlarının təmin olunmasına uyğun gəlir. Yadda saxlamaq lazımdır ki, ev heyvanları saxlayan insanlar, onları əhatə edən insanlarla təmasda olarkən ödənilməyən tələbatlarım məhz o heyvanlarla ünsiyyətdə təmin edirlər.

Vəhşi heyvanlar. Onlar müxtəlif səbəblərə görə seçilə bilirlər. Konform obrazın seçilməsi. Məs: "sülh simvolu" olan göyərçini seçməklə yoxlanılan şəxs xeyirxah insan olduğunu demək istəyir.İt - asılılıq, tabeçilik meylinin göstərir.
Pişik - taktil (toxunma) kontakta olan tələbatı, özünü təsdiq etməni, sözlü qarşılıqlı təsirdən fərqli olaraq qeyri-sözlü qarşılıqlı təsirə üstünlük verməni göstərir.

Yük heyvanları - ətrafdakıları günahlandırmağa, öz həyatına görə məsuliyyət daşımamaq meylini göstərir.

Yekun: "Mövcud olmayan heyvan" testinin öyrənilməsi şəxsiyyətin problemlərini müəyyən etməyə imkan verir.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə Psixologiya. Bakı, 2009.
2. F.İ.Bayramov, D.R. Hüseynova, A.S. Namazova 114 psixoloji test. Bakı, 2011. səh 295.
3. R.A.Cavadov, G.B. Tağıyeva. Ekstremal şəraitlərdə psixoloji xidmət. Bakı, 2006.
4. L.Ş. Əmrahlı Psixoloji xidmətin əsasları. I kitab. Bakı, 2006. 137 səh.
5. D. İbrahimova, S. Nuriyev Təhsildə sosial-psixoloji xidmət. Bakı, 2016.
6. M. Nəcəfov. İnsan beyninin fəaliyyəti və psixiki proseslər. Bakı 1989. 625 səh.
7. Ə.Ə. Əlizadə. Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyəsi Bakı, 1965. 2087.səh.
8. A.U. Məmmədov. Məktəblilərdə hafizənin xüsusiyyətləri. Bakı, 1974.
9. A. Anastasi. Psychological testing. – New York, 2009. 32 st.

## ƏXLAQ TƏRBİYƏSİNİN MAHİYYƏTİ VƏ NƏZƏRİ-PSİXOLOJİ ƏSASLARI

*Tələbə: Rəhimli Elza Adil qızı (qrup AZD2001B)*
*Elmi rəhbər: m. Cəfərova Ətrabə Şirastan qızı*
*rehimlielza@mail.ru*

Əxlaq ictimai şüurun əsas formalarından biri kimi həm fəlsəfi, həm sosioloji, həm psixoloji, həm də pedaqoji ədəbiyyatda geniş şəkildə şərh olunur. Əxlaqın tərbiyəsi çox vaxt xalq içərisində ismətin, namusun tərbiyəsi kimi işlənsə də istər etnopedaqoji, istərdə də elmi-pedaqoji ədəbiyyatda əxlaq tərbiyəsi insana məxsus olan mənəvi keyfiyyətlərin və davranış normalarının məcmusu kimi

səciyyələndirilir. “Əxlaq - insanın mənəvi, dərin keyfiyyətləri, cəmiyyətə və başqalarına qarşı münasibətləri müəyyən edən normaları davranış qaydalarını özündə birləşdirir”. Pedaqoji ədəbiyyatda əxlaq tərbiyəsi tərbiyənin forması, kökü, zəruri şərti, nəticəsi, əksər hallarda tərkib hissələrindən biri kimi izah edilmişdir. Əxlaq tərbiyəsi hərtərəfli şəxsiyyət formalaşdırılması işinin mühüm tərkib hissələrindən biridir. İnsanların əxlaqi keyfiyyətləri təhlil edilərkən “əxlaqlı”, “yüksək etikalı”, “mədəni əxlaqlı”, “əxlaqsız” kimi anlayışlardan istifadə edilir.Əxlaq tərbiyəsi baza kimi “etikaya” istinad edir.

Elmi pedaqogikada “əxlaq tərbiyəsi” ifadəsini ilk dəfə olaraq elmi pedaqogikanın banisi sayılan böyük çex pedaqoqu Yan Amos Komenski (1592-1670) işlətmişdir. O, bir sıra əsərlərində həm “əxlaq qaydaları”, həm də “əxlaq tərbiyəsi” ifadələrini işlətmişdir. Komenskidən təxminən 400 il əvvəl şərqin böyük mütəfəkkiri Nəsirəöddin Tusi “Əxlaqi Nasiri” də əxlaq tərbiyəsinin böyük bir sistemini vermişdir. Keçmiş SSRİ məkanında mövcud olan bütün direktiv və proqram sənədlərdə əxlaq yalnız kommunist əxlaqı kimi verilir. Tusi pedaqogikasında başlıca amil sayılan əxlaq tərbiyəsi nəzəriyyəsini mütəfəkkir alim 3 mənbədən-özünün ailə tərbiyəsindən, Azərbaycan xalqının tərbiyə ənənələrindən və özünəqədərki nəzəriyyəçilərin tərbiyə haqqındakı fikirlərindən seçdiyi səmərəli toxumların əlaqələndirilməsi, tənqidi təhlil yolu ilə ümumiləşdirilməsi və dərin elmi süzgəcdən keçirilməsi əsasında yaratmışdır. Keçmişin, öz dövrünün təlim-tərbiyə məsələləri üzrə təcrübəsini düzgün dərk etdiyindən, Nəsirəddin Tusi gələcək nəsillərin tərbiyəsinə ağıllı istiqamət vermək imkanına malik olmuşdur. Nəsirəddin Tusi də bu yolla gedərək milli-mənəvi dəyərlərinizə və qüdrətli söz sahiblərinin fikirlərinə əsaslanaraq həm xalqımız üçün, həm də bütün dünya xalqları üçün səciyyəvi olan əxlaq tərbiyəsi sistemi yaratmışdır. N.Tusi, hər şeydən əvvəl, “əxlaq normaları” müəyyən etməyə cəhd göstərmişdir. Hansı ki, bu əxlaqi normalar uşaqların davranışının, ünsiyyətinin, insanlara, təbiətə, cəmiyyətə olan bütün münasibətlərinin tənzimlənməsinə xidmət edir. Tusiyə görə insanın mənəvi ehtiyacları, mənəvi qüvvələri, kamalı, fəzilətli şərafətli fakir, əql, şüur və iradə vasitəsilə təmin və idarə edilir. Insanın xoşbəxlik və bədbəxtlik açarı, kamillik və naqislik sükanı onun ağıl və iradəsinin ixtiyarına verilmişdir, əgər insan düzgün, ardıcıl, məqsədəuyğun xətlə hərəkət etsə, tədricən elm, mədəniyyət, bilik və hikmətə yiyələnsə, təkamülə qadir olan fitri istedadı hədləri aşaraq, onu bir mərtəbədən başqa bir mərtəbəyə, bir dərəcədən o biri dərəcəyə yüksəldər, dübbədüz gətirib arzu elədiyi məqsədə, ali məqama çatdırar. Lakin yaradıldığı fitri dərəcədə oturub qalsa, cilovu öz nəfsinin ixtiyarına versə, nəfsi onun aşağıya, heyvani mərtəbəyə sövq edər, yuxarıdan aşağıya yuvarladılan daş kimi az bir müddət ərzində onu rəzalət çirkabının ən dərin yerinə salar. Odur ki, deyiblər: “Nəfs elə bir şeydir ki, onu öz başına buraxsan alçaqlığa meyl göstərib bataqlığa batan, cilovlayıb istiqamət verən, fəzilət yüksəkliyini fəth edib kamala çatar”.

Əxlaq tərbiyəsinin məzmununa vətənpərvərlik, dostluq və yoldaşlıq, qarşılıqlı yardım, beynəlmiləlçilik, fəaliyyətə şüurlu münasibət, intizam, məsuliyyət, düzlük, doğruçuluq, sadəlik tövazökarlıq insanlara humanist münasibət, onu əhatə edən mühitə – təbiətə qayğılı münasibət və s. daxildir.

Vətənpərvərlik – öz doğma vətəninə, ölkəsinə, diyarına məhəbbət, onun düşmənlərinə qarşı barışmazlıq ifadə olunan əxlaqı keyfiyyətlərdir. Bu aparıcı əxlaqi keyfiyyət olub digər əxlaqi

keyfiyyətlərin əsasını qoyur. Belə ki hər bir müsbət əxlaqi keyfiyyətin əsasını öz millətinə, vətəninə, xalqına, doğma, kiçik kəndinə məhəbbət təşkil edir. Bütün müsbət keyfiyyətləri insanlara, vətəninə olan müsbət münasibətlər stimullaşdırır. Vətənpərvərlik tarixi anlayışdır. Xalqın, insanların vətənpərliyinin əsasını onların yaşadığı, fəaliyyət göstərdiyi vətənə, onları qoruyan, müdafiə edən, maddi vəziyyətini yaxşılaşdırmağa, fəaliyyətinin mədəni səviyyəsini yüksəltməyə çalışan dövlətə, ictimai quruluşa məhəbbət, müsbət münasibət təşkil edir.Vətənpərvərlik tərbiyəsi insanın yaşadığı mikro mühitdən, doğma ata yurdunu, kəndini, gücə və şəhərini sevməkdən başlayır. Bu məhəbbət böyük vətənə, onu qoruyan dövlətə yaradılacaq məhəbbətin əsasını təşkil edir. Milli vətənpərvərlik tərbiyəsi sistemli təlim müəssisələrində təlim və dərsdənkənar tədbirlər vasitəsilə həyata keçirilir. Məsələn tarix dərslərindən xalqın keçdiyi şərəfli tarixi yolu, müharibələrdə qələbə və məğlubiyyətini, onların səbəblərini və s. öyrənərkən öyrənənlərdə doğma vətənlərinə məhəbbət, onun suverenliyi, müstəqilliyi uğrunda mübarizlik, düşmənlərinə qarşı nifrət, milli sayıqlıq hissləri tərbiyə olunur. Kimya, biologiya, coğrafiya dərslərində ölkənin malik olduğu təbii sərvətləri öyrənməklə onlarda milli iftixar hissi və s. tərbiyə olunur. Əməyə və əmək adamlarına şüurlu münasibət də əxlaq tərbiyəsində əsaslı yer tutur. Əmək tərbiyəsinin sosial–ictimai tərəfini insanların əmək fəaliyyətinin əsasını vətənin xeyrinə şüurla çalışması; əməyi birinci və əsaslı yaşayış vasitəsi kimi dərk etməsi; bütün əmək növlərinə məhəbbət və hörmət, şüurlu fəaliyyət növü seçmək və s. təşkil edir. Əvvəlcə evdə, sonra isə məktəbdə müxtəlif fəaliyyət növləri ilə məşqul olan hər bir insan belə bir qənaətə gəlməlidir ki, həyatda hamı hər hansı bir əmək fəaliyyəti ilə məşğul olmalı, xalq təsərrüfatının bu və ya digər sahəsində çalışmalıdır. Bu tələb hər bir insan üçün məcburi həyati tələbdir.

Əməyə şüurlu münasibət tərbiyəsi dedikdə hər kəsin öz əmək fəaliyyətinə vicdanla yanaşması, doğruculuğu, düzlüyü, işində yaradıcılığı nəzərdə tutulur.

İşinə vicdanla yanaşmaq həmçinin hər kəsdən fəaliyyət zamanı ciddi cəhd, dözümlülük, hövsələ tələb edir. Əməyə düzgün münasibətin ictimai – əxlaqi cəhətini düzgün peşə seçmə təşkil edir. Bu isə insanların əməyə şüurlu münasibəti ilə bağlıdır. Müasir xüsusi sahibkarlıq dövründə əməyə belə şüurlu münasibət, imkan, maraq və bacarıqdan asılı olaraq peşə seçmə xüsusilə vacibdir. Tərbiyə olunanların diqqəti özünün fiziki və intelektual səviyyəsinə yönəldilməli, hər kəs özünün malik olduğu fiziki və əqli imkanlarını obyektiv qiymətləndirməsi bacarmalıdır. Peşə seçməyə də məhz bu imkanlar baxımından yanaşılmalıdır. Hər kəs elə peşə seçməlidir ki, həmin peşə ilə həm özünə, həm də cəmiyyətə fayda verə bilsin.

Əxlaq tərbiyəsinin mühüm komponentlərindən biri də intizamlıdır. İntizam tərbiyəsi əxlaq tərbiyəsinin qiymətli, əhəmiyyətli və vacib keyfiyyətidir. Belə ki, intizam insanın bütün fəaliyyətinin ilk göstəricisidir. Ona görə də hələ tərbiyənin ilk mərhələsində onun səmərəli şəkildə formalaşmasına ciddi fikir verilir. İntizam yaşından asılı olmayaraq hər kəsin özünün–özünə rəhbərliyi, fəaliyyətinin şüurlu istiqamətidir.

Humanizm mühüm əxlaqi keyfiyyətdir. Bu, başqa insanlara, onların əməyi, fəaliyyəti, şəxsiyyətinə hörmət üzərində qurulur. Şəxsiyyətin hərtərəfli inkişafı şərtlərindən biri də humanistlikdir. Humanizm dedikdə həm də başqa insanların xoşbəxtliyi uğrunda mübarizə, onların istedad, bacarıq və yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması, inkişafı üçün şərait yaratmaq,

insanlar arasında səmimi münasibətlər yaratmaq da başa düşülür. Humanist münasibətlər bütün insanlara ictimai mövqeyindən asılı olmayaraq bərabər hüquqlu şəxslər kimi baxmaq; insanların ehtiyaclarına diqqətli olub onlara kömək etmək; insanların qəlbinə dəyməmək – onlara qarşı diqqətli olmaq; başqalarını anlamaq, başa düşmək bacarığı və hövsələsi; zəifləri müdafiəyə hazır olmaq və s. daxildir. Bu münasibətlər insanların bütün həyat boyunca onlara aşılanmalıdır. Humanizmin əsasını başqalarına hörmət və qayğıkeşliklə yanaşmaq təşkil edir.

Humanizmin mühüm tərkib hissələrindən biri də zəifləri müdafiə etməkdir. Bu uşaqlarda kiçik yaşlarından başlanır və əvvəlcə heyvanları, bitkiləri qoruma, göcalara, analara kömək formalarından başlayaraq getdigcə mürəkkəbləşən işlər şəklində aparılır.

Cəmiyyətin inkişafı, qanunauyğunluqları, hadisələrin başvermə səbəbləri, hərəkətverici mexanizmi haqqında dialektik və metafizik inkişaf konsepsiyası mövcuddur. Təbii ki, insan-fərd bir varlıq kimi inkişaf edərək formalaşır. Bir çox görkəmli dünya alimləri fərdin inkişafına irsiyyət nöqteyi-nəzərindən yanaşmaqda haqlıdırlar. İnkişaf təbiət və cəmiyyət hadisələri ilə bağlıdır və hərəkətlə, tərəqqi ilə, yaradıcılıqla səciyyələnir. Bu, eyni zamanda mühit və tərbiyə ilə də şərtlənir. İnsanın inkişafı deyərkən 3 mühüm əlamət-fiziki anatomik-fizioloji inkişaf, yəni insanın bioloji fərd kimi inkişafı, psixoloji inkişafı və sosial inkişaf, insanın vətəndaş-şəxsiyyət kimi yetişməsi nəzərdə tutulur.

Bu əlamətlər ayrılıqda xüsusi kəmiyyət və keyfiyyət dəyərlərinə malikdir. Psixoloji inkişafa insanın idrak prosesinin, duyğuların, qavrayış və təsəvvürün, nəticə və təxəyyülün, diqqətin, nitq və təfəkkürün, hafizə və iradənin, necə təşəkkül tapması daxildir. İnsanın sosial inkişafı, onun cəmiyyətdəki iştirakı konkret adamlar və kollektiv üzvləri ilə münasibətdə özünü göstərir, ətraf aləmdə cərəyan edən hadisələrin müşahidəçisinə çevirir. Buna görə də insanın inkişafından danışarkən şəxsiyyət anlayışı önə çəkilir. Bu dəyərlər insanları mənəvi-sosial həyatda formalaşdırır və onları şəxsiyyət statusuna yüksəldir. Beləliklə, şəxsiyyət, onun maraqlarının və meyillərinin, temperamentlərinin funksional xüsusiyyətləri nəticəsində əmələ gəlmiş fərdi fərqlər sayəsində həyatda fəal mövqe tutur. İnsan dünyaya bioloji varlıq kimi gəlir, lakin bir şəxsiyyət kimi özünün fərdi həyatı və fəaliyyəti prosesində uzun və mürəkkəb yol keçərək yetkinləşir.

Hazırda cəmiyyətin qarşısında duran vəzifələrin yerinə yetirilməsi xeyli dərəcədə fəal və hərəkətli inkişaf etmiş şəxsiyyətin formalaşdırılması prosesinin səmərəliliyindən asılıdır. Şəxsiyyətin inkişafı ilə əlaqədar olaraq yalnız bugünkü təcrübənin deyil, həm də pedaqoji fıkrin zəngin ideyalarını nəzərə almaq lazımdır. Azərbaycan maarifpərvərləri şəxsiyyətin ən müsbət cəhətlərini onun cəmiyyətdəki münasibət və fəaliyyətində axtarmışlar, çünki münasibətlər insanın həyat təcrübəsinin nəticəsi olmaqla onun hərəkətlərini və daxili hisslərini müəyyənləşdirir.

Nəticədə insanın bir şəxsiyyət kimi formalaşması prosesinə təsir edən amillər haqqında müxtəlif fikirlər meydana gəlmişdi. Əsrlər, min illər boyu bu amillər içərisində üstünlük irsiyyətə verilmiş və belə bir fikir irəli sürülmüşdür ki, valideynlərdə müsbət və mənfi nə varsa övladlara keçir. İrsiyyət nəzəriyyəsinin hakim olduğu dövrlərdə zəka sahibləri həmin nəzəriyyəni qəbul etməklə yanaşı, tərbiyəyə böyük əhəmiyyət verirdilər.

Cəmiyyət öz yerində saymır, daim inkişaf edir, tərbiyənin insan şəxsiyyətinin formalaşmasındakı rolu böyükdür. XIX əsrin utopik sosialistləri Sen Simon, Şarl Furye, Robert

Ouen tərbiyənin qüvvəsinə həddindən artıq inanır, cəmiyyəti tərbiyənin gücü ilə dəyişdirməyə ümid edirdilər. Onlar insanı mühitin passiv, aciz məhsulu kimi qiymətləndirirdilər. XIX əsrdə yaşamış rus demokratları Çernışevski, Belinski, Dobrolyubov, Pisarev insan şəxsiyyətinin formalaşmasında tərbiyənin böyük rol oynadığını qeyd edirdilər. Onların fikrincə, yalnız şəxsiyyətin deyil, dövlətin, cəmiyyətin, ölkənin də taleyi gənc nəslin düzgün tərbiyəsindən asılıdır. Belinski yazırdı ki, həm həyat, həm ölüm, həm xilas olmaq, həm də məhv olmaq tərbiyədən asılıdır.

Hazırda təlim prosesinin pedaqogika və psixologiya elmlərinin nailiyyətlərindən istifadə edilir. Şəxşiyyətin inkişafına təsir göstərən ictimai institutlardan, təlim-tərbiyə müəssisələrindən, məktəbdənkənar uşaq müəssisələrindən, mədəni-maarif ocaqlarından, ictimai təşkilatlardan, KİV-dən, cəmiyyətin əsas hüceyrəsi olan ailədən geniş şəkildə istifadə edilməsi tərbiyəvi təsir imkanlarını genişləndirir. Şəxsiyyətin formalaşmasında ailənin rolu böyükdür. Ailə insan üçün mədəni-məişət şəraiti yaradır, emosional həyat sahəsinə təsir edir, ilk sosial və mədəni təsəvvürlərin formalaşmasında, xarakterin təşəkkülündə vasitə rolunu oynayır.

Daxili ziddiyyətlər şəxsiyyətin formalaşdığı bütün mərhələlərdə insanda yeni yaranmış tələbatları ödəmək vasitəsinin məhdudluğudur. Məhz bu ziddiyyət uşağı ilk yaşdan fəallığa təhrik edir. Uşaqların müstəqilliyə can atması yaşlılar arasında bəzən narahatlıq yaradır. Düzgün tərbiyə belə ziddiyyətləri asanlıqla aradan qaldırır, uşaqlarda müstəqilliyin inkişafına kömək edir. Əks təqdirdə, intizamın pozulması halları baş verir, mübahisə və digər neqativ vəziyyətlər yaranır. Tərbiyəçinin vəzifəsi şəxsiyyətin daxili qüvvələrini stimullaşdırmaqdan və onlara düzgün istiqamət verməkdən ibarətdir.

Təlim-tərbiyə milli dəyərlərimiz olan adət-ənənələrə uyğun əsas keyfiyyətləri insanın inkişafında formalaşdırır. Cəmiyyətdə yeni nəslin milli adət-ənənələrimiz ruhunda tərbiyə edilməsi hərtərəfli mənəvi keyfiyyətlərin formalaşmasında mühüm rol oynayır. Gəncləri milli adət-ənənələrimiz ruhunda tərbiyə etmək, onları mərd və cəsur tərbiyə etmək deməkdir.

Şəxsiyyətin inkişafında tərbiyə amili mühüm əhəmiyyət kəsb edir. Hələ antik dövrün filosofu Platon deyirdi ki, insanı düzgün tərbiyə etsək o ən sakit və ilahi məxluq olar. Əgər onu düzgün tərbiyə etməsən o yer üzərində olan heyvanların ən vəhşisi olar. O deyirdi ki, dövlətin gücü insanların tərbiyəsində aslıdır. İlk dəfə fitri qabiliyyətlər nəzəriyyəsinə zərbəni C. Lokk vurmuşdu. O, “Ağ lövhə nəzəriyyəsini irəli sürərək demişdir ki, insan doğularkən Ağ lövhə kimi doğulur. Bu lövhəyə nə yazılarsa insanda elə inkişaf edəcək. O hesab edirdi ki uşaq dünyaya nə şair, hə həkim, nə də ağa kimi gəlir, irsən uşağa heç nə verilmir. C. Lokk uşağı axar çaya tərbiyəni isə bəndlərə bənzədirdi. Axar çayin qarşısına bəndlər vurub onun istiqamətini dəyişmək mümkün olduğu kimi tərbiyə vasitəsilə də insan xarakterini istənilən səmtə yönəltmək olar. Uşağın bir şəxsiyyət kimi inkişafında tərbiyənin mühüm təsir qüvvəsinə malik olması haqqında görkəmli psixoloq S.A.Rubinşteynin fikirləri maraqlıdır. O göstərmişdir ki, tərbiyə və inkişaf bir vahid prosesin iki tərəfidir. Uşaq təlim-tərbiyə ala-ala inkişaf edir və inkişaf edə-edə təlim və tərbiyə alır. Bu mürəkkəb prosesdə uşağın özünün fəallığı kimi yeni amil ortalığa çıxır. Psixoloq A.N.Leontyevin obrazlı ifadəsinə görə, şəxsiyyət iki dəfə doğulur. Şəxsiyyət birinci dəfə məktəbəqədər yaş dövründə doğulur. Psixoloji baxımdan birinci dövrdə şəxsiyyətin “təvəllüd tarixi” əsasən 3 yaşında uşağın özünə “Mən” deməsilə başlayır. Şəxsiyyət ikinci dəfə yeniyetməlik yaşı dövründə doğulur.

Bu dövrdə şagirdin bir şəxsiyyət kimi formalaşması prosesində mənlik şüuru əxlaqi şüurla qarşılıqlı əlaqədə inkişaf edir. Mənlik şüuru və əxlaqi şüur - şəxsiyyətin “Mən-konsepsiyası” mahiyyətcə bu ölçülərə söykənir. Onun başqa insanlara, əməyə, özünə münasibətləri sistemli şəkildə formalaşmağa başlayır. Şagirdin davranış və rəftarında onun məhz bu münasibətlər sistemini bilavasitə əks etdirən xarakter əlamətləri daha aydın şəkildə özünü göstərir, şagird bir şəxsiyyət kimi inkişaf edərək müxtəlif yollarla özünü təsdiq etməyə başlayır. Fəaliyyət insanın cəmiyyət və insanlar tərəfindən yerinə yetirilməsi tələb olunan, öz maraq və tələbatlarının ödənilməsinə yönələn, qarşıya qoyduğu məqsədə çatmaq üçün göstərdiyi akt və fəallıqdır. Məhz fəaliyyət prosesində şəxsiyyətin hərtətərfli inkişafı baş verir, onun ətraf aləmə münasibəti formalaşır. İnsan fəaliyyət prosesində ətraf mühiti dəyişdirir, onu yenidən, öz tələbatına uyğun qurduğu kimi, özü də dəyişir, formalaşır və inkişaf edir.

İnsan həm ətraf mühitdə, həm də təlim və tərbiyə prosesində müxtəlif fəaliyyət növlərinə cəlb olunur. Burada isə fəaliyyətə şəxsiyyətin inkişafının, tərbiyəsinin mühüm amili kimi ayrıca baxılır. İnsanın bir şəxsiyyət kimi inkişafının, mənəvi cəhətdən formalaşmasının əsas şərti onun yerinə yetirdiyi çoxplanlı, çöxyönlü fəaliyyətidir. Müxtəlif fəaliyyət növləri ilə məşğul olarkən şəxsiyyət başqa fərdlərlə və kollektivlərlə müxtəlif ünsiyyət və münasibətdə olur. Təcrübələrdən məlum olmuşdur şəxsiyyət nə qədər çox müxtəlif fəaliyyət növlərinə cəlb olunursa, nə qədər çox insan qrupları ilə, fərdlərlə ünsiyyət və münasibətdə olursa şəxsiyyətin hərtərəfli inkişafı da bir o qədər sürətlə gedir və inkişaf səviyyəsi də bir o qədər yüksək olur.

Fəaliyyətin müxtəlif növləri şəxsiyyətin formalaşmasına, inkişafına və tərbiyəsinə müxtəlif şəkildə təsir göstərir. Bu və ya digər fəaliyyət növünün müvafiq yaş dövrü üçün əsas fəaliyyət növü olub-olmaması və onun təşkil edilməsi də burada əsas rol oynayır.

Əxlaq həm ictimai münasibətlər sferası, həm də ictimai münasibətləri tənzimləmə üsuludur. Buraya əxlaqi şüur (mənəvi tərəf) və əxlaqi təcrübə daxildir.

Əxlaqi təcrübə - insanların fəaliyyəti, davranışları. O, bütün növ ictimai münasibətlərin (sosial, siyasi və s.) tərkib hissəsidir.

Əxlaq normaları. Əxlaqın tənzimləyici funksiyası vasitəsilə həyata keçirilir normalar (qaydalar, əmrlər və s.), onların köməyi ilə:

Əxlaqın qiymətləndirici xüsusiyyəti. Mənəviyyatın qiymətləndirilməsidir insanın özünə hörməti (hərəkətlərinin, kədərlərinin, təcrübələrinin qiymətləndirilməsi), in başqaları və cəmiyyət tərəfindən qiymətləndirmə insan davranışı, onun motivləri, əxlaq normalarına uyğunluğu.

Əxlaqda həqiqətin obyektiv meyarı insanın (və ya qrupun) fəaliyyətinin cəmiyyətin mənafeyinə uyğunluğudur.

Əxlaq normativdir, yəni normaları ehtiva edir. Bəs əxlaq normaları hansılardır? Məsələn, “İşə vaxtlı-vaxtında gəl”, “Dostlarınla salamlaş”, “Yeməkdən əvvəl əlini yu”, “Oğurluq etmə” kimi əxlaq normalarıdır. Bu suala əxlaqın xüsusiyyətlərini, digər ictimai şüur formalarından fərqini nəzərə alsaq, yəni əks etdirmə predmetini nəzərə alsaq cavab verə bilərik.

Əxlaq normalarıdır ümumi xüsusiyyət digər normalarla - davranışı tənzimləyirlər, lakin onların spesifikliyi yaxşılıq etmək və pisliyi dayandırmaq tələbidir. Əxlaq normalarına o və yalnız predikatın “yaxşı” (“şər”) termini və ya onun sinonimi olduğu normalar və ya növlər kimi “yaxşı”

(“pis”) termini altına daxil olan terminlər daxildir. Belə normalar, məsələn: “Elə hərəkət et ki, əməlin xeyir gətirsin”, “Vicdanla sövdələşməyə getmə”, “Ədalətli ol”, “Maraqlarınızla ictimaiyyət arasında uyğunsuzluq olduqda, marağını ictimaiyyətə tabe et”, “İnsanlara hörmət yaxşı, xeyirxah”, “Vəzifəni yerinə yetir” və s. Belə normalar əslində əxlaq normalarıdır. Əxlaq istənilən davranışa ünvanlanır, insanların həyatında hər şeylə bağlıdır. Subyekt harada işləyirsə, kiminlə ünsiyyət qurursa, harada olursa olsun, hər yerdə əxlaq normalarına əməl etməlidir.

Əxlaq norması nəyin yerinə yetirilməli olduğunu göstərir. Bir əmri, vəzifəni ifadə edir. Normlar yaxşı və şərdən əvvəl deyil, əksinə, yaxşı və şərdən xəbərdar olmaq normaların yaradılmasından əvvəl gəlir.

Əxlaq normalarının pozulması, mənəvi sanksiyalarla yanaşı, müxtəlif növ sanksiyalara səbəb ola bilər. Məsələn, əgər əsgər öz komandirinə yalan danışıbsa, o zaman bu şərəfsiz hərəkət öz şiddətinə uyğun olaraq, hərbi nizamnamə əsasında, müvafiq reaksiya ilə müşayiət olunacaq.

Əxlaq cəmiyyətdə insanların davranışlarını tənzimləyən yollardan biridir. Bu, müəyyən cəmiyyətdə qəbul edilmiş xeyir və şər, ədalətli və ədalətsiz, layiqli və ləyaqətsiz anlayışlarına uyğun olaraq insanlar arasında münasibətlərin xarakterini müəyyən edən prinsiplər və normalar sistemidir. Əxlaqın tələblərinə əməl olunması mənəvi təsir gücü, ictimai rəy, daxili inam, insan vicdanı ilə təmin edilir.

Əxlaqın xüsusiyyəti ondan ibarətdir ki, o, həyatın bütün sahələrində (istehsalat fəaliyyəti, məişət, ailə, şəxsiyyətlərarası və digər münasibətlər) insanların davranış və şüurunu tənzimləyir. Əxlaq həm də qruplararası və dövlətlərarası münasibətləri əhatə edir. Əxlaqi prinsiplər ümumbəşəri əhəmiyyət kəsb edir, bütün insanları əhatə edir, cəmiyyətin tarixi inkişafının uzun prosesində yaranmış münasibətlər mədəniyyətinin əsaslarını müəyyənləşdirir.

Əxlaq insanın mövcudluğu şəraitindən, insanın zəruri ehtiyaclarından asılıdır, lakin ictimai və fərdi şüurun səviyyəsi ilə müəyyən edilir. Cəmiyyətdə insanların davranışının digər tənzimlənməsi formaları ilə yanaşı, əxlaq bir çox şəxslərin fəaliyyətinin uyğunlaşdırılmasına xidmət edir, onu müəyyən sosial qanunlara tabe olan məcmu kütləvi fəaliyyətə çevirir.

Əxlaqın funksiyaları məsələsini araşdıraraq onun tənzimləyici, tərbiyəvi, idrak, qiymətləndirici-imperativ, istiqamətləndirici, motivasiya, kommunikativ, proqnostik və bir sıra digər funksiyalarını ayırırlar. Hüquqşünaslar üçün əsas maraq tənzimləyici və tərbiyəvi kimi əxlaq funksiyalarıdır.

Mənəvi şüur əxlaqın ünsürlərindən biridir, onun ideal, subyektiv tərəfini təmsil edir. Əxlaqi şüur insanlara müəyyən davranış və hərəkətləri vəzifə kimi təyin edir. Mənəvi şüur sosial reallığın müxtəlif hadisələrini (hərəkəti, onun motivlərini, davranışını, həyat tərzini və s.) mənəvi tələblərə uyğunluq baxımından qiymətləndirir. Bu qiymətləndirmə bəyənmə və ya qınama, tərif və ya qınama, rəğbət və düşmənçilik, sevgi və nifrətlə ifadə edilir. Mənəvi şüur ictimai şüurun bir formasıdır və eyni zamanda insanın fərdi şüurunun sahəsidir. Sonuncuda mühüm yeri insanın əxlaqi hisslərlə (vicdan, qürur, həya, peşmançılıq və s.) bağlı olan özünə hörməti tutur.

Əxlaqı yalnız əxlaqi (əxlaqi) şüura endirmək olmaz.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. A.N. Abbasov. Pedaqogika (Orta ixtisas tələbələri üçün dərs vəsaiti) Bakı, Mütərcim, 2000.

2. Ə.Ə. Ağayev. Pedaqogika. Bakı, Adiloğlu, 2006.
3. F. İbrahimov, R. Hüseynzadə Pedaqogika. Dərslik II cild. Bakı, 2013.
4. F. Allahverdiyeva, S.Tağıyeva. Pedaqogika. Dərs vəsaiti. Bakı, 2018.
5. M.İsmixanov. Pedaqogikanın əsasları. Bakı, 2017.

***Kompüter yığımı*** - *Sahibə Nəsirova, ADPU-nun Ağcabədi filialının kompüter mərkəzinin müdiri*

*Yığılmağa verilib: 12.05.2022*
*Çapa imzalanıb: 14.07.2022*
*Tiraj 50*

***ADPU-nun Ağcabədi filialının kompüter mərkəzi***

--------------------------------------------------------------------------------------------------------------------

***E-mail:*** *sahibanasirova1963@mail.ru*